DÖVLƏT İMTAHAN MƏRKƏZİ
www.dim.gov.az | www.imtahan.az | www.abiturient.az | www.mekteb.edu.az

ABİTURİYENT

№ 12
2021

2021/2022-ci

tədris ili üçün tələbə qəbulu və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının nəticələrinin elmi-statistik təhlili

CD-ROM

REDAKSİYA ŞURASI
M.M.Abbaszadə, N.Ə.Babayev, K.R.Aydazadə, F.Ş.Bədəlbəyli, G.Ç.Gəraybəyli, A.M.Paşayev, V.R.Misirov.

REDAKSİYA HEYƏTİ
M.Ə.Bədəlov (baş redaktor), İ.M.Allahverdiyev, A.H.Bağırov, G.M.Balacanova, A.H.Batıyeva, N.N.Bayramova, M.Ə.Əkbərli, V.O.Əkbərov, N.L.Əliyev, X.S.Əzimova, A.E.Həbibov, N.Z.Hüseynova, Ç.C.Xəlilov, X.Z.Kərimova, A.Ə.Qasımov, S.S.Mərdanov, O.Y.Şelaginov, H.R.Zeynalov.

Abiturient.az

"Abituriyent" jurnalının onlayn satış sistemi

Jurnalın buraxılışlarına geniş ictimaiyyətin dərin maraq göstərməsi nəzərə alınaraq onun online satış sistemi də istifadəyə verilib. Bu sistem vasitəsilə jurnalın bütün sayları və xüsusi buraxılışlarını, test kitabçaları, metodiki vəsaitlər və statistik materialları əldə etmək mümkündür. Bunun üçün istifadəçi online rejimdə jurnalın almaq istədiyi buraxılışını seçib, Visa/VisaElectron və Master/Maestro plastik kartlarından istifadə etməklə ofis və evə göndərilməsini sifariş edə bilər. Sifarişlər poçtla ünvana çatdırılır.

MÜNDƏRİCAT

2021/2022-ci TƏDRİS İLİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU VƏ ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ BURAXILIŞ İMTAHANLARININ NƏTİCƏLƏRİNİN ELMİ-STATİSTİK TƏHLİLİ

GİRİŞ 2

1. ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN BAKALAVRİAT SƏVİYYƏSİNƏ TƏLƏBƏ QƏBULU 9

1.1 Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında tələbə qəbulu 174
1.2 Ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə tələbə qəbulu 203
1.3 Dövlət və özəl ali təhsil müəssisələrinə tələbə qəbulunun müqayisəli təhlili 212
1.4 Xüsusi təyinatlı təhsil müəssisələrinə tələbə qəbulu 218
1.5 Bölgələr üzrə 2021-ci il məzunlarının qəbul imtahanlarındakı nəticələrinin təhlili 219

2. ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL 278

3. REZİDENTURAYA QƏBUL 348

4. ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU 371

4.1 Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu 371
4.2 Orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulu 386

5. ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ BURAXILIŞ İMTAHANLARININ NƏTİCƏLƏRİ 396

6. ELMİ-STATİSTİK TƏHLİLƏ ƏLAVƏLƏR 441

ƏLAVƏLƏR 485

- **Buraxılış imtahanlarında və ali təhsil müəssisələrinə qəbul imtahanlarının II mərhələsində iştirak edən nəzarətçilərin fəaliyyəti** 485
- **Dövlət İmtahan Mərkəzinin dövlət qulluğu üzrə müsahibələrə buraxılma və sertifikatlarla iş sahəsində fəaliyyəti** 502
- **Dövlət İmtahan Mərkəzinin 2021-ci il ərzində elektron informasiya sistemləri vasitəsilə dövlət qulluğu sahəsində fəaliyyətinin təhlili** 505
- **"Şagird-məzun" dövlət elektron məlumat sistemi üzrə 2021-ci ildə ümumtəhsil müəssisələrində təhsilalanların yekun attestasiyası üzrə analitik və statistik təhlil** 511
- **"Tələbə-məzun" dövlət elektron məlumat sistemi üzrə təhsil məlumatlarının emalı və analitik təhlili** 527
- **Buraxılış və qəbul imtahanlarının məzmunu ilə bağlı metodiki materialların hazırlanması, dərslik komplektlərinin elmi-metodiki monitorinqi (qiymətləndirilməsi) və hazırlıq kursları haqqında** 532
- **Xüsusi qabiliyyət imtahanlarının təhlili** 534
- **DİM-in vətəndaşlara göstərdiyi elektron xidmətlər** 538
- **DİM-də aparılan elmi-metodiki işlər və fənn seminarları haqqında statistik məlumatlar** 542
- **DİM-in beynəlxalq əməkdaşlıq və strateji inkişaf layihələrinin həyata keçirilməsi üzrə fəaliyyəti** 545
- **DİM-in ictimaiyyətin istifadəsinə verdiyi nəşrlər** 559
- **DİM 2021-ci ildə: görülmüş işlərin, tədbir və yeniliklərin xronologiyası** 566

THE SUMMARY of the "Abiturient" Journal: Issue 12 597

Biz elə etməliyik ki, gələcəkdə ölkəmizin uğurlu və uzunmüddətli inkişafını elm, biliklər, texnologiyalar müəyyən etsin. Elmi-texniki tərəqqi hər bir ölkə üçün onun gələcəyini müəyyən edən ən mühüm amildir. Xüsusilə XXI əsrdə ölkələrin gələcəyi bilavasitə təhsilin, biliklərin səviyyəsindən asılı olacaqdır. Ona görə uşaqlarımız, gənclərimiz bilikli, savadlı olmalıdırlar, dünyada gedən yenilikləri bilməlidirlər. Əlbəttə ki, müəllim heyəti də təhsilin yüksək səviyyəsini təmin etməlidir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

2021/2022-ci TƏDRİS İLİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU VƏ ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ BURAXILIŞ İMTAHANLARI NƏTİCƏLƏRİNİN ELMİ-STATİSTİK TƏHLİLİ

M.M.Abbaszadə, O.Y.Şelaginov, F.K.Əhmədov
S.A.Quliyev, E.T.Şirinov

GİRİŞ

Müasir mərhələdə təhsil, iqtisadiyyat, mədəniyyət və sosial sahələrdə həyata keçirilən islahatların nəticəsi olaraq ölkəmiz dinamik inkişaf yolu ilə inamla irəliləyir, onun beynəlxalq aləmdə nüfuzu güclənir. Respublikamızda hər bir sahədə müşahidə olunan fasiləsiz inkişaf tendensiyası özünü təhsil sektorunda da göstərir. Bu inkişafın əsasında ulu öndər Heydər Əliyevin ideyaları və həmin ideyaların işığında həyata keçirilən aydın və ardıcıl strateji kurs dayanır. Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən və icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişafa, yüksək nəticələrin əldə edilməsinə geniş imkan və şərait yaradır. Ölkəmizin qədəm qoyduğu yeni inkişaf mərhələsinin əsas hədəfləri çoxşaxəli, səmərəli və innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılması, elmin, təhsilin, mədəniyyətin və ictimai həyatın digər sahələrində yeni nailiyyətlərin əldə olunmasıdır.

Respublikamızın rəhbərliyi bunları nəzərə alaraq təhsil sisteminin inkişafına böyük önəm verir, onu dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi ön plana çəkir. Bu sahədə kompleks proqramlar həyata keçirilir. Prezident İlham Əliyev gənclərin sosial, təhsil, karyera və mədəni inkişaf məsələlərinin həllini təmin etmək məqsədilə 2005-2021-ci illəri əhatə edən 3 dövlət proqramı təsdiq etmişdir. Ölkə gənclərinin elm, təhsil, mədəniyyət və digər sahələrə yönəlmiş layihələrin reallaşdırılmasında iştirakına kömək göstərilməsi, onların fəaliyyətinin stimullaşdırılması məqsədilə 2011-ci ildə Gənclər Fondu yaradılmışdır. Sevindirici hal odur ki, ölkə rəhbəri tərəfindən bu sahəyə diqqət və qayğı ilbəil artır.

Məlum olduğu kimi, koronavirus pandemiyası 2020-ci ildən etibarən bütün dünya təhsilində böhrana səbəb oldu. Yaranmış vəziyyətdən mümkün qədər az itkilərlə çıxmaq üçün cəld və effektiv qərarların qəbul edilməsində qazanılmış bilik, bacarıq və təcrübənin böyük rolu oldu. Abituriyentlər ənənəvi olmayan qaydalarla və şəraitdə imtahan verməli oldular. Bu da, təbii ki, müəyyən çətinliklər yaratdı. Buna baxmayaraq, Dövlət İmtahan Mərkəzi qəbul kampaniyasını Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi bütün şərtlərin yerinə yetirilməsi ilə həyata keçirdi. Yaranmış böhranlı şəraitdə abituriyentlərə maksimum dəstək olmaq məqsədilə qəbul kampaniyasının bütün mərhələlərində onlara imtahana hazırlıqla bağlı lazımi kömək göstərildi. İmtahanlara hazırlığa metodiki kömək məqsədilə ilboyu silsilə tədbirlər keçirildi, o cümlədən DİM-in nəzdindəki fənlər üzrə elmi-metodiki seminarlar və ekspert şuraları xətti ilə geniş çeşiddə elmi-metodiki materiallar: fənlər üzrə qəbul proqramları, imtahana hazırlığın səmərəli yollarına dair metodiki tövsiyələr, dərsliklərdə səthi və ya natamam verilən mövzulara, yaxud məktəb proqramında olub, dərsliklərdə lazımınca şərhini tapmayan məsələlərə dair məqalələr, fənn proqramlarının çətin mövzularına dair mütəxəssis şərhləri və s. hazırlanıb abituriyentlərin istifadəsinə verildi.

Cari ildə də tarix fənni üzrə imtahan proqramına "Qarabağ uğrunda Vətən müharibəsi (İkinci Qarabağ müharibəsi)" mövzusu daxil edilmişdi. Bu mövzunun qəbul imtahanı proqramına daxil edilməsini tarixi zərurət kimi qiymətləndirmək olar. Çünki Vətən müharibəsindəki möhtəşəm uğurlar hər birimizin qürur mənbəyidir. Rəşadətli ordumuz Qarabağda ermənilərin 30 il ərzində qurduğu istehkamları qısa müddətdə darmadağın etməklə əsl qəhrəmanlıq nümunəsi göstərdi, onların süni yaratdığı məğlubedilməzlik mifi iflasa uğradı. İşğalda olan rayonlarımızın dalbadal azad edilməsi milli qürurumuzun təntənəsinə çevrilən Zəfər Gününə gedən yolu günbəgün yaxınlaşdırdı. Azərbaycan xalqı özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi. Xalqımızın əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu, Vətəni müdafiəni qeyrət simvolu kimi qiymətləndirməsi ölkəmizin qələbəsini təmin edən ən mühüm amillərdən oldu. Ermənistan hakimiyyəti kapitulyasiya aktını imzalamağa məcbur edildi.

Azərbaycan Prezidenti ordumuzun döyüş meydanındakı qəhrəmanlıq qüdrətini, siyasi müstəvidə yenilməz və qətiyyətli iradəsi ilə davam etdirdi. Tarixi Azərbaycan torpaqlarının erməni hərbi birləşmələrinin işğalından azad edilməsi Cənab İlham Əliyevin ordu quruculuğuna xüsusi diqqət və qayğısı, Vətən müharibəsində ən yeni texnologiyalara malik müzəffər ordumuzun, yüksək ixtisaslı hərbi kadr potensialının və milli təhsil sisteminin yetirmələri olan gənclərimizin qəhrəmanlığı sayəsində mümkün oldu. Qətiyyətlə deyə bilərik ki, bu tarixi qələbənin qazanılmasında ümumtəhsil müəssisələrimizdə məktəblilərin vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə təbliğ olunması da əhəmiyyətli rol oynamışdır. Zəfərimiz bir daha təsdiqlədi ki, təhsil, bilik və təcrübə, hətta ən çətin məsələləri həll edə bilən böyük gücdür.

DİM-in "Abituriyent" jurnalında, rəsmi saytımızda və sosial şəbəkələrdəki səhifələrimizdə ("Facebook", "Instagram", "Twitter" "Telegram") dərc olunan materiallar şagird və abituriyentlərin uğur qazanmağında

bələdçi oldu. Bundan başqa, COVİD-19 pandemiyasının şərtləndirdiyi mürəkkəb epidemioloji vəziyyətin və onun yayılmasının qarşısının alınmasına yönəldilmiş tədbirlərin tədris prosesinə təsirini nəzərə alaraq Təhsil Nazirliyi ilə razılaşdırılmaqla buraxılış və qəbul imtahanları fənlərinin proqramları yenidən nəzərdən keçirildi və yüngülləşdirildi. Abituriyentlərin imtahanların məzmunu, texnologiyası və təşkili haqqında məlumatlı olmağına xidmət etmək məqsədilə Mərkəz tərəfindən rəsmi materiallar, test topluları, elmi-metodiki vəsaitlər nəşr olundu, "Vizuallaşdırılmış dərs" sosial layihəsi həyata keçirildi və məqsədyönlü digər internet xidmətləri göstərildi.

Respublikamızın mövcud potensialı ölkəmizdə ali təhsil sisteminin təkmilləşdirilməsi üçün geniş imkanlar açmaqla onun iqtisadi inkişafın mühüm amilinə çevrilməsini təmin etməlidir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da ölkəmizdə insan kapitalının inkişaf etdirilməsi, onun ölkə iqtisadiyyatının qlobal iqtisadi sistemə qoşulması prosesində rəqabətqabiliyyətli olması və hər bir təhsilalanın müasir bilik, bacarıq və vərdişlərə yiyələnməsinin təmin edilməsi təhsil sisteminin başlıca vəzifəsi kimi irəli sürülür. Bu vəzifələrin həlli Azərbaycanda insan kapitalının inkişafında fasiləsizliyin (ömürboyu təhsilin) təmin edilməsi, məktəbəqədər və ümumi təhsil də daxil olmaqla, peşə təhsilli və ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, eləcə də "elm-təhsil-istehsal" əlaqələrinin təkmilləşdirilməsi istiqamətində məqsədli proqramların hazırlanması və həyata keçirilməsi davam etdirilmişdir. Daha keyfiyyətli insan kapitalının formalaşdırılması maddi və mənəvi fayda əldə etməyə və rəqabətqabiliyyətliliyi yüksəltməyə imkan verəcəkdir. Ali təhsil müəssisələrində hazırlanan mütəxəssislər dövlətin və şirkətlərin idarə olunmasında, iqtisadi artımda və əmək məhsuldarlığının yüksəldilməsində fəal iştirak edirlər. Bunu nəzərə alaraq, Azərbaycanda iqtisadi və sosial baxımdan daha səmərəli ali təhsil sisteminin formalaşdırılması prioritet istiqamətlərdən biri olmalıdır. Bu, müasir dünyada gedən qloballaşma, rəqabət və informasiya cəmiyyəti quruculuğu proseslərində yüksək peşəkarlıqla çalışa biləcək kadr potensialının yetişdirilməsi üçün çox vacibdir.

Dövlətin təhsil siyasətini həyata keçirən qurumlardan biri kimi Dövlət İmtahan Mərkəzi (DİM) Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi dövlət proqramları, verdiyi fərman və sərəncamlardan irəli gələn vəzifələri yerinə yetirmək üçün davamlı və məqsədyönlü iş aparır. 2021-ci ildə tələbə qəbulu kampaniyasının və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının təşkili və keçirilməsi ilə əlaqədar görülmüş işlər də bu fəaliyyətin tərkib hissəsidir.

2021/2022-ci tədris ili üçün respublikanın ali təhsil müəssisələrinə tələbə qəbulu DİM tərəfindən "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu qaydaları"na əsasən aparılıb. Qəbul qaydalarına uyğun olaraq, respublikanın bütün mülki ali təhsil müəssisələrinə, xüsusi təyinatlı ali təhsil müəssisələrinə tələbə qəbulu mərkəzləşdirilmiş qaydada keçirilib.

Azərbaycanda koronavirus pandemiyasının təsirlərini nəzərə alaraq 2020-ci ildən etibarən ali təhsil müəssisələrinə qəbul prosesində və imtahanlarında bir sıra dəyişikliklər tətbiq edilmişdir:

- imtahan verənlərin rahatlığını təmin etmək və virusa yoluxma təhlükəsini azaltmaq üçün imtahanlar yalnız rayon mərkəzlərində deyil, ucqar kənd məktəblərində də keçirilmişdir;
- imtahan mərkəzlərinin sayı iki dəfədən çox artırılmışdır;
- imtahan mərkəzləri iki gün əvvəldən dezinfeksiya olunmuş, möhürlənərək mühafizə olunması üçün DİN-in rayon (şəhər) şöbələrinin (idarələrinin) əməkdaşlarına təhvil verilmişdir;
- imtahan verənlər binalara ayrı-ayrı saat intervallarında dəvət edilmişdir;
- binalara buraxılışı təmin edən şəxslər xüsusi geyim forması, maska, sipər və əlcəklə, bütün imtahan iştirakçıları isə tibbi maska ilə təmin olunmuşdur;
- girişdə imtahan iştirakçılarının hərarəti ölçülmüşdür;
- şagirdlərin hər partada bir nəfər olmaqla, 2 metr məsafə gözlənilməklə əyləşdirilməsi təmin edilmişdir.
- hər bir imtahan iştirakçısının imtahana gələrkən təqdim etməsi tələb olunan sənədlərinin siyahısına sağlamlıq haqqında bəyannamə də əlavə olunmuşdur.
- bəzi mövzular üzrə test tapşırıqlarından qəbul imtahanlarında istifadə edilməmişdi. Bu mövzular buraxılış siniflərində mart ayından sonra tədris olunan mövzular idi;
- imtahanda bacarıq və vərdişlərin qiymətləndirilməsi üçün abituriyentlərə yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqların sayı azaldılmışdı;
- yazı işlərini qiymətləndirən markerlərin işi onlayn rejimdə təşkil olunmuşdu;

- buraxılış imtahanlarının keçirilmə tarixləri iştirakçıların sayını məhdudlaşdırmaq məqsədilə artırılmışdı;
- qəbul imtahanının II mərhələsi yalnız bir sessiyadan ibarət olmuşdu, yəni abituriyentlər qəbul imtahanının II mərhələsində yalnız bir dəfə iştirak edə bilərdilər;
- V ixtisas qrupunda bəzi qabiliyyət imtahanı tələb edən ixtisaslar üzrə qabiliyyət imtahanları keçirilməmiş, abituriyentlər qəbul imtahanının birinci mərhələsinin (cari ilin məzunları üçün tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanın) nəticələrinə əsasən müsabiqədə iştirak etmişlər;
- "İmtahanın nəticəsi ilə bağlı elektron apelyasiya" sistemi və "Onlayn növbə" sistemi qısa müddət ərzində tərtib edilərək istifadəyə verilmişdir.

2021/2022-ci tədris ili üçün respublikanın ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul qaydaları, qəbul proqramları, xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul elanları hələ ilin əvvəlində "Abituriyent" jurnalının 1-ci sayında dərc edilərək ictimaiyyətə çatdırılmışdır. Eyni zamanda, burada bütün fənlər üzrə test modelləri təqdim edilmişdi ki, abituriyentlərin qəbul imtahanlarında hansı tipli və hansı mürəkkəblik dərəcəsinə malik test tapşırıqlarının təklif ediləcəyi barədə əvvəlcədən təsəvvürləri olsun.

Qəbul imtahanlarına müstəqil şəkildə (repetitor xidmətindən istifadə etmədən) hazırlaşanlara kömək məqsədilə təcrübəli ekspertlərin internet vasitəsilə imtahan fənləri üzrə video-məsləhətləri təşkil edilmiş, abituriyentlərin cavab verməkdə çətinlik çəkdikləri test tapşırıqlarının izahı verilmiş, yol verdikləri səciyyəvi səhvlər araşdırılmışdır. "Videomühazirə" adlanan bu layihənin ikinci mərhələsində bütün fənlər üzrə qəbul proqramlarının mövzularını əhatə edən mühazirələr nümayiş etdirilmişdir. Videomühazirələri tanınmış mütəxəssis-ekspertlər təqdim etmişlər. Layihədə bölgələrin qabaqcıl və təcrübəli müəllimləri də iştirak etmişlər. Mühazirələrdə nəzəri materiallar test tapşırıqlarının həlli ilə müşayiət olunmuşdur.

İmtahanların məzmunu formalaşdırılarkən ənənəvi test tapşırıqları ilə yanaşı, yeni tipli – yazılı şəkildə cavablandırılması tələb olunan situasiya, mətn və yaxud mənbə əsasında hazırlanan tapşırıqlar da tətbiq olunmuşdur. Şagird və abituriyentlərin yeni tipli test modelləri haqqında təsəvvürlərini genişləndirmək və bunlarla işləmək vərdişlərini inkişaf etdirmək üçün belə tapşırıqların fənlər üzrə nümunələri ilin əvvəlində "Abituriyent" jurnalında dərc olunmuş, sınaq imtahanlarında yoxlamadan keçirilmişdir. Belə tapşırıqlar abituriyentlərin bilik və bacarıqlarının hərtərəfli üzə çıxarılmasına, əldə olunmuş biliklərin praktikada tətbiqi mexanizmlərinin inkişaf etdirilməsinə, mənimsəmənin dörd səviyyəsinin: bilik, anlama, tətbiqetmə və bacarığın yoxlanılmasına, xüsusilə də qiymətləndirmədə yüksək hazırlıqlı abituriyentlərin fərqləndirilməsinə imkan vermişdir.

Sual kitabçaları hər bir abituriyent üçün xüsusi avtomatlaşdırılmış xətt vasitəsi ilə (bu xətt xüsusi olaraq imtahanlar üçün sual kitabçalarının çapı və komplektasiyasını həyata keçirmək üçün layihələndirilmişdir) fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib.

DİM-in Naxçıvan, Gəncə, Şəki, Lənkəran, Xaçmaz, Göyçay, Şirvan, Şəmkir və Bərdə şəhərlərində fəaliyyət göstərən regional bölmələrinin xətti ilə görülən işlərin həcmi xeyli artmışdır. Bölmələrin səmərəli fəaliyyəti sayəsində rayonlarda çalışan müəllimlər yalnız təşkilati tədbirlərə deyil, elmi-metodiki işlərə də cəlb edilmişlər. Beləliklə, respublika üzrə bu sahəyə marağı olan müəllimlər üçün geniş imkanlar yaradılır. Bütün bunlar qəbul kampaniyasının keyfiyyətinə də müsbət təsir göstərir.

Qəbul imtahanlarına hazırlıq ərəfəsində gənclərin öz bilik səviyyələrini yoxlamaları, test imtahanının texnologiyasına bələd olmaları və imtahana psixoloji cəhətdən alışmaları üçün respublikanın bütün bölgələrini əhatə etməklə sınaq imtahanları keçirilib. Bu imtahanlar qəbul imtahanlarının texnologiyasına uyğun təşkil olunmuşdur. Eyni zamanda, DİM tərəfindən abituriyentlərin istədikləri vaxt fərdi qaydada internet vasitəsilə sınaq imtahanından keçməsi üçün xüsusi proqram hazırlanmışdır.

Həmçinin imtahanlara hazırlaşanlar və tədris prosesində istifadə üçün 4-11-ci sinif dərsliklərinin hər bir tədris vahidi (8 800 tapşırıq), hər bir mövzusu (28 535 tapşırıq) üzrə onlayn sınaq variantları, eləcə də buraxılış və qəbul imtahanlarında tətbiq edilən tapşırıq modellərinə uyğun 3 onlayn sınaq variantları hazırlanıb və otk.az. portalında yerləşdirilib.

Xüsusi qabiliyyət tələb edən ixtisasları seçən abituriyentlərə elmi-metodiki kömək məqsədilə "Xüsusi qabiliyyət imtahanları" jurnalının 1-ci və 2-ci nömrələri nəşr edilmişdir. Jurnalın 1-ci nömrəsində ali təhsil, 2-ci nömrəsində isə orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarının yığcam xarakteristikası, ixtisaslar üzrə kadr hazırlığı aparan təhsil müəssisələri haqqında məlumatlar, bu ixtisaslar üzrə müsabiqə şərtləri, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları, imtahanlara

hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, çalışmalar, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər, cədvəllər, normativlər, bir sözlə, burada xüsusi qabiliyyət tələb edən ixtisasları seçənlərin marağına uyğun olan, sorğularına aydınlıq gətirən, imtahana hazırlaşmalarına fayda verə bilən ən zəruri materiallar dərc edilmişdir.

İmtahan rəhbərləri və nəzarətçiləri imtahanlara hazırlaşdırmaq istiqamətində həm respublika paytaxtında, həm də ayrı-ayrı bölgələrdə çoxsaylı tədbirlər həyata keçirilib. İmtahan rəhbərləri bazasının zənginləşdirilməsi məqsədilə AMEA-nın elmi-tədqiqat institutları, eləcə də bir sıra dövlət qurumlarının nümayəndələri imtahanlarda rəhbər qismində iştirak etməyə cəlb olunmuşdur. Bazaya ilk dəfə daxil edilən imtahan rəhbərləri ilə xüsusi seminar-məşğələlər keçirilib. Təlimata uyğun təcrübə və səriştə əldə etmələri üçün onlar öncə sınaq, sonra qəbul imtahanlarında iştirak ediblər.

İşə vicdanla yanaşan, səriştəli və məsuliyyətli müəllimlər hesabına nəzarətçilər bazasının zənginləşdirilməsinə də xüsusi diqqət yetirilib. Yanvar ayından etibarən Bakı şəhəri ilə yanaşı, ölkənin digər bölgə mərkəzlərində də nəzarətçi-müəllimlərlə seminar-məşğələlər təşkil olunub. Seminar-məşğələlərdə müəllimlərə qəbul imtahanı prosesinin idarə olunması hərtərəfli izah edilib, imtahan texnologiyasına aid öyrədici film nümayiş etdirilib.

İlin ilk aylarından etibarən həm paytaxtda, həm də bölgələrdə imtahan üçün nəzərdə tutulan 100-dən çox binaya baxış keçirilmiş, onların imtahana yararlılıq səviyyəsi yoxlanılmış, texniki pasportları dəqiqləşdirilmiş, mövcud çatışmazlıqların aradan qaldırılması üçün aidiyyəti qurumlarla birgə iş aparılmışdır. İmtahan binaları haqqında yenilənmiş məlumat "İmtahan yerləri bazası"na daxil edilmişdir. İmtahan keçirilən binaların təhlükəsizlik baxımından yoxlanılması üçün lazımi tədbirlər həyata keçirilmişdir.

Dövlət İmtahan Mərkəzi tərəfindən göstərilən həm elektron, həm də ödənişli xidmətlərdən faydalanmaq istəyən hər bir istifadəçi (abituriyent, bakalavr, namizəd) şəxsi kabinet yaratmışdır. Şəxsi kabinet bir dəfə yaradılır və daim istifadə edilir. İstifadə edilmiş xidmətlər, imtahan nəticələri və digər məlumatlar istifadəçinin şəxsi kabinetində öz əksini tapır. Kabinet yaradılan zaman onun pul hesabı da açılır. Hesaba lazımi miqdarda vəsait əlavə etmək üçün müxtəlif ödəniş üsullarından yararlanmaq olar. Vəsait DİM tərəfindən göstərilən xidmətlərin ödənilməsi üçün istifadə edilir.

Tam və ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə müsabiqə cari ilin məzunları üçün buraxılış imtahanının nəticələri əsasında, əvvəlki illərin məzunları üçün isə buraxılış imtahanı qaydasında keçirilən qəbul imtahanının nəticələri əsasında aparılmışdır.

Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında ixtisas seçimi ali təhsil müəssisələrinin boş qalan yerlərinə ərizə qəbulu ilə eyni vaxtda – sentyabrın 6-dan 10-dək aparılmışdır. Abituriyentlərə eyni zamanda həm ali təhsil müəssisələrinin boş qalan yerlərinin, həm də orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının müsabiqəsində iştirak etmək imkanı verilmişdi. Abituriyentlər öz ərizələrində hər iki təhsil pilləsindən 20-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstərə bilərdilər.

Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün ərizə qəbulu fevralın 22-dən martın 11-dək internet vasitəsilə aparılıb. Qəbul aparılan ixtisasların siyahısı və plan yerləri haqqında məlumat "Abituriyent" jurnalının 3-cü nömrəsində təqdim olunub.

Respublikanın ümumtəhsil müəssisələrində ümumi orta (9 illik) və tam orta (11 illik) təhsil səviyyələri üzrə buraxılış imtahanları tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər üçün - Azərbaycan dili, riyaziyyat və xarici dil fənləri üzrə, tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər üçün - rus dili, riyaziyyat və xarici dil fənləri üzrə DİM tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilmişdir. Hər iki təhsil səviyyəsi üzrə keçirilən imtahanlarda şagirdlərə ümumilikdə 85 test tapşırığı təqdim edilmişdir. "Abituriyent" jurnalının xüsusi buraxılarında müvafiq olaraq buraxılış imtahanı proqramları və test tapşırığı nümunələri ictimaiyyətə çatdırılmışdır.

Buraxılış imtahanlarının mütəşəkkil qaydada keçirilməsi məqsədilə "Şagird–məzun" sistemi üzrə buraxılış imtahanlarında iştirak edəcək şagird kontingentinin seçilməsi, imtahan mərkəzlərinin müəyyənləşdirilməsi, imtahan rəhbərləri və zal nəzarətçilərinin imtahanlara hazırlığı, test bankının zənginləşdirilməsi, proqram təminatının hazırlanması, eləcə də təşkilati işlər istiqamətində geniş hazırlıq işləri görülmüşdür. İmtahanlar regionlar üzrə qruplaşdırılaraq ayrı-ayrı günlərdə keçirilmişdir. Şagirdlərin rahatlığının təmin olunması üçün imtahanlar yalnız rayon mərkəzlərində deyil, ucqar kənd məktəblərində də keçirilmişdir.

Məlum olduğu kimi, buraxılış və qəbul imtahanları kurikulumlar əsasında keçirilir. Bunu nəzərə alaraq DİM-də kurikulumlar əsasında qiymətləndirmə materiallarının hazırlanması, ekspertizası və yoxlanılması ilə

bağlı imtahan fənləri üzrə hazırlıq kursları təşkil edilmişdir. Kurslarda elektron qeydiyyatdan keçmiş müəllimlər, metodistlər və pedaqoji yönümlü ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin müvafiq fənn üzrə təhsil alan axırıncı kurs tələbələri və həmin müəssisələrdə təhsil alan magistrlər iştirak etmişlər. Gələcəkdə həmin şəxslər tapşırıq müəllifi, ekspert və imtahan materialların yoxlanılmasında marker kimi Dövlət İmtahan Mərkəzi ilə əməkdaşlıq edə biləcəklər.

Ali və orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu bu il də internet vasitəsilə aparılmışdır. Bu üsul ərizə təqdimetmə prosedurunu sadələşdirməklə bərabər, abituriyentlər tərəfindən buraxıla biləcək məntiqi səhvlərin qarşısını almağa da imkan yaratmışdır. Beləliklə, abituriyentlər DİM-in müəyyən etdiyi müddət ərzində özləri barədə tələb olunan məlumatları göstərməklə "Elektron ərizə" doldurmuşlar. Ərizə qəbulu elanının tam mətni və "Şəxsi kabinet"in yaradılması və istifadə qaydası "Abituriyent" jurnalının 2021-ci il 2-ci sayında ictimaiyyətə çatdırılmışdır.

Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, müsabiqə şərtləri, qəbul aparılan ixtisasların planı, o cümlədən dövlət sifarişi üzrə qəbul aparılan yerlərin proqnozu "Abituriyent" jurnalının 4-cü sayında verilmişdir. Proqnozda qəbul aparılan ixtisasların siyahısı, yerlərin sayı və dövlət sifarişinin yerinə yetirilməsində iştirak edən ali təhsil müəssisələrinin adları təqdim olunmuşdur. Hər ixtisas qrupunun imtahan vaxtından bir neçə gün əvvəl abituriyentlərə internet vasitəsilə "İmtahana buraxılış vərəqələri" əldə etmək imkanı yaradılmışdır.

Koronavirus pandemiyası ilə əlaqədar tədbirlər çərçivəsində 2021-ci ildə ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə qəbul imtahanlarının ikinci mərhələsi 2020-ci ildə olduğu kimi yalnız bir dəfə keçirilmişdir. İmtahanlarda kütləviliyin və təmas hallarının qarşısını almaq məqsədilə hər bir ixtisas qrupu üzrə imtahanlar müxtəlif imtahan mərkəzlərində ayrı-ayrı günlərdə keçirilmiş, hətta abituriyentlərin sayının çox olması nəzərə alınaraq I ixtisas qrupu üzrə imtahanlar 2 gündə təşkil olunmuşdur. İmtahanların ikinci mərhələsi III ixtisas qrupunun abituriyentləri üçün iyulun 14-də, II ixtisas qrupunun abituriyentləri üçün iyulun 15-də, I ixtisas qrupunun abituriyentləri üçün iyulun 27-də və 28-də, IV ixtisas qrupunun abituriyentləri üçün isə iyulun 28-də keçirilmişdir. V ixtisas qrupu üzrə ali təhsil müəssisələrinin ixtisasları üzrə müsabiqədə abituriyentlər yalnız qəbul imtahanlarının birinci mərhələsinin (cari ilin məzunları üçün buraxılış imtahanının) nəticələrinə əsasən iştirak etmişlər.

Abituriyentlərin və valideynlərin rahatlığının təmin edilməsi, eyni zamanda kütləviliyin qarşısının alınması məqsədilə DİM bütün ixtisas qrupları üçün qəbul imtahanlarını ölkənin 22 bölgə mərkəzində təşkil etmişdir. Keçirildiyi yerdən asılı olmayaraq bütün hallarda imtahanın keyfiyyətinin dövlət standartlarına uyğun olması təmin edilmişdir.

Bütün abituriyentlər üçün ixtisas seçimi və müsabiqə eyni vaxtda – ali təhsil müəssisələrinə bütün qəbul imtahanları başa çatdıqdan sonra keçirilmişdir.

Müxtəlif təyinatlı imtahanlarda Daxili İşlər Nazirliyi, "Azərbaycan Hava Yolları" Dövlət Konserni, Səhiyyə Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının peşəkarlığı imtahanların mütəşəkkil keçirilməsində mühüm rol oynamışdır.

Hər ixtisas qrupu üzrə qəbul imtahanı keçirildikdən sonra abituriyentlərin imtahan balları internet vasitəsilə elan edilmiş, onların düzgün ixtisas seçiminə kömək məqsədilə hər bir ixtisas qrupunun abituriyentləri üçün «İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?» adlı vəsait çap edilmişdir. Vəsaitdə təhsil formaları (dövlət sifarişli və ödənişli), Azərbaycan və rus bölmələri üzrə ayrılıqda və hər iki bölmənin birgə müsabiqəsinə aid qəbul planları verilmiş, müsabiqəyə buraxılma şərtləri, eyni zamanda, müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan nəticələrinin bal intervalları üzrə paylanmasına dair məlumatlar təqdim olunmuşdur.

Abituriyentlərin ixtisas seçimi zamanı düzgün istiqamət götürmələrinə kömək məqsədilə ali və orta ixtisas təhsili müəssisələrinə ötənilki qəbul imtahanlarında formalaşmış keçid balları haqqında məlumatlar da ayrıca vəsaitlərdə təqdim edilmişdir. Abituriyentlərə ixtisas seçimi zamanı "Bakalavr ixtisasları" adlı vəsaitlərdən yararlanmaq da tövsiyə olunmuşdur. Bu vəsaitlərdə hər bir ixtisas üzrə kadrların hansı təhsil müəssisəsində hazırlanması, ixtisasın xarakteristikası, təyinatı, bu və ya digər ixtisas üzrə hazırlanan bakalavrlara təhsil müddətində tədris edilən peşə-ixtisas fənləri, həmin fənlər əsasında öyrədilən ixtisas bilik və bacarıqları şərh olunmuş, onların gələcək fəaliyyətinin əsas sahələri və iş yerləri barədə məlumat verilmişdir.

Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək hüququ qazanmış abituriyentlər avqustun 20-dən 30-dək internet vasitəsilə ixtisas seçimi etmişlər. Abituriyentlər qəbul qaydalarına əsasən imtahan verdikləri ixtisas qrupuna (qruplarına) aid 15-dək ixtisas kodunu seçə bilərdilər.

Ali təhsil müəssisələrinə müsabiqə və yerləşdirilmənin nəticələri ictimaiyyətə həm "Abituriyent" jurnalı, həm internet, həm də mobil operatorlar – "Azercell", "Bakcell" və "Nar Mobile"-ın müvafiq xidmətlərindən istifadə yolu ilə elan edilmişdir. Jurnalda qəbul olanların siyahısı ilə yanaşı, təhsili həm ödənişli əsaslarla, həm də dövlət sifarişi əsasında olan yerlərə qəbul aparılan ixtisasların minimal keçid balları, dövlət sifarişi üzrə qəbul olan abituriyentlərin ali təhsil müəssisələri və ixtisaslar üzrə paylanması, müsabiqənin birgə aparıldığı ixtisaslar üzrə plan yerlərinə Azərbaycan və rus bölmələrindən qəbul olan abituriyentlərin sayı haqqında məlumatlar, ali təhsil müəssisələrinin müvafiq ixtisaslarına müsabiqədənkənar (test və qabiliyyət imtahanlarından azad olunmaqla) qəbul olmaq hüququna malik olan abituriyentlərin siyahısı təqdim olunmuşdur.

2021-ci ildə respublikanın ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə keçirilən qəbul imtahanlarında 67 min 717 nəfər abituriyent iştirak etmişdir. Abituriyentlərdən 1861-i 600 və daha çox bal toplamışdır. Yüksək ballılar respublikanın, demək olar, bütün şəhər və rayonlarını, o cümlədən bəzi kənd məktəblərini təmsil edir. Yüksək nəticə göstərənlər I qrupda 640, II qrupda 196, III qrupda 617, IV qrupda 408 nəfərdir.

DİM ali təhsilin ikinci səviyyəsi olan magistratura səviyyəsinə qəbul imtahanının məzmununun və qiymətləndirmə mexanizminin təkmilləşdirilməsi işlərini cari ildə də davam etdirmişdir. Bakalavrlara kömək məqsədilə "Magistr" xüsusi buraxılışının saylarında qəbul proqramları, qəbul qaydaları və elanları, ixtisas seçiminə dair tövsiyələr və cədvəllər, test tapşırığı nümunələri, aparılmış müsabiqənin nəticələri, keçid balları və digər zəruri məlumatlar çap olunmuşdur.

Qəbul imtahanına hazırlıq ərəfəsində bakalavrların öz bilik səviyyələrini yoxlamaları və imtahan tapşırıqlarının modelinə bələd olmaları üçün internet vasitəsilə sınaq imtahanı keçirilmişdir. 2021-ci ildə magistraturaya qəbul bir mərhələdə aparılmışdır. İlk dəfə olaraq cari ildə bakalavrlara magistraturaya qəbul imtahanında 2 dəfə iştirak etmək imkanı yaradılmışdır – 1-ci cəhd üçün ərizə qəbulu 2021-ci il fevralın 9-dan 18-dək, 2-ci cəhd üçün isə aprelin 30-dan mayın 8-dək internet vasitəsilə aparılmışdır. Magistraturaya qəbul imtahanı (1-ci cəhd fevralın 23-də, 2-ci cəhd mayın 26-da) Bakı, Naxçıvan, Gəncə, Mingəçevir, Sumqayıt və Lənkəran şəhərlərində keçirilib. İmtahanda bakalavrların ümumi intellekt səviyyəsi (məntiqi təfəkkürü), xarici dil və informatikadan bilik səviyyələri yoxlanılmışdır. Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ixtisas magistraturasının ixtisaslaşmalarına qəbul olmaq istəyən və müəyyən edilən müsabiqə şərtini ödəyən bakalavrlar qəbul imtahanını verdikdən sonra əlavə olaraq qabiliyyət imtahanı vermişlər. Bəzi ixtisaslaşmalar üzrə qabiliyyət imtahanları Koronavirus (COVİD-19) pandemiyası ilə əlaqədar yaranmış şəraitə görə ləğv olunmuşdur. Müəyyən edilmiş müsabiqə şərtlərini ödəyənlər ixtisas seçiminə buraxılmışlar. Hər bir bakalavrın 20-dək ixtisaslaşma kodunu seçmək imkanı var idi. Qəbulun nəticələri iyulun 8-də DİM-in internet saytında elan olunub və "Magistr" jurnalının 5-ci sayında dərc edilib. Qəbulun nəticələrinə əsasən 10350 bakalavr magistraturaya qəbul olunub, onlardan 900-ü qeydiyyatdan keçməyib və ümumilikdə 1685 yer boş qalıb. Bu səbəbdən avqustun 5-dən 11-dək boş qalan yerlərə ixtisaslaşma seçimi aparılıb. Bu mərhələdə 3248 nəfər iştirak edib və onların 888-i magistraturaya qəbul olub (onlardan 610-u qeydiyyatdan keçib). Beləliklə, bütövlükdə 15067 nəfər ixtisaslaşma seçimində iştirak edib və magistraturaya 10060 nəfər qəbul olmuşdur.

Rezidentura səviyyəsinə qəbul 2021-ci ildə də DİM tərəfindən mərkəzləşdirilmiş qaydada test üsulu ilə keçirilmişdir. Rezidenturaya qəbul qaydaları və qəbul elanı, baza və ixtisas fənləri üzrə qəbul proqramları, namizədlərin cavab verməkdə çətinlik çəkdikləri bəzi test tapşırıqlarının elmi-metodiki izahı və tövsiyələr, test tapşırığı nümunələri və digər zəruri məlumatlar "Rezidentura" jurnalının 2021-ci il tarixli 1-ci və 2-ci nömrələrində çap olunmuşdur. Qəbul imtahanının ikinci mərhələsi və ixtisas seçimi haqqında elan, qəbul aparılan ixtisaslar və plan yerləri haqqında məlumatlar, rezidenturaya qəbul imtahanının I mərhələsinin nəticələrinin ötən illə müqayisəli təhlili və tövsiyələr, 2020-ci ildə rezidenturaya qəbul müsabiqəsində formalaşmış keçid balları və digər elmi-metodiki materiallar jurnalın 3-cü nömrəsində dərc edilib ictimaiyyətə çatdırılmışdır.

2020-ci ildə rezidenturaya qəbulla bağlı müsabiqə şərtlərində bəzi dəyişikliklər edilib. Belə ki, imtahanın I mərhələsinin nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilib, imtahandan 40 və daha çox bal toplayan əsas (baza ali) tibb təhsilli namizədlər "məqbul" alaraq imtahanın II mərhələsində iştirak etmək hüququ qazanıblar. Bundan başqa, imtahanın I mərhələsində "məqbul" alanların nəticəsi 5 (beş) il qüvvədə qalır, yəni onlar 5 (beş) il ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına buraxılırlar. Rezidenturaya qəbulun I mərhələsinə əsas (baza ali) tibb təhsilinin III kursunu tam bitirmiş (III, IV və V

kurs) tələbələr də buraxılıblar. Bu imtahandan "məqbul" alan tələbələr isə ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına rezidenturaya qəbul olunmaq hüququ əldə etdikdən sonra buraxılırlar.

2021-ci ildə ilk dəfə olaraq, namizədlərə baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında (I mərhələdə) iki dəfə iştirak etmək hüququ verilmişdir. Qəbul imtahanının I mərhələsinin 1-ci cəhdində iştirak etmək üçün ərizələrin qəbulu 2021-ci il mayın 26-dan iyunun 4-dək, 2-ci cəhdində iştirak etmək üçün isə iyulun 16-dan 22-dək internet vasitəsilə aparılıb. Rezidenturada təhsil almaq üçün 1673 namizəd ərizə verib.

2021-ci ildə imtahanın I mərhələsində iştirak edənlərdən 573 nəfər əsas (baza ali) tibb təhsili istiqamətləri üzrə imtahanın II mərhələsində iştirak etmək hüququ qazanmış və onlardan 510 nəfəri imtahanın II mərhələsində iştirak etmək üçün ərizə vermişdir. Bundan başqa, 2020-ci ildə rezidenturaya qəbul imtahanının I mərhələsində iştirak edərək "məqbul" alan 304 nəfər də II mərhələdə iştirak etmək üçün ərizə vermiş və ümumilikdə II mərhələdə iştirak etmək üçün ərizə verənlərin sayı 814 nəfər olmuşdur. İmtahanın II mərhələsində 810 nəfər iştirak edib və bu namizədlərin çoxu (545 nəfər) müsabiqədə iştirak etmək hüququ qazanmışdır. İxtisas seçimində iştirak etmiş namizədlərdən 417 nəfər rezidenturaya qəbul olmuşdur. Müsabiqənin nəticələri internet və "Rezidentura" jurnalının 4-cü nömrəsində ictimaiyyətə açıqlanmışdır.

DİM 2021-ci ildə də informasiya-kommunikasiya texnologiyalarının (İKT) kütləvi proseslərə tətbiqi istiqamətində işləri intensiv şəkildə davam etdirmiş, bu sahədə bir sıra yeni layihələr həyata keçirmişdir. İKT istər ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrinə, istər rezidenturaya, istər orta ixtisas təhsili pilləsinə qəbul prosesinin, ümumi təhsil müəssisələri şagirdlərinin buraxılış imtahanlarının, istərsə də dövlət qulluğuna işə qəbulun bütün mərhələlərində tətbiq edilmiş və yüz minlərlə vətəndaşa elektron xidmət göstərilmişdir. Mərkəzin ictimaiyyətə göstərdiyi 18 elektron xidmət növündən hesabat ilində 8 milyon 950 min dəfədən çox istifadə olunmuşdur. Bunlar dövlət qurumlarının icraatında olan elektron xidmət layihələri arasında ən çox istifadə olunan layihələrdəndir.

"Açıq hökumətin təşviqinə dair 2012–2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 2-ci bəndində göstərilir ki, dövlət orqanları öz fəaliyyətləri barədə müntəzəm olaraq ictimaiyyətə məlumat verməli, bu məlumatları "mütəmadi, yenilənmiş əsaslarla internet səhifələrində yerləşdirməli", "illik məruzələr tərtib etməli və internet səhifələrində açıqlamalı", "mətbuat konfransları keçirməli və ictimaiyyətlə birbaşa ünsiyyət formasında tədbirlər keçirməlidirlər." Bu prinsipləri öz fəaliyyətində rəhbər tutan Dövlət İmtahan Mərkəzi mütəmadi olaraq qəbul kampaniyasının mərhələləri ilə bağlı ictimaiyyəti hərtərəfli məlumatlandırmaqla qəbul prosesinin şəffaflığının təmin edilməsinə böyük önəm vermişdir.

Müasir mərhələdə informasiya inkişafın ən başlıca əsaslarından biridir. Ən önəmli məsələlərdən biri informasiyanın açıqlanmasıdır. Bu, informasiya sahibinin mühüm vəzifəsidir. Bu vəzifə "İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunu"nuda təsbit olunmuşdur. Qanunun 29-cu maddəsinə əsasən informasiya sahibi cəmiyyətin maraqlarını daha asan və daha operativ şəkildə təmin etmək, çoxsaylı informasiya sorğularını azaltmaq məqsədi ilə malik olduğu, ictimai vəzifələrin yerinə yetirilməsi nəticəsində yaradılmış, yaxud əldə olunmuş informasiyanı ictimaiyyətə açıqlamalıdır. Qanunda belə informasiyalara "ümumiləşdirilmiş statistik məlumatlar" aid edilir.

DİM-in apardığı ənənəvi elmi-statistik təhlillərdə təhsilin həm ümumilikdə ölkə səviyyəsində, həm də ayrı-ayrı bölgələr və məktəblər üzrə göstəriciləri, eləcə də abituriyentlərin ayrı-ayrı fənlər üzrə nəticələri, onların müxtəlif ixtisas qruplarına meyil və maraqları, ali təhsil müəssisələrinə qəbulolma göstəriciləri, yüksək və zəif göstəricili rayon və məktəblər, ali təhsil müəssisələrinin reytinqi, bakalavriat və magistratura səviyyələrinə, orta ixtisas təhsili pilləsinə və rezidenturaya qəbulun nəticələri, həmçinin ümumtəhsil müəssisələri şagirdlərinin buraxılış imtahanları üzrə nəticələri və s. məsələlər öz əksini tapıb. Eyni zamanda, aparılan elmi-statistik təhlilin tərkib hissələri kimi "Tələbə qəbulunun gender aspektləri" ("Qadınlar statistikada"), "Kənd təsərrüfatı profilli ixtisaslar statistikada" və "Neft-qaz ixtisasları statistikada" adlı kitabçalar, həmçinin hər bir rayonun məzunlarının qəbul imtahanlarındakı göstəricilərini əks etdirən kitabçalar hazırlanıb. Qəbulun nəticələrinin bu miqyasda, bu səviyyədə araşdırılmasını təhsilin vəziyyətinin monitorinqi də adlandırmaq olar.

DİM elmi-statistik təhlil nəticəsində əldə etdiyi informasiyanı – "ümumiləşdirilmiş statistik məlumatlar"ı qeyd edilən qanuna və "Abituriyent" jurnalının nizamnaməsinə uyğun olaraq açıqlayır və əldə olunmuş nəticələri nəşr edərək ictimaiyyətin istifadəsinə verir.

1. ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN BAKALAVRİAT SƏVİYYƏSİNƏ TƏLƏBƏ QƏBULU

2021/2022-ci tədris ili üçün respublikanın ali təhsil müəssisələrinə tələbə qəbulu DİM tərəfindən "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu qaydaları"na əsasən aparılıb. Qəbul qaydalarına uyğun olaraq, respublikanın bütün mülki ali təhsil müəssisələrinə, xüsusi təyinatlı ali təhsil müəssisələrinə (Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti, Fövqəladə Hallar Nazirliyi və Dövlət Sərhəd Xidmətinin təhsil müəssisələri) tələbə qəbulu mərkəzləşdirilmiş qaydada keçirilib.

Cari ildə Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə yaranmış şəraitə uyğun olaraq DİM tərəfindən imtahanların təşkili zamanı Nazirlər Kabineti yanında operativ qərargahın tələb və tövsiyələri nəzərə alınmışdır.

Abituriyentlər ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün 2021-ci il mayın 26-dan iyunun 9-dək internet vasitəsilə elektron ərizə veriblər. Bunun üçün onlar ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetlərinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet (eservices.dim.gov.az/erizebak/erize) səhifəsinə daxil olaraq "Abituriyentin elektron ərizəsi" formasını doldduraraq təsdiq etmişlər (etdirmişlər).

Ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə qəbul imtahanı iki mərhələdə həyata keçirilmişdir. İmtahanın ikinci mərhələsi ötən il olduğu kimi yalnız bir dəfə keçirilmişdir. Müsabiqədə iştirak ödənişli olmuşdur. Abituriyentlər ərizələrini təsdiq etmək (etdirmək) üçün tələb olunan məbləği şəxsi kabinetlərindəki hesaba əlavə etmiş və təsdiq zamanı həmin məbləğ onların hesabından çıxılmışdır. Ali təhsil müəssisələrinə qəbul olmaq üçün ilk dəfə müraciət etmiş Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) imtahanda iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olmuşdur. Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli 2635 nömrəli Sərəncamına əsasən aşağıdakı kateqoriyalardan olan Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) cari ildə qəbul imtahanında (bütün mərhələ və cəhdlər üzrə) iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilmişdir:

- *Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;*
- *şəhid ailəsinin üzvləri;*
- *valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;*
- *məcburi köçkün statusu olan şəxslər;*
- *I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.*

Ərizənin təsdiqi DİM-in informasiya sistemlərində abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla həyata keçirilib:

1. Aşağıda göstərilən kateqoriyalardan olan abituriyentlər *(1986-2003-cü il təvəllüdlü (31.07.2003-cü il tarixədək anadan olmuş) 35 yaşınadək olan kişi cinsli abituriyentlər onların ya müddətli həqiqi hərbi xidmət keçməsi, ya çağırışdan möhlət hüququnun olması və ya çağırışdan azad edilməsi barədə məlumat Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin elektron-məlumat bazasında əks olunduğu halda)* elektron ərizələrini elektron ərizə səhifəsinə daxil olaraq özləri təsdiq ediblər:

1.1. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini cari ildə bitirən abituriyentlər;

1.2. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini 2012-ci və ondan sonrakı illərdə bitirən abituriyentlər;

1.3. Azərbaycan Respublikasının ilk peşə-ixtisas təhsili müəssisələrini 2013-cü və ondan sonrakı illərdə bitirən abituriyentlər;

1.4. 2012-ci və ondan sonrakı illərdə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə verib onu təsdiq etdirmiş abituriyentlər;

2. 1.1, 1.2, 1.3 və 1.4 -ci yarımbəndlərdə göstərilən abituriyentlərdən başqa digər abituriyentlər elektron ərizələrini doldurduqdan sonra tələb olunan sənədləri şəxsən təqdim etməklə elektron ərizələrini müvafiq **Sənəd Qəbulu Komissiyalarında (SQK)** təsdiq etdiriblər. Ərizə qəbulu elanının tam mətni "Abituriyent" jurnalının 2021-ci il 2-ci sayında dərc edilərək ictimaiyyətə çatdırılıb. Ərizə qəbulu ilə bağlı bütün məlumatlar operativ şəkildə DİM-in internet saytında da yerləşdirilib. Bundan başqa, "Abituriyentin elektron ərizəsi" formasının doldurulması qaydası televiziya kanallarında abituriyentlərə dəfələrlə izah olunub. SQK-lar hər gün (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 9-dan 17-dək fəaliyyət göstəriblər:

Bakı şəhərində:

DİM-in Bakı şəhərində yerləşən inzibati binaları:

- *Bakı ş, Yasamal r, Mikayıl Müşfiq küç., 1M*
- *Bakı ş, Nəsimi r, Abdulvahab Salamzadə küç., 28*
- *Bakı ş, Nərimanov r, Koroğlu Rəhimov küç., 108A*

Digər şəhər və rayonlarda:

Naxçıvan ş.	*DİM-in Regional Bölməsi;*
Gəncə ş.	*DİM-in Regional Bölməsi*
Lənkəran ş.	*DİM-in Regional Bölməsi;*
Şəki r-nu.	*DİM-in Regional Bölməsi;*
Xaçmaz r-nu.	*DİM-in Regional Bölməsi;*
Şirvan ş.	*DİM-in Regional Bölməsi;*
Göyçay r-nu.	*DİM-in Regional Bölməsi;*
Bərdə r-nu.	*DİM-in Regional Bölməsi;*
Şəmkir r-nu.	*DİM-in Regional Bölməsi.*

Xüsusi təyinatlı ali təhsil müəssisələrində təhsil almaq istəyən abituriyentlər də 1-ci və 2-ci bənddə göstərilən müddətdə və qaydada elektron ərizələrini təsdiq etməklə (etdirməklə) yanaşı, müvafiq ali təhsil müəssisələrinin müəyyən etdikləri xüsusi prosedurlardan keçiblər.

2021/2022-ci tədris ili üçün ali təhsil müəssisələrinə qəbul beş ixtisas qrupu üzrə aparılıb. I–IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı iki mərhələdən ibarət olub. Abituriyentlər qəbul imtahanının birinci *(maksimal toplanıla bilən bal – 300)* və ikinci *(maksimal toplanıla bilən bal – 400)* mərhələlərindən topladıqları ümumi balların cəminə *(maksimal toplanıla bilən bal – 700)* əsasən ali təhsil müəssisələrinin ixtisasları üzrə müsabiqədə iştirak edib. Cari ilin məzunları üçün qəbul imtahanının birinci mərhələsinin nəticəsi kimi onların buraxılış imtahanında əldə etdikləri nəticələr götürülüb.

Qəbul imtahanının birinci mərhələsi (cari ilin məzunları üçün tam (11-illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı) üzrə imtahan fənləri, tapşırıqların sayı və balların hesablanma qaydası 1.1 saylı cədvəldə təqdim olunur. Bu mərhələdə şagird və abituriyentlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi ilə onlara ümumilikdə üç fənn üzrə 85 tapşırıq təqdim edilib. İmtahanın müddəti 3 saat olub.

Cədvəl 1.1

Fənnin adı	Tapşırıqların sayı	Nisbi balın hesablanması düsturu
Xarici dil (ingilis, alman, fransız, rus, ərəb və ya fars dili)	- Dinləyib-anlamaya dair mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 6 tapşırıq: qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 1 tapşırıq; - Qapalı tipli 16 tapşırıq; - Oxuyub-anlamaya dair mətn və mətnə aid 8 tapşırıq: qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 3 tapşırıq. **Cəmi: 30 tapşırıq**	$\frac{100}{34}\cdot\left(2n_{d(açıq,\ yazılı)}+n_{d(qapalı)}\right)$ **Maksimal bal: 100**
Azərbaycan (rus) dili	- Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq; - Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq: qapalı tipli 8 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 2 tapşırıq (cəmi 20 tapşırıq). **Cəmi: 30 tapşırıq**	$\frac{100}{34}\cdot\left(2n_{d(açıq,\ yazılı)}+n_{d(qapalı)}\right)$ **Maksimal bal: 100**
Riyaziyyat	- Qapalı tipli 13 tapşırıq; - Cavabların kodlaşdırılması tələb olunan açıq tipli 8 tapşırıq; - Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 4 tapşırıq. **Cəmi: 25 tapşırıq**	$\frac{100}{29}\cdot\left(2n_{d(açıq,\ yazılı)}+n_{d(açıq,kod)}+n_{d(qapalı)}\right)$ **Maksimal bal: 100**

Qeyd. 1. $n_{d(açıq,\ kod)}$ - cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(qapalı)}$ - qapalı tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(açıq,\ yazılı)}$ - yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi.

2. Qapalı tipli və cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqların hər birinə verilən düzgün cavab 1 balla qiymətləndirilib.

3. Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında 0, $\frac{1}{3}$, $\frac{1}{2}$, $\frac{2}{3}$ və ya 1 balla qiymətləndiriliblər.

Abituriyentin qəbul imtahanının birinci mərhələsi (cari ilin məzunları üçün tam (11-illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı) üzrə ümumi balı hesablanarkən hər bir fənn üzrə topladığı nisbi ballar cəmlənib. Fənlər üzrə nisbi ballar yuxarıdakı cədvəldə göstərilən qaydada hesablandıqdan sonra 0.1-ə qədər yuvarlaqlaşdırılıb. Tapşırıqlar üzrə səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərməyib.

Qəbul imtahanının ikinci mərhələsində abituriyentlərə hər fənn üzrə 30 tapşırıq (ümumilikdə 90 tapşırıq) təqdim olunub. Bu tapşırıqların 22-si qapalı, 8-i isə açıq tipli idi. Açıq tipli tapşırıqlardan 5-i cavabların kodlaşdırılması tələb olunan hesablama, seçim və ya uyğunluğu müəyyən etmək tipli tapşırıqlar olub. Digər açıq tipli 3 tapşırıq isə yazılı şəkildə cavablandırılması tələb olunan, meyarlar əsasında markerlər tərəfindən qiymətləndirilən situasiya, mətn və yaxud mənbə əsasında hazırlanan tapşırıqlar idi. Bu tapşırıqlar riyaziyyat, fizika, kimya, biologiya və coğrafiya fənləri üzrə situasiya, Azərbaycan (rus) dili və ədəbiyyat fənləri üzrə mətn, tarix fənni üzrə isə mənbə əsasında hazırlanıb. İmtahanın müddəti 3 saat olub.

Abituriyentin qəbul imtahanının ikinci mərhələsi üzrə ümumi balı hesablanarkən hər bir fənn üzrə topladığı nisbi ballar 1.2 saylı cədvəldə verilmiş müvafiq çəki əmsallarına vurulmaqla cəmlənib. Hər bir fənn üzrə nisbi bal aşağıdakı qaydada hesablandıqdan sonra 0.1-ə qədər yuvarlaqlaşdırılıb:

$$\boldsymbol{NB = NB_q + NB_a},$$

burada NB – fənn üzrə nisbi bal; NB_q – qapalı tipli tapşırıqlar üzrə nisbi bal; NB_a – açıq tipli tapşırıqlar üzrə nisbi baldır.

Qapalı və açıq tipli test tapşırıqları üzrə nisbi ballar isə aşağıdakı qaydada hesablanıb:

$$\boldsymbol{NB_q} = \left(\boldsymbol{D_q} - \frac{1}{4}\boldsymbol{Y_q}\right)\cdot\frac{100}{33}$$ (hesablamanın nəticəsi mənfi alınarsa, $\boldsymbol{NB_q=0}$ götürülür),

burada D_q *– qapalı tipli tapşırıqlar üzrə düzgün cavabların sayı;* Y_q *– qapalı tipli tapşırıqlar üzrə yanlış cavabların sayıdır.*

$$NB_a = (D_{kod} + 2D_{yazılı}) \cdot \frac{100}{33}$$

burada D_{kod} *– cavabların kodlaşdırılması tələb olunan açıq tipli (hesablama, seçim, uyğunluğu müəyyən etmək) tapşırıqlar üzrə düzgün cavabların sayı;* $D_{yazılı}$ *– yazılı şəkildə cavablandırılması tələb olunan, situasiya, mətn və yaxud mənbə əsasında hazırlanan açıq tipli tapşırıqlar üzrə balların cəmidir. Bu tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında* $0, \frac{1}{3}, \frac{1}{2}, \frac{2}{3}$ *və ya* 1 *balla qiymətləndiriliblər.*

Açıq tipli tapşırıqlar üzrə səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərməyib.

Cədvəl 1.2

QƏBUL İMTAHANININ İKİNCİ MƏRHƏLƏSİ ÜZRƏ İMTAHAN FƏNLƏRİNİN ÇƏKİ ƏMSALLARI (İXTİSAS QRUPLARI ÜZRƏ)

İxtisas qrupları	İmtahan fənləri	Çəki əmsalları
I qrup	Riyaziyyat	1.5
	Fizika	1.5
	Kimya	1
II qrup	Riyaziyyat	1.5
	Coğrafiya	1.5
	Tarix	1
III qrup	Azərbaycan (rus) dili	1.5
	Tarix	1.5
	Ədəbiyyat	1
IV qrup	Biologiya	1.5
	Kimya	1.5
	Fizika	1

Abituriyentlər V ixtisas qrupu üzrə ali təhsil müəssisələri və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin ixtisasları üzrə müsabiqədə yalnız qəbul imtahanının birinci mərhələsinin (cari ilin məzunları üçün buraxılış imtahanının) və qabiliyyət imtahanının nəticələrinə (tələb olduğu halda) əsasən iştirak edib.

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə təhsil almaq istəyən və imtahanda topladıqları ümumi balları müvafiq müsabiqə şərtlərini ödəmiş abituriyentlər imtahanların nəticəsi elan olunduqdan sonra V qrup üzrə 2021-ci il mayın 31-dən iyunun 7-dək və iyulun 22-dən 29-dək, I qrup üzrə avqustun 13-dən 20-dək, III qrup üzrə isə iyulun 30-dan avqustun 4-dək eservices.dim.gov.az/erizebak/qabiliyyet internet səhifəsinə daxil olub seçdiyi xüsusi qabiliyyət tələb edən ixtisasın aid olduğu komissiya üzrə qeydiyyatdan keçiblər. Ali təhsil müəssisələrinə qəbul olmaq üçün ilk dəfə müraciət etmiş Azərbaycan Respublikası vətəndaşlarının (ümumi təhsil müəssisələrini bitirən) ilk seçdiyi (qeydiyyatdan keçdiyi) komissiya üzrə qabiliyyət imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olmuşdur. Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli 2635 nömrəli Sərəncamına əsasən aşağıdakı kateqoriyalardan olan Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) cari ildə seçdikləri (qeydiyyatdan keçdikləri) bütün komissiyalar üzrə qabiliyyət imtahanlarında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilmişdir:

- *Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;*
- *şəhid ailəsinin üzvləri;*
- *valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;*
- *məcburi köçkün statusu olan şəxslər;*
- *I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.*

Qabiliyyət imtahanları DİM-in təşkil etdiyi xüsusi komissiyalar tərəfindən mərkəzləşdirilmiş qaydada aparılıb. Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə yaranmış şərait nəzərə alınaraq DİM tərəfindən imtahanların təşkili zamanı Nazirlər Kabineti yanında operativ qərargahın tələb və tövsiyələri nəzərə alınıb. Qabiliyyət imtahanları Bakı şəhərində ali təhsil müəssisələrinin təsviri sənət istiqamətli ixtisasları üzrə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında, Bakı şəhəri 153 saylı tam orta məktəbdə, musiqi sənəti istiqamətli ixtisasları üzrə Bülbül adına orta ixtisas musiqi məktəbində, memarlıq ixtisası üzrə Azərbaycan Memarlıq və İnşaat Universitetində, teatr, kino və xoreoqrafiya sənəti istiqamətli ixtisasları üzrə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində və Bakı Xoreoqrafiya Akademiyasında, ilahiyyat istiqamətli ixtisası üzrə Azərbaycan İlahiyyat İnstitutunda, bədən tərbiyəsi və idman istiqaməti üzrə imtahanlar Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında keçirilib.

Qabiliyyət imtahanları ali təhsil müəssisələri üzrə Bakı şəhərindən əlavə Naxçıvan, Gəncə və Lənkəran şəhərlərində təşkil edilib. Naxçıvan şəhərində keçirilən imtahanlarda yalnız Naxçıvan Dövlət Universitetinin, Bakı şəhərində keçirilən imtahanlarda isə Bakı şəhərində fəaliyyət göstərən ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarında təhsil almaq istəyən abituriyentlər iştirak ediblər. Karantin rejiminin yaratdığı əlavə çətinliklər nəzərə alınaraq Naxçıvanda yaşayan abituriyentlərin (subbakalavrların) qabiliyyət imtahanları onlayn şəkildə keçirilib və onların qiymətləndirilməsi Bakıda təşkil edilmiş QİK-lər tərəfindən aparılıb. Eyni zamanda Naxçıvanda yaşayan, "İslamşünaslıq" ixtisasına qəbul olunmaq istəyən abituriyentlərlə müsahibələr də onlyan şəkildə həyata keçirilib. İmtahanların qiymətləndirməsi üçün ümumilikdə 44 QİK onlayn fəaliyyət göstərib.

Bədən tərbiyəsi və idman istiqamətinə aid bütün imtahanlar ənənəvi qaydada keçirilib.

Gəncə və Lənkəran şəhərlərində təsviri sənət, musiqi sənəti və bədən tərbiyəsi və idman istiqamətləri üzrə imtahanlar təşkil edilib. Cari ildə təxminən 20 min abituriyent üçün xüsusi qabiliyyət imtahanları təşkil edilib. İmtahanlar 16 iyun 2021-ci il tarixindən 25 avqust 2021-ci il tarixinədək keçirilib.

Dövlət İmtahan Mərkəzi ilin əvvəlində qabiliyyət imtahanlarının keçirilməsi qaydaları, qəbul proqramları, imtahanlara hazırlığa dair metodiki tövsiyələr, qiymətləndirmə meyarları və s. materialları "Abituriyent" jurnalının xüsusi buraxılışı olan "Xüsusi qabiliyyət imtahanları" jurnallarının müvafiq saylarında dərc edərək qabiliyyət imtahanlarına hazırlaşanların istifadəsinə verib.

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə qabiliyyət imtahanlarının yekun nəticəsi ixtisasın xüsusiyyətindən asılı olaraq məqbul və ya balla qiymətləndirilib. Abituriyentin xüsusi qabiliyyət tələb edən ixtisasları seçmək və onların kodlarını ərizəsində qeyd etmək hüququ qazanması üçün onun qabiliyyət imtahanından yekun nəticəsi və test imtahanında topladığı ümumi balı DİM tərəfindən müəyyən edilmiş tələblərə uyğun olmalı idi. Abituriyentlərə öz ərizələrində qabiliyyət tələb edən ixtisaslarla yanaşı, digər ixtisasları da seçmək imkanı verilmişdi. Seçim imkanlarının bu şəkildə genişləndirilməsi, bir tərəfdən, qabiliyyət tələb edən ixtisaslara qəbulda müsabiqə vəziyyətinin artmasına, digər tərəfdən isə müsabiqə zamanı seçimin keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərmişdir. Qeyd edək ki, I–IV qruplardan hər hansı birinə ərizə verən abituriyentə, eyni zamanda V qrupa da ərizə vermək və qoyulan tələbləri ödədiyi halda, bu qrup üzrə də müsabiqədə iştirak etmək və ixtisas seçimi zamanı eyni vaxtda I–IV qruplardan hər hansı birinə daxil olan ixtisaslarla yanaşı, V qrupa aid ixtisasları da ərizəsində istədiyi ardıcıllıqla qeyd etmək imkanı yaradılmışdı.

Son illərdə ən aşağı müsabiqə vəziyyəti xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə olub. Dövlət İmtahan Mərkəzi bunu nəzərə alaraq gənclərin bu ixtisaslara meyil və marağını artırmaq, onların qəbula hazırlığına kömək məqsədilə əvvəlki illərdə olduğu kimi, bu ildə xüsusi qabiliyyət tələb edən ixtisaslara dair metodiki materiallar hazırlanıb və müxtəlif maarifləndirici tədbirlər həyata keçirib. Qeyd olunanlarla yanaşı, 2015-ci ildən etibarən xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə (I qrup "Memarlıq" və III qrup "İslamşünaslıq" və "Jurnalistika" ixtisasları istisna olmaqla) ayrıca bir qrup – V qrup yaradılmış, qəbul imtahanının struktur və məzmun tərkibi dəyişdirilmişdir. Nəticədə, ötən illərlə müqayisədə V qrup üzrə müsabiqə vəziyyəti dəfələrlə artmışdır. Qeyd edək ki, cari ilin məzunları V qrup üzrə müsabiqədə əlavə qəbul imtahanı vermədən bilavasitə buraxılış imtahanlarının nəticələri əsasında iştirak ediblər. Bununla yanaşı, ötən 2020-ci ildəki imtahanın nəticəsi 2021-ci ildə öz qüvvəsini saxlamış və 2020-ci ildə V qrup üzrə qəbul imtahanında iştirak edən, həmçinin tam orta təhsili 2020-ci ildə bitirərək buraxılış imtahanında iştirak edən abituriyentlər müsabiqə şərtlərini ödədikləri halda, həmin imtahanların nəticələri əsasında 2021-ci ildə V ixtisas qrupu üzrə müsabiqədə iştirak etmək imkanı əldə etmişlər.

Cari ildə V ixtisas qrupunda qabiliyyət imtahanının verilməsi tələb olunan ixtisaslar üzrə ayrılan 3615 plan yerinə 5207 abituriyent (subbakalavr) iddia etmişdi. Qeyd edək ki, 2015-ci ildə bu ixtisaslara ayrılan 2355 plan yerinə 4293, 2016-cı ildə 2854 plan yerinə 3993, 2017-ci ildə 3067 plan yerinə 3939, 2018-ci ildə

3307 plan yerinə 3593, 2019-cu ildə 3462 plan yerinə 4971, 2020-ci ildə isə 1034 plan yerinə 1406 nəfər iddia edirdi.

Bu il I ixtisas qrupunun xüsusi qabiliyyət tələb edən "Memarlıq" ixtisası üzrə müsabiqəyə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən az olmayan abituriyentlər buraxılmışdı. V qrupun xüsusi qabiliyyət tələb edən (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) "Məşqçilik" və "Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" ixtisasları üzrə müsabiqədə ümumi balı 75-dən (regionlarda fəaliyyət göstərən komissiyalar üzrə 60-dan), "Xoreoqrafiya sənəti (sahələr üzrə)" ixtisası üzrə ümumi balı 30-dan, digər ixtisaslar üzrə isə ümumi balı 60-dan az olmayan abituriyentlər iştirak etmişlər. Qeyd edək ki, bu ixtisaslara qəbul olan abituriyentlərin qəbul imtahanlarında topladıqları orta ballar (I qrupda "Memarlıq" istiqaməti üzrə 375.98, III qrupda "İlahiyyat" istiqaməti üzrə 244.48, "Jurnalistika" istiqaməti üzrə 387.77, V qrupda "Təsviri sənət" istiqaməti üzrə 125.63, "Musiqi sənəti" istiqaməti üzrə 114.57, "Teatr, kino və xoreoqrafiya" istiqaməti üzrə 94.70, "Bədən tərbiyəsi və idman" istiqaməti üzrə 118.00 bal) müsabiqə şərtlərindən xeyli yüksək olub.

2021/2022-ci tədris ili üçün V ixtisas qrupunun xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə ümumilikdə 3815 plan yeri ayrılmışdı (bundan əlavə 50 yerə müsabiqədənkənar qəbul aparılıb). 9061 nəfər (8676 abituriyent və 385 subbakalavr) V qrupun ixtisasları üzrə müsabiqədə iştirak edib. Onlardan 5207-si qabiliyyət imtahanını müvəffəqiyyətlə verib. Bu il xüsusi qabiliyyət tələb edən ixtisasların qəbul planları və bu ixtisaslar üzrə müsabiqədə iştirak etmiş abituriyentlərin və subbakalavrların sayı aşağıdakı cədvəldə təqdim olunur:

Cədvəl 1.3

İSTİQAMƏTLƏR ÜZRƏ MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN VƏ SUBBAKALVRLARIN SAYI

İstiqamət	İxtisas qrupu	Qəbul planı	Müsabiqədə iştirak edən abituriyentlərin və subbakalvrların sayı
Memarlıq	I	140	164
İlahiyyat	III	36	43
Jurnalistika	III	265	545
Təsviri sənət	V	937	1408
Musiqi sənəti	V	657	722
Teatr, kino və xoreoqrafiya sənəti	V	220	173
Bədən tərbiyəsi və idman	V	1801	2932
Xüsusi qabiliyyət imtahanı tələb olunmayan ixtisaslar üzrə			
Təsviri sənət	V	200	5094

Müsabiqə zamanı abituriyentlərin seçdikləri ixtisaslar "Abituriyentin elektron ixtisas seçimi ərizəsi" formasında göstərilən ardıcıllıqla nəzərə alınmış və abituriyent topladığı ballara əsasən müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilmişdir. Seçdiyi ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün abituriyentin topladığı ümumi balı ilə yanaşı, imtahanın ikinci mərhələsi üzrə yığdığı bala da tələblər (müsabiqə şərtləri) müəyyənləşdirilmişdir. Bu tələblər, bir qayda olaraq, qəbul imtahanlarının nəticələrinin elmi-statistik təhlili əsasında formalaşır. Aparılan təhlil nəticəsində müəyyən edilmişdir ki, I–IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinin qəbul planında nəzərdə tutulmuş qəbul yerlərini həmin qruplarda nəticələri yüksək və orta bal diapazonunda yerləşən abituriyentlərin hesabına tam doldurmaq mümkün deyil. Odur ki, müsabiqə vəziyyətini yüksəltmək məqsədilə müsabiqədə iştirak etmək üçün fənlər üzrə nisbi bala heç bir məhdudiyyət tətbiq edilməmişdir.

Ümumilikdə, müsabiqəyə buraxılma şərtləri aşağıdakı şəkildə müəyyən olunmuşdur:

• **I qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb. I ixtisas qrupunun "Riyaziyyat", "Fizika" və "Kompüter elmləri" ixtisasları üzrə müsabiqədə ümumi balı 250-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər iştirak edib.

Dövlət ali təhsil müəssisələrinin ("ADA" Universiteti və Bakı Ali Neft Məktəbi istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsində qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər iştirak hüququ qazanıb.

I ixtisas qrupunun "Meliorasiya mühəndisliyi", "Texnologiya müəllimliyi" və "Ekologiya mühəndisliyi" ixtisasları üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər iştirak ediblər.

"Aqronomluq", "Balıqçılıq", "Meşəçilik", "Şərabçılıq", "Torpaqşünaslıq və aqrokimya", "Yerquruluşu və daşınmaz əmlakın kadastrı" və "Zoomühəndislik" ixtisasları üzrə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlər iştirak hüququ qazanıb.

• **II qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb.

Dövlət ali təhsil müəssisələrinin ("ADA" Universiteti və Bakı Ali Neft Məktəbi istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılıb.

Dövlət ali təhsil müəssisələrinin ("ADA" Universiteti istisna olmaqla) "Beynəlxalq münasibətlər" ixtisasının müsabiqəsində qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) xarici dil fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər iştirak edib.

II ixtisas qrupunun "Marketinq", "Biznesin idarə edilməsi", "Regionşünaslıq (regionlar üzrə)", "Turizm bələdçiliyi" və "Turizm işinin təşkili" ixtisasları üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılıb.

• **III qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb.

Dövlət ali təhsil müəssisələrinin ("ADA" Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsində qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər iştirak ediblər.

Dövlət ali təhsil müəssisələrinin ("ADA" Universiteti istisna olmaqla) "Tərcümə (dillər üzrə)", "Filologiya (xarici dil və ədəbiyyatı üzrə)" və "Xarici dil müəllimliyi (dillər üzrə)" ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) xarici dil fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılıb.

III ixtisas qrupunun "Muzey, arxiv işi və abidələrin qorunması" və "Sosial iş" ixtisasları üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər iştirak edib.

• **IV qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb.

Dövlət ali təhsil müəssisələrinin tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsində qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər iştirak edib.

IV ixtisas qrupunun "Ekologiya" ixtisası üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılıb.

"Bağçılıq və tərəvəzçilik", "Baytarlıq təbabəti", "Bitki mühafizəsi" və "Su bioehtiyatları və akvakultura" ixtisasları üzrə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlər iştirak edib.

• **V qrup** üzrə ixtisas seçimində qabiliyyət imtahanı üzrə yekun nəticəsi və qəbul imtahanında topladığı ümumi balı cədvəl 1.4-də göstərilən şərtləri ödəyən abituriyentlər iştirak edib.

I, III və V qrupların qəbul planında qarşısında ulduz "*" (qabiliyyət imtahanının nəticəsi məqbulla qiymətləndirilən) və ya iki ulduz "**" (qabiliyyət imtahanının nəticəsi balla qiymətləndirilən) işarəsi olan ixtisasların müsabiqəsində qabiliyyət imtahanından yekun nəticəsi və qəbul imtahanından topladığı ümumi balı DİM tərəfindən müəyyən edilmiş tələblərə uyğun olan abituriyentlər iştirak edib. Onlara həmin qruplar daxilində digər ixtisasları da seçmək imkanı verilib.

Ali təhsil müəssisələrinin V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə abituriyentin qabiliyyət imtahanlarında topladığı yekun balı, qabiliyyət imtahanlarının nəticələri məqbulla qiymətləndirilən xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə abituriyentin qəbul (cari ilin məzunları üçün buraxılış) imtahanında topladığı ümumi balı əsasında aparılıb. Qabiliyyət imtahanı komissiyaları üzrə müsabiqə şərtləri 1.4 saylı cədvəldə təqdim edildiyi kimi olub.

Cədvəl 1.4

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə şərtləri

İxtisasın adı	Minimal bal	II mərhələ üzrə minimal bal	Qabiliyyət imtahanının yekun nəticəsi
I ixtisas qrupu			
Memarlıq	200	-	məqbul
III ixtisas qrupu			
Jurnalistika	200	100	məqbul
V ixtisas qrupu			
Məşqçilik Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi	Bakı şəhərində fəaliyyət göstərən komissiyalar üzrə - 75, regionlarda fəaliyyət göstərən komissiyalar üzrə - 60	-	məqbul
Musiqi müəllimliyi Təsviri incəsənət müəllimliyi	60	-	məqbul
Dizayn (sahələr üzrə) Dekorativ-tətbiqi sənət (sahələr üzrə) İnstrumental ifaçılıq (sahələr üzrə) Vokal sənəti (sahələr üzrə) Dirijorluq (sahələr üzrə) Bəstəkarlıq Musiqişünaslıq Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə) Aktyor sənəti Rejissorluq Operator sənəti Rəngkarlıq Qrafika Heykəltəraşlıq	60	-	6 (bal)
Xoreoqrafiya sənəti (sahələr üzrə)	30	-	6 (bal)

QEYD: I ixtisas qrupunun xüsusi qabiliyyət tələb edən ixtisaslarının müsabiqəsi zamanı test imtahanı üzrə ümumi balları eyni olan abituriyentlərin qabiliyyət imtahanı üzrə yekun balları da nəzərə alınıb.

Abituriyentlər qəbul qaydalarına əsasən imtahan verdikləri ixtisas qrupuna (qruplarına) aid 15-dək ixtisas kodunu seçə bilərdilər. Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək hüququ qazanmış abituriyentlər avqustun 20-dən 30-dək internet vasitəsilə ixtisas seçimi etmişlər.

Orta ixtisas təhsili pilləsi və ya yüksək texniki peşə təhsili səviyyəsi üzrə "subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslərə (subbakalavrlara) qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq hüququ verilmişdir. Tələbə qəbulu ilə bağlı subbakalavrların ərizələrinin qəbulu 2021-ci il iyulun 8-dən avqustun 10-dək internet vasitəsilə aparılmışdır. Ərizə qəbulu ilə bağlı ətraflı məlumat "Abituriyent" jurnalının 2021-ci il 2-ci sayında təqdim olunmuşdur.

Subbakalavrlar ixtisas seçimində iştirak etmək üçün qəbul olmaq istədikləri ixtisasların kodlarını avqustun 20-dən 30-dək "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edib təsdiq etmişlər. Onlar yalnız orta ixtisas təhsili pilləsində və ya yüksək texniki peşə təhsili səviyyəsində təhsil aldıqları tədris dilinə və bitirdikləri ixtisasa uyğun olan ixtisasları seçmək imkanına malik olmuşlar. Qəbul aparılan ixtisasların uyğunluğu Dövlət İmtahan Mərkəzi ilə razılaşdırılmaqla, Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuşdur. Dövlət hesabına ali təhsil almış şəxslərə yalnız ödənişli əsaslarla ayrılmış yerləri seçmək hüququ verilmişdir. Subbakalavrlar xarici dil fənni üzrə əlavə tələblər qoyulan ixtisasları, eləcə də "ADA" Universitetinin və Bakı Ali Neft Məktəbinin ixtisaslarını seçə bilməyiblər. Xüsusi qabiliyyət tələb edən ixtisasları isə yalnız bu ixtisaslar üzrə qabiliyyət imtahanlarında iştirak edən və müvafiq müsabiqə şərtlərini ödəyən subbakalavrlar seçə bilmişlər.

İxtisas seçimi başa çatdıqdan sonra ali təhsil müəssisələrinin ixtisaslarının qəbul planı və dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu çərçivəsində əvvəlcə abituriyentlərin, sonra isə subbakalavrların müsabiqə əsasında yerləşdirilməsi aparılmışdır. Cari ildə qəbul imtahanında iştirak etmiş subbakalavrlar isə öz istəklərindən asılı olaraq, həm imtahanda topladıqları ballarla ümumi qaydada (abituriyent kimi), həm də subbakalavr kimi orta ixtisas təhsili səviyyəsində bitirdikləri ixtisasa uyğun ali təhsil pilləsinin ixtisasları üzrə keçirilən müsabiqədə iştirak ediblər.

Beynəlxalq səviyyədə akkreditasiya olunan "Beynəlxalq Bakalavriat Diplom Proqramı (IB Diploma Programme)", "Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (Advanced Level of General Certificate of Education)" və "Yüksək yerləşdirmə (Advanced Placement)" təhsil proqramları üzrə təhsil almış abituriyentlər ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmaq imkanına malik olub. Bu imkandan yalnız "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"na əsasən Azərbaycan dili (dövlət dili kimi) fənnindən imtahan verərək "məqbul" qiymət alan abituriyentlər istifadə edə bilib. Bu kateqoriyadan olan abituriyentlərə yalnız yuxarıda qeyd olunan təhsil proqramları üzrə təhsil aldıqları dildə tədris olunan ixtisasları seçmək imkanı verilib.

Ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul üçün minimal tələblər təhsil proqramları üzrə aşağıdakı cədvəldə təqdim olunub:

Beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu üçün minimal tələblər

	Proqramlar	**Müsabiqədənkənar qəbul üçün minimal tələblər**	
		Ödənişli əsaslarla qəbul üçün	**Dövlət sifarişi əsasında qəbul üçün**
1.	Beynəlxalq Bakalavriat Diplom Proqramı	**25** ("Hüquqşünaslıq" və "Tibb" ixtisasları üzrə - **30**)	**35**
2.	Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (müvafiq üç imtahan fənni üzrə)	**C**	**B**
3.	Yüksək yerləşdirmə (müvafiq üç imtahan fənni üzrə)	**3**	**4**

Qeyd: "Müvafiq üç imtahan fənni" dedikdə **I ixtisas qrupu** üzrə riyaziyyat, fizika və kimya fənləri, **II ixtisas qrupu** üzrə riyaziyyat, coğrafiya və tarix fənləri, **III ixtisas qrupu** üzrə Azərbaycan dili və ya rus dili, tarix və ədəbiyyat fənləri, **IV ixtisas qrupu** üzrə isə biologiya, kimya və fizika fənləri nəzərdə tutulur.

Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu aşağıdakı qaydada aparılıb:

1. Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmaq hüququna malikdirlər.

2. Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri dedikdə, aşağıdakı şəxslər nəzərdə tutulur:

- Beynəlxalq fənn olimpiadasının qızıl, gümüş və ya bürünc medalı ilə təltif olunmuş şəxslər;
- IX-XI sinif şagirdləri arasında keçirilən respublika fənn olimpiadasında birinci, ikinci və üçüncü yer tutmuş şəxslər;
- Beynəlxalq müsabiqənin və ya yarışın (15 yaşdan yuxarı yaş qrupunda) laureatı olmuş (ali mükafat, birinci, ikinci və üçüncü yerlər) şəxslər.

3. Beynəlxalq və respublika fənn olimpiadasının qalibinin tam orta təhsil səviyyəsini bitirdikdən sonrakı növbəti 2 tədris ili üçün, beynəlxalq müsabiqənin və ya yarışın qalibinin isə tam orta təhsil səviyyəsini bitirməklə qalibiyyət əldə etdikdən sonrakı növbəti 5 tədris ili üçün ali təhsil müəssisəsinə tələbə qəbulunda yalnız bir dəfə müsabiqədənkənar qəbul olunmaq hüququ vardır. "Müsabiqədənkənar qəbulun aparıldığı ixtisaslar", "Beynəlxalq fənn olimpiadalarının siyahısı", "Respublika fənn olimpiadalarının siyahısı" və "Beynəlxalq müsabiqələrin və yarışların siyahısı" Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 229 nömrəli Qərarında əks olunmuşdur (**http://www.e-qanun.az/framework/42536**).

4. Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin müsabiqədənkənar qəbulu üçün sənədlərin qəbulu və ixtisas seçimi DİM tərəfindən müəyyən olunan müddətdə və qaydada aparılmışdır.

Ali təhsil müəssisələrinə bu il 49988 plan yeri ayrılmışdı.

Qəbul planı ötən illə müqayisədə 2.36 faiz artırılmışdı

2021/2022-ci tədris ili üçün respublikanın ali təhsil müəssisələrinə qəbul üçün 49988 yer ayrılmışdı. Bunlardan 395 yer qəbul imtahanlarında müsabiqədənkənar iştirak edən abituriyentlər (300 yer ADA Universitetinə SAT balına əsasən qəbul olunanlar) tərəfindən tutulmuşdur. Qalan yerlərdən 36293-ü Azərbaycan bölməsi, 3020-si rus bölməsi, 10280-i isə hər iki bölmənin birgə müsabiqəsi üçün nəzərdə tutulmuşdu. Ümumilikdə qəbul planındakı 42061 yer dövlət, 7927 yer isə özəl ali təhsil müəssisələrinin payına düşürdü.

Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında qəbul üçün 22500 yer nəzərdə tutulmuşdu. Bunlardan 86 yer qəbul imtahanlarında müsabiqədənkənar iştirak edən abituriyentlər tərəfindən tutulmuşdur.

1.1 və 1.2 saylı şəkillərdəki diaqramlarda qəbul planında müsabiqə əsasında qəbul üçün ayrılmış yerlərin paylanması təsvir olunub:

QƏBUL PLANI



Şəkil 1.1



Şəkil 1.2

Müsabiqədənkənar qəbulu nəzərə almasaq, ötən illə müqayisədə bu il dövlət ali təhsil müəssisələrinin qəbul planında 2.18% (889 yer), özəl ali təhsil müəssisələrinin qəbul planı isə 2.39% (185 yer), ümumilikdə isə 1074 yer (2.21%) artım müşahidə edilmişdir. Müsabiqədənkənar qəbul ötən illə müqayisədə 80 yer, bu yerlərlə birlikdə ümumi qəbul planı isə 2.36% (1154 yer) artmışdır.

Plan yerlərinin təhsil formaları üzrə bölgüsünün müqayisəsi göstərir ki, 2021-ci ildə Azərbaycan və rus bölmələrinin birgə müsabiqəsi üçün ayrılan yerlər 9.55% azalmışdır. Qeyd etmək lazımdır ki, cari ildə hər iki bölmənin birgə müsabiqəsi üçün ayrılan yerlər ümumi plan yerlərinin cəmi 20.56%-ni təşkil etmişdir. Bu göstərici 2020-ci ildə 23.27%, 2019-cu ildə 21.25%, 2018-ci ildə 21.44%, 2017-ci ildə 14.80%, 2016-cı ildə 18.73%, 2015-ci ildə 13.95%, 2014-cü ildə 13.87% olduğu halda, 2013-cü ildə 56.18% olmuşdu. 2013-cü illə müqayisədə son səkkiz ildə həyata keçirilən bu cür dəyişiklik arzuolunmaz haldır. Çünki bəzən Azərbaycan və rus bölmələrinin abituriyentləri eyni test suallarına cavab verdikləri halda, plan yerlərinin ciddi bölgüsü və müsabiqə vəziyyətinin fərqli olması nəticəsində bu bölmələrin eyni ixtisasları üzrə tam fərqli keçid balları yaranır. Plan yerləri birgə müsabiqə üçün ayrıldıqda isə həmin yerlərə bölməsindən asılı olmayaraq daha hazırlıqlı gənclər qəbul olunur.

Bu il ali təhsil müəssisələrinə müsabiqədə iştirak etmək hüququ qazananların 91.06%-i Azərbaycan, 8.94%-i isə rus bölməsinin abituriyentləri idi. Qeyd edək ki, hər iki bölmənin birgə müsabiqəsi üçün ayrılan yerlərin hesabına Azərbaycan bölməsinin abituriyentləri qəbul planının minimum 73.18, maksimum 93.91%-ni, rus bölməsinin abituriyentləri isə minimum 6.09, maksimum 26.82%-ni tuta bilərdilər. Göründüyü kimi, minimum və maksimum imkanlar arasında fərqin bu dərəcədə olması Azərbaycan bölməsində daha hazırlıqlı gənclərin ali təhsil müəssisələrinə qəbul olmaq imkanlarında süni maneələr yaradır.

İxtisas qrupları, ali təhsil müəssisələri, ayrı-ayrı təhsil formaları və bölmələr üzrə plan yerlərinin sayı haqqında tam məlumat 1.5 –1.7 saylı cədvəllərdə təqdim olunur.

Cədvəl 1.5

2021/2022-Cİ TƏDRİS İLİ ÜÇÜN RESPUBLİKANIN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU PLANI

İxtisas qrupu	QƏBUL PLANI													
	Müsabiqə əsasında qəbul												Müsabiqədənkənar qəbul	BÜTÖVLÜKDƏ
	Azərbaycan bölməsi üçün			Rus bölməsi üçün			Hər iki bölmənin birgə müsabiqəsi üçün			CƏMİ				
	Dövlət	Özəl	Ümumi	Dövlət	Özəl	Ümumi	Dövlət	Özəl	Ümumi	Dövlət	Özəl	Ümumi		
I	11752	445	12197	851	0	851	2036	470	2506	14639	915	15554	104	15658
II	7964	2390	10354	817	0	817	1235	1100	2335	10016	3490	13506	136	13642
III	8108	1727	9835	1027	10	1037	708	1175	1883	9843	2912	12755	98	12853
IV	2868	105	2973	210	0	210	405	375	780	3483	480	3963	7	3970
V	934	0	934	105	0	105	2646	130	2776	3685	130	3815	50	3865
CƏMİ	**31626**	**4667**	**36293**	**3010**	**10**	**3020**	**7030**	**3250**	**10280**	**41666**	**7927**	**49593**	**395**	**49988**

Cədvəl 1.6

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA TƏLƏBƏ QƏBULUNUN İXTİSAS QRUPLARI ÜZRƏ BÖLGÜSÜ

İxtisas qrupu	Qəbul planı (bütövlükdə)	Dövlət sifarişi			
		Müsabiqə əsasında qəbul	Müsabiqədən-kənar qəbul	Bütövlükdə	
				Sayı	faizi
I	15658	9860*	22	9882	43.92
II	13642	4209	1	4210	18.71
III	12853	4322	6	4328	19.24
IV	3970	2482**	7	2489	11.06
V	3865	1541	50	1591	7.07
CƏMİ	**49988**	**22414**	**86**	**22500**	**100.00**

Cədvəl 1.7

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI

№	TƏHSİL MÜƏSSİSƏSİ	QƏBUL PLANI			
		Azərbaycan bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Cəmi
1	Bakı Dövlət Universiteti	4837	795	450	6082
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	2510	185	645	3340
3	Azərbaycan Texniki Universiteti	2070	150	15	2235
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	1670	145	155	1970
5	Azərbaycan Tibb Universiteti	789	45	11	845
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	3445	200	50	3695
7	Azərbaycan Dövlət İqtisad Universiteti	3114	525	180	3819
8	Azərbaycan Dillər Universiteti	1315	300	85	1700
9	Bakı Slavyan Universiteti	820	310	10	1140
10	Bakı Mühəndislik Universiteti	689	0	399	1088
11	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	261	185	0	446
12	"ADA" Universiteti	0	0	371	371
13	Bakı Musiqi Akademiyası	0	0	149	149
14	Azərbaycan Milli Konservatoriyası	15	0	193	208
15	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	195	10	427	632
16	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	60	0	240	300
17	Azərbaycan Turizm və Menecment Universiteti	300	25	75	400
18	Bakı Xoreoqrafiya Akademiyası	0	0	110	110
19	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	0	0	1657	1657

* Əlavə olaraq maksimum 230 yer Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Dövlət Universitetinin və Lənkəran Dövlət Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

** Əlavə olaraq maksimum 95 yer Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Dövlət Universitetinin və Lənkəran Dövlət Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

Cədvəl 1.7 (ardı)

№	TƏHSİL MÜƏSSİSƏSİ	QƏBUL PLANI			
		Azərbaycan bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Cəmi
20	Milli Aviasiya Akademiyası	327	120	64	511
21	Azərbaycan Dövlət Dəniz Akademiyası	140	0	60	200
22	Bakı Ali Neft Məktəbi	0	0	259	259
23	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	140	0	0	140
24	Naxçıvan Dövlət Universiteti	1260	0	30	1290
25	Naxçıvan Müəllimlər İnstitutu	410	0	20	430
26	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	910	0	615	1525
27	Gəncə Dövlət Universiteti	1699	15	20	1734
28	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	380	0	570	950
29	Sumqayıt Dövlət Universiteti	1515	0	140	1655
30	Mingəçevir Dövlət Universiteti	1055	0	0	1055
31	Lənkəran Dövlət Universiteti	1700	0	30	1730
32	Azərbaycan Kooperasiya Universiteti	810	0	310	1120
33	Azərbaycan İlahiyyat İnstitutu	72	0	0	72
34	"Azərbaycan" Universiteti	745	0	50	795
35	Qərbi Kaspi Universiteti	0	0	995	995
36	Xəzər Universiteti	0	0	960	960
37	Bakı Avrasiya Universiteti	895	10	0	905
38	Bakı Qızlar Universiteti	440	0	0	440
39	"Odlar Yurdu" Universiteti	180	0	815	995
40	Bakı Biznes Universiteti	890	0	15	905
41	"Naxçıvan" Universiteti (Naxçıvan şəhəri)	425	0	15	440
42	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	210	0	90	300
	CƏMİ	**36293**	**3020**	**10280**	**49593**

İxtisaslar üzrə ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında tələbə qəbulunun proqnozu 1.1.5 saylı cədvəldə təqdim olunub (bax: səh. 184-198).

Ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün
78622 nəfər abituriyent ərizə vermişdi.
Ərizələrin sayı ötən ildəki ilə müqayisədə 6.97% azdır

Bu il ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün 78622 abituriyent ərizə vermişdi. Onların 2370-i orta ixtisas, 150-si ali (2-ci ixtisas kimi), qalanları isə tam orta təhsillidir. Sənəd verənlərin sayı ötən ildəkindən 5890 nəfər az idi.

Yalnız orta ixtisas təhsili müəssisələrinə (tam orta təhsil bazasında) sənəd verənləri də (7599 nəfər) nəzərə alsaq, o zaman ərizə verənlərin sayı bütövlükdə 86221-ə bərabər olacaq (1.3 saylı şəklə bax).

Qeyd edək ki, abituriyentlərə, eyni zamanda həm I–IV qruplardan hər hansı birinin ixtisasları üzrə, həm də V qrupun ixtisasları (xüsusi qabiliyyət tələb edən musiqi, incəsənət və idman ixtisasları) üzrə müsabiqədə iştirak etmək imkanı yaradılmışdı. Nəticədə, 48755 abituriyent (56.55%) bu imkandan yararlanmışdı. Ümumiyyətlə, 15467 abituriyent (17.94%) yalnız I–IV qruplardan birinə, 7219 abituriyent (8.37%) yalnız V qrupa və 7181 abituriyent (8.33%) həm orta ixtisas təhsili müəssisələrinə, həm də I–IV qruplardan birinə daxil olan ixtisaslara qəbul olmaq üçün ərizə verib.

Ali təhsil müəssisələrinə sənəd verən abituriyentlərin 50.37%-ni (39602 nəfər) oğlanlar, 49.63%-ni (39020 nəfər) isə qızlar təşkil etmişdir.

Bölmələr üzrə ayrı-ayrılıqda ali təhsil müəssisələrinə ərizə verən abituriyentlərin cinsi tərkibinə nəzər saldıqda mənzərənin bir qədər fərqli

QRUPLAR ÜZRƏ ƏRİZƏLƏRİN PAYLANMASI



Şəkil 1.3

olduğunu müşahidə edirik. Belə ki, Azərbaycan bölməsində oğlan abituriyentlərin (50.52%), rus bölməsində isə qız abituriyentlərin (51.17%) sayı daha çoxdur.

Müasir informasiya texnologiyalarının tətbiqi sayəsində Dövlət İmtahan Mərkəzində gənclər haqqında çoxşaxəli informasiya bazası formalaşdırılmışdır. DİM hər il qəbul imtahanlarının nəticələri əsasında "Qəbul imtahanlarının nəticələrinin gender aspektləri", "Neft-qaz profilli ixtisaslar statistikada" və "Kənd təsərrüfatı profilli ixtisaslar statistikada" adlı təhlili materiallar da hazırlayaraq "Abituriyent" jurnalının xüsusi buraxılışlarında dərc edir.

Cari ildə 19295 subbakalavr qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq üçün ərizə vermişdir. Qeyd edək ki, bu il qəbul kampaniyasında iştirak etmiş subbakalavrlara öz istəklərindən asılı olaraq, həm imtahanda topladıqları bal ilə ümumi qaydada, həm də qəbul imtahanlarında iştirak etmədən orta ixtisas təhsili səviyyəsində bitirdikləri ixtisaslara uyğun ali təhsil pilləsinin ixtisasları üzrə keçirilən müsabiqədə (subbakalavr kimi) iştirak etmək imkanı verilmişdir. Ərizə verən subbakalavrlardan 15030-u (77.90%) ixtisas seçimində yalnız subbakalavr kimi, 536-sı (2.78%) yalnız abituriyent kimi, 530-u (2.75%) isə həm abituriyent, həm də subbakalavr kimi iştirak etmişdir. 3199 (16.58%) subbakalavr isə ixtisas seçimində iştirak etməmişdir.

ƏRİZƏ VERƏN SUBBAKALAVRLARIN PAYLANMASI

Şəkil 1.4

2021-ci ildə ümumtəhsil müəssisələrinin 83157 məzunu olmuşdur.
Ötən illə müqayisədə məzunların sayı 3315 nəfər artmışdır

Son bir neçə ildə məzunların sayında azalma müşahidə olunmuşdur. Belə ki, son on yeddi ildə məzunların sayı 32.45% azalmışdır. Qeyd olunan azalma meylinin fonunda cari ildə məzunların sayı ötən illə müqayisədə 3315 nəfər artmışdır. Eyni zamanda qeyd etmək lazımdır ki, son illər sənəd verənlərin say tərkibində cari ilin məzunlarının payı azalmamış, əksinə artmışdır. Bu il isə sənəd verənlər arasında cari ilin məzunlarının payı ötən ilə nisbətən təxminən 2% artsa da, məzunların mütləq sayı azalmışdır. Belə ki, builki məzunların cari ildə sənəd verənlərin 82.76%-ni (62982 nəfər) təşkil etməsinə baxmayaraq, ötən illə müqayisədə ərizə verən cari ilin məzunlarının sayı 2491 nəfər azalmışdır. Müqayisə üçün bildirək ki, 2010-cu ildə ali təhsil müəssisələrinə sənəd verənlər arasında həmin ilin məzunlarının payı 55.63%, 2011-ci ildə 58.39, 2012-ci ildə 58.84, 2013-cü ildə 60.66, 2014-cü ildə 64.05, 2015-ci ildə 66.04, 2016-cı ildə 68.31, 2017-ci ildə 75.83, 2018-ci ildə 77.86%, 2019-cu ildə 87.54% və 2020-ci ildə 80.52%-olmuşdu. Göründüyü kimi, 2010-cu ildən etibarən sənəd verənlərin arasında əvvəlki illərin məzunlarının payı, əsasən, getdikcə azalmış, cari illərin məzunlarının payı isə artmışdır. Bunun əsas səbəbi hər il ali təhsil müəssisələrinə qəbul üçün ayrılan plan yerlərinin ciddi şəkildə artırılması və nəticədə qəbul olanların sayı artdıqca, növbəti il üçün əvvəlki illərin məzunları arasında qalığın, yəni qəbul olmayanların azalmasıdır.

Sənəd verənlərin ümumtəhsil məktəbini qurtarma illəri üzrə tərkibi aşağıdakı cədvəl və diaqramda təqdim olunur.

Cədvəl 1.8

Ümumtəhsil məktəbini qurtardığı il	Abituriyentlərin sayı	Abituriyentlərin sayı ümumi saya nisbətən, %-lə
2012-ci və ondan əvvəlki illər	2770	3.64
2013	377	0.50
2014	456	0.60
2015	452	0.59
2016	581	0.76
2017	619	0.81
2018	674	0.89
2019	968	1.27
2020	6223	8.18
2021	62982	82.76



Şəkil 1.5

Ali təhsil müəssisələrinə qəbul üçün ayrılmış yerlərin 31.36%-i I, 27.23%-i II, 25.72%-i III, 7.99%-i IV, 7.69%-i isə V qrupun payına düşür. Ötən illə müqayisədə plan yerləri II qrupda 1.34% və IV qrupda 3.29% azalmış, I, III və V qruplarda isə uyğun olaraq 4.73, 4.2 və 4.84% artmışdır (bax: səh. 24, cədvəl 1.10).

I ixtisas qrupu üzrə ən çox plan yeri "İnformasiya texnologiyaları" (1168 yer), "Kompüter mühəndisliyi" (871 yer) və "Riyaziyyat və informatika müəllimliyi" (735 yer) ixtisaslarına, II ixtisas qrupu üzrə "İqtisadiyyat" (1956 yer), "Biznesin idarə edilməsi" (1527 yer) və "Maliyyə" (1402 yer) ixtisaslarına, III ixtisas qrupu üzrə "Xarici dil müəllimliyi (ingilis dili)" (1325 yer), "İbtidai sinif müəllimliyi" (1220 yer) və "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" (1160 yer) ixtisaslarına, IV ixtisas qrupu üzrə "Ekologiya" (585 yer), "Tibb" (580 yer) və "Biologiya müəllimliyi" (374 yer) ixtisaslarına, V ixtisas qrupu üzrə "Məşqçilik" (1322 yer), "Dizayn" (590 yer) və "Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" (479 yer) ixtisaslarına ayrılmışdır.

İxtisas qrupları üzrə qəbul planları və abituriyent ərizələrinin paylanması 1.9 saylı cədvəldə təqdim edilir. Abituriyentlərin istəklərinin qruplar üzrə paylanmasına diqqət yetirək. Bu il abituriyentlərin 36.38%-i (28605 nəfər) I qrupa, 21.31%-i (16758 nəfər) II qrupa, 26.75%-i (21035 nəfər) III qrupa, 6.37%-i (5005 nəfər) IV qrupa, 71.21%-i isə (55985 nəfər) V qrupa, bunlardan isə 48766 abituriyent V qrupla yanaşı, digər qruplardan birinə də ərizə vermişdi.

Cədvəl 1.9

İXTİSAS QRUPLARI ÜZRƏ QƏBUL PLANLARI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN PAYLANMASI

№	İXTİSAS QRUPU	Qəbul planı				Ərizələrin sayı		
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsi	Rus bölməsi	Bütövlükdə
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	12197	851	2506	15554	26199	2406	28605
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	10354	817	2335	13506	15126	1632	16758
III	Humanitar, pedaqogika ixtisasları	9835	1037	1883	12755	19407	1628	21035
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	2973	210	780	3963	4383	622	5005
V	İncəsənət, musiqi, idman ixtisasları	934	105	2776	3815	52017	3968	55985
CƏMİ		**36293**	**3020**	**10280**	**49593**	**71844**	**6778**	**78622**

Qəbul planının və abituriyent ərizələrinin son iki il üzrə müqayisəli təhlili (bax: cədvəl 1.10) göstərir ki, bu il ali təhsil müəssisələrinə qəbul planının 2.21% artması və ərizələrin sayının 6.97% azalması müsabiqə vəziyyətinin 9.01% aşağı düşməsinə səbəb olmuşdur. Müsabiqə vəziyyəti, I, III və V ixtisas qruplarında azalmış, II və IV ixtisas qrupunda isə artmışdır.

Cədvəl 1.10

2020 VƏ 2021-Cİ İLLƏR ÜZRƏ QƏBUL PLANI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYININ MÜQAYİSƏSİ

İxtisas qrupu	Qəbul planı (illər üzrə)			Ərizə vermiş abituriyentlərin sayı (illər üzrə)			Müsabiqə vəziyyəti (illər üzrə)		
	2020	2021	fərq, %-lə	2020	2021	fərq, %-lə	2020	2021	fərq, %-lə
I	14852	15554	4.73	30980	28605	-7.67	2.086	1.839	-11.84
II	13689	13506	-1.34	14237	16758	17.71	1.040	1.241	19.33
III	12241	12755	4.20	22608	21035	-6.96	1.847	1.649	-10.72
IV	4098	3963	-3.29	5160	5005	-3.00	1.259	1.263	0.32
V	3639	3815	4.84	58018	55985	-3.50	15.943	14.675	-7.95
CƏMİ	**48519**	**49593**	**2.21**	**84512**	**78622**	**-6.97**	**1.742**	**1.585**	**-9.01**

("-" ötən illə müqayisədə azalmanı, "+" isə artmanı göstərir)

Cari ildə ən yüksək müsabiqə vəziyyəti V ixtisas qrupunda (14.66) olub. Müsabiqə vəziyyətinə görə ikinci yerdə I ixtisas qrupu (1.84), sonrakı yerlərdə isə III ixtisas qrupu (1.65), IV ixtisas qrupu (1.26) və II ixtisas qrupu (1.24) gəlir.

Bu il I, III və V ixtisas qruplarında müsabiqə vəziyyəti ötən ilə nəzərən zəifləmişdir. Bunun əsas səbəbi bu ixtisas qruplarında qəbul planının artması və ərizələrin azalmasıdır.

V ixtisas qrupuna daxil olan ixtisaslar üzrə müsabiqə vəziyyətinin yüksək olması əsasən I–IV qruplardan hər hansı birinə ərizə verən abituriyentlərə həm də V qrupa ərizə vermək imkanının verilməsi səbəbi ilə bu qrupa ərizə verənlərin sayının çox olması ilə bağlıdır. Nəzərinizə çatdırırıq ki, abituriyentlər xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmaq üçün, öncə V qrupa ərizə verməli və qabiliyyət imtahanı vermək üçün müvafiq komissiyalar üzrə qeydiyyatdan keçməlidirlər. Bu cür ərizə verən abituriyentlərin sayı çox olsa da, qabiliyyət imtahanı vermək üçün qeydiyyatdan keçən və imtahanda iştirak edən abituriyentlərin sayı ərizə verənlərdən az olub.

Bildiyimiz kimi, cari ildə subbakalavrlara qəbul imtahanında iştirak etmədən ali təhsil müəssisələrinə qəbul olmaq üçün müsabiqədə iştirak imkanı yaradılmışdır. Nəticədə, 15030 subbakalavr bu imkandan yararlanmış, onların 34.02%-i I, 36.35%-i II, 17.99%-i III, 10.63%-i IV və 2.19%-i V qrupa ərizə vermişdir. Subbakalavrlar diplomlarındakı ixtisaslara uyğun olaraq bir neçə ixtisas qrupu üzrə müsabiqədə iştirak edə bilərdilər və bəzi subbakalavrlar bu imkandan yararlanmışdır.

İxtisas qrupları üzrə qəbul planı ilə ərizələrin sayı arasında qeyri-tarazlıq vardır.

I və V qruplarda ərizələrin, II qrupda isə plan yerlərinin nisbi çəkisi böyükdür

2021-ci il üçün ali təhsil müəssisələrinin qəbul planının, abituriyent və subbakalavr ərizələrinin qruplar üzrə paylanması 1.6 saylı şəkildə əksini tapıb. Təhlil göstərir ki, ixtisas qrupları üzrə qəbul planı və ərizələrin nisbi çəkiləri arasında qeyri-tarazlıq vardır. Bu halın əyani şəkildə nümayiş etdirilməsi üçün ali təhsil müəssisələrinin qəbul planının və abituriyentlərlə subbakalavrların ərizələrinin nisbi saylarının ixtisas qrupları üzrə paylanmasına 1.7 saylı şəkilə diqqət yetirək. Göründüyü kimi, ümumi qəbul planının II ixtisas qrupu üçün ayrılmış hissələri ərizələrin müvafiq ixtisas qruplarına düşən hissələrindən böyük, I və V ixtisas qruplarında, əksinə, kiçik, III və IV ixtisas qruplarında isə demək olar ki, eynidir. II qrupda plan yerlərinin çox, ərizələrin sayının nisbətən az olması müsabiqə vəziyyətinə mənfi təsir göstərib. Nəticədə, hazırlıq səviyyəsi o qədər də yüksək olmayanlar ali təhsil almaq imkanı əldə ediblər. Bu baxımdan, gələcəkdə ali təhsil müəssisələrinə plan yerləri ayrılarkən mövcud reallıqlar nəzərə alınmalı, qəbul planında kəskin sıçrayışlar edilməməli, perspektivlər müəyyən olunmalı, bir sözlə, uğurlu qəbul planı siyasəti aparılmalıdır.

2021-Cİ İLDƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI VƏ ƏRİZƏLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ SAYI

(abituriyentlər və subbakalavrlar)



Şəkil 1.6

2021-Cİ İLDƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI VƏ ƏRİZƏLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ NİSBİ SAYI (%-lə)



Şəkil 1.7

İxtisas qrupları üzrə dövlət və özəl ali təhsil müəssisələrinin qəbul planları arasındakı fərqi göstərən diaqram 1.8 saylı şəkildə təqdim edilib. Diaqramdan göründüyü kimi, özəl ali təhsil müəssisələri, əsasən, humanitar və iqtisadiyyat ixtisasları üzrə mütəxəssis hazırlığı həyata keçirir. Abituriyentlər özəl ali təhsil müəssisələrinin ixtisaslarını ərizələrində axırıncı mövqelərdə göstərdiklərindən bu təhsil müəssisələrinin çoxunda müsabiqə vəziyyəti aşağı olur. Onlar ərizələrinin ilk mövqelərində, əsasən, dövlət ali təhsil müəssisələrinin ixtisaslarını kodlaşdırırlar. 2021-ci ildə sənəd verən abituriyentlər arasında özəl ali təhsil müəssisələrinin ixtisas kodlarını ərizələrində birinci yerdə göstərənlər cəmi 6.19%, subbakalavrlar arasında isə cəmi 9.79% olub. 2000-ci illərin birinci yarısında bu göstərici 0.67% olmuşdu. İyirmi ilə yaxın vaxt keçməsinə baxmayaraq, bu sahədə irəliləyiş çox cüzidir. Bu baxımdan, hazırda da özəl ali təhsil müəssisələrinə qəbul olanlar, əsasən, dövlət ali təhsil müəssisələrinə qəbul ola bilməyənlərdir ki, onların da böyük əksəriyyətinin biliyi kafidən yuxarı deyildir. 2010-cu ilə qədər yalnız ödənişli əsaslarla təhsil verdiyi üçün özəl ali təhsil müəssisələrinə, əsasən, bu cür abituriyentlərin qəbul olması həmin müəssisələrin dövlət ali təhsil müəssisələri ilə rəqabət aparmaq imkanlarını məhdudlaşdırırdı. Bu gün özəl ali təhsil müəssisələri dövlət ali təhsil müəssisələri ilə dövlət sifarişi əsasında qəbul aparılan yerləri tutmaq üçün rəqabət aparmaq, ümumiyyətlə, daha bilikli gəncləri özlərinə cəlb etmək imkanına malikdirlər. Bunun üçün isə onlar həm təhsilin səviyyəsini qaldırmalı, həm də yüksək intellektli tələbələrə təhsil haqqının məbləğində əhəmiyyətli güzəştlər etməlidirlər. Təəssüf ki, bir çox özəl ali təhsil müəssisələri bu məsələdə o qədər də maraqlı deyil. Ümumiyyətlə, ayrı-ayrı ali təhsil müəssisələrinə qəbul olan gənclərin bilik səviyyələri bir-birindən ciddi fərqlənir (bax: səh. 450, cədvəl 6.9). Hesab edirik ki, bu amil mütləq birinci kursların tədris planlarında nəzərə alınmalıdır.

2021-Cİ İLDƏ DÖVLƏT VƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ İXTİSAS QRUPLARI ÜZRƏ QƏBUL PLANLARI



Şəkil 1.8

Abituriyent ali təhsil ocağını seçməzdən əvvəl valideynləri, dostları, tanışları ilə məsləhətləşir, maraq göstərdiyi ixtisasların hansı təhsil müəssisələrində olması, həmin təhsil müəssisələrində təhsilin səviyyəsi, biliyin qiymətləndirilməsi meyarları, ali təhsil müəssisəsini bitirdikdən sonra iş yeri tapmaq imkanları, gələcək diplomunun ölkə daxilində və xaricdə tanınması ilə maraqlanır. Bütün bunları nəzərə alaraq, abituriyent meyil göstərdiyi ixtisasların aid olduğu ali təhsil müəssisələri arasında seçim aparır və üstünlük verdiyi ali təhsil müəssisəsinin (müəssisələrinin) ixtisaslarını ərizəsində müxtəlif mövqelərdə qeyd edir.

Müəyyən bir ixtisasın və həmin ixtisasın tədris olunduğu təhsil müəssisəsinin nüfuzundan asılı olaraq ixtisaslar üzrə müsabiqə vəziyyəti fərqli olur. Bildiyimiz kimi, son illərdə abituriyentlər topladıqları balları öyrəndikdən sonra ixtisas seçir, beləliklə də böyük nüfuza malik olan ixtisasları öz ərizələrində yalnız yüksək bal toplamış abituriyentlər qeyd edirlər. Nəticədə, bu cür ixtisaslar üzrə müsabiqə vəziyyəti yüksək olduğu üçün keçid balları və orta ballar da yüksək olur.

Cədvəl 1.11-da ayrı-ayrı ali təhsil müəssisələrinin ixtisaslarına qəbul olan abituriyentlərin qruplar üzrə orta bal göstəriciləri təqdim edilir. I ixtisas qrupu üzrə Bakı Ali Neft Məktəbi (637.018), Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (562.670), Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası (559.538), ADA Universiteti (554.748), II ixtisas qrupu üzrə Bakı Ali Neft Məktəbi (589.725), ADA Universiteti (522.257), III ixtisas qrupu üzrə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası (606.338), ADA Universiteti (587.393), Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (576.131), Milli Aviasiya Akademiyası (549.456), IV ixtisas qrupu üzrə isə Azərbaycan Tibb Universitetinin (596.884) ixtisaslarına qəbul olan abituriyentlərin orta bal göstəriciləri digər ali təhsil müəssisələri ilə müqayisədə daha yüksəkdir. Cədvəldən göründüyü kimi, yüksək hazırlıqlı abituriyentlərin Bakı Ali Neft Məktəbinə, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına, ADA Universitetinə, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasına meyil və marağı olduqca böyükdür.

Özəl ali təhsil müəssisələri arasında yüksək hazırlıqlı abituriyentlər Xəzər Universitetinə üstünlük verirlər. Cari ildə bu universitetin ixtisaslarına qəbul olan abituriyentlərin orta bal göstəriciləri I qrup üzrə 450.492, II qrup üzrə 357.760, III qrup üzrə 390.707, IV qrup üzrə 385.774 bal olmuşdur. Digər özəl ali təhsil müəssisələrinə və regionlarda fəaliyyət göstərən dövlət ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin orta bal göstəriciləri isə aşağı olub.

I ixtisas qrupu üzrə Naxçıvan Müəllimlər İnstitutu, Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.), Azərbaycan Kooperasiya Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.), II ixtisas qrupu üzrə Azərbaycan Texniki Universiteti, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.), Lənkəran Dövlət Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, "Naxçıvan" Universiteti (Naxçıvan ş.), Qərbi Kaspi Universiteti, Mingəçevir Dövlət Universiteti, Azərbaycan Kooperasiya Universiteti, Bakı Slavyan Universiteti, "Odlar Yurdu" Universiteti, "Azərbaycan" Universiteti, Bakı Avrasiya Universiteti, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Bakı Biznes Universiteti, Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.), III ixtisas qrupu üzrə Azərbaycan Kooperasiya Universiteti, IV ixtisas qrupu üzrə Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri), Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.), Azərbaycan Kooperasiya Universiteti, Mingəçevir Dövlət Universitetinin ixtisaslarına qəbul olan abituriyentlərin orta bal göstəriciləri 250-dən aşağı olub. Ümumiyyətlə, əvvəl də qeyd etdiyimiz kimi, II ixtisas qrupunda plan yerlərinin çox, ərizələrin isə az olması nəticəsində bu qrupa daxil olan ixtisaslar üzrə müsabiqə vəziyyəti çox aşağı olmuş, nəticədə, II qrupda qəbul olanlar arasında zəif hazırlıqlı abituriyentlər çoxalmışdır.

V ixtisas qrupu üzrə orta bal göstəricisi yüksək olan ali təhsil müəssisələri kimi Azərbaycan Dövlət İqtisad Universiteti (192.202) və Bakı Mühəndislik Universitetini (177.945) qeyd etmək olar. Bu göstəricilərin yüksək olması qeyd olunan ali təhsil müəssisələrində V ixtisas qrupu üzrə xüsusi qabiliyyət imtahanı tələb etməyən "Dizayn" ixtisasına qəbulun aparılması ilə bağlıdır.

Cədvəl 1.11

AYRI-AYRI ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İXTİSASLARINA QƏBUL OLAN ABİTURİYENTLƏRİN QRUPLAR ÜZRƏ ORTA BAL GÖSTƏRİCİLƏRİ (2021-Cİ İL ÜZRƏ)

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	Qruplar üzrə ortastatistik ballar					
		I qrup	II qrup	III qrup	IV qrup	Bütövlükdə (I–IV qruplar üzrə)	V qrup
1	Bakı Dövlət Universiteti	386.864	286.143	472.315	416.554	407.631	123.511
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	403.034	312.461			392.367	---
3	Azərbaycan Texniki Universiteti	312.299	249.327			304.043	---
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	302.101	233.906			291.500	161.672
5	Azərbaycan Tibb Universiteti				596.884	596.884	---
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	376.234	323.512	397.778	362.601	385.404	112.591
7	Azərbaycan Dövlət İqtisad Universiteti	394.810	413.828	477.112	283.244	408.870	192.202
8	Azərbaycan Dillər Universiteti		219.764	496.117		446.263	---
9	Bakı Slavyan Universiteti		187.271	378.537		352.312	---
10	Bakı Mühəndislik Universiteti	403.432	314.575		381.654	382.285	177.945
11	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	562.670	461.978	576.131		514.356	---
12	"ADA" Universiteti	554.748	522.257	587.393		558.985	---
13	Bakı Musiqi Akademiyası					---	139.051
14	Azərbaycan Milli Konservatoriyası					---	103.267

Cədvəl 1.11 (ardı)

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	Qruplar üzrə ortastatistik ballar					
		I qrup	II qrup	III qrup	IV qrup	Bütövlükdə (I–IV qruplar üzrə)	V qrup
15	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti		237.915	343.083		319.265	116.094
16	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	229.311		289.204		280.911	148.303
17	Azərbaycan Turizm və Menecment Universiteti	284.493	268.155	439.735		321.503	---
18	Bakı Xoreoqrafiya Akademiyası					---	84.663
19	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası		237.250		384.648	339.982	118.934
20	Milli Aviasiya Akademiyası	359.973	301.693	549.456		369.868	---
21	Azərbaycan Dövlət Dəniz Akademiyası	362.706				362.706	---
22	Bakı Ali Neft Məktəbi	637.018	589.725			631.132	---
23	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	559.538	459.125	606.338		529.875	---
24	Naxçıvan Dövlət Universiteti	313.314	336.202	425.441	454.032	386.714	96.777
25	Naxçıvan Müəllimlər İnstitutu	246.717		315.332	---	307.803	88.444
26	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	238.095	244.535		228.083	237.533	---
27	Gəncə Dövlət Universiteti	314.153	224.411	409.861	339.362	343.958	119.565
28	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	221.758	181.386		199.075	205.909	97.182
29	Sumqayıt Dövlət Universiteti	295.690	248.987	391.677	292.967	330.365	---
30	Mingəçevir Dövlət Universiteti	293.657	204.869	373.330	176.100	306.741	---
31	Lənkəran Dövlət Universiteti	250.115	241.626	359.539	293.362	291.710	91.416
32	Azərbaycan Kooperasiya Universiteti	229.807	193.129	247.211	180.506	228.252	---
33	Azərbaycan İlahiyyat İnstitutu			288.371		288.371	---
34	"Azərbaycan" Universiteti	315.780	184.976	314.784		284.493	---
35	Qərbi Kaspi Universiteti	286.741	205.411	264.959	281.956	264.821	104.783
36	Xəzər Universiteti	450.492	357.760	390.707	385.774	399.461	127.792
37	Bakı Avrasiya Universiteti	---	184.885	292.652		274.045	---
38	Bakı Qızlar Universiteti	294.723	---	340.625	---	336.907	---
39	"Odlar Yurdu" Universiteti	290.783	185.776	298.988	259.458	279.998	112.343
40	Bakı Biznes Universiteti	318.189	183.165	298.643		248.371	---
41	"Naxçıvan" Universiteti (Naxçıvan şəhəri)	314.171	209.635	287.807		267.955	---
42	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası		183.831	327.589		306.679	---

1992–2021-ci illər ərzində ali təhsil müəssisələri üzrə ən yüksək müsabiqə vəziyyəti 2008-ci ilə, ən aşağı müsabiqə vəziyyəti isə 2019-cu ilə təsadüf edir

1.9 saylı şəkildə bütövlükdə ali təhsil müəssisələrinə ayrılan plan yerləri və ərizələrin illər üzrə dinamikası təqdim olunub.

1992–2021-ci illər üzrə plan yerləri və abituriyent ərizələrinin dinamikasının müqayisəli təhlili göstərir ki, bu illər ərzində ali təhsil müəssisələrinin qəbul planı 2.95 dəfə, abituriyent ərizələrinin sayı isə 1.95 (subbakalavrlarla birlikdə 2.32) dəfə artıb. İllər üzrə bu göstəricilərin dinamikası müxtəlif olub. Təqdim olunacaq abituriyent ərizələrinin sayının əvvəlcədən proqnozlaşdırılmasına baxmayaraq, qəbul planları tərtib edilərkən heç də həmişə abituriyentlərin gözlənilən sayı nəzərə alınmayıb. Ali təhsil müəssisələri üçün plan yerləri ən çox 2021-ci ildə, ən az 1993-cü ildə ayrılıb. Abituriyent ərizələrinin sayı isə ən az 1992-ci ildə, ən çox 2008-ci ildə olub. Ötən illər ərzində ən aşağı müsabiqə vəziyyəti 2019-cu ilə təsadüf edir. Qeyd etmək lazımdır ki, müsabiqə vəziyyətinin aşağı olması qəbulun keyfiyyətinə mənfi təsir göstərir, ixtisaslar üzrə keçid ballarının aşağı düşməsinə səbəb olur.



Şəkil 1.9

İyunun 24-də və avqustun 12-də qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən imtahanı veriblər

Dövlət İmtahan Mərkəzi "Azərbaycan Respublikasında Dövlət dili haqqında" qanunu rəhbər tutaraq qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər üçün "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən test imtahanı keçirir. Bu il "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən imtahan üç dəfə – mayın 20-də (Bakı, Naxçıvan, Abşeron, Sumqayıt, Xaçmaz, Quba, Qusar, Gəncə, Mingəçevir, Şəmkir, Tovuz, Zaqatala, Qax, Qəbələ, Şəki, Balakən, Göyçay, Bərdə, Yevlax, Lənkəran və Şirvanda), iyunun 24-də (Bakı, Naxçıvan, Gəncə, Şəki, Xaçmazda) və avqustun 12-də (Bakı, Gəncə, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran, Xaçmazda) keçirilib. Abituriyentlərin 30 test tapşırığından ibarət suallara cavab vermələri üçün 45 dəqiqə vaxt ayrılmışdı. İmtahanın nəticələri "məqbul" və "qeyri-məqbul"la qiymətləndirilmiş və "məqbul" alan

abituriyentlər ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə keçirilən müsabiqəyə buraxılıb. Hər düzgün cavab bir balla qiymətləndirilib, səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərməyib. Abituriyentin "məqbul" alması üçün onun topladığı bal 15-dən az olmamalı idi. 2020-ci ildə keçirilmiş Azərbaycan dili fənni üzrə imtahandan "məqbul" alan abituriyentlər cari ildə ali təhsil müəssisələri və tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün müsabiqəyə cari ildə keçirilən "Azərbaycan dili" (dövlət dili kimi) fənni üzrə müvafiq imtahanda iştirak etmədən buraxılıb.

Azərbaycan Respublikasının tədris Azərbaycan dilindən fərqli dillərdə aparılan tam orta təhsil müəssisələrini cari ildə bitirən abituriyentlərin buraxılış imtahanı çərçivəsində verdikləri "Azərbaycan dili" (dövlət dili kimi) fənni imtahanı üzrə nisbi balı ən azı 50 olduqda, həmin nəticələr əsas götürülüb və onlar "məqbul" almış hesab olunub. İmtahanda nisbi balı 50-dən az olan abituriyentlər isə "qeyri-məqbul" almış hesab olunub və onlar "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən yenidən imtahan veriblər.

Mayın 20-də keçirilən I imtahanda iştirak edən 7248 abituriyentdən 4678-i "məqbul" alıb. İyunun 24-də keçirilən II imtahanda iştirak edən 2275 abituriyentdən 1366-sı "məqbul" alıb. Avqustun 12-də keçirilən III imtahanda isə 480 abituriyent iştirak edib və onlardan 314-ü "məqbul" alıb. Qeyd edək ki, keçirilən imtahanlarda "qeyri-məqbul" alan və yaxud imtahanlarda iştirak etməyən abituriyentlər (qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verənlər) 2021-ci ildə ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə keçirilən müsabiqədə iştirak etmək hüququnu itiriblər.

I–IV qruplar üzrə imtahanlara 6743 nəzarətçi, 895 imtahan rəhbəri cəlb olunub. Onların hər birinin fəaliyyəti təhlil edilib və qiymətləndirilib

Hər il qəbul imtahanlarının idarə olunmasına elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrin yüzlərlə nümayəndəsi, imtahanların gedişinə nəzarət işinə isə minlərlə məktəb müəllimi cəlb olunur. Dövlət İmtahan Mərkəzi imtahanların düzgün və obyektiv idarə olunmasına, zallarda nəzarət prosesinin təlimata uyğun həyata keçirilməsinə böyük diqqət yetirir və bu sahədəki fəaliyyətini mütəmadi olaraq təkmilləşdirir. Təsdiq edilmiş iş qrafikinə uyğun olaraq respublikanın bütün rayonları üzrə ümumtəhsil müəssisələrində nəzarətçi bazasına əlavə edilmiş yeni və təcrübəsi az olan nəzarətçi-müəllimlərə yanvar və fevral aylarında Koronavirus (COVID-19) pandemiyasını nəzərə alaraq onlayn rejimdə seminar-məşğələlər keçirilib, nəzarətçi-müəllimlər imtahan qaydaları ilə təlimatlandırılıb. Nəzarətçilərdə imtahan prosesi barədə daha aydın təsəvvür yaratmaq üçün seminarlarda videomateriallar və hazırlanmış xüsusi təqdimatdan istifadə olunub, onlara DİM tərəfindən hazırlanmış "Nəzarətçilər üçün təlimat" kitabçası təqdim edilib. Seminar-məşğələlər eyni vaxtda respublikanın digər bölgələrində də keçirilib.

Bu il ali təhsil müəssisələrinə I–IV ixtisas qrupları üzrə qəbul imtahanlarına bütövlükdə 6743 nəfər, o cümlədən Bakı şəhərinin rayonlarından 2294 (Yasamal rayonu - 149, Binəqədi rayonu - 305, Səbail rayonu - 114, Xətai rayonu - 359, Xəzər rayonu - 136, Nərimanov rayonu - 177, Suraxanı rayonu - 225, Sabunçu rayonu - 385, Nəsimi rayonu - 170, Qaradağ rayonu - 81, Nizami rayonu - 193), Sumqayıt şəhərindən 285, Abşeron rayonundan - 281, Naxçıvan MR-dan - 283, Gəncə şəhərindən - 432, Şəki şəhərindən - 257, Mingəçevir şəhərindən - 221, Lənkəran şəhərindən - 219, Şuşa rayonundan - 6, Qubadlı rayonundan - 36, Laçın rayonundan - 7, Zəngilan rayonundan - 12, Şirvan şəhərindən - 118, Sabirabad - 189, Göyçay rayonundan - 154, Bərdə rayonundan - 224, Xaçmaz rayonundan - 178, Şəmkir rayonundan - 168, Qazax rayonundan - 142, Ağstafa - 84, Zaqatala rayonundan - 138, Ağcabədi rayonundan - 169, Kürdəmir rayonundan - 130, Salyan rayonundan - 188, Cəlilabad rayonundan - 108, Masallı rayonundan - 136, Quba rayonundan - 178, Milli Elmlər Akademiyasından - 106 nəfər nəzarətçi kimi cəlb olunmuşdu. Bunlardan 1318 nəfəri zal nəzarətçisi sertifikatı almış nəzarətçilərdir.

İmtahanda iştirak edən nəzarətçilərin fəaliyyəti imtahan rəhbərlərinin məlumatlarına və DİM-ə daxil olan şikayət məktublarına əsasən araşdırılmışdır. İmtahanı aşağı səviyyədə keçirən, köçürmə hallarına yol verən, təlimati qaydaları pozan nəzarətçilər bazadan çıxarılmış və onların siyahıları inzibati tədbirlər görülmək üçün Təhsil Nazirliyinə, Bakı Şəhəri üzrə Təhsil İdarəsinə və müvafiq təhsil şöbələrinə göndərilmişdir. Nəzarətçilərin böyük əksəriyyəti təlimati qaydalara əməl etmiş və bu dövlət əhəmiyyətli tədbirin həyata keçirilməsində üzərlərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirmişdir.

Ümumilikdə ali məktəblərə qəbul imtahanlarının ikinci mərhələsinin keçirilməsi üçün 319 imtahan mərkəzindən istifadə olunmuşdur. İmtahanın təhlükəsizliyinin təmin olunması məqsədilə binalara buraxılış rejimini təşkil etmək üçün 332 nəfər kişi polis əməkdaşı və Təhsil Nazirliyinin və Gənclər və İdman Nazirliyinin xətti ilə 356 nəfər qadın əməkdaş, 85 nəfər imtahan binalarının imtahandan bir gün əvvəl yoxlanaraq möhürlənməsini aparan şəxs cəlb olunmuşdur.

Yaranmış pandemiya şəraiti və xüsusi karantin rejimi nəzərə alınaraq qəbul imtahanlarının I mərhələsi iyulun 1-də və 2-sində müxtəlif imtahan mərkəzlərində keçirilmişdir. Cari ilin məzunları üçün I mərhələnin nəticəsi kimi buraxılış imtahanının nəticəsi əsas götürülmüşdür. Qəbul imtahanlarının I mərhələsi aşağıda təqdim olunan qrafikə uyğun keçirilmişdir:

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARININ I MƏRHƏLƏSİ

Tarix	İmtahan mərkəzləri	İmtahan mərkəzlərinin əhatə etdiyi şəhər və rayonlar
01.07.21	Bakı	Bakı, Şamaxı, Qobustan
	Gəncə	Gəncə, Daşkəsən, Göygöl, Samux, Naftalan
	Şəki	Şəki, Zaqatala, Balakən, Qəbələ, Qax, Oğuz
	Bərdə	Bərdə, Ağcabədi, Ağdam, Tərtər, Beyləqan, Xocavənd, Laçın
	Sabirabad	Sabirabad, İmişli, Füzuli, Mehdili kəndi
	Lənkəran	Lənkəran, Astara, Lerik, Yardımlı, Masallı
	Naxçıvan	Kəngərli, Naxçıvan, Babək, Ordubad, Sədərək, Culfa, Şərur, Şahbuz
02.07.21	Sumqayıt	Sumqayıt, Xızı, Siyəzən
	Abşeron	Abşeron
	Qazax-Ağstafa	Qazax, Ağstafa, Tovuz
	Şəmkir	Şəmkir, Gədəbəy
	Mingəçevir	Mingəçevir, Goranboy, Yevlax, Ağdaş
	Göyçay	Göyçay, Ucar, İsmayıllı
	Kürdəmir	Kürdəmir, Zərdab, Ağsu
	Şirvan	Şirvan,Hacıqabul, Saatlı
	Salyan	Neftçala, Salyan, Biləsuvar (Mehdili kəndi istisna)
	Cəlilabad	Cəlilabad
	Xaçmaz	Quba, Qusar, Xaçmaz, Şabran

Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar tədbirlər çərçivəsində cari ildə ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə qəbul imtahanlarının ikinci mərhələsi ötən il olduğu kimi yalnız bir dəfə keçirilmişdir. İmtahanlarda kütləviliyin və təmas hallarının qarşısını almaq məqsədilə hər bir ixtisas qrupu üzrə imtahanlar müxtəlif imtahan mərkəzlərində ayrı-ayrı günlərdə keçirilmiş, hətta abituriyentlərin sayının çox olması nəzərə alınaraq I ixtisas qrupu üzrə imtahanlar 2 gündə təşkil olunmuşdur. İmtahanların ikinci mərhələsi III ixtisas qrupunun abituriyentləri üçün iyulun 14-də, II ixtisas qrupunun abituriyentləri üçün iyulun 15-də, I ixtisas qrupunun abituriyentləri üçün iyulun 27-də və 28-də, IV ixtisas qrupunun abituriyentləri üçün isə iyulun 28-də keçirilmişdir. İmtahanların keçirildiyi mərkəzlər və onlara aid olan şəhərlər (rayonlar, yaşayış məntəqələri) aşağıdakı kimi olmuşdur:

I-IV İXTİSAS QRUPLARI ÜZRƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARININ II MƏRHƏLƏSİ

Bölgələr üzrə imtahan mərkəzləri	**Bölgə (imtahan) mərkəzlərinə aid olan şəhərlər (rayonlar, yaşayış məntəqələri)**
Bakı (hər rayon üzrə)	Bakı (müvafiq rayonlar), Şamaxı, Qobustan
Sumqayıt	Sumqayıt, Xızı
Abşeron	Abşeron
Gəncə	Gəncə, Daşkəsən, Göygöl, Samux, Goranboy, Naftalan
Mingəçevir	Mingəçevir, Yevlax, Ağdaş
Şəmkir	Şəmkir, Gədəbəy
Qazax-Ağstafa	Qazax, Ağstafa, Tovuz
Şəki	Şəki, Oğuz, Qəbələ
Zaqatala	Balakən, Zaqatala, Qax
Göyçay	Göyçay, İsmayıllı, Ucar
Kürdəmir	Kürdəmir, Zərdab, Ağsu
Bərdə	Bərdə, Beyləqan, Tərtər, Xocavənd
Ağcabədi	Ağcabədi, Ağdam
Şirvan	Şirvan, Hacıqabul,Saatlı
Salyan	Salyan, Neftçala, Biləsuvar (Mehdili kəndi istisna omaqla)
Sabirabad	Sabirabad, İmişli, Füzuli, Mehdili kəndi
Lənkəran	Lənkəran, Astara, Lerik
Cəlilabad	Cəlilabad
Masallı	Masallı, Yardımlı
Xaçmaz	Xaçmaz, Şabran, Siyəzən
Quba	Quba, Qusar
Naxçıvan	Naxçıvan, Sədərək, Şərur, Şahbuz, Babək, Culfa, Kəngərli, Ordubad

Abituriyentlər V ixtisas qrupuna aid ixtisaslar üzrə müsabiqədə yalnız qəbul imtahanlarının birinci mərhələsinin (cari ilin məzunları üçün buraxılış imtahanının) nəticələrinə əsasən iştirak etmişdir. Ümumiyyətlə isə imtahanlarda I–IV qruplar üzrə 67717, V qrup üzrə 55635 (orta ixtisas təhsili müəssisələri üzrə birlikdə 84773 nəfər) abituriyent iştirak etmişdir.

C.Naxçıvanski adına və H.Əliyev adına hərbi liseylərə qəbul olmaq istəyənlər avqutsun 4-də imtahan verib. Hərbi Tibb Məktəbinin feldşer ixtisasını seçənlər isə Dövlət İmtahan Mərkəzi və Müdafiə Nazirliyinin birgə razılığına əsasən bu il ayrıca qəbul imtahanı verməmiş, müsabiqədə 11-ci siniflər üzrə buraxılış imtahanında topladıqları bal əsasında iştirak edib. Hərbi Tibb Məktəbinin feldşer ixtisasına qəbul olmaq istəyən və buraxılış imtahanı verməyən şəxslər şəhər və rayonların qrafikinə uyğun imtahanlarda iştirak edib.

İmtahanların gedişi barədə ictimaiyyətə geniş informasiya çatdırılması, həmçinin qəbulda şəffaflığın təmin olunması məqsədilə kütləvi informasiya vasitələri nümayəndələrinin imtahanlarda iştirakına geniş şərait yaradılmışdır. Bunun üçün imtahan ərəfəsində və imtahanın keçirildiyi dövrdə DİM-in direktorlar şurasının sədri kütləvi informasiya vasitələrinin nümayəndələri üçün mətbuat konfransları keçirmişdir. Mərkəz artıq on səkkiz ildir ki, qəbul imtahanlarının gedişini hər saatdan bir özünün internet saytında işıqlandırır və prosesin hər bir məqamına dair fotoşəkillər təqdim edir.

Qəbul imtahanlarının birinci mərhələsinin test kitabçaları iyulun 1-də və 2-sində keçirilən imtahanlar üçün 26 iyun-2 iyul, I–IV ixtisas qrupları üzrə keçirilən imtahanların ikinci mərhələsinin sual kitabçaları isə iyulun 14-də və 15-də keçirilən imtahanlar üçün 9-15 iyul, iyulun 27-də və 28-də keçirilən imtahanlar üçün 22-28 iyul tarixlərində DİM-in binasında xüsusi bunkerdə hazırlanmışdır. İmtahanlarda istifadə edilən test tapşırıqları bankdan kompüter proqramı vasitəsilə avtomatik olaraq seçilmişdir. Hər bir qrupun abituriyentlərinin bilik səviyyəsinə uyğun qaydada seçilən test tapşırıqları DİM-də fəaliyyət göstərən fənn

seminarlarının müəyyənləşdirdiyi standartlara uyğun olmuşdur. Sual kitabçaları Azərbaycan və rus dillərində olmaqla imtahanların hər iki mərhələsi üçün 4 variantda (A, B, C, D) tərtib edilmiş və beləliklə, köçürmə hallarının qarşısının alınması məqsədilə çoxvariantlılıq təmin olunmuşdur.

İyulun 14-də keçirilən imtahanda III ixtisas qrupunun abituriyentləri, o cümlədən DİN-in Polis Akademiyası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "Hüquqşünaslıq" ixtisasları və DİN-in Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası üzrə təhsil almaq istəyən abituriyentlər imtahan vermişlər. İmtahanın idarə olunmasına Bakı, Gəncə, Sumqayıt, Abşeron, Şəmkir, Qazax, Mingəçevir, Şəki, Zaqatala, Bərdə, Şuşa, Ağcabədi, Göyçay, Kürdəmir, Qubadlı, Laçın, zəngilan, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Cəlilabad, Masallı, Quba, Xaçmaz rayonlarının məktəblərindən və Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşlarından 1998 nəfər nəzarətçi-müəllim, 264 nəfər imtahan rəhbəri, 223 nəfər buraxılış rejimini aparan əməkdaş, 33 nəfər imtahan binalarının imtahandan bir gün əvvəl yoxlanaraq möhürlənməsini aparan şəxs cəlb olunmuşdur.

İyulun 15-də keçirilən imtahanda II ixtisas qrupunun abituriyentləri iştirak etmişlər. İmtahanın idarə olunmasına Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Ağstafa, Sumqayıt, Abşeron, Mingəçevir, Şəki, Zaqatala, Bərdə, Şuşa, Ağcabədi, Göyçay, Kürdəmir, Qubadlı, Laçın, Zəngilan, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Cəlilabad, Masallı, Quba, Xaçmaz rayonlarının məktəblərindən və Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşlarından 1576 nəfər nəzarətçi-müəllim, 209 nəfər imtahan rəhbəri, 157 nəfər buraxılış rejimini aparan əməkdaş, 31 nəfər imtahan binalarının imtahandan bir gün əvvəl yoxlanaraq möhürlənməsini aparan şəxs cəlb olunmuşdur.

İyulun 27-də keçirilən imtahanda I ixtisas qrupunun abituriyentləri, o cümlədən Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "İnformasiya təhlükəsizliyi" ixtisasında, Dövlət Sərhəd Xidməti Akademiyasının I qrup ixtisasında, Ali Hərbi Məktəbdə, Fövqəladə Hallar Nazirliyinin Akademiyasının "Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" və "Yanğın təhlükəsizliyi mühəndisliyi" ixtisaslarında təhsil almaq istəyən abituriyentlər iştirak etmişlər. İmtahanın idarə olunmasına Bakı, Gəncə, Qazax, Ağstafa, Abşeron, Şəki, Bərdə, Şuşa, Göyçay, Laçın, Zəngilan, Şirvan, Salyan, Lənkəran, Xaçmaz rayonlarının məktəblərindən və Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşlarından 1795 nəfər nəzarətçi-müəllim, 238 nəfər imtahan rəhbəri, 168 nəfər buraxılış rejimini aparan əməkdaş, 14 nəfər imtahan binalarının imtahandan bir gün əvvəl yoxlanaraq möhürlənməsini aparan şəxs cəlb olunmuşdur.

İyulun 28-də keçirilən imtahanda I və IV ixtisas qruplarının abituriyentləri, o cümlədən Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "İnformasiya təhlükəsizliyi" ixtisasında, Dövlət Sərhəd Xidməti Akademiyasının I qrup ixtisasında, Ali Hərbi Məktəbdə, Fövqəladə Hallar Nazirliyinin Akademiyasının "Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" və "Yanğın təhlükəsizliyi mühəndisliyi" ixtisaslarında təhsil almaq istəyən abituriyentlər iştirak etmişlər. İmtahanın idarə olunmasına Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Ağstafa, Sumqayıt, Abşeron, Mingəçevir, Şəki, Zaqatala, Bərdə, Şuşa, Ağcabədi, Göyçay, Kürdəmir, Qubadlı, Laçın, Zəngilan, Sabirabad, Salyan, Lənkəran, Cəlilabad, Masallı. Şirvan, Cəlilabad, Masallı, Quba, Qubadlı rayonlarının məktəblərindən və Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşlarından 1374 nəfər nəzarətçi-müəllim, 184 nəfər imtahan rəhbəri, 140 nəfər buraxılış rejimini aparan əməkdaş, 7 nəfər imtahan binalarının imtahandan bir gün əvvəl yoxlanaraq möhürlənməsini aparan şəxs cəlb olunmuşdur.

I qrup üzrə sənəd verən abituriyentlərin 64.99%-ni oğlanlar, 35.01%-ni isə qızlar təşkil etmişdir. Bu qrup üzrə sənəd verən abituriyentlərin 24771 nəfəri (86.60%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 2 nəfəri xarici ölkələrin vətəndaşları, 20 nəfəri ali təhsilli şəxslər, 342 nəfəri isə orta ixtisas məktəblərinin məzunları olmuşdur.

II qrup üzrə sənəd verən abituriyentlərin 65.13%-ni oğlanlar, 34.87%-ni isə qızlar təşkil etmişdir. Bu qrup üzrə sənəd verən abituriyentlərin 13419 nəfəri (80.08%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 11 nəfəri xarici ölkələrin vətəndaşları, 27 nəfəri ali təhsilli şəxslər, 466 nəfəri isə orta ixtisas məktəblərinin məzunları olmuşdur.

III qrup üzrə sənəd verən abituriyentlərin 24.61%-ni oğlanlar, 75.39%-ni isə qızlar təşkil etmişdir. Bu qrup üzrə sənəd verən abituriyentlərin 17474 nəfəri (83.07%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 10 nəfəri xarici ölkələrin vətəndaşları, 51 nəfəri ali təhsilli şəxslər, 492 nəfəri isə orta ixtisas məktəblərinin məzunları olmuşdur.

IV qrup üzrə sənəd verən abituriyentlərin 25.39%-ni oğlanlar, 74.61%-ni isə qızlar təşkil etmişdir. Abituriyentlərin 4225 nəfəri (84.42%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 6 nəfəri xarici ölkələrin vətəndaşları, 30 nəfəri ali təhsilli şəxslər, 99 nəfəri isə orta ixtisas məktəblərinin məzunları olmuşdur.

İmtahanlarda oğlanların ən yüksək nisbi sayı II ixtisas qrupunda (65.13%), qızların ən yüksək nisbi sayı isə III ixtisas qrupunda (75.39%) olmuşdur.

Sual kitabçaları hər bir abituriyent üçün xüsusi avtomatlaşdırılmış xətt vasitəsi ilə (bu xətt xüsusi olaraq DİM-in keçirdiyi imtahanlar üçün sual kitabçalarının çapı və komplektasiyasını həyata keçirir) fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib. Sual kitabçaları Azərbaycan və rus dillərində olmaqla imtahanların hər iki mərhələsi üçün 4 variantda (A, B, C, D) hazırlanmışdır. Qəbul imtahanlarının birinci mərhələsində sual kitabçalarının xarici dil blokunda "Abituriyentin elektron ərizəsi"ndə "İmtahan verəcəyi xarici dil" bölməsində seçilən xarici dilə uyğun test tapşırıqları təqdim olunub. Xarici dil fənni blokuna daxil olan alman, fransız və ingilis dili fənləri üzrə test tapşırıqları Azərbaycan və rus bölmələri üçün, rus dili, ərəb və fars dili fənləri üzrə test tapşırıqları isə yalnız Azərbaycan bölməsi üçün hazırlanmışdır.

Beləliklə, iyulun 1-də 8, iyulun 2-da 8, iyulun 14-də 8, iyulun 15-də 8, iyulun 27-də 8, iyulun 28-də 16, avqustun 4-də (hərbi liseylər üzrə) 4 adda test kitabçası hazırlanıb. Ümumilikdə, bu imtahanlarda 6240 test tapşırığından istifadə olunub.

I–IV ixtisas qrupları üzrə imtahanlarda 67717 nəfər abituriyent iştirak etmiş, onların 61969-u Azərbaycan, 5748-i rus bölməsini təmsil etmişdir. İmtahanların gedişinin hər bir məqamı, eləcə də sonrakı proseslər–testlərin ekspertizası və etalonların müəyyənləşdirilməsi, imtahan protokollarının araşdırılması DİM-in internet saytında operativ şəkildə işıqlandırılmışdır. Qəbul imtahanlarının hər iki mərhələsi üzrə nəticələr imtahanların keçirilməsindən təxminən 15 gün sonra (birinci mərhələ üzrə iyulun 1-də və 2-sində keçirilən imtahanların nəticələri iyulun 17-də, ikinci mərhələ üzrə iyulun 14-də və 15-də keçirilən imtahanların nəticələri iyulun 29-da, iyulun 27-də və 28-də keçirilən imtahanların nəticələri isə avqustun 10-da) elan edilmişdir. Nəticələrin elanı DİM-in internet saytı və mobil operatorların telefon xidmətləri vasitəsilə həyata keçirilmişdir. Bununla yanaşı, hər bir abituriyentə internet vasitəsilə cavab kartı və cavab vərəqinin ön, arxa üzünün qrafik təsvirləri, qapalı tipli tapşırıqların doğru cavabları, açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli və qiymətləndirmə şkalası) ilə tanış olmaq imkanı da yaradılmışdır.

DİM hər imtahandan sonra həmin imtahanda istifadə olunan test tapşırıqlarının düzgün cavablarını DİM-in "Youtube" kanalı vasitəsilə elan etmiş, Mərkəzin məsul əməkdaşları və fənn ekspertləri birbaşa efir vaxtında test tapşırıqları, eləcə də imtahanların gedişi ilə bağlı abituriyentləri və pedaqoji ictimaiyyəti maraqlandıran sualları cavablandırmışdır. Bu tədbir həm abituriyentlərin onları maraqlandıran suallara cavab almaları, həm də ümumilikdə, imtahan prosesinin şəffaflığının təmin edilməsi baxımından əhəmiyyətli olmuşdur. Abituriyentlərin ballarının hesablanması üçün xüsusi proqram hazırlanmış, DİM-in və "Abituriyent" jurnalının saytlarında yerləşdirilmişdir. İstifadə üçün çox sadə olan bu proqramda abituriyentlər fənlər üzrə düzgün və səhv cavablarını müvafiq mövqelərdə qeyd etməklə avtomatik olaraq nisbi və ümumi balları haqqında məlumat almış və nəticələrini çap edə bilmişdir.

Qəbul imtahanlarında ayrı-ayrı fənlər üzrə istifadə edilmiş test tapşırıqlarının məzmunu və imtahanın gedişi ilə əlaqədar müraciətlərə baxılması üçün DİM tərəfindən apelyasiya komissiyası yaradılmışdır. Ötən il olduğu kimi cari ildə də apellyasiya müraciətlərinə onlayn şəkildə baxılmışdır. Apellyasiya komissiyasına müraciət etmək istəyənlər elan olunmuş tarixlərdə elektron ərizə doldurmaqla qeydiyyatdan keçmişdir. Qeydiyyatdan keçərkən onlar hansı şəkildə (videobağlantı proqramı və ya telefon əlaqəsi vasitəsilə) apellyasiya prosesində iştirak edəcəklərini bildirmişdir. Daha sonra DİM tərəfindən bildirilən tarixdən etibarən müracət edənlərlə əlaqə saxlanmış və apellyasiya prosesi təşkil olunmuşdur. Bu prosesdə qəbul imtahanının birinci mərhələsi üzrə 138, ikinci mərhələsi üzrə isə 3067 müraciətə baxılmışdır. İmtahanlar üzrə apelyasiya müraciətləri üçün qeydiyyat tarixləri və apellyasiya proseslərinin başlanma tarixləri aşağıdakı kimidir:

Qəbul imtahanlarının birinci mərhələsində iştirak edənlər üçün

- 1 və 2 iyulda keçirilən imtahanlar üzrə qeydiyyat tarixləri 18 – 22 iyul, apellyasiya prosesinin başlanma tarixi 23 iyul;

Qəbul imtahanlarının ikinci mərhələsində iştirak edənlər üçün

- II və III qruplar üzrə qeydiyyat tarixləri 29 – 31 iyul, apellyasiya prosesinin başlanma tarixi 30 iyul;
- I və IV qruplar üzrə qeydiyyat tarixləri 11 – 13 avqust, apellyasiya prosesinin başlanma tarixi 13 avqust.

İxtisas seçimi abituriyentlərin imtahan nəticələri (balları) elan olunduqdan sonra aparılıb

Müsabiqə şərtlərini ödəyən abituriyentlər müsabiqədə iştirak etmək üçün avqustun 20-dən 30-dək internet vasitəsilə ixtisas seçimi aparıb və ixtisas seçimi ərizələrini təsdiqləyiblər. Test imtahanlarının nəticələrinə əsasən, 62132 abituriyent ali təhsil müəssisələrinin ixtisaslarına keçirilən müsabiqədə iştirak etmək hüququ qazanıb. İxtisas seçimi zamanı abituriyentlərə kömək məqsədilə hər bir ixtisas qrupu üzrə bir sıra məlumatlar, o cümlədən plan yerlərinin sayı, müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan ballarının paylanması haqqında məlumatlar ayrı-ayrı kitabçalar şəklində, eləcə də ali təhsil müəssisələrinin ixtisasları üzrə 2020-ci ildə tələbə qəbulu müsabiqəsində formalaşmış keçid balları "Abituriyent" jurnalının xüsusi buraxılışında dərc edilmişdir.

Qəbul imtahanlarının nəticələrinə əsasən I ixtisas qrupu üzrə 15052, II ixtisas qrupu üzrə 8084, III, IV və V ixtisas qrupları üzrə, müvafiq olaraq, 16567, 3824 və 47139 nəfər müsabiqədə iştirak etmək hüququ əldə edib (1.12 saylı cədvələ bax). Hər ixtisas qrupu üzrə ayrı-ayrılıqda abituriyentlərin topladıqları balların paylanması 6.10-6.19 saylı cədvəllərdə təqdim edilib (bax: səh. 451-454).

Cədvəl 1.12

İXTİSAS QRUPLARI ÜZRƏ QƏBUL PLANLARI VƏ MÜSABİQƏDƏ İŞTİRAK ETMƏK HÜQUQU QAZANMIŞ ABİTURİYENTLƏRİN PAYLANMASI

İxtisas qrupu	Qəbul planı				Müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin sayı		
	Azərbaycan bölməsi	Rus bölməsi	Birgə müsabiqə aparılan ixtisaslar	Cəmi	Azərbaycan bölməsi	Rus bölməsi	Cəmi
I	12197	851	2506	15554	13692	1360	15052
II	10354	817	2335	13506	7263	821	8084
III	9835	1037	1883	12755	15294	1273	16567
IV	2973	210	780	3963	3373	451	3824
V	934	105	2776	3815	43564	3575	47139
CƏMİ	**36293**	**3020**	**10280**	**49593**	**56578**	**5554**	**62132**

İxtisas seçimində 45052 nəfər abituriyent iştirak edib. Müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin 27.49%-i (17080 nəfər) arzu etdikləri ixtisaslara qəbul olmaq üçün kifayət qədər yüksək bal toplamadıqlarına, yaxud xarici ölkələrin ali təhsil müəssisələrinə qəbul olduqlarına görə qəbul kampaniyasının ixtisas seçimi mərhələsində iştirak etməyib. Bundan əlavə, ixtisas seçimində 15399 subbakalavr da iştirak edib.

İxtisas seçimi mərhələsində ərizə verən abituriyentlərin 10424 nəfəri, subbakalavrların 1651 nəfəri ərizəsində ali təhsil müəssisələrinin yalnız dövlət sifarişi əsasında ayrılmış yerlərini, 10165 abituriyent və 4609 subbakalavr isə yalnız ödənişli əsaslarla ayrılmış yerlərini seçib. Yalnız ödənişli əsaslarla ayrılmış yerləri seçənlərin 1031-i (762 abituriyent və 269 subbakalavr) ərizələrində yalnız özəl təhsil müəssisələrinin ixtisaslarını göstərib. Bu mərhələdə ərizə verən abituriyentlərin 54.30%-i (24463 nəfər), subbakalavrların 59.35%-i (9139 nəfər) ərizəsində həm dövlət sifarişli, həm də ödənişli əsaslarla olan yerləri qeyd etmişdi.

Müsabiqə və yerləşdirmənin nəticələri ixtisas seçimindən dərhal sonra açıqlanıb
İlkin mərhələdə ali təhsil müəssisələrinə 44861 nəfər
qəbul olub, qəbul planı 90.46% dolub.

Müsabiqə və yerləşdirmənin nəticələri sentyabrın 4-də DİM-in internet saytı, AZERCELL, BAKCELL, NARMOBİLE və NAXTEL telefon xidmətləri vasitəsilə elan olunub, sentyabrın 5-də isə "Abituriyent" jurnalının 6-cı sayında dərc edilib. Burada ixtisaslar üzrə keçid balları da təqdim olunub.

Qəbul imtahanlarının nəticələrinə əsasən birinci mərhələdə ali təhsil müəssisələrinə 44861 nəfər (o cümlədən 38051 abituriyent və 6810 subbakalavr) qəbul olub və qəbul planı 90.46% yerinə yetirilib. Qəbul olanların 41078 nəfəri Azərbaycan, 3783 nəfəri isə rus bölməsini təmsil edib. Onlardan dövlət sifarişi üzrə qəbul olanların sayı, müvafiq olaraq, 20121 və 1735 nəfərdir. Qəbul olan abituriyentlər və subbakalavrlar haqda ayrı-ayrılıqda və ümumiləşdirilmiş məlumatlar cədvəl 1.13-də təqdim olunub.

Cədvəl 1.13

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	15554	10152 (8281)	974 (751)	11126 (9032)	71.53
II	13506	6882 (3477)	754 (347)	7636 (3824)	56.54
III	12755	11575 (4116)	950 (204)	12525 (4320)	98.20
IV	3963	2890 (2063)	260 (172)	3150 (2235)	79.49
V	3815	3128 (1273)	486 (252)	3614 (1525)	94.73
CƏMİ	**49593**	**34627 (19210)**	**3424 (1726)**	**38051 (20936)**	**76.73**
	Subbakalavrlar				
I	15554	2285 (427)	103 (0)	2388 (427)	15.35
II	13506	3722 (341)	177 (9)	3899 (350)	28.87
III	12755	0 (0)	61 (0)	61 (0)	0.48
IV	3963	404 (140)	18 (0)	422 (140)	10.65
V	3815	40 (3)	0 (0)	40 (3)	1.05
CƏMİ	**49593**	**6451 (911)**	**359 (9)**	**6810 (920)**	**13.73**
	Bütövlükdə				
I	15554	12437 (8708)	1077 (751)	13514 (9459)	86.88
II	13506	10604 (3818)	931 (356)	11535 (4174)	85.41
III	12755	11575 (4116)	1011 (204)	12586 (4320)	98.68
IV	3963	3294 (2203)	278 (172)	3572 (2375)	90.13
V	3815	3168 (1276)	486 (252)	3654 (1528)	95.78
CƏMİ	**49593**	**41078 (20121)**	**3783 (1735)**	**44861 (21856)**	**90.46**

Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə əlavə qəbul və qeydiyyat aparıldıqdan sonra ali təhsil müəssisələrinə ümumilikdə 42573 nəfər qəbul olub, qəbul planı bütövlükdə 85.84% dolub

Nəticələr elan edildikdən sonra sentyabrın 6-dan 10-dək ali təhsil müəssisələrinin boş qalan yerlərinə əlavə qəbul elan olunub. Əlavə qəbul elanı, boş qalan plan yerləri haqqında məlumatlar və müsabiqə şərtləri "Abituriyent" jurnalının 7-ci sayında dərc edilərək ictimaiyyətə çatdırılıb. Əlavə yerləşdirmə zamanı əsas qəbulda yüksək müsabiqə şəraiti olan ixtisaslarda müsabiqədən keçməyən yüksək ballı gənclərin ixtisas seçimlərini bir daha dəqiqləşdirmələrinə, boş qalan yerlərdən öz istəklərinə uyğun olanlarını seçmələrinə şərait yaradılıb. Müsabiqəyə buraxılma şərtləri bu mərhələdə də dəyişdirilmədən birinci mərhələdə olduğu kimi saxlanılıb.

Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə əlavə qəbul və orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu müsabiqəsi eyni vaxtda elan olunub. Hər iki müsabiqə üçün

abituriyentlərdən ərizə qəbulu internet vasitəsilə həyata keçirilib. Abituriyentlərə internetdə bir ərizə formasında həm ali təhsil müəssisələrinin boş qalan ixtisaslarının, həm də kolleclərin ixtisaslarının 20-dək kodunu istədikləri ardıcıllıqla qeyd etmək imkanı verilib. Bu mərhələdə də müsabiqə ümumi qaydalara müvafiq olaraq abituriyentin seçdiyi ixtisasların ardıcıllığına uyğun şəkildə aparılıb və abituriyent müsabiqədən keçdiyi birinci ixtisasa qəbul olub. Hər iki müsabiqəyə birlikdə 19163 ərizə daxil olub. Ərizələrin yalnız 1297-sində ali təhsil müəssisələrinin boş qalan ixtisaslarının kodları qeyd olunub. Beləliklə, ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə əlavə qəbul və qeydiyyat aparıldıqdan sonra ali təhsil müəssisələrinin qəbul planının dolma göstəricisi 90.46%-dən 85.84%-ə düşüb (qəbul olan bəzi şəxslər qeydiyyatdan keçmədiyinə görə).

Boş qalan plan yerlərinə əlavə yerləşdirmənin nəticələri nəzərə alınmaqla ali təhsil müəssisələrinə qəbul olanların sayı haqqında məlumat aşağıdakı cədvəldə təqdim edilir.

Cədvəl 1.14

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT (ƏLAVƏ YERLƏŞDİRMƏ VƏ QEYDİYYAT NƏZƏRƏ ALINMAQLA)

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	15554	10019 (8681)	945 (814)	10964 (9495)	70.49
II	13506	6836 (3503)	743 (348)	7579 (3851)	56.12
III	12755	11318 (4151)	923 (206)	12241 (4357)	95.97
IV	3963	2721 (2052)	233 (174)	2954 (2226)	74.54
V	3815	3098 (1288)	482 (250)	3580 (1538)	93.84
CƏMİ	**49593**	**33992 (19675)**	**3326 (1792)**	**37318 (21467)**	**75.25**
	Subbakalavrlar				
I	15554	1691 (438)	59 (0)	1750 (438)	11.25
II	13506	3021 (334)	138 (12)	3159 (346)	23.39
III	12755	1 (0)	49 (0)	50 (0)	0.39
IV	3963	245 (128)	12 (0)	257 (128)	6.48
V	3815	39 (3)	0 (0)	39 (3)	1.02
CƏMİ	**49593**	**4997 (903)**	**258 (12)**	**5255 (915)**	**10.60**
	Bütövlükdə				
I	15554	11710 (9119)	1004 (814)	12714 (9933)	81.74
II	13506	9857 (3837)	881 (360)	10738 (4197)	79.51
III	12755	11319 (4151)	972 (206)	12291 (4357)	96.36
IV	3963	2966 (2180)	245 (174)	3211 (2354)	81.02
V	3815	3137 (1291)	482 (250)	3619 (1541)	94.86
CƏMİ	**49593**	**38989 (20578)**	**3584 (1804)**	**42573 (22382)**	**85.84**

Əlavə yerləşdirmə və qeydiyyatın nəticələrini nəzərə almaqla ayrı-ayrı ixtisas qruplarında qəbulolma göstəricilərinə nəzər salaq:

I ixtisas qrupu üzrə qəbul imtahanında 26889 nəfər abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 40.59%-i, rus bölməsi üzrə isə 42.80%-i ali təhsil müəssisələrinə qəbul olub. Qəbul planı bütövlükdə (subbakalavrlar da nəzərə alınmaqla) 81.74% yerinə yetirilib.

II ixtisas qrupu üzrə imtahanda iştirak edən abituriyentlərin sayı 15726 nəfər olub. Onların Azərbaycan bölməsi üzrə 47.86%-i, rus bölməsi üzrə isə 51.49%-i tələbə adına layiq görülüb, qəbul planı 79.51% dolub. Bu göstərici digər ixtisas qrupları ilə müqayisədə ən aşağı göstəricidir.

III ixtisas qrupu üzrə qəbul imtahanında 20283 nəfər abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 60.26%-i, rus bölməsi üzrə isə 61.45%-i ali təhsil müəssisələrinə qəbul olub. Qəbul planı 96.36% yerinə yetirilib.

IV ixtisas qrupu üzrə qəbul imtahanında 4819 nəfər abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 64.42%-i, rus bölməsi üzrə isə 39.16%-i tələbə adına layiq görülüb, qəbul planı 81.02% dolub.

V ixtisas qrupu üzrə qəbul imtahanında 55635 nəfər abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 5.99%-i, rus bölməsi üzrə isə 12.26%-i tələbə adına layiq görülüb. Qəbul planı 94.86% dolub.

Göründüyü kimi, IV ixtisas qrupu istisna olmaqla, qalan bütün qruplarda imtahanda iştirak edənlər arasından ali təhsil müəssisələrinə qəbulolma faizi rus bölməsində daha yüksəkdir, amma müsabiqədə iştirak etmək hüququ qazanan abituriyentlər arasında isə V ixtisas qrupları istisna olmaqla, digər qruplarda qəbulolma faizi Azərbaycan bölməsində daha yüksəkdir. Ümumilikdə götürdükdə, Azərbaycan bölməsində ali təhsil müəssisələrinə qəbul olanlar imtahanlarda iştirak edənlərin 48.19%-ni, müsabiqədə iştirak etmək hüququ qazananların isə 60.08%-ni təşkil edir. Rus bölməsində bu göstəricilər, müvafiq olaraq, 51.75 və 59.88%-dir.

Qəbulolma göstəricilərinin təhsil müəssisələrinin kateqoriyaları üzrə təhlili göstərir ki, dövlət ali təhsil müəssisələrinə 36624, özəl ali təhsil müəssisələrinə isə 5949 nəfər qəbul olub. Dövlət ali təhsil müəssisələrinin qəbul planı 87.90%, özəl ali təhsil müəssisələrinin planı isə 75.05% dolub.

Ali təhsil müəssisələrinə 5255 subbakalavr qəbul olunub və onların 17.41%-i dövlət sifarişi üzrə, 82.59%-i isə ödənişli əsaslarla ayrılan yerlərə qəbul olunub. Qəbul olunan subbakalavrların 67.97%-i (3572 nəfər) dövlət, 32.03%-i (1683 nəfər) özəl ali təhsil müəssisələrinə qəbul olunub. 1.14 saylı cədvəldən göründüyü kimi subbakalavrların böyük əksəriyyəti (93.42%-i) I və II qrup ixtisaslarına qəbul olunub. Dövlət sifarişi üzrə qəbul olunanlar arasında bu qrupların payı 85.68%, ödənişli əsaslarla qəbul olunanlar arasında isə 95.05%-dir.

Subbakalavrların böyük hissəsi "İqtisadiyyat" (617 nəfər), "Mühasibat" (559 nəfər), "Maliyyə" (529 nəfər), "Turizm işinin təşkili" (382 nəfər), "Menecment" (320 nəfər), "Marketinq" (254 nəfər), "Nəqliyyat mühəndisliyi" (219 nəfər), "İnformasiya texnologiyaları" (198 nəfər), "Maşın mühəndisliyi" (189 nəfər), "Dövlət və bələdiyyə idarəetməsi" (177 nəfər), "Elektrik və elektronika mühəndisliyi" (128 nəfər), "Kompüter mühəndisliyi" (125 nəfər) və "Energetika mühəndisliyi" (111 nəfər) ixtisaslarına qəbul olunub. Bu ixtisaslara qəbul olunan subbakalavrlar bütövlükdə ali təhsil müəssisələrinə qəbul olunan subbakalavrların 72.46%-ni təşkil edir. Onların 17.41%-i (915 nəfər) dövlət sifarişi üzrə, 82.59%-i (4340 nəfər) ödənişli əsaslarla ayrılan yerlərə qəbul olunub.

Müsabiqə zamanı bir yerə bir neçə subbakalavr iddia etdiyi hallarda onların diplom ballarının orta göstəricisi əsas götürülüb və bu göstəricisi digərlərindən yüksək olan subbakalavr həmin yerə yerləşdirilib. Ali təhsil müəssisələrinə qəbul olunan subbakalavrların orta diplom balı 77-yə bərabər olub. Bu göstəriciləri aşağı olan subbakalavrlar, əsasən, "Mexanika mühəndisliyi" (67.957 bal) və "Davamlı inkişafın idarə edilməsi" (69.913 bal) ixtisaslarına, yüksək olan subbakalavrlar isə əsasən "Biologiya" (88.887 bal), "İdman menecmenti və kommunikasiya" (86.760 bal), "Ekologiya" (86.476 bal) və "Kompüter mühəndisliyi" (85.665 bal) ixtisaslarına qəbul olunub.

2021-ci ildə Təhsil Nazirliyinin təqdim etdiyi siyahıya əsasən ödənişli əsaslarla qəbul aparılan bir neçə ixtisasın (bax: səh. 14-16) müsabiqəsinə ümumi balı 150-dən, II mərhələ üzrə balı 50-dən az olmayan abituriyentlər buraxılıb. Həmin ixtisaslara ayrılan plan yerlərinin 79.15 faizi dolub. Bu göstərici I ixtisas qrupunda 100.0, II ixtisas qrupunda 71.86, III ixtisas qrupunda 100.0, IV ixtisas qrupunda isə 61.88 faizə

bərabər olub. I və III ixtisas qruplarında Təhsil Nazirliyi tərəfindən təklif olunan bu tədbir o dərəcədə də effektli olmayıb. III ixtisas qrupunda bütün ali təhsil müəssisələrində, I ixtisas qrupunda isə bir ali təhsil müəssisəsi istisna olmaqla qalan bütün ali təhsil müəssisələrində təklif olunan ixtisaslar üzrə formalaşan keçid balları 200 baldan yuxarı olub.

Ali təhsil müəssisələrinə ayrı-ayrı təhsil formaları üzrə qəbul olan və qəbul olmayan abituriyentlərin və subbakalavrların paylanma diaqramlarını nəzərdən keçirək (şəkil 1.10, 1.11 və 1.12).

QƏBULUN NƏTİCƏSİ



Şəkil 1.10



Şəkil 1.11



Şəkil 1.12

Ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmiş abituriyentlərin və müsabiqədə iştirak edən subbakalavrların ümumilikdə 46.26%-i (abituriyentlərin 48.49%-i, subbakalavrların 33.84%-i) ali təhsil müəssisələrinə qəbul olub. Qəbul olanların 52.57%-i dövlət sifarişi əsasında (95.91%-i abituriyentlər, 4.09%-i subbakalavrlar), o cümlədən 49.97%-i dövlət (96.54%-i abituriyentlər, 3.46%-i subbakalavrlar), 2.61%-i özəl (83.87%-i abituriyentlər, 16.13%-i subbakalavrlar) ali təhsil müəssisələrində, 47.43%-i isə ödənişli təhsil forması üzrə (78.51%-i abituriyentlər, 21.49%-i subbakalavrlar), o cümlədən 36.06%-i dövlət (81.53%-i abituriyentlər, 18.47%-i subbakalavrlar), 11.37%-i özəl (68.92%-i abituriyentlər, 31.08%-i subbakalavrlar) ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanıb.

Beləliklə, imtahanda iştirak edən abituriyentlərin 51.51%-i (39640 nəfər) ali təhsil müəssisələrinə qəbul olmamışdır. Təqdim edilən rəqəmlər qəbul prosesində həm rəqabəti, həm istəkləri təmin edilməyənlərin sayının nə qədər çox olduğunu, həm də qəbul prosesinin kütləviliyini, ağır və məsuliyyətli iş olduğunu göstərir.

DİM bu işin məsuliyyətini dərk edərək qəbul kampaniyasının tam şəffaf keçməsini təmin etmək məqsədilə onun bütün mərhələlərində görülən tədbirlər barədə ictimaiyyəti müntəzəm olaraq məlumatlandırmışdır. Qəbul imtahanlarında iştirak etmiş hər bir gəncin imtahan nəticələri haqqında məlumatlar arayış formasında imtahanın keçirildiyi vaxtdan təxminən 15 gün sonra internetdə yerləşdirilmişdir. Arayışda abituriyentlərin hər fənn üzrə ayrı-ayrılıqda düzgün və səhv cavabları, nisbi balları göstərilmişdir. Eyni zamanda hər bir abituriyentə internet vasitəsilə cavab kartı və cavab vərəqinin ön, arxa üzünün qrafik təsvirləri, qapalı tipli tapşırıqların doğru cavabları, açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli və qiymətləndirmə şkalası) ilə tanış olmaq imkanı verilmişdir. Bunun əsasında onlar öz imtahan nəticələrini ətraflı təhlil etmək imkanına malik olmuşdur.

Abituriyentlərin imtahan balları elan edildikdən sonra onların düzgün ixtisas seçiminə kömək məqsədilə DİM tərəfindən bütün ixtisas qruplarının abituriyentləri üçün "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı vəsaitlər çap edilib. Vəsaitlərdə plan yerlərinin sayı, hər bir qrup üzrə müsabiqə şərtləri, həmçinin müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan ballarının paylanma histoqramları cədvəl şəklində təqdim edilib. Cədvəldən istifadə edən müsabiqə iştirakçıları öz imtahan göstəricilərinin bu bal sıralanmasındakı yerini müəyyən etmək və ötən illərdə qəbul imtahanlarında ayrı-ayrı ixtisaslar üzrə formalaşmış keçid ballarını nəzərə almaqla uğurlu seçim etmək imkanı qazanıblar.

Ötən il olduğu kimi, bu il də DİM-də apelyasiya komissiyası bir neçə mərhələdə fəaliyyət göstərmişdir. Hər bir ixtisas qrupu üzrə imtahan keçirilən gündən sonra apellyasiyada (II və III qruplar üzrə 30 iyuldan etibarən (qeydiyyat tarixləri: 29 - 31 iyul), I və IV qruplar üzrə 13 avqustdan etibarən (qeydiyyat tarixləri: 11-13 avqust)) imtahanın gedişi və qəbul imtahanlarında ayrı-ayrı fənlər üzrə istifadə edilmiş test tapşırıqlarının məzmunu ilə əlaqədar müraciətlərə baxılmışdır. Apelyasiya komissiyasının tərkibində şöbə müdirləri və müəllimlərdən ibarət işçi qrup fəaliyyət göstərmiş, testlərlə bağlı suallara mütəxəssislər tərəfindən hərtərəfli izahat verilmişdir.

Qəbul imtahanlarının ikinci mərhələsində iştirak edənlər üçün

- II və III qruplar üzrə qeydiyyat tarixləri 29 - 31 iyul, apellyasiya prosesinin başlanma tarixi 30 iyul;
- I və IV qruplar üzrə qeydiyyat tarixləri 11-13 avqust, apellyasiya prosesinin başlanma tarixi 13 avqust.

Hər ixtisas qrupu üzrə abituriyentlərin istəyinə daha çox uyğun olan, ərizələrdə daha çox birinci yerdə göstərilən ən nüfuzlu ixtisaslar müəyyən edilib

Hər bir ixtisas üzrə müsabiqə vəziyyəti təkcə həmin ixtisası seçən abituriyentlərin sayından deyil, həm də həmin ixtisas üçün ayrılmış plan yerlərinin miqdarından asılı olur. Bir qayda olaraq, abituriyentlərin sayının artması müsabiqə vəziyyətinin yüksəlməsinə, plan yerlərinin artması isə müsabiqə vəziyyətinin düşməsinə səbəb olur. Bu baxımdan, müsabiqə vəziyyəti ixtisasın nüfuz səviyyəsini tam ifadə edə bilməz. Nəzərə alsaq ki, ərizədə birinci yerdə göstərilən ixtisas abituriyentin istəyinə ən çox uyğun olandır, deməli, ixtisasın nüfuzunu həmin ixtisasın abituriyent ərizələrində birinci yerdə göstərilməsinin sayı əsasında müəyyənləşdirmək daha düzgün olar. Aparılan müqayisə zamanı müsabiqəsində iştirak etmək üçün ümumi bala qoyulan tələb 200-dən az olan ixtisaslar nəzərə alınmamışdır. Bu qayda ilə hər qrupun ən nüfuzlu ixtisası müəyyənləşdirilmişdir. Məlum olmuşdur ki, bu il abituriyentlər Azərbaycan bölməsində I qrupda ən çox Bakı Dövlət Universitetinin "Riyaziyyat müəllimliyi", II qrupda Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə", III qrupda Azərbaycan Dillər Universitetinin "Xarici dil müəllimliyi (ingilis dili üzrə)", IV qrupda Azərbaycan Tibb Universitetinin "Tibb", V qrupda Azərbaycan Dövlət İqtisad Universitetinin "Dizayn (sahələr üzrə)" ixtisasına üstünlük vermişlər (cədvəl 1.15). I ixtisas qrupu istisna olmaqla digər bütün ixtisas qruplarında Azərbaycan və rus bölməsinin abituriyentlərinin seçimi eyni olmuşdur (cədvəl 1.16). I ixtisas qrupunda rus bölməsinin abituriyentləri Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Kompüter elmləri" ixtisasına üstünlük veriblər.

Cədvəl 1.15

ABİTURİYENT ƏRİZƏLƏRİNDƏ BİRİNCİ YERDƏ ƏN ÇOX GÖSTƏRİLMİŞ DÖVLƏT SİFARİŞLİ ƏYANİ ŞÖBƏ İXTİSASLARI

Azərbaycan bölməsi

İxtisas qrupu	İxtisasın adı	Birinci yerdə göstərmələrin	
		sayı	faizi (bu ixtisasa sənəd verən abituriyentlərin ümumi sayına nəzərən)
I	Riyaziyyat müəllimliyi (Bakı Dövlət Universiteti)	334	43.83
II	Maliyyə (Azərbaycan Dövlət İqtisad Universiteti)	537	40.25
III	Xarici dil müəllimliyi (ingilis dili üzrə, Azərbaycan Dillər Universiteti)	733	37.11
IV	Tibb (Azərbaycan Tibb Universiteti)	831	75.27
V	Dizayn (sahələr üzrə, Azərbaycan Dövlət İqtisad Universiteti)	1442	52.78

Cədvəl 1.16

ABİTURİYENT ƏRİZƏLƏRİNDƏ BİRİNCİ YERDƏ ƏN ÇOX GÖSTƏRİLMİŞ DÖVLƏT SİFARİŞLİ ƏYANİ ŞÖBƏ İXTİSASLARI

Rus bölməsi

İxtisas qrupu	İxtisasın adı	Birinci yerdə göstərmələrin	
		sayı	faizi (bu ixtisasa sənəd verən abituriyentlərin ümumi sayına nəzərən)
I	Kompüter elmləri (Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası)	51	31.68
II	Maliyyə (Azərbaycan Dövlət İqtisad Universiteti)	51	31.10
III	Xarici dil müəllimliyi (ingilis dili üzrə, Azərbaycan Dillər Universiteti)	72	42.11
IV	Tibb (Azərbaycan Tibb Universiteti)	48	59.26
V	Dizayn (sahələr üzrə, Azərbaycan Dövlət İqtisad Universiteti)	267	51.95

Oğlan abituriyentlər texniki və iqtisad, qız abituriyentlər isə humanitar ixtisaslara üstünlük veriblər

"Abituriyentin ərizəsi"ni dolduran gənc öz ərizəsində ixtisas qrupunu qeyd etməklə, əslində, özünün bu və ya digər yönümlü ixtisaslara istəyini, marağını ifadə edir. Bu amil nəzərə alınaraq ixtisas qrupları üzrə abituriyentlərin istəyini ifadə edən kəmiyyət göstəricisi hesablanıb. Bu zaman ixtisas seçimi aparan abituriyentlərin neçə faizinin həmin ixtisas qrupuna müraciət etməsi nəzərə alınıb. Hər bir abituriyentin istəyi nəzərə alınmaqla hesablanan belə göstərici əsasında ölkənin bütün abituriyentlərini təmsil edən ortastatistik abituriyentin (ayrılıqda oğlan və qız) ixtisas qruplarından hər birinə görə istəyi faizlə müəyyən edilib. 1.17 saylı cədvəldə hesablamanın nəticələri təqdim olunur (ötən il olduğu kimi bu il də hər bir abituriyent eyni zamanda həm V, həm I–IV qruplardan birini seçə bilmişdir, ona görə qruplar üzrə faizlərin cəmi 100-dən çox alınır).

Cədvəl 1.17

ORTASTATİSTİK OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ İSTƏKLƏRİNİN PAYLANMASI

№	OĞLAN ABİTURİYENT						QIZ ABİTURİYENT					
	Azərb. bölməsi			Rus bölməsi			Azərb. bölməsi			Rus bölməsi		
	Qrup	İstək		Qrup	İstək		Qrup	İstək		Qrup	İstək	
		sayla	%-lə		sayla	%-lə		sayla	%-lə		sayla	%-lə
1	V	27595	76.04	V	2039	61.60	V	24422	68.69	V	1929	55.62
2	I	16964	46.74	I	1625	49.09	III	14642	41.18	III	1217	35.09
3	II	9980	27.50	II	935	28.25	I	9235	25.98	I	781	22.52
4	III	4765	13.13	III	411	12.42	II	5146	14.47	II	697	20.10
5	IV	1105	3.04	IV	166	5.02	IV	3278	9.22	IV	456	13.15

Cədvəldən göründüyü kimi, V ixtisas qrupu istisna olmaqla, oğlan və qızların ixtisas qruplarına münasibətləri fərqlidir. Əvvəlki illərdə olduğu kimi, bu il də hər iki bölmənin ortastatistik oğlan abituriyentinin istəyi ən çox "Riyaziyyat, fizika və mühəndislik" (I qrup) və "İqtisadiyyat və idarəetmə" (II qrup) ixtisaslarınadır. Azərbaycan bölməsində oğlanların 74.24%, rus bölməsində isə 77.34%-nin istəyi bu iki ixtisas qrupuna yönəlib. Bu rəqəmlər oğlan abituriyentlərin texniki, iqtisad və idarəetmə ixtisaslarına marağının nə dərəcədə yüksək olduğunu göstərir. Bununla belə, qeyd etmək lazımdır ki, oğlanların I ixtisas qrupuna istəyi II qrupa nəzərən əhəmiyyətli dərəcədə yüksəkdir. Baxmayaraq ki, 2020-ci ildə 2018-ci və 2019-cu illərlə müqayisədə hər iki bölmədə oğlan abituriyentlərin II ixtisas qrupuna maraqları bir qədər zəifləmişdi, cari ildə bu ixtisas qrupuna olan maraq yenidən artmışdır. 2018-ci ildə Azərbaycan və rus bölmələrində oğlan abituriyentlərin müvafiq olaraq, 26.76% və 28.85%, 2019-cu ildə 26.26% və 28.24%, 2020-ci ildə 21.40% və 22.67%, 2021-ci ildə isə 27.50% və 28.25%-i bu ixtisas qrupunu seçib. Göründüyü kimi, 2020-ci ildə bu istək azalsa da, 2021-ci ildə II ixtisas qrupunu seçən oğlan abituriyentlərin nisbi sayı əvvəlki illərdəki səviyyəyə qalxıb.

Ortastatistik qız abituriyentin humanitar ixtisaslardan ibarət III ixtisas qrupuna istəyi daha yüksəkdir. Qız abituriyentlər "İqtisadiyyat və idarəetmə" ixtisaslarına (II qrup) az maraq göstəriblər. Əvvəlki illərdə rus bölməsinin qız abituriyentləri II ixtisas qrupuna daha çox maraq göstərirdilər və son illərdə onların da oğlanlarda olduğu kimi bu ixtisas qrupuna meylində azalma müşahidə olunmuşdur. Lakin, bu ilki rəqəmlər rus bölməsinin qız abituriyentlərinin II ixtisas qrupuna maraqlarının yenidən artdığını göstərir. 2018-ci ildə rus bölməsindəki qız abituriyentlərin 23.08%-i, 2019-cu ildə 19.37%-i, 2020-ci ildə 17.82%-i, 2021-ci ildə isə 20.10%-i II ixtisas qrupunu seçib.

IV ixtisas qrupunda qızların ixtisas maraqları (istəkləri) oğlanların maraqlarından 2.62-3.03 dəfə yüksəkdir. Onu da qeyd edək ki, IV qrup üzrə ixtisas seçimi mərhələsində iştirak edən qız abituriyentlərin sayı oğlanlardan 3.08 dəfə yüksək olub.

Cari ildə də V ixtisas qrupuna həm oğlan, həm də qız abituriyentlərin maraqları yüksək olmuşdur. V ixtisas qrupuna istəyin bu dərəcədə yüksək olması daha çox cari ilin məzunlarına görədir. Bildiyimiz kimi, cari ilin məzunlarının V ixtisas qrupu üzrə ixtisasların müsabiqəsində buraxılış imtahanının nəticələri əsasında iştirak etmək imkanı olmuş və onlar əlavə imtahan verməmişdir. Həmçinin cari ilin məzunları ali təhsil müəssisələrinə qəbul kampaniyasında ilk dəfə iştirak etdikləri üçün onların iştirakı dövlət büdcəsi tərəfindən maliyyələşdirilmişdir. Qeyd olunan səbəblərə görə cari ilin məzunları ərizələrində həm də V ixtisas qrupunu seçib, halbuki faktiki olaraq onların bir çoxunun bu qrupa aid olan ixtisaslara maraqları çox az olub və yaxud heç olmayıb. Qeyd edək ki, ixtisas seçimi mərhələsində abituriyentlərin cəmi 19.26%-i (oğlanların 23.74%-i, qızların 15.20%-i) V qrupa daxil olan ixtisasları öz ərizələrində qeyd edib.

Bakı şəhərinin Qaradağ rayonu, Siyəzən, Salyan və Neftçala rayonlarının oğlan abituriyentləri ənənəvi olaraq yüksək faizlə I qrupun ixtisaslarını seçiblər

Respublikanın ayrı-ayrı bölgələrini təmsil edən oğlan və qız abituriyentlərin və subbakalavrların ixtisas qrupları üzrə istəklərinin paylanması müəyyənləşdirilib. Abituriyentləri və subbakalavrları bu və ya digər ixtisas qrupuna nisbətən daha çox meyil göstərilən bölgələr 1.18 saylı cədvəldə təqdim olunub.

Cədvəldən göründüyü kimi, Neftçala, Salyan, Ağstafa, Qazax, Siyəzən, Qax, Xaçmaz rayonlarında, Sumqayıt şəhərində, eləcə də, Bakı şəhərinin Qaradağ, Suraxanı və Sabunçu rayonlarında oğlanlar yüksək faizlə (uyğun olaraq, 71.85%, 68.97%, 63.78%, 63.71%, 63.21%, 62.07%, 66.22%, 63.04%, 67.27%, 66.96% və 60.43%) texniki ixtisaslar qrupunu seçiblər. Əvvəlki illərdəki qəbulun nəticələri də göstərir ki, bu bölgələrdə oğlanların texniki ixtisaslara marağı yüksəkdir və bu, bir ənənəyə çevrilib. Buna səbəb həmin bölgələrdə dəqiq fənlərin, xüsusən riyaziyyat, fizika fənlərinin tədrisi səviyyəsinin yüksək olması, həmçinin texniki elmlərlə bağlılığı olan sənaye müəssisələrinin mövcudluğudur. Şübhəsiz, müəllimin nüfuzu, yüksək təhsili və pedaqoji bacarığı da şagirdlər arasında fənnin daha dərindən öyrənilməsini şərtləndirir. İxtisas seçərkən isə gənclər ən yaxşı bildikləri fənnin daha çox əhəmiyyət kəsb etdiyi ixtisas qrupuna üstünlük verirlər.

Bu il Qobustan, Ordubad, Saatlı, Cəlilabad, Kəngərli, Şamaxı, Kəlbəcər, Abşeron, Şərur, Lerik, Babək və Gədəbəy rayonlarında qızlar humanitar ixtisaslara daha çox üstünlük veriblər.

Cədvəl 1.18

RESPUBLİKANIN BÖLGƏLƏRİNİ TƏMSİL EDƏN OĞLAN VƏ QIZLARIN İXTİSAS QRUPLARI ÜZRƏ İSTƏKLƏRİNİN PAYLANMASI

İxtisas qrupu	AZƏRBAYCAN BÖLMƏSİ		RUS BÖLMƏSİ	
	Oğlan abituriyent	Qız abituriyent	Oğlan abituriyent	Qız abituriyent
I	Neftçala rayonu (71.85), Salyan rayonu (68.97), Ağstafa rayonu (63.78), Qazax rayonu (63.71), Siyəzən rayonu (63.21), Qax rayonu (62.07), Bakı ş. Qaradağ rayonu (59.70), Qusar rayonu (57.88), Sumqayıt şəhəri (57.29), Yevlax rayonu (57.14), Bakı ş. Suraxanı rayonu (57.06)	Ağstafa rayonu (38.77), Tovuz rayonu (36.08), Sumqayıt şəhəri (35.78), Göyçay rayonu (35.36), Qusar rayonu (35.21), Zərdab rayonu (34.70), Neftçala rayonu (34.28), Qax rayonu (34.03), Hacıqabul rayonu (33.76), Şabran rayonu (33.45)	Bakı ş. Qaradağ rayonu (67.27), Bakı ş. Suraxanı rayonu (66.96), Xaçmaz rayonu (66.22), Sumqayıt şəhəri (63.04), Bakı ş. Sabunçu rayonu (60.43), Bakı ş. Xəzər rayonu (59.62), Qusar rayonu (55.93), Bakı ş. Xətai rayonu (54.95)	Bakı ş. Qaradağ rayonu (38.60), Xaçmaz rayonu (30.51), Bakı ş. Xəzər rayonu (29.69), Bakı ş. Sabunçu rayonu (26.23), Bakı ş. Binəqədi rayonu (25.25), Bakı ş. Nərimanov rayonu (25.08)
II	Naxçıvan şəhəri (47.24), Ağsu rayonu (42.55), İmişli rayonu (40.41), Ağdam rayonu (40.18), Füzuli rayonu (40.12), Cəbrayıl rayonu (39.96), Şərur rayonu (39.78), Daşkəsən rayonu (38.61), Ağcabədi rayonu (37.77), Zərdab rayonu (37.21)	Zaqatala rayonu (31.89), Ağsu rayonu (31.21), Daşkəsən rayonu (27.18), Balakən rayonu (26.10), Bakı ş. Səbayel rayonu (25.98), Bakı ş. Yasamal rayonu (25.94), Bakı ş. Nərimanov rayonu (25.08), Füzuli rayonu (24.78), İmişli rayonu (24.75), Quba rayonu (24.59)	Bakı ş. Nərimanov rayonu (36.27), Bakı ş. Yasamal rayonu (33.42), Bakı ş. Səbayel rayonu (33.17), Abşeron rayonu (32.14), Bakı ş. Binəqədi rayonu (31.66), Gəncə şəhəri (30.43), Bakı ş. Nəsimi rayonu (28.37), Qusar rayonu (27.12), Bakı ş. Xətai rayonu (26.62)	Bakı ş. Səbayel rayonu (31.72), Bakı ş. Nərimanov rayonu (28.70), Gəncə şəhəri (25.10), Bakı ş. Yasamal rayonu (24.81), Sumqayıt şəhəri (24.14), Bakı ş. Xətai rayonu (23.58), Bakı ş. Xəzər rayonu (21.88), Xaçmaz rayonu (21.19)
III	Ordubad rayonu (22.54), Lerik rayonu (21.48), Yardımlı rayonu (20.73), Saatlı rayonu (19.78), Kəlbəcər rayonu (19.34), Goranboy rayonu (18.73), Şəmkir rayonu (18.42), İmişli rayonu (17.65), Şəki rayonu (17.41), Cəlilabad rayonu (17.28)	Qobustan rayonu (53.66), Ordubad rayonu (52.02), Saatlı rayonu (51.31), Cəlilabad rayonu (51.18), Kəngərli rayonu (49.59), Şamaxı rayonu (48.41), Kəlbəcər rayonu (47.73), Şərur rayonu (44.37), Lerik rayonu (44.29), Babək rayonu (43.81), Gədəbəy rayonu (43.73)	Bakı ş. Nərimanov rayonu (18.31), Gəncə şəhəri (15.22), Sumqayıt şəhəri (13.77), Bakı ş. Nizami rayonu (12.38), Bakı ş. Nəsimi rayonu (11.76), Bakı ş. Yasamal rayonu (10.96), Bakı ş. Xətai rayonu (10.92), Bakı ş. Binəqədi rayonu (10.55), Bakı ş. Səbayel rayonu (10.05)	Abşeron rayonu (46.22), Bakı ş. Suraxanı rayonu (39.86), Bakı ş. Qaradağ rayonu (38.60), Bakı ş. Nəsimi rayonu (37.21), Bakı ş. Sabunçu rayonu (36.61), Qusar rayonu (36.47), Sumqayıt şəhəri (35.17), Bakı ş. Xətai rayonu (33.65), Gəncə şəhəri (32.92)

Cədvəl 1.18 (ardı)

İxtisas qrupu	AZƏRBAYCAN BÖLMƏSİ		RUS BÖLMƏSİ	
	Oğlan abituriyent	Qız abituriyent	Oğlan abituriyent	Qız abituriyent
IV	Babək rayonu (9.15), Lerik rayonu (7.38), Şahbuz rayonu (6.48), Saatlı rayonu (6.47), Lənkəran rayonu (5.98), Tovuz rayonu (5.87), Goranboy rayonu (5.57), Şəmkir rayonu (5.50), Göyçay rayonu (5.22), Ağcabədi rayonu (5.17), Cəlilabad rayonu (5.08)	Şahbuz rayonu (19.05), Naxçıvan şəhəri (16.16), Lerik rayonu (14.29), Astara rayonu (14.25), Şirvan şəhəri (14.22), Şəmkir rayonu (14.07), Ağcabədi rayonu (13.48), Oğuz rayonu (13.24), Gəncə şəhəri (13.14), Kəngərli rayonu (13.01)	Bakı ş. Sabunçu rayonu (7.19), Abşeron rayonu (7.14), Gəncə şəhəri (6.52), Xaçmaz rayonu (5.41), Sumqayıt şəhəri (5.07), Bakı ş. Yasamal rayonu (4.66), Bakı ş. Səbayel rayonu (4.52), Bakı ş. Nizami rayonu (4.29), Bakı ş. Nəsimi rayonu (4.15), Bakı ş. Binəqədi rayonu (4.02)	Gəncə şəhəri (17.28), Qusar rayonu (16.47), Bakı ş. Xəzər rayonu (15.63), Bakı ş. Yasamal rayonu (15.09), Bakı ş. Binəqədi rayonu (13.95), Xaçmaz rayonu (13.56), Bakı ş. Nizami rayonu (13.31), Bakı ş. Nəsimi rayonu (13.18), Bakı ş. Sabunçu rayonu (11.48), Bakı ş. Səbayel rayonu (11.01)
V	Şərur rayonu (84.59), Samux rayonu (83.77), Daşkəsən rayonu (83.17), Göygöl rayonu (81.11), Naxçıvan şəhəri (80.71), Ağstafa rayonu (80.45), Zərdab rayonu (79.53), Şəmkir rayonu (79.35), Kəlbəcər rayonu (79.08), Şahbuz rayonu (78.70), Gəncə şəhəri (78.63), Babək rayonu (78.35)	Samux rayonu (80.00), Göygöl rayonu (76.09), Şərur rayonu (73.94), Babək rayonu (73.72), Naxçıvan şəhəri (72.56), Ağcabədi rayonu (71.77), Xocalı rayonu (69.32), Gəncə şəhəri (69.11), Şəmkir rayonu (67.41), Zərdab rayonu (66.67), Kəlbəcər rayonu (66.03), Şahbuz rayonu (65.87), Goranboy rayonu (65.29)	Gəncə şəhəri (78.26), Bakı ş. Qaradağ rayonu (72.73), Göyçay rayonu (72.22), Bakı ş. Xəzər rayonu (69.23), Xaçmaz rayonu (68.92), Abşeron rayonu (65.48), Bakı ş. Sabunçu rayonu (61.15), Bakı ş. Binəqədi rayonu (60.80), Bakı ş. Nəsimi rayonu (60.55), Samux rayonu (60.00)	Gəncə şəhəri (70.78), Abşeron rayonu (55.46), Xaçmaz rayonu (55.08), Bakı ş. Yasamal rayonu (50.90), Bakı ş. Xətai rayonu (50.63), Bakı ş. Sabunçu rayonu (49.73), Bakı ş. Qaradağ rayonu (49.12), Bakı ş. Nəsimi rayonu (48.45), Bakı ş. Nizami rayonu (47.98)

Qeyd: Seçmədə qəbul kampaniyasında iştirak etmək üçün müraciət edənlərin sayı Azərbaycan bölməsində 100-dən, rus bölməsində isə 50-dən az olmayan bölgələr iştirak edir.

I–IV ixtisas qrupları üzrə qəbul imtahanlarında abituriyentlərin 44.26%-i 200-dən az bal toplamışdır

I–IV ixtisas qrupları üzrə qəbul imtahanlarında iştirak edən və qəbul olan abituriyentlərin bal göstəriciləri aşağıdakı diaqramlarda (bax: şəkil 1.13 və 1.14) təsvir edilib. Qəbulda toplanılması mümkün olan maksimal bal 700-dür. 0-700 bal diapazonunu şərti olaraq (0-200), (200-300), (300-500), (500-700) intervallarına bölərək, ənənəvi "2","3","4","5" qiymətləri ilə analogiyasını yaratsaq, görərik ki, bu il abituriyentlərin 44.3 faizi imtahandan "2", 20.3%-i "3", 25.5%-i "4", 10.0%-i isə "5" qiymət alıb (bax: şəkil 1.13). Ötən il bu göstəricilər, uyğun olaraq, 42.8%, 21.0%, 26.6%, 9.7% olmuşdur. Göründüyü kimi, bu il "2" və "5" qiymət alanların faizi nisbətən artmış, "3" və "4" qiymət alanların faizi isə nisbətən azalmışdır. Təbii ki, qəbul imtahanlarında iştirak edən abituriyentlərin topladıqları balların paylanması strukturunda və qəbul planında baş verən dəyişikliklər qəbul olan abituriyentlərin ballarının paylanmasında da öz əksini tapmışdır. Qəbul olanların topladıqları balların paylanma diaqramından (şəkil 1.14) görünür ki, onların 29.9%-ni "3", 47.2%-ni "4", 18.0%-ni isə "5" qiymət alanlar təşkil edib. Ötən il bu göstəricilər, uyğun olaraq 27.1%, 50.3%, 17.8% olub.

V ixtisas qrupu üzrə ərizə verib qəbul imtahanında (cari ilin məzunları üçün tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında) iştirak edən və qəbul olan abituriyentlərin bal göstəriciləri isə aşağıdakı diaqramlarda (bax: şəkil 1.15 və 1.16) təsvir edilib. Bu imtahanlarda toplanılması mümkün olan maksimal bal 300-dür. Şəkil 1.15-dən göründüyü kimi, qəbul (buraxılış) imtahanlarında iştirak edən abituriyentlərin 43.43%-nin topladığı bal 100-dən aşağıdır. Qəbul olan abituriyentlər arasında 30-dan az bal toplayan yoxdur (şəkil 1.16).

Təəssüflə qeyd etmək lazımdır ki, bu il Ağsu, Daşkəsən, Astara, Göygöl, Samux, Kürdəmir, Ağdaş, Ucar, Goranboy, Şamaxı, Qobustan, Saatlı, Zərdab rayonlarının və Naftalan şəhərinin cari il məzunlarını təmsil edən abituriyentlərin 20%-dən çoxunun qəbul imtahanlarında topladığı bal 100-dən aşağı olmuşdur.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI

(I–IV qruplar üzrə)



Şəkil 1.13

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI

(I–IV qruplar üzrə)



Şəkil 1.14

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI

(V qrup üzrə)



Şəkil 1.15

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI

(V qrup üzrə)



Şəkil 1.16

Məlum olduğu kimi, "Abituriyentin ərizəsi" formasına ayrı-ayrı fənlər üzrə attestat qiymətləri də daxil edilir. Ərizədə qeyd olunan qiymətlər əsasında abituriyentlərin orta attestat qiymətləri hesablanaraq, onların qəbul imtahanlarında topladıqları ballarla müqayisəsi aparılmışdır. Cədvəl 1.19-da attestat qiymətlərinə görə müxtəlif səviyyədə yerləşən cari ilin məzunlarının qəbul imtahanlarında topladıqları balların paylanması təqdim edilir. Bu cədvələ əsaslanaraq, attestatda bütün qiymətləri "5" olan abituriyentlərlə bütün qiymətləri "3" olan abituriyentlərin imtahan ballarını müqayisə edək. Tam orta məktəbi bütün fənlərdən "3" qiymətlə başa vuran məzunların 96.27%-nin qəbul imtahanlarındakı nəticələri də çox zəif – 0–200 bal intervalında olub. "5" qiymətlə bitirən məzunların isə yalnız 30.82%-i attestat qiymətlərini doğrulda bilib. Bu da məktəblərdə verilən aşağı qiymətlərin obyektiv olduğunu, yüksək qiymətlərin isə nisbətən şişirdildiyini göstərir.

Əlbəttə, obyektiv qiymətləndirilmə aparılarsa, təhsilin bir pilləsində əldə olunmuş nailiyyətlər digər pilləyə keçiddə nəzərə alınmalıdır. İndiki halda isə ali təhsil müəssisələrinə qəbul zamanı attestat qiymətləri nəzərə alınaraq bunun əsasında abituriyentin nəticəsinə hər hansı bal əlavə edilərsə, əla qiymətlərini doğrultmayan "əlaçılar" öz biliyi hesabına bal toplayanları sıxışdırıb onları ali təhsil müəssisələrinə qəbulda üstələyə bilərlər. Digər tərəfdən, bu cür addımın subyektivliyə bir qədər də yol açmayacağına zəmanət vermək çətindir. Odur ki, biz məktəb və qəbul göstəriciləri arasında yüksək korrelyasiya ($r>0.9$) olmayanadək attestat qiymətlərinin qəbulda əlavə bal kimi nəzərə alınmasının tərəfdarı deyilik.

Qiymətləndirmə ilə bağlı qeyd olunan problem digər amillərlə yanaşı, həm də tam orta təhsil standartlarının yerlərdə eyni qaydada tətbiq edilməməsindən irəli gəlir. Qiymət meyarlarının məktəblərdə bir-birindən ciddi fərqlənməsi nəticəsində eyni hazırlıqlı şagirdin biliyi bir məktəbdə (rayonda) "əla", digər məktəbdə (rayonda) "kafi" qiymətləndirilir. Dövlət İmtahan Mərkəzi ümumtəhsil müəssisələrində qiymətləndirmənin vahid standartlar əsasında aparılması işinə kömək məqsədilə məktəb proqramlarına uyğun olaraq şagirdlərin biliyinin yoxlanılması və qiymətləndirilməsi üçün fənlər üzrə test kitabları nəşr edib. Kitablar Təhsil Nazirliyi tərəfindən dərs vəsaiti kimi təsdiq edilib. Onlarda qiymətləndirmənin 5 və 9 ballıq sistemdə standartları da təqdim olunub ki, hər bir məktəb bunun əsasında öz şagirdlərinin biliyini vahid qiymətləndirmə sistemi ilə ölçmək imkanı əldə etsin.

Cədvəl 1.19

ATTESTAT QİYMƏTLƏRİ VƏ QƏBUL İMTAHANLARINDA TOPLADIQLARI BALLAR ÜZRƏ ABİTURİYENTLƏRİN PAYLANMASI

SEÇMƏLƏR		CƏMİ	BAL İNTERVALLARI				
			0-100	100-200	200-300	300-500	500-700
İmtahan iştirakçıları	sayı	67717	11314	18655	13724	17250	6774
	faizi	100.0	16.71	27.55	20.27	25.47	10.00
İmtahan iştirakçıları (2021-ci ilin məzunları)	sayı	57340	8097	14471	11859	16290	6623
	faizi	100.0	14.12	25.24	20.68	28.41	11.55
2021-ci ilin məzunları (əlaçılar)	sayı	14292	240	1518	2356	5773	4405
	faizi	100.0	1.68	10.62	16.48	40.39	30.82
2021-ci ilin məzunları (orta attestat balı 4.5-5 intervalında yerləşənlər, 4.5 daxil olmaqla)	sayı	18844	1033	4359	4743	6835	1874
	faizi	100.0	5.48	23.13	25.17	36.27	9.94
2021-ci ilin məzunları (orta attestat balı 4-4.5 intervalında yerləşənlər, 4 daxil olmaqla)	sayı	14579	2568	5180	3526	2992	313
	faizi	100.0	17.61	35.53	24.19	20.52	2.15
2021-ci ilin məzunları (orta attestat balı 3.5-4 intervalında yerləşənlər)	sayı	5650	1975	2174	914	562	25
	faizi	100.0	34.96	38.48	16.18	9.95	0.44
2021-ci ilin məzunları (orta attestat balı 3-3.5 intervalında yerləşənlər, 3.5 daxil olmaqla)	sayı	3275	1766	1088	296	121	4
	faizi	100.0	53.92	33.22	9.04	3.69	0.12
2021-ci ilin məzunları (orta attestat balı "3" olanlar)	sayı	671	502	144	19	5	1
	faizi	100.0	74.81	21.46	2.83	0.75	0.15

Fənlər üzrə məktəb qiymətləri ilə qəbul imtahanlarında toplanılan balların müqayisəsi üçün abituriyentlərin hər bir fənn üzrə topladıqları balların məktəb qiymətləri ilə korrelyasiyası da araşdırılıb. Məlum olub ki, ümumtəhsil müəssisələrində nisbətən obyektiv qiymətləndirmə ana dili, riyaziyyat və xarici dil fənləri üzrə aparılır. Bu fənlər üzrə korrelyasiya əmsalı 0.53-0.54 intervalındadır. 2014-cü ildə xarici dil üzrə korrelyasiya əmsalı 0.42-yə bərabər olub. Amma son altı ildə buraxılış imtahanı fənləri siyahısına xarici dil fənni də daxil edildikdən sonra bu göstərici 0.53-ə yüksəlib. Ədəbiyyat, tarix, fizika, kimya, biologiya və coğrafiya fənləri üzrə korrelyasiya əmsalları 0.34-0.42 intervalındadır.

2014-2021-Cİ İLLƏRDƏ QƏBUL İMTAHANLARINDA TOPLADIQLARI BALLAR ÜZRƏ ABİTURİYENTLƏRİN PAYLANMASININ MÜQAYİSƏSİ (BÜTÜN MƏZUNLAR NƏZƏRƏ ALINMAQLA)



Şəkil 1.17

Məlum olduğu kimi, 2015-ci ildən V qrup və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul cari ilin məzunları üçün buraxılış imtahanlarının nəticələri əsasında həyata keçirilib. Ona görə də V qrup ixtisaslarına və ya orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər I–IV qruplar üzrə imtahanlarda iştirak etməyib. Nəticədə, 2014-cü illə müqayisədə 2015, 2016 və 2017-ci illərdə I–IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən cari il məzunlarının respublika üzrə bütün məzunların sayındakı payı 65.67%-dən müvafiq olaraq 58.71, 59.16 və 63.34%-dək azalmış, 2018 və 2019-cu illərdə əksinə olaraq bu pay müvafiq olaraq, 67.33 və 72.41 faizə qədər artmış, 2020 və 2021-ci illərdə isə qismən azalaraq, müvafiq olaraq 70.97 və 68.92% təşkil etmişdir. Ötən illər ərzində xüsusi qabiliyyət tələb edən ixtisaslara (V qrup) və orta ixtisas təhsili müəssisələrinə qəbul olanların əksəriyyətinin qəbul imtahanında 0–100 və 100–200 intervalında bal toplayanlardan ibarət olduqlarını nəzərə alsaq, deyə bilərik ki, 2014-cü illə müqayisədə 2015, 2016, 2017, 2018, 2019, 2020 və 2021-ci illərdə qəbul imtahanı ballarının paylanma spektrinə daxil olan orta və yüksək bal intervallarında (200–300, 300–500, 500–700) heç bir əhəmiyyətli dəyişiklik baş verməməlidir. Doğrudan da, 1.17 saylı şəkildən göründüyü kimi, ciddi dəyişiklik yalnız 0–100 intervalında bal toplayanların nisbi sayındadır. 200–300, 300–500 və 500–700 intervallarında bal toplayanların mütləq saylarını təhlil etdikdə görürük ki, 2015, 2016, 2017, 2018, 2019, 2020 və 2021-ci illərdə bu intervallarda nəticə göstərənlərin sayı 2014-cü illə müqayisədə qismən artıb (2014-cü ildə bu intervallar üzrə nəticə göstərən abituriyentlərin sayı, müvafiq olaraq, 9509, 12863 və 5440-a, 2015-ci ildə 9702, 13182 və 6153-ə, 2016-cı ildə 9713, 13589 və 6501-ə, 2017-ci ildə 9256, 14088 və 6865-ə, 2018-ci ildə 10036, 15049 və 8062-yə, 2019-cu ildə 11810, 17854 və 7266-ya, 2020-ci ildə 12240, 16732 və 6434-ə, 2021-ci ildə isə 11859, 16290 və 6623-ə bərabər olub).

Bundan əlavə, hər bir fənn üzrə attestat qiyməti “kafi” və “əla” olan abituriyentlərin qəbul imtahanlarında müvafiq fəndən topladıqları nisbi balların bal intervalları üzrə paylanma histoqramları təhlil edilib. Məlum olub ki, fənlər üzrə attestat qiymətləri “3” olan abituriyentlərin əksəriyyəti qəbul imtahanlarında da analoji

nəticə göstəriblər. Belə ki, bu abituriyentlərin ayrı-ayrı fənlər üzrə 77–97%-i 0–40 intervalında nisbi bal toplamışdır. Deməli, yuxarıda da qeyd etdiyimiz kimi, ümumi təhsil məktəblərində verilən aşağı qiymətlər müəyyən edilmiş vahid standartlara xeyli dərəcədə uyğundur. Ancaq, təəssüf ki, "əla" ilə qiymətləndirmədə bunun əksini görürük (bax: cədvəl 1.20). Bu, özünü Coğrafiya (II qrup), Fizika (I, IV qruplar) və Riyaziyyat (I, II qruplar) fənləri üzrə qiymətləndirmədə daha qabarıq göstərir. Coğrafiya fənnindən əlaçı abituriyentlərin 39.37%-nin, fizika fənnindən 36.04%-nin və riyaziyyat fənnindən 35.57%-nin uyğun fənlər üzrə qəbul imtahanının II mərhələsində topladıqları nisbi balları 20-dən az olmuşdur. Əlaçı abituriyentlərin 80-100 bal intervalındakı nəticələrinə nəzər saldıqda görürük ki, bu abituriyentlərin coğrafiya fənni üzrə yalnız 6.43%-i, riyaziyyat fənni üzrə 9.12%-i və fizika fənni üzrə isə 10.64%-i 80–100 bal intervalında nəticə göstərərək özlərinin attestat qiymətlərini doğruldublar. Belə zəif nəticə göstərənlərin sayının çox olması bu fənlərin aşağı səviyyədə tədris olunması və qiymətləndirmədə standartlara əməl edilməməsi ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, burada təhlil olunan göstəricilər qiymətləndirmənin respublika üzrə vəziyyətini ifadə edir. Lakin hər bir bölgənin fərqli göstəriciləri də ola bilər. Biz, sadəcə, bu sahədə problemlərin olduğunu və onun təhlil edilərək aydınlaşdırıla bilinməsi imkanlarını göstərdik. Bu baxımdan, hər bir bölgə müvafiq qaydada nəticələrini təhlil edib mövcud problemlərini üzə çıxara və onların həll olunması üçün tədbirlər görə bilər. Bölgələrdə bu işin, hətta müəllimlər səviyyəsində də təhlil edilməsi mümkündür.

Cədvəl 1.20

FƏNLƏR ÜZRƏ ATTESTAT QİYMƏTLƏRİ "ƏLA" OLAN ABİTURİYENTLƏRİN NİSBİ BAL İNTERVALLARINA GÖRƏ PAYLANMASI (2021-Cİ İLİN MƏZUNLARI)

FƏNN		CƏMİ	BAL İNTERVALLARI				
			0 – 20	20 – 40	40 – 60	60 – 80	80 – 100
I mərhələ üzrə							
Ana dili	sayı	35528	558	4151	9771	14535	6513
	faizi	100.00	1.57	11.68	27.50	40.91	18.33
Riyaziyyat	sayı	27947	4039	7303	6467	5678	4460
	faizi	100.00	14.45	26.13	23.14	20.32	15.96
Xarici dil	sayı	33556	1672	6219	8822	9681	7162
	faizi	100.00	4.98	18.53	26.29	28.85	21.34
II mərhələ üzrə							
Ana dili (III qrup)	sayı	11796	1169	2125	2605	2917	2980
	faizi	100.00	9.91	18.01	22.08	24.73	25.26
Ədəbiyyat (III qrup)	sayı	12722	1042	1571	2753	4272	3084
	faizi	100.00	8.19	12.35	21.64	33.58	24.24
Riyaziyyat (I, II qruplar)	sayı	16203	5763	3965	2905	2093	1477
	faizi	100.00	35.57	24.47	17.93	12.92	9.12
Tarix* (II, III qruplar)	sayı	18591	4335	3362	3852	3909	3133
	faizi	100.00	23.32	18.08	20.72	21.03	16.85
Fizika (I, IV qruplar)	sayı	16950	6109	3871	2954	2213	1803
	faizi	100.00	36.04	22.84	17.43	13.06	10.64
Kimya (I, IV qruplar)	sayı	16650	4942	3811	3062	2512	2323
	faizi	100.00	29.68	22.89	18.39	15.09	13.95
Biologiya (IV qrup)	sayı	3597	597	830	863	706	601
	faizi	100.00	16.60	23.07	23.99	19.63	16.71
Coğrafiya (II qrup)	sayı	7755	3053	1943	1307	953	499
	faizi	100.00	39.37	25.05	16.85	12.29	6.43

* Qeyd: Tarix fənnindən göstəricilər Azərbaycan tarixi və ümumi tarix fənlərinin hər ikisindən "əla" qiymət alan abituriyentlərin göstəriciləri əsasında müəyyənləşmişdir.

Abituriyentlərin ballarının paylanma histoqramlarında assimmetriya mövcuddur
Ortastatistik abituriyentə nəzərən zəif nəticə göstərənlər sayca üstünlük təşkil edir

Qəbul imtahanlarının nəticələri əsasında Azərbaycan və rus bölmələri üzrə ayrılıqda abituriyentlərin topladıqları balların I–IV və V ixtisas qrupları üzrə paylanması müəyyənləşdirilib. Onlar cədvəl şəklində tərtib olunub (1.21, 1.22, 1.23 və 1.24 saylı cədvəllərə bax) və histoqramları (1.1, 1.2, 1.3, 1.4 saylı qrafiklərə bax) qurulub.

Qrafiklərdə Azərbaycan və rus bölmələri üzrə ayrılıqda abituriyentlərin I–IV və V ixtisas qrupları üzrə topladıqları balların paylanma histoqramları və ədədi xarakteristikaları: riyazi gözləmə (orta qiymət) – M, abituriyentlərin seçməsini iki bərabər hissəyə ayıran bal (mediana) – Me, abituriyentlərin ballarının paylanmasında rast gəlmə ehtimalı ən yüksək olan bal (moda) təqdim edilib. Təhlil göstərir ki, I–IV ixtisas qruplarında hər iki bölmə üzrə abituriyentlərin ballarının paylanma histoqramları sağtərəfli asimmetriyaya malikdir. Bu o deməkdir ki, abituriyentlərin tam seçimində orta nəticə göstərən (Azərbaycan bölməsində 257.70, rus bölməsində 272.47 bal) abituriyentlərə nəzərən zəif nəticə göstərənlər sayca üstünlük təşkil edir. Bununla belə, Azərbaycan və rus bölmələri abituriyentlərinin histoqramlarında fərqli cəhətlər mövcuddur. Bunlar aşağıdakılardır:

1. Azərbaycan bölməsi ilə müqayisədə rus bölməsində abituriyentlərin ballarının paylanma histoqramlarında asimmetriya nisbətən zəifdir. Azərbaycan və rus bölmələri abituriyentlərinin orta bal göstəriciləri arasındakı fərq ötən ilə nəzərən 8.05-dən 14.77-yə qədər artmışdır. Azərbaycan bölməsində abituriyentlərin 55.05, rus bölməsində isə 63.03%-i 200-dən çox bal toplamışdır. Digər tərəfdən, imtahanda iştirak edənlərin yarısının Azərbaycan bölməsində 222.46, rus bölməsində isə 248.04 baldan zəif nəticə göstərməsi, hər iki bölmədə abituriyentlərin hazırlığının günün tələbləri (dövlət tədris proqramları və təhsil standartları) səviyyəsində olmadığını təsdiqləyir.

2. Abituriyentlərin topladıqları balların ortastatistik* abituriyentin topladığı bala (seçmənin riyazi gözləmə qiymətinə) nəzərən səpələnməsi (paylanmanın dəyişkənliyi) ortakvadratik meyillə xarakterizə edilir. Ortakvadratik meyilin qiymətləri bölmələr üzrə test imtahanlarında toplanılan balların paylanmasının ədədi xarakteristikaları cədvəllərində göstərilib. Azərbaycan bölməsi üzrə bu göstərici 158.85, rus bölməsi üzrə 143.58 bala bərabərdir. Əslində, Azərbaycan və rus bölmələri üzrə toplanılan balların riyazi gözləmə (orta) qiymətləri bir-birindən fərqli olduğundan onların ortakvadratik meyillərini bilavasitə müqayisə etmək düzgün deyil. Müqayisə ortakvadratik meyillərin riyazi gözləmə (orta) qiymətlərinə nəzərən faizləri (variasiya əmsalı) əsasında aparılmalıdır. Belə müqayisə isə göstərir ki, Azərbaycan bölməsində abituriyentlərin topladıqları balların səpələnmə göstəricisi riyazi ortanın 61.64%-ni təşkil etdiyi halda, rus bölməsində 52.70%-ni təşkil edir. Azərbaycan bölməsində ortastatistik abituriyentin topladığı bala (riyazi ortaya) nəzərən səpələnmənin yüksək olması bu bölmənin qəbul imtahanlarında iştirak edən abituriyentlərinin bilikləri arasında daha ciddi qütbləşmənin mövcud olduğunu göstərir.

V ixtisas qrupu üzrə abituriyentlərin tam seçməsində orta bal ətrafında nəticə göstərən (Azərbaycan bölməsində 117.79, rus bölməsində 132.42 bal) abituriyentlərə nəzərən zəif nəticə göstərən abituriyentlər sayca üstünlük təşkil edirlər. Azərbaycan və rus bölmələri abituriyentlərinin histoqramlarında bəzi fərqli cəhətlər mövcuddur. Belə ki, Azərbaycan bölməsi ilə müqayisədə rus bölməsi abituriyentlərinin ballarının paylanma histoqramlarında orta nəticə göstərən abituriyentlər daha çox üstünlük təşkil edir. İmtahanda iştirak edənlərin yarısı Azərbaycan bölməsində 108.28, rus bölməsində isə 127.89 baldan aşağı nəticə göstərib. Azərbaycan bölməsi üzrə ortakvadratik meyil 56.30, rus bölməsi üzrə 54.52 bala bərabərdir. Ortakvadratik meyillərin riyazi gözləmə (orta) qiymətlərinə nəzərən faizləri (variasiya əmsalı) əsasında müqayisə göstərir ki, Azərbaycan bölməsində abituriyentlərin topladıqları balların səpələnmə göstəricisi riyazi ortanın 47.80%-ni təşkil etdiyi halda, rus bölməsində yalnız 41.17%-ni təşkil edir. Göründüyü kimi, ortastatistik abituriyentin topladığı bala (riyazi ortaya) nəzərən səpələnmə hər iki bölmə üzrə yüksəkdir. Bu da o deməkdir ki, qəbul imtahanlarında iştirak edən abituriyentlərinin bilikləri arasında ciddi qütbləşmənin mövcud olduğunu göstərir.

Qəbul imtahanlarının nəticələri əsasında ixtisas qrupları üzrə də abituriyentlərin topladıqları balların paylanması müəyyənləşdirilib. Onlara uyğun olan statistik sıralar jurnalın əlavələr hissəsində təqdim olunub (cədvəllər 6.10-6.19, bax: səh. 451-454).

* Burada ortastatistik abituriyent dedikdə, I-IV ixtisas qrupları üzrə qəbul imtahanlarında iştirak edən abituriyentlərin bu imtahanda nümayiş etdirdikləri bilik və bacarıq baxımından ümumiləşdirilmiş obrazı nəzərdə tutulur.

Bölmə: Azərbaycan (I–IV qruplar)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə:	257.70	Minimal bal :	0
Ortakvadratik meyil:	158.85	Maksimal bal :	697.1
Moda :	90	Abituriyentlərin sayı :	61969
Mediana :	222.46		

Cədvəl 1.21

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	20	0.03	0.03	220 - 240	2599	4.19	53.68	460 - 480	1259	2.03	87.97
0 - 20	185	0.30	0.33	240 - 260	2418	3.90	57.58	480 - 500	1174	1.89	89.86
20 - 40	557	0.90	1.23	260 - 280	2257	3.64	61.22	500 - 520	1075	1.73	91.60
40 - 60	2208	3.56	4.79	280 - 300	2179	3.52	64.74	520 - 540	1016	1.64	93.24
60 - 80	3806	6.14	10.93	300 - 320	1988	3.21	67.95	540 - 560	899	1.45	94.69
80 - 100	4015	6.48	17.41	320 - 340	1960	3.16	71.11	560 - 580	819	1.32	96.01
100 - 120	3758	6.06	23.48	340 - 360	1741	2.81	73.92	580 - 600	741	1.20	97.21
120 - 140	3716	6.00	29.47	360 - 380	1686	2.72	76.64	600 - 620	643	1.04	98.24
140 - 160	3387	5.47	34.94	380 - 400	1592	2.57	79.21	620 - 640	498	0.80	99.05
160 - 180	3214	5.19	40.13	400 - 420	1455	2.35	81.56	640 - 660	384	0.62	99.67
180 - 200	2988	4.82	44.95	420 - 440	1347	2.17	83.73	660 - 680	168	0.27	99.94
200 - 220	2811	4.54	49.48	440 - 460	1368	2.21	85.94	680 - 700	38	0.06	100.00

Qrafik 1.1



Bölmə: Rus (I–IV qruplar)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə :	272.47	Minimal bal :	0
Ortakvadratik meyil :	143.58	Maksimal bal :	685.3
Moda :	170	Abituriyentlərin sayı :	5748
Mediana :	248.04		

Cədvəl 1.22

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	1	0.02	0.02	220 - 240	324	5.64	47.96	460 - 480	109	1.90	89.27
0 - 20	8	0.14	0.16	240 - 260	291	5.06	53.03	480 - 500	127	2.21	91.48
20 - 40	17	0.30	0.45	260 - 280	290	5.05	58.07	500 - 520	93	1.62	93.09
40 - 60	83	1.44	1.90	280 - 300	249	4.33	62.40	520 - 540	94	1.64	94.73
60 - 80	193	3.36	5.25	300 - 320	241	4.19	66.60	540 - 560	73	1.27	96.00
80 - 100	238	4.14	9.39	320 - 340	204	3.55	70.15	560 - 580	58	1.01	97.01
100 - 120	311	5.41	14.81	340 - 360	196	3.41	73.56	580 - 600	46	0.80	97.81
120 - 140	288	5.01	19.82	360 - 380	179	3.11	76.67	600 - 620	44	0.77	98.57
140 - 160	313	5.45	25.26	380 - 400	177	3.08	79.75	620 - 640	40	0.70	99.27
160 - 180	361	6.28	31.54	400 - 420	168	2.92	82.67	640 - 660	26	0.45	99.72
180 - 200	312	5.43	36.97	420 - 440	140	2.44	85.11	660 - 680	13	0.23	99.95
200 - 220	308	5.36	42.33	440 - 460	130	2.26	87.37	680 - 700	3	0.05	100.00

Qrafik 1.2



Bölmə: Azərbaycan (V qrup)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları			
Riyazi gözləmə :	117.79	Minimal bal :	0.0
Ortakvadratik meyil :	56.30	Maksimal bal :	300.0
Moda :	75	Abituriyentlərin sayı :	51704
Mediana :	108.28		

Cədvəl 1.23

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	9	0.02	0.02	100 - 110	3523	6.81	51.17	210 - 220	918	1.78	94.08
0 - 10	10	0.02	0.04	110 - 120	3096	5.99	57.16	220 - 230	823	1.59	95.68
10 - 20	54	0.10	0.14	120 - 130	3015	5.83	62.99	230 - 240	643	1.24	96.92
20 - 30	377	0.73	0.87	130 - 140	2673	5.17	68.16	240 - 250	550	1.06	97.98
30 - 40	1413	2.73	3.60	140 - 150	2402	4.65	72.81	250 - 260	427	0.83	98.81
40 - 50	2728	5.28	8.88	150 - 160	2317	4.48	77.29	260 - 270	312	0.60	99.41
50 - 60	3538	6.84	15.72	160 - 170	2013	3.89	81.18	270 - 280	198	0.38	99.79
60 - 70	3775	7.30	23.02	170 - 180	1784	3.45	84.63	280 - 290	85	0.16	99.96
70 - 80	3823	7.39	30.42	180 - 190	1511	2.92	87.55	290 - 300	21	0.04	100.00
80 - 90	3715	7.19	37.60	190 - 200	1338	2.59	90.14				
90 - 100	3493	6.76	44.36	200 - 210	1120	2.17	92.31				

Qrafik 1.3



Bölmə: Rus (V qrup)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları			
Riyazi gözləmə :	132.42	Minimal bal :	0.0
Ortakvadratik meyil :	54.52	Maksimal bal :	290.8
Moda :	105	Abituriyentlərin sayı :	3931
Mediana :	127.89		

Cədvəl 1.24

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	2	0.05	0.05	100 - 110	280	7.12	38.64	210 - 220	101	2.57	93.06
0 - 10	2	0.05	0.10	110 - 120	243	6.18	44.82	220 - 230	77	1.96	95.01
10 - 20	2	0.05	0.15	120 - 130	258	6.56	51.39	230 - 240	72	1.83	96.85
20 - 30	13	0.33	0.48	130 - 140	253	6.44	57.82	240 - 250	45	1.14	97.99
30 - 40	54	1.37	1.86	140 - 150	235	5.98	63.80	250 - 260	36	0.92	98.91
40 - 50	92	2.34	4.20	150 - 160	222	5.65	69.45	260 - 270	23	0.59	99.49
50 - 60	172	4.38	8.57	160 - 170	194	4.94	74.38	270 - 280	13	0.33	99.82
60 - 70	192	4.88	13.46	170 - 180	199	5.06	79.45	280 - 290	6	0.15	99.97
70 - 80	219	5.57	19.03	180 - 190	152	3.87	83.31	290 - 300	1	0.03	100.00
80 - 90	229	5.83	24.85	190 - 200	164	4.17	87.48				
90 - 100	262	6.66	31.52	200 - 210	118	3.00	90.49				

Qrafik 1.4



Məlum olduğu kimi 2019-cu ildən orta ixtisas təhsili pilləsi üzrə, 2021-ci ildən etibarən isə yüksək texniki peşə təhsili səviyyəsi üzrə "subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslər (subbakalavrlar) qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq hüququna malik olmuşdur. Onlar yalnız orta ixtisas təhsili pilləsində və ya yüksək texniki peşə təhsili səviyyəsində təhsil aldıqları tədris dilinə və bitirdikləri ixtisasa uyğun olan ixtisasları seçə biliblər. Subbakalavrlar xarici dil fənni üzrə əlavə tələblər qoyulan ixtisasları, eləcə də "ADA" Universitetinin və Bakı Ali Neft Məktəbinin ixtisaslarını seçə bilməyiblər və qəbul imtahanında iştirak edərək müsabiqə şərtlərini ödəyən abituriyentlərin müsabiqəsi başa çatdıqdan sonra subbakalavrların müsabiqəsi aparılmışdır. Bununla yanaşı subbakalavrlara abituriyent kimi qəbul imtahanında iştirak etmək imkanı da yaradılmışdır. Qəbul imtahanında iştirak etmiş subbakalavrlar isə öz istəklərindən asılı olaraq, həm imtahanda topladığı bal ilə ümumi qaydada (abituriyent kimi), həm də subbakalavr kimi orta ixtisas təhsili səviyyəsində bitirdiyi ixtisasa uyğun ali təhsil pilləsinin ixtisasları üzrə keçirilən müsabiqədə iştirak etmişdir.

Qəbul imtahanında iştirak edən subbakalavrların bütövlükdə və imtahanın ayrı-ayrı mərhələləri üzrə topladıqları balların paylanmaları 1.5, 1.6 və 1.7 saylı qrafiklərdə göstərilmişdir. Qrafiklərdən də göründüyü kimi, subbakalavrların imtahan nəticələri zəifdir , histoqramlar isə sağtərəfli assimmetriyaya malikdir.

İmtahanın I mərhələsində iştirak edən 1140 subbakalavrın topladıqları balların riyazi gözləməsi 88.75-ə bərabər olmuş, onların yarısı 81.90 baldan az bal toplamışdır. V ixtisas qrupuna müsabiqənin imtahanın I mərhələsinin nəticələri əsasında aparıldığını və bu mərhələdə ən azı 60 bal toplayanların müsabiqəyə buraxıldığını (Xoreoqrafiya sənəti istiqaməti üzrə ən azı 30 bal toplayanlar müsabiqəyə buraxılıb) nəzərə alsaq, imtahanda iştirak edən subbakalavrların 21.25%-i (221 nəfər) müsabiqə şərtini ödəməmişdir.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN SUBBAKALAVRLARIN TOPLADIQLARI BALLARIN PAYLANMASI



Qrafik 1.5

1.6 saylı qrafikdə subbakalavrların imtahanın II mərhələsində topladıqları balların paylanması təqdim olunmuşdur. Göründüyü kimi, subbakalavrların yarısı mümkün olan 400 baldan heç 35-ni toplaya bilməmiş və riyazi gözləmə 50.82-yə bərabər olmuşdur. I-IV ixtisas qruplara aid olan ixtisasların müsabiqəsində iştirak etmək üçün qoyulan minimal tələbi (imtahanın II mərhələsində ən azı 100 bal toplayanlar müsabiqəyə buraxılıblar) bu mərhələdə abituriyent kimi iştirak edən subbakalavrların cəmi 14.08%-i (79 nəfər) ödəmiş, qalan 85.92%-i isə 100-dən az bal toplayaraq minimal tələbi ödəyə bilməmişdir.

1.7 saylı qrafikdə də qəbul imtahanının hər iki mərhələsində iştirak edən subbakalavrların topladıqları balların paylanması təqdim olunmuşdur. Onu da qeyd edək ki, subbakalavrların ali təhsil müəssisələrinə qəbulu üçün müsabiqə onların diplom balları əsasında aparılmışdır. Apardığımız araşdırma göstərir ki, qəbul imtahanının I mərhələsində iştirak edən subbakalavrların diplom balları ilə onların imtahanda topladıqları ballar arasında heç bir stoxastik əlaqə yoxdur və korrelyasiya əmsalının qiyməti 0.15-ə bərabərdir. Bu isə diplom ballarının obyektiv olmadığını və subbakalavrların ali təhsil müəssisələrinə onların hazırlıq səviyyələrinə görə deyil, təsadüfi qaydada aparılmasını göstərir.

Subbakalavrların I-IV ixtisas qrupları üzrə əldə etdikləri imtahan nəticələrini tam seçmə ilə (imtahanda iştirak edən abituriyentlər və subbakalavrlar (abituriyent kimi iştirak edənlər) birlikdə) müqayisə etdikdə, subbakalavrların nəticələrinin zəif olduğunun şahidi oluruq. I-IV ixtisas qrupları üzrə imtahanda abituriyent kimi iştirak edən subbakalavrların topladıqları balların riyazi gözləməsi 148.38 bal olduğu halda, tam seçmədə bu göstərici 1.75 dəfə böyük olub (258.95 bal). Onu da qeyd edək ki, imtahanda iştirak edən subbakalavrların yarısı 131.20 baldan aşağı nəticə göstərib, tam seçmə üzrə bu göstərici isə 225.20-yə bərabər olub. Subbakalavrların ixtisas seçimində iştirak etdiyini nəzərə alsaq, onların göstəricilərini ixtisas seçimində iştirak edən abituriyentlərlə müqayisə etmək daha ədalətli olardı və burada biz müqayisənin subbakalavrlar üçün daha acınacaqlı olduğunu görürük. Belə ki, ixtisas seçimində iştirak edən abituriyentlərin qəbul imtahanında topladıqları balların riyazi gözləməsi (352.76) imtahanda iştirak edən subbakalavrların analoji göstəricisindən 2.4 dəfə böyükdür.

Bütün bu qeyd olunanlar onu göstərir ki, imtahan vermədən ali təhsil müəssisələrinə qəbul olmaq imkanı əldə etmiş subbakalavrların hazırlıq səviyyələri imtahanın nəticələri əsasında ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin hazırlıq səviyyələrindən çox aşağıdır. Bu isə öz növbəsində ali təhsil müəssisələrində tədris zamanı müəyyən problemlərin ortaya çıxmasına səbəb ola bilər. Fikrimizcə, ali təhsil müəssisələrində subbakalavr kimi qəbul olanlar üçün xüsusi tədris planı hazırlanmalıdır və onların mütəxəssis kimi hazırlığı bu tədris planı çərçivəsində, onlarla daha intensiv məşğul olmaqla həyata keçirilməlidir.

QƏBUL İMTAHANININ II MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN SUBBAKALAVRLARIN TOPLADIQLARI BALLARIN PAYLANMASI



Qrafik 1.6

QƏBUL İMTAHANININ HƏR İKİ MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN SUBBAKALAVRLARIN ÜMUMİLİKDƏ TOPLADIQLARI BALLARIN PAYLANMASI



Qrafik 1.7

Müasir dünyada inkişaf və iqtisadi yüksəliş üçün ən zəruri amillərdən biri ölkələrdə keyfiyyətli təlim-tədrisi təmin edən effektiv təhsil sistemlərinin qurulmasıdır. Təhsil sistemlərində səmərəliliyi təmin edən həlledici amillərdən biri isə işlək qiymətləndirmə sisteminin yaradılması və onun təkmilləşdirilərək inkişaf etdirilməsidir.

Bu baxımdan, klassik test nəzəriyyəsi əsasında qəbul imtahanlarında istifadə edilən testlərin etibarlılığı hesablanmışdır. Məlum olmuşdur ki, fənlər üzrə testlərin etibarlılıq əmsalının Küder-Riçardson (KR-20) və Split-Half metodları vasitəsilə hesablanmış qiymətləri 0.83-0.98 hüdudlarında yerləşir. Etibarlılıq əmsalının aşağı həddi kimi, adətən, 0.70 qiyməti qəbul edildiyindən, əminliklə təsdiq etmək olar ki, bu il qəbul imtahanlarında bütün fənlər üzrə kifayət qədər etibarlı testlərdən istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, testoloji praktikada testlərin etibarlılığı, bir qayda olaraq, 0.8-0.9 intervalında dəyişir.

İxtisas qrupuna aid olan fənlərin çəki əmsalları və fənlər üzrə testlərin etibarlılıq əmsalları nəzərə alınmaqla bütövlükdə hər bir qrupun testinin etibarlılıq əmsalı Mosye (Mosier) düsturu əsasında hesablanmışdır. Bütün ixtisas qrupları üzrə ayrı-ayrılıqda aparılmış hesablamalar nəticəsində məlum olmuşdur ki, qrup testlərinin etibarlılıq əmsalları 0.95-0.98 intervalında yerləşir. Rəqəmlər göstərir ki, bu il qəbul imtahanlarında fənlər üzrə istifadə edilən testlərin kompozisiyası əsasında tərtib edilmiş qrup testləri də yüksək etibarlılıq keyfiyyətinə malik olmuşdur.

Bu gün gənclərimizin aldıqları təhsilin məzmunu XXI əsrin tələblərinə cavab verməlidir. İnformasiya cəmiyyətinin formalaşdığı müasir dövrdə təhsil müəssisəsi (məktəb və ya universitet) gənclərə düşünməyi, zəruri informasiyanı müstəqil şəkildə əldə etməyi, informasiya bolluğu şəraitində düzgün istiqamət götürməyi, analitik və yaradıcı şəkildə düşünə bilməyi öyrətməlidir. Əlbəttə, bütün bu amillər qəbul imtahanlarının məzmununa da öz tələblərini verir.

DİM hər bir imtahan layihəsini tərtib edərkən, ilk növbədə onun məqsədini müəyyən edir: kimi seçirik?

Tələbə qəbulunda qarşıya qoyulan əsas məqsəd seçdiyi ixtisas üzrə ali təhsil müəssisələrində təhsilalma qabiliyyətinə malik olan abituriyentlərin seçilməsidir. Bu vəzifənin həyata keçirilməsi üçün istifadə edilən test tapşırıqları valid, yəni düzgün seçimetmə keyfiyyətinə malik olmalıdır. Bununla əlaqədar, DİM biliyin qiymətləndirilməsi üzrə beynəlxalq təcrübəyə əsaslanmaqla ardıcıl olaraq test tapşırıqlarının həm məzmununda, həm tərtibində, həm də təqdimat formalarında təkmilləşdirmə işləri aparır. Belə işlərdən biri də son illər qəbul imtahanlarında ayrı-ayrı fənlər üzrə testlərdə nəzəri biliklərin bilavasitə tətbiqinə aid test tapşırıqlarının sayının artırılmasıdır. Nəticədə, qeyri-standart düşüncə və yaradıcılıq tələb edən məsələlər artdıqca abituriyentlərin bir hissəsinin topladığı bal ötən illərlə müqayisədə azalmış, lakin bununla belə, yüksək bal diapazonunda (500–700 bal) biliyin qiymətləndirilməsi və onun əsasında abituriyentlərin sıralanması daha dəqiq aparılmışdır. Bu dəyişiklik qəbul imtahanına hazırlaşarkən əzbərçiliyə üstünlük verən abituriyentlərin

imtahan nəticələrinə öz təsirini göstərmişdir. Belə abituriyentlər, adətən, məktəb kursunda öyrənilən fiziki, kimyəvi və bioloji proseslərin, riyazi çevirmələrin məğzini anlamağa cəhd etmir, təbiət hadisələrinin səbəb-nəticə əlaqələrini izah etməkdə çətinlik çəkirlər. Bu gün tələbə adı qazananların, xüsusilə də 500 – 700 arasında bal toplayan gənclərin nəticələrinin təhlili belə qənaətə gəlməyə əsas verir ki, DİM ali təhsil müəssisələrinin I kursları üçün bilik və bacarıqları ali təhsil almağa imkan verən tələbə kontingenti seçmişdir.

Öz gələcəyini düşünən hər bir cəmiyyət var gücünü ona yönəldir ki, bütün təbəqələrdən olan insanların təhsil almaq imkanları maksimal dərəcədə bərabərləşsin. Təhsil sistemi gənclərə şəxsi uğur əldə etməyə, öz bacarıq və səyləri əsasında cəmiyyətdə layiqli yer tutmağa bərabər şanslar verməlidir. Qəbul imtahanlarının nəticələri bir daha təsdiq edir ki, bunun üçün ölkəmizdə real sosial lift qurulub və bu mexanizm uğurla fəaliyyət göstərməkdədir.

DİM 1992–2010-cu illərdə keçirilən qəbul imtahanlarında abituriyentlərə yalnız qapalı tipli test tapşırıqları təqdim edirdi. 2011-ci ildə ilk dəfə olaraq ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə keçirilən qəbul imtahanlarında riyaziyyat fənni üzrə test blokuna qapalı tipli test tapşırıqları ilə yanaşı, 5 açıq tipli test tapşırığı da daxil edilmişdi. Beləliklə, bütün ixtisas qruplarında riyaziyyat fənnindən təqdim edilən testlərin tərkibində 20 test tapşırığı qapalı, 5 test tapşırığı isə açıq tipli olmuşdu. Açıq tipli test tapşırıqlarının mürəkkəblik dərəcəsi orta və çətin idi. 2012–2014-cü illərdə açıq tipli test tapşırıqlarının daxil olduğu fənlər I ixtisas qrupu üzrə fizika və riyaziyyat, II qrup üzrə coğrafiya və riyaziyyat, III qrup üzrə tarix və riyaziyyat, IV qrup üzrə isə kimya və riyaziyyat fənləri olmuşdur. Sadaladığımız fənlərdən təqdim edilən testlərin tərkibində 20 test tapşırığı qapalı, 5 test tapşırığı isə açıq tipli olmuşdur. 2015-ci ildən 2018-ci ilədək bütün ixtisas qruplarında açıq tipli test tapşırıqlarının daxil olduğu fənlərin sayı artırılmışdır. Həmin fənlər bunlardır: I ixtisas qrupu üzrə kimya, II və III qruplar üzrə ana dili, IV qrup üzrə isə biologiya fənni. Açıq tipli test tapşırıqlarının təqdim olunduğu üç fənnin hər birinin test blokunda 21 test tapşırığı qapalı, 4 test tapşırığı isə açıq tipli olmuşdur.

Məlum olduğu kimi 2019-cu ildə ilk dəfə qəbul imtahanı iki mərhələdə keçirilib. Bununla yanaşı, ilk dəfə olaraq imtahanın hər iki mərhələsində abituriyentlərə yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqları da təqdim olunub. Bu cür test tapşırıqları bizə abituriyentlərin bacarıq və vərdişlərinin qiymətləndirilməsi üçün geniş imkanlar yaradır. Belə ki, bu tapşırıqları vasitəsilə abituriyentlərin məktəbdə əldə etdikləri bilikləri real həyatda, praktikada istifadə etmək bacarıqları öyrənilir və qiymətləndirilir. Nəzəri biliklərin real situasiyada tətbiqi kimi vərdişlər gələcək mütəxəssislər üçün ən vacib keyfiyyətlərdən sayılır. Bu məqsədlə abituriyentlərə yazılı şəkildə cavablandırılması üçün I mərhələdə ana dili fənni üzrə 10, riyaziyyat fənni üzrə 7, xarici dil fənni üzrə 7, ümumilikdə 24, II mərhələdə isə hər bir imtahan fənni üzrə 3, ümumilikdə 9 test tapşırığı təqdim olunmuşdur. Bu tip tapşırıqlar 0, $\frac{2}{3}$, 1, $\frac{4}{3}$ və 2 balla qiymətləndirilmişdir. 2020 və 2021-ci illərdə ildə Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar yaranmış çətinliklər nəzərə alınaraq qəbul imatahlarında müəyyən sadələşdirilmələr aparılmışdır. Belə ki, qəbul imtahanlarının I mərhələsində imtahanında abituriyentlərə təqdim olunan yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqların sayı 24-dən 12-yə (hər fənn üzrə 4 tapşırıq) salınmışdır. Lakin təəssüflə qeyd etmək lazımdır ki, bu tip tapşırıqlara, hətta qapalı test tapşırıqları üzrə yüksək nəticə göstərən abituriyentlərin arasında da zəif cavab verənlər az deyil. Məsələn, II qrupda riyaziyyat fənnindən 22 qapalı tapşırığın ən azı 18-nə (təxminən 81.8%-nə) düzgün cavab verən abituriyentlərin 26.32%-i yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar üzrə toplanıla biləcək maksimal balın yalnız üçdə birinə qədərini toplaya bilib, onlardan 10.85%-i isə ümumiyyətlə, bu tip test tapşırıqlarının heç birini düzgün cavablandıra bilməyib.

Qeyd etmək lazımdır ki, yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar abituriyentlərin qiymətləndirilməsində geniş imkanlar açdığı kimi, bu tapşırıqların yoxlanılması və qiymətləndirilməsi də çox böyük resurs hesabına mümkün olur. Qiymətləndirmənin keyfiyyətli və obyektiv aparılması xeyli vaxt və maliyyə tələb edir. Əgər bu tapşırıqların yoxlama prosesini sürətləndirməyə çalışsaq, o zaman yoxlamanın keyfiyyəti aşağı düşər və obyektiv qiymətləndirmədə problemlər yaranar. O da qeyd olunmalıdır ki, bu tip açıq tapşırıqlar əvvəlcədən təlim keçmiş və seçilmiş markerlər tərəfindən yoxlanılır. Proses elə qurulmuşdur ki, insan faktoru qiymətləndirməyə heç bir təsir göstərməsin. Bunu apelyasiyada yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar üzrə şikayətlərin az olması da təsdiq edir. Apelyasiyaya müraciət etmiş 3067 abituriyentdən (imtahanda iştirak edənlərin 4.53%-i) 206-sının iddiası təmin edilmiş və onların yazı işlərinin qiymətlərində müvafiq düzəlişlər edilmişdir. Digər iddialarla bağlı isə, abituriyentlərə tapşırıqların yerinə yetirilməsində yol verdikləri səhvləri ekspertlər tərəfindən izah edilmişdir.

Qəbul imtahanının II mərhələsində abituriyentlərə hər bir imtahan fənni üzrə 22 qapalı, 8 açıq tipli tapşırıq təqdim olunub. Açıq tipli tapşırıqların 5-i cavabları kodlaşdırılan, 3-ü isə yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar olub. Qapalı və açıq tipli tapşırıqlar arasındakı xətti əlaqəni ifadə

edən korrelyasiya əmsalı ixtisas qrupları və imtahan fənləri üzrə müxtəlifdir. II mərhələdə qapalı və açıq tipli test tapşırıqları arasındakı korrelyasiya əmsalının qiyməti I qrupda riyaziyyatdan 0.78, fizikadan 0.81, kimyadan 0.76, II qrupda riyaziyyatdan 0.76, tarixdən 0.80, coğrafiyadan 0.77, III qrupda Azərbaycan dilindən 0.77, ədəbiyyatdan 0.82, tarixdən 0.81, IV qrupda fizikadan 0.85, kimyadan 0.88, biologiyadan 0.77 olub.

Açıq tipli test tapşırıqlarına, əsasən, qapalı tipli test tapşırıqları üzrə orta və yüksək bal toplayan abituriyentlər cavab vermişlər. Belə abituriyentlərin müxtəlif fənlərdən qapalı tipli test tapşırıqları üzrə düzgün cavabvermə faizi 40-dan yüksək olub. Onlar I ixtisas qrupunda riyaziyyat, fizika və kimya fənləri üzrə, müvafiq olaraq, seçmənin 32.18, 36.37 və 45.68%-ni, II ixtisas qrupunda riyaziyyat, tarix və coğrafiya fənləri üzrə 26.26, 43.74 və 38.74%-ni, III ixtisas qrupunda Azərbaycan dili, ədəbiyyat və tarix fənləri üzrə 66.25, 75.70 və 60.88%-ni, IV ixtisas qrupunda isə fizika, kimya və biologiya fənləri üzrə 60.45, 59.33 və 73.00%-ni təşkil edib.

Təqdim edilən rəqəmlərdən görünür ki, açıq tipli test tapşırıqları, ilk növbədə orta və yüksəkhazırlıqlı abituriyentləri bir-birindən fərqləndirməyə xidmət edib. Məsələn, I ixtisas qrupunda qapalı tipli tapşırıqların ən azı 40%-ni düzgün cavablandıran abituriyentlərin riyaziyyat fənnindən cavabları kodlaşdırılan açıq tipli test tapşırıqlarına verdikləri düzgün cavabların sayına görə paylanmasına nəzər yetirək: onların 16.20%-i açıq tipli test tapşırıqlarının 1-nə, 20.30%-i 2-nə, 19.89%-i 3-nə, 18.45%-i 4-nə, 13.21%-i 5-nə düzgün cavab verib, qalan 11.95%-i isə heç birinə düzgün cavab verə bilməyib. Bu seçmənin yazılı şəkildə cavablandırılması tələb olunan test tapşırıqarı üzrə topladıqları balların miqdarına görə paylanmasına nəzər yetirdikdə isə bir az fərqli mənzərə ilə qarşılaşırıq: həmin abituriyentlərin 21.80%-i bu tip tapşırıqlar üzrə maksimum 2 bal, 21.74%-i 2-4 bal (2 daxil deyil), 21.63%-i 4-bal (4 daxil deyil) bal toplaya bilib və qalan 34.83%-i isə ümumiyyətlə bal toplaya bilməyib. İdeal halda abituriyentlərin diferensiasiyası üçün açıq tipli test tapşırıqları orta və yüksək hazırlıqlı abituriyentlər seçməsinin səviyyəsinə tam uyğun olsaydı, onları cavabları kodlaşdırılan açıq tipli test taprşırıqları üzrə sayca 6 bərabər hissəyə (altseçməyə), yazılı şəkildə cavablandırılması tələb olunan test tapşırıqları üzrə isə 4 bərabər hissəyə bölərdi. Reallıqda açıq tipli test tapşırıqları vasitəsilə tam seçmə, orta və yüksəkhazırlıqlı abituriyentlər seçməsində alınan paylanmaların ideal paylanma ilə müqayisəsi göstərir ki, orta və yüksəkhazırlıqlı abituriyentlər seçməsində alınan paylanma ideala daha yaxındır. Deməli, açıq tipli test tapşırıqları, həqiqətən, orta və yüksəkhazırlıqlı abituriyentləri bir-birindən daha dəqiq fərqləndirməyə imkan vermişdir.

Ortastatistik abituriyent fənlər üzrə məktəb proqramının yalnız 27-58 faizini mənimsəyir

Ali təhsil müəssisələrinə imtahan vermiş abituriyentlərin Azərbaycan və rus bölmələri üzrə ayrılıqda ortastatistik portreti müəyyənləşdirilib. Belə ki, Azərbaycan bölməsində ortastatistik abituriyent I mərhələdə ana dili fənnindən test tapşırıqlarının 50.83, riyaziyyatdan 32.10, ingilis dilindən 43.53%-nə, II mərhələdə ana dilindən 51.42, ədəbiyyatdan 55.39, riyaziyyatdan 26.58, fizikadan 32.67, kimyadan 35.11, biologiyadan 49.44, tarixdən 40.32, coğrafiyadan 30.59%-inə düzgün cavab verib*.

Rus bölməsində ortastatistik abituriyent isə I mərhələdə ana dili fənnindən test tapşırıqlarının 56.87, riyaziyyatdan 34.25, ingilis dilindən 57.93%-nə, II mərhələdə ana dilindən 51.80, ədəbiyyatdan 53.46, riyaziyyatdan 27.86, fizikadan 32.30, kimyadan 35.49, biologiyadan 42.03, tarixdən 33.64, coğrafiyadan 28.06%-inə düzgün cavablandırıb. Abituriyentlərin cavab göstəricilərindən aydın olur ki, ortastatistik abituriyent fənlər üzrə testlərin yalnız 27-58 faizinə düzgün cavab verib. Test tapşırıqlarının məktəb proqramı çərçivəsində hazırlandığını və bu çərçivədən kənara çıxmadığını, qəbul imtahanında iştirak edənlərin məktəbin seçilən şagirdləri olduğunu nəzərə alsaq, belə qənaətə gəlmək olar ki, ortastatistik məzun məktəb proqramının 42–73%-ni mənimsəmir. Bu isə ümumi təhsil müəssisələrimizin böyük qismində tədris prosesinin normal aparılmamasından, tələbkarlığın zəifliyindən, ən başlıcası isə müəllimlərin çoxunun peşəkarlıq səviyyəsinin aşağı olmasından və tədris prosesində yeni təlim üsulları və texnologiyalarından istifadə edə bilməməsindən irəli gəlir. Odur ki, bu sahədə həyata keçirilməsi vacib olan digər tədbirlərlə yanaşı, müəllimlərin müasir elmi əsaslarla ixtisasının artırılması, ali təhsil müəssisələrində pedaqoji kadrların hazırlanması səviyyəsinin yüksəldilməsi və gələcək müəllimlərə lazımi pedaqoji-metodiki bilik və bacarıqların aşılanması məsələləri diqqət mərkəzində olmalıdır.

Qeyd olunanlarla yanaşı, abituriyentləri yüksək nəticələr qazanan qabaqcıl rayonların, məktəblərin, eləcə də öz yüksək nəticələri ilə fərqlənən müəllimlərin qabaqcıl təcrübəsi öyrənilməli və yayılmalıdır.

---

* Hər hansı bir seçmə (bölmə və ixtisas qrupları) üzrə ortastatistik abituriyentin ixtiyari fəndən düzgün cavablarının faizi dedikdə, həmin seçməyə daxil olan abituriyentlərin fənn üzrə düzgün cavablarının sayının orta qiymətinin test tapşırıqlarının ümumi sayına nəzərən faizi başa düşülür.

Abituriyentlərin imtahan fənlərinə cavablarının ortastatistik göstəriciləri qruplar üzrə aşağıdakı cədvəllərdə təqdim olunur.

Cədvəl 1.25

AZƏRBAYCAN BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	48.44	38.25	43.38			28.51	30.18	32.89			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	47.83	29.69	40.35			23.23				36.30	30.59
III	Humanitar, pedaqogika ixtisasları	60.35	28.60	49.58	51.42	55.39					43.38	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	65.18	52.63	61.26				47.21	48.05	49.44		
V	İncəsənət, musiqi, idman ixtisasları	48.48	29.11	40.57								

Cədvəl 1.26

RUS BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	55.86	42.01	58.10			30.10	30.26	33.77			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	55.22	33.30	58.44			24.43				33.45	28.06
III	Humanitar, pedaqogika ixtisasları	61.08	25.57	60.72	51.80	53.46					33.82	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	65.78	47.17	67.51				39.87	41.86	42.03		
V	İncəsənət, musiqi, idman ixtisasları	52.37	28.18	51.86								

Test ölçü alətidir. Onun elmi baxımdan düzgün istifadə edilməsi və alınmış nəticələrin düzgün şərhi (interpretasiyası) çox əhəmiyyətlidir. Bu səbəbdən testin tərtib və istifadə edilməsinin bütün mərhələləri testologiyanın tələblərinə uyğun həyata keçirilməlidir.

Müasir test nəzəriyyəsi müəyyən qabiliyyətə malik olan sınaq iştirakçısının test tapşırığına düzgün cavabvermə ehtimalını bir (test tapşırığının çətinlik səviyyəsi), iki (test tapşırığının çətinlik və diskriminasiya

səviyyəsi) və üçparametrli (test tapşırığının çətinlik, diskriminasiya və cavabı təsadüfi şəkildə tapma səviyyəsi) logistik funksiyalarla ifadə olunan riyazi modellər əsasında qiymətləndirir.

Son illər DİM test tapşırıqları bankının parametrləndirilməsi üzrə bir sıra tədbirlər həyata keçirir: test tapşırıqlarının sınaqdan keçirilməsi və sonradan nəticələrinin emalı – test tapşırıqlarının kalibrlənməsi aparılır. Test tapşırıqlarının parametrləndirilməsi iki model – Rasch və ikiparametrli logistik model əsasında həyata keçirilir. Rasch modelində bütün test tapşırıqları eyni diskriminasiya (ayırdetmə) göstəricisinə malikdir. Bu, əslində, çox sərt fərziyyədir və praktikada özünü nadir hallarda doğruldur. İkiparametrli logistik modeldə isə test tapşırıqlarının diksriminasiya göstəriciləri bir-birindən fərqlənir. Bu modelin Rasch modelinə nəzərən üstünlüyü onun empirik (real) məlumatlarla daha yüksək uzlaşma səviyyəsinə malik olmasıdır. İkiparametrli logistik model əsasında bilik və bacarıqların qiymətləndirilməsi BILOG-MG proqram təminatı əsasında aparılır.

Təbiidir ki, praktikada bütün test tapşırıqları riyazi modellə uzlaşmır və model işlədiləndə onunla uzlaşmayan test tapşırıqları atılmalı olur. Belə hallar, əsasən, test tapşırıqlarında müxtəlif qüsurların, məsələn, üstünlüyə malik distraktorun, yaxud çox zəif diskriminasiya xassəsinin olmasının nəticəsidir.

Model tətbiq edilərkən sınaq iştirakçılarının motivasiya səviyyəsi də nəzərə alınmalıdır. Başqa sözlə, informasiyanın emalı prosesində sınaq iştirakçısının imtahan prosesində mümkün olan ən yüksək nəticəni əldə etmək marağı hesaba alınmalıdır. Bununla əlaqədar olaraq test tapşırıqları parametrləndirildikdə, onlara cavab verməkdən çoxlu sayda imtina edən abituriyentlər sınaq iştirakçıları seçməsindən çıxarılır.

Yeni testlərin tərkibində parametrləndirilmiş tapşırıqlardan istifadə edilməsi testləşdirmə aparılan fənn üzrə qabiliyyət göstəricisi şkalasına yeni test tapşırıqlarının əlavə edilməsinə imkan verir. Beləliklə, kalibrlənmə həyata keçirildikdən sonra eyni tapşırıqlara malik olmayan müxtəlif testlərin nəticələrini müqayisə etmək imkanı yaranır. Bununla yanaşı müxtəlif imtahanlarda eyni imtahan iştirakçılarının olması da, bu imtahanlardakı testlərin nəticələrini müqayisə etmək imkanı verir.

Bu il Azərbaycan dili və riyaziyyat fənlərindən imtahan testləri tərtib edilərkən məhz ikinci metoddan istifadə olunmuşdur. Bu da bütün ixtisas qruplarında imtahan verən abituriyentlərin qabiliyyət səviyyələrinin elmi cəhətdən əsaslandırılmış müqayisəsini aparmağa imkan vermişdir.

DİM-in müxtəlif ixtisas qruplarında tətbiq etdiyi testlər eyni struktura malik deyil və onlar müvafiq qrupların kontingentinin qabiliyyətini mümkün qədər dəqiq üzə çıxarmağa və yoxlamağa istiqamətlənib. Testlərin strukturlarındakı müxtəliflik onların informasiya funksiyalarının təhlil prosesində istifadə edilən test tapşırıqlarının sayına görə normallaşdırılmış qrafiklərində özünü göstərir. Təqdim edilən informasiya funksiyaları (bax: qrafiklər 1.8 və 1.9) müvafiq qabiliyyətə malik abituriyentlər testdən keçirildikdə orta hesabla bir test tapşırığına düşən informasiyanın miqdarını təyin etməyə imkan verir. İnformasiya miqdarı nə qədər çox olarsa, qabiliyyəti ölçmə xətası da bir o qədər az olar. Qrafiklərdən göründüyü kimi, bütün informasiya funksiyaları maksimum nöqtəsinə malikdir və bu nöqtə hansı qabiliyyətə malik olan abituriyentlər testdən keçirildikdə ölçmə xətasının minimal olduğunu göstərir. Məsələn, Azərbaycan dilindən testlərin ən kiçik ölçmə xətası III ixtisas qrupunda qabiliyyət göstəricisi -0.80 loqit olan abituriyentlər üçün təmin edilir (bax: qrafik 1.8).

Qəbul imtahanı testinin məqsədi abituriyentləri ranqlara ayırmaq olduğundan onun ən yüksək ölçmə dəqiqliyi məhz müsabiqədə iştirak edən abituriyentlərin daha çox cəmləşdiyi intervalda əldə edilməlidir. Azərbaycan dili fənni üzrə III ixtisas qrupunda testin informasiya əyrisinin qabiliyyət göstəricilərinin paylanma histoqramı ilə müqayisəsi (1.8 saylı qrafik) də bizə bunu əyani şəkildə göstərir və göründüyü kimi, abituriyentlərin daha çox cəmləşdiyi yerdə onların qabiliyyətləri daha dəqiq qiymətləndirilir. Belə ki, əgər Azərbaycan dili fənni üzrə orta və yüksək qabiliyyətə malik olan abituriyentlər III ixtisas qrupunda sayca daha çox müşahidə olunursa, onda III ixtisas qrupunun Azərbaycan dili testinin informasiya funksiyasının müvafiq intervaldakı qiyməti də maksimal olmalıdır.

Riyaziyyat fənni üzrə I və II ixtisas qruplarında testlərin informasiya əyrilərinin qabiliyyət göstəricilərinin paylanma histoqramları ilə müqayisəsinə (1.9 saylı qrafik) baxdıqda, bir qədər fərqli mənzərənin şahidi oluruq. I və II ixtisas qrupları üzrə informasiya əyrilərindən göründüyü kimi, abituriyentlərə təqdim olunan testlər nəzərdə tutulduğu kimi daha çox orta və yüksək qabiliyyətli abituriyentləri bir-birilərindən fərqləndirmək və həmin hissələrdə onların qabiliyyət göstəricilərini daha dəqiq ölçmək üçün nəzərdə tutulub. Lakin bu ixtisas qrupları üzrə qabiliyyət göstəricilərinin paylanma histoqramına baxdıqda belə məlum olur ki, abituriyentlərin böyük hissəsi riyaziyyat fənni üzrə aşağı və orta qabiliyyət səviyyələrinə malikdirlər. DİM-in qəbul imtahanlarında təqdim olunan testlərin ümumorta təhsil müəssisələrinin tədris proqramları çərçivəsində hazırlandığını nəzərə alsaq, belə nəticəyə gəlmək olar ki, şagirdlərin riyaziyyat fənni üzrə hazırlıq səviyyələri qənaətbəxş deyil.

AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN İNFORMASİYA ƏYRİSİ VƏ ABİTURİYENTLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI



Qrafik 1.8

RİYAZİYYAT FƏNNİNDƏN İXTİSAS QRUPLARI ÜZRƏ İNFORMASİYA ƏYRİLƏRİ VƏ ABİTURİYENTLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI





Qrafik 1.9

1.18 və 1.19 saylı şəkillərdəki diaqramlarda tam seçmənin 5, 10 və 15%-ni təşkil edən altseçmələr üzrə qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən müvafiq olaraq, Azərbaycan dili və riyaziyyatdan yüksək qabiliyyətə malik olan abituriyentlərin ixtisas qruplarına görə tərkibləri təqdim edilmişdir. Məlum olduğu kimi, II mərhələdə Azərbaycan dili fənni üzrə yalnız III ixtisas qrupunun, riyaziyyat fənni üzrə isə yalnız I və II ixtisas qruplarının abituriyentləri imtahan verdiklərindən II mərhələnin nəticələrinə əsasən abituriyentlərin daha çox hansı ixtisas qruplarını seçdiklərini görmək mümkün deyil. Bu səbəbdən də mənzərəni tam şəkildə görmək üçün qəbul imtahanının I mərhələsənin nəticələri götürülüb.

1.18 saylı şəkildəki diaqramdan göründüyü kimi, Azərbaycan dili fənnindən yüksək qabiliyyətə malik abituriyentlər daha çox III ixtisas qrupunu təmsil edirlər: 5 faizli altseçmədə 49.23%, 10 faizli altseçmədə 48.15% və 15 faizli altseçmədə 46.70%. Azərbaycan dili fənni üzrə yüksək qabiliyyətə malik olan gənclər III qrupla yanaşı, digər ixtisas qruplarında da təmsil olunublar. Onlar müvafiq hazırlıq keçdikləri halda III ixtisas qrupu abituriyentlərinə real rəqabət göstərə bilərdilər. Əgər Azərbaycan bölməsi abituriyentlərinin ixtisas qruplarına görə bölgüsünü nəzərə alsaq (I qrupda – 39.88%, II qrupda – 22.98%, III qrupda – 30.35%, IV qrupda – 6.79%), onda Azərbaycan dili üzrə yüksək qabiliyyətli abituriyentlərin istəklərinin qütbləşməsi aşkar şəkildə nəzərə çarpar. Çünki 5 faizli altseçmədə I və II qrupların abituriyentləri, müvafiq olaraq, cəmi 20.49% və 12.58% təşkil etdiyi halda, III və IV qrupların abituriyentləri, artıq 49.23 və 17.70% təşkil edir. Ötən illə müqayisədə bu il Azərbaycan dilindən yüksək qabiliyyətə malik olan abituriyentlərin nisbi sayı I və II ixtisas qruplarında azalıb (I qrupda 22.93%-dən 20.49%-ə, II qrupda 15.32%-dən 12.58%-ə qədər). III və IV ixtisas qruplarında isə, əksinə, belə abituriyentlərin nisbi sayı artmışdır (III qrupda 45.76%-dən 49.23%-ə qədər, IV qrupda 15.98%-dən 17.70%-ə qədər).

Riyaziyyat fənnində tamamilə fərqli mənzərə müşahidə olunur (bax: 1.19 saylı şəkil). Burada 5 faizli altseçmədə I ixtisas qrupunun abituriyentləri sayca ən çoxdur (50.38%). I və IV qrupların abituriyentlərinin nisbi çəkiləri (müvafiq olaraq, 50.38% və 23.62%) onların tam seçmədəki nisbi çəkilərini (müvafiq olaraq, 40.69% və 7.23%) üstələyir. Bütün bunlar onu göstərir ki, I və IV ixtisas qruplarını seçən abituriyentlərin içərisində riyazi qabiliyyəti yüksək olanların nisbi çəkisi daha çoxdur. II və III ixtisas qruplarında, əksinə, bu qrupları seçənlərin (müvafiq olaraq, 14.52% və 11.47%) içərisində riyazi qabiliyyəti yüksək olanların nisbi çəkisi (müvafiq olaraq, 23.66 və 28.42%) daha azdır. Qeyd edək ki, ötən illərlə müqayisədə cari ildə riyaziyyat fənnindən yüksək qabiliyyətə malik olan abituriyentlərin ixtisas qruplarına olan meyilləri dəyişmişdir. Məsələn 2018-ci illə müqayisə 2021-ci ildə belə abituriyentlərin I ixtisas qrupu üzrə nisbi çəkisi 11.91% artmışdır (38.47%-dən 50.38%-ə qədər). II ixtisas qrupu üzrə isə əksinə, bu qrupu seçənlərin həm 5 faizli altseçmədəki nisbi çəkiləri 10.38% (24.90%-dən 14.52%-ə qədər) azalmışdır.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ BÖLGÜSÜ



Şəkil 1.18

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN RİYAZİYYAT FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ BÖLGÜSÜ



Şəkil 1.19

Qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən ayrı-ayrı fənlər üzrə oğlan və qız abituriyentlərin qabiliyyət səviyyələrinin paylanmasını ayrılıqda əks etdirən histoqramların (1.10 və 1.11 saylı qrafiklərə bax) müqayisəsi qızların həm Azərbaycan dili, həm də riyaziyyatdan üstünlüyə malik olduğunu göstərir. Lakin riyaziyyat fənni üzrə bu üstünlük Azərbaycan dilindən fərqli olaraq çox cüzidir.

Azərbaycan dili üzrə qabiliyyət səviyyəsinin paylanmasını əks etdirən histoqramların (1.10 saylı qrafik) müqayisəsi göstərir ki, nisbətən yüksək qabiliyyət intervalında qızlar, aşağı qabiliyyət intervalında isə oğlanlar sayca üstünlük təşkil edir. Histoqramlar üzrə hesablamalar göstərir ki, hər 100 qız abituriyentdən 53–54–nün qabiliyyəti 0.00 loqitdən yüksək olduğu halda, hər 100 oğlan abituriyentdən qabiliyyətləri həmin intervalda yerləşənlərin sayı cəmi 34–35 nəfərdir. Beləliklə, bu intervalda fərq 19% təşkil edir.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN AZƏRBAYCAN DİLİ FƏNNİ ÜZRƏ QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI (2021-Cİ İLİN MƏZUNLARI)



Qrafik 1.10

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN RİYAZİYYAT FƏNNİ ÜZRƏ QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI (2021-Cİ İLİN MƏZUNLARI)



Qrafik 1.11

Riyaziyyat fənni üzrə qabiliyyət səviyyələrinin paylanmasında isə bir qədər başqa mənzərə müşahidə olunur (1.11 saylı qrafikə bax). Burada oğlan abituriyentlərin qabiliyyət göstəriciləri qızların göstəricilərinə yaxın olmuşdur. Azərbaycan dilindən fərqli olaraq riyaziyyat fənni üzrə oğlan və qızların qabiliyyət səviyyələrinin paylanmaları arasındakı fərq kiçikdir.

Qabiliyyətlərin ortakvadratik meyillə ifadə edilmiş vahidlərdə fərqlərini müqayisə etdikdə də həmin nəticəyə gəlmək mümkündür. Azərbaycan dili üzrə ümumi paylanmanın ortakvadratik meyilinin σ_a=0.984 olduğunu nəzərə alsaq, onda fərq aşağıdakı kimi olacaq:

$$\frac{0.081 + 0.357}{0.984} = 0.45\sigma_a$$

Riyaziyyat üzrə ümumi paylanmanın ortakvadratik meyilinin σ_r=1.171 olduğunu nəzərə alanda fərq:

$$\frac{-0.521 + 0.567}{1.171} = 0.04\sigma_r$$

bərabər olacaq.

Beləliklə, oğlan və qız abituriyentlərin qabiliyyət səviyyələri arasındakı fərq müvafiq ortakvadratik meyilin Azərbaycan dilində 45, riyaziyyatda isə 4 faizinə bərabərdir.

1.20 və 1.21 saylı şəkillərdəki diaqramlarda oğlan və qızların tam seçmənin 5, 10 və 15%-ni təşkil edən altseçmələri üzrə Azərbaycan dili və riyaziyyatdan qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən yüksək qabiliyyətə malik olan oğlan və qız abituriyentlərin nisbi sayları faizlə təqdim edilmişdir. Diaqramlardan göründüyü kimi, Azərbaycan dilindən ən yüksək qabiliyyətə malik olan 5 faizli altseçmədə hər 100 abituriyentdən 69-70-i qız, 30-31-i oğlan, riyaziyyatdan ən yüksək qabiliyyətə malik olan 5 faizli altseçmədə hər 100 abituriyentin 50-51-i oğlan, 49-50-si qızdır. Altseçmələr genişləndikcə oğlanların və qızların sayları tam seçmədəki tərkibə yaxınlaşır.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN BÖLGÜSÜ



Şəkil 1.20

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN RİYAZİYYAT FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN BÖLGÜSÜ



Şəkil 1.21

Qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən yüksək qabiliyyətə malik olan oğlan və qız abituriyentlərin ixtisas qrupları üzrə tərkibinin (bax: cədvəl 1.27 və 1.28) təhlili göstərir ki, Azərbaycan dili üzrə yüksək qabiliyyətə malik olan oğlanların III ixtisas qrupuna istəkləri tam seçməni təmsil edən ortastatistik oğlan abituriyentin həmin qrupa nümayiş etdirdiyi istəkdən yüksəkdir. Doğrudan da, 5 faizli altseçmə səviyyəsində III ixtisas qrupunun oğlan abituriyentlərinin nisbi sayı tam seçməyə nəzərən təxminən 2.3 dəfə artmışdır. Azərbaycan dilindən yüksək qabiliyyətə malik oğlan abituriyentlər III ixtisas qrupu ilə yanaşı, IV ixtisas qrupuna da üstünlük verirlər (nisbi sayı isə təxminən 3.7 dəfə çox olub). Qız abituriyentlərin seçimində də belə tendensiya III və IV ixtisas qruplarında müşahidə olunur. Burada 5 faizli altseçmə səviyyəsində qız abituriyentlərin istəyi tam seçməyə nəzərən III qrupda 1.2, IV qrupda 1.9 dəfə yüksəkdir. Digər tərəfdən, qeyd etmək lazımdır ki, Azərbaycan dili fənni üzrə yüksək qabiliyyətli oğlanların və qızların I və II qrupların ixtisaslarını seçmə ehtimalı tam seçməyə nəzərən müvafiq olaraq, I qrupda 1.6 və 1.8 dəfə, II qrupda 1.4 və 1.8 dəfə zəifdir.

Cədvəl 1.27

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏT SƏVİYYƏSİNƏ MALİK OLAN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ PAYLANMASI (2021-Cİ İLİN MƏZUNLARI)

Tam seçmə üzrə	Oğlan abituriyentlər					Qız abituriyentlər				
	Altseçmə-nin payı	İxtisas qrupları üzrə paylanması				Altseçmə-nin payı	İxtisas qrupları üzrə paylanması			
		I	II	III	IV		I	II	III	IV
5%	**30.05**	31.69	22.08	33.55	12.68	**69.95**	15.68	8.50	55.96	19.86
10%	**31.60**	34.75	23.12	31.43	10.70	**68.40**	17.59	8.69	55.88	17.83
15%	**32.80**	36.27	24.32	29.70	9.71	**67.20**	18.88	9.90	55.00	16.22
İmtahan iştirakçılarının paylanması	**50.06**	51.35	30.47	14.79	3.39	**49.94**	28.39	15.48	45.94	10.19

Cədvəl 1.28

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN RİYAZİYYAT FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏT SƏVİYYƏSİNƏ MALİK OLAN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ PAYLANMASI (2021-Cİ İLİN MƏZUNLARI)

Tam seçmə üzrə	Oğlan abituriyentlər					Qız abituriyentlər				
	Altseçmə-nin payı	İxtisas qrupları üzrə paylanması				Altseçmə-nin payı	İxtisas qrupları üzrə paylanması			
		I	II	III	IV		I	II	III	IV
5%	**50.88**	60.22	17.47	7.62	14.69	**49.12**	40.20	11.46	15.47	32.87
10%	**49.65**	61.13	18.27	8.58	12.02	**50.35**	41.11	12.00	18.72	28.16
15%	**49.69**	60.14	20.26	9.35	10.25	**50.31**	41.16	12.04	21.45	25.35
İmtahan iştirakçılarının paylanması	**50.58**	52.01	30.70	13.70	3.58	**49.42**	29.10	16.45	43.49	10.97

Riyaziyyatdan yüksək qabiliyyətə malik olan oğlan abituriyentlər I qrupun ixtisaslarına üstünlük verirlər. Belə ki, riyaziyyatdan yüksək qabiliyyətə malik 5%-li altseçməni təmsil edən abituriyentlərin 60.22%-i ərizələrində bu qrupu seçib.

Riyaziyyatdan yüksək qabiliyyətə malik qız abituriyentlər seçməsində bir az fərqli mənzərənin şahidi oluruq. Belə ki, bu cür abituriyentlər daha çox I və IV ixtisas qruplarına üstünlük verirlər və riyaziyyatdan yüksək qabiliyyətə malik 5%-li altseçməni təmsil edən abituriyentlərin müvafiq olaraq, 40.20 və 32.87%-i ərizələrində bu qrupları seçiblər.

Riyaziyyatdan yüksək qabiliyyətə malik həm oğlan, həm qız abituriyentlər III qrupa elə də meyil göstərməyiblər. Oğlan abituriyentlərin tam seçməsinin 13.70, qız abituriyentlərin 43.49%-i bu qrupu seçmələrinə baxmayaraq, riyaziyyatdan yüksək qabiliyyətə malik 5%-li altseçmədə belələrinin nisbi sayı müvafiq olaraq, 1.8 və 2.8 dəfə az olub. IV ixtisas qrupunda isə bunun tam əksini görürük. 1.28 saylı cədvəldən də göründüyü kimi oğlan abituriyentlərin 3.58%-i, qız abituriyentlərin 10.97% IV ixtisas qrupunu seçdiyi halda yüksək qabiliyyətə malik 5%-li altseçmədə belələrinin nisbi sayı tam seçməyə nəzərən müvafiq olaraq, 4.1 və 3.0 dəfə çox olub.

Fənlər üzrə elmi-metodiki təhlil və tövsiyələr

2020/2021-ci dərs ili Azərbaycan xalqının qəhrəmanlıq salnaməsi kimi tarixə qızıl hərflərlə yazılmış Zəfərin ilk tədris ili olub. Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar bu dərs ilində də imtahanlara hazırlaşanlara lazımi maksimum dəstək olmaq məqsədilə ilboyu onlara lazımi metodik kömək göstərilib, silsilə tədbirlər həyata keçirilib.

Ötən ildə olduğu kimi, bu il də qəbul qaydalarına əsasən, tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı qəbul imtahanının birinci mərhələsinə, ixtisas qrupları üzrə imtahanlar isə ikinci mərhələsinə aid olub. Pandemiya ilə əlaqədar ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə qəbul imtahanlarının ikinci mərhələsi bir dəfə keçirilib.

Təqdim olunan bu təhlil qəbul imtahanlarının ikinci mərhələsinə aiddir.

İlin əvvəlindən ali təhsil müəssisələrinə qəbul imtahanlarının məzmunu ilə bağlı və imtahanlara hazırlaşanlara metodik kömək məqsədilə materialların hazırlanmasına başlanılıb. "Abituriyent" jurnalının birinci sayında qəbul imtahanlarında müvafiq fənlər üzrə tələblərinin yoxlanılması və qiymətləndirilməsi mümkün olan alt standartlar, dərsliklərdə həmin tələblərin reallaşdırılması üçün verilmiş təlim materiallarına uyğun mövzular əsasında hazırlanan qəbul proqramları və imtahan modellərinə uyğun tapşırıq nümunələri dərc edilib. Proqramlarda mübahisəli və dərslikdənkənar məsələlərə yer verilməyib.

Beləliklə, ilin əvvəlindən abituriyentlərə qəbul proqramlarındakı mövzular və imtahanlarda hansı tipli tapşırıqların istifadə ediləcəyi barədə məlumat verilib.

İmtahanlarda I ixtisas qrupu üzrə riyaziyyat, fizika, kimya, II ixtisas qrupu üzrə riyaziyyat, coğrafiya, tarix, III ixtisas qrupu üzrə tədris dili, ədəbiyyat, tarix, IV ixtisas qrupu üzrə biologiya, kimya, fizika fənlərinin hər birindən test bloklarına 30 tapşırıq (hər ixtisas qrupu üzrə ümumilikdə 90 tapşırıq) daxil edilib. Bunlardan: 22-si qapalı (verilənlərdən bir doğru cavabın müəyyən edilməsi), 5-i cavabları kodlaşdırılan açıq tipli (hesablama, seçim və uyğunluğu müəyyən etmək), 3-ü isə yazılı şəkildə cavablandırılması tələb edilən, meyarlar əsasında markerlər tərəfindən qiymətləndirilən situasiya, mətn və mənbə əsasında hazırlanan tapşırıqlar olub. Cavabı yazı ilə ifadə edilən tapşırıqlar riyaziyyat, fizika, kimya, coğrafiya və biologiya fənləri üzrə situasiya, Azərbaycan dili (rus dili) və ədəbiyyat fənləri üzrə mətn, tarix fənni üzrə isə mənbə əsasında hazırlanıb.

Abituriyentlərin bilik və bacarıqlarını hərtərəfli yoxlamaq məqsədilə imtahan bloklarına qabiliyyət göstəricilərinə görə terminoloji, faktoloji, ümumiləşdirmə, izahat, hesablama, öncəgörmə və təklif olunan fəaliyyət xarakterli, mürəkkəblik dərəcəsinə görə sadə, orta çətinlikli və çətin tapşırıqlar daxil edilib. İmtahan bloklarında məntiqi düşünmə və nəzəri biliklərin tətbiqi tələb olunan, proses və hadisələrin mahiyyətinin dərk edilməsinə yönələn, səbəb və nəticə əlaqələri əsasında qurulan tapşırıqlara üstünlük verilib. Həmçinin imtahanlarda Eyler-Venn diaqramı və klaster formalı tapşırıqlardan istifadə olunub.

Qeyd etmək lazımdır ki, COVID-19 pandemiyası ilə bağlı xüsusi karantin qaydaları nəzərə alınaraq I ixtisas qrupu üzrə qəbul imtahanları iki gün keçirilib. Ötən illərdə olduğu kimi, bu il də qəbul imtahanları üçün sual kitabçaları qapalı şəraitdə ekspertlər tərəfindən hazırlanıb. Sual kitabçalarının formalaşdırılması zamanı tətbiq edilən xüsusi karantin qaydalarının tədris prosesinə təsiri nəzərə alınıb. İmtahanlar keçirilən günlərdə bunker şəraitində yekun ekspertiza keçirilib, qapalı, cavabları kodlaşdırılan açıq tipli tapşırıqların

doğru cavab etalonları və cavabları yazı ilə ifadə olunan açıq tipli tapşırıqların qiymətləndirilmə meyarları dəqiqləşdirilib və təsdiq edilib. Həmçinin həmin günlərdə imtahanlardan dərhal sonra aparılmış müstəqil ekspertiza nəticəsində qapalı və cavabları kodlaşdırılan açıq tapşırıqların etalonları bir daha təsdiq edilərək elə həmin günlərdə Dövlət İmtahan Mərkəzinin "***Youtube***" kanalı vasitəsilə canlı yayımla ictimaiyyətə təqdim olunub.

Cavabları yazı ilə ifadə olunan tapşırıqlar müəyyən vaxt ərzində markerlər tərəfindən yoxlanılıb və nəticələr DİM-in internet saytında elan edilib.

Ötən illərdə olduğu kimi, bu il də imtahanlarda istifadə olunmuş tapşırıqlar fənlər üzrə işçi qruplarında imtahan nəticələrinin statistik göstəriciləri əsasında mürəkkəblik dərəcəsi, qabiliyyət göstəriciləri və məzmun baxımından təhlil edilib. Təhlil nəticəsində tapşırıqların respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan fənn kurikulumlarının təlim nəticələrinə, imtahanlarda mənimsənilməsi yoxlanıla və qiymətləndirilə bilən alt standartların tələblərinə və dərsliklərdəki materiallar əsasında hazırlanmış qəbul proqramlarına uyğunluğu bir daha təsdiqini tapıb.Həmçinin təhlil nəticəsində bir daha təsdiq edilib ki, tapşırıqlarla müvafiq fənn kurikulumunun təlim nəticələrinə uyğun bilik və bacarıqları yoxlamaq və qiymətləndirmək mümkün olub.

İmtahan nəticələrinin ststistik göstəriciləri əsasında abituriyentlərin cavab verməkdə çətinlik çəkdikləri tapşırıqlar müəyyənləşdirilib, onların izahlarına dair metodik tövsiyələr hazırlanıb və müvafiq fənlər üzrə test banklarının təkmilləşdirilməsi üçün təkliflər verilib.

Aşağıda fənlər üzrə hazırlanmış metodik tövsiyələr təqdim olunur.

Azərbaycan dili fənnindən III ixtisas qrupu üzrə qəbul imtahanında istifadə olunmuş tapşırıqlar fənn kurikulumuna görə 3 (**"Oxu", "Yazı"** və **"Dil qaydaları"**) məzmun xətti üzrə 5 əsas və 65 alt standartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

İxtisas qrupunun peşə xüsusiyyətləri nəzərə alınaraq qəbul imtahanında qapalı və cavabları kodlaşdırıla bilən tapşırıqlarla əsas etibarilə **"Dil qaydaları"** məzmun xəttinə aid alt standartların tələbləri üzrə bilik və bacarıqlar yoxlanılıb. Mətn tapşırıqları ilə isə digər məzmun xətlərinə aid bilik və bacarıqlar yoxlanılıb.

Qəbul imtahanında aşağıdakı bilik və bacarıqların yoxlanılması, qiymətləndirilməsi nəzərdə tutulub.

1. Öyrəndiyi söz və ifadələri üslubi xüsusiyyətlərinə görə izah etmək;
2. Söz və ifadələrə əsasən oxuduğu mətnləri üslubi xüsusiyyətlərinə görə müqayisə etmək;
3. Mətnin hissələrini (giriş, əsas hissə, nəticə), abzasları, cümlələri, onlar arasında bağlama vasitələrini təhlil etməklə məzmunun aydın ifadə olunmasına təsirini izah etmək;
4. Mövzuya uyğun üslub seçməklə fikirlərini yazılı şərh etmək,
5. Üslubi tələblər baxımından özünün və başqasının yazısını təkmilləşdirmək;
6. Qrammatik-semantik xüsusiyyətlərini gözləməklə sözlərdən üslubi imkanlarına görə istifadə etmək;
7. Nitqin düzgünlüyünü və ifadəliliyini təmin edən durğu işarələrindən istifadə etmək;
8. Mətnin tərtibatına və üslubuna uyğun düzgün yazı bacarıqları nümayiş etdirmək və s.

Tapşırıqlar aydın dildə, məntiqi cəhətdən əsaslı, düzgün tərtib olunmuş, sual və cavabların əlaqələndirilməsində dolaşıqlığa yol verilməmişdir. Test tapşırıqlarında nəzəri biliklə təcrübi materialların əlaqələndirilməsi, müxtəlif mövzuların qarşılaşdırılması, inteqrasiyası ilə məntiqi nəticələrin əldə edilməsinə də lazımi diqqət göstərilmişdir.

İmtahan nəticələrinin statistik göstəriciləri əsasında aparılan təhlil göstərmişdir ki, pandemiya şəraitində də abituriyentlər ana dilinin qayda-qanunlarını öyrənməyə səy göstərmiş, onlarda bu sahədə nəzəri və praktik bilikləri əlaqələndirə bilmə bacarığı, əsasən, formalaşmışdır. Ana dilinin saflaşdırılması yolunda ciddi addımların atıldığı indiki dövrdə bunun əhəmiyyəti böyükdür. Gənc nəslin ana dilini daha yaxşı mənimsəməyə, ondan qüsursuz istifadə etməyə önəm verməsi müsbət haldır.

Təhlil onu da göstərmişdir ki, abituriyentlərin müəyyən hissəsi sözlərin səs və hərf tərkibinə görə təhlili, sözün kök və şəkilçi tərkibinin müəyyənləşdirilməsi, sifət, köməkçi nitq hissələri, tabesiz mürəkkəb cümlənin tərəfləri arasında məna əlaqələri və komponentlərin bağlanma vasitələri, ədəbi dilin normaları, üslublar və cümlələrin üslubi xüsusiyyəti, feilin təsriflənməyən formalarına aid tapşırıqlara yaxşı, cümlədəki sözlərin morfoloji təhlili, morfoloji kateqoriyaların müəyyənləşdirilməsi, cümlənin şəxsə görə növləri, cümlənin sintaktik baxımdan təhlili, tabeli mürəkkəb cümləyə aid tapşırıqlara isə zəif cavab vermişlər. Zəif cavablandırılan tapşırıqlarda əsas etibarilə sözlərin hansı nitq hissəsi olması, bu nitq hissəsi ilə bağlı hansı qrammatik xüsusiyyətlərə malik olması, sözlərdəki şəkilçilərin mənsubiyyəti, baş və budaq cümlə, onların bağlanma üsulları və s. müəyyənləşdirmək tələb olunur.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

7-ci sinif

4.1.2. Söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyən edir.

14 iyul tarixli imtahan, A variantı, 23 saylı test tapşırığı

Eyler-Venn diaqramı əsasında qarşısında işarə qoyulmuş baş və budaq cümlələrə aid ***yanlış*** fikirləri müəyyən edin.

□ *Böyük işlər görmək üçün elə yaşamalısan ki,*

○ *sanki heç vaxt ölməyəcəksən.(L.Vovenarq)*



1. Məqsəd zərfliyi feili birləşmə ilə ifadə olunub.
2. Yalnız qrammatik mənası olan söz də iştirak edib.
3. Cümlənin xəbəri təsriflənən feillə ifadə olunub.
4. Vergül işarəsi buraxılmışdır.
5. İkinci dərəcəli üzvlərdən yalnız zərflik işlənmişdir.

7-ci sinifdə tədris olunan tabeli mürəkkəb cümləyə aid bu tapşırığa abituriyentlərin 15,76%-i doğru cavab verib, 64,36%-i səhv cavablandırıb, 19,88%-i isə cavab verməkdən imtina edib.

Konstruksiyanın birinci komponenti baş cümlə, ikinci komponenti budaq cümlədir. Baş cümlədə məqsəd zərfliyi qoşmalı məsdər tərkibi ilə (böyük işlər görmək üçün) ifadə olunmuşdur. Deməli, 1-ci bənddəki fikir (Məqsəd zərfliyi feili birləşmə ilə ifadə olunub) düzgün müəyyənləşmişdir. Baş cümlənin tərkibində məqsəd zərfliyi "*üçün*" qoşması vasitəsilə formalaşmış, sonundakı "*ki*" bağlayıcısı komponentləri bir-birinə bağlamışdır. Bu baxımdan ancaq qrammatik mənaya malik olan qoşma və bağlayıcı birinci komponentdə işlənsə də, onlar bir yox, ikidir. Bu da bir köməkçi nitq hissəsi olduğunu ehtiva edən 2-ci bənddəki fikrin (Yalnız qrammatik mənası olan söz də iştirak edib) düzgün olmadığını göstərir. Həm baş, həm də budaq cümlənin xəbəri təsriflənən feillə ifadə olunmuşdur; "*yaşamalısan*" feili xəbəri feilin vacib şəkli, "*ölməyəcəksən*" feili xəbəri isə qəti gələcək zamanla, yəni feilin xəbər şəkli ilə ifadə olunmuşdur. Ona görə də 3-cü bənddəki fikir (Cümlənin xəbəri təsriflənən feillə ifadə olunub) düzgündür. Budaq cümlədə vergül işarəsinin qoyulması üçün heç bir səbəb yoxdur və ümumiyyətlə, bu konstruksiyada komponentlər arasındakı vergül işarəsindən başqa, heç bir digər durğu işarəsinə ehtiyac yoxdur. Buna görə də 4-cü bənddəki fikir (Vergül işarəsi buraxılmışdır) doğru deyil. 5-ci bənddəki fikir də (İkinci dərəcəli üzvlərdən yalnız zərflik işlənmişdir) doğru deyil, ona görə ki, həm baş, həm də budaq cümlədə ikinci dərəcəli üzvlərdən ancaq zərflik işlənmişdir; baş cümlədə məqsəd (böyük işlər görmək üçün) və tərzi-hərəkət zərfliyi (elə), budaq cümlədə isə yalnız zaman zərfliyi (heç vaxt) işlənmişdir.

Doğru cavab: 2, 4, 5

7-ci sinif

4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.

14 iyul tarixli imtahan, A variantı, 24 saylı test tapşırığı

Ədatlarla bağlı doğru fikirləri müəyyən edin.

1. Başqa nitq hissələri ilə ədatlar arasında sinonimlik yarana bilir.
2. Bəziləri omonimlik xüsusiyyətinə malikdir.
3. Bir qismi söz-cümlə kimi çıxış edə bilir.
4. Ədatlar öz aralarında sinonimlik yarada bilmir.
5. *-mı*[4] sual ədatı həm bitişik, həm də ayrı yazıla bilir.

7-ci sinifdə tədris olunan ədat mövzusuna aid bu test tapşırığına abituriyentlərin 29,58%-i doğru cavab verib, 61,72%-i səhv cavablandırıb 8,70%-i isə cavab verməkdən imtina edib,.

Tapşırığın 1-ci bəndindəki fikir (Başqa nitq hissələri ilə ədatlar arasında sinonimlik yarana bilir) səhvdir, çünki sinonimlik münasibətində olan sözlər eyni nitq hissəsinə aid olur. İkinci fikir (Bəziləri omonimlik

xüsusiyyətinə malikdir) doğrudur; belə ki, ədatların həm bir-biri ilə, həm də başqa nitq hissələri ilə omonimliyi var. Məsələn, "*ha*" sözü həm qüvvətləndirici ədatdır, həm də əmr ədatıdır, "*ki*" sözü həm qüvvətləndirici ədatdır, həm də sual ədatıdır, "*ki*", "*ancaq*", "*yəni*", "*da*, *də*", "*hətta*", "*nə*" həm ədat, həm də bağlayıcıdır, "*qoy*", "*gəl*", "*gör*" həm ədat, həm də feildir və s. Təsdiq və inkar ədatları söz-cümlə formalaşdıra bilir, ona görə də 3-cü bənddəki fikir doğrudur. 4-cü bənddəki fikir səhvdir, çünki məna qruplarında birləşən ədatlar çox halda bir-birini əvəz edə bilir, yəni sinonimlik münasibətində ola bilir. Məsələn, sual ədatları: "*məgər*", "*yəni*", "*bəs*" və s. Beşinci fikir doğrudur; belə ki, *-mı*[4] sual ədatı, yazılış formasından da göründüyü kimi, şəkilçi formasında olub, əsasən, sözə bitişik yazılır: *gələcəksənmi*. Lakin "*da, də*" bağlayıcısından sonra *-mı*[4] ədatı da ayrı yazılır: *sən də mi*.

Doğru cavab: 2, 3, 5

7-ci sinif

4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.

14 iyul tarixli imtahan, A variantı, 25 saylı test tapşırığı

"-la" ilə bağlı doğru fikirləri müəyyən edin.

1. Leksik şəkilçi kimi zərf yarada bilir.
2. *"Atamla"* sözündə *"-la"* tərzi-hərəkət zərfi düzəltmişdir.
3. *"Nənəmlə danışdım"* cümləsində *"-lə"* bağlayıcıdır.
4. *"Raufla Nüsrət bu gün dayımla şəhərə getdilər"* nümunəsində birinci *"-la"* bağlayıcı, ikinci *"-la"* qoşmadır.
5. Feillərin yaranmasında iştirak edir.

7-ci sinifə aid bu tapşırığa, abituriyentlərin 36,02%-i doğru cavab verib, 56,41%-i səhv cavablandırıb, 7,57%-i isə cavab verməkdən imtina edib.

Müasir Azərbaycan dilində *-la*[2] iki formada istifadə edilir: söz – köməkçi nitq hissəsi kimi və feil ilə zərf düzəldən şəkilçi kimi. Birinci halda qoşma və bağlayıcı olaraq həm özündən əvvəlki sözdən ayrı, həm də ona bitişik yazılır. Zərf düzəldən şəkilçi olduqda isə sözə bitişik yazılır, *necə?, nə cür?, nə tərzdə?* suallarına cavab verir, *kim ilə?, nə ilə?* sualları tələb olunmur: *cəsarətlə, igidliklə*. Bu baxımdan 1-ci bənddəki fikir doğrudur. Qeyd edildiyi kimi, zərf yaratdıqda həmin söz *kim ilə?, nə ilə?* suallarını tələb etmir, bu sualları tələb edirsə, ya qoşma, ya da bağlayıcıdır: *Atamla (kim ilə?) məktəbə getdim* (qoşma); *Atamla anam həkimdirlər* (bağlayıcı). Sonuncu cümlədə həmcins mübtədaları bağlayan *-la*[2] birləşdirici bağlayıcı olub, "*və*" ilə əvəzlənə bilir: *Atam və anam həkimdirlər*. Ona görə də 2-ci bənddəki fikir ("*Atamla*" sözündə "*-la*" tərzi-hərəkət zərfi düzəltmişdir) səhvdir. 3-cü bənddəki "*Nənəmlə danışdım*" cümləsində həmcinslik yoxdur, "*nənəmlə*" sözü "*kimlə?*" sualını tələb edən tamamlıqdır, "*-lə*" isə "*ilə*" qoşmasının şəkilçiləşmiş variantıdır. Bu baxımdan 3-cü bənddəki fikir də səhvdir. 4-cü bənddəki fikir doğrudur, çünki "*Raufla Nüsrət*" ifadəsində "*Rauf*" və "*Nüsrət*" həmcins mübtədalar olaraq "*-la*" (ilə) birləşdirici tabesizlik bağlayıcısı ilə bağlanmışdır və asanlıqla "*və*" bağlayıcısı ilə əvəzlənə bilir: *Rauf və Nüsrət*. "*Dayımla*" sözündəki "*-la*" isə qoşmadır, *kim ilə?* sualını tələb edir. Nəhayət, 5-ci bənddəki fikir (Feillərin yaranmasında iştirak edir) düzgündür; əvvəldə deyildiyi kimi, bu morfem feil yaradıcılığında da iştirak edir: *baş – başla* (nə et?). Qeyd etmək lazımdır ki, qoşma, bağlayıcı və zərf düzəldən şəkilçi olduqda bu morfem vurğu qəbul etmir, feil düzəldən şəkilçi kimi isə vurğuludur.

Doğru cavab: 1, 4, 5

8-ci sinif

4.1.1. Sadə cümlənin növlərini fərqləndirir.

14 iyul tarixli imtahan, A variantı, 26 saylı test tapşırığı

Verilmiş cümlələrə aid ortaq fikirləri müəyyən edin.

- *İnsanı müdrikləşdirən, ona yaşamağı öyrədən həyatın özüdür.*
- *Kamil insan öz səhvlərindən nəticə çıxaran, düşünülmüş addımlar atmağa çalışandır.*

1. Xəbərlər söz birləşməsi ilə ifadə olunub.
2. Feili birləşmənin asılı tərəfləri arasında tabesizlik əlaqəsi müşahidə olunur.
3. Sadə nəqli cümlədir.
4. Ümumi şəxsli cümlədir.
5. İkinci dərəcəli cümlə üzvləri işlənib.
6. Baş üzvlərdən biri həmcinsdir.

8-ci sinifdə tədris olunan həmcins üzvlü sadə cümləyə aid bu test tapşırığına abituriyentlərin 26,38%-i doğru cavab verib, 51,52%-i səhv cavablandırıb, 22,09%-i isə cavab verməkdən imtina edib.

Tapşırıqdakı hər iki cümlə həmcins üzvlü sadə cümlədir; birincisində mübtədalar, ikincisində xəbərlər həmcinsdir və bu həmcins üzvlər feili sifət tərkibləri ilə ifadə olunmuşdur. 1-ci bənddəki fikir (Xəbərlər söz birləşməsi ilə ifadə olunub) doğrudur, çünki 1-ci cümlənin xəbəri ismi birləşmə ilə (*həyatın özüdür*), 2-ci cümlənin həmcins xəbərləri isə feili sifət tərkibləri ilə ("*öz səhvlərindən nəticə çıxaran*", "*düşünülmüş addımlar atmağa çalışan*") ifadə olunmuşdur. Deməli, hər iki cümlənin xəbəri söz birləşməsidir. 2-ci bənddəki fikir isə (Feili birləşmənin asılı tərəfləri arasında tabesizlik əlaqəsi müşahidə olunur) doğru cavab hesab oluna bilməz; belə ki, 1-ci cümlənin həmcins mübtədaları, 2-ci cümlənin həmcins xəbərləri feili sifət tərkibləri ilə ifadə olunmuşdur, lakin verilmiş dörd feili sifət tərkibinin heç birində sözlər arasında tabesizlik əlaqəsi, yəni sözlərin bərabər hüquqda sadalanması yoxdur. 3-cü fikir tapşırığın tələbinə cavab verir; birinci cümlədə yalnız həmcins mübtədalar ("*İnsanı müdrikləşdirən", "ona yaşamağı öyrədən")* və onlarla uzlaşma əlaqəsində olan xəbər ("*həyatın özüdür")*, ikinci cümlədə isə mübtəda *("insan"),* onunla uzlaşma əlaqəsində olan həmcins xəbərlər ("*öz səhvlərindən nəticə çıxaran, düşünülmüş addımlar atmağa çalışandır")* və habelə mübtədanın təyini ("*kamil")* vardır. Bu konstruksiyaların heç birində iki qrammatik əsas yoxdur, ona görə də onların hər biri mürəkkəb yox, sadə cümlədir. Dördüncü fikir də cavab kimi alına bilməz, çünki ümumi şəxsli cümlə xəbər əsasında formalaşan və mübtədası olmayan cümlədir, halbuki yuxarıda qeyd edildiyi kimi, bu cümlələrin hər birinin mübtədası da, xəbəri də var, ona görə də hər ikisi müəyyən şəxsli cümlədir. Beşinci fikir ortaq cəhət sayıla bilməz, çünki əvvəlki izahdan göründüyü kimi, birinci cümlə ancaq mübtəda və xəbərdən ibarətdir. Deməli, ikinci dərəcəli üzv yoxdur. İkinci cümlədə isə ikinci dərəcəli üzvlərdən təyin işlənmişdir. Nəhayət, altıncı fikir hər iki cümlə üçün ortaq xüsusiyyət hesab edilə bilər. Yuxarıda deyildiyi kimi, birinci cümlədə mübtədalar ("*İnsanı müdrikləşdirən", "ona yaşamağı öyrədən"),* ikinci cümlədə isə xəbərlər ("*öz səhvlərindən nəticə çıxaran, düşünülmüş addımlar atmağa çalışandır")* həmcinsdir.

Doğru cavab: 1, 3, 6

8-ci sinif

4.1.1. Sadə cümlənin növlərini fərqləndirir.

14 iyul tarixli imtahan, A variantı, 27 saylı test tapşırığı

Sadə cümlənin şəxsə görə növlərini nəzərə alaraq, uyğunluğu müəyyən edin.

1. ümumi şəxsli
2. müəyyən şəxsli
3. şəxssiz

a. Mebel istehsalında meşə ağaclarından istifadə olunur.

b. Bu əhvalatdan sonra Kərimin qanı bərk qaralmışdı.

c. Gərək hamının fikrinə hörmətlə yanaşmağı bacarasan.

d. Kəndin mərkəzindəki evlər daha əzəmətli görünürdü.

e. Yazın əvvəlində belə yağışlara tez-tez rast gəlirsən.

8-ci sinifə aid bu test tapşırığına abituriyentlərin 26,51%-i doğru cavab verib, 61,46%-i səhv cavablandırıb, 12,03%-i isə cavab verməkdən imtina edib.

a bəndində verilmiş cümlənin xəbəri (*istifadə olunur)* şəxssiz feil olduğundan mübtəda tələb edilmir, bu tip cümlə isə şəxssiz cümlədir, çünki xəbər əsasında formalaşan qeyri-müəyyən şəxsli və ümumi şəxsli cümlələrdə mübtəda olmasa da, xəbərə mübtədanın sualını vermək və lazım gəlsə, onu bərpa etmək mümkündür, halbuki yalnız şəxssiz cümlə mübtəda tələb etmir və onu təsəvvür etmək də olmur. Ona görə də **a** bəndindəki cümlə 3-cü nümunəyə (şəxssiz) uyğundur. **b** bəndindəki cümlə də (Bu əhvalatdan sonra Kərimin qanı bərk qaralmışdı) şəxssiz cümlədir; bu cümlənin xəbəri (Kərimin qanı bərk qaralmışdı) mübtəda tələb etməyən, yəni şəxssiz formada frazeoloji birləşmə ilə ifadə olunmuşdur. Bu baxımdan **b** bəndindəki cümlə də 3-cü bəndlə əlaqələnir. Növbəti cümlə (Gərək hamının fikrinə hörmətlə yanaşmağı bacarasan) ümumi şəxsli cümlədir. Ümumişəxsli cümlə də xəbər əsasında formalaşır, mübtədası olmur, lakin iş hamıya aid olur. Bu tip cümlələrin xəbəri, əsasən, üçüncü şəxsin cəmində, bəzən isə ikinci şəxsin təkində olur. Tapşırıqda **c** bəndindəki cümlənin xəbəri ikinci şəxsin təkindədir, lakin mübtəda yerində ikinci şəxsin təki olan "*sən*" əvəzliyi düşünülmür; burada iş bütün şəxslərə aiddir. Ona görə də **c** bəndindəki cümlə 1-ci nümunə, yəni ümumi şəxsli cümlə ilə əlaqələndirilməlidir. Sonrakı **d** bəndindəki cümlə (Kəndin mərkəzindəki evlər daha əzəmətli görünürdü) mübtəda (evlər) və xəbərə (görünürdü) malik olduğundan müəyyən şəxsli cümlədir və 2-ci nümunə (müəyyən şəxsli) ilə əlaqələndirilməlidir. Sonuncu **e** bəndindəki

cümlə də (Yazın əvvəlində belə yağışlara tez-tez rast gəlirsən) **c** bəndindəki ilə eyni formadadır; xəbər ikinci şəxsin təkindədir (rast gəlirsən), lakin iş müəyyən bir şəxsə deyil, hamıya aiddir. Deməli, ümumi şəxsli cümlədir.

Doğru cavab: 1-c, e; 2-d; 3-a, b

Mətn əsasında verilən tapşırıqlarla abituriyentlərin daha çox məntiqi düşüncəsi, faktları əlaqələndirmə bacarığı və bunları dil materialı ilə ifadə edə bilmə imkanları yoxlanılır. Təhlillər göstərir ki, bir çox abituriyent belə tapşırıqların cavablandırılmasında zəif nəticə göstərir.

14 iyul tarixli imtahan, A variantı, mətnə aid 28 saylı tapşırıq

Ən uzun heyvan hansıdır?

Maraqlıdır ki, planetimizdə ən uzun heyvanların əksəriyyəti dənizdə yaşayır.

Amerikanın məşhur jurnallarından biri məktəblilər arasında sorğu keçirib. "Dünyanın ən uzun heyvanı hansıdır?" sualına üç cavab variantı təklif olunub: mavi balina, meduza, xortumlu soxulcan. Məktəblilərin çoxu balina, bəziləri isə meduza variantına cavab veriblər. Halbuki xortumlu soxulcan mavi balinadan 2 dəfə, meduzadan isə təxminən 1,6 dəfə uzun olur. Onun uzunluğu bəzi hallarda 60 metrə çatır. Təsəvvür edin ki, bu, futbol meydançasının yarıdan çoxuna bərabərdir.

Xortumlu soxulcan dəniz və okeanlarda [2.] . Alimlər onun təxminən 500 milyon il yaşadığını güman edirlər. Xortumlu soxulcanın belə uzunömürlülüyü onun güclü müdafiə sisteminə malik olması ilə bağlıdır. Təhlükə ilə üzləşəndə bu soxulcan kəskin qoxulu yapışqan maye ifraz edir. Bu yapışqanı düşdüyü yerdən qoparmaq həddən artıq çətindir. Həmin mayedən insanın əlinə bir damcı düşsə, o bu qoxudan aylarla özünə gələ bilməz.

Bu soxulcan zəhərli qarmaqcıqları olan xortumu ilə xərçəngləri tutur və onlarla qidalanır. O, asanlıqla bədənini kiçik hissələrə bölə bilir və hər hissədən yeni soxulcan yaranır.

28. Mətndən cədvəldəki fikirləri təsdiq edən faktları seçib yazın.

Fikir	*Fikri təsdiq edən fakt*
1. Xortumlu soxulcan yırtıcıdır.	
2. Məktəblilər öz seçimlərində yanılmışdılar.	
3. Bir çox uzun heyvanlar suda yaşayır.	
4. Xortumlu soxulcan sadə və maraqlı yolla çoxalır.	

Ehtimal olunan doğru cavablar:

Fikir	*Fikri təsdiq edən fakt*
1. Xortumlu soxulcan yırtıcıdır.	*1. Xortumlu soxulcan xərçənglərlə qidalanır.*
2. Məktəblilər öz seçimlərində yanılmışdılar.	*2. Məktəblilər ən uzun heyvan kimi mavi balina və ya meduzaya üstünlük verirlər. Amma soxulcan balinadan 2 dəfə, meduzadan isə 1,6 dəfə uzundur.*
3. Bir çox uzun heyvanlar suda yaşayır.	*3. Mavi balina, meduza, xortumlu soxulcan kimi ən uzun heyvanlar dəniz və okeanlarda yaşayırlar.*
4. Xortumlu soxulcan sadə və maraqlı yolla çoxalır.	*4. Xortumlu soxulcan asanlıqla bədənini hissələrə bölə bilir və hər hissədən yeni soxulcan yaranır.*

Qiymətləndirmə meyarı:

Bal şkalası	**Meyarlar**
1 bal	A. Cədvəlin bütün boş hissələrinə doğru fikir yazılır, yanlış fikir ***yazılmır****;*
$\frac{2}{3}$ bal	B. Cədvəlin 4 boş hissəsinə doğru, hissələrdən hər hansı birinə isə doğru fikirlə yanaşı, 1 ***yanlış*** fikir də yazılır; C. Cədvəlin 3 boş hissəsinə doğru fikir yazılır, digər hissəsinə isə heç nə ***yazılmır****;* D. Cədvəlin 3 boş hissəsinə doğru, digər hissəsinə isə ***yanlış*** fikir yazılır;

Bal şkalası	Meyarlar
$\frac{1}{3}$ bal	E. Cədvəlin 2 boş hissəsinə doğru fikir yazılır, digər hissələrə isə heç nə ***yazılmır;*** F. Cədvəlin 2 boş hissəsinə doğru, digər hissələrdən 1-nə ***yanlış*** fikir yazılır, digər hissəsi isə ***yazılmır;*** G. Cədvəlin 2 boş hissəsinə doğru, digər hissələrinə isə ***yanlış*** fikir yazılır; H. Cədvəlin 2 hissəsi doğru, 1 hissəsi ***yanlış*** yazılmaqla digər hissəyə doğru fikirlə yanaşı, ***yanlış*** fikir də yazılır;
0 bal	I. Cədvəlin 1 boş hissəsinə doğru fikir yazılır, yanlış ***yazılmır;***J. Cədvəlin 1 boş hissəsinə doğru, digər hissələrinə isə ***yanlış*** fikir yazılır; K. Digər bütün hallarda.

Qeyd: İstənilən bir xanada doğru fikirlə yanaşı, yanlış fikir varsa, həmin xana yanlış hesab olunur.

Tapşırıq vasitəsilə 7_2.2.3. (*Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır)* alt standartının tələblərinə aid bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 46,92%-i yazı işini tam yerinə yetirdiyinə görə 1 balla, 30,82%-i yarım balla, 12,11%-i 0 balla qiymətləndirilib, 4,22%-i isə tapşırığı cavablandırmaqdan imtina edib.

Göründüyü kimi, tapşırıqda cədvəldəki fikirləri təsdiq edən faktları yazmaq tələb olunur. Cədvəldə mətndən çıxan 4 fikir verilib. Bu fikirləri təsdiq edən faktları mətndən müəyyən etmək üçün məntiqi düşüncə, fikri əsaslandırma bacarığı tələb edilir. Məsələn, cədvəlin ilk sətrində verilmiş "Xortumlu soxulcan yırtıcıdır" fikrini təsdiqləmək üçün başqa heyvanların əti ilə qidalanan heyvanların yırtıcı olduğunu bilmək və mətndən bu faktı təsdiq edən fikri (Xortumlu soxulcan xərçənglərlə qidalanır) müəyyən edib yazmaq lazımdır. Digər cavablar da bu şəkildə müəyyənləşdirilir.

Beləliklə, təhlil göstərir ki, abituriyentlərin bir çoxu müəyyən mövzuların cavablandırılmasında çətinlik çəkirlər. Bu baxımdan müvafiq fənn üzrə tədrisin səviyyəsini yüksəltməyə böyük ehtiyac var.

Azərbaycan dili istisna olmaqla tədris digər dillərdə aparılan təhsil müəssisələrinin şagirdləri üçün ***Azərbaycan dili (dövlət dili) fənnindən*** imtahanlarda istifadə edilmiş test tapşırıqları fənn kurikulumuna görə 2 (**"Oxu"** və **"Yazı"**) məzmun xətti üzrə 9-cu sinifdən 3 əsas, 22 alt standartın, 11-ci sinifdən isə 3 əsas və 28 alt standartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib. Qeyd etmək lazımdır ki, həm ümumi (9 illik), həm də tam (11 illik) orta təhsil səviyyəsindən buraxılış imtahanı verən şagirdlər dövlət dilindən də imtahan veriblər.

Buraxılış imtahanlarında aşağıdakı bilik və bacarıqların yoxlanılması, qiymətləndirilməsi nəzərdə tutulub.

1. Oxuduğu mətndə sözlərin mənasını başa düşmək;
2. Azərbaycan dilində olan mətnlər üzərində işləmək, onların məzmunu haqqında fikirlərini tətbiq etmək;
3. Fikri ümumiləşdirmək, məntiqi nəticə çıxarmaq;
4. Yazılı nitqində orfoqrafiya, qrammatika və durğu işarəsi qaydalarını tətbiq etmək.

İmtahanlarda dil qaydaları ilə bağlı məntiqi təfəkkürə əsaslanan, praktiki əhəmiyyətli test tapşırıqları ilə yanaşı, oxuyub-anlamanı, dilin praktiki tətbiqini yoxlamaq məqsədilə bədii və publisistik üslublarda olan on tapşırıqlı iki mətndən istifadə olunub. Bu tapşırıqlarla mətndəki əsas fikri müəyyən etmək, faktları tutuşdurmaqla məntiqi nəticə çıxarmaq, fikri ümumiləşdirmək, mətndə verilən bir neçə məlumatdan yeni informasiya əldə etmək və s. kimi bacarıqlar yoxlanılır.

İmtahan nəticələrinin statistik göstəriciləri əsasında test tapşırıqlarının hər biri məzmun, qabiliyyət və mürəkkəblik dərəcəsi baxımından təhlil edilib. Təhlil göstərib ki, test tapşırıqlarının məzmunu şagirdlərin nəzəri materialı necə mənimsədiyini, söz ehtiyatını və oxuyub-anlama bacarığını üzə çıxarmağa imkan verib. Təhlil onu da göstərib ki, şagirdlərin fənn üzrə hazırlıq səviyyələri ilbəil yüksəlib. Lakin yenə də şagirdlərin müəyyən hissəsi bəzi test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkiblər.

Aşağıda şagirdlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

6-cı sinif

3.1.1. Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir.

20 may tarixli imtahan, XI sinif, A variantı, 3 saylı test tapşırığı

Cümlələrin birində sifət ***işlənməmişdir***:

A) C. Məmmədquluzadə həyati hadisələri qələmə alırmış.
B) Qoca əzgin halda içəri daxil oldu.
C) Kəndin mənzərəli yerində hündür bir bina tikilmişdir.
D) Şiddətli külək dənizdə güclü fırtına qopardı.
E) Mağazada gördüyüm dəri çanta diqqətimi cəlb etdi.

Sifət bölməsinə aid olan bu tapşırığa abituriyentlərin 22,17%-i doğru cavab verib, 42,42%-i A bəndini doğru cavab hesab edib, 1,49%-i isə cavab verməkdən imtina edib.

Ümumi qrammatik mənasına görə sifət əşyanın əlamətini və keyfiyyətini bildirir, *necə?, nə cür?, hansı?* suallarından birinə cavab verir. Sifət aid olduğu isimdən (əşyadan) əvvəl gəlir, onu müxtəlif cəhətdən müəyyən edir. Sifət, əsasən, cümlənin təyini olur, yeri gəldikdə, digər cümlə üzvü vəzifəsində də işlənir: ***Kök*** (sifət) *oğlan* ***əlindəki*** (sifət) ***qırmızı*** (sifət) *oyuncağı* ***kiçik*** (sifət) *bacısına verməd*i. Nümunədən göründüyü kimi, sifətlər aid olduğu isimdən əvvəl işlənib və cümlənin təyinidir.

Azərbaycan dilində aid olduğu isimdən əvvəl işlənən və cümlənin təyini olan isimlər də var. Belə sözlər morfologiyaya görə yenə isim hesab edilir, adlıq halda olur, cümlədə isə təyin kimi çıxış edir. *Dəmir, qızıl, gümüş, şüşə, ipək, yun, dəri, taxta, kərpic, rezin* və s. belə sözlərdəndir. *Tələbə Kərim yun əlcəklərini dəri çantaya qoydu* nümunəsindəki *tələbə*, *yun*, *dəri* sözləri morfologiyaya görə isim, sintaksisə görə isə cümlənin təyinidir. Belə isimlərə sifətləşmiş isimlər deyilir.

Dilimizdə feili sifətlər də vardır. Həm feilin, həm də sifətin xüsusiyyətlərini daşıyan feili sifətlər *necə?*, *nə cür?*, *hansı?* suallarından birinə cavab olur. Feili sifətlər də aid olduğu isimdən əvvəl gəlir, onu təyin edir. Deməli, sifətlər, sifətləşmiş isimlər və feili sifətlər bir-birinə oxşayır. Bunları bir-birindən fərqləndirmək üçün hər birinin özünəməxsus xüsusiyyətinə diqqət yetirmək lazımdır.

Feili sifətlər sifətdən fərqli olaraq, xüsusi şəkilçi qəbul edir və bu şəkilçilər qrammatik şəkilçilərdir: *-dığım*^{4}*, -mış*^{4}*, -ası*^{2}*, -malı*^{2}*, -acaq*^{2} və s. Məsələn: *uçan quş, yazdığım məktub və s.*

Feili sifətlər *-ma*^{2} inkar şəkilçisi qəbul edir, sifətlər isə inkar şəkilçisi qəbul etmir:

qaçan at → feili sifət *qaçmayan at* → feili sifət *qaçağan at* → sifət

Sifətləşmiş isimlər ayrılıqda, yəni leksik və morfoloji baxımdan *kim?, nə?* sualını tələb edir, sifətlər isə ayrılıqda, yəni leksik və morfoloji baxımdan *kim?, nə?* sualını deyil, *necə? nə cür? hansı?* suallarını tələb edir.

gözəl → necə? (sifət) *maraqlı* → necə? (sifət) *evdəki* → hansı? (sifət)

gızıl (qızıl üzük) → nə? (isim) *müəllim* (müəllim Həsənov) → kim? (isim)

Test tapşırığının **B** bəndində verilən *Qoca əzgin halda içəri daxil oldu* cümləsində *qoca* və *əzgin* sözləri sifətdir. *Qoca* sözü isimləşərək ismin xüsusiyyətlərini daşısa da, morfoloji xarakteri olduğu kimi qalır. C bəndindəki cümlədə (*Kəndin mənzərəli yerində hündür bir bina tikilmişdir*) *mənzərəli* və *hündür* sözləri, D bəndindəki cümlədə isə (*Şiddətli külək dənizdə güclü fırtına qopardı*) *şiddətli* və *güclü* sözləri sifətdir. Nəhayət, E bəndindəki *Mağazada gördüyüm dəri çanta diqqətimi cəlb etdi* cümləsində *mağazada gördüyüm* və *dəri* ifadələri *çanta* sözünü təyin etsə də, birincisi feili birləşmə, ikincisi isimdir. Göründüyü kimi, yanlış olaraq tapşırığın **A** bəndini seçənlər say etibarilə çox olmuş, hətta doğru cavabı qeyd edənləri üstələmişlər. Bu bənddəki cümlədə (*C.Məmmədquluzadə həyati hadisələri qələmə alırmış*) *həyati* sözü *necə?* və ya *hansı?* suallarına cavab verən düzəltmə sifətdir. "*Hadisələri*" sözü isə təsirlik halında olan isimdir. Görünür, şagirdlər *həyati* və *hadisələri* sözlərindəki son şəkilçini fərqləndirə bilməyib, eyni şəkilçi hesab edib, yəni ismin təsirlik halının şəkilçisi kimi qəbul edib və bu cavaba üstünlük veriblər. **A** bəndindəki cümləni oxuyan şagird tələskənlik göstərərək, digər bəndlərə lazımi diqqət göstərməyib və yanlış seçim edib.

Doğru cavab: E

7-ci sinif

3.1.1. Mətndəki əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir.

20 may tarixli imtahan, XI sinif, A variantı, 7 saylı test tapşırığı

"*Gedin, kəndlilərə deyin ki, onlar daha mənə vergi verməyəcəklər*" (İ. Əfəndiyev) nümunəsində hansı köməkçi nitq hissələri işlənib?

1. qoşma 2. bağlayıcı 3. ədat 4. modal söz

A) 2, 3 B) 1, 3 C) 1, 4 D) 2, 4 E) 1, 2

Köməkçi nitq hissələrinə aid bu test tapşırığına şagirdlərin 30,67%-i doğru cavab verib, 0,3%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın şərtində verilən cümlə (*Gedin, kəndlilərə deyin ki, onlar daha mənə vergi verməyəcəklər*) mürəkkəb cümlədir. Cümlənin birinci komponentindəki *gedin* və *deyin* sözləri feil, *kəndlilərə* cəm və hal şəkilçisi qəbul etmiş isim, *ki* tabeli mürəkkəb cümlənin tərəflərini bağlayan bağlayıcıdır. İkinci komponentdəki *onlar* və *mənə* sözləri şəxs əvəzliyi, *daha* qüvvətləndirici ədat, *vergi* isim, *verməyəcəklər* feildir. Cümlədə leksik mənası olmayan yalnız iki söz – köməkçi nitq hissəsi (*ki* və *daha* sözləri) işlənmişdir ki, bunlar da bağlayıcı və ədatdır.

Doğru cavab: A

9-cu sinif

3.1.1. Mətndəki söz və ifadələrin kontekstə uyğun mənasını izah edir.

20 may tarixli imtahan, XI sinif, A variantı, mətnə aid 20 saylı test tapşırığı

"Bənövşə" əfsanəsi

Yamyaşıl çəməndə Bənövşə adlı bir çiçək bitirdi. Bir gün çəmənə səs düşdü ki, quşların ən göz əli hesab edilən Bülbül Bənövşəyə vurulub. Bütün güllər bu xəbərə *mat qaldı*[1]. Axı Bülbül Qızılgülün aşiqi idi.

Xəbər bütün laləzara yayıldı. Həmin vaxt Bənövşəni Qara kol da sevirdi. Bənövşə Qara kolu bəyənməyib ona *istehza edir*[2], öz gözəlliyi ilə fəxr edirdi:

– Sən laləzarın içində bitən bir alaq otusan. …… .

Söylədiyi Qara kolu sözlər məyus edirdi acı Bənövşənin. Bənövşə isə Qara kolun acığına Bülbülə daha çox maraq göstərirdi.

Kol bütün bunları *seyr edir*[3], qəlbən Bənövşəyə *ürəyi yanırdı*[4]. Bülbülün vəfasızlığına bələd olduğu üçün öz məhəbbətini qəlbində boğub bunun sonunu gözləməyə başladı.

Hər gün Bənövşə ilə Bülbül çəmənlikdə söhbətləşirdilər. Bir gün onlar yenə şirin söhbət edərkən qəfil güclü külək başladı. Külək getdikcə şiddətlənirdi. Bənövşə əldən düşmüşdü. Bunu görən Bülbül özünü çiçəklərin arasına salaraq küləkdən qorundu. Çəməndə tək qalan Bənövşə isə az qalırdı, kökündən qopsun. Külək Bənövşənin zərif ləçəklərini yolurdu. O, Bülbülü köməyə çağırdı:

– Bülbül, köməyimə yetiş!

1. Qara kolun Bənövşəyə *rəhmi gəldi*[5], tez özünü onun köməyinə çatdırdı. 2. Bənövşə *məyus oldu*[6] və son gücünü topladı. 3. Amma Bülbül onun harayına gəlmədi. 4. Bənövşə başını aşağı əyib Qara kolun köksünə sığındı. 5. O, həmişə başıaşağı Qara kolun yaxınlığında bitir və ona söykənir. 6. O vaxtdan Bənövşə xəcalətindən başını qaldırmır.

20. Mətndə çərçivədə verilmiş sözü kontekstə uyğun olaraq hansı sözlə əvəz etmək olar?

A) qısıldı B) bağlandı C) yaxıldı D) çəkildi E) yerləşdi

Mətnə aid olan bu tapşırığa şagirdlərin 27,03%-i doğru cavab verib, 0,88%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün mətni diqqətlə oxumaq lazımdır. Mətndəki həmin hissə belədir: *Qara kolun bənövşəyə rəhmi gəldi, tez özünü onun köməyinə çatdırdı... Bənövşə başını aşağı əyib Qara kolun köksünə sığındı.* Burada çərçivədə verilmiş *sığındı* sözünü *bağlandı, yıxıldı, çəkildi, yerləşdi* sözləri ilə əvəz etmək olmaz. *Sığındı* ilə *qısıldı* sözləri sinonimdir, cümlədə asanlıqla bir-birini əvəz edə bilər.

Leksik norma hər kəsdən sözün mənası və ya mənaları ilə yaxından tanış olmağı, sözü yerində, düzgün işlətməyi tələb edir. Əgər söz yerində işlənmirsə, onda fikir düzgün anlaşılmayacaq və nitq mədəniyyətinin tələbi, yəni leksik norma pozulacaq.

Doğru cavab: A

6-cı sinif

3.1.1. Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir.

20 may tarixli imtahan, IX sinif, A variantı, 3 saylı test tapşırığı

Hansı cümlədə əvəzlik cəm, mənsubiyyət və hal şəkliçisi qəbul etmişdir?

A) Siz bunları yaxşı tanımırsınız.

B) Bəziləri bu işdən xəbərsizdir.

C) Bizdə inam yaradan belələridir.

D) Onları haradan gətirmişsinizsə, oraya da aparın.

E) Elələrinə geniş meydan verilməlidir.

Mövzulararası əlaqə əsasında qurulmuş bu tapşırıqda həm əvəzliyi, həm də hal, cəm, mənsubiyyət şəkilçilərini bir-birindən ayırmaq, fərqləndirmək bacarığı tələb olunur.

Əvəzliyin başlıca xüsusiyyəti bütün əsas nitq hissələrini əvəz etməkdir. Əvəzlik əvəz etdiyi nitq hissələrinin xüsusiyyətlərini götürür və özünü o nitq hissəsi kimi aparır. Əvəzlik ismi əvəz edirsə, isimlər kimi cəmlənir, mənsubiyyətə görə dəyişir, hallanır, hətta xəbərlik şəkilçisi qəbul edir. Əvəzliyin beş məna növü var:

1. Şəxs əvəzliyi: *mən, sən, o, biz, siz, onlar.*
2. Qeyri-müəyyən əvəzliklər: *hamı, hərə, heç nə, heç kəs, hər nə, hər kəs, bəzisi.*
3. İşarə əvəzlikləri: *o, bu, elə, belə, həmin.*
4. Sual əvəzlikləri: *kim, nə, hara, nə edir?* və s.
5. Təyini əvəzliklər: *hər, öz, bütün, filan, bəzi.*

Elə, belə işarə əvəzlikləri bəzən ismin yerində işlənir (isimləşir) və ismin xüsusiyyətlərini daşıyır. Test tapşırığının **E** bəndində verilmiş *Elələrinə geniş meydan verilməlidir* cümləsində *Elə* sözü işarə əvəzliyidir, ismin xüsusiyyətlərini – ismə aid olan cəm, mənsubiyyət, hal şəkilçilərini qəbul etmişdir. Morfoloji cəhətdən isə əvəzlikdir.

Doğru cavab: E

6-cı sinif

4.1.2. Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir.

20 may tarixli imtahan, IX sinif, A variantı, mətnə aid 25 saylı test tapşırığı

Öküzləri əsəbiləşdirən qırmızı rəngin sirri

Korrida, yaxud öküz döyüşdürülməsi ispan milli tamaşasıdır. Bu, qədimdə Pireney yarımadasında öküzə sitayişlə əlaqədardır. Orta əsrlərdə korridada yalnız nizə ilə silahlanmış atlı senyorlar iştirak edirdilər. Peşəkar ifaçılardan ibarət müasir tamaşa kimi isə XVIII əsrin əvvəllərində formalaşıb. Öküz və kotan haqqında nəğmələr bolluq, bərəkətə işarədir. Bir sıra vilayətlərdə korridoya qadağa qoyulsa da, Portuqaliya, Cənubi Fransa və Latın Amerikası ölkələrində bu yarışlar təşkil olunur. Xüsusi geyimli matadorların və torreroların göstərdiyi bu təhlükəli tamaşalar bütün dünyada səs-küyə səbəb olur. Bəs bu görkəmli və bir o qədər də təhlükəli tamaşalarda öküzü əsəbləşdirən qırmızı rəngin sirri nədədir? Öküzlər axı qırmızı rəngə qarşı niyə bu qədər.....?

Əslində cavab çox sadədir – Öküzlər qırmızı rəngə heç də qıcıqlanmırlar, çünki onların rəngseçmə qabiliyyətləri yoxdur. Yəni bu inanc mifdən başqa bir şey deyil. Öküzləri bu döyüşlər zamanı ən çox əsəbiləşdirən şey isə məhz matadorların əllərində tutduqları obyektləri davamlı olaraq tərpətməsidir. **İstədiyiniz öküzlərin əşya bilərsiniz qarşısında tuta rəngdə.** Hərəkətsiz tutsanız, o bükülməyəcəkdir. Lakin onu əlinizdə dalğalandırmağınız öküzü qəzəbləndirəcək və o özünü müdafiəyə başlayacaq. Həmin an heyvan görə bilmədiyi bir şeylə *təhdid edildiyini* düşünür.

Korrida zamanı qırmızı rəngin istifadəsi tamamilə tamaşaçıların diqqətini cəlb etməyə hesablanmışdır. Öküzlər isə cuşa gəlmiş tamaşaçıların gurultularından və matadorların hərəkətlərindən daha da coşmağa başlayırlar.

25. Mətnin birinci abzasında hansı ifadə ilə başlayan cümlə mətnin məzmununa uyğun ***deyil***?

A) Peşəkar B) Xüsusi C) Orta əsrlərdə D) Öküz E) Bir sıra

Mətnə aid bu test tapşırığına şagirdlərin 20,82%-i doğru cavab verib, 5,55%-i cavab verməkdən imtina edib.

Test tapşırığı vasitəsilə diqqət, mətnin hissələri arasında əlaqənin müəyyənedilmə bacarığı yoxlanılır. Tapşırığın yerinə yetirilməsi üçün mətni diqqətlə oxumaq, məzmununu anlamaq lazımdır. Mətnin 1-ci abzasında yazılmış *Öküz və kotan haqqında nəğmələr bolluq, bərəkətə işarədir* cümləsinin mətnin məzmunu ilə heç bir əlaqəsi yoxdur.

Doğru cavab: D

Test tapşırıqlarının təhlilinə əsasən onu da demək olar ki, fənnin tədrisində mətnlərin məzmununun mənimsənilməsi, mətnin tərkib hissələrinin müəyyən edilməsi, fakt və məlumatlara əsasən planın tərtib edilməsi işi ilə bağlı hələ də bir çox problemlər mövcuddur. Buna görə də tapşırıqların düzgün yerinə yetirilməsi üçün dərsliklərdəki materialları öyrənməklə yanaşı, mənimsənilən biliklərin sistemləşdirilməsi, ümumiləşdirmələr aparılması lazımdır. Öyrənilmiş mövzulara, təqdim olunmuş mətnlərə məntiqi yanaşmaq, təhlil aparmaq, düzgün nəticə çıxarmaq çox vacibdir. Mətni və tapşırıqları yerinə yetirmək üçün şagirdlərdən diqqətli və məntiqli olmaq tələb olunur.

Azərbaycan bölməsində ***ədəbiyyat fənnindən*** III ixtisas qrupu üzrə qəbul imtahanında istifadə edilən test tapşırıqları fənn kurikulumuna görə 2 məzmun xətti (**"Ədəbiyyat və həyat həqiqətləri", "Yazılı nitq**) üzrə 3 əsas və 61 alt standartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Qəbul imtahanında aşağıdakı bilik və bacarıqların yoxlanılması, qiymətləndirilməsi nəzərdə tutulub:

1. Oxuduğu bədii nümunələri başa düşmək;
2. Bədii nümunələrin mövzu, süjet, kompozisiya, bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirmək;
3. Bədii nümunələri mövzu, janr, problem baxımından müqayisə etmək;
4. Bədii nümunələrin məzmununa və ideyasına yarandığı dövrün ictimai-siyasi və əxlaqi-etik dəyərləri kontekstində qiymət vermək;
5. Bədii nümunələrin məzmun və ideyası ilə bağlı fikirlərini əsaslandırmaq, tətbiq etmək.

Test tapşırıqları aşağıdakı bölmələri əhatə edib:

1. Şifahi xalq ədəbiyyatı
2. Qədim dövr ədəbiyyatı
3. Orta dövr ədəbiyyatı
4. Yeni dövr ədəbiyyatı
5. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü
6. Sovet dövrü Azərbaycan ədəbiyyatı
7. Azərbaycan ədəbiyyatında milli özünüdərkə qayıdış və istiqlalçılıq mərhələsi
8. Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı
9. Dünya ədəbiyyatı
10. Ədəbiyyat nəzəriyyəsi
11. Mövzulararası əlaqə.

İmtahan nəticələrinin statistik göstəricilərinin təhlili göstərir ki, 5-11-ci siniflərdə tədris olunan bədii əsərlərin, yaxud bədii parçaların mənimsənilməsində müəyyən qədər irəliləyiş var. Belə ki, 14 iyul tarixli imtahanda "Kitabi-Dədə Qorqud" eposunun "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"un məzmunu ilə bağlı test tapşırığında (A variantı 74 saylı) nəticələr yüksək olmuşdur (70,87%). Eyni fikri M.Füzulinin "Leyli və Məcnun" poeması ilə bağlı test tapşırığına (A variantı 65 saylı) da aid etmək olar. Həmin test tapşırığına 80,72% abituriyent doğru cavab verib. Eləcə də H.Cavidin "İblis" faciəsində hadisələrin başvermə ardıcıllığının müəyyənləşdirilməsinə aid test tapşırığında (A variantı 77 saylı) da həmin vəziyyət müşahidə edilir (47,0%). M.İbrahimovun "Gələcək gün" əsərinə və İ.Şıxlının "Namərd gülləsi" hekayəsinə əsasən səbəb-nəticə əlaqəsinin müəyyənləşdirilməsinə aid test tapşırıqlarında (A variantı 62 və 68 saylı) abituriyentlərin göstərdiyi nəticələr qənaətbəxş olmuşdur. Həmin test tapşırıqlarına abituriyentlərin cavablarının faiz göstəriciləri müvafiq olaraq belə olmuşdur: 57,88% və 67,56%. 14 iyul tarixli imtahanda aşıq yaradıcılığı, E. Heminqueyin "Qoca və dəniz", Ə.Cavadın "Səsli qız" əsərləri ilə bağlı ümumiləşdirmə səciyyəli test tapşırığının cavablandırılmasında da eyni vəziyyət müşahidə edilir (A variantı 71, 83 və 85 saylı). Abituriyentlərin test tapşırıqlarına verdiyi düzgün cavabların faiz göstəriciləri belə olub: 67,20%; 58,37% və 62,64%. Eyni fikirləri M.P.Vaqifin "Pəri" və "Hayıf ki, yoxdur" qoşmaları, "Koroğlu" eposunun müxtəlif qolları ilə bağlı test tapşırıqlarına (A variantı 78 və 80 saylı) da şamil etmək olar (65,64% və 70,27%). R.Rzanın "Qızılgül olmayaydı", Anarın "Keçən ilin son gecəsi", N.Gəncəvinin "İskəndərnamə", C.Cabbarlının "Oqtay Eloğlu" və M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" əsərləri ilə bağlı test tapşırıqlarına (A variantı 61, 73, 75, 81 və 82 saylı) abituriyentlər tərəfindən verilən düzgün cavablar göstərir ki, builki imtahanda müxtəlif siniflərdə tədris edilən əsərlərdə obrazların səciyyələndirilməsində də müəyyən irəliləyişlər hiss olunmaqdadır. Abituriyentlərin həmin test tapşırıqlarına verdiyi düzgün cavabların faiz göstəriciləri belə olub: 71,04%, 54,85%; 77,35%, 67,35%, 81,25%.

Əvvəlki illərlə müqayisədə ədəbiyyat nəzəriyyəsinə aid bədii təsvir vasitələrinin müəyyənləşdirilməsi ilə bağlı test tapşırıqlarında (A variantı 69 və 76 saylı) müəyyən irəliləyişlər özünü göstərir (76,67% və 57,62%).

Təhlil onu da göstərir ki, bəzi ədəbi nümunələrə aid test tapşırıqlarının cavablandırılmasında abituriyentlər çətinlik çəkiblər. Məsələn, M.Şəhriyarın "Türkün dili" şeiri, Mir Cəlalın "Açıq kitab" romanı ilə bağlı test tapşırıqlarında (A variantı 70 və 84 saylı) nisbətən aşağı nəticələr müşahidə olunur: 46,34% və 41,46%. Keçən il olduğu kimi, bu il də abituriyentlər N.Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi ilə bağlı test tapşırığına (A variantı 72 saylı) doğru cavabın müəyyənləşdirilməsində zəif nəticə göstərmişlər: 31,07%. Eləcə də S.Ə.Şirvaninin "Guş qıl..." müxəmməsi (A variantı 66 saylı), M.Ə.Sabirin "Əkinçi" satirası (A

variantı 86 saylı) ilə bağlı test tapşırıqlarında abituriyentlərin göstərdiyi nəticələr aşağı səviyyədə olmuşdur (müvafiq olaraq: 35,10% və 16,06%). Eyni fikri R.Rzanın "Çinar ömrü" şeiri və İ.Krılovun "Ağac" təmsilinin müqayisəsi ilə bağlı istifadə edilmiş test tapşırığına (A variantı 67 saylı) da aid etmək olar: 25,21%.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahları təqdim olunur.

10-cu sinif

1.1.4. Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir.

14 iyul tarixli imtahan, A variantı, 66 saylı test tapşırığı

"Guş qıl..." (S.Ə. Şirvani) əsərinə aid ***yanlış*** fikri müəyyən edin.

A) Davudun təsirli səsinin canlılara da, cansızlara da təsir etdiyini bildirməklə musiqinin qüdrəti vurğulanır.

B) Şair insanları neyin səsindən, tarın nəğməsindən agah olmağa çağırır.

C) Tarı qadağan olunmuş alət adlandırmaq böhtan hesab edilir.

D) Musiqinin sirlərinə bələd olmaq üçün qəflət pambığının qulaqdan çıxarılmasının vacibliyi bildirilir.

E) Müəllif öz fikrini sübut etmək üçün dini şəxsiyyətlərin adını çəkir.

10-cu sinifdə tədris olunan S.Ə. Şirvaninin "Guş qıl..." müxəmməsi ilə bağlı bu test tapşırığına abituriyentlərin 35,10%-i doğru cavab verib, 17,23%-i isə cavab verməkdən imtina edib.

Ədəbiyyat fənninin tədrisi zamanı ən çox diqqət yetirilən mövzulardan biri də bədii əsərlərdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərlərin müəyyənləşdirilməsi ilə bağlıdır. "Guş qıl..." müxəmməsi özünün ictimai məzmunu ilə seçilir.

Tapşırığın yerinə yetirilməsi üçün insanları musiqidən zövq almağa səsləyən müxəmməsin məzmununa dərindən bələd olmaq tələb edilir. Əsərin məzmunundan məlumdur ki, şair bu müxəmməsdə insanları neyin səsindən, tarın nəğməsindən agah olmağa çağırır (B bəndi) və tarı qadağan olunmuş alət adlandırmağı böhtan hesab edir (C bəndi). Eləcə də müəllif müxəmməsin ikinci bəndinin son iki misrasında musiqinin sirlərinə bələd olmaq üçün qəflət pambığının qulaqdan çıxarılmasının vacib olduğunu bildirir (D bəndi). Şair öz fikirlərini əsaslandırmaq üçün yeri gəldikcə dini şəxsiyyətlərə də müraciət edir, İsa və Davud kimi peyğəmbərlərin adlarını çəkir (E bəndi). A bəndindəki "*Davudun təsirli səsinin canlılara da, cansızlara da təsir etdiyini bildirməklə musiqinin qüdrəti vurğulanır*" fikri isə yanlışdır, çünki müxəmməsin bir misrasında belə fikir verilir: *"Ləhni-Davud eləməz növi-camadatə əsər"*, yəni Davudun səsi cansızlara təsir eləməz.

Doğru cavab: A.

14 iyul tarixli imtahan, A variantı, 67 saylı test tapşırığı

8-ci sinif

2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini müqayisələr aparmaqla şərh edir.

10-cu sinif

1.2.1. Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr, dil baxımından müqayisə edir.

Eyler-Venn diaqramına əsasən düzgün fikirləri müəyyən edin.



A) 2, 3, 5 B) 1, 2, 4 C) 1, 4, 5 D) 1, 3, 5 E) 2, 3, 4

Test tapşırığı mövzulararası əlaqə bölməsinə aiddir. 6-cı və 9-cu siniflərdə tədris olunan İ.Krılovun "Ağac" təmsili və R. Rzanını "Çinar ömrü" şeiri ilə bağlı bu tapşırığa abituriyentlərin 25,21%-i doğru cavab verib, 17,47%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün hər iki əsərin məzmununu dərindən bilmək tələb olunur. Məlumdur ki, 6-cı sinifdə tədris olunan "Ağac" əsəri aid olduğu təmsil janrına məxsus xüsusiyyətləri ilə seçilir. Eləcə də 9-cu sinifdə tədris olunan "Çinar ömrü" şeiri həm sərbəst şeirdə yazılması, həm də ifadə etdiyi rəmzi-simvolik mənasına görə diqqəti cəlb edir. Test tapşırığında hər iki əsərə kompleks şəkildə yanaşılır, Eyler-Venn diaqramının tələbləri əsasında düzgün fikirləri müəyyənləşdirmək tələb olunur. Məlumdur ki, diaqramın 1-ci xanasında R. Rzanın "Çinar ömrü" şeiri ilə bağlı verilən hər iki fikir (1. "Misralar həm dalbadal, həm də çarpaz qafiyələnir"; 2. "Lirik növdədir") doğrudur. Eləcə də diaqramın 3-cü xanasında İ.Krılovun "Ağac" əsəri ilə bağlı verilən "Bədii gülüşdən istifadə edilmişdir" fikri də təmsil janrına məxsus əsas xüsusiyyətlərdən biri olduğu üçün doğrudur. 3-cü bənddə verilən "Həyatı əksetdirmə üsulu kimi təhkiyədən istifadə olunmuşdur" fikri yalnız "Ağac" təmsilinə aid olduğu üçün onun hər iki əsər üçün ortaq cəhət kimi verilməsi yanlışdır. 5-ci bənddəki "Obrazın simvollaşdırılmasına müraciət edilmişdir" fikrinin isə yalnız "Ağac" təmsilinə aid edilməsi də Eyler-Venn diaqramın tələbinə görə özünü doğrultmur.

Doğru cavab: B.

14 iyul tarixli imtahan, A variantı, 86 saylı test tapşırığı

10-cu sinif

1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri baxımından təhlil edir və nəticə çıxarır.

M.Ə.Sabirin "Əkinçi" şeiri ilə bağlı doğru fikirləri müəyyən edin.

1. Mülkədar obrazının daxili aləmi, əkinçiyə münasibəti onun öz dili ilə açılır.
2. Əkinçi öz hüququnu müdafiəyə qalxdığı üçün mülkədarın hiddətinə tuş gəlir.
3. Mülkədarla əkinçinin dialoqundan əkinçinin yalvarışlarına heç bir məhəl qoyulmadığı aydın olur.
4. Əkinçinin təbii fəlakətlərlə bağlı düşdüyü çətinlik onun dili ilə mülkədara çatdırılır.
5. Mülkədarın danışığından kəndlini insan yerinə belə qoymadığı məlum olur.

8-ci sinifdə tədris olunan M.Ə. Sabirin "Əkinçi" satirası ilə bağlı bu tapşırığa abituriyentlərin 16,06%-i doğru cavab verib, 72,96%-i səhv cavablandırıb, 10,98%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün "Əkinçi" şeirinin məzmununa yaxşı bələd olmaq lazımdır. M.Ə.Sabirin "Əkinçi" satirası ilə bağlı verilən 1-ci (Mülkədar obrazının daxili aləmi, əkinçiyə münasibəti onun öz dili ilə açılır) və 5-ci (Mülkədarın danışığından kəndlini insan yerinə belə qoymadığı məlum olur) fikirlər doğrudur, çünki müəllif bu satirasını tipi öz dilində danışdırmaq (satirik monoloq), özünüifşa üsulunda yazmışdır. Bu baxımdan, yuxarıda qeyd edilənlər mənfi tipin öz dili ilə özünü ifşası fikrinin təsdiqi kimi özünü doğruldur. 2-ci bənddəki "Əkinçi öz hüququnu müdafiəyə qalxdığı üçün mülkədarın hiddətinə tuş gəlir" fikri yanlışdır, çünki əkinçi öz hüququnu müdafiə etmir, əksinə, mülkədarın qapısında boynunu büküb dayanır. Eləcə də həm 3-cü bənddəki "Mülkədarla əkinçinin dialoqundan əkinçinin yalvarışlarına heç bir məhəl qoyulmadığı aydın olur", həm də 4-cü bənddəki "Əkinçinin təbii fəlakətlərlə bağlı düşdüyü çətinlik onun dili ilə mülkədara çatdırılır" fikirləri də satiraya bələd olan hər bir kəs üçün özünü doğrulda bilməz, çünki öncə qeyd edildiyi kimi, əsər satirik monoloq şəklində qələmə alındığından əkinçinin nitqinə yer verilməmişdir. Odur ki, bu satirada mülkədarla əkinçinin dialoqundan söhbət gedə bilməz.

Doğru cavab: 1, 5.

Təhlil göstərir ki, əvvəlki illərlə müqayisədə demək olar ki, builki imtahanda abituriyentlər mətn tapşırıqları üzrə nisbətən yaxşı nəticələr göstərmişlər. Lakin bununla belə, digər tapşırıqlarda olduğu kimi, mətn tapşırıqlarının cavablandırılmasında da abituriyentlərin göstərdiyi nəticələr fərqli olmuşdur. Məsələn, 14 iyul tarixli imtahanda abituriyentlərin göstərdiyi nəticələr A variantı 88, 89 və 90 saylı test tapşırıqları üzrə müvafiq olaraq, 28,28%; 45,60% və 44,40% təşkil etmişdir.

14 iyun tarixli imtahan, A variantı mətn üzrə 88-90 saylı tapşırıqlar

Fırtına quşu

Gecədən xeyli keçmişdi. Şəhərin gündüzkü səs-küyü kəsilmiş, xoş sükut hər tərəfi bürümüşdü. *Tehran yatırdı*[1]. Bağlı-bağatlı məhəllələrin dəbdəbəli ağ imarətlərində yatanların yuxusu şirin idi.

Şəhərin aşağı məhəllələrində darısqal palçıq evlər bir-birinin böyrünə qısılmışdı[2]. Şimaldan axıb gələn sərin payız havası yalnız geniş küçələrə deyil, zirzəmilərə, dar dalanlara, evlərə də dolurdu. Ancaq səhərin

gözü çırtlayandan gün batana qədər qatır kimi işləmiş, min bir əziyyətlə həyat burulğanında çalışıb-çapalamış yoxsullar – ehtiyac əsirləri belə gecələrdə də yata bilmirdilər. Yuxuları min təlaşla dolu olurdu.

Stolüstü fənərin işığında nə isə oxuyan, bəzən də qarşısındakı vərəqləri qaralayan Xosrov Ruzbeh yatmır, bu adamlar və onların ağır taleyi haqqında düşünürdü[3]. İnsanların ehtiyacları, ümidsiz gələcəyi təbiətən meşşan həyat tərzinə, bər-bəzəkli saraylara yad olan Xosrova rahatlıq vermirdi: "Necə də ağır faciədir. Güclünün gücsüzə ağalıq etmək həvəsi insanların iliyinə işləmişdir".

(M.İbrahimov. "Fırtına quşu" əsərindən)

88. Əsərdən verilmiş parça əsasında cədvəli tamamlayın.

Tehran həyatındakı ziddiyyətlər	
Bir tərəfdən …	Digər tərəfdən …
1.	1.
2.	2.

Ehtimal olunan doğru cavablar:

Tehran həyatındakı ziddiyyətlər	
Bir tərəfdən …	Digər tərəfdən …
1. Əhali ehtiyac içindədir.	1. Dəbdəbəli həyat keçirənlər var.
2. Kasıb daxmalar var.	2. Böyük imarətlər var.
3. Varlılar şirin yuxudadır.	3. Kasıbların yuxusu ərşə çəkilib.
4. Güclülər var.	4. Gücsüzlər var.
5. Geniş küçələr.	5. Dar dalanlar.
6. Ağır həyat.	6. Dəbdəbəli həyat (meşşan həyat tərzi)
7. Darısqal, palçıq evlərdə yaşayanlar	7. Dəbdəbəli imarətlərdə yaşayanlar.
8. Gündüzkü səs-küylü həyat.	8. Gecəki xoş sükut.
9. Kasıbların yuxusu ərşə çəkilir.	9. Gecəki sakit sükut.
10. İnsanların gecə-gündüz işləməyi.	10. Ehtiyaca əsir olmaları, ümidsiz gələcəkləri.
11. Sərin hava dar dalanlara dolur.	11. Kasıblar yata bilmir.

Bal şkalası	**Meyarlar**
1 bal	A. Tələb olunan hər iki ziddiyyətli fikir yazılır, yanlış fikir ***yazılmır;*** B. Tələb olunan hər iki ziddiyyətli fikir yazılmaqla yanaşı, xanalardan hər hansı birinə ziddiyyətli fikrin bir hissəsi yazılır (Məsələn, "*kasıb daxmalar var*" yazılır, "*böyük imarətlər var*" qarşılığı ***yazılmır***);
$\frac{1}{2}$ bal	C. Tələb olunan hər iki ziddiyyətli fikir yazılsa da, xanalardan hər hansı birinə 1 ***yanlış*** fikir də yazılır; D. Tələb olunan iki ziddiyyətli fikirdən hər hansı biri doğru yazılır, yanlış fikir ***yazılmır***; E. Tələb olunan iki ziddiyyətli fikirdən hər hansı biri (geniş küçələr-dar dalanlar) doğru yazılsa da, digər ziddiyyətli fikir ***yanlış*** yazılır;
0 bal	F. Cədvəlin boş xanalarından birinə doğru fikir və ya fikirlər yazılır, digər xana ***yazılmır*** və ya ***yanlış*** yazılır; G. Tələb olunan iki ziddiyyətli fikirdən biri (ağır həyat-dəbdəbəli həyat) doğru yazılmaqla yanaşı, iki ***yanlış*** ziddiyyətli fikir yazılır; H. Tələb olunan hər iki ziddiyyətli fikir ***yanlış*** yazılır; I. Digər bütün hallarda.

Qeyd: "*Tehran yatırdı*" fikri yanlışdır (varlı və kasıbların yuxusundakı ziddiyyət vurğulanmalıdır).

Tapşırıq vasitəsilə 7*_1.2.4. (Bədii nümunələrin mövzusunu, ideyasını və başlıca problemini şərh edir, əsaslandırılmış münasibət bildirir)* alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Tapşırığın tələbinə görə, mətnə əsasən Tehran həyatındakı ziddiyyətləri müəyyən etmək və həmin ziddiyətləri cədvəldə verilmiş rəqəmlərin qarşısında yazmaq tələb olunur. Məsələn, 1-ci xanada bu fikirlər yazıla bilər: *1. Əhali ehtiyac içindədir; 2. Kasıb daxmalar var; 3. Varlılar şirin yuxudadır; 4. Güclülər var; 5. Səhərin gözü çırtlayandan gün batana qədər qatır kimi işləyən yoxsullar var* və s.

2-ci xanada isə bu fikirlər yazıla bilər: *1. Dəbdəbəli həyat keçirənlər var; 2. Böyük imarətlər var; 3. Kasıbların yuxusu ərşə çəkilib; 4. Gücsüzlər var; 5. Dəbdəbəli imarətlərdə yaşayanlar var* və s.

Abituriyentlərin 28,28%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 29,75%-i $\frac{1}{2}$ balla, 19,51%-i 0 balla qiymətləndirilib, 22,46%-i isə cavab verməkdən imtina edib.

89. Üzərində rəqəm yazılmış cümlələrdə hansı bədii təsvir vasitələrinin işləndiyini müəyyən edin.

Ehtimal olunan doğru cavablar:

Tehran yatırdı – **metonimiya**

Şəhərin aşağı məhəllələrində darısqal palçıq evlər bir-birinin böyrünə qısılmışdı – ***metafor***

Stolüstü fənərin işığında nə isə oxuyan, bəzən də qarşısındakı vərəqləri qaralayan Xosrov Ruzbeh yatmır, bu adamlar və onların ağır taleyi haqqında düşünürdü – "ağır" sözü **epitet**

1. metonimiya
2. metafor
3. epitet

Bal şkalası	**Meyarlar**
1 bal	A. Tələb olunan bədii təsvir vasitələrindən hər biri doğru yazılır, yanlış fikir ***yazılmır;***
$\frac{2}{3}$ bal	B. Tələb olunan bədii təsvir vasitələrindən hər biri doğru yazılsa da, 1 ***yanlış*** fikir də yazılır; C. Tələb olunan bədii təsvir vasitələrindən yalnız 2-si yazılır, digəri ***yazılmır***;
$\frac{1}{3}$ bal	D.Tələb olunan bədii təsvir vasitələrindən 2-si doğru yazılsa da, 1-i ***yanlış*** yazılır; E. Tələb olunan bədii təsvir vasitələrindən yalnız 1-i yazılır, digərləri ***yazılmır***;
0 bal	F. Tələb olunan bədii təsvir vasitələrindən 1-i doğru yazılsa da, digərləri ***yanlış*** yazılır; G. Tələb olunan bədii təsvir vasitələrinin hər biri ***yanlış*** yazılır; H. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə 11_*1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjetli və kompozisiyalı ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə (təşbeh), metafora, metonimiya, sinekdoxa, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, kinayə (sarkazm), inversiya) müəyyənləşdirir* alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Üzərində 1 rəqəmi yazılmış cümlədə (*Tehran yatırdı*) metonimiya, 2 rəqəmi yazılmış cümlədə (*Şəhərin aşağı məhəllələrində darısqal palçıq evlər bir-birinin böyrünə qısılmışdı*) *metafor,* 3 rəqəmi yazılmış cümlədə isə (*Stolüstü fənərin işığında nə isə oxuyan, bəzən də qarşısındakı vərəqləri qaralayan Xosrov Ruzbeh yatmır, bu adamlar və onların ağır taleyi haqqında düşünürdü)* epitet (*"ağır"* sözü ilə) işlənmişdir.

Abituriyentlərin 45,60%-i tapşırığa tam şəkildə cavab verib, 6,25%-i 3,2 balla, 9,94%-i 3,1 balla, 22,12%-i 0 balla qiymətləndirilib, 16,10% isə cavab verməkdən imtina edib.

90. "Fırtına quşu" və "Raport" əsərlərindən parçalar əsasında cədvəli doldurun.

Mən nəfəsləri benzin və kükürd qoxulu yoxsulların şairiyəm. Düşməniyəm onların – Divanları məxmər və ipək döşəməli salonların ...

(S. Vurğun. "Raport" əsərindən)

Əsərlərin məzmun oxşarlığı	***Əsərlərin forma fərqi***
	"Fırtına quşu":
	"Raport":

Ehtimal olunan doğru cavablar:

Əsərlərin məzmun oxşarlığı	***Əsərlərin forma fərqi***
Hər iki əsərin qəhrəmanını yoxsulların taleyi düşündürür. *Hər ikisində qəhrəman dəbdəbəli həyat tərzinə düşməndir.* *Müəllif mövqeyi yoxsulların tərəfindədir.* *Cəmiyyətdə təbəqələşmənin olduğu vurğulanır.*	"Fırtına quşu": *Təhkiyə əsasında yazılıb.* *Nəsrlə yazılıb.* *Təsvirdən istifadə edilib.* *Epik növdədir.* *Süjet əlamətləri var.* *Süjetli əsərdəndir.* *Metafor var.*
	"Raport": *Nəzmlə yazılıb.* *Lirik növdədir.* *Tərənnümə əsaslanır.* *Ahəng var.* *Sərbəst şeirdir.* *Misrada hecaların sayı fərqlidir.* *Misraların daxili bölgüsü fərqlidir.* *Dəqiq ölçüsü yoxdur.* *İnversiya var.* *Şeir vahidi misradır.*

Bal şkalası	**Meyarlar**
1 bal	A. Cədvəlin hər üç xanasına doğru fikir yazılır, yanlış fikir ***yazılmır;***
$\frac{1}{2}$ bal	B. Cədvəlin iki xanasına doğru, 1 xanasına isə ***yanlış*** fikir yazılır; C. Cədvəlin yalnız 2 xanasına doğru fikir yazılır, digər xanasına isə heç nə ***yazılmır;*** D. Cədvəlin hər bir xanasına ən azı 2 doğru fikir yazılmaqla yanaşı, xananın hər birinə 1 ***yanlış*** fikir də yazılır; E. Cədvəlin 2 xanasına ən azı 2 doğru fikir yazılmaqla yanaşı, həmin xanalara 1 ***yanlış*** fikir də yazılır (digər xana doğru yazılır və ya ***yazılmır***);
0 bal	F. Cədvəlin hər bir xanasına 1 doğru fikir yazılmaqla yanaşı, xananın hər birinə 1 ***yanlış*** fikir də yazılır; G. Cədvəlin 2 xanasına 1 doğru fikir yazılmaqla yanaşı, həmin xanalara 1 ***yanlış*** fikir də yazılır (digər xana doğru yazılır və ya ***yazılmır***); H. Cədvəlin yalnız 1 xanasına doğru fikir yazılır, digər xanalara heç nə ***yazılmır;*** I. Cədvəlin 1 xanasına doğru, digər xanalarına isə ***yanlış*** fikir yazılır; J. Digər bütün hallarda.

Qeyd 1: Metonimiya, epitet hər iki nümunədə olduğu üçün fərqli xüsusiyyət kimi götürülə bilməz.

Qeyd 2: "Cümlələr şəklindədir" fikrinə neytral (nə səhv, nə doğru) yanaşılır.

Qeyd 3: Hər hansı bir xanada 1 doğru fikirlə yanaşı, 1 yanlış fikir yazılarsa, həmin xana yanlış hesab olunur.

Tapşırıq vasitəsilə 11_3.1.2. *Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır* və 1.2.1. *Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli əsərləri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) kompozisiya, dil, üslub baxımından təhlil edir* alt standartlarının tələbi üzrə bilik və bacarıqlar yoxlanılır.

Tapşırıqda əsərlərin məzmun oxşarlığını və forma fərqini müəyyənləşdirmək tələb olunur. Təqdim olunmuş cədvəlin 1-ci xanasında hər iki əsərin məzmun oxşarlığı ilə bağlı bu fikirlər yazıla bilər: *Hər iki əsərin qəhrəmanını yoxsulların taleyi düşündürür; Hər ikisində qəhrəman dəbdəbəli həyat tərzinə düşməndir; Müəllif mövqeyi yoxsulların tərəfindədir; Cəmiyyətdə təbəqələşmənin olduğu vurğulanır* və s.

2-ci xanada isə əsərlərin forma fərqi ilə bağlı bu fikirlər yazıla bilər: “Fırtına quşu” əsəri üçün: *Təhkiyə əsasında yazılıb; Nəsrlə yazılıb; Təsvirdən istifadə edilib; Epik növdədir; Süjet əlamətləri var; Süjetli əsərdəndir.* “Raport” əsəri üçün: *Nəzmlə yazılıb; Lirik növdədir; Tərənnümə əsaslanır; Ahəng var; Sərbəst şeirdir və s. Misrada hecaların sayı fərqlidir; Misraların daxili bölgüsü fərqlidir; Dəqiq ölçüsü yoxdur; İnversiya var; Şeir vahidi misradır və s.*

Abituriyentlərin 44,40%-i tapşırığa tam şəkildə cavab verib, 15,59%-i yarım balla, 17,72%-i 0 balla qiymətləndirilib, 22,29%-i isə cavab verməkdən imtina edib.

Təhlilə əsasən demək olar ki, ümumtəhsil məktəblərində ədəbiyyat fənninin tədrisi ilə bağlı bir sıra problemlər hələ də qalmaqdadır. Bu daha çox aşağı siniflərdə tədris olunan əsərlərlə bağlıdır. Deyilənlər yuxarı siniflərdə ayrı-ayrı ədəbi mətnlərin düzgün qavranılması və təhlilinə aid olan test tapşırıqlarının cavablandırılmasında da özünü göstərir. Ümumtəhsil müəssisələrində 5-11-ci siniflərdə fənnin tədrisinə diqqətin artırılması tövsiyə olunur.

Экзаменационный тестовый блок ***по русскому языку*** составляется на основе предметного Куррикулума, включающего в себя 4 содержательные линии **(“Аудирование и говорение”, “Чтение”, “Письмо”, “Языковые правила”).**

На экзаменах были использованы тестовые задания, охватывающие следующие разделы: “Фонетика и орфоэпия”, “Лексика и фразеология”, “Морфемика и словообразование”, “Морфология”, “Синтаксис”, “Орфография”, “Пунктуация”, “Культура речи” и сопоставительные задания. Они рассчитаны на выявление следующих навыков и умений:

1.	производить анализ звукового состава слова, дифференцировать звуки речи русского языка, произносить слова в соответствии с орфоэпическими нормами.
2.	анализировать слова с точки зрения их лексического значения и определять значение фразеологизмов.
3.	обладать прочными орфографическими навыками.
4.	производить морфемный анализ слова, соотносить предъявленную схему со словом, определять основные способы образования слов.
5.	дифференцировать части речи русского языка, определять принадлежность слова к определённой части речи.
6.	производить пунктуационный анализ предложения.
7.	производить синтаксический анализ простого, простого осложнённого и сложного предложений.
8.	находить пунктуационные, орфографические, речевые ошибки.

Для III группы специальностей были представлены тестовые задания различной степени сложности, которые позволили определить уровень знаний и подготовки учащихся.

Тестовой блок по русскому языку представлял собой комплект из 30 заданий. Из них 22 задания – закрытого типа, 5 заданий – открытого типа (4 задания на выбор и 1 – на установление соответствия), требующие кодирования ответа.Остальные 3 задания открытого типа – это задания на основе текста требующие ответ в письменном виде и оцениваемые маркерами, согласно критериям.

Статистический анализ показал, что абитуриенты успешно справились с заданиями теоретического характера, то есть достаточно хорошо усвоили правила по фонетике, лексикологии, морфологии, синтаксису, орфографии, пунктуации, тогда как допустили ошибки при выборе верных ответов на задания практического характера, связанные с расстановкой знаков препинания в простом и сложном предложениях, с правописанием слов различных частей речи, с определением типов

предложений и т.д. Однако наиболее трудными для абитуриентов оказались тестовые задания по таким темам, как “Состав слова”, “Разряды прилагательных”, “Краткие прилагательные”, “Глагол и глагольные формы”, “Наречие”, “Употребление производных предлогов”, “Правописание частицы ни”, “Главные члены предложения”, “Типы сказуемых”, “Сложное предложение”, “Пунктуация в сложном предложении”.

Ниже даётся анализ ряда тестовых заданий, которые вызвали у абитуриентов большие затруднения.

Экзамен 14 августа, III группа, вариант A, тестовое задание № 6.
7 класс
4.1.2. Различает слова по их общему грамматическому значению.
Укажите количество глаголов, от которых можно образовать 2 формы причастий:
указать, орошать, подхватить, сложить, рассказывать, обещать.
A) 4 B) 5 C) 1 D) 2 E) 3

Это тестовое задание относится к теме “Причастие как особая форма глагола”. На это задание ответили верно 34,72% абитуриентов, а 30,83% отказались отвечать.

Причастия образуются от глаголов. Все четыре формы причастий образуются от глаголов *читать, видеть, слышать,носить, рисовать* и от двувидовых переходных глаголов. Три формы образуются от переходных глаголов несовершенного вида, две формы – от переходных глаголов совершенного и непереходных глаголов несовершенного вида. Одна форма – от непереходных глаголов совершенного вида. Чтобы выяснить, сколько форм причастий можно образовать от данных глаголов, нужно определить вид и переходность каждого из них.

Указать (что сделать? *кого? что?*) – глагол совершенного вида, переходный – имеет две формы (*указавший, указанный*).

Орошать (что делать? *кого? что?*) – глагол несовершенного вида, переходный – имеет три формы *(орошающий, орошавший, орошаемый*).

Подхватить (что сделать? *кого? что?*) – глагол совершенного вида, переходный – имеет две формы *(подхвативший, подхваченный*).

Сложить (что сделать? *кого? что?*) - глагол совершенного вида, переходный - имеет две формы (*сложивший, сложенный).*

Рассказывать (что делать? *кого? что?*) – глагол несовершенного вида, переходный – имеет три формы (*рассказывающий, рассказывавший, рассказываемый*).

Обещать – двувидовой переходный глагол, имеет четыре формы (*обещающий, обещавший, обещаемый, обещанный*).

Верный ответ: E.

Экзамен 14 августа, III группа, вариант A, тестовое задание № 23.
7 класс
*4.1.2. Различает слова по их общему грамматическому значению***.**
Краткую форму имеют:
1. дремучий 2. мраморный 3. кислый
4. радостный 5. драматический 6. свинцовый

Это задание открытого типа, проверяет знания и способности абитуриентов по темам “Разряды имён прилагательных”, “Полные и краткие формы прилагательных”. На это задание 19,43% абитуриентов ответили верно, 5,44% отказались отвечать, а 75,3% выбрали неверный вариант.

Имена прилагательные по значению делятся на три разряда: качественные, относительные, притяжательные.

Качественные прилагательные могут обозначать признак предмета по форме, цвету, размеру, весу, запаху, свойству и т.д. Они имеют краткую форму и степени сравнения. Относительные прилагательные обозначают признак предмета по материалу, количеству, времени, месту, назначению, действию. Они не имеют ни краткой формы, ни степеней сравнения. Притяжательные прилагательные обозначают принадлежность предмета лицу или животному.

Прилагательные *дремучий, кислый, радостный* – качественные. От них можно образовать краткую форму – *дремуч*, *кисел, радостен.* Прилагательные *мраморный, драматический, свинцовый* – относительные, они не имеют краткой формы.

Верный ответ: 1, 3, 4.

Экзамен 14 августа, III группа, вариант А, тестовое задание № 24.
10 класс

4.1.2. Соблюдает лексико-семантические и грамматические нормы языка.

Укажите наречия.

1. *вблизи* дороги 2. *по-прежнему* яркий 3. уходящий *в глубь* леса
4. *написано* автором 5. *испуганно* воскликнуть

Это сопоставительное тестовое задание открытого типа. Проверяет знания и способности абитуриентов по таким темам, как “Употребление производных предлогов”, “Наречие”, “Отличие предлогов от слов других частей речи”. На это задание верно ответили 32,64% абитуриентов, а 60,62% выбрали неверный ответ, 6,74% отказались отвечать.

Наречие обозначает признак действия, предмета или другого признака, не изменяется, не имеет окончания, относится к глаголу, деепричастию, существительному, прилагательному, наречию. Наречия имеют следующие разряды: образа действия, меры и степени, причины, цели, места, времени.

Предлог выражает зависимость одного слова от другого в словосочетании и предложении и служит для образования грамматической формы слова – падежа. Предлог употребляется с существительным или местоимением в косвенном падеже. Производные предлоги, образованные от других частей речи, имеют омонимичную пару в самостоятельной части речи. Рассмотрим данные сочетания.

Вблизи дороги – предлог (вблизи чего?– Р.п.); ***по-прежнему*** яркий – наречие, относится к прилагательному; уходящий ***в глубь*** леса – непроизводный предлог с существительным; ***написано*** автором – краткое страдательное причастие среднего рода; ***испуганно*** воскликнуть – наречие образа действия, относится к глаголу.

Верный ответ: 2, 3.

Экзамен 14 августа, III группа, вариант А, тестовое задание № 27.
8 класс

4.1.2. Определяет синтаксическое назначение слов и словосочетаний.

Установите соответствие.

1. простое глагольное сказуемое
2. составное глагольное сказуемое
3. составное именное сказуемое

a. В зале было тесно и неуютно.
b. Он готов был помочь друзьям в учёбе.
c. Тёплый ветер несёт с поля запах цветущей пшеницы.
d. Каждый человек должен стремиться к своей вершине.
e. Мне от их слов становилось тоскливо и тяжело.

Это тестовое задание открытого типа, проверяет знания и способности абитуриентов по теме “Главные члены предложения. Типы сказуемых”. На это задание ответили верно 36,27% абитуриентов, а 21,50 % отказались отвечать.

Сказуемое бывает простым и составным. Простое глагольное сказуемое выражается глаголом в форме одного из трёх наклонений, глаголом *быть*, инфинитивом, фразеологизмами. В предложении “*Тёплый ветер несёт с поля запах цветущей пшеницы.”* простое глагольное сказуемое – *несёт,* оно выражено глаголом в форме изъявительного наклонения настоящего времени.

Составное сказуемое включает в себя две части: вспомогательную и основную. Основная часть выражает лексическое значение сказуемого, вспомогательная – грамматическое значение. По способу выражения основной части сказуемое делится на глагольное и именное. Вспомогательный глагол в составном глагольном сказуемом может обозначать начало, продолжение, конец действия, а также желательность, возможность действия и эмоции; может быть выражен краткими прилагательными и

фразеологизмами. В предложениях "*Он готов был помочь друзьям в учёбе." и "Каждый человек должен стремиться к своей вершине*." – составные глагольные сказуемые.

В составном именном сказуемом используются глаголы-связки *быть, стать*, *становиться* и др., а именная часть выражается существительным, прилагательным, числительным, местоимением, наречием, причастием, словосочетанием, фразеологизмом. В предложениях *"В зале было тесно и неуютно." и "Мне от этих слов становилось тоскливо и тяжело*." – составные именные сказуемые.

Верный ответ: 1 –c; 2 –b, d; 3 – a, e.

Экзамен 14 августа, III группа, вариант B

Текст и задания 28 – 30 к нему.

Народное искусство слова

Народное искусство слова обычно называют фольклором. По-английски это значит "народная мудрость, знание". Чаще всего этим словом называют словесное искусство: героический эпос, сказки, легенды, песни. Кто из нас не читал их в детстве? Возникшие в глубокой древности произведения народного творчества и в настоящее время сопровождают нас изо дня в день, хотя мы иногда этого и не сознаём. Фольклорные произведения передавались в устной форме: их пели или рассказывали. Они возникли тогда, когда человечество ещё не имело письменности. В песне, сказке, пословице люди выражали и хранили свои мысли и чувства, свои раздумья о прошлом, свои мечты о будущем. Мы не знаем имён далёких творцов, сложивших чудесные сказки, поэтические песни, **занятные** загадки, мудрые пословицы, живущие много веков. С полным основанием можем мы сказать, что автор фольклора – гениальный, вечно живой и вечно молодой поэт – народ!

6 класс

4.1.2. Объясняет грамматическое значение слова согласно контексту

28. Подберите синоним к выделенному слову.

Данное задание проверяет умение абитуриентов подбирать синонимы.

На него 47, 26 % выпускников ответили верно. Синонимы помогают избежать повторов, служат для повышения выразительности речи,делают речь разнообразной.

Синонимы – это слова одной части речи, различные по звучанию и написанию, но близкие или одинаковые по лексическому значению. Синонимы могут различаться оттенками значений.

Несколько синонимов одного и того же слова составляют синонимический ряд.

Верный ответ: *Занятные – занимательные, презабавные, забавные, интересные, любопытные, увлекательные, пикантные, необычные.*

1 балл	A) если ученик дал верный ответ или предложил свой вариант, аналогичный правильному */* ***занятные*** *– занимательные, увлекательные, интересные /* при отсутствии неверных ответов
$\frac{1}{2}$ балла	B) если наряду с верным ответом, присутствует 1 неверный
0 баллов	C) если нет ответа или ответ неверный, или наряду с верным ответом присутствуют 2 и более неверных ответа

11 класс

4.1.2. Соблюдая грамматико-семантические особенности, использует слова в зависимости от их стилевой принадлежности

29. Определите стиль текста. Укажите характерные признаки данного стиля (не менее 2-х), подтвердив их двумя примерами из текста.

Данное задание проверяет умение определять стиль текста и обосновывать своё мнение.

На него 33,94% дали верный ответ; 13.58% дали частичный ответ; 0 баллов получили 39.69%, а отказались от ответа 12.79%.

Верный ответ: *Стиль – публицистический. Цель: воздействие на читателей общественно-значимой информацией. Наличие эмоциональности, восклицательного предложения (С полным основанием можем мы сказать, что автор фольклора – гениальный, вечно живой и вечно молодой поэт – народ!), риторического вопроса (Кто из нас не читал их в детстве?), слов в переносном значении (хранили мысли и чувства; берёт начало; глубокая древность), фразеологизмов (изо дня в день)*

1 балл	A) если ученик дал полный ответ: верно указал стиль текста, доказал наличие его признаков (не менее 2-х) и привёл примеры из текста (не менее 2-х) / *Стиль – публицистический. Цель: воздействие на читателей общественно- значимой информацией путём убеждения. Наличие эмоциональности, восклицательного предложения* (***С полным основанием можем сказать, что автор фольклора – гениальный, вечно живой и вечно молодой поэт – народ!***), *риторического вопроса* (***Кто из нас не читал их в детстве?***), *слов в переносном значении* (***хранили мысли и чувства; берёт начало; глубокая древность***), *фразеологизмов* (***изо дня в день***)/
$\frac{1}{2}$ балла	B) если ученик верно определил стиль и указал минимум 2 признака данного стиля, но не привёл примеры из текста или привёл только 1 пример C) если ученик верно определил стиль и верно привёл 2 примера из текста, но не указал признаки данного стиля **или** указал только один признак D) если ученик верно определил стиль и верно указал 1 признак данного стиля **и** привёл 1 пример из текста E) если указаны 2 признака и приведены 2 примера, но стиль не указан
0 баллов	F) если указан только стиль G) если указаны 2 признака и приведены 2 примера, но стиль указан неверно H) если ученик верно определил стиль, указал только 1 признак данного стиля и не привёл примеры из текста I) если ученик верно определил стиль, привёл только 1 пример из текста и не указал признаки данного стиля J) если ученик привёл только 2 примера из текста (не определил стиль текста и не указал его признаки) K) если ученик указал только 2 признака данного стиля (не определил стиль текста и не привёл примеры из текста) L) для всех остальных случаев

10 класс

4.1.2. Соблюдает лексико-семантические и грамматические нормы языка.

11 класс

4.1.3. Осознанно применяет знаки препинания для обеспечения стилистически правильной, грамотной письменной речи.

30. Подумайте и ответьте на вопрос: **Какие жанры азербайджанского фольклора вам известны?**

На него 45.95% дали верный ответ; 16.19% дали частичный ответ; 0 баллов получили 12.27%, а отказались от ответа 25.79%.

Знакомство каждого человека с фольклором начинается со сказок. Фольклор не только история прошлого, но и настоящее народа. Азербайджанский фольклор разнообразен и занимает достойное место в мировой литературе.

Азербайджанский фольклор – коллекция народного творчества. В нём собраны мифы, трудовые, обрядовые, бытовые песни, сказки, пословицы и поговорки. Особое место занимают дастаны *"*Китаби-Деде Горгуд*"*, *"*Кёроглу*"*..

Верный ответ: *К жанрам азербайджанского фольклора относятся дастаны, предания, песни, поговорки, пословицы, загадки и т.д. Наиболее распространённым, крупным по объёму фольклорным жанром является дастан. Дастаны бывают героические и любовные. В героических дастанах рассказывается о подвигах богатырей, о любви к Родине и защите своих земель от врага. Примером могут служить такие дастаны, как "Кёроглы", "Китаби-Деде Горгуд"*

1 балл	A) если ученик дал верный ответ, соответствующий эталону и написал 3 и более предложений, привёл не менее 2-х фактов и мысль сформулировал без речевых ошибок или допустил всего одну ошибку */ К жанрам азербайджанского фольклора относятся дастаны, предания, песни, поговорки, пословицы, загадки и т.д. Наиболее распространённым, крупным по объёму фольклорным жанром является дастан. Дастаны бывают героические и любовные. В героических дастанах рассказывается о подвигах богатырей, о любви к Родине и защите своих земель от врага. Примером могут служить такие дастаны, как "Кёроглы", "Китаби-Деде Горгуд"/*
$\frac{1}{2}$ балла	B) если написано менее 3-х предложений, но мысль раскрыта, т.е. приведено 2 факта C) если написана норма (3 и более предложений), но приведён всего 1 факт (характеристика) D) всё написано правильно, но допущено 2 и более речевые ошибки
0 баллов	E) для всех остальных случаев

Экзаменационный тестовый блок для вступительного экзамена ***по литературе*** был составлен на основе действующего куррикулума. Задания в экзаменационных блоках в полной мере соответствовали программе для поступающих в вузы. Задания также соответствовали стандартам двух содержательных линий: "**Литература и реалии жизни", "Письменная речь**" и проверялись результаты обучения по 17 подстандартам.

Тестовой блок по литературе представлял собой комплект из 30 заданий. Из них 22 – закрытого типа, 5 заданий – открытого типа (4 задания на выбор и 1 – на установление соответствия), требующие кодирования ответа.Остальные 3 задания открытого типа -это задания на основе текста, требующие ответ в письменном виде и оцениваемые маркерами, согласно критериям. Заданий, проверяющих знания непосредственно содержания произведений, было 22 (из них 2 открытых), теоретических заданий было 5 (из них 2 открытых).

Блок заданий был составлен таким образом, чтобы абитуриенты сумели:

- распознавать литературные направления;
- определять родо-жанровые особенности произведений и позицию автора;
- интерпретировать фактический материал;
- объяснять сходство и различие произведений классиков азербайджанской, русской и мировой литературы;
- характеризовать литературных героев;
- определять элементы сюжета и композиции;
- характеризовать проблематику и идейный смысл произведений;
- разбираться в изобразительно-выразительных средствах языка;
- применять теоретические знания на практике.

Для выполнения текстовых заданий был предложен отрывок из стихотворения С.А.Есенина "Спит ковыль. Равнина дорогая...", чтобы абитуриенты сумели показать следующие умения:

- комментировать содержание художественного текста;
- объяснять общий смысл данного фрагмента из произведения;
- демонстрировать способность самостоятельного определения элементов стихосложения и средств художественной выразительности;
- проявить высокий уровень владения письменной речью.

Статистические данные по результатам экзамена по литературе показали, что абитуриенты хорошо ответили на вопросы, касающиеся творчества Ж.Б.Мольера, А.С.Пушкина, С.Вургуна, С.А.Есенина, М.А.Шолохова, а также с заданиями сопоставительного характера и применения теоретических правил на практике. Однако большинство абитуриентов не справились с заданиями,

касающимися творчества М.Физули, Н.В.Гоголя, С.Цвейга. Впервые был показан хороший результат по стандарту содержательной линии “Письменная речь”.

Ниже даётся анализ ряда тестовых заданий, которые вызвали у абитуриентов большие затруднения.

Экзамен 14 августа, III группа, Вариант A, тестовое задание № 64

9 класс

1.2.2. Различает жизненную позицию тех или иных героев, сравнивает их.

У одного героя (Н.В.Гоголь. “Мёртвые души”) имение практически полностью разорено, а у другого – изобилие и порядок. Это соответственно

A) Коробочка, Манилов B) Плюшкин, Ноздрёв C) Ноздрёв, Собакевич

D) Коробочка, Плюшкин E) Собакевич, Манилов

На данное задание, основанное на знании содержания поэмы “Мёртвые души”, 23,83% абитуриентов ответили верно. К эталону приближен ответ B (Плюшкин, Ноздрёв) - 22%, отказались отвечать 21,76% от общего числа сдающих экзамен.

Для выполнения задания, нужно вспомнить эпизоды, в которых автор описывает дом и двор помещиков. К примеру, у Манилова хозяйство было на грани разорения: крестьяне делали вид, что работают, сам же помещик не интересовался имением, а только витал в облаках. О хозяйстве Плюшкина нечего и говорить, там всё было из рук вон плохо: крестьяне разбегались или умирали от голода и болезней. Хозяйство Ноздрёва также было на грани разорения, и только у Собакевича всё говорило о порядке и достатке. Всем он интересовался сам, на всём была его рука.

Верный ответ: C.

Экзамен 14 августа, III группа, Вариант B, задание № 86.

7 класс

1.1.4. Характеризует жанровые особенности литературных примеров.

10 класс

1.2.1. Сравнивает с точки зрения языка и жанра стихотворные произведения и примеры сюжетной литературы.

11 класс

1.2.1. Разбирает стихотворения и примеры сюжетной литературы (рассказ, повесть, поэма, комедия, трагедия) с точки зрения стиля и композиции.

Укажите произведения, которые относятся к тому же жанру, что и “О любви” А.П.Чехова:

1. “Макар Чудра” 2. “Иблис” 3. “Реквием”

4. “Крыжовник” 5. “Сирота”

Задание открытого типа; на него 33,42% абитуриентов ответили верно, неверно выполнили задание 42,82%, а 14,36% отказались отвечать.

Данное задание проверяет знания по теории литературы.

Для выполнения задания следовало продемонстрировать умение различать по жанру эпические произведения. Из пяти названных два ***не являются*** произведениями эпического рода: “Иблис” относится к драматическому роду, а “Реквием” – к лиро-эпическому жанру. Следовательно, жанрами, соответствующими произведению А.П.Чехова “О любви”, были “Макар Чудра” М.Горького, “Крыжовник” А.П.Чехова и “Сирота” М.Д.Пашаева. Все они, как и произведение “О любви”, относятся к жанру рассказа, для которого характерна одна сюжетная линия, маленький временной охват (1 событие из жизни человека), а также повествование от первого или третьего лица.

Верный ответ: 1, 4, 5.

Экзамен 14 августа, III группа, вариант B

Внимательно ознакомьтесь с представленным текстом и, воспользовавшись информацией, данной в нём, выполните на Листе ответов задания 88 – 90.

Спит ковыль. Равнина дорогая,
И свинцовой свежести полынь.
Никакая родина другая
Не вольёт мне в грудь мою теплынь.
Знать, у всех у нас такая участь,
И, пожалуй, всякого спроси –
Радуясь, свирепствуя и мучась,
Хорошо живётся на Руси.
Свет луны, таинственный и длинный,
Плачут вербы, шепчут тополя.
Но никто под окрик журавлиный
Не разлюбит отчие поля.
(С.А.Есенин)

8 класс

1.2.3. Определяет стихотворные размеры.

88. Определите стихотворный размер.

На данное задание ответили верно 37,6% абитуриентов, отказались от ответа 25,33%.

Данное стихотворение написано хореем (ударные слоги нечётные), но в третьей стопе ударение выпадает (имеется пиррихий), поскольку двусложный размер.

Спи́т ко́lвы́ль. Рaвlни́нal дoрolга́я

1 балл	A) если ученик дал верный (при отсутствии неверных ответов)
$\frac{1}{2}$ балла	B) если наряду с верным ответом присутствует 1 неверный ответ
0 баллов	C) если нет ответа или ответ неверный, или наряду с верным ответом присутствуют 2 и более неверных ответа

Верный ответ: хорей

11 класс

1.1.5. *Определяет особенности языка и стиля, изобразительно-выразительные средства (символ, метафора, сравнение, эпитет, литота, гипербола, художественный вопрос, ирония, сарказм, инверсия, синекдоха) в стихотворениях различного рода и примерах сюжетной литературы со сложным сюжетом и композицией.*

11 класс

1.2.3. *Выражает обоснованное мнение о роли в создании образности изобразительно – выразительных средств в стихотворениях и примерах сюжетной литературы.*

89. Определите два выделенных тропа.

Данное задание проверяет не только умение определять изобразительно-выразительные средства языка, но и обосновывать свой выбор. 39,95% абитуриентов справились с заданием, а 27,94% отказались выполнять его.

Для выполнения задания требуется хорошая теоретическая подготовка, умение определять в тексте тропы, выявлять такие виды, как эпитет и олицетворение. Так, в тексте подчёркнута фраза *свинцовая свежесть.* Это эпитет – художественное определение, т.к. свежесть не может быть свинцовой. Вторая фраза – *шепчут тополя* – олицетворение, т.к. неживые предметы действуют, как живые.

1 балл	A) если ученик верно определил оба тропа
$\frac{1}{2}$ балла	B) если ученик верно определил только 1 троп
0 баллов	C) для всех остальных случаев

Верный ответ: *свинцовая свежесть* – эпитет, *шепчут тополя* – олицетворение.

11 класс

3.1.2. Основываясь на наблюдения и дополнительные сведения, выражает отношение к идее, проблеме, художественным особенностям произведения, обобщает и делает выводы.

90. Подумайте и ответьте на вопрос: **Какую мысль вкладывает автор в слова *“радуясь, свирепствуя и мучась, хорошо живётся на Руси”*?**

Отвечая на данный вопрос, абитуриент должен не только продемонстрировать теоретические знания, но и обосновать их грамотно. С данным заданием справились 65,01% абитуриентов, отказались отвечать 24,28%. Отвечая на это задание, абитуриенты впервые показали достаточно высокий результат, свидетельствующий о том, что они приобрели системные знания и умения не только по литературе, но и по русскому языку.

1 балл	A) если ученик дал верный ответ, соответствующий эталону, т.е. привёл два и более факта (при отсутствии неверных ответов)
$\frac{1}{2}$ балла	B) если приведен только 1 факт
0 баллов	C) для всех остальных случаев

Верный ответ: Поэт очень любит свою родину. Его отношение к родине осталось прежним (*хорошо живётся на Руси*), несмотря на большие изменения в жизни страны (*произошла революция*). В связи с этим лирическим героем владеют разные чувства (*радость, злость*, *муки, страдание*...), однако вырвать любовь из сердца он не может (*Но никто под окрик журавлиный не разлюбит отчие поля*).

Tarix fənnindən qəbul imtahanlarında həm II, həm də III ixtisas qrupları üzrə istifadə edilmiş tapşırıqlar fənn kurikulumuna görə 5 **(“Tarixi zaman”, “Tarixi məkan”, “Dövlət”, “Şəxsiyyət”, “Mədəniyyət”)** məzmun xətti üzrə 149 (Azərbaycan tarixindən 88, ümumi tarixdən 61) alt standartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Qəbul imtahanında aşağıdakı bilik və bacarıqlarının yoxlanılması, qiymətləndirilməsi nəzərdə tutulub.

1. Azərbaycanın tarixi keçmişi və müasir dövrü haqqında zəruri biliklərə malik olduğunu nümayiş etdirmək;
2. Tarixi hadisə və proseslərin mahiyyətini konkret dövrün xüsusiyyətləri baxımından təhlil etmək, bir-biri ilə oxşar və fərqli cəhətlərini müəyyən etmək;
3. Mənbələr əsasında müxtəlif tarixi dövrləri təhlil etmək;
4. Tarixi hadisə, proses və təzahürlərin səbəb-nəticə əlaqələrini müəyyən etmək və tarixi dövr baxımından qiymətləndirmək;
5. Dünya tarixinin hadisə və proseslərini Azərbaycan tarixinin eyni dövrləri ilə müqayisə etmək və təhlillər aparmaq;
6. Müxtəlif tarixi hadisələri konkret məkan baxımından müqayisə etmək;
7. Cəmiyyət və dövlətlərin inkişafında islahat və inqilabların rolunu fərqləndirmək, aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərini müqayisə etmək;
8. Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin rolunu qiymətləndirmək;
9. Müxtəlif cəmiyyətlərdə mədəniyyətin inkişaf xüsusiyyətlərini fərqləndirmək;
10. Tarixdə ayrı-ayrı dövlətlərin yaranması, inkişafı, tənəzzülü ilə bağlı bilik və bacarıqları nümayiş etdirmək;
11. Tarixi termin və anlayışların izahını vermək, fərqləndirmək;
12. Hadisələrin xronoloji ardıcıllığını müəyyən etmək;
13. Tarixin ayrı-ayrı dövrlərində baş vermiş hadisələri xəritə və cədvəl formasında vermək;
14. Azərbaycan və dünya tarixində mühüm rol oynamış dövlət və elm xadimlərinin fəaliyyətinin səciyyəvi xüsusiyyətlərini müəyyən etmək.

Ötən ildə olduğu kimi, builki qəbul imtahanlarında da hər iki ixtisas qrupu üzrə istifadə edilmiş tapşırıqlar həm Azərbaycan tarixinə, həm də ümumi tarix fənlərinə aid olub. Tapşırıq bloklarında fənn kurikulumunun təlim nəticələrinə uyğun olaraq tarixi proses və hadisələr arasında səbəb-nəticə, məkan-zaman əlaqələri, tarixi proses və hadisələrin ümumiləşdirilməsi, müqayisəsi, qanunauyğunluqları, izahat, nəzəri biliklərin tətbiqi və təhlili ilə bağlı bilik və bacarıqları ölçməyə imkan verən tapşırıqlar üstünlük təşkil edib.

İmtahan nəticələrinin statistik göstəriciləri əsasında aparılan təhlili göstərib ki, II ixtisas qrupu üzrə abituriyentlər "Dünya dövlətləri İkinci Dünya müharibəsindən sonrakı dövrdə", "Azərbaycan XIX əsrin ikinci yarısında" və "Azərbaycan XX əsrin 20-80-ci illərində", III qrup üzrə isə "Azərbaycan mədəniyyəti", "Müstəqilliyin bərpa edilməsi, XX əsrin sonları, XXI əsrin əvvəllərində Azərbaycan respublikasının daxili və xarici siyasəti", "Vətən müharibəsi (İkinci Qarabağ müharibəsi)" və "Dünya dövlətləri XX əsrin 20-40-cı illəri və İkinci Dünya müharibəsi" bölmələrinə aid test tapşırıqlarına müəyyən qədər zəif cavab veriblər.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

Azərbaycan tarixi, 9-cu sinif

5.1.2. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini dünya sivilizasiyası və mədəniyyətlərinin xarakterik əlamətləri ilə müqayisə edir.

Azərbaycan tarixi, 11-ci sinif

5.1.1. Dünya mədəniyyətinin inkişafında Azərbaycan mədəniyyətinin rolunu dəyərləndirir.

14 iyul tarixli imtahan, III ixtisas qrupu, A variantı, 35 saylı test tapşırığı

XIX əsrin birinci və ikinci yarısı Şimali Azərbaycanın mədəniyyət tarixinə aid ümumi cəhət:

A) Azərbaycanlı qızlar üçün dünyəvi məktəblərin açılması

B) qız gimnaziyalarında tədrisin rus dilində aparılması

C) Azərbaycan müəllimlərinin qurultaylarının keçirilməsi

D) rus-Azərbaycan məktəblərinin fəaliyyət göstərməsi

E) Avropa tipli dünyəvi məktəblərin fəaliyyət göstərməsi

9-cu sinif və 11-ci sinif "*Azərbaycan tarixi*" dərsliklərində "Azərbaycan mədəniyyəti" mövzusuna aid bu test tapşırığına abituriyentlərin 25,49 %-i doğru cavab verib, 29,6 %-i isə cavab verməkdən imtina edib. Test tapşırığının yerinə yetirilməsi üçün XIX əsrin birinci və ikinci yarısında Azərbaycanın mədəniyyətinə aid biliklərə və onları ümumiləşdirmə bacarığına malik olmaq lazımdır. Məlum olduğu kimi, 1830-cu ildə Şuşada ilk qəza məktəbinin açılması ilə Şimali Azərbaycanda Avropa tipli dünyəvi məktəblərin fəaliyyəti başlanmış və bu məktəblər XIX əsrin ikinci yarısında da mövcud olmuşdular. Beləliklə, XIX əsrin birinci və ikinci yarısında Azərbaycanın mədəniyyəti tarixinə aid ümumi cəhət Avropa tipli dünyəvi məktəblərin fəaliyyət göstərməsi olmuşdur.

Doğru cavab: E

Azərbaycan tarixi, 9-cu sinif

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.

1.1.2. Mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.

14 iyul tarixli imtahan, III ixtisas qrupu, A variantı, 54 saylı test tapşırığı

Xronoloji ardıcıllığı müəyyən edin.

1. Azərbaycanın MDB-yə daxil olması
2. Azərbaycan SSR-in adının dəyişdirilib, Azərbaycan Respublikası adlandırılması
3. Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunması
4. Füzuli rayonunun 22 yaşayış məntəqəsi və Horadiz qəsəbəsinin düşməndən azad edilməsi

9-cu sinif və 11-ci sinif "*Azərbaycan tarixi*" dərsliklərindəki "Müstəqilliyin bərpa edilməsi, XX əsrin sonları, XXI əsrin əvvəllərində Azərbaycan respublikasının daxili və xarici siyasəti" mövzularına aid bu test tapşırığına abituriyentlərin 27,75%-i doğru cavab verib, 16,4%-i isə cavab verməkdən imtina edib. Test tapşırığının yerinə yetirilməsi üçün XX əsrin sonları, XXI əsrin əvvəllərində müstəqilliyin bərpa edilməsi, Azərbaycan Respublikasının daxili və xarici siyasətinə aid biliklərə və onların xronoloji ardıcıllığını

müəyyən etmə bacarığına malik olmaq lazımdır. Məlum olduğu kimi, Azərbaycan Respublikası MDB-yə 1993-cü ildə daxil olmuş, Azərbaycan SSR-in adı 1991-ci ilin fevralında dəyidirilərək Azərbaycan Respublikası adlandırılmış, Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci ildə qəbul edilmiş, Füzuli rayonunun 22 yaşayış məntəqəsi və Horadiz qəsəbəsi 1994-cü ildə düşməndən azad edilmişdir.

Doğru cavab: 2, 1, 4, 3

Azərbaycan tarixi, 9-cu sinif

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.

Azərbaycan tarixi, 11-ci sinif

3.1.2. Qlobal problemlərin həllində Azərbaycanın mövqeyini və apardığı siyasəti dəyərləndirir.

14 iyul tarixli imtahan, III ixtisas qrupu, A variantı, 55 saylı test tapşırığı

2020-ci il Vətən müharibəsinə aid doğru fikirləri müəyyən edin

1. Hərbi sənaye kompleksimizin məhsullarından istifadə olundu
2. Müharibənin ilk həftəsində Cəbrayıl və Füzuli şəhərləri azad edildi
3. İşğaldan azad edildikdən sonra Madagiz kəndinin tarixi adı – İkiçayarası bərpa edildi
4. Cəbrayıl rayonunun azad edilməsi ilə Azərbaycan əsgərləri İranla dövlət sərhədini tam nəzarətə götürdülər
5. İşğalçıların hava hücumundan müdafiə sistemlərinin üzə çıxarılması üçün yalançı hədəf kimi köhnə təyyarələrdən istifadə edilirdi

2020-ci il Vətən müharibəsi mövzusuna aid bu test tapşırığına abituriyentlərin 12,9%-i doğru cavab verib, 10,04%-i isə cavab verməkdən imtina edib.

Məlum olduğu kimi, 2020-ci il Azərbaycan tarixinə qızıl hərflərlə yazılmışdır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan ordusu tarixi torpaqlarımızın böyük hissəsini işğaldan azad etmişdir. Tariximizə qəhrəmanlıq salnaməsi kimi yazılan, möhtəşəm Zəfərlə başa çatan Vətən müharibəsi ilə bağlı "Abituriyent" jurnalının 2-ci sayında məqalə çap edilmiş və həmin material əsasında suallar hazırlanmışdır. Müvafiq mövzu ilə bağlı "Abituriyent 2" jurnalında çap edilmiş məqalə əsasında müəyyən etmək olar ki, Vətən müharibəsində hərbi sənaye kompleksimizin məhsullarından və işğalçıların hava hücumlarından müdafiə sistemlərininin üzə çıxarılması üçün yalançı hədəf kimi köhnə təyyarələrdən istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, bu taktika dünya hərb tarixinə qızıl hərflərlə yazılmış mühüm hadisələrdən biri olmuşdur.

Doğru cavab: 1, 5

Ümumi tarix, 9-cu sinif

1.1.3. Mühüm tarixi faktların zaman əlaqəsini göstərən sinxron cədvəllər hazırlayır.

15 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı, 63 saylı test tapşırığı

XX əsrin 60-70-ci illərinə aiddir:

1. "Uotergeyt əhvalatı"nın baş verməsi
2. Folklend böhranı
3. "Ulduzlar müharibəsi" proqramının elan edilməsi
4. "Soyuq müharibə"nin başlanması
5. Yunanıstanın enozis (ilhaq) cəhdi

A) 2, 3 B) 1, 4 C) 1, 5 D) 2, 4 E) 3, 5

9-cu sinif "Ümumi tarix" dərsliyində "Dünya ölkələri II Dünya müharibəsindən sonra" mövzusuna aid bu test tapşırığına abituriyentlərin 23,16%-i doğru cavab verib, 33,87%-i isə cavab verməkdən imtina edib.

Test tapşırığının yerinə yetirilməsi üçün Dünya ölkələrində XX əsrin 60-70-ci illərində baş vermiş hadisələrin tarixini və onların ardıcıllığını müəyyən edə bilmək lazımdır. Məlum olduğu kimi, "Uotorgeyt əhvalatı" ABŞ-da 1968-ci ildə prezident seçilmiş R.Niksonun hakimiyyəti dövründə, Yunanıstanın Kipri enozis (ilhaq) cəhdi 1974-cü ildə baş vermişdir.

Doğru cavab: C

Azərbaycan tarixi, 9 sinif

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.

1.1.2. Mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.

15 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı, 83 saylı test tapşırığı

Azərbaycan tarixinin XIX əsrin 60-cı illərinə aid olanları müəyyən edin.

1. Zaqatalada müstəmləkə əsarəti əleyhinə üsyanın baş verməsi
2. Neft daşınmasında vaqon-sisternlərin tətbiqinə başlanması
3. Neft sənayesində iltizam sisteminin ləğv edilməsi
4. Bakı-Tiflis dəmir yolunun inşa edilməsi
5. Balaxanı neft mədənlərində kəndlilərin icbari əməyinin ləğv edilməsi

9-cu sinif və 11-ci sinif "*Azərbaycan tarixi*" dərsliklərində "Azərbaycan XIX əsrin ikinci yarısında" mövzusuna aid bu test tapşırığına abituriyentlərin 14,97%-i doğru cavab verib, 27,86%-i isə cavab verməkdən imtina edib. Test tapşırığının yerinə yetirilməsi üçün Azərbaycanda XIX əsrin 60-cı illərində baş vermiş hadisələr haqqında bilik və bacarıqlara malik olmaq lazımdır. Məlum olduğu kimi, 1863-cü ildə Zaqatalada müstəmləkə əleyhinə üsyan baş vermiş, Balaxanı neft mədənlərində kəndlilərin icbari əməyi 1864-cü ildə ləğv edilmişdir.

Doğru cavab: 1, 5

Azərbaycan tarixi, 11-ci sinif

4.1.1. Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin (Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Əbülfəz Elçibəy, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu və fəaliyyətini dəyərləndirir.

15 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı, 87 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.

1. Qafur Məmmədov
2. Yusif Sadıqov
3. Həzi Aslanov

a. Berlin uğrunda döyüşlərdə Reyxstaqın alınmasında iştirak etmişdir.

b. Stalinqrad cəbhəsində göstərdiyi igidliyə görə Sovet İttifaqı Qəhrəmanı adı almışdır.

c. Tuapse uğrunda gedən döyüşdə göstərdiyi qəhrəmanlığa görə Sovet İttifaqı Qəhrəmanı adı almışdır.

d. Fransada partizan hərəkatında iştirak etmişdir.

e. Azərbaycanlılar arasında ilk dəfə Sovet İttifaqı Qəhrəmanı adı almışdır.

9-cu sinif və 11-ci sinif "*Azərbaycan tarixi*" dərsliklərindəki "Azərbaycan XX əsrin 20-80-ci illərində" mövzusuna aid bu test tapşırığına abituriyentlərin 26, %-i doğru cavab verib, 25,25%-i isə cavab verməkdən imtina edib. Test tapşırığının yerinə yetirilməsi üçün Azərbaycanın İkinci Dünya müharibəsi illərində tarixinə aid bilik və bacarıqlara malik olmaq lazımdır. Qafur Məmmədov Tuapse uğrunda döyüşdə, Həzi Aslanov Stalinqrad cəbhəsində və Yusif Sadıqov Berlin uğrunda döyüşlərdə Reyxstaqın alınmasında igidliyə görə Sovet İttifaqı Qəhrəmanı adı almışdılar.

Doğru cavab: 1-c; 2-a; 3-b

Qəbul imtahanında istifadə edilən mənbələrlə bağlı tapşırıqlar məlumatın əldə edilməsi, nəticə çıxarma, təhlil, müqayisə və səbəb-nəticə əlaqələrini müəyyən etmə bacarıqlarını yoxlamaq məqsədi daşıyır.

15 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı, mənbəyə aid 88 - 90 saylı tapşırıqlar

İslahata əsasən Şimali Azərbaycanda kəndlilər öz pay torpaqlarını ya bütövlükdə, ya onun bir hissəsini sahibkarla qarşılıqlı razılıq əsasında, heç bir məhdudiyyət qoyulmadan ala bilərdilər. Kəndlilərin istifadəsində onların indiki pay torpaqları saxlanılırdı. Eyni zamanda kəndli icmasının pay torpağı hər bir kişi kəndli üçün 5 desyatindən artıq olarsa və sahibkarın öz ixtiyarında əkinə yararlı torpaqların üçdə birindən azı qalarsa, onda sahibkar öz mülkiyyətində olan bütün yararlı torpaqların üçdə birini saxlamaq üçün artıq torpaqlardan kəsik tələb etmək hüququna malik idi.

88-90-cı tapşırıqları cavablandırmaq üçün Şimali Azarbaycanda 1870-ci ildə həyata keçirilən kəndli islahatı ilə bağlı biliklərə, həmçinin müvafiq mövzu ilə bağlı mühakimə yürütmək, təhlil etmək bacarıqlarına malik olmaq lazımdır. Mənbəni diqqətlə oxuyub təhlil etmək, həmçinin müvafiq dərsliklər əsasında mənimsənilən biliklərlə əlaqələndirmək və nəticə çıxarmaq bacarığı nümayiş etdirmək lazımdır.

Azərbaycan tarixi, 9-cu sinif

1.2.2. Tarixi hadisə, proses və təzahürün öyrənilməsi üçün müvafiq mənbələri seçir.

88. Mənbədə bəhs olunan islahatdan sonra yaranmış varlı kəndli təbəqəsinin necə adlandığını yazın.

Abituriyentlərin 33,03%-i tapşırığı tam yerinə yetirib və onların işi maksimum balla, 0,53%-i maksimum balın yarısı ilə, 19,55%-i 0 balla qiymətləndirilib, 46,88%-i isə cavab verməkdən imtina edib.

Doğru cavab: 1. qolçomaqlar 2. kənd burjuaziyası

Bal şkalası	**Meyar**
1 bal	A) • Qolçomaqlar • kənd burjuaziyası • qoluçomaqlı • fermer
$\frac{1}{2}$ bal	B) • 1 doğru və 1 yanlış cavab
0 bal	C) • Bütün digər hallarda (Məs. Ortabablar, Burjuaziya, Qolçubəyi, Qolbəyi, Sahibkar, azad kəndli, müvəqqəti mükəlləfiyyətli, əkinçi, xırdamalik və s.) • 1 doğru və 2 və daha çox yanlış cavablar

Azərbaycan tarixi, 9-cu sinif

2.1.1. Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri dəyərləndirir.

89. Mənbədə bəhs olunan islahatdan sonra kəndlilərin əksər hissəsinin torpaq mülkiyyətçisinə çevrilə bilməməsinin səbəbini yazın.

Abituriyentlərin 20,03%-i tapşırığı tam yerinə yetirib və onların işi maksimum balla , 1,65%-i maksimum balın yarısı ilə, 29,12%-i 0 balla qiymətləndirilib, 49,20%-i isə cavab verməkdən imtina edib.

Doğru cavab: 1) Satınalma zamanı kəndliyə dövlət tərəfindən heç bir yardım göstərilməməsi;
2) Azərbaycanda torpağın satınalma qiymətinin baha olması.

Bal şkalası	**Meyar**
1 bal	A) • Satınalma zamanı kəndliyə dövlət tərəfindən heç bir yardım göstərilməməsi (**Bu cavabla mahiyyətcə eyni məzmunlu aşağdakı cavablar**: *– Dövlətin kəndliyə kredit verməməsi* *– Kəndlinin pulla təmin olunmaması)* • Azərbaycanda torpağın satınalma qiymətinin baha olması • Torpağın pulunu sahibkara ödəyə bilməmələri (**Bu cavabla mahiyyətcə eyni məzmunlu aşağdakı cavablar**: *– Kəndlilərin əksər hissəsinin kasıb olması* *– Kəndlilərin pulu ödəməyə gücünün çatmaması* *– Kəndlilərin sosial vəziyyətinin yaxşı olmaması* *– Pulla təmin olunmaması* • İslahatın yalnız sahibkar kəndlilərinə aid edilməsi (**Bu cavabla mahiyyətcə eyni məzmunlu cavab**: *– İslahatın dövlət kəndlilərinə aid edilməməsi)*

Bal şkalası	Meyar
$\frac{1}{2}$ bal	B) • 1 doğru və 1 yanlış cavab • Torpağı almaq məcburi deyildi • İslahatın məhdud (əskik) cəhətlərinin olması
0 bal	C) • Mənbədəki cümlələrin köçürülməsi • Kəndlilərin qolçomaqlardan asılı olması • Sahibkarların maliyyə yardımı etməməsi • Kəndlilərin torpağı əkib-becərməyə pulu olmaması • Digər bütün yanlış cavablar

Azərbaycan tarixi, 9-cu sinif

2.1.2. Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri dəyərləndirir.

90. Mənbədə bəhs olunan islahatın kəndlilər üçün iki müsbət nəticəsini yazın.

Abituriyentlərin 7,94%-i tapşırığı tam yerinə yetirib və onların işi maksimum balla, 15,58%-i maksimum balın yarısı ilə, 35,30%-i 0 balla qiymətləndirilib, 41,17%-i isə cavab verməkdən imtina edib.

Doğru cavab: 1) Sahibkar kəndlilərinin feodaldan asılılığına son qoyuldu;

2) Feodal münasibətlərindən kapitalizmə (burjua münasibətlərinə) keçilməsi.

Bal şkalası	Meyar
1 bal	A) • Sahibkar kəndlilərinin feodaldan asılılığına son qoyuldu. (**Bu cavabla mahiyyətcə eyni məzmunlu aşağıdakı cavablar:** o Kəndlilərin rəsmi olaraq asılılıqdan azad edilməsi o Feodal münasibətlərindən kapitalizmə (burjua münasibətlərinə) keçilməsi (Burjua xarakteri daşıması) o Feodal-asılı münasibətlərə zərbə vurulması o Kəndlilər şəxsi azadlıq əldə etməsi • Kəndlilərin bir qisminin öz pay torpağını satın alıb xüsusi mülkiyyətinə keçirməsi (**Bu cavabla mahiyyətcə eyni məzmunlu aşağıdakı cavab:** o Torpaqlarını alan kəndlilər onu xüsusi mülkiyyətinə keçirməsi • Kəndlilərin bir qisminin varlanaraq qolçomağa çevrilməsi • Biyarın ləğv edilməsi (Məcburi mükəlləfiyyətin ləğv edilməsi) • Torpaqlarını alan kəndlilərin mükəlləfiyyətdən azad olması • Ortabab kəndlilərin pay torpağını satın alması • Kəndlilərə köçmə hüququnun verilməsi • Kəndlilərin bir qisminin şəxsi mülki olması • Torpağın alqı-satqı obyektinə çevrilməsi • Torpağı icarəyə götürməyin mümkün olması
$\frac{1}{2}$ bal	B) • Mahiyyətcə eyni məzmunlu 2 cavab • 1 doğru və 1 yanlış cavab

Bal şkalası	Meyar
0 bal	C) • Mənbədəki cümlələrin köçürülməsi. • Kəndlilərin vəziyyəti yaxşılaşdı. *(Mücərrəd cavab olduğu üçün)* • Kəndlilərin pay torpağı oldu. *(Çünki bu hal 1847-ci il islahatında da var idi, 1870-ci il islahatında müsbət cəhət kəndliyə verilən torpaq xüsusi mülkiyyətə verilməsə də, ona satınalma hüququnun verilməsi idi.)* • Kəndlilərə torpaq verilməsi. *(1870-ci il islahatında yenilik kəndliyə verilən torpağın birbaşa xüsusi mülkiyyətə verilməməsi,ona satınalma hüququnun verilməsi idi.)* • Əksəriyyətin varlı kəndlilərə çevrilməsi • Torpaq sahibi olan kəndlilərin sayının artması • Ortababların sayının artması • Kəndlilər torpağa sahib olması. *(Çünki, birbaşa kəndli torpağa sahib olmurdu, satın aldıqda sahib olurdu.)* • Kəndlilər şəxsi təsərrüfata sahib olması • Təhkimçiliyin ləğv edilməsi

Qəbul imtahanının nəticələri göstərir ki, abituriyentlər imtahana hazırlıq dövründə tarixi prosesləri öyrənərkən mövzulararası əlaqələndirmə və hadisələri səbəb-nəticə əlaqələri çərçivəsində təhlil edərək yekun ümumiləşdirmə aparmaq, məntiqi nəticə çıxarmaq və mühakimə yürütmək bacarığına daha da dərindən yiyələnməlidirlər.

Coğrafiya fənnindən II ixtisas qrupu üzrə qəbul imtahanında istifadə olunmuş tapşırıqlar fənn kurikulumunun müəyyən etdiyi 3 (**"Coğrafi məkan"**, **"Təbiət"**, **"Cəmiyyət"**) məzmun xəttinin 6 əsas və 118 alt standartının tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Qəbul imtahanında abituriyentlərin aşağıdakı bilik və bacarıqlarının aşkara çıxarılması və qiymətləndirilməsi nəzərdə tutulub:

1. Kainatda Yerin mövqeyini və onun hərəkətinin coğrafi nəticələrini təsvir etmək;
2. Səma cisimlərinin qarşılıqlı təsirini əlaqələndirmək;
3. Yerin sutkalıq və illik hərəkətini Yerdə həyatın mövcudluğu ilə əlaqələndirmək;
4. Coğrafi təbəqələrin inkişaf mərhələlərini izah etmək;
5. Təbii coğrafi şərait və ehtiyatların yerləşmə qanunauyğunluğunu izah etmək və insanların təbiətdən istifadəsində ekoloji tarazlığın saxlanılması yollarını qiymətləndirmək;
6. Əhalinin dinamikasını ölkələrin iqtisadi inkişaf səviyyəsi ilə əlaqələndirmək.

Test blokunda tapşırıqların bölmələr üzrə paylanması zamanı məktəb coğrafiyası kursunda mövzuların əhəmiyyətlilik dərəcəsi, tədris prosesində bölmələrə ayrılan vaxt və ixtisas qrupunun peşə xüsusiyyətləri nəzərə alınaraq, biliklərin tətbiqinə əsaslanan xəritə-sxem, qrafik, diaqram və hesablama xarakterli tapşırıqlara üstünlük verilib. Abituriyentlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması və qiymətləndirilməsi məqsədi ilə test blokuna qabiliyyət göstəricilərinə görə: terminoloji, faktoloji, ümumiləşdirmə, izahat, hesablama, proqnozlaşdırma və təklif olunan fəaliyyət tipli, mürəkkəblik dərəcəsinə görə isə sadə, orta və çətin tapşırıqlar daxil edilib.

İmtahan nəticələrinin statistik təhlili əsasında müəyyən olunmuşdur ki, bir sıra abituriyentlər "Azərbaycan Respublikasının iqtisadi-coğrafi və geosiyasi mövqeyi. Əhalisi", "Azərbaycan Respublikasının relyefi və onun təsərrüfat əhəmiyyəti", "Azərbaycanın geoloji quruluşu və faydalı qazıntıları", "Dünya iqtisadiyyatının ümumcoğrafi səciyyəsi" bölmələrinə aid tapşırıqlara yaxşı, "Azərbaycan Respublikasının fiziki-coğrafi rayonlaşdırılması", "Atmosfer. Yerin hava təbəqəsi", "Azərbaycan Respublikasının iqlimi", "Hidrosfer. Yerin su təbəqəsi", "Yer səthinin relyefi və ondan istifadə yolları" bölmələrinə aid tapşırıqlara isə nisbətən zəif cavab vermişlər. Təhlil nəticəsində həmçinin müəyyən olunmuşdur ki, bəzi hesablama xarakterli, diaqram və xəritə-sxemlərin qarşılıqlı əlaqəli təhlilinə aid test tapşırıqlarının cavablandırılmasında abituriyentlər çətinlik çəkmişlər.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur:

10-cu sinif

2.1.7. Coğrafi təbəqənin qanunauyğunluqlarını izah edir.

15 iyul tarixli imtahan, A variantı, 38 saylı test tapşırığı

Eyler-Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin.



a. Meşələrlə, rekreasiya ehtiyatları və mineral sularla zəngindir.
b. Ortadağlıq zonada dağ-çöl landşaftı inkişaf etmişdir.
c. Ərazidə yayı quraq keçən mülayim-isti iqlim tipi formalaşmışdır.
d. Ortadağlıq zonanın əsas landşaft tipi dağ meşələridir.
e. Ərazisində Paleogen dövrünə aid süxurlar üstünlük təşkil edir.
f. Ərazisinin çox hissəsində qış ayları nisbətən quraq keçir.

A) I – b, d; II – a, e; III – c, f
B) I – b, e; II – c, f; III – a, d
C) I – a, c; II – b, e; III – d, f
D) I – d, f; II – b, e; III – a, c
E) I – d, f; II – a, c; III – b, e

"Azərbaycan Respublikasının fiziki-coğrafi rayonlaşdırılması" bölməsinə aid bu test tapşırığına abituriyentlərin 25,82%-i doğru cavab verib, 17,54%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün ilk növbədə Azərbaycanın fiziki coğrafiyasına aid mövzuları bilmək və "Azərbaycanın fiziki-coğrafi rayonlaşdırma xəritəsi"nə əsasən rayonların fiziki-coğrafi əlamətlərini müqayisə etmək lazımdır. Göstərilən hər iki fiziki-coğrafi rayonun ortaq xüsusiyyəti meşələrlə, rekreasiya ehtiyatları, mineral sularla zəngin olması və ərazilərində yayı quraq keçən mülayim-isti iqlim tipinin yaranmasıdır (III – a, c). Verilmiş xüsusiyyətlərdən yalnız Qarabağ dağları fiziki-coğrafi rayonuna aid olanlar orta dağlıq zonada əsas landşaft tipi kimi dağ meşələrinin yayılması və ərazisinin çox hissəsində qış aylarının nisbətən quraq keçməsidir (I – d, f). Yalnız Talış fiziki-coğrafi rayonuna aid olan xüsusiyyətlər ərazilərin orta dağlıq zonalarında dağ-çöl landşaftının inkişaf etməsi və ərazisində Paleogen dövrünə aid süxurlar üstünlük təşkil etməsidir (II – b, e).

Doğru cavab: D.

7-ci sinif

2.1.4. Hava elementlərinə dair sadə hesablamalar aparır.

10-cu sinif

2.1.4. İqlim göstəricilərinə əsasən hesablamalar aparır.

15 iyul tarixli imtahan, B variantı, 32 saylı test tapşırığı

Dəniz səviyyəsindən 1000 m yüksəklikdə ən isti ayda havanın temperaturu 24ºC-dir. Qar xəttinin hansı hündürlükdə yerləşdiyini hesablayın və bu yüksəkliyin hansı enliklər üçün səciyyəvi olduğunu müəyyən edin.

A) 4000 m, subekvatorial B) 3500 m, mülayim
C) 5000 m, subtropik D) 3400 m, subtropik E) 5000 m, ekvatorial

"Atmosfer. Yerin hava təbəqəsi" bölməsinə aid bu test tapşırığına abituriyentlərin 22,46%-i doğru cavab verib, 19,40%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün qar xəttinin dağların zirvələrində il boyu, hətta yay aylarında belə havanın temperaturunun 0°C-dən aşağı olduğu hündürlükdən keçməsini bilmək lazımdır. Onun hündürlüyü coğrafi enlikdən, yamacların səmtindən (istiqamətindən) asılıdır. Həmçinin bilmək lazımdır ki, havanın temperaturu hər 1000 m yüksəkliyə qalxdıqca 6°C azalır. Buna görə də havanın temperaturunun 24°C azalması üçün 4000 m yüksəklik tələb olunur [(24·1000)/6=4000]. Məsələnin şərtinə görə dəniz səviyyəsindən 1000 m yüksəklikdə havanın temperaturu 24°C-dir. Bu zaman qar xəttinin keçdiyi yüksəklik

5000 m olacaq (1000+4000 = 5000). Qar xəttinin bu qədər hündürlükdə yerləşməsi ekvatorial enliklər üçün səciyyəvidir.

Doğru cavab: E

10-cu sinif

2.1.3. İqlim dəyişmələrinə və iqlim ehtiyatlarından istifadəyə dair təqdimatlar edir.

15 iyul tarixli imtahan, A variantı, 43 saylı test tapşırığı

AB xətti üzrə müşahidə ***olunmayan*** iqlim tipi:



A) bütün fəsillərdə bol yağıntılı soyuq
B) yayı quraq keçən soyuq
C) qışı mülayim, yayı isti quraq keçən yarımsəhra və quru çöl
D) qışı quraq keçən mülayim-isti
E) yağıntıları bərabər paylanan mülayim-isti

"Azərbaycan Respublikasının iqlimi" bölməsinə aid bu test tapşırığına abituriyentlərin 27,05%-i doğru cavab verib, 14,74%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün "Azərbaycan Respublikasının iqlim tipləri xəritəsi"ni bilmək və təhlil etmək lazımdır. Xəritədən müəyyən etmək olur ki, Kür-Araz ovalığından Böyük Qafqaz dağlarının cənub yamacları boyu yuxarı qalxarkən yarımsəhra və quru çöl iqlimi, qışı quraq keçən mülayim-isti iqlim tipi, yağıntıları bərabər paylanan mülayim-isti iqlim tipi, bütün fəsillərdə bol yağıntılı soyuq iqlim tipi, dağ-tundra iqlim tipi əmələ gəlir. Bunları nəzərə alaraq demək olar ki, Böyük Qafqaz dağlarının cənub yamacları boyu yayı quraq keçən soyuq iqlim tipi yoxdur.

Doğru cavab: B.

11-ci sinif

2.1.3. Atmosferdə baş verən hadisə və proseslərin iqtisadi həyata təsirini təhlil edir.

2.1.4. İqlim xəritələrini oxuyur, nəticələrini təqdim edir.

2.1.7. İqtisadiyyatın inkişafında bioehtiyatların və alternativ enerji ehtiyatlarının rolunu qiymətləndirir.

15 iyul tarixli imtahan, B variantı, 46 saylı test tapşırığı

Orta Sibir yaylası, Turan ovalığı, Çukot yarımadası üçün ümumi əlamətlər:

A) Avrasiya materikində yerləşir, zəngin bioloji ehtiyatlara malikdir.
B) Əhalinin sıxlığı azdır, emaledici sənayenin əksər sahələri inkişaf etmişdir.
C) Rekreasiya imkanları məhduddur, "tüstüsüz sənaye" zəif inkişaf etmişdir.
D) Antropogen təsir güclüdür, torpaqların rekultivasiyasına ehtiyac böyükdür.
E) Platforma üzərində yerləşir, zəngin filiz ehtiyatlarına malikdir.

"Materiklərin coğrafiyası" bölməsinə aid bu tapşırığıa abituriyentlərin 14,73%-i doğru cavab verib, 25,63%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün bilmək lazımdır ki, Orta Sibir yaylası platforma sahəsində yerləşir, filiz faydalı qazıntıları ilə zəngindir, lakin mənimsənilmə üçün təbii şəraiti əlverişsizdir, Turan ovalığında da məskunlaşma şəraiti əlverişli deyildir, səhra və yarımsəhra şəraitində kənd təsərrüfatı suvarma şəraitində inkişaf edir. Çukot yarımadasında da əlverişsiz təbii şərait vardır, hər üç coğrafi obyektin yerləşdiyi sahələrdə rekreasiya təsərrüfatının inkişafı imkanları məhduddur, bu sahə üçün xidmət obyektləri yox dərəcəsindədir.

Doğru cavab: C

10-cu sinif

2.1.1. Yer qabığında dəyişikliklərə dair proqnozlar verir.

15 iyul tarixli imtahan, A variantı, 49 saylı test tapşırığı

Düzgün ardıcıllığın verildiyi sıraları müəyyən edin.

№	*Dağlar*	*Geoloji yaş*	*Geosinklinalın inkişaf mərhələsi*
1.	Kopetdağ	cavan	3-cü mərhələ
2.	Appalaç	qədim	1-ci mərhələ
3.	And	cavan	4-cü mərhələ
4.	Qafqaz	cavan	3-cü mərhələ
5.	Ural	qədim	2-ci mərhələ
6.	Atlas	cavan	3-cü mərhələ

A) 2, 3, 5 B) 3, 4, 6 C) 1, 5, 6 D) 1, 2, 4 E) 1, 4, 6

"Litosfer. Yerin planetar və geoloji inkişaf mərhələsi. Faydalı qazıntılar" bölməsinə aid bu test tapşırığına abituriyentlərin 25,51%-i doğru cavab verib, 25,87%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi verilən dağların yerləşdiyi əraziləri, yəni onların geosinklinal qurşaqlarda, yaxud platformalarda yerləşdiyini müəyyən etmək lazımdır. Yerləşdiyi ərazilərə görə dağların qədim və ya cavan olduğunu ayırmaq olar. Verilmiş dağların yaşına görə təhlilindən aydın olur ki, Kopetdağ (1), Qafqaz (4) və Atlas dağları (6) yaşına görə cavandır, onların yerləşdiyi ərazilərdə hazırda da dağəmələgəlmə prosesləri davam edir.

Doğru cavab: E

7-ci sinif

2.1.6. Kontur xəritədə dünya okeanının hissələrini qeyd edir.

8-ci sinif

2.1.5. Dünya okeanında baş verən fiziki-kimyəvi və dinamik prosesləri təhlil edir.

15 iyul tarixli imtahan, B variantı, 55 saylı test tapşırığı

Botnik körfəzini Oman körfəzindən fərqləndirən xüsusiyyətlər:

1. Sahillərində eol mənşəli relyef formaları geniş yayılmışdır.
2. Sahillərində musson iqlimi formalaşır.
3. Sularında duzluluğun miqdarı çox aşağıdır.
4. Sahilləri qarışıq və iynəyarpaqlı meşələrlə örtülmüşdür.
5. Materikdaxili dənizin tərkib hissəsidir.

"Hidrosfer. Yerin su təbəqəsi" bölməsinə aid seçim formalı açıq tipli bu tapşırığa abituriyentlərin 13,74%-i doğru cavab verib, 34,15%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün "Yarımkürələrin fiziki xəritəsi" və ya "Avrasiyanın fiziki xəritəsini" bilməklə Botnik və Oman körfəzlərinin yerləşdiyi əraziləri, onların coğrafi mövqeyini və ətraf ərazilərdə yaranan təbii-coğrafi şəraiti müəyyən etmək lazımdır. Bu xəritələrdən istifadə etməklə, yerləşdiyi coğrafi enliyi əsas götürərək demək olar ki, Botnik körfəzinin sularında duzluluğun miqdarı çox aşağıdır, sahilləri qarışıq və iynəyarpaqlı meşələrlə örtülmüşdür, Baltik dənizinin bir hissəsi kimi ayrılır.

Doğru cavab: 3, 4, 5

7-ci sinif

2.1.4. Hava elementlərinə dair sadə hesablamalar aparır.

10-cu sinif

2.1.4. İqlim göstəricilərinə əsasən hesablamalar aparır.

15 iyul tarixli imtahan, A variantı, 56 saylı test tapşırığı

Kəsmə yüksəkliyin 50 m olduğu sxemdə *B* məntəqəsində atmosfer təzyiqi 720 mm-dir. *A* məntəqəsində atmosfer təzyiqini hesablayın (mm c. s.).



“Atmosfer. Yerin hava təbəqəsi” bölməsinə aid hesablama xarakterli açıq tipli bu tapşırığa abituriyentlərin 21,71%-i doğru cavab verib, 40,14%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün, ilk növbədə bilmək lazımdır ki, yuxarı qalxdıqca atmosfer təzyiqi hər 1000 m-də 100 mm c.st. (10 m-də 1 mm c. st.) aşağı düşür. Kəsmə yüksəkliyinin 50 m olduğunu nəzərə alaraq hesablamaq olar ki, sxemdə verilən təpənin hündürlüyü 200 m-dir (4·50=200). Bu halda A və B məntəqələri arasındakı atmosfer təzyiqi fərqi 20 mm c. st. təşkil edir [(200·1)/10=20]. Məsələnin şərtinə əsasən bizə təpənin yamacı boyu aşağı enmək lazım gəldiyinə görə atmosfer təzyiqi 20 mm c.st. artacaqdır. Ona görə də A məntəqəsində atmosfer təzyiqi 740 mm c.st. olacaq (720 + 20 = 740).

Doğru cavab: 740

9-cu sinif

3.2.1. Ölkələrin inkişafını tarixi-coğrafi baxımdan təhlil edir.

3.2.2. Tarixi-coğrafi regionları kontur xəritədə qeyd edir.

15 iyul tarixli imtahan, B variantı, 57 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.

1. Şimali Avropa
2. Cənubi Avropa
3. Orta Avropa

a. AES-lərdə istehsal olunan enerjiyə görə dünyada qabaqcıl yer tutur.
b. Əhalinin sıxlığı nisbətən aşağıdır.
c. Hidroenerji və meşə ehtiyatları ilə daha zəngindir.
d. Orta inkişaf səviyyəsinə malik İEÖ-lər vardır.
e. Sitrus meyvəçiliyi və zeytunçuluq yaxşı inkişaf etmişdir.

“Dünya ölkələrinin inkişaf xüsusiyyətləri (İnkişaf etmiş və İnkişaf etməkdə olan ölkələr)” bölməsinə aid uyğunluğun müəyyən edilməsi tələb olunan açıq tipli bu tapşırıqda Şimali, Cənubi və Orta Avropa regionlarında yerləşən dövlətlərə aid xüsusiyyətlərin müəyyən edilməsi tələb olunur. Tapşırığa abituriyentlərin 14,64%-i doğru cavab verib, 26,88%-i isə cavab verməkdən imtina edib .

Tapşırığın yerinə yetirilməsi üçün Avropanın regionlarına aid aşağıdakı əlamətləri bilmək lazımdır: Şimali Avropada əhalinin sıxlığı nisbətən aşağıdır, hidroenerji və meşə ehtiyatları ilə daha zəngindir (1 – b, c); Cənubi Avropada sitrus meyvəçiliyi və zeytunçuluq yaxşı inkişaf etmişdir, orta inkişaf səviyyəsinə malik İEÖ-lər vardır (2 – d, e); Orta Avropa AES-lərdə istehsal olunan enerjiyə görə dünyada qabaqcıl yer tutur (3 – a).

Doğru cavab: 1 – b, c; 2 – d, e; 3 – a.

İmtahan nəticələrinin statistik göstəricilərinin təhlilinə görə demək olar ki, abituriyentlərin əksəriyyəti hələ də konkret regionların və ölkələrin xüsusiyyətlərinin müəyyən edilməsində, məntiqi düşünmə tələb olunan tapşırıqların cavablandırılmasında çətinlik çəkirlər. Ona görə də qəbul imtahanına hazırlaşan zaman bunlara xüsusi diqqət yetirmək lazımdır.

Riyaziyyat fənnindən I və II ixtisas qrupları üzrə qəbul imtahanlarında istifadə edilmiş tapşırıqlar 5 (**“Ədədlər və əməllər”**, **“Cəbr və funksiyalar”**, **“Həndəsə”**, **“Ölçmə”**, **“Statistika və ehtimal”**) məzmun xətti üzrə 12 əsas və 187 alt standartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Qəbul imtahanlarında aşağıdakı bilik və bacarıqlarını yoxlanılması və qiymətləndirilməsi nəzərdə tutulub.

1. Ədədlər üzərində dəqiq və təqribi hesablamalar aparmaq;
2. Həyati məsələlərin həllində riyazi bilikləri tətbiq etmək;
3. Riyazi anlayışlara aid alqoritmləri yerinə yetirmək;
4. Rasional ifadələr üzərində eynilik çevrilmələri aparmaq;
5. Tənlik və bərabərsizlikləri həll etmək;
6. Riyazi kəmiyyətlər arasındakı asılılıqların qrafiki təsvirini mənimsəmək;
6. Həndəsi fiqurlarla, koordinatlar və vektorlarla əməliyyatları yerinə yetirmək;
7. Müstəvi fiqurların və fəza cismlərinin xassələrini praktik həndəsi məsələlərin həllinə tətbiq etmək;
8. Statistik məlumatları toplamaq, araşdırmaq, sistemləşdirmək və nəticəsini təqdim etmək;
9. Statistik və ehtimal əsasında hadisənin başvermə mümkünlüyünü proqnozlaşdırmaq;
10. Ətraf aləmdəki ehtimal və statistikanın qanunauyğunluqlarının mövcudluğu haqqında məlumatları izah etmək, ehtimalın klassik modelinə əsasən hadisələrin baş verməsini proqnozlaşdırmaq.

Test bloklarındakı tapşırıqların 19-u cəbr və 11-i həndəsəyə aid olub. Abituriyentlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması və qiymətləndirilməsi məqsədilə test bloklarına mürəkkəblik dərəcəsinə görə sadə, orta, çətin tapşırıqlar daxil edilib və nəzəri biliklərin tətbiqinə əsaslanan, məntiqi düşüncə, təhliletmə bacarığı tələb olunan tapşırıqlara üstünlük verilib.

İmtahan nəticələrinin statistik göstəricilər əsasında aparılan təhlil göstərib ki, hər iki ixtisas qrupu üzrə abituriyentlərin müəyyən hissəsi rasional kəsrlər, tənliklər sistemi, silsilələr, kompleks ədədlər, birləşmələr nəzəriyyəsi, funksiyanın limiti, sadə həndəsi fiqurlar, çoxbucaqlılar, oxşarlıq mövzularına aid tapşırıqlara yaxşı cavab veriblər. Bununla yanaşı, bir sıra abituriyentlər tənlik qurmaqla məsələ həlli, bərabərsizliklər, triqonometrik funksiyalar və tənliklər, ehtimal nəzəriyyəsi, üçbucaqlar, dördbucaqlılar, fiqurların sahəsi, koordinatlar üsulu, vektorlar mövzularına aid tapşırıqları zəif cavablandırıblar.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahları təqdim olunur.

9-cu sinif

2.3.3. Kvadrat bərabərsizliyi həll edir.

15 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı, 20 saylı test tapşırığı

$x^2-(2b-5)x+8c-6\le 0$ bərabərsizliyinin həllər çoxluğu $[3;6]$ parçası olarsa, *b* və *c* parametrlərinin cəmini tapın.

A) 5 B) 10 C) 8 D) 9 E) 6

9-cu sinifdə tədris olunan "*Bərabərsizliklər*" bölməsinə aid test tapşırığına abituriyentlərin 14,74%-i doğru cavab verib, 52,28%-i isə cavab verməkdən imtina edib.

Məlumdur ki, $y=x^2-(2b-5)x+8c-6$ kvadrat funksiyasının sıfırları x_1 və x_2 -dir. İntervallar üsulunun köməyi ilə, $x^2-(2b-5)x+8c-6\le 0$ bərabərsizliyinin həllər çoxluğu $[x_1;x_2]$ parçası olduğu alınır $(x_1<x_2)$. $x^2-(2b-5)x+8c-6\le 0$ bərabərsizliyinin həllər çoxluğu $[3;6]$ parçası olduğundan, $y=x^2-(2b-5)x+8c-6$ kvadrat funksiyasının sıfırları $x_1=3$ və $x_2=6$ olar. Onda, Viyet teoreminə görə $\begin{cases}x_1+x_2=2b-5\\x_1\cdot x_2=8c-6\end{cases}$ olduğundan, $\begin{cases}2b-5=3+6\\8c-6=3\cdot 6\end{cases}\Rightarrow b=7;c=3\Rightarrow b+c=10$ olar.

Doğru cavab: B.

11-ci sinif

3.1.1. Fəzada Dekart koordinat sistemi anlayışını, vektor anlayışını bilir, koordinatları ilə verilmiş iki vektorun skalyar hasilini tapır.

15 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı, 23 saylı test tapşırığı

$\vec{b}-3\vec{a}$ və $\vec{b}+3\vec{a}$ vektorları perpendikulyar olarsa, $\frac{2|\vec{b}|}{|\vec{a}|}$ nisbətini tapın.

11-ci sinifdə tədris olunan "*Vektorlar*" bölməsinə aid açıq tipli test tapşırığına abituriyentlərin 9,15%-i doğru cavab verib, 58,15%-i isə cavab verməkdən imtina edib.

Perpendikulyar vektorların skalyar hasilləri sıfır olduğundan

$(\vec{b}-3\vec{a})(\vec{b}+3\vec{a})=0\Rightarrow\vec{b}^2-9\vec{a}^2=0\Rightarrow|\vec{b}|^2=9|\vec{a}|^2\Rightarrow|\vec{b}|=3|\vec{a}|$ alınır. Buradan $\frac{2|\vec{b}|}{|\vec{a}|}$ nisbətinin qiyməti $\frac{2|\vec{b}|}{|\vec{a}|}=\frac{2\cdot 3|\vec{a}|}{|\vec{a}|}=6$ olur.

***Doğru cavab:* 6.**

15 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı situasiyaya aid 28-30 saylı tapşırıqlar

11 nəfəri qız, 20 nəfəri oğlan olmaqla şagirdlər arasında velosiped yarışı keçirilir. Yarış yolu *KMNF* trayektoriyası üzrə müəyyən olunmuşdur. Bu trayektoriya *O* mərkəzli dairəvi gölün çevrəsinə *M* və *N* nöqtələrində toxunan *KM* və *NF* düzxətli yollarından və bu gölün çevrəsinin *MN* hissəsindən ibarətdir. Yarışın qalibinin düzxətli yolları eyni sürətlə getdiyi və bu sürətin *MN* hissəsindəki sürətindən 1 km/dəq çox olduğu məlumdur. $KO = 2\sqrt{2}$ km və $\angle KOM = \angle FON = 45°$ (*K*, *O* və *F* nöqtələri bir düz xətt üzərindədir).



28. Yarış yolunun uzunluğunu tapın ($\pi = 3$).



Həlli: *KOM* və *NOF* üçbucaqları (toxunma nöqtəsinə çəkilən radius toxunana perpendikulyar olduğundan) düzbucaqlı üçbucaqlardır.

$\angle KOM = \angle NOF = 45^\circ \Rightarrow \angle K = \angle F = 45^\circ$ olar. Deməli, *KOM* və *NOF* üçbucaqları bərabəryanlı düzbucaqlı üçbucaqlardır. Bərabəryanlı düzbucaqlı üçbucaqda katetlər hipotenuzdan $\sqrt{2}$ dəfə kiçik olduğundan,

$KM = MO = ON = NF = \dfrac{2\sqrt{2}}{\sqrt{2}} = 2\,(km)$ olar. Deməli, çevrənin (gölün) radiusu $R = 2\,km$-dir. *K*, *O* və *F* nöqtələri bir düz xətt üzərində olduğundan,

$\angle MON = 180^\circ - (\angle KOM + \angle NOF) = 180^\circ - (45^\circ + 45^\circ) = 90^\circ$ olur. Onda, *MN* qövsünün uzunluğu $l_{MN} = \dfrac{\pi R}{180} \cdot \alpha = \dfrac{3 \cdot 2}{180} \cdot 90^\circ = 3\ km$, yarış yolunun uzunluğu isə $2\ km + 3\ km + 2\,km = 7\,km$ alınır.

Doğru cavab: **7 km.**

Qiymətləndirmə meyarı:

Bal şkalası	**Meyarlar**
1 bal	A. Tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavabı (7) tapılıb;
$\frac{2}{3}$ bal	B. Həll prosesi aparılaraq *KM=NF*=2 və $l(\cup MN) = \pi = 3$ tapılıb, cəm ***yanlış*** hesablanıb və ya ***hesablanmayıb***
	C. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb
	D. Birbaşa *R*=2 olduğu qəbul edilərək qövsün uzunluğu hesablama prosesi aparılaraq tapılıb və yarış yolunun uzunluğu (7) hesablanıb; **Bu bənd A və K bəndlərindən fərqləndirilməlidir!**
	E. Həll prosesi aparılaraq *KM=NF=R*=2 tapılıb, lakin $l(\cup MN)$-in hesablanmasında bir neçə mərhələ ***olmadan*** $l(\cup MN) = 3$ və yarış yolunun uzunluğu (7) hesablanıb
$\frac{1}{3}$ bal	F. Həll prosesi aparılmaqla *KM=NF=R*=2 ***doğru*** tapılıb, həll prosesinin ***davamı yoxdur*** və ya tamamilə ***yanlışdır*** (Burada əlavə olaraq $\overset{\smile}{MN}$ qövsünün uzunluğunun tapılması zamanı ***səhvən*** $R = 2\sqrt{2}$ və ya *R*=1 və ya *R*=4 və s. yazılaraq həll prosesi sona qədər aparıla bilər)
	G. Həll prosesi aparılaraq *R*=2 ***doğru*** tapılıb, lakin sonrakı mərhələdə $S = \dfrac{\pi R^2}{4} = 3$ və $KM + l(\cup MN) + NF = 2 + 2 + 3 = 7$ olduğu hesablanıb
	H. Həll prosesi aparılmaqla *KM=NF=R*=2 ***doğru*** tapılıb, lakin $\cup MN$ qövsünün uzunluğunun tapılması zamanı çevrənin uzunluğu ***uyğun olmayan*** ədədlərə bölünərək həll prosesi sona çatdırılıb

Bal şkalası	Meyarlar
0 bal	I. Başqa tapşırığın həlli yazılıb J. Meyarın bir ballıq bəndlərinə uyğun həll zamanı mexaniki ***səhvə*** yol verilib və ya həll prosesi sona qədər ***aparılmayıb*** K. Birbaşa olaraq 2+2+3=7 və ya sadəcə (7) yazılıb, həll prosesi isə ***yazılmayıb*** **Bu bənd D bəndindən fərqləndirilməlidir!** L. Tapşırığın şərtindəki verilənlər $KO = OF = 2\sqrt{2}$ və $\angle KOM = \angle FON = 45^\circ$ və $\angle MON = 90^\circ$ yazıldıqdan sonra birbaşa $KM=NF=MO=NO=R=2$ yazılıb, həll prosesinin **davamı yoxdur** və ya tamamilə ***yanlışdır***; (burada əlavə olaraq $C=2\pi R=12$ yazıla da bilər) M. $R = 2\sqrt{2}$ qəbul edilərək $C = 2\pi\mathrm{R} = 12\sqrt{2}$ və ya $l = \pi\mathrm{R} = 6\sqrt{2}$ hesablanıb N. Digər bütün hallarda

Tapşırıq vasitəsilə "Həndəsə" məzmun xəttinin 9_3.1.3. (*Çevrəyə toxunanın və kəsənin xassələrini tətbiq edir*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 5,68%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 2,10%-i $\frac{2}{3}$ balla, 3,02%-i $\frac{1}{3}$ balla, 21,09%-i 0 balla qiymətləndirilib, 68,11%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini onların tapşırığın həlli üçün lazım olan faktları bilməmələri ilə əlaqələndirmək olar.

29. Yarışın qalibi bütün yola 7,5 dəqiqə vaxt sərf edərsə, o, yarış yolunun *MN* hissəsini hansı sürətlə gedib?

***Həlli*:**

I Üsul: Yarışın qalibi yolun *MN* hissəsini *x* km/dəq sürətilə getdiyi qəbul edilərsə, onda situasiyanın şərtinə əsasən o, düz xətli yolları (x+1) km/dəq sürəti ilə getdiyi alınar. Bütün yola 7,5 dəq vaxt sərf etdiyindən $\frac{2}{x+1}+\frac{3}{x}+\frac{2}{x+1}=\frac{15}{2}$ kimi rasional tənlik qurulur. Alınmış tənlik sadələşdirilərək $15x^2+x-6=0$ kvadrat tənliyi alınır. Sonuncu tənliyin kökləri isə x_1=0,6 və $x_2=-\frac{2}{3}$ (kənar kök) olur.

II Üsul: Şərtə əsasən yolun *KM* və *NF* hissələrindəki sürəti *x* km/dəq ilə, *MN* hissəsindəki sürəti isə (x–1) km/dəq işarə edilərsə, aşağıdakı tənlik alınar:

$\frac{4}{x}+\frac{3}{x-1}=7{,}5$

$15x^2-29x+8=0$

$D=841-480=361=19^2$

$x_1=\frac{10}{30}=\frac{1}{3}$ (kənar kök)

$x_2=\frac{48}{30}=1{,}6$

$x-1=1{,}6-1=0{,}6$

Doğru cavab: **0,6 km/dəq.**

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Üsulundan asılı ***olmayaraq*** tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavabı (0,6 *km/dəq* və ya 0,6 və ya $\frac{3}{5}$) tapılıb B. Əvvəlki tapşırıqda alınan ***səhv*** nəticəyə əsasən düzgün tənlik qurulub və həll prosesi sona qədər düzgün aparılıb

Bal şkalası	Meyarlar
$\frac{2}{3}$ bal	C. Üsulundan asılı ***olmayaraq*** tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb D. Əvvəlki tapşırıqda alınan ***səhv*** nəticəyə əsasən **I üsula** uyğun formada düzgün tənlik qurulub, lakin hesablama ***aparılmayıb*** və ya ***səhv*** aparılıb E. **I Üsulla** həll zamanı tənlik ***doğru*** qurulub, lakin ***səhv*** həll edilib və ya ***həll edilməyib***; F. **II Üsulla** həll zamanı $\frac{4}{x}+\frac{3}{x-1}=7{,}5 \to x=1{,}6$ tapılıb, lakin *MN* hissəsindəki sürət ***tapılmayıb***
$\frac{1}{3}$ bal	G. **II Üsulla** həll zamanı $\frac{4}{x}+\frac{3}{x-1}=7{,}5$ tənliyi qurulub, lakin həll ***edilməyib*** və ya ***səhv*** həll edilib H. Üsulundan asılı ***olmayaraq*** tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən iki mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb
0 bal	I. Başqa tapşırığın həlli yazılıb J. Meyarın bir ballıq bəndlərinə uyğun həll zamanı mexaniki ***səhvə*** yol verilib K. $\frac{4}{x-1}+\frac{3}{x}=7{,}5$ və ya $\frac{4}{x}+\frac{3}{x+1}=7{,}5$ şəklində ***səhv*** tənliklər qurularaq həll prosesi aparılıb L. Birbaşa cavab (0,6) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır*** M. ***Səhvən*** $3x-1=\frac{7}{7{,}5} \to x=0{,}6$ və ya $\frac{3x+1}{3}=\frac{7}{7{,}5} \to x=0{,}6$ yazılıb N. Tapşırığın şərtinə ***uyğun olmayan*** tənlik qurularaq hesablama aparılıb O. Digər bütün hallarda

Tapşırıq vasitəsilə "Cəbr və funksiyalar" məzmun xəttinin 8_2.2.2. (*Kvadrat tənlikləri həll edir*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 1,17%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 0,36%-i $\frac{2}{3}$ balla, 0,17%-i $\frac{1}{3}$ balla, 22,01%i 0 balla qiymətləndirilib, 48,25%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

30. Finişə birinci gələn şagirdin qız olduğu məlumdursa, ikinci gələn şagirdin oğlan olması ehtimalını tapın.

***Həlli*:** Finişə ilk gələn şagird qız olduğundan ikinci gələ biləcək qızların sayı $11-1=10$ olar.

Bu zaman ikinci gələn şagirdin oğlan olması hadisəsi üçün əlverişli halların sayı 20, mümkün halların sayı isə $10+20=30$ olar. Beləliklə, ikinci gələn şagirdin oğlan olması hadisəsinin ehtimalı $P=\frac{20}{30}=\frac{2}{3}$ olar.

Doğru cavab: $\mathbf{\frac{2}{3}}$.

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Üsulundan asılı ***olmayaraq*** tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavabı ($\frac{2}{3}$) tapılıb
$\frac{2}{3}$ bal	B. Üsulundan asılı ***olmayaraq*** tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb
$\frac{1}{3}$ bal	C. Axtarılan ehtimal ***səhvən*** $\frac{11}{31}\cdot\frac{20}{30}=\frac{22}{93}$ şəklində hesablanıb D. Birbaşa $P=\frac{20}{30}=\frac{2}{3}$ yazılıb; (burada əlavə olaraq 11 qız, 20 oğlan da yazıla bilər)

Bal şkalası	Meyarlar
0 bal	E. ***Səhvən*** $P=\frac{{}_{11}C_1\cdot{}_{20}C_1}{{}_{31}C_2}=\frac{440}{930}$ yazılıb F. Ehtimal ***səhvən*** $\frac{11}{31}\cdot\frac{20}{31}=\frac{220}{961}$ və ya $\frac{10}{20}$ və ya $\frac{11}{20}$ və ya $\frac{31}{20}$ və ya $\frac{1}{30}$ və ya $\frac{30}{31}$ və ya $\frac{20}{33}$ və ya $\frac{20}{31}$ və ya $\frac{21}{31}$ şəklində hesablanıb G. $P=\frac{{}_{11}P_1\cdot{}_{20}P_1}{{}_{31}P_2}=\frac{22}{93}$ şəklində hesablanıb H. Ehtimal ***səhvən*** $P=\frac{{}_{30}C_1}{{}_{20}C_1}=\frac{30}{20}=\frac{3}{2}=1{,}5$ şəklində hesablanıb I. Ehtimal ***səhvən*** $P=\frac{{}_{20}P_1}{{}_{30}P_1}=\frac{20}{30}=\frac{2}{3}$ şəklində hesablanıb J. Ehtimal ***səhvən*** $\frac{11}{9+11}=\frac{11}{30}$ və ya $\frac{19}{19+11}=\frac{19}{30}$ şəklində hesablanıb K. Birbaşa $P=\frac{10}{30}=\frac{1}{3}$ yazılıb L. Ehtimal ***səhvən*** $P=\frac{20-11}{31}=\frac{9}{31}$ şəklində hesablanıb M. Ehtimal ***səhvən*** $\frac{20}{30}\cdot\frac{10}{29}=\frac{20}{87}$ və ya $\frac{11}{31}\cdot\frac{10}{30}=\frac{11}{93}$ və ya $\frac{20}{31}\cdot\frac{19}{30}=\frac{38}{93}$ və ya $\frac{11}{20}\cdot\frac{10}{19}=\frac{11}{38}$ şəklində hesablanıb N. Ehtimal ***səhvən*** $P=\frac{{}_{31}C_{11}}{{}_{31}C_{20}}$ və ya $P=\frac{{}_{11}C_2}{{}_{20}C_2}$ və ya $P=\frac{{}_{10}C_2}{{}_{31}C_2}$ və ya $P=\frac{{}_{20}C_1}{{}_{30}C_{20}}$ şəklində hesablanıb O. Başqa tapşırığın həlli yazılıb P. Meyarın bir ballıq bəndlərinə uyğun həll zamanı mexaniki ***səhvə*** yol verilib Q.Yazı vərəqində yalnız $\frac{2}{3}$ yazılıb, həll prosesi isə ***yazılmayıb*** **Bu bənd D bəndindən fərqləndirilməlidir!** R. Yalnız bütün mümkün halların sayı və ya əlverişli halların sayı tapılıb (yəni ehtimal ***hesablanmayıb***) S. Digər bütün hallarda

Tapşırıq vasitəsilə "Statistika və ehtimal" məzmun xəttinin 6_5.2.3. (*Nisbətən mürəkkəb hadisələrdə əlverişli hallar sayını tapır*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 13,34%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 0,67%-i $\frac{2}{3}$ balla, 1,93%-i $\frac{1}{3}$ balla, 16,08%-i 0 balla qiymətləndirilib, 59,52%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

8-ci sinif

1.2.5. *Nisbət və tənasübün xassələrini, faizin düsturlarını müxtəlif məsələlərin həllinə tətbiq edir.*

27 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 3 saylı test tapşırığı

ABC üçbucağında *AB*=*AC*, *AD*⊥*AB*, *AD*=6 sm və *BD*=18 sm olarsa, *DC* parçasının uzunluğunu tapın.

A) 18 sm B) 14 sm C) 9 sm
D) 7 sm E) 12 sm



8-ci sinifdə tədris olunan "*Hərəkət və oxşarlıq*" bölməsinə aid bu test tapşırığına abituriyentlərin 10,18%-i doğru cavab verib, 35,38%-i isə cavab verməkdən imtina edib.

Üçbucağın A təpəsindən BC tərəfinə AK hündürlüyü endirilərsə, düzbucaqlı üçbucaqların oxşarlığına əsasən $AD^2=DK\cdot BD$. Buradan, $36=DK\cdot 18$, $DK=2$ alınar. ABC üçbucağı bərabəryanlı olduğundan, $BK=KC=18-2=16$, onda, $DC=KC-KD=16-2=14$.



Doğru cavab: B.

10-ci sinif

1.1.3. *Triqonometrik, üstlü, loqarifmik ifadələri sadələşdirərək qiymətini tapır.*

27 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 4 saylı test tapşırığı

$\cos 40^\circ\left(1-2\cos 80^\circ\right)$ ifadəsinin qiymətini tapın.

A) 0,5 B) –1 C) 2 D) –1,5 E) 1

10-cu sinifdə tədris olunan "*Triqonometrik funksiyalar üçün toplama teoremi*" bölməsinə aid test tapşırığına abituriyentlərin 15,54%-i doğru cavab verib, 43,31%-i isə cavab verməkdən imtina edib.

Həlli:

$$\cos 40^\circ\left(1-2\cos 80^\circ\right)=\cos 40^\circ-2\cos 40^\circ\cos 80^\circ=\cos 40^\circ-2\cdot\frac{1}{2}\cdot\left(\cos\left(40^\circ-80^\circ\right)+\cos\left(40^\circ+80^\circ\right)\right)=$$

$$=\cos 40^\circ-\left(\cos 40^\circ+\cos 120^\circ\right)=\cos 40^\circ-\cos 40^\circ-\cos 120^\circ=0{,}5$$

Doğru cavab: A.

27 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı situasiyaya aid 28-30 saylı tapşırıqlar

Düzbucaqlı şəklindəki meydançanın hər iki uzunluğu boyunca (künc nöqtələri də daxil olmaqla) yerə perpendikulyar 10 ədəd işıq dirəyi basdırılmışdır. Hər lampa mərkəzi dirəyin oturacağında və sahəsi 16π m^2 olan dairəvi hissəni işıqlandırır. İşıqlandırılan qonşu dairələr bir-birinə toxunur, onların meydançaya düşən hissəsi şəkildə ştrixlənmişdir. Lampalardan 4-ü sarı, 6-sı isə ağdır.



28. Meydançanın ***işıqlandırılmayan*** hissəsinin sahəsini tapın $(\pi=3)$.

Həlli: Şərtə əsasən

$$\pi r^2=16\pi$$
$$r=4$$



Şəkildən aydın olur ki, meydançanın eni $2r=8$, uzunluğu isə $8r=32$-ə bərabərdir.

Deməli, düzbucaqlı şəklindəki meydançanın sahəsi

$$S_{düzbucaqlı}=2r\cdot 8r=16r^2=256 \text{ m}^2$$

Ştrixlənmiş hissənin sahəsi isə, $S_{ştrix}=4\cdot S_{dairə}=4\cdot 16\pi=192m^2$ Onda, $S_{işıqlandırılmayan}=256-192=64$ m^2

***Doğru cavab:* 64 m^2**

Qiymətləndirmə meyarı:

Bal şkalası	**Meyarlar**
1 bal	A. Tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavabı ($64m^2$) tapılıb
$\frac{2}{3}$ bal	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb C. Həll prosesi göstərilməklə meydançanın eni ($2r=8$), uzunluğu ($8r=32$ və $S_{ştrix}=192$ m^2 hesablanıb, lakin həll prosesinin davamı ***yoxdur*** və ya tamamilə ***yanlışdır***

Bal şkalası	Meyarlar
$\frac{1}{3}$ bal	D. Ştrixlənmiş hissənin sahəsi ($S_{ştrix}=4\cdot S_{dairə}=4\cdot 16\pi=192$ m^2) hesablanıb (burada əlavə olaraq $\pi r^2=16\pi\rightarrow r=4$ olduğu da tapıla bilər) E. Həll prosesi göstərilməklə düzbucaqlının eni ($2r=8$) və uzunluğu ($8r=32$) hesablanıb, lakin həll prosesinin davamı ***yoxdur*** və ya ***yanlışdır*** F. Düzbucaqlının eni və uzunluğu tapılaraq ***səhvən*** işıqlanan hissənin sahəsi $S=16+48=64$ (burada $\pi=3$ nəzərə ***alınmır***) kimi hesablanılıb və uyğun olaraq ***işıqlandırılmayan*** hissənin sahəsi $S=256-64=192$ tapılıb G. Həll prosesi göstərilməklə $S_{düzbucaqlı}=256$ m^2 tapılıb
0 bal	H. ***Səhvən*** $S=16\pi\cdot 10=16\cdot 3\cdot 10=480$ tapılıb I. $S=\pi r^2=16\pi$, $r=4$ tapılaraq $S=4\cdot 16=64$ və ya $S=3\cdot 16\pi=48\pi=144$ hesablanıb J. ***Səhvən*** $S=\frac{8\cdot 8}{2}=32,\ 32\cdot 4=128$ tapılıb K. Başqa tapşırığın həlli yazılıb L. Meyarın bir ballıq bəndlərinə uyğun həll zamanı mexaniki ***səhvə*** yol verilib M. Birbaşa cavab (64) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya ***yanlışdır*** N. Yalnız $S=\pi r^2=16\pi$, $r=4$ tapılıb, həll prosesinin davamı ***yoxdur*** və ya ***yanlışdır*** O. Digər bütün hallarda

Tapşırıq vasitəsilə "Həndəsə" məzmun xəttinin 6_3.1.4. (*Çevrə və dairənin elementlərini (vətər, seqment, sektor, mərkəzi bucaq) bilir, onların xassələrini tətbiq edir*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 9,58%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla,

1,83%-i $\frac{2}{3}$ balla, 6,81%-i $\frac{1}{3}$ balla, 24,57%i 0 balla qiymətləndirilib, 57,22%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

29. Sarı lampa üçün 1 aylıq enerji sərfiyyatına ödənilən məbləğ 3,5 manat, ağ lampa üçün isə 1 manatdır. Meydançanı işıqlandıran neçə sarı lampa ağ lampa ilə əvəz olunarsa, bir aylıq enerji sərfiyyatına ödənilən məbləğə 25% qənaət edilmiş olar?

Həlli: Əvvəlcə 1 ay ərzində meydançanı işıqlandırmaq üçün sərf olunan enerjiyə ödənilən məbləğ hesablanır.

$$3,5\cdot 4+6\cdot 1=20$$

25% qənaət nəzərə alınsa, 1 ay ərzində ödənilən məbləğ $20\cdot\frac{75}{100}=15$

I Üsul: Əvəz olunan lampaların sayı x ilə işarə edilərsə,

a) $1\cdot(6+x)+3,5\cdot(4-x)=15$

$x=2$

və ya əvəz olunmadan sonra alınan sarı lampaların sayı x ilə işarə edilərsə, aşağıdakı tənlik alınar:

b) $3,5x+1\cdot(10-x)=15$

$x=2\rightarrow 4-2=2$

II Üsul: Əvəz olunmadan sonra istifadə olunan ağ lampaların sayı x, sarı lampaların sayı y ilə işarə edilərsə, aşağıdakı kimi xətti tənliklər sistemi alınar:

$$\begin{cases} x+y=10 \\ x+3,5y=15 \end{cases}$$

$x=8$, $y=2$

Əvvəlcə 6 ağ lampa olduğu üçün $8-6=2$ lampa əvəz olunmuşdur.

III Üsul: 1 lampanın dəyişməsi zamanı $3,5-1=2,5$ manat qənaət olduğunu və ay ərzində 5 manat qənaət olduğu nəzərə alınarsa, dəyişən lampaların sayı $5:2,5=2$ olar və ya lampaların sayı x ilə işarə edilərsə.

$2,5x=5$

$x=2$

***Doğru cavab:* 2**

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavab (2) tapılıb
$\frac{2}{3}$ bal	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb C. Həll üçün tələb olunan tənlik və ya tənliklər sistemi ***doğru*** qurulub, amma ***səhv*** hesablanıb və ya ***hesablanmayıb*** D. Qənaətdən sonrakı aylıq sərfiyyat 15 manat tapıldıqdan sonra *seçmə üsul* ilə doğru cavab hesablanıb (məsələn, 3,5·2+8·1=15) **Bu bənd E bəndindən fərqləndirilməlidir!**
$\frac{1}{3}$ bal	E. Yalnız 25% qənaət nəzərə alınaraq 1 ay ərzində ödənilən məbləğ 20 – 5 = 15 manat hesablanıb, həll prosesinin davamı ***yoxdur*** və ya ***yanlışdır*** (burada əlavə olaraq birbaşa cavab (2) də yazıla bilər) **Bu bənd D bəndindən fərqləndirilməlidir!** F. Yalnız $20\cdot\frac{25}{100}=5$ (20-nin tapılma prosesi göstərilməklə) hesablanıb, həll prosesinin davamı ***yoxdur*** və ya ***yanlışdır***
0 bal	G. Başqa tapşırığın həlli yazılıb H. ***Səhvən*** $\frac{4-x}{6+x}=\frac{25}{100}\rightarrow x=2$ yazılıb I. Meyarın bir ballıq bəndlərinə uyğun həll zamanı mexaniki ***səhvə*** yol verib J. Birbaşa cavab (2) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır*** K. Yalnız 3,5·4 = 14 və 6·1 = 6 və ya 14+6=20 (və ya hər üçü) hesablanıb, həll prosesinin davamı ***yoxdur*** və ya ***yanlışdır*** L. ***Səhvən*** 3,5·4=14 və 6·1=6, 14–6=8, 8:4=2 yazılıb M. Digər bütün hallarda

Tapşırıq vasitəsilə "Ədədlər və əməllər" məzmun xəttinin 6_1.2.5. (*Nisbət, tənasüb, düz mütənasib, tərs mütənasib kəmiyyətlərə və faizə aid sadə məsələləri həll edir*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 1,17%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 0,36%-i $\frac{2}{3}$ balla, 0,17%-i $\frac{1}{3}$ balla, 22,01%-i 0 balla qiymətləndirilib, 76,17%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

30. Meydançanı işıqlandıran (4 sarı, 6 ağ) lampalardan bir sarı, bir ağ lampa sıradan çıxdı. Növbəti sıradan çıxan lampanın ağ olması ehtimalı sarı olması ehtimalından nə qədər çoxdur (hər bir lampanın sıradan çıxma ehtimalı eynidir)?

Həlli: Meydançada 1 sarı və 1 ağ lampa sıradan çıxdığı üçün 4 – 1 = 3 sarı və 6 – 1 = 5 ağ lampa, cəmi isə 8 lampa qalıb. Onda, növbəti sıradan çıxan lampanın ağ olma ehtimalı $\frac{5}{8}$, sarı olma ehtimalı isə $\frac{3}{8}$ olar. Birinci ehtimalın ikincidən nə qədər çox olduğu hesablanarsa, $\frac{5}{8}-\frac{3}{8}=\frac{2}{8}=\frac{1}{4}$ alınar.

Doğru cavab: $\frac{1}{4}$

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavabı ($\frac{1}{4}$) tapılıb
$\frac{2}{3}$ bal	B. Tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb C. Növbəti sıradan çıxan lampanın ağ olma ehtimalı $\frac{5}{8}$, sarı olma ehtimalı $\frac{3}{8}$ (hər ikisi) doğru hesablanıb, həll prosesinin davamı ***yoxdur*** və ya ***yanlışdır*** (**Burada qeydlər izah edilməklə aparılmalıdır!**)

Bal şkalası	Meyarlar
$\frac{1}{3}$ bal	D. Növbəti sıradan çıxan lampanın ağ olma ehtimalı ($\frac{5}{8}$) və ya sarı olma ehtimalı ($\frac{3}{8}$) (ikisindən biri) doğru hesablanıb, həll prosesinin davamı ***yoxdur*** və ya ***yanlışdır*** (**Burada qeydlər izah edilməklə aparılmalıdır!**)
0 bal	E. Başqa tapşırığın həlli yazılıb; F. Meyarın bir ballıq bəndlərinə uyğun həll zamanı mexaniki ***səhvə*** yol verilib G. Əvvəlcə sıradan çıxan lampalar nəzərə ***alınmadan*** ehtimallar ***səhvən*** $\frac{6}{10}$ və $\frac{4}{10}$ şəklində tapılmışdır H. Əvvəlcə sıradan çıxan lampalar ***əlverişli*** hallarda nəzərə ***alınmaqla***, ***bütün mümkün*** hallarda isə nəzərə ***alınmadan*** ehtimallar ***səhvən*** $\frac{5}{10}$ və $\frac{3}{10}$ şəklində tapılmışdır I. Əvvəlcə sıradan çıxan lampalar ***bütün mümkün*** hallarda nəzərə ***alınmaqla***, ***əlverişli*** hallarda isə nəzərə ***alınmadan*** ehtimallar ***səhvən*** $\frac{6}{8}$ və $\frac{4}{8}$ şəklində tapılmışdır J. Yalnız ***əlverişli*** halların (5 ağ və 3 sarı) və ***bütün mümkün*** halların sayı (**8**) qeyd edilib K. Birbaşa cavab ($\frac{1}{4}$) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır*** L. Birbaşa $\frac{5}{8}$ və $\frac{3}{8}$ yazılıb (yəni heç bir izahat ***yoxdur***) M. Yalnız 6 – 1 = 5, 4 – 1 = 3 və 5 + 3 = 8 yazılıb (yəni ehtimal ***hesablanmayıb***) N. Digər bütün hallarda

Tapşırıq vasitəsilə "Statistika və ehtimal" məzmun xəttinin 6_5.2.3. (*Nisbətən mürəkkəb hadisələrdə əlverişli hallar sayını tapır*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 13,34%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 0,67%-i $\frac{2}{3}$ balla, 1,93%-i $\frac{1}{3}$ balla, 16,08%-i 0 balla qiymətləndirilib, 61,03%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

8-ci sinif

1.2.5. *Nisbət və tənasübün xassələrini, faizin düsturlarını müxtəlif məsələlərin həllinə tətbiq edir.*

3.1.5. *Dördbucaqlının təsnifatını (paraleleqram, düzbucaqlı, romb, trapesiya) və xassələrini bilir, paraleloqramın əlamətlərini tətbiq edir.*

28 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 19 saylı test tapşırığı

ABCD düzbucaqlısı və hər biri onun üç tərəfinə toxunan iki çevrə verilmişdir. $AD = 50$, çevrələrin kəsişmə nöqtələri arasındakı məsafə 10 olarsa, *AB*-ni tapın.



A) 30 B) 24 C) 25 D) 26 E) 20

8-ci sinifdə tədris olunan "*Çoxbucaqlılar. Dördbucaqlılar*" bölməsinə aid test tapşırığına abituriyentlərin 8,68%-i doğru cavab verib, 31,82%-i isə cavab verməkdən imtina edib.

Çevrələr konqruyent olduğundan,
$PL = KP = \frac{1}{2}KL = \frac{1}{2}AD = \frac{50}{2} = 25$, $MP = PN = \frac{1}{2}MN = \frac{10}{2} = 5$ olur.
$\angle SML = 90^\circ$ (diametrə söykənən daxilə çəkilmiş bucaq olduğundan), onda düzbucaqlı üçbucaqların oxşarlığına əsasən $MP^2 = SP \cdot PL$, $25 = SP \cdot 25$, $SP = 1$ alınır. Buradan, $SL = SP + PL = 26$, yəni $AB = SL = 26$ olur.



Doğru cavab: D.

Bu tapşırıq üzrə etalon müəyyən edilməmişdir. Belə ki, A) 30, C) 25 və E) 20 distraktorlarını uyğun olaraq 12,74%, 26,04% və 16,38% abituriyent seçmişdir. Yəqin ki, bu distraktorları seçənlər tapşırığın şərtində verilmiş ədədlər üzərində təsadüfi əməlləri yerinə yetirməklə almışlar (Məsələn, 50-ni 2-yə bölməklə D distraktorunda olan 25 ədədini alıblar).

8-ci sinif

3.2.2. S*immetriya və dönməyə nəzərən verilmiş fiqurla konqruyent olan fiquru qurur.*

9-cu sinif

3.2.3. Verilmiş iki nöqtə arasındakı məsafə düsturunu bilir, mərkəzinin koordinatlarına və radiusuna görə çevrənin tənliyini yazır.

28 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 27 saylı test tapşırığı

A və *B* nöqtələri üçün uyğunluğu müəyyən edin.

1. $A(2;3)$; $B(2;-3)$
2. $A(0;3)$; $B(-3;0)$
3. $A\left(\frac{1}{2};-\frac{\sqrt{3}}{2}\right)$; $B\left(-\frac{1}{2};\frac{\sqrt{3}}{2}\right)$

a. mərkəzi koordinat başlanğıcında və diametri 6 olan çevrə üzərində yerləşirlər
b. *Oy* oxuna nəzərən simmetrikdirlər
c. koordinat başlanğıcına nəzərən simmetrikdirlər
d. mərkəzi koordinat başlanğıcında olan vahid çevrə üzərində yerləşirlər
e. *Ox* oxuna nəzərən simmetrikdirlər

9-cu sinifdə tədris olunan "*Koordinatlar üsulu*" bölməsinə aid uyğunluğun müəyyən edilməsi tapşırığına abituriyentlərin 7,33%-i doğru cavab verib, 32,29%-i isə cavab verməkdən imtina edib.

1. *A*(2;3) və *B*(2; –3) nöqtələri *Ox* oxuna nəzərən simmetrikdirlər.
2. *A*(0;3) və *B*(–3; 0) nöqtələri mərkəzi koordinat başlanğıcında və diametri 6 olan çevrə $(x^2 + y^2 = 9)$ üzərində yerləşirlər.
3. $A\left(\frac{1}{2};-\frac{\sqrt{3}}{2}\right)$ və $B\left(-\frac{1}{2};\frac{\sqrt{3}}{2}\right)$ nöqtələri koordinat başlanğıcına nəzərən simmetrikdirlər və mərkəzi koordinat başlanğıcında olan vahid çevrə $(x^2 + y^2 = 1)$ üzərində yerləşirlər.

Doğru cavab: 1 – e; 2 – a; 3 – c, d.

Fizika fənnindən qəbul imtahanlarında istifadə olunmuş tapşırıqlar fənn kurikulumuna görə 3 **("Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar", "Maddə və sahə, qarşılıqlı təsir, əlaqəli sistemlər", "Eksperimental fizika və müasir həyat")** məzmun xətti üzrə 5 əsas standartın və 73 alt standartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edir.

Qəbul imtahanlarında aşağıdakı bilik və bacarıqların yoxlanılması və qiymətləndirilməsi nəzərdə tutulmuşdur

1. Fiziki qanunların, prinsiplərin dərk edilməsi və mahiyyətinin mənimsənilməsi;
2. Müxtəlif tip və müxtəlif çətinlik səviyyələrində olan məsələləri həll etmək bacarığı;
3. Fiziki kəmiyyətlərin arasındakı asılılıqların qrafiki təsvirinin mənimsənilməsi

Tapşırıqlar ümumtəhsil məktəblərinin fizika kursunun aşağıdakı bölmələrini əhatə etmişdir:

1. Mexanika

2. Molekulyar fizika və termodinamika
3. Elektrodinamika
4. Optika
5. Kvant fizikası
6. Atom və nüvə fizikası

Tapşırıqların bölmələr üzrə paylanması aşağıdakı kimi olmuşdur: "Mexanika"– 10; "Molekulyar fizika" – 4; "Elektrodinamika" – 9; "Optika"– 2; "Kvant fizikası" – 1; Atom və nüvə fizikası – 1.

Abituriyentlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması və qiymətləndirilməsi məqsədilə test bloklarına müxtəlif nominasiyalı və mürəkkəblik dərəcəsinə görə sadə, orta və çətin tapşırıqlar daxil edilib. Test bloklarında fiziki hadisə və proseslərin mahiyyətinə əsaslanan, təhliletmə, mühakiməyürütmə bacarıqları tələb edən tapşırıqlara üstünlük verilib.

Qəbul imtahanlarının nəticələrinin statistik göstəriciləri əsasında aparılan təhlil göstərir ki, abituriyentlərin əksəriyyəti I ixtisas qrupu üzrə "Bərk cisimin mexaniki xassələri", "Elektrostatika", "Tam dövrə üçün Om qanunu", "Elektromaqnit rəqsləri və dalğaları", "Həndəsi optika", IV ixtisas qrupu üzrə isə "Doyan və doymayan buxar", "Tam dövrə üçün Om qanunu", "Həndəsi optika" mövzularına aid test tapşırıqlarına ya zəif cavab verib, ya da cavab verməkdən imtina ediblər.

Test tapşırıqlarının statistik göstəricilər əsasında nominasiyalar üzrə aparılan təhlili göstərir ki, abituriyentlərin müəyyən hissəsi faktoloji materiala əsaslanan düstur və vahidlərə aid tapşırıqlara daha yaxşı, fiziki hadisə və proseslərin mahiyyətinin açılmasına yönəlmiş qrafik, keyfiyyət və hesablama tapşırıqlarına isə nisbətən zəif cavab veriblər. Belə tapşırıqlarda, adətən, kəmiyyətlər arasında asılılığı müəyyən etmək, müxtəlif parametrlərin dəyişməsinin fiziki proseslər gedən sistemin tam enerjisinə təsirini araşdırmaq və bu prosesin gedişində kəmiyyətlərin necə dəyişəcəyi barədə nəticə çıxarmaq lazım gəlir. Bir sıra abituriyentlər Eyler-Venn diaqramları vasitəsi ilə verilən test tapşırıqlarına da cavab verməkdə çətinlik çəkiblər.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

10-cu sinif

1.1.2. Mexaniki və istilik hadisələrinin qanun və qanunauyğunluqlarına aid (qrafik, kəmiyyət və keyfiyyət tipli) məsələlər qurur və həll edir.

3.1.2. Mexaniki və istilik hadisələrini xarakterizə edən fiziki kəmiyyətlər arasındakı asılıqları müəyyənləşdirir.

27 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 52 saylı test tapşırığı

Düzxətli hərəkət edən cisimlərin koordinatının zamandan asılılıq qrafiklərinə əsasən, hansı cismin (cisimlərin) t=0 zaman anında sürəti sıfıra bərabər ola ***bilməz*** (1 və 3 paraboladır)?



A) yalnız 3 B) 1 və 3 C) yalnız 2
D) 1 və 2 E) yalnız 1

Düzxətli bərabərsürətli və dəyişənsürərətli hərəkət mövzusuna aid qrafik nominasiyalı bu test tapşırığına abituriyentlərin yalnız 6,71%-i doğru cavab verib, 21,09%-i isə cavab verməkdən imtina edib. Yanlış olan B bəndini 31,37%, C bəndini 25,72% abituriyent doğru hesab edib. Bu tapşırığa aid mövzu 10-cu sinifdə əhatəli şəkildə təqdim olunmuşdur. Bərabərtəcilli hərəkətdə koordinatın zamandan asılılıq qrafiklərinə əsasən müəyyən edmək olar ki, təsvir olunmuş 1 qrafiki x oxu istiqamətində bərabəryavaşıyan, 2 cismi bərabərsürətli, 3 cismi isə bərabəryeyinləşən hərəkər edən cisimlərə aiddir. Odur ki, yalnız 3 cisminin başlanğıc sürəti sıfır ola bilər. 1 və 2 cisimlərinin isə t=0 zaman anında sürəti sıfıra bərabər ola ***bilməz.***

Doğru cavab: D

10-cu sinif

1.1.2. Mexaniki və istilik hadisələrinin qanun və qanunauyğunluqlarına aid (qrafik, kəmiyyət və keyfiyyət tipli) məsələlər qurur və həll edir.

27 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 44 saylı test tapşırığı

27°C temperaturda nisbi rütubət 50% olarsa, havadakı su buxarının parsial təzyiqini hesablayın ($M = 18 \cdot 10^{-3} \frac{\text{kq}}{\text{mol}}$, $R = 8 \frac{\text{C}}{\text{mol} \cdot \text{K}}$, doyan su buxarının 27ºC temperaturda sıxlığını $3 \cdot 10^{-2} \frac{\text{kq}}{\text{m}^3}$ qəbul etməli).

A) 2 kPa B) 4 kPa C) 1,8 kPa D) 3,6 kPa E) 5 kPa

Doyan və doymayan buxar mövzusuna aid tapşırığa abituriyentlərin 17,76%-i doğru cavab verib, 50,46%-i isə cavab verməkdən imtina edib. Yanlış olan bəndləri düzgün hesab etmiş abituriyentlərin sayı az olmasına baxmayaraq, cavab verməkdən imtina edən abituriyentlərin sayı üstünlük təşkil etmişdir. Bu isə tapşırığın hesablama xarakterli olması ilə əlaqədardır.10-cu sinifdə tədris olunan bu mövzuda göstərildiyi kimi, doyan su buxarının sıxlığı verildikdə verilmiş temperaturda onun təzyiqini $P=\frac{\rho RT}{M}$ düsturu ilə hesablamaq olar. Nisbi rütubət 50% olduğundan havadakı su buxarının parsial təzyiqi P=0,5 P_0 ifadəsi ilə hesablanmalıdır.

Doğru cavab: A

8-ci sinif

1.1.1. İstilik və elektromaqnit (elektrik) hadisələrini və onların baş vermə səbəblərini şərh edir.

27 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 49 saylı test tapşırığı

Yüklənmiş iki eyni metal kürə müsbət yüklü lövhənin üzərində asılmışdır. Kürələri bir-birinə toxundurub əvvəlki vəziyyətinə gətirdikdə saplarda yaranan gərilmə qüvvələri necə dəyişər (kürələrin bir-biri ilə qarşılıqlı təsiri nəzərə alınmır)?



T_1	T_2
A) artar	azalar
B) artar	dəyişməz
C) dəyişməz	artar
D) azalar	azalar
E) azalar	artar

Elektrik yükü, elektrik sahəsi mövzusuna aid bu test tapşırığına abituriyentlərin 24,79%-i doğru cavab verib, 24,32%-i isə cavab verməkdən imtina edib. Yanlış olan A bəndini 30,65% abituriyent doğru hesab etmişdir. Bu mövzu həm 8-ci sinifdə, həm də 11-ci sinifdə tədris olunur. Məlumdur ki, kürələr bir-birinə toxundurulmamışdan əvvəl müsbət yüklü lövhə mənfi yüklü 1-ci kürəni cəzb etdiyi və müsbət yüklü 2-ci kürəni itələdiyi üçün $T_1>T_2$ olmuşdur. Kürələri bir-birinə toxundurduqda hər iki kürənin yükü sıfır olur və onları əvvəlki vəziyyətinə gətirdikdə müsbət yüklü lövhə onlara təsir etmədiyindən $T_1=T_2$ olar. Yəni, T_1 azalar, T_2 isə artar.

Doğru cavab: E

8-ci sinif

1.1.1. İstilik və elektromaqnit (elektrik) hadisələrini və onların baş vermə səbəblərini şərh edir.

3.2.1. Texnikada və istehsalatda istifadə olunan istilik hadisələrinə əsaslanan qurğuların iş prinsiplərini izah edir.

28 iyul tarixli imtahan, IV ixtisas qrupu, A variantı, 71 saylı test tapşırığı

İki otaqda yerləşən psixrometrlərin termometrlərinin göstərişləri təsvir olunmuşdur. Otaqlardakı havanın mütləq (ρ) və nisbi (φ) rütubətləri arasında hansı münasibət doğrudur?





A) $\rho_1>\rho_2$; $\varphi_1>\varphi_2$ B) $\rho_1=\rho_2$; $\varphi_1>\varphi_2$

C) $\rho_1<\rho_2$; $\varphi_1=\varphi_2$ D) $\rho_1<\rho_2$; $\varphi_1<\varphi_2$ E) $\rho_1>\rho_2$; $\varphi_1<\varphi_2$

Doyan və doymayan buxar mövzusuna aid bu test tapşırığına abituriyentlərin 22,26%-i doğru cavab verib, 23,21%-i isə cavab verməkdən imtina edib. Yanlış olan B bəndini doğru hesab etmiş abituriyentlər doğru cavab verənlərdən az olsa da (20%), digər bəndlərdən fərqlənmişdir. Yəni, abituriyentlərin $\frac{1}{5}$-i yanlış

olaraq psixrometrlərin termometrlərinin göstərişlərinin fərqi böyük olanda nisbi rütubətin də böyüdüyünü və quru termometrlərin göstərişlərinin bərabər olmasının da mütləq rütubətinin bərabər olması kimi qəbul etmişlər. 8-ci sinifdə tədris olunan mövzuda göstərilmişdir ki, psixrometrlərin nəm termometrlərinin göstərişləri nə qədər quru termometrlərin göstərişlərinə yaxın olarsa nisbi rütubət də çox olar ($\varphi_1<\varphi_2$). Otaqların temperaturunu göstərən quru termometrlərin göstərişlərinin bərabər olmasından alınır ki, doyan buxarın sıxlıqları eyni olur və nisbi rütubəti çox olan otaqda mütləq rütubət də çox olur ($\rho_1<\rho_2$).

Doğru cavab: D

28 iyul tarixli imtahan, IV ixtisas qrupu, A variantı, 75 saylı test tapşırığı

10-cu sinif

1.1.2. Mexaniki və istilik hadisələrinin qanun və qanunauyğunluqlarına aid (qrafik, kəmiyyət və keyfiyyət tipli) məsələlər qurur və həll edir.

3.1.2. Mexaniki və istilik hadisələrini xarakterizə edən fiziki kəmiyyətlər arasındakı asılıqları müəyyənləşdirir.

X oxu üzrə hərəkət edən iki cismin sürətinin proyeksiyasının zamandan asılılıq qrafikləri verilmişdir. Cisimlər arasındakı məsafə (cisimlərin başlanğıc koordinatları eynidir):



A) t_0-anına qədər azalır

B) t_0-anına qədər əvvəlcə azalır, sonra artır

C) dəyişmir

D) t_0-anına qədər artır

E) t_0-anına qədər əvvəlcə artır, sonra azalır

Düzxətli bərabərsürətli və dəyişənsürətli hərəkət mövzusuna aid qrafik nominasiyalı bu test tapşırığına abituriyentlərin 13,58%-i doğru cavab verib, 14,06%-i isə cavab verməkdən imtina edib. Yanlış olan B bəndini 25,57%, A bəndini 22,92% abituriyent doğru hesab etmişdir. 10-cu sinifdə tədris olunan mövzuda göstərildiyi kimi, düzxətli hərəkət edən cisimlərin sürətinin proyeksiyasının zamandan asılılıq qrafiklərinə əsasən müəyyən olunur ki, 2 cisminin t_0-anına qədər x oxu istiqamətində yerdəyişməsinin proyeksiyasının ədədi qiyməti təsvir olunmuş trapesiyanın sahəsinə, 1 cisminin isə düzbucaqlının sahəsinə bərabər olur. Cisimlərin başlanğıc koordinatları eyni olduğundan t_0-anına qədər 2 cismi daha çox yerdəyişmə edir və cisimlər arasındakı məsafə daim artır.

Doğru cavab: D

27 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, situasiyaya aid 58-60 saylı tapşırıqlar

Fotorezistorun elektrik keçiriciliyini tədqiq etmək üçün onu EHQ-i 15 V və daxili müqaviməti 2 Om olan sabit cərəyan mənbəyinə birləşdirərək üzərinə işıq şüası saldılar. Düşən işığın intensivliyini artırdıqda ampermetrin və voltmetrin göstərişlərinin dəyişdiyini müşahidə etdilər.



58. Ampermetrin və voltmetrin göstərişləri necə dəyişdi? Uyğun düsturları yazmaqla cavabınızı əsaslandırın.

***Həlli*:** Fotorezistor yarımkeçirici cihaz olduğundan üzərinə düşən işığın intensivliyini artırdıqda onun müqaviməti azalır. $I=\frac{\varepsilon}{R_f+r}$ tam dövrə üçün Om qanununa əsasən ε və r sabit qaldığından R_f-in azalması nəticəsində cərəyan şiddəti artacaq. Ampermetr cərəyan şiddətini ölçdüyündən onun göstərişi də artacaq.

Voltmetrin göstərişi:

1. U=ε–Ir düsturu ilə təyin olunduğundan cərəyan şiddəti artdığı üçün voltmetrin göstərişi azalacaq.

2. $U=\frac{\varepsilon R_f}{R_f+r}\left(U=\frac{\varepsilon}{1+\frac{r}{R_f}}\right)$ düsturu ilə təyin olunduğundan R_f müqaviməti azaldığı üçün voltmetrin göstərişi azalacaq.

Doğru cavab: Ampermetrin göstərişi artacaq, Voltmetrin göstərişi azalacaq.

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. Düşən işığın intensivliyini artırdıqda fotorezistorun müqavimətinin azalması, müvafiq düsturlar yazılaraq ampermetrin göstərişinin artması və voltmetrin göstərişinin azalması düzgün qeyd edilib B. Düşən işığın intensivliyini artırdıqda fotorezistorun müqavimətinin azalması qeyd edilmiş müvafiq düsturlardan yalnız biri yazılıb və ampermetrin göstərişinin ***artması*** və voltmetrin göstərişinin ***azalması*** düzgün qeyd edilib
$\frac{1}{2}$ bal	C. Düşən işığın intensivliyini artırdıqda fotorezistorun müqavimətinin azalması qeyd edilib, müvafiq düsturları ***yazılmadan*** ampermetrin göstərişinin artması və voltmetrin göstərişinin azalması düzgün qeyd edilib **Bu bənd H bəndindən fərqləndirilsin!** D. Düşən işığın intensivliyini artırdıqda fotorezistorun müqavimətinin azalması qeyd edilib müvafiq düstur yazılaraq ampermetrin göstərişinin artması düzgün qeyd edilib, lakin voltmetrin göstərişinin azalması ya ***yazılmayıb***, ya da düzgün müəyyən ***edilməyib*** E. Düşən işığın intensivliyinin artması ilə müqavimətin artması yazılıb, müvafiq düsturlar doğru yazılaraq ampermetrin azalması, voltmetrin artması qeyd olunub
0 bal	F. Başqa tapşırığın həlli yazılıb G. Birbaşa Ampermetrin göstərişi artacaq, Voltmetrin göstərişi azalacaq yazılıb (yəni heç bir izahat ***yoxdur)*** H. Ampermetrin göstərişi artacaq, Voltmetrin göstərişi azalacaq yazılmış, lakin əsaslandırma ***tamamilə yanlış*** qeyd edilmişdir; *(*$\varepsilon = IR$, $\varepsilon = U - IR$ yazılıb, $E = \frac{F}{q}$, $U = Ed$, $E \uparrow \sim U \uparrow$, $\sim U$ və s.) **Bu bənd C bəndindən fərqləndirilsin!** I. $I = \frac{U}{R}$, ampermetr artar, voltmetr azalar qeyd edilib, lakin müqavimətin azalması ***qeyd olunmayıb***, heç bir izah (qrafik) ***yoxdur*** J. Yalnız düsturlar yazılıb, heç bir izah verilməyib K. Cərəyanın artması EHQ-nin artması ilə izah olunub $I \uparrow = \frac{\varepsilon \uparrow}{R+r}$, $I \sim \varepsilon$, $F_A = IBL\sin\alpha$ düsturları ilə izah olunub. L. Digər bütün hallarda.

Tapşırıq 11-ci sinifdə tədris edilən "Müxtəlif mühitdə elektrik cərəyanı" və "Sabit cərəyan qanunları" bölmələrinə aiddir. Tapşırıq vasitəsilə "Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar" məzmun xəttinin 11_1.1.1. (*Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsini şərh edir*) və "Eksperimental fizika və müasir həyat" məzmun xəttinin 11_3.1.1. (*Elektromaqnit, atom və nüvə hadisələrinə dair qanun və qanunauyğunluqları təcrübələrlə yoxlayır, nəticələrini təqdim edir*) alt standartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır. Abituriyentlərin 6,88%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 5,80%-i $\frac{1}{2}$ balla, 28,62%-i 0 balla qiymətləndirilib, 58,69%-i isə cavab verməkdən imtina edib.

59. Ampermetrin göstərişi 0,5 A olduqda fotorezistorun müqavimətini hesablayın.

İzah: Bu tapşırığı yerinə yetirmək üçün **t**am dövrə üçün Om qanunundan istifadə edərək fotorezistorun müqavimətini hesablamaq lazımdır.

Tam dövrə üçün Om qanununa əsasən

$$I = \frac{\varepsilon}{R_f + r} \Rightarrow R_f = \frac{\varepsilon}{I} - r = \frac{15}{0,5} - 2 = 28\,(Om)$$ olar.

Doğru cavab: 28 Om.

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. $R_f = \frac{\varepsilon}{I} - r = \frac{15}{0,5} - 2 = 28\,Om$ yazılıb
$\frac{2}{3}$ bal	B. $R_f = \frac{\varepsilon}{I} - r = \frac{15}{0,5} - 2$ yazılıb, lakin sonda mexaniki ***səhvə*** yol verilərək 28 Om-dan fərqli nəticə alınıb (yəni başqa vahid yazılıb, ya da hesablamada ***səhvə*** yol verilib) C. $R_f = \frac{15}{0,5} - 2 = 28\,Om$ yazılıb (yəni düstur qeyd ***edilməyib***) D. Düstur doğru yazılıb, hesablama düzgündür, lakin fotorezistorun müqaviməti ilə daxili müqaviməti qarışdırılıb, yəni *R* əvəzinə *r=28 Om* yazılıb E. Düstur qeyd olunmadan $0,5 = \frac{15}{2+x}$ və ya $0,5 = \frac{15}{2+R}$ ifadələri yazılıb, hesablamalar doğru aparılıb və ya hesablama ***aparılmadan*** birbaşa 28 *Om* yazılıb
$\frac{1}{3}$ bal	F. Meyarın $\frac{2}{3}$ ballıq bəndinə uyğun həll zamanı bir ***mexaniki səhvə*** yol verilib G. Düstur qeyd ***olunmadan*** $0,5 = \frac{15}{2+x}$ və ya $0,5 = \frac{15}{2+R}$ ifadələri yazılıb, hesablamada ***səhvə*** yol verilib, yəni 28 Om-dan fərqli cavab yazılıb və ya başqa vahid yazılıb
0 bal	H. Başqa tapşırığın həlli yazılıb I. Birbaşa cavab (28 Om) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır*** J. ***Səhvən*** $I = \frac{U}{R} = \frac{15}{0,5} = 30$ (və ya $\frac{2}{0,5} = 4$ və s.) yazılıb K. Digər bütün hallarda

Tapşırıq 11-ci sinifdə tədris edilən "Sabit cərəyan qanunları" bölməsinə aiddir. Tapşırıq vasitəsilə "Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar" məzmun xəttinin 11_1.1.1. (Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsini şərh edir) və "Eksperimental fizika və müasir həyat" məzmun xəttinin 11_3.1.1. (Elektromaqnit, atom və nüvə hadisələrinə dair qanun və qanunauyğunluqları təcrübələrlə yoxlayır, nəticələrini təqdim edir) alt standartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 20,87%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 3,20%-nin yazı işi $\frac{2}{3}$ balla, 0,63%-nin yazı işi $\frac{1}{3}$ balla, 16,94%-nin yazı işi 0 balla qiymətləndirilib, 58,37%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

60. İşığın intensivliyini dəyişdikdə voltmetrin göstərişi 13 V olarsa, ampermetrin göstərişi neçə olar?

İzah: Bu tapşırığı yerinə yetirmək üçün **t**am dövrə üçün Om qanunundan istifadə edərək $I = \frac{\varepsilon - U}{r}$ düsturuna əsasən cərəyan şiddətini hesablamaq lazımdır.

Tam dövrə üçün Om qanununa əsasən

$$U = \varepsilon - Ir \Rightarrow I = \frac{\varepsilon - U}{r} = \frac{15-13}{2} = 1\,(\text{A})$$

Doğru cavab: 1A.

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	A. $I=\frac{\varepsilon-U}{r}=\frac{15-13}{2}=1\text{A}$ yazılıb B. $U=\frac{\varepsilon R}{r+R}$ –dən R=13*Om* tapılıb və $I=\frac{\varepsilon}{r+R}=1\text{A}$ yazılıb
$\frac{2}{3}$ bal	C. $I=\frac{\varepsilon-U}{r}=\frac{15-13}{2}$ yazılıb, lakin sonda 1A-dən fərqli nəticə alınıb (yəni sonda başqa vahid yazılıb ya da hesablamada ***səhvə*** yol verilib) D. $I=\frac{15-13}{2}=1A$ yazılıb (yəni düstur qeyd ***edilməyib)*** E. $I=\frac{\varepsilon}{r+R}$ ifadəsində fotorezistorun müqaviməti *R=13Om* olmaqla birbaşa yazılıb, uyğun hesablamalar doğru aparılaraq, cavab doğru tapılmışdır
$\frac{1}{3}$ bal	F. Meyarın $\frac{2}{3}$ ballıq bəndinə uyğun həll zamanı bir ***mexaniki səhvə*** yol verilib G. $I=\frac{\varepsilon}{r+R}$ düsturu ***yazılmadan***, bu düstura uyğun ifadədə ε və *r*-in qiymətləri doğru yazılmış, fotorezistorun müqaviməti isə R=13*Om* olmaqla birbaşa yazılaraq cavab doğru tapılmışdır
0 bal	H. Başqa tapşırığın həlli yazılıb I. Birbaşa cavab (1*A*) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya ***yanlışdır*** J. $I=\frac{\varepsilon}{r+R}$ yazılıb, ***uyğun olmayan*** hesablamalar aparılıb və ya hesablama ***aparılmayıb*** K. Yanlış düstur yazılıb ($U=\varepsilon-IR$ və s.) L. ***Səhvən*** $I=\frac{U}{r}=\frac{13}{28}$ (və ya $\frac{13}{2}=6,5$ və s.) yazılıb M. Digər bütün hallarda

Tapşırıq 11-ci sinifdə tədris edilən "Sabit cərəyan qanunları" bölməsinə aiddir. Tapşırıq vasitəsilə "Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar" məzmun xəttinin 11_1.1.1. (*Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsini şərh edir)* və "Eksperimental fizika və müasir həyat" məzmun xəttinin 11_3.1.1. (*Elektromaqnit, atom və nüvə hadisələrinə dair qanun və qanunauyğunluqları təcrübələrlə yoxlayır, nəticələrini təqdim edir*) alt standartlarının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır. Abituriyentlərin 5,43%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 0,30%-i $\frac{2}{3}$ balla, 0,28%-i $\frac{1}{3}$ balla, 27,67%-i 0 balla qiymətləndirilib. 66,32%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Kimya fənnindən ali təhsil müəssisələrinə I və IV ixtisas qrupları üzrə qəbul imtahanlarında istifadə olunmuş tapşırıqlar fənn kurikulumuna görə 4 **("Maddə və maddi aləm", "Kimyəvi hadisələr", "Eksperiment və modelləşdirmə", "Kimya və həyat")** məzmun xətti üzrə 10 əsas və 33 alt standartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Qəbul imtahanlarında aşağıdakı bilik və bacarıqlarının yoxlanılması və qiymətləndirilməsi nəzərdə tutulub.

1. Maddələrin Beynəlxalq və tarixi (trivial) adlandırılması;
2. Qeyri-üzvi və üzvi maddələrin tərkibi və xassələrinə görə təsnifatı;

3. Atomun quruluşu, valentlik, kimyəvi elementlərin oksidləşmə dərəcəsi və ionların yükünün, kimyəvi rabitələrin və kristal qəfəslərin tipinin, quruluş formuluna görə izomerliyin və homoloqların, suda məhlulların mühitinin, oksidləşdirici və reduksiyaediciliyinin müəyyən edilməsi;
4. D.İ.Mendeleyevin dövri sisteminə və atomun quruluşuna əsasən kimyəvi elementlərin və onların birləşmələrinin kimyəvi xassələrinin xarakterizə edilməsi;
5. Kimyəvi tarazlığa və reaksiya sürətinə təsir edən amillərin xarakterizə edilməsi;
6. Oksidləşmə-reduksiya reaksiyalarının tənliklərinin əmsallaşdırılması;
7. İon-mübadilə reaksiyalarının tam və qısa ion tənliklərinin tərtib olunması;
8. Maddələrin kimyəvi xassələrinin dəyişməsi qanunauyğunluğunun, kimyəvi reaksiyaların mahiyyətinin izah edilməsi;
9. Kimyəvi formullara və tənliklərə görə hesablamalar aparılması.

Test bloklarında tapşırıqların bölmələr üzrə paylanması aşağıdakı kimi olub:
I ixtisas qrupu üzrə 11 – "Ümumi kimya", 10 – "Qeyri-üzvi kimya", 9 – "Üzvi kimya",
IV ixtisas qrupu üzrə 9 – "Ümumi kimya", 10 – "Qeyri-üzvi kimya", 11 – "Üzvi kimya".

Tapşırıqların bölmələr üzrə paylanması zamanı məktəb kimya kursunda mövzuların əhəmiyyətlilik dərəcəsi, tədris prosesində bölmələrə ayrılan vaxt və hər iki ixtisas qrupunun peşə xüsusiyyətləri nəzərə alınıb. İmtahanlarda nəzəri biliklərin tətbiqinə, məntiqi düşüncəyə əsaslanan, kimyəvi hadisə və proseslərin mahiyyətinin dərkinə yönəlmiş cədvəl, qrafik və sxem formalı tapşırıqlara üstünlük verilib. Abituriyentlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması və qiymətləndirilməsi məqsədi ilə test bloklarına qabiliyyət göstəricilərinə görə: terminoloji, faktoloji, ümumiləşdirmə, izahat, hesablama, proqnozlaşdırma və təklif olunan fəaliyyət tipli, mürəkkəblik dərəcəsinə görə isə sadə, orta və çətin tapşırıqlar daxil edilib.

Qəbul imtahanlarının nəticələrinin statistik göstəriciləri əsasında hər bir test tapşırığı məzmun, mürəkkəblik dərəcəsi və qabiliyyət göstəriciləri baxımından təhlil edilmişdir.

Təhlil onu göstərmişdir ki, bu il I ixtisas qrupuna nisbətən, IV ixtisas qrupu üzrə abituriyentlərin nəticələri əvvəlki illərlə müqayisədə nisbətən yaxşılaşıb.Bununla yanaşı, bir sıra abituriyentlər I ixtisas qrupu üzrə "Maddə miqdarı və Avoqadro qanunu", "Məhlullar", "Azot və onun birləşmələri", "Nitrat turşusu", "Metallar", "Karbohidrogenlər", "Spirtlər", "Karbohidratlar", "İrimolekullu birləşmələr" , IV ixtisas qrupu üzrə isə "Duzların hidrolizi", "Metalların və birləşmələrinin kimyəvi xassələri", "Karbohidrogenlər", "Azot və onun birləşmələri" mövzularına aid tapşırıqlara cavab verməkdə çətinlik çəkiblər.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

9-cu sinif

2.2.1. Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərini tərtib edir.

27 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 61 saylı test tapşırığı

$CuSO_4$ məhluluna dəmir lövhə daxil etdikdə reaksiyanın sonunda lövhənin kütləsi 2 q artırsa, neçə qram mis alınar? $A_r(Fe)=56$, $A_r(Cu)=64$

A) 16 B) 4 C) 32 D) 8 E) 24

9-cu sinifdə tədris olunan "Metallar" mövzusuna aid bu tapşırığa abituriyentlərin 22,94%-i doğru cavab verib, 41,13%-i isə cavab verməkdən imtina edib. Tapşırıq metalların kimyəvi xassələrinə aid hesablama aparmaq kimi bacarıqları yoxlamağa imkan verir.

Tapşırığın yerinə yetirilməsi üçün reaksiya tənliyini yazmaq və onun əsasında hesablama aparmaq lazımdır.

$CuSO_4 + Fe \rightarrow FeSO_4 + Cu$

56 q 64 q

56 q Fe reaksiyaya daxil olduqda, 64 q Cu alınır, lövhənin kütləsi 64-56=8 q artır.

Deməli, lövhənin kütləsi 8 q artırsa ---------- 64 q Cu alınar

lövhənin kütləsi 2 q artırsa ---------- x q Cu alınar

x=16 q

Doğru cavab: A

11-ci sinif

1.3.1. Oksigenli, azotlu üzvi birləşmələrin və polimerlərin tərkibinə, quruluşuna aid hesablamalar aparır, təqdimatlar edir.

27 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 64 saylı test tapşırığı

Monosaxarid	Molekulunda hidroksil qruplarının sayı	Molekulunda karbonun kütlə payı (%)
X	4	*a*

X və *a*-nı müəyyən edin. $A_r(C)=12$, $A_r(H)=1$, $A_r(O)=16$

	X	*a*
A)	saxaroza	60
B)	riboza	40
C)	dezoksiriboza	25
D)	qlükoza	40
E)	riboza	60

11-ci sinifdə tədris olunan "Karbohidratlar" mövzusuna aid bu tapşırığa abituriyentlərin 25,49%-i doğru cavab verib, 39,23%-i isə cavab verməkdən imtina edib. Tapşırıq monosaxaridlərin formulları əsasında hesablama aparmaq kimi bacarıqları yoxlamağa imkan verir.

Tapşırığın yerinə yetirilməsi üçün molekulunda hidroksil qruplarının sayına əsasən monosaxaridin formulunu müəyyən etmək və onun əsasında hesablama aparmaq lazımdır. Molekulunda hidroksil qruplarının sayı 4 olan ribozadır ($C_5H_{10}O_5$).

$M_r(C_5H_{10}O_5)=60+10+80=150$

$\omega(C)=60\cdot100/150=40$ %

Doğru cavab: B

10-cu sinif

1.1.1. Maddələrin (qeyri-üzvi və üzvi) tərkibini, quruluşunu, fiziki xassələrini şərh edir, təqdimatlar hazırlayır.

27 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 76 saylı test tapşırığı



R_1 və R_2 alkil radikalı olarsa, reaksiya nəticəsində hansı alkan alına ***bilməz***?

A) 

B) 

C)

D) 

E) 

10-cu sinifdə tədris olunan "Alkanlar" mövzusuna aid bu tapşırığa abituriyentlərin 21,22%-i doğru cavab verib, 45,71%-i cavab verməkdən imtina edib. Tapşırıq alkanların alınma reaksiyalarını yazmaq və ümumiləşdirmə aparmaq kimi bacarıqları yoxlamağa imkan verir.

Tapşırığın yerinə yetirilməsi üçün Vürs reaksiyası üzrə alkanların alınma reaksiyalarını yazmaq və ümumiləşdirmə aparmaq lazımdır.



Doğru cavab: D

7-ci sinif

1.3.1. Maddələrin formuluna əsasən sadə hesablamalar aparır.

27 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 81 saylı test tapşırığı

Qaz qarışığı	D_{He}
"Guruldayıcı qaz"	X

X-i hesablayın. A_r(He)=4, A_r(H)=1, A_r(O)=16

A) 16 B) 12 C) 3 D) 9 E) 6

7-ci sinifdə tədris olunan "Avoqadro qanunu" və "Hidrogen. Oksigen" mövzularına aid bu tapşırığa abituriyentlərin 6,93%-i doğru cavab verib, 45,06%-i isə cavab verməkdən imtina edib.

Tapşırıq guruldayıcı qazın tərkibini bilmək və onun heliuma görə nisbi sıxlığını hesablamaq kimi bacarıqlarını yoxlamağa imkan verir.

Tapşırığın yerinə yetirilməsi üçün guruldayıcı qazın tərkibini bilmək və onun heliuma görə nisbi sıxlığını hesablamaq lazımdır. Hidrogen və oksigenin $V(H_2):V(O_2)=2:1$ nisbətində qarışığı "Guruldayıcı qaz" adlanır.

$M_{orta}=\frac{2\cdot 2+1\cdot 32}{2+1}=12$; D_{He}=12:4=3

Doğru cavab: C

7-ci sinif

1.3.1. Maddələrin formuluna əsasən sadə hesablamalar aparır.

27 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 84 saylı test tapşırığı

300 q 20%-li KOH məhlulu üzərinə neçə qram KOH əlavə edilməlidir ki, 40%-li məhlul alınsın?

7-ci sinifdə tədris olunan "Məhlullar" mövzusuna aid bu tapşırığa abituriyentlərin 18,56%-i doğru cavab verib, 29,90%-i cavab verməkdən imtina edib.

Tapşırığı yerinə yetirilməsi üçün məhlulların qatılığına aid hesablama aparmağı bacarmaq lazımdır.

Məhlulda m(KOH)=300·20/100=60 q

$\frac{60+x}{300+x}\cdot 100=40;$ x=100 q

Doğru cavab: 100

8-ci sinif

1.1.1.Maddələri (oksidlər, əsaslar, turşular, duzlar) tərkibinə görə təsnif edir.

27 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 86 saylı test tapşırığı

Turşunun 0,1 molunun tamamilə neytrallaşmasına 150 q 8%-li NaOH məhlulu sərf olunmuşdur. Bu turşunun əsaslığını müəyyən edin. M_r(NaOH)=40

8-ci sinifdə tədris olunan "Qeyri-üzvi birləşmələrin mühüm sinifləri" mövzusuna aid bu tapşırığa abituriyentlərin 24,64%-i doğru cavab verib, 54,02%-i isə cavab verməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün turşuların əsaslığını müəyyən etməklə neytrallaşma reaksiyaları əsasında hesablama aparmaq lazımdır.

Məhlulda m (NaOH)=150·8/100=12 q; ν(NaOH)=12:40=0,3 mol.

Turşunun 0,1 molunun neytrallaşmasına 0,3 mol NaOH sərf olunursa, 1 moluna 3 mol NaOH sərf olunar. Deməli, turşu üçəsaslıdır.

Doğru cavab: 3

9-cu sinif

2.2.1. Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərini tərtib edir.

27 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 87 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.

Reaksiya məhsulu	*Reaksiya*
1. $NaOH+H_2$ 2. $Na_2CO_3+O_2$ 3. Na_2CO_3	a. $Na_2O+CO_2 \xrightarrow{t}$ b. $Na+H_2O \longrightarrow$ c. $NaOH+CO_2 \longrightarrow$ d. $Na_2O_2+CO_2 \longrightarrow$ e. $NaH+H_2O \longrightarrow$

9-cu sinifdə tədris olunan "Qələvi metallar" mövzusuna aid bu tapşırığa abituriyentlərin 17,89%-i doğru cavab verib, 22,49%-i isə cavab verməkdən imtina edib. Tapşırıq natriumun birləşmələrinin kimyəvi xassələrinə aid bilikləri yoxlamağa imkan verir.

Tapşırığın yerinə yetirilməsi üçün natriumun birləşmələrinin kimyəvi xassələrinə aid reaksiya tənliklərini yazmağı bacarmaq lazımdır.

a. $Na_2O+CO_2 \xrightarrow{t} Na_2CO_3$

b. $2Na+2H_2O \longrightarrow 2NaOH+H_2$

c. $NaOH+CO_2 \longrightarrow Na_2CO_3+H_2O$

d. $2Na_2O_2+2CO_2 \longrightarrow 2Na_2CO_3+O_2$

e. $NaH+H_2O \longrightarrow NaOH+H_2$

Doğru cavab: *1-b,e; 2-d; 3-a*

9-cu sinif

2.2.2. Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərinə əsasən hesablamalar aparır.

28 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 67 saylı test tapşırığı

12,8 q mis artıqlaması ilə götürülmüş qatı nitrat turşusu ilə reaksiyaya girdikdə neçə litr (n.ş.) qaz alınır? $A_r(Cu)=64$

A) 8,96 B) 2,24 C) 5,6 D) 3,36 E) 4,48

9-cu sinifdə tədris olunan "Nitrat turşusu" mövzusuna aid bu tapşırığa abituriyentlərin 21,56%-i doğru cavab verib, 29,12 %-i cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün nitrat turşusunun metallarla reaksiya tənliyini yazıb onun əsasında hesablama aparmaq lazımdır.

12,8q x *l*

$Cu + 4HNO_{3(qatı)} \rightarrow Cu(NO_3)_2 + 2NO_2\uparrow + 2H_2O$

64 q 44,8 *l*

x=8,96 *l*

Doğru cavab: A

8-ci sinif

1.3.1. Atomun quruluşuna, kimyəvi rabitələrə, elektrolit məhlulunda baş verən proseslərə aid məsələlər qurur və həll edir.

28 iyul tarixli imtahan, I ixtisas qrupu, B variantı, 82 saylı test tapşırığı

1 mol $Ca(NO_3)_2$-ni suda həll etdikdə əmələ gələn ionların sayı $9{,}03\cdot10^{23}$ olarsa, dissosiasiya dərəcəsini (% ilə) hesablayın.

A) 75 B) 25 C) 80 D) 50 E) 70

8-ci sinifdə tədris olunan “Elektrolitik dissosiasiya” mövzusuna aid bu tapşırığa abituriyentlərin 23,01%-i doğru cavab verib, 47,96%-i cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün elektrolitik dissosiasiya prosesinin mahiyyətini başa düşmək və dissosiasiya dərəcəsini hesablamaq lazımdır.

$Ca(NO_3) \rightarrow Ca^{2+} + 2NO_3^-$ tənlikdən görünür ki, 1 mol duz tam dissosiasiya etdikdə 3 mol ion əmələ gəlir. Məsələnin şərtində 1,5 mol ($9{,}03 \cdot 10^{23}$) ion əmələ gəlmişdir. $\alpha = 1{,}5 \cdot 100/3 = 50\%$

Doğru cavab: D

10-cu sinif

1.1.1. Maddələrin (qeyri-üzvi və üzvi) tərkibini, quruluşunu, fiziki xassələrini şərh edir, təqdimatlar hazırlayır.

28 iyul tarixli imtahan, IV ixtisas qrupu, A variantı, 39 saylı test tapşırığı

Alkan molekulunda olan karbon atomlarının sayı qoşulmuş (konyuqə olunmuş) alkadienlərin ikinci nümayəndəsinin molekulundakı karbon atomlarının sayından iki dəfə çoxdur. Alkan molekulundakı hidrogen atomlarının sayını hesablayın.

A) 18 B) 16 C) 22 D) 20 E) 14

10-cu sinifdə tədris olunan “Alkanlar” və “Alkadienlər” mövzlarına aid bu tapşırığa abituriyentlərin 33,30%-i doğru cavab verib, 20,19%-i isə cavab verməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün alkanların və alkadienlərin ümumi fomulları əsasında ümumiləşdirmə aparmaq lazımdır.

Qoşulmuş (konyuqə olunmuş) alkadienlərin ikinci nümayəndəsi C_5H_8-dir. Alkan molekulunda olan karbon atomlarının sayı alkadien molekulundakı karbon atomlarının sayından iki dəfə çox olduğundan onun formulu $C_{10}H_{22}$ olar. Alkan molekulundakı hidrogen atomlarının sayı 22-dir.

Doğru cavab: C

8-ci sinif

1.2.1. Atomun quruluşunu, kimyəvi rabitələri, elektrolit məhlulunda baş verən prosesləri şərh edir.

28 iyul tarixli imtahan, IV ixtisas qrupu, A variantı, 49 saylı test tapşırığı

$FeSO_4$ duzunun hidrolizinin qısa ion tənliyini göstərin.

I. $SO_4^{2-} + HOH \rightleftarrows HSO_4^- + OH^-$

II. $Fe^{2+} + HOH \rightleftarrows FeOH^+ + H^+$

III. $Fe^{2+} + 2HOH \rightleftarrows Fe(OH)_2^+ + H_2$

A) II, III B) I, II C) yalnız III D) yalnız I E) yalnız II

8-ci sinifdə tədris olunan “Duzların hidrolizi ” mövzusuna aid bu tapşırığa abituriyentlərin 17,74%-i doğru cavab verib, 20,38%-i cavab verməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün duzların hidroliz tənliklərini yazmaq lazımdır. $FeSO_4$ duzu kationa görə hidrolizə uğradığından qısa ion tənliyi II. $Fe^{2+} + HOH \rightleftarrows FeOH^+ + H^+$ kimi olar.

Abituriyentlərin 31,32%-i yanlış olaraq ***C*** bəndini qeyd etmişlər. Bilmək lazımdır ki, $FeSO_4$ duzunun hidrolizi zamanı H_2 deyil, H^+ ionları alınır.

Doğru cavab: E

9-cu sinif

2.2.2. Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərinə əsasən hesablamalar aparır.

28 iyul tarixli imtahan, IV ixtisas qrupu, B variantı, 33 saylı test tapşırığı

Maqnezium-nitrat və 81 q maqneziumdan ibarət qarışığı qapalı qabda oksigen mühitində tam közərtdilər. Reaksiyanın sonunda alınan bərk qalığın kütləsi başlanğıc qarışığın kütləsinə bərabər olur. Başlanğıc qarışıqda neçə qram maqnezium-nitrat olmuşdur? $M_r(Mg(NO_3)_2)=148$, $M_r(NO_2)=46$, $M_r(O_2)=32$, $A_r(Mg)=24$

A) 74 B) 148 C) 276 D) 111 E) 162

Test tapşırığı 9-cu sinifdə tədris olunan “Metallar” mövzusu üzrə metalların və onların birləşmələrinin kimyəvi xassələrinə aid hesablama aparmaq bacarıqlarını yoxlamağa imkan verir. Tapşırığa abituriyentlərin 26,10%-i doğru cavab verib, 49,01%-i isə cavab verməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün maqnezium-nitrat və maqneziumun kimyəvi xassələrinə aid reaksiya tənliklərini yazıb onların əsasında hesablama aparmağı bacarmaq lazımdır.

81 q x q

$2Mg + O_2 \rightarrow 2MgO$

48 q 32 q x=54 q

y q 54 q

$2Mg(NO_3)_2 \rightarrow 2MgO + 4NO_2 + O_2$

2·148 q 4·46+32=216 q

y=74 q

Doğru cavab: A

27 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, situasiyaya aid 88- 90 saylı tapşırıqlar.

N_2, CO_2 və NH_3-dən ibarət qaz qarışığı içərisində X (I qabda) və Y (II qabda) maddələrinin artıq miqdarda suda məhlulları olan qablardan şəkildəki ardıcıllıqla keçirilmişdir.



Prosesin sonunda I qabda CO_2 qazının tam udularaq potaşa, II qabda isə NH_3 qazının tam udularaq ammonium şorasına çevrildiyi məlum olmuşdur.

88. X maddəsinin (1) və Y maddəsinin (2) kimyəvi formullarını yazın.

Doğru cavab: Doğru cavab: X maddəsinin formulu – KOH (K_2SiO_3, K_2S); Y maddəsinin formulu –HNO_3.

Bal şkalası	**Meyarlar**
1 bal	A. X və Y maddələrinin formulları doğru yazılıb, ***səhv*** cavab ***yazılmayıb***
$\frac{1}{2}$ bal	B. X və Y maddələrinin hər ikisinin formulları doğru yazılmaqla yanaşı, 1 ***səhv*** cavab da yazılıb C. X və Y maddələrindən hər hansı birinin formulu doğru yazılıb, digəri ***yazılmayıb*** və ya ***səhv*** yazılıb
0 bal	D. X maddəsinin formulu həm doğru, həm də ***səhv*** yazılıb, Y maddəsinin formulu isə ***yazılmayıb*** E. Y maddəsinin formulu həm doğru, həm də ***səhv*** yazılıb, X maddəsinin formulu isə ***yazılmayıb***. F. X və Y maddələrinin hər ikisinin həm doğru, həm də ***səhv*** formulları yazılıb G. Digər bütün hallarda

Tapşırıq vasitəsilə "Kimyəvi hadisələr" məzmun xəttinin 9_2.1.1. (Kimyəvi reaksiyaları təsnif edir, qanunauyğunluqlarını izah edir) alt standartının tələbi üzrə bilik və bacarıqlar yoxlanılır. Abituriyentlərin 4,13%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 10,36%-i 0,5 balla, 25,74%-i 0 balla qiymətləndirilib, 59,77%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Təqdim olunan tapşırıq 9-cu sinifdə tədris olunan "Azot" və"Karbon" mövzularına aid olub, azot və karbon birləşmələrinin kimyəvi xassələri ilə əlaqədar ümumiləşmə və hesablama aparmaq bacarığını yoxlamağa imkan verir.

***Həlli*:** CO_2 ilə reaksiyaya daxil olub potaş – K_2CO_3 əmələ gətirən KOH, ammonyakla ammonium şorası – NH_4NO_3 əmələ gətirən isə HNO_3-dür.

89. I qabda baş verən reaksiyanın tənliyini yazın və əmsallaşdırın.

***Doğru cavab:Reaksiya* 1**. $2KOH+CO_2 \rightarrow K_2CO_3+H_2O$

Reaksiya 2. $K_2SiO_3+CO_2+H_2O \rightarrow K_2CO_3+H_2SiO_3$

Reaksiya 3. $K_2S+CO_2+H_2O \rightarrow K_2CO_3+H_2S$

Bal şkalası	**Meyarlar**
1 bal	A. Tənliklərdən istənilən biri doğru yazılıb və doğru əmsallaşdırılıb, səhv cavab **yazılmayıb**

Bal şkalası	Meyarlar
$\frac{1}{2}$ bal	B. **Reaksiya 1** tənliyi doğru yazılıb, lakin **əmsallaşdırılmayıb** və ya səhv əmsallaşdırılıb, **Reaksiya 2 və Reaksiya 3 yazılmayıb**
0 bal	C. Digər bütün hallarda

Tapşırıq vasitəsilə "Kimyəvi hadisələr" məzmun xəttinin 9_2.2.1. (Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərini tərtib edir) alt standartının tələbi üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 3,78%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla,

0,38%-i 0,5 balla, 28,75%-i 0 balla qiymətləndirilib. 67,10%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Həlli:Tapşırığın şərtinə əsasən, kimyəvi reaksiyalar yazılır və əmsallaşdırılır.

90. II qabda yerləşdirilmiş 200 ml məhlulda olan Y maddəsinin 50%-i (mol ilə) 0,6 mol NH_3 ilə tam reaksiyaya daxil olur. Reaksiyadan əvvəl II qabda olan məhlulun molyar qatılığını (mol/*l*) hesablayın.

Doğru cavab: 6

Bal şkalası	Meyarlar
1 bal	A. Reaksiya tənliyi düzgün tərtib olunub, doğru hesablamalar aparılaraq II məhlulun molyar qatılılığı düzgün tapılıb
$\frac{2}{3}$ bal	B. Reaksiya tənliyi düzgün tərtib olunub, həll prosesinin bütün mərhələləri doğru yazılıb, ancaq vurma bölmə zamanı hər hansı mexaniki səhvə yol verilib və buna görə də doğru cavab ***tapılmayıb***
$\frac{1}{3}$ bal	C. Reaksiya tənliyi düzgün tərtib olunub, reaksiyaya sərf olunan HNO_3 –ün mol miqdarı (0,6 mol) və ilkin məhlulda olan HNO_3 mol miqdarı (1,2 mol) doğru hesablanıb, məhlulun molyar qatılılığı ***hesablanmayıb*** və ya ***səhv*** hesablanıb D. Həlli: 0.6 mol NH_3-ilə reaksiyaya daxil olan HNO_3-ün mol miqdarının tapılması mərhələsi göstərilmədən məsələ aşağıdakı kimi həll edilir və doğru cavab tapılır: $NH_3 + HNO_3 \rightarrow NH_4NO_3$ 0.6 mol ---------- 50 % y ---------- 100 % y= 1.2 mol (HNO_3) $C = \frac{Y}{V} \cdot 1000\,ml$ $C = \frac{1,2\,mol}{200\,ml} \cdot 1000\,ml = 6\frac{mol}{l}$
0 bal	E. Həll üsulları yazılmadan birbaşa cavablar yazılıb F. Digər bütün hallarda

Qeyd: Reaksiya tənliyinin yazılmadığı və ya düzgün yazılmadığı (reaksiyaya daxil olan və alınan maddələrin) istənilən həll üsulu və cavab "0" balla qiymətləndirilir.

Qeyd: Reaksiya tənliyi (reaksiyaya daxil olan və alınan maddələrin) situasiyanın 90-cı sualında yazılmadığı hallarda situasiyanın 88 və 89-cu suallarına baxılır.

Tapşırıq vasitəsilə "Kimyəvi hadisələr" məzmun xəttinin 9_2.2.2. (*Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərinə əsasən hesablamalar aparır*) alt standartının tələbi üzrə bilik və bacarıqlar yoxlanılır.

Abituriyentlərin 5,78%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 0,95%-i 0,5 balla, 17,11%-i 0 balla qiymətləndirilib. 75,83%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib. Təqdim olunan tapşırıq 9-cu sinifdə tədris olunan "Azot" və"Karbon" mövzularına aiddir**.**

Həlli: Reaksiya tənliyinə əsasən 200 ml məhlulda neçə mol Y maddəsinin olduğu və məhlulun molyar qatılığı hesablanır.

0,6mol x mol

NH_3 + $HNO_3 \rightarrow NH_4NO_3$

1mol 1 mol x=0,6

0,6------50 %

y ------100 % y=1,2 mol; C=1,2/0,2=6 mol/l

"Biologiya" fənnindən qəbul imtahanında istifadə edilmiş tapşırıqlar fənn kurikulumuna görə 4 **("Canlıların quruluşu və müxtəlifliyi", "Bioloji proseslər", "İnsan və onun sağlamlığı", "Canlılar və ətraf mühit")** məzmun xətti üzrə 6 əsas standartın və 72 alt standartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Qəbul imtahanında aşağıdakı bilik və bacarıqların yoxlanılması və qiymətləndirilməsi nəzərdə tutulub:

1. Əsas bioloji qanun və qanunauyğunluqları, canlı varlıqların quruluşu və əlamətlərini, bioloji proses və hadisələrin mahiyyətini, terminologiyanı və insan orqanizminin xüsusiyyətlərini bilmək və başa düşmək;
2. Bioloji proseslər arasındakı əlaqələri başa düşmək və təhlil etmək, bioloji məsələləri həll etmək, sxemlər qurmaq, bioloji varlıqların xüsusiyyətlərini müqayisə edərək nəticə çıxarmağı bacarmaq;
3. Qazanılmış bilik və bacarıqları ətraf mühitin qorunmasında, sağlam həyat tərzinin keçirilməsində tətbiq etmək.

İmtahanda istifadə olunmuş tapşırıqlar "Botanika", "Zoologiya", "İnsan" və "Ümumi biologiya" bölmələrini əhatə edib. 30 tapşırığın bölmələr üzrə paylanması aşağıdakı kimi olub: "Botanika" – 6, "Zoologiya" – 6, "İnsan" – 8 , Ümumi biologiya" – 10. Abituriyentlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması və qiymətləndirilməsi məqsədilə test bloklarına, qabiliyyət göstəricilərinə görə terminoloji, faktoloji, ümumiləşdirmə, izahat, hesablama, proqnozlaşdırma və təklif olunan fəaliyyət xarakterli, mürəkkəblik dərəcəsinə görə sadə, orta və çətin tapşırıqlar daxil edilib.

Test blokunda canlı aləmdə baş verən bioloji hadisə və proseslərin mahiyyətinin dərk olunmasını tələb edən, bitki və heyvanların təsnifatı, fizioloji və ekoloji xüsusiyyətləri, habelə onların həyat fəaliyyəti sahəsində bilik və bacarıqları yoxlayan, ümumiləşdirmə və məntiqi düşüncəyə istinad edərək qazanılmış biliklərin tətbiqinə əsaslanan tapşırıqlar üstünlük təşkil edib.

İmtahan nəticələrinin statistik göstəricilər üzrə təhlili göstərir ki, abituriyentlərin bir çoxu mamırların çoxalması, onlarda nəsil növbələşməsinin təzahürləri, insan skeleti, qanın tərkibi, qanın formalı elementlərinin quruluşu və funksiyaları, insanın endokrin sistemi, parazit yastı qurdlar və onların həyat dövriyyəsinin xüsusiyyətlərinə aid ümumiləşdirmə və izahat, təklif olunan fəaliyyət xarakterli test tapşırıqlarına yaxşı cavab verib. Bununla yanaşı, bir sıra abituriyentlər bakteriyalar aləminin müxtəlif qruplarının səciyyəvi xüsusiyyətləri, üzvi aləmin təkamülünün mərhələləri, müxtəlif era və dövrlərdə baş verən hadisələr, canlı hüceyrələrdə gedən endotermik və ekzotermik proseslərə və habelə qeyri-allel genlərin qarşılıqlı təsiri mexanizmi və kəmiyyətlərinə dair nəzəri biliklərin tətbiqi tələb olunan, mövzulararası əlaqəyə aid hesablama xarakterli test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkib.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

10-cu sinif

2.1.2. Maddələr mübadiləsində baş verən dəyişikliklərin mexanizmini şərh edir, təqdimatlar hazırlayır.

28 iyul tarixli imtahan, A variantı, 15 saylı test tapşırığı

Endotermik reaksiyaların tənliklərini müəyyən edin.

1. $ADF+H_3PO_4 \longrightarrow ATF+H_2O$
2. $6CO_2+6H_2O \xrightarrow[\text{xlorofil}]{h\nu} C_6H_{12}O_6+6O_2$
3. $C_6H_{12}O_6+2ADF+2H_3PO_4 \longrightarrow 2C_3H_6O_3+2ATF+2H_2O$

A) 2, 3 B) yalnız 3 C) 1, 2 D) yalnız 2 E) 1, 3

"Hüceyrənin biokimyası" bölməsinə aid, bu test tapşırığına abituriyentlərin 20,75%-i doğru cavab verib, 16,89%-i isə cavab verməkdən imtina edib. 10-cu sinif "Biologiya" dərsliyində tədris olunan müvafiq materialdan məlumdur ki, hüceyrədə baş verən plastik mübadilə zamanı nisbətən sadə quruluşlu maddələrdən mürəkkəb quruluşlu maddələr sintez olunur. Bu proseslər enerjinin udulması ilə müşayət edilir, yəni bu reaksiyalar endotermik reaksiyalardır. Üzvi maddələrin tam parçalanması, yəni energetik mübadilə isə ekzotermik reaksiyalar olub, enerjinin ayrılması ilə baş verir. Belə ki, zülalların, polisaxaridlərin və digər polimerlərin əmələ gəlməsi, fotosintez prosesi, eləcə də ATF molekullarının sintezi enerjinin udulması ilə nəticələnir. Bunları nəzərə alaraq tapşırığın şərtində göstərilən 1-ci (ATF-in sintezi) və 2-ci (karbon qazı və sudan qlükozanın sintezi) tənliklər endotermik reaksiyaların tənliyi hesab edilir. 3-cü tənlik isə sitoplazmada baş verən oksigensiz parçalanma – qlikoliz prosesinin tənliyi olub, ekzotermik reaksiyalara aiddir.

Doğru cavab: C.

10-cu sinif

1.1.4. Makrotəkamül haqqında məlumat toplayır və təqdimat hazırlayır.

28 iyul tarixli imtahan, A variantı, 23 saylı test tapşırığı

Paleozoy erasının devon dövründə baş ***verməyib***:

1. Rüşeym kökcüyü əmələ gətirən generativ orqanın meydana çıxması
2. Trilobitlərin nəslinin kəsilməsi
3. Bitkilərin quruya çıxması
4. Steqosefalların meydana çıxması
5. Qıjıların və qatırquyruğuların meydana çıxması
6. Dişlərin ixtisaslaşması

"Yer üzərində həyatın əmələ gəlməsi. Makrotəkamül" bölməsinə aid olan açıq tipli bu tapşırığa abituriyentlərin 27,36%-i doğru cavab verib, 18,11%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün canlıların təkamülünün geoxronologiyası ilə yanaşı, həm də müxtəlif bitki və heyvan qruplarının səciyyəvi əlamətlərinin möhkəm mənimsənilməsi tələb edilir. 10-cu siniflər üçün "Biologiya" dərsliyində təqdim edilmiş geoxronoloji cədvəldəki məlumatdan müəyyən etmək olar ki, ilk çılpaqtoxumlu bitkilər paleozoy erasının devon dövründə meydana çıxmışlar. Rüşeym kökcüyünü əmələ gətirən generativ orqan – toxum da ilk dəfə olaraq məhz bu bitkilərdə əmələ gəlmişdir. İlk suda-quruda yaşayanların nümayəndəsi hesab edilən steqosefallar, qıjılar, qatırquyruğular da paleozoy erasının devon dövründə meydana çıxmışlar.

Lakin trilobitlərin nəslinin kəsilməsi, həmçinin ilk dəfə ixtisaslaşmış dişlərə malik olan yırtıcıdişli sürünənlərin yaranması paleozoy erasının perm, bitkilərin quruya çıxması isə ordovik dövründə baş vermişdir.

Doğru cavab: 2, 3, 6

7-ci sinif

2.1.1. Müxtəlif canlılarda gedən həyati prosesləri fərqləndirir.

28 iyul tarixli imtahan, A variantı, 25 saylı test tapşırığı

Şəkildə göstərilən quruluşda ürəyə malik heyvanın aid olduğu sinfin nümayəndələri üçün xarakterik ***deyildir***:

1. qırışlı qabıqla örtülmüş beyin yarımkürələri
2. vəzili və əzələli şöbələrdən ibarət mədə
3. qalıq halında olan üçüncü göz qapağı
4. çiyin qurşağında 3 sümük müxtəlifliyi
5. sağ yumurtalığın reduksiyaya uğraması
6. əzələli diafraqma

"Quşlar. Məməlilər" bölməsinə aid bu test tapşırığına abituriyentlərin 32,64%-i doğru cavab verib, 8,40%-i isə cavab verməkdən imtina edib. 7-ci siniflər üçün "Biologiya" dərsliyindəki müvafiq materialdan məlumdur ki, quşların ürəyi dördkameralı olub, məməlilərin ürəyindən fərqli olaraq sol mədəcikdən sağ aorta qövsünün çıxması ilə səciyyələnir. Məhz bu əlamətə görə şəkildə quşların ürəyinin sxematik təsvirinin verilməsini müəyyən etmək olar. Quşlarda mədə mürəkkəb olub iki şöbədən – vəzili və əzələli şöbələrdən ibarətdir. Onların çiyin qurşağı iki kürək, iki körpücük və iki qarğa sümüyündən, yəni üç sümük müxtəlifliyindən təşkil olunmuşdur. Dişilərin cinsiyyət sistemində isə sağ yumurtalıq reduksiyaya uğramışdır. Tapşırıqda göstərilən əlamətlərdən birincisi, yəni qırışlı qabıqla örtülmüş beyin yarımkürələri isə quşlara deyil, məməlilərə xas əlamətdir. Quşlarda yalnız beyinciyin üzəri qırışlı qabıqla örtülmüş olur. Quşlarda yaxşı inkişaf etmiş üçüncü göz qapağı olur, əzələli diafraqma isə onların deyil, məməlilərin səciyyəvi əlamətidir.

Doğru cavab: 1, 3, 6

9-cu sinif

2.1.1. Bioloji proseslərin mahiyyət və məzmunu ilə bağlı təqdimatlar hazırlayır.

28 iyul tarixli imtahan, A variantı, 26 saylı test tapşırığı

Formalaşmış nüvəyə malik ***olmayan*** canlıların aid olduğu aləmdə:

1. mitoz bölünməyə rast gəlinmir
2. xlorofilə malik olan növlərə rast gəlinir
3. çoxhüceyrəli nümayəndələrə rast gəlinir
4. xlorofili olmayan produsent nümayəndələrə rast gəlinir
5. plazmidlərə rast gəlinmir
6. urasilli nukleotidə rast gəlinmir

"Mövzulararası əlaqə" bölməsinə aid bu tapşırığa abituriyentlərin 18,58%-i doğru cavab verib, 12,83%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün 9-cu sinif üçün "Biologiya" dərsliyindəki müvafiq tədris materialını tam qavrayıb ümumiləşdirmə aparmaq lazımdır. Məlumdur ki, canlı təbiətdə mövcud olan 4 aləmdən yalnız bakteriyalar aləminin nümayəndələri formalaşmış nüvəyə malik deyil. Tapşırığın şərtində verilmiş mülahizələrin bakteriyalara aid olub-olmamasını müəyyən etmək lazımdır: 1. Bakteriyalar mitozla deyil, yalnız sadə bölünmə yolu ilə çoxalır; 2. Fotosintezedici bakteriyalar xlorofilə malikdir; 3. Bakteriyalar yalnız birhüceyrəli quruluşa malikdir; 4. Xemosintezedici bakteriyalar produsentdir, lakin xlorofilə malik deyil; 5. Bakteriyalarda plazmidlərə – xromosomdan kənar DNT molekullarına rast gəlinir; 6. Bakteriyalarda həm DNT, həm də RNT molekulları (yəni urasilə malik nuklein turşusu) olur.

Doğru cavab: 1, 2, 4.

28 avqust tarixli imtahan, A variantı, situasiyaya aid 28- 30 saylı tapşırıqlar

Adadovşanlarında tükün rəngi iki cüt allellə müəyyən olunur. Bunlardan birinci cütü rəngin əsas alleli (D – d), ikinci cütü isə piqmentin paylanmasını təmin edən alleldir (A – a). Bu qeyri – allel genlərin qarşılıqlı təsirindən asılı olaraq adadovşanları 3 rəngdə ola bilər: boz, qara və ağ.

Təcrübə aparılan adadovşanların		
nömrəsi	rəngi	genotipi
1	boz	rəngin əsas allelinə görə homoziqot, piqmentin paylanması allelinə görə heteroziqot
2	boz	diheteroziqot

Cərrahiyyə yolu ilə 1 nömrəli adadovşanının toxumluqları 2 nömrəliyə, 2 nömrəli adadovşanının toxumluqları isə 1 nömrəliyə köçürülmüşdür. Əməliyyatdan sonra 2 nömrəli erkək adadovşanı ağ heteroziqot dişi adadovşanı ilə çarpazlaşdırılmışdır. Hər üç adadovşanı normal çoxalma qabiliyyətinə malikdir və mutasiya baş verməmişdir.

28. Əməliyyatdan sonra 1 nömrəli adadovşanı hansı genotipə malik spermatozoidlər əmələ gətirə bilər?

Doğru cavab: Əməliyyatdan əvvəl **1 nömrəli adadovşanı** – **DDAa (AaDD)**, **2 nömrəli adadovşanı – DdAa (AaDd)** genotiplərinə sahib idi. Əməliyyatdan sonra **1 nömrəli adadovşanı – DdAa** genotipinə sahib olacaq və bu genotipə sahib fərd aşağıdakı spermatozoidləri əmələ gətirəcək: DA (AD), Da (aD), dA (Ad), da (ad).

Bal şkalası	**Meyarlar**
1 bal	A. Əməliyyatdan sonra **1 nömrəli adadovşanının** əmələ gətirdiyi spermatozoidlərin 4-nün də genotipi düzgün *(DA, Da, dA, da və ya AD, aD, Ad,ad)* yazılır, səhv cavab ***yazılmır***
$\frac{1}{2}$ bal	B. Spermatozoidlərin genotiplərinin 3-ü düzgün yazılıb (**dA** və ya **da** qametlərindən hər hansı biri yazılmaq şərti ilə), səhv cavab ***yazılmayıb*** və ya 1 ***səhv*** cavab yazılıb C. Spermatozoidlərin düzgün genotiplərinin 4-ü də yazılıb, lakin əlavə 1 və ya 2 ***səhv*** cavab yazılıb
0 bal	D. Əməliyyatdan əvvəl **1 nömrəli adadovşanı**nın əmələ gətirdiyi spermatozoidlər yazılır E. Əməliyyatdan sonra **1 nömrəli adadovşanı**nın genotipi doğru yazılır, onun əmələ gətirdiyi spermatozoidlər **yazılmır** F. Əməliyyatdan sonra **1 nömrəli adadovşanı**nın genotipi ***səhv*** yazıldığı bütün hallarda G. Digər bütün hallarda

Tapşırıq vasitəsilə "Bioloji proseslər" məzmun xəttinin 10_2.1.3. (*Bioloji proseslərdə baş verən dəyişikliklərin mexanizmini müxtəlif üsullarla əsaslandırır*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır. Abituriyentlərin 34,72%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 0,66%-i $\frac{1}{2}$ balla, 29,91%-i 0 balla qiymətləndirilib, 34,72%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Həlli: Tapşırıq "Genetika" bölməsinə aiddir. Tapşırığın yerinə yetirilməsi üçün 10-cu sinif "Biologiya" dərsliyindən müvafiq materialı mənimsəmək lazımdır. Şərtə əsasən, əməliyyatdan əvvəl 1 nömrəli adadovşanının genotipi *–DDAa*, 2 nömrəli adadovşanının genotipi isə *DdAa*-dır. 1 nömrəli adadovşanına cərrahiyyə yolu ilə 2 nömrəlinin toxumluqları köçürüldüyü üçün o, diheteroziqot olur (*DdAa*). Ona görə də bu genotipə malik adadovşanı 4 qamet sortu əmələ gətirir: *DA, Da, dA, da.*

29. Çarpazlaşma nəticəsində alınan nəslin mümkün olan genotiplərini müəyyən edin (Pennet cədvəlini qurmaqla).

Doğru cavab: Əməliyyatdan sonra **2 nömrəli adadovşanı (erkək) – DDAa** genotipinə sahib olduğundan, ***DA, Da*** malik spermatozoidləri, **ddAa** genotipinə malik **dişi adadovşanı isə *dA, ad*** malik qametlərini əmələ gətirəcək.

Pennet cədvəli:

♀ ♂	**DA**	**Da**
dA	DdAA	DdAa
da	DdAa	Ddaa

Genotiplər: *DdAA*, *DdAa*, *Ddaa* və ya *AaDd*, *AADd*, *aaDd*

Bal şkalası	**Meyarlar**
1 bal	A. Pennet cədvəli düzgün qurulub, cavablar (genotiplər) düzgün yazılıb (DdAa, DdAA, Ddaa və ya AaDd, AADd, aaDd), səhv cavab ***yazılmayıb***
$\frac{1}{2}$ bal	B. Pennet cədvəli düzgün qurulub, alınan genotiplər ***yazılmayıb***, səhv cavab yoxdur C. Pennet cədvəlində genotiplərin hər hansı 1-i ***səhv*** yazılıb, cavabda genotiplər ***yazılmayıb*** və yaxud 1və ya 2 səhvlə yazılıb D. Pennet cədvəli düzgün qurulub, cavabda genotiplərin ən azı 2-si düzgün yazılıb, 1-i isə ***səhv*** yazılıb və ya ***yazılmayıb*** E. Pennet cədvəli düzgün qurulub, cavablar (genotiplər) ***yazılmayıb***, ancaq genotip sayı ***səhv*** yazılıb və ya genotip əvəzindən fenotiplər (boz və qara, yaxud boz,ağ və qara) yazılıb, dəqiq cavab yoxdur F. Pennet cədvəli ***qurulmayıb***, ancaq bütün genotiplər düzgün göstərilib, səhv yoxdur
0 bal	G. Pennet cədvəli düzgün qurulub, ancaq ***səhv*** cavabların (genotiplərin) sayı 3 və daha çoxdur H. Pennet cədvəlinin doğru ***olmadığı*** bütün hallarda I. Digər bütün hallarda

Tapşırıq vasitəsilə "Bioloji proseslər" məzmun xəttinin 10_2.1.3. (*Bioloji proseslərdə baş verən dəyişikliklərin mexanizmini müxtəlif üsullarla əsaslandırır*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır. Abituriyentlərin 23.87%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla,3.68%-i 0,5 balla, 33.40%-i 0 balla qiymətləndirilib, 39.06%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Həlli: Tapşırığın şərtinə əsasən, 2 nömrəli adadovşanına 1 nömrəlinin toxumluqları köçürüldüyü üçün o, *DDAa* genotipinə malik olur. Bu adadovşanı *DA* və *Da* tipli spermatazoidlər əmələ gətirir. Ağ heteroziqot adadovşanı isə *ddAa* genotipinə malikdir və *dA* və *da* tipli yumurta hüceyrələr əmələ gətirir. Bu qametlərə əsasən Pennet cədvəli tərtib olunur.

♀ ♂	**DA**	**Da**
dA	DdAA	DdAa
da	DdAa	Ddaa

30. Çarpazlaşma nəticəsində alınan nəsildə hər bir fenotipin ən çox ehtimal olunan faizini müəyyən edin.

Doğru cavab: Pennet cədvəlindən göründüyü kimi 4 fərddən 3-ü boz, 1-i isə qara rəngdə olacaq.

Fenotip	Ən çox ehtimal olunan faizi
Boz	75% (0,75)
Qara	25% (0,25)

Bal şkalası	**Meyarlar**
1 bal	A. Çarpazlaşma nəticəsində alınan nəsildə **hər bir fenotipin** ən çox ehtimal olunan faizi düzgün müəyyən olunur, səhv cavab ***yazılmır***
$\frac{1}{2}$ bal	B. Alınan fenotiplərdən hər hansı birini və faizini düzgün yazıb (boz-75% və ya qara – 25%), ikincisini isə ümumiyyətlə ***yazmayıb*** və ya ***səhv*** yazıb C. Alınan fenotiplər düzgün yazılıb (boz və qara, yaxud fenotip yazısı ilə (***DA və Da***), faizlərdən hər hansı biri düzgün yazılıb, digəri ümumiyyətlə ***yazılmayıb*** və ya ***səhv*** yazılıb D. Alınan fenotiplər və hər birinin faizi düzgün yazılıb, lakin əlavə 1 ***səhv*** cavab da yazılıb
0 bal	E. Səhv cavabların sayı 2 və daha çoxdur F. Genotiplərə ayrılaraq faizlə (25%, 50% və 25%) göstərilib G. Digər bütün hallarda

Tapşırıq "Genetika" bölməsinə aiddir. Tapşırıq vasitəsilə "Bioloji proseslər" məzmun xəttinin 10_2.1.3. (*Bioloji proseslərdə baş verən dəyişikliklərin mexanizmini müxtəlif üsullarla əsaslandırır*) alt standartının tələbləri üzrə bilik və bacarıqlar yoxlanılır. Abituriyentlərin 21.04%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla, 3.49%-i 0,5 balla, 34.53%-i 0 balla qiymətləndirilib, 40.94%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Həlli:Tapşırığın şərtinə əsasən, boz (*DDAa*) və ağ (*ddAa*) adadovşanlarının çarpazlaşması nəticəsində 3:1 nisbətində boz və qara rəngli fərdlər əmələ gəlir. Deməli, boz adadovşanları alınan nəslin 75%-ni, qara adadovşanları isə 25%-ni təşkil edir.

I–IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən abituriyentlərin 22.4%-i (15171 nəfər) imtahan verdikləri fənlərin ən azı birindən sıfır bal toplayıb

I–IV ixtisas qrupları üzrə qəbul imtahanlarında iştirak edən abituriyentlərin 22.4%-i imtahan verdikləri fənlərin biri və ya bir neçəsi üzrə test suallarına ya cavab verməmiş, yaxud da cavabları təhlil aparmadan təsadüfi qaydada seçmişdir. Təbii ki, belə abituriyentlərin yanlış cavablarının sayı düzgünlərin sayından qat-qat çox olmuş, nəticədə düzgün cavabların yanlış cavablar nəzərə alınmaqla təshih edilmiş qiyməti sıfırdan kiçik alınmış və qəbul qaydalarına əsasən sıfıra bərabər qəbul olunmuşdur. Təəssüf ki, gənclər arasında birtərəfli hazırlıqla ali təhsil müəssisələrinə qəbul olmaq arzusunda olanlar hələ də var. DİM imtahan fənləri üzrə də minimal tələblər qoyub və məhdudiyyətlər tətbiq edirdi. Cari ildə isə imtahan fənləri üzrə heç bir məhdudiyyət tətbiq edilməmişdir.

DİM şagird və abituriyentlərin nəinki imtahan fənlərinə, həmçinin ümumtəhsil məktəblərində tədris olunan digər fənlərə lazımi diqqət göstərməsinin tərəfdarıdır. Sirr deyil ki, hazırda məktəblərdə yuxarı sinif şagirdlərinin, əsasən, seçdikləri ixtisas qrupuna aid fənlərə üstünlük verməsi, digər fənləri isə, heç olmasa, proqramın minimum tələbləri səviyyəsində öyrənməməsi, məktəb rəhbərlərinin də bu vəziyyətə göz yumması halları mövcuddur. Məktəb rəhbərləri, eləcə də müəllimlər şagirdlərin bütün fənlər üzrə ən azı minimum proqram həcmində bilik almasına nail olmalı, imtahana düşən fənləri yaxşı bildiklərinə görə digər fənləri lazımınca öyrənməmələrinə güzəşt etməməlidirlər.

Aşağıdakı cədvəllərdə ayrı-ayrı fənlər üzrə sıfır bal toplayan abituriyentlərin faizi təqdim edilib.

Cədvəl 1.29

İMTAHAN FƏNLƏRİNDƏN SIFIR (0) BAL TOPLAMIŞ AZƏRBAYCAN BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN FAİZİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ 0 BAL TOPLAMIŞ ABİTURİYENTLƏRİN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	Xarici dil	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	0.04	0.45	0.08			14.68	13.05	11.91			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	0.05	0.97	0.09			20.60				10.68	11.97
III	Humanitar, pedaqogika ixtisasları	0.02	0.94	0.09	1.59	3.64					8.89	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	0.05	0.36	0.05				6.82	7.10	4.21		
V	İncəsənət, musiqi, idman ixtisasları	0.05	0.99	0.11								

Cədvəl 1.30

İMTAHAN FƏNLƏRİNDƏN SIFIR (0) BAL TOPLAMIŞ RUS BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN FAİZİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ 0 BAL TOPLAMIŞ ABİTURİYENTLƏRİN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	Xarici dil	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	0.00	0.27	0.00			12.14	9.92	8.65			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	0.21	0.84	0.07			18.57				8.94	10.88
III	Humanitar, pedaqogika ixtisasları	0.00	1.01	0.13	1.20	1.46					11.52	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	0.00	0.34	0.00				7.06	5.88	3.53		
V	İncəsənət, musiqi, idman ixtisasları	0.10	1.02	0.13								

Cədvəllərdə sıfır bal toplayanların faizi qruplar üzrə verilib. Ümumilikdə, I mərhələdə sıfır bal toplayanlar çox azdır. Bunun əsas səbəbi kimi bu mərhələdə II mərhələdən fərqli olaraq qapalı tipli test tapşırıqları üzrə yanlış cavablara görə cərimə tətbiq olunmaması və bu cavabların ümumi bala təsir göstərməməsidir. Nəticədə, abituriyentlər I mərhələdə daha cəsarətli davranırlar və hətta cavablarını bilmədikləri test tapşırıqlarını da cavablandırırlar ki, bu da öz növbəsində təsadüfi şəkildə düzgün cavabların qeyd olunması ehtimalını artırır.

II mərhələdə ana dili, ədəbiyyat və biologiya fənləri üzrə sıfır bal toplayan abituriyentlərin faizi digər fənlərə nisbətən azdır. Sıfır bal toplayanlar ən çox riyaziyyat, fizika və coğrafiya fənləri üzrədir. Bu fənlər üzrə abituriyentlərin nəticələrinin aşağı olması və sıfır bal toplayanların sayının çoxluğu bir sıra məktəblərdə həmin fənlərin tədrisinə, eləcə də bu fənlər üzrə qəbula hazırlıq prosesinə laqeyd münasibətin nəticəsidir.

İstənilən halda, bunun real səbəbləri aydınlaşdırılmalı və həmin fənlərə münasibətin dəyişdirilməsi üçün tədbirlər görülməlidir.

II mərhələdə imtahan fənlərindən sıfır bal toplayan abituriyentlər Azərbaycan bölməsində çoxluq təşkil edir. Rus bölməsi ilə müqayisədə bu bölmə üzrə I və II ixtisas qruplarında bütün fənlər üzrə, III qrupda ana dili və ədəbiyyat, IV qrupda kimya və biologiya fənlərindən sıfır bal toplayanlar nisbətən daha çoxdur.

Məlum olduğu kimi 2019-cu ildən etibarən müsabiqə şərti kimi imtahan fənləri üzrə heç bir məhdudiyyət qoyulmur. I-IV ixtisas qruplarına daxil olan ixtisaslar üzrə ali təhsil müəssisələrinə qəbul olanlar arasında 5624 nəfərin altı imtahan fənnindən (hər iki mərhələ üzrə birlikdə) heç olmasa, biri üzrə nisbi balı 10-dan az olmuşdur. Onlardan 5043 nəfərin yalnız bir, 560 nəfərin iki, 21 nəfərin isə üç imtahan fənni üzrə nisbi balı 10-dan az olmuşdur. Ən azı 1 fənn üzrə nisbi balı 10-dan az olan abituriyentlərin 22.32%-i (yalnız 1 fənn üzrə nisbi balı 10-dan az olanların 19.79%-i, 2 fənn üzrə nisbi balı 10-dan az olanların 43.39%, 3 fənn üzrə nisbi balı 10-dan az olanların 66.67%-i) 200-dən az bal toplayıb. I-IV ixtisas qruplarına daxil olan ixtisaslar üzrə ali təhsil müəssisələrinə qəbul olanlar arasında I mərhələdə ana dili fənni üzrə 17, riyaziyyat fənni üzrə 842 və xarici dil fənni üzrə 132 abituriyentin topladığı nisbi balı 10-dan az olub. II mərhələdə ana dili fənni üzrə 35, ədəbiyyat fənni üzrə 30, riyaziyyat fənni üzrə 2353, fizika fənni üzrə 720, kimya fənni üzrə 519, biologiya fənni üzrə 30, tarix fənni üzrə 1003, coğrafiya fənni üzrə 545 abituriyentin topladığı nisbi balı 10-dan az olub.

Bu il qəbul imtahanlarının II mərhələsində Azərbaycan bölməsi abituriyentlərinin ana dili, riyaziyyat və kimya fənləri istisna olmaqla, digər bütün fənlər üzrə göstəriciləri rus bölməsi abituriyentlərinin göstəricilərindən yüksəkdir. Belə üstünlük özünü biologiya və tarix fənləri üzrə daha qabarıq şəkildə göstərib. I mərhələdə isə bütün fənlər üzrə rus bölməsinin abituriyentlərinin göstəriciləri yüksək olmuşdur. Aşağıda Azərbaycan və rus bölmələri abituriyentlərinin fənlər üzrə düzgün cavablarının müqayisəsini ifadə edən 1.22 saylı şəkli təqdim edilir.

AZƏRBAYCAN VƏ RUS BÖLMƏLƏRİ ABİTURİYENTLƏRİNİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ DÜZGÜN CAVABLARININ (FAİZLƏ) MÜQAYİSƏSİ DİAQRAMI



Şəkil 1.22

Müsabiqə şərtlərini ödəyərək ixtisas seçimində iştirak edən abituriyentlər seçməsi üzrə Azərbaycan və rus bölmələri abituriyentlərinin II mərhələdə imtahan fənləri üzrə düzgün cavablarının müqayisəsi göstərir ki, burada artıq bütün fənlər üzrə Azərbaycan bölməsinin abituriyentlərinin göstəriciləri daha üstündür (bax: şəkil 1.23). I mərhələdə isə Azərbaycan bölməsinin abituriyentlərinin göstəriciləri yalnız riyaziyyat fənni üzrə üstündür.

AZƏRBAYCAN VƏ RUS BÖLMƏLƏRİNİN MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİNİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ DÜZGÜN CAVABLARININ (FAİZLƏ) MÜQAYİSƏSİ DİAQRAMI



Şəkil 1.23

Ölkənin ayrı-ayrı bölgələrini təmsil edən abituriyentlərin imtahan fənləri üzrə cavablarının təhlili göstərir ki, fənlər üzrə ən yüksək nəticə, əsasən, birbaşa Təhsil Nazirliyinin tabeliyində olan liseylərə və özəl liseylərə məxsusdur. Fənlər üzrə şəhər və rayon təhsil şöbələrinin göstəricilərinin təhlilindən aydın olur ki, kənd rayonlarının bir çox fənlər üzrə göstəriciləri Bakı və Sumqayıt şəhərlərinin göstəricilərini qabaqlayır. Belə rayonlara misal olaraq Neftçala, Qəbələ, Salyan, Masallı, İsmayıllı, Yardımlı, Gədəbəy, Lerik, İmişli, Ağcabədi, Oğuz, Ağstafa, Tovuz, Culfa, Zaqatala, Biləsuvar, Şərur, Bərdə, Yevlax və Şəki rayonlarını göstərmək olar. Bunun obyektiv səbəblərindən biri kimi qəbul imtahanlarında bu şəhərlərin məzunlarının daha çox hissəsinin, rayonların isə yalnız hazırlıqlı məzunlarının iştirak etməsini göstərmək olar. Məsələn, bu il Bakı şəhəri üzrə məzunların 84.85%-i, Sumqayıt şəhəri üzrə 86.80%-i qəbul imtahanlarında iştirak etmişdir. Yüksək göstəricili rayonlar üzrə (Şərur və Culfa rayonları istisna olmaqla) isə məzunların ən yaxşı halda 46–75%-i ali təhsil müəssisələrinə sənəd vermişdir.

Aşağıdakı cədvəllərdən göründüyü kimi, Azərbaycan bölməsində ana dili, riyaziyyat, fizika, biologiya və coğrafiya fənləri üzrə Sumqayıt şəhərinin, ədəbiyyat fənni üzrə Qubadlı rayonunun, kimya fənni üzrə Masallı rayonunun, tarix fənni üzrə isə Neftçala rayonunun abituriyentləri üstünlük əldə etmişdir.

Rus bölməsi abituriyentlərinin böyük əksəriyyətini Bakı, Sumqayıt və Gəncə şəhərlərinin məzunları təşkil etdiyindən yüksək göstəricilər də bu şəhərlər arasında paylanıb (bax: səh. 137, cədvəl 1.40).

Müəyyən bölgələrin ayrı-ayrı fənlər üzrə qəbul imtahanlarındakı yüksək göstəriciləri artıq ənənə halını almışdır. Məsələn, Azərbaycan bölməsi üzrə ana dili fənnindən Sumqayıt şəhəri, Qubadlı və Qəbələ rayonları, ədəbiyyat fənnindən Mingəçevir şəhəri və Qəbələ rayonu, riyaziyyat fənnindən Sumqayıt şəhəri və İsmayıllı rayonu, kimyadan Sumqayıt şəhəri, biologiyadan Bakı və Sumqayət şəhərləri, Abşeron və Şəki rayonları, coğrafiyadan Sumqayıt şəhəri və Qəbələ rayonu bütün illərdə ən yüksək göstəricili bölgələr sırasındadır. Şübhəsiz, bu göstəricilər müvafiq şəhər və rayonların təhsil orqanları və müəssisələrinin səmərəli fəaliyyətinin nəticəsidir. Onların iş təcrübəsini respublika miqyasında yaymaq müvafiq elmi-metodik mərkəzlərin və mütəxəssislərin ümdə vəzifələrindən biri olmalıdır. Bundan bütövlükdə respublikanın təhsil sistemi qazanar.

Ayrı-ayrı fənlər üzrə ən yüksək nəticə göstərən təhsil şöbələri və liseylərin siyahısı 1.31-1.38 saylı cədvəllərdə təqdim edilir. Statistik rəqəmlərin etibarlı olması və reallığı dürüst əks etdirməsi məqsədilə cədvəllərdə abituriyentlərinin sayı 100-dən az olmayan rayonlar verilib. Biologiya fənni üzrə imtahan verən abituriyentlərin sayının nisbətən az olmasını nəzərə alaraq, müvafiq cədvələ abituriyentlərinin sayı 50-dən az olmayan rayonlar daxil edilib.

ABİTURİYENTLƏRİ II MƏRHƏLƏDƏ İMTAHAN FƏNLƏRİ ÜZRƏ YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ TƏHSİL ŞÖBƏLƏRİ VƏ LİSEYLƏR (2021-Cİ İL MƏZUNLARI)

Azərbaycan bölməsi

Fənn: **Ana dili** Cədvəl 1.31

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (TN tabeli və özəl)	299	65.77	28.55	5.69
Sumqayıt şəhəri	563	61.92	31.85	6.23
Mingəçevir şəhəri	179	60.12	32.94	6.94
Qubadlı rayonu	174	59.40	34.45	6.15
Neftçala rayonu	104	59.01	32.16	8.83
Zəngilan rayonu	109	58.92	31.71	9.37
Salyan rayonu	181	58.63	32.25	9.12
Qəbələ rayonu	203	57.37	34.81	7.82
Bakı şəhəri	3646	57.09	34.29	8.62
Kəlbəcər rayonu	354	56.54	34.61	8.85

Fənn: **Ədəbiyyat** Cədvəl 1.32

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (TN tabeli və özəl)	299	68.46	23.28	8.26
Qubadlı rayonu	174	65.52	27.20	7.28
Mingəçevir şəhəri	179	64.95	26.58	8.46
Sumqayıt şəhəri	563	64.71	26.64	8.65
Qəbələ rayonu	203	63.93	27.95	8.12
Neftçala rayonu	104	63.78	26.54	9.67
Zəngilan rayonu	109	63.02	26.42	10.56
Bakı şəhəri	3646	61.92	28.03	10.05
Bərdə rayonu	273	61.79	28.02	10.19
Kəlbəcər rayonu	354	61.52	28.21	10.27

Fənn: **Riyaziyyat** Cədvəl 1.33

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (TN tabeli və özəl)	792	49.21	26.69	24.10
Sumqayıt şəhəri	1508	36.02	30.26	33.72
Culfa rayonu	166	33.59	34.17	32.24
Qubadlı rayonu	300	33.00	32.35	34.65
İsmayıllı rayonu	296	32.55	34.18	33.27
Masallı rayonu	541	32.48	32.55	34.97
Yardımlı rayonu	147	32.40	28.76	38.84
Gədəbəy rayonu	252	31.61	34.37	34.02
Lerik rayonu	140	31.36	33.04	35.61
Bakı şəhəri	8499	30.78	33.77	35.45

Fənn: **Fizika** Cədvəl 1.34

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (TN tabeli və özəl)	698	52.83	27.42	19.75
Sumqayıt şəhəri	1263	40.08	33.78	26.14
Masallı rayonu	465	39.60	33.27	27.12
İmişli rayonu	173	38.07	34.53	27.40
Qubadlı rayonu	230	37.72	36.30	25.98
Yardımlı rayonu	110	37.35	33.89	28.76
Zaqatala rayonu	239	37.21	37.55	25.24
Şirvan şəhəri	255	36.94	35.49	27.57
Ağcabədi rayonu	261	36.86	34.31	28.83
Oğuz rayonu	117	36.84	33.45	29.71

Fənn: **Kimya** Cədvəl 1.35

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (TN tabeli və özəl)	698	54.67	23.96	21.38
Masallı rayonu	465	43.61	29.41	26.97
Sumqayıt şəhəri	1263	42.38	29.00	28.62
Qubadlı rayonu	230	41.90	32.54	25.56
Naxçıvan şəhəri	210	41.50	32.57	25.93
Oğuz rayonu	117	41.47	27.94	30.59
Ağcabədi rayonu	261	41.18	31.13	27.69
Cəbrayıl rayonu	190	40.35	32.46	27.19
Biləsuvar rayonu	257	40.33	33.22	26.45
Şərur rayonu	114	39.28	34.83	25.89

Fənn: **Biologiya** Cədvəl 1.36

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (TN tabeli və özəl)	186	65.46	25.82	8.72
Sumqayıt şəhəri	136	62.32	29.86	7.82
Masallı rayonu	72	57.70	34.47	7.83
Mingəçevir şəhəri	67	57.58	32.38	10.04
Bərdə rayonu	81	55.59	30.27	14.14
Yevlax rayonu	52	55.36	33.86	10.78
Şəki rayonu	105	54.95	34.95	10.10
Bakı şəhəri	633	54.20	33.95	11.85
Naxçıvan şəhəri	55	52.67	37.63	9.70
Abşeron rayonu	130	52.66	37.32	10.02

Fənn: **Tarix** Cədvəl 1.37

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (TN tabeli və özəl)	579	55.18	30.04	14.77
Neftçala rayonu	125	55.13	30.28	14.59
Ağstafa rayonu	170	53.81	30.93	15.26
Tovuz rayonu	368	52.59	31.10	16.31
Qubadlı rayonu	269	51.95	32.29	15.76
Sumqayıt şəhəri	944	51.94	31.46	16.60
Salyan rayonu	240	51.04	32.06	16.91
Oğuz rayonu	122	48.83	30.58	20.59
Şirvan şəhəri	200	48.41	34.67	16.92
Qəbələ rayonu	352	47.99	35.63	16.37

Fənn: **Coğrafiya** Cədvəl 1.38

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (TN tabeli və özəl)	280	43.28	37.61	19.11
Sumqayıt şəhəri	381	43.19	37.15	19.66
Qəbələ rayonu	149	39.84	43.10	17.06
Bakı şəhəri	2937	36.24	40.08	23.68
Tovuz rayonu	141	35.59	36.64	27.77
Zaqatala rayonu	121	35.56	43.20	21.24
Cəlilabad rayonu	189	35.56	37.31	27.13
Babək rayonu	106	34.82	41.31	23.87
Şəki rayonu	165	34.07	41.49	24.44
Masallı rayonu	148	33.70	43.67	22.62

İmtahan fənləri üzrə bütövlükdə müqayisə apardıqda,
bu il (TN tabeli liseylərə və özəl liseylər istisna olmaqla) Azərbaycan bölməsində Sumqayıt şəhəri, rus bölməsində isə Quba rayonu ən yüksək nəticə göstərib

İmtahanın II mərhələsində hər bir imtahan fənni üzrə yüksək nəticə göstərən təhsil şöbələri və liseylər barədə yuxarıdakı cədvəllərdə məlumat verilib. İndi isə imtahan fənləri üzrə bütövlükdə yüksək nəticə nümayiş etdirmiş bölgələrin göstəricilərinə nəzər yetirək. Bu göstəricilər bölmələr üzrə 1.39 və 1.40 saylı cədvəllərdə təqdim edilib. Cədvəllərdən göründüyü kimi, bu il ən yüksək nəticəni Azərbaycan bölməsində Sumqayıt şəhəri, rus bölməsində isə Quba rayonunun abituriyentləri əldə edib. Adları aşağıdakı cədvəllərə daxil olan şəhər və rayonların çoxunun məktəb məzunları qəbul imtahanlarında stabil olaraq yüksək nəticələr göstərirlər. Əlbəttə, bunda həmin şəhər və rayonlarda dərs deyən müəllimlərin, şəhər və rayon rəhbərliyinin və təhsil şöbəsi işçilərinin mühüm rolu vardır. Ümumiyyətlə, gənclərimizdə oxumaq, öyrənmək həvəsi və potensialı olduqca yüksəkdir. Bunun reallaşdırılması isə birinci növbədə təhsil işçilərindən asılıdır. Burada təhsil işinin düzgün qurulması, müəllimlərin işə vicdanlı münasibəti, günün tələblərinə uyğun dərslik və dərs vəsaitlərinin hazırlanması və vaxtlı-vaxtında şagirdlərə çatdırılması mühüm amillərdir.

Cədvəl 1.39

TƏHSİL ŞÖBƏLƏRİ VƏ LİSEYLƏRİN II MƏRHƏLƏDƏ İMTAHAN FƏNLƏRİ ÜZRƏ BÜTÖVLÜKDƏ GÖSTƏRİCİLƏRİ

(2021-ci il məzunları, ilk 15 yüksək göstəricili təhsil şöbələri)

Azərbaycan bölməsi

№	TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Fənlər üzrə göstəricilər, %-lə								Göstəricilər vektorunun norması
		Ana d.	Ədəb.	Riyaz.	Fizika	Kimya	Biol.	Tarix	Coğr.	
1	Liseylər (TN tabeli və özəl)	65.77	68.46	49.21	52.83	54.67	65.46	55.18	43.28	299.0512
2	Sumqayıt şəhəri	61.92	64.71	36.02	40.08	42.38	62.32	51.94	43.19	255.6790
3	Qubadlı rayonu	59.40	65.52	33.00	37.72	41.90	63.03	51.95	39.27	245.5485
4	Oğuz rayonu	61.76	65.14	29.90	36.84	41.47	--	48.83	42.12	243.1437
5	Neftçala rayonu	59.01	63.78	27.52	32.70	39.14	53.11	55.13	41.56	237.2345
6	İsmayıllı rayonu	56.07	59.99	32.55	35.91	38.51	58.53	45.21	40.91	232.5217
7	Masallı rayonu	55.03	58.13	32.48	39.60	43.61	57.70	44.97	33.70	231.6115
8	Salyan rayonu	58.63	61.21	28.74	32.94	34.63	50.27	51.04	41.65	230.6022
9	Ordubad rayonu	50.65	47.98	33.70	42.68	47.61	--	36.24	36.72	228.8203
10	Tovuz rayonu	56.03	60.57	29.61	35.04	36.27	51.65	52.59	35.59	227.8696
11	Bakı şəhəri	57.09	61.92	30.78	35.34	38.04	54.20	45.63	36.24	227.7325
12	Culfa rayonu	55.12	58.07	33.59	35.90	35.45	46.75	45.45	38.27	227.4719
13	Qəbələ rayonu	57.37	63.93	27.58	31.74	35.60	58.04	47.99	39.84	226.2208
14	Yardımlı rayonu	55.53	56.43	32.40	37.35	35.16	50.10	46.47	35.20	224.5183
15	Balakən rayonu	56.43	56.85	30.08	36.65	38.68	51.30	43.15	37.27	224.3969

Qeyd: Seçmədə riyaziyyat, fizika, kimya, biologiya və tarix fənləri üzrə abituriyentlərinin sayı 20-dən, ana dili, ədəbiyyat və coğrafiya fənləri üzrə abituriyentlərinin sayı 10-dən az olmayan bölgələr iştirak edir.

Cədvəl 1.40

TƏHSİL ŞÖBƏLƏRİ VƏ LİSEYLƏRİN II MƏRHƏLƏDƏ İMTAHAN FƏNLƏRİ ÜZRƏ BÜTÖVLÜKDƏ GÖSTƏRİCİLƏRİ (2021-ci il məzunları)

Rus bölməsi

№	TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Fənlər üzrə göstəricilər, %-lə								Göstəricilər vektorunun norması
		Ana d.	Ədəb.	Riyaz.	Fizika	Kimya	Biol.	Tarix	Coğr.	
1	Liseylər (TN tabeli və özəl)	59.52	59.71	39.97	45.66	48.96	55.20	38.81	30.67	303.7226
2	Quba rayonu	45.45	50.71	35.39	42.04	45.55	--	33.45	27.82	267.8264
3	Abşeron rayonu	60.54	64.35	28.01	35.76	33.57	44.95	38.37	27.54	262.0153
4	Sumqayıt şəhəri	52.44	56.44	29.85	35.22	37.41	43.56	32.40	28.48	251.7163
5	Bakı şəhəri	54.49	56.47	29.24	32.74	36.29	43.08	34.69	29.23	251.6482
6	Qusar rayonu	46.57	50.30	31.88	32.34	37.55	31.21	27.27	35.20	249.6068
7	Gəncə şəhəri	54.35	57.89	24.34	29.12	31.20	30.09	39.77	29.22	243.6434
8	Xaçmaz rayonu	44.60	46.50	22.37	21.72	26.94	36.80	39.29	29.70	216.8523

Qeyd: Seçmədə hər fənn üzrə abituriyentlərinin sayı 10-dan az olmayan bölgələr iştirak edir.

500-dən yuxarı bal toplayanlar imtahan verənlərin 10.00 faizini təşkil edir.

Yüksək ballılar arasında respublikanın əksər bölgələrinin təmsilçiləri vardır.

Bu il ali təhsil müəssisələrinə qəbul imtahanlarında 6774 abituriyent 500-dən, o cümlədən 1861 abituriyent 600-dən yuxarı bal toplamışdır. 600 və ondan yuxarı bal toplayanların ixtisas qrupları üzrə paylanmasına gəlincə, qeyd etmək lazımdır ki, onların 34.39%-i (640 nəfəri) I qrupun, 10.53%-i (196 nəfəri) II qrupun, 33.15%-i (617 nəfəri) III qrupun, 21.92%-i (408 nəfəri) IV qrupun abituriyentləridir.

Yüksək ballılar respublikanın 73 bölgəsini təmsil edir (cədvəl 1.41). Onların nisbi sayına görə Sumqayıt və Bakı şəhərləri, Qubadlı, İsmayıllı və Şahbuz rayonlarının göstəriciləri daha yüksək olub. Bu bölgələrdən ali təhsil müəssisələrinə sənəd verən hər 100 nəfər gəncin 12–16-sı imtahanlarda 500-dən yuxarı bal toplayıb.

500-700 arasında bal toplayan abituriyentlərin əksəriyyəti ən nüfuzlu ixtisaslara qəbul olub. Onlardan ən yüksək nəticə göstərən 102 nəfər Prezident təqaüdünə layiq görülüb.

Cədvəl 1.41

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARINDA YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏRİN BÖLGƏLƏR ÜZRƏ SAYI

№	B Ö L G Ə	Bölgə üzrə abituriyentlərin ümumi sayı	500-700 intervalında bal toplayanların sayı	600-700 intervalında bal toplayanların sayı	500-dən yuxarı bal toplayanların faizi (bölgə üzrə abituriyentlərin ümumi sayına nəzərən)
7	Ordubad rayonu	259	213	82.24	130	61.03	50.19
8	Bakı şəhəri	20157	17104	84.85	10073	58.89	49.97
9	Abşeron rayonu	2745	2344	85.39	1355	57.81	49.36
10	Liseylər (TN tabeli və özəl)	2523	1848	73.25	1231	66.61	48.79
11	Oğuz rayonu	352	271	76.99	169	62.36	48.01
12	Cəbrayıl rayonu	636	524	82.39	302	57.63	47.48
13	Şərur rayonu	489	428	87.53	231	53.97	47.24
14	Kəngərli rayonu	169	113	66.86	77	68.14	45.56
15	Babək rayonu	497	431	86.72	225	52.20	45.27
16	Laçın rayonu	934	753	80.62	421	55.91	45.07
17	Qax rayonu	449 (382)	327	72.83 (85.60)	200	61.16	44.54 (52.36)
18	Xocavənd rayonu	130	93	71.54	57	61.29	43.85
19	Zəngilan rayonu	444	364	81.98	194	53.30	43.69
20	Gəncə şəhəri	2593	2139	82.49	1120	52.36	43.19
21	Sədərək rayonu	82	60	73.17	35	58.33	42.68
22	Şirvan şəhəri	657	507	77.17	279	55.03	42.47
23	Naftalan şəhəri	71	64	90.14	30	46.88	42.25
24	İsmayıllı rayonu	701	528	75.32	295	55.87	42.08
25	Mingəçevir şəhəri	907	761	83.90	381	50.07	42.01
26	Hacıqabul rayonu	386	280	72.54	160	57.14	41.45
27	Qazax rayonu	717	547	76.29	296	54.11	41.28
28	Kəlbəcər rayonu	1324	993	75.00	541	54.48	40.86
29	Ağdam rayonu	1524	1123	73.69	606	53.96	39.76
30	Xocalı rayonu	111	93	83.78	43	46.24	38.74
31	Şəki rayonu	1733	1272	73.40	668	52.52	38.55
32	Neftçala rayonu	575	390	67.83	214	54.87	37.22
33	Bərdə rayonu	1255	909	72.43	467	51.38	37.21
34	Şəmkir rayonu	1749	1174	67.12	650	55.37	37.16
35	Masallı rayonu	1473	983	66.73	546	55.54	37.07
36	Füzuli rayonu	1151	849	73.76	426	50.18	37.01
37	Qəbələ rayonu	1056	768	72.73	388	50.52	36.74
38	Ağcabədi rayonu	1112	768	69.06	407	52.99	36.60

Cədvəl 1.68 (ardı)

№	TƏHSİL ŞÖBƏSİ	Məzunların sayı	Abituriyentlərin		Qəbul olan abituriyentlərin		
			sayı	faizi (bölgənin məzunlarının sayına görə)	sayı	faizi (bölgənin abituriyentlərinin sayına görə)	faizi (bölgənin məzunlarının sayına görə)
39	Ağstafa rayonu	689	510	74.02	252	49.41	36.57
40	Salyan rayonu	1053	724	68.76	378	52.21	35.90
41	Gədəbəy rayonu	695	458	65.90	244	53.28	35.11
42	Şamaxı rayonu	654	494	75.54	224	45.34	34.25
43	Lənkəran rayonu	1774	1203	67.81	599	49.79	33.77
44	Tərtər rayonu	566	375	66.25	191	50.93	33.75
45	Zərdab rayonu	408	300	73.53	136	45.33	33.33
46	Tovuz rayonu	1638	1083	66.12	539	49.77	32.91
47	Balakən rayonu	682 (672)	447	65.54 (66.52)	221	49.44	32.40 (32.89)
48	Xızı rayonu	142	104	73.24	46	44.23	32.39
49	İmişli rayonu	902	539	59.76	289	53.62	32.04
50	Samux rayonu	481	349	72.56	152	43.55	31.60
51	Zaqatala rayonu	869 (861)	543	62.49 (63.07)	274	50.46	31.53 (31.82)
52	Göyçay rayonu	914	605	66.19	284	46.94	31.07
53	Biləsuvar rayonu	842	559	66.39	261	46.69	31.00
54	Ağdaş rayonu	828	578	69.81	256	44.29	30.92
55	Siyəzən rayonu	422	307	72.75	129	42.02	30.57
56	Qobustan rayonu	262	183	69.85	80	43.72	30.53
57	Göygöl rayonu	672	486	72.32	200	41.15	29.76
58	Lerik rayonu	422	278	65.88	124	44.60	29.38
59	Quba rayonu	1397	947	67.79	410	43.29	29.35
60	Yevlax rayonu	1050	635	60.48	305	48.03	29.05
61	Ucar rayonu	591	401	67.85	171	42.64	28.93
62	Şabran rayonu	499	322	64.53	143	44.41	28.66
63	Beyləqan rayonu	761	538	70.70	213	39.59	27.99
64	Goranboy rayonu	837	577	68.94	233	40.38	27.84
65	Astara rayonu	799	519	64.96	222	42.77	27.78
66	Kürdəmir rayonu	899	528	58.73	248	46.97	27.59
67	Cəlilabad rayonu	1657	962	58.06	454	47.19	27.40
68	Xaçmaz rayonu	1596	986	61.78	412	41.78	25.81
69	Yardımlı rayonu	567	266	46.91	139	52.26	24.51
70	Saatlı rayonu	681	359	52.72	159	44.29	23.35
71	Daşkəsən rayonu	222	128	57.66	51	39.84	22.97
72	Ağsu rayonu	525	319	60.76	120	37.62	22.86
73	Sabirabad rayonu	1277	623	48.79	287	46.07	22.47
74	Qusar rayonu	880	523	59.43	189	36.14	21.48
75	İdman liseyləri	77	47	61.04	6	12.77	7.79
CƏMİ		**83157 (83072)**	**62176**	**74.77 (74.85)**	**33626**	**54.08**	**40.44 (40.48)**

Böyük şəhərlərdən və kənd rayonlarından olan abituriyentlərin istəklərində oxşar cəhətlər olsa da, bilikləri fərqlidir. Bu fərq özünü ən çox I mərhələdə ingilis dili, II mərhələdə riyaziyyat fənlərinə verilən cavablarda göstərir

Respublikanın böyük şəhərlərindən və kənd rayonlarından olan abituriyentlərin ayrı-ayrı ixtisas qruplarına meyilləri və fənlər üzrə test suallarına cavabvermə göstəricilərinin hər biri ayrılıqda araşdırılıb. Nəticələrə əsasən hər iki kontingentin ixtisas qruplarına olan istək və meyilləri arasında fərq, demək olar ki, yox dərəcəsindədir. O mənada ki, həm böyük şəhərlərin, həm də kənd rayonlarının oğlan abituriyentləri riyaziyyat və mühəndislik ixtisasları qrupuna, qız abituriyentləri isə humanitar və pedaqoji ixtisaslar qrupuna daha çox üstünlük verirlər. Lakin bu iki kontingentdən olan abituriyentlərin imtahan fənləri üzrə test tapşırıqlarına cavablarında ciddi fərq vardır. Böyük şəhərlərdən olan abituriyentlərin hazırlıq səviyyəsi kənd rayonlarından olan abituriyentlərin hazırlıq səviyyəsindən yüksəkdir. Bu üstünlük özünü, ənənəvi olaraq, daha çox ingilis dili və riyaziyyat fənləri üzrə hazırlıqda göstərir. Bu müqayisənin əyani olması üçün aşağıdakı diaqramları (şəkil 1.24) təqdim edirik. Diaqramlardan da aydın görünür ki, bütün fənlər üzrə şəhərlərdən olan abituriyentlərin səviyyəsi yüksəkdir. Bu, şübhəsiz, şəhər məktəblərinin maddi-texniki bazasının, təlim-tədris texnologiyasının, informasiya təminatının kənd məktəbləri ilə müqayisədə xeyli üstün olması və digər obyektiv amillərlə bağlıdır. Bununla belə, son illər dövlət xətti ilə, həmçinin Heydər Əliyev Fondu tərəfindən respublikanın müxtəlif bölgələrində, əsasən də kənd rayonlarında müasir standartlara cavab verən məktəblərin inşa edilməsi, onların maddi-texniki bazasının və müəllim potensialının gücləndirilməsi şəhər və rayon abituriyentlərinin bilikləri arasındakı fərqin azalmasına təsir göstərir.

BÖYÜK ŞƏHƏRLƏRDƏN VƏ KƏND RAYONLARINDAN OLAN ABİTURİYENTLƏRİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ DÜZGÜN CAVABLARININ MÜQAYİSƏSİ DİAQRAMI



Şəkil 1.24

Məcburi köçkün ailələrindən olan abituriyentlərin imtahan nəticələri ilbəil yaxşılaşır. Onların təhsil problemlərinin həlli diqqət mərkəzindədir

Dövlət İmtahan Mərkəzi məcburi köçkün və qaçqın ailələrindən olan şagirdlərin və abituriyentlərin qəbul imtahanlarına hazırlığına kömək göstərilməsini həmişə diqqət mərkəzində saxlayır. Hər il onlarla görüşlər təşkil olunur, peşəyönüm istiqamətli söhbətlər aparılır, onları imtahanların texnologiyası ilə tanış etmək məqsədilə pulsuz sınaq imtahanları keçirilir. Onlara dərsliklər, dərs vəsaitləri, "Abituriyent" jurnalları, həmçinin imtahanlarda istifadə olunmuş test kitabçaları hədiyyə olunur. Bütün bunlar və digər amillər məcburi köçkün və qaçqın ailəsindən olan abituriyentlərin təhsillərini davam etdirmək istəklərinə, imtahan göstəricilərinə müsbət təsir göstərir. Bu il ali təhsil müəssisələrinə sənəd verən 12115 məzundan (10518 abituriyent və 1597 subbakalavr) 5751-i (5095 abituriyent və 656 subbakalavr) tələbə adı qazanıb. Məcburi köçkün olan abituriyentlərin ali təhsil müəssisələrinin nüfuzlu ixtisaslarına qəbulolma faizi də artıb.

1.1 Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında tələbə qəbulu

Azərbaycan Respublikası Prezidentinin "Ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiq edilməsi barədə" 10 fevral 2010-cu il tarixli Fərmanına əsasən 2010/2011-ci tədris ilindən başlayaraq gənclərin Azərbaycan Respublikasının ali təhsil müəssisələrində həm dövlət sifarişi, həm də ödənişli əsaslarla təhsil alması üçün qəbul aparılır. Dövlət sifarişi əsasında təhsil adambaşına maliyyələşdirmə prinsipi ilə həyata keçirilir. Bu o deməkdir ki, müəyyən ixtisaslar üzrə mütəxəssis hazırlığını dövlət sifarişinə əsasən yerinə yetirən təhsil müəssisələrinə maliyyə vəsaitləri tələbələrin sayından asılı olaraq ayrılır.

Ali təhsildə adambaşına maliyyələşdirmə mexanizmi dünyanın inkişaf etmiş ölkələrində tətbiq olunan mütərəqqi metodlardandır. Belə bir mexanizmin tətbiqi ali təhsildə keyfiyyətin yüksəlməsinə, ali təhsil müəssisələri arasında dövlət sifarişi əsasında təhsil alan tələbə uğrunda mübarizə və rəqabətin yaranmasına xidmət edir.

Tətbiq olunan qaydaya əsasən mülkiyyət formasından asılı olmayaraq qanunvericiliyə uyğun fəaliyyət göstərən bütün ali təhsil müəssisələrinə dövlət sifarişi ilə mütəxəssis hazırlığında iştirak etmək imkanı yaradılmışdır. Qeyd etmək lazımdır ki, qəbul imtahanında yüksək nəticə əldə edərək dövlət sifarişi əsasında dövlət, yaxud özəl ali təhsil müəssisəsinə qəbul olan abituriyentin təhsili üçün nəzərdə tutulan vəsait həmin ali təhsil müəssisəsinin hesabına köçürülür.

2021/2022-ci tədris ili üçün ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında 22414 nəfər (əlavə olaraq 86 yer müsabiqədənkənar) tələbə qəbulu nəzərdə tutulmuşdu. Bu yerlərin 43.99%-i I qrupun, 18.78%-i II qrupun, 19.28%-i III qrupun, 11.07%-i IV qrupun, 6.88%-i V qrupun payına düşürdü. Ötən illə müqayisədə cari ildə dövlət büdcəsinin vəsaiti hesabına tələbə qəbuluna ayrılan yerlərin sayı 4.89% (1044 yer), ümumi qəbul planındakı payı isə 44.04%-dən 45.20%-dək artmışdır. Ayrılmış yerlərin sayındakı dəyişiklik ixtisas qrupları üzrə müxtəlif olmuşdur. Cari ildə I, II, III və V qruplara daxil olan ixtisaslar üçün ayrılan yerlər, müvafiq olaraq, 8.07, 2.93, 2.44 və 7.16% artmış, IV qrupa daxil olan ixtisaslar üçün isə 0.72% azalmışdır.

Ümumiyyətlə, son dörd ildə dövlət sifarişi üzrə ayrılan yerlərdə kəskin artım müşahidə olunur. Belə ki, 2018-ci illə müqayisədə 2021-ci ildə dövlət sifarişi üzrə ayrılan yerlərin sayı birdən-birə 89.87% (10609 yer) artmışdır (1.1.1 saylı şəklə bax).



Şəkil 1.1.1

Bu il 30 mülki dövlət və 11 özəl ali təhsil müəssisəsi dövlət sifarişinin yerinə yetirilməsində iştirak etmişdir. Ali təhsil müəssisələri arasında dövlət sifarişi əsasında ən çox mütəxəssis hazırlamaq imkanına Bakı Dövlət Universiteti (5326 yer), Azərbaycan Dövlət Pedaqoji Universiteti (3580 yer), Azərbaycan Dövlət İqtisad Universiteti (3377 yer) və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (3331 yer) malik olmuşdur.

Dövlət sifarişi ilə qəbul aparılan yerlər üzrə müsabiqə Azərbaycan və rus bölmələri ilə birgə aparılmışdır. Nəticədə, Azərbaycan bölməsindən 59093, rus bölməsindən isə 5331 abituriyent bu yerlərin müsabiqəsində iştirak etmək hüququ qazanmışdı. Ümumilikdə isə dövlət sifarişi ilə qəbul aparılan yerlərin müsabiqəsində 60618 nəfər abituriyent və 15223 nəfər subbakalavr iştirak etmək hüququ qazanmışdı. Abituriyentlərin 24.83%-i (15052 nəfər) I qrupun, 8.82%-i (5348 nəfər) II qrupun, 23.31%-i (14128 nəfər) III qrupun, 6.31%-i (3824 nəfər) IV qrupun, 77.76%-i (47139 nəfər) V qrupun, subbakalavrların 34.27%-i (5217 nəfər) I qrupun, 35.94%-i (5471 nəfər) II qrupun, 18.45%-i (2808 nəfər) III qrupun, 10.81%-i (1646 nəfər) IV qrupun, 2.52%-i (383 nəfər) V qrupun payına düşüb.

V ixtisas qrupuna istəyin bu dərəcədə yüksək olması daha çox cari ilin məzunlarına görədir. Bildiyimiz kimi, cari ilin məzunlarının V ixtisas qrupu üzrə ixtisasların müsabiqəsində buraxılış imtahanının nəticələri əsasında iştirak etmək imkanı olmuşdur və onlar əlavə imtahan verməmişlər. Həmçinin, cari ilin məzunları ali təhsil müəssisələrinə qəbul kampaniyasında ilk dəfə iştirak etdikləri üçün onların iştirakı dövlət büdcəsi tərəfindən maliyyələşdirilmişdir. Qeyd olunan səbəblərə görə cari ilin məzunları ərizələrində həm də V ixtisas qrupunu seçmişlər, baxmayaraq ki, faktiki olaraq onların bir çoxunun bu qrupa aid olan ixtisaslara maraqları çox az olub və yaxud heç olmayıb. Belə ki, müsabiqədə iştirak etmək hüququ qazanan abituriyentlərin 77.76% V ixtisas qrupunun payına düşsə də, beləliklə, ixtisas seçimində iştirak edən abituriyentlər arasında cəmi 20.01% təşkil edib.

Dövlət sifarişi ilə qəbul aparılan yerlər üzrə müsabiqədə iştirak etmək hüququ qazanan abituriyentlərdən 34887 nəfər (57.55%), subbakalavrlardan 10790 nəfər (70.88%) bu yerləri öz ərizələrində qeyd etmişdi. Ötən illə müqayisədə abituriyentlər arasında müsabiqə iştirakçılarının sayı 6.83% az olmuşdur. Abituriyentlərdən müsabiqə iştirakçılarının 91.27%-i (31843 nəfər) Azərbaycan, 8.73%-i (3044 nəfər) isə rus bölməsini təmsil etmişdir. Azərbaycan bölməsində abituriyentlərin 35.91%-i I qrupun, 14.15%-i II qrupun, 24.41%-i III qrupun, 8.79%-i IV qrupun, 19.13%-i isə V qrupun dövlət sifarişli yerlərini öz ərizələrində qeyd etmişdi. Rus bölməsində bu göstəricilər, müvafiq olaraq, 34.20%, 14.88%, 18.59%, 7.79% və 29.30%-dir. Ən yüksək müsabiqə vəziyyəti V qrupda (1 yerə 4.1 ərizə), ən aşağı müsabiqə vəziyyəti isə IV qrupda (1 yerə 1.0 ərizə) müşahidə edilmişdir.

Təhlil göstərir ki, ödənişli ixtisaslar üzrə müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin 97.56%-i dövlət sifarişi əsasında qəbul aparılan yerlərin müsabiqəsində iştirak etmək hüququ qazanmışdır. Qeyd edək ki, cari ildə dövlət sifarişi və ödənişli yerlər üzrə qoyulan müsabiqə şərtləri eyni olmuşdur. Bu göstərici I, IV və V qruplar üzrə 100.00%, II qrup üzrə 66.16%, III qrup üzrə isə 85.28% təşkil etmişdir. II və III qruplar üzrə dövlət sifarişi və ödənişli yerlər üzrə müsabiqə şərtlərinin eyni olmasına baxmayaraq, göstəricilərin 100%-dən az olmasının səbəbi bəzi ixtisasların ödənişli yerləri üzrə müsabiqə şərtlərinin müsabiqəyə buraxılmaq üçün qoyulan ümumi şərtlərdən aşağı (bu ixtisasların ödənişli yerləri üzrə müsabiqədə iştirak etmək üçün tələb olunan minimal bal 150 olub) olması ilə əlaqədardır. I və IV ixtisas qruplarında da bəzi ixtisasların müsabiqəsində iştirak üçün tələb olunan minimal bal 150 olub, lakin bu müsabiqə şərti həm də, həmin ixtisasların dövlət sifarişi üzrə ayrılan yerlərinə də şamil olunmuşdur. Bu hesabla əlavə olaraq I qrupda 5186 nəfərin, IV qrupda isə 717 nəfərin təkcə bu ixtisasların dövlət sifarişli yerlərinin müsabiqəsində iştirak etmək hüququ olmuşdur. Əgər bu abituriyentlər nəzərə alınmasa idi, o zaman təhsili ödənişli əsaslarla olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin I qrup üzrə yalnız 65.55%-nin, IV qrup üzrə 81.25%-nin, bütövlükdə isə 95.11%-nin dövlət sifarişi əsasında qəbul aparılan yerlərin müsabiqəsində iştirak etmək hüququ olardı.

Dövlət sifarişi əsasında qəbul aparılan yerlərin, bu yerlər uğrunda müsabiqədə iştirak etmək hüququ qazanan və müsabiqədə iştirak edən abituriyentlərin ixtisas qrupları üzrə paylanması və qruplarda yaranan müsabiqə vəziyyəti 1.1.1 saylı cədvəldə təqdim edilir.

Cədvəl 1.1.1

DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏR ÜZRƏ MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN ƏRİZƏLƏRİNİN SAYI VƏ MÜSABİQƏ VƏZİYYƏTİ

№	İxtisas qrupu	Dövlət sifarişi	Müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin sayı			Müsabiqədə iştirak edən abituriyentlərin sayı			Müsabiqə vəziyyəti
			Azərb. bölməsi	Rus bölməsi	Bütöv-lükdə	Azərb. bölməsi	Rus bölməsi	Bütöv-lükdə	
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	9860[1]	9866	1360	15052	11434	1041	12475	1.087
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	4209	5348	500	5348	4507	453	4960	1.126
III	Humanitar, pedaqogika ixtisasları	4322	14128	1016	14128	7772	566	8338	1.629
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	2482[2]	3107	451	3824	2799	237	3036	1.041
V	İncəsənət, musiqi, idman ixtisasları	1541	47139	3575	47139	6090	892	6982	4.065
C Ə M İ		**22414**	**59093**	**5331**	**60618**	**31843**	**3044**	**34887**	**1.390**

1) I qrupda əlavə olaraq maksimum 230 yer Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Dövlət Universitetinin və Lənkəran Dövlət Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

2) IV qrupda əlavə olaraq maksimum 95 yer Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Dövlət Universitetinin və Lənkəran Dövlət Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

Plan yerləri və müsabiqədə iştirak edən abituriyentlərin sayının 1992-2021-ci illər üzrə dinamikasının (şəkil 1.1.3) təhlili göstərir ki, 1996-cı ildən başlayaraq dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən yerlər üzrə qəbul planı 2019-cu ilə kimi, demək olar ki, sabit qalıb. 2019-cu ildə isə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən yerlərin sayında kəskin artım müşahidə olunur. 2020 və 2021-ci illərdə də bu tendensiya davam etmiş və ötən illə müqayisədə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən yerlərin sayı artmışdır.

Müsabiqə iştirakçılarının sayında illər ərzində böyük dəyişikliklər baş verib. Bu dəyişikliklər, bir tərəfdən, məktəb məzunlarının sayı və onların qəbul imtahanlarında nümayiş etdirdikləri bilik səviyyəsi ilə bağlıdırsa, digər tərəfdən, ayrı-ayrı illərdə DİM-in müsabiqə şərtlərində apardığı təkmilləşdirmələrlə bağlıdır. Test üsulu ilə qəbul aparılan ilk illərdə dəyişikliklər daha çox olub. Ən ciddi dəyişiklik 2002 və 2010-cu illərə təsadüf etmişdir ki, bu da 2002-ci ildə respublikada məktəb məzunlarının sayının kəskin azalması, 2010-cu ildə isə ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiq edilməsi ilə əlaqədardır.

1992-2021-Cİ İLLƏRDƏ QƏBUL PLANI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYININ DİNAMİKASI (DÖVLƏT BÜDCƏSİNİN VƏSAİTİ HESABINA MALİYYƏLƏŞƏN YERLƏR ÜZRƏ MÜSABİQƏ ŞƏRTLƏRİNİ ÖDƏYƏN ABİTURİYENTLƏR)



Şəkil 1.1.3

İxtisas qrupları üzrə builki qəbul planı, abituriyent ərizələrinin sayı və müsabiqə vəziyyətinin ötən ilin müvafiq göstəriciləri ilə müqayisəsinin rəqəmlərlə ifadəsi 1.1.2 saylı cədvəldə təqdim edilir. Ötən illə müqayisədə cari ildə ərizələrin sayı 6.83% azalıb.

Cari ildə dövlət büdcəsi vəsaiti hesabına maliyyələşən yerlərin artması və ərizələrin azalması nəticəsində bu yerlərə müsabiqə 8.91% azalmışdır. Hər bir qrup üzrə ayrılıqda baxdıqda müsabiqə vəziyyətinin II və IV qruplardan başqa digər qruplarda azaldığı müşahidə olunur.

2021-ci ildə dövlət sifarişi üzrə ayrılan yerlərin müsabiqəsində iştirak etmək üçün 10790 subbakalavr ərizə verib. Onların 37.63%-i (4060 nəfər) I qrupa, 31.13%-i (3359 nəfər) II qrupa, 16.10%-i 1737 nəfər) III qrupa, 13.48%-i (1454 nəfər) IV qrupa, 3.18%-i (343 nəfər) isə V qrupa ərizə verib.

Cədvəl 1.1.2

2020-Cİ VƏ 2021-Cİ İLLƏR ÜZRƏ QƏBUL PLANI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYININ MÜQAYİSƏSİ (DÖVLƏT BÜDCƏSİNİN VƏSAİTİ HESABINA MALİYYƏLƏŞƏN YERLƏR ÜZRƏ MÜSABİQƏ ŞƏRTLƏRİNİ ÖDƏYƏN ABİTURİYENTLƏR)

İxtisas qrupu	Dövlət sifarişi (illər üzrə)			Ərizə vermiş abituriyentlərin sayı (illər üzrə)			Müsabiqə vəziyyəti (illər üzrə)		
	2020	2021	fərq, %-lə	2020	2021	fərq, %-lə	2020	2021	fərq, %-lə
I	9124	9860	+8.07	12435	12475	+0.32	1.164	1.087	-6.62
II	4089	4209	+2.93	4128	4960	+20.16	0.937	1.126	+20.17
III	4219	4322	+2.44	9192	8338	-9.29	1.770	1.629	-7.97
IV	2500	2482	-0.72	3023	3036	+0.43	1.021	1.041	+1.96
V	1438	1541	+7.16	10889	6982	-35.88	5.927	4.065	-31.42
CƏMİ	**21370**	**22414**	**+4.89**	**37444**	**34887**	**-6.83**	**1.526**	**1.390**	**-8.91**

("-" ötən illə müqayisədə azalmanı, "+" isə artmanı göstərir)

Builki qəbul imtahanlarının nəticələrinə əsasən ali təhsil müəssisələrinin dövlət sifarişi əsasında ayrılan 22414 plan yerinə 22382 nəfər qəbul olmuş, dövlət sifarişi 99.86% yerinə yetirilmişdir. Qəbul olanlardan 691 nəfəri Azərbaycan Dövlət Aqrar Universiteti, Naxçıvan Dövlət Universiteti və Lənkəran Dövlət Universiteti üçün nəzərdə tutulmuş əlavə yerlərə qəbul olmuşdur.

Hər il ali təhsil müəssisələrinə qeydiyyat başa çatdıqdan sonra məlum olur ki, bəzi abituriyentlər müəyyən ixtisaslar üzrə təhsil almaqdan imtina edirlər. Nəticədə, bu ixtisaslar üzrə dövlət sifarişi əsasında ayrılan yerlərin bir hissəsi boş qalır. Bundan başqa, müəyyən ixtisaslar üzrə də müsabiqə şərtini ödəyən abituriyentlərin sayı kifayət qədər olmadığı üçün boş yerlər qalır. Bu səbəbdən cari ildə ilk dəfə olaraq hər hansı bir ixtisas üzrə boş qalan dövlət sifarişli yerlər "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatı"na əsasən həmin ixtisasın daxil olduğu ixtisaslar qrupuna aid olan digər ixtisaslara ödənişli əsaslarla qəbul olan abituriyentlər arasında onların qəbul imtahanında əldə etdikləri nəticələrə əsasən paylanıb. Beləliklə, ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olan abituriyentlərin bir hissəsi dövlət büdcəsinin vəsaiti hesabına təhsil almaq imkanı əldə ediblər. Bu səbəbdən də aşağıdakı cədvəldə bəzi qruplarda dövlət sifarişi əsasında ayrılan yerlərə qəbul olma faizi 100-dən çox olmuşdur. Məsələn, ali təhsil müəssisələrinə yerləşdirmə başa çatdıqdan sonra "Texnologiya müəllimliyi" ixtisası üzrə dövlət sifarişi əsasında ayrılan yerlərdən 22-si boş qalmışdı. Bu ixtisas "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatı"na əsasən "Təhsil ixtisasları qrupu"na daxildir. Bu səbəbdən boş qalan 22 yer həmin qrupa daxil olan "Xarici dil müəllimliyi (dillər üzrə)" (20 yer), "Tarix müəllimliyi" (1 yer) və "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" (1 yer) ixtisasları üzrə ali təhsil müəssisələrinə ödənişli əsaslarla qəbul olan və ən yüksək nəticə əldə edən 22 abituriyent arasında bölüşdürülmüşdür. Nəticədə, bu abituriyentlər qəbul olduqları ixtisaslar üzrə dövlət büdcəsinin vəsaiti hesabına təhsil almaq imkanı əldə etmişlər.

Dövlət sifarişli yerlər üzrə müsabiqədə I ixtisas qrupundan 16535 nəfər (12475 abituriyent, 4060 subbakalavr) iştirak etmişdir. Onların Azərbaycan bölməsində 59.59%-i, rus bölməsində isə 65.91%-i qəbul olmuş, dövlət sifarişi 100.74% yerinə yetirilmişdir. II ixtisas qrupu üzrə müsabiqədə 8319 nəfər (4960 abituriyent, 3359 subbakalavr) iştirak etmişdir. Onların Azərbaycan bölməsində 49.53%-i, rus bölməsində isə 62.94%-i qəbul olmuş, dövlət sifarişi 99.71% yerinə yetirilmişdir. III ixtisas qrupundan müsabiqədə 10075 nəfər (8338 abituriyent, 1737 subbakalavr) iştirak etmişdir. Onların Azərbaycan bölməsində 43.93%-i, rus bölməsində isə 32.85%-i qəbul olmuş, dövlət sifarişi üzrə ayrılan yerlər 100.81% dolmuşdur. IV ixtisas qrupundan müsabiqədə 4490 nəfər (3036 abituriyent, 1454 subbakalavr) iştirak etmişdir. Onların Azərbaycan bölməsində 51.81%-i, rus bölməsində isə 61.48%-i qəbul olmuş, dövlət sifarişi 94.84% yerinə yetirilmişdir. V ixtisas qrupundan müsabiqədə 7325 nəfər (6982 abituriyent, 343 subbakalavr) iştirak etmişdir. Onların Azərbaycan bölməsində 20.09%-i, rus bölməsində isə 27.78%-i qəbul olmuş, dövlət sifarişi üzrə ayrılan yerlər 100.00% dolmuşdur.

Dövlət sifarişinin ən az yerinə yetirilmə faizi IV ixtisas qrupunda olmuşdur (94.84%). I, II, III və V ixtisas qruplarında plan yerlərinin dolma göstəricisi 99%-dən yuxarıdır. Dövlət sifarişi əsasında ayrılan yerlər üzrə qəbulun nəticələri 1.1.3 saylı cədvəldə təqdim edilir.

Cədvəl 1.1.3

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT

İxtisas qrupu	Dövlət sifarişi üzrə ayrılan yerlərin sayı	Qəbul olanların sayı (ADAU, NDU və LDU üçün ayrılmış əlavə yerlər və qeydiyyat başa çatdıqdan sonra boş qalan dövlət sifarişli yerlərin paylanması da nəzərə alınmaqla)			Qəbulolma faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Cəmi	
I	9860	8594 (9119)	744 (814)	9338 (9933)	94.71 (100.74)
II	4209	3837	360	4197	99.71
III	4322	4118 (4151)	203 (206)	4321 (4357)	99.98 (100.81)
IV	2482	2140 (2180)	167 (174)	2307 (2354)	92.95 (94.84)
V	1541	1278 (1291)	250	1528 (1541)	99.16 (100.00)
CƏMİ	**22414**	**19967 (20578)**	**1724 (1804)**	**21691 (22382)**	**96.77 (99.86)**

Bütün ixtisas qrupları üzrə bütövlükdə götürdükdə, qəbul olanların 91.94%-i (20578 nəfər) Azərbaycan, 8.06%-i (1804 nəfər) rus bölməsinə aiddir. 2020-ci ildə bu göstəricilər, müvafiq olaraq, 92.99 faiz (19260 nəfər) və 7.01 faiz (1451 nəfər) təşkil etmişdi. Bölmələr üzrə son on iki ilin qəbul imtahanlarının nəticələrinin təhlilindən aydın olur ki, dövlət vəsaiti hesabına maliyyələşdirilən yerlərə müsabiqənin Azərbaycan və rus bölmələri ilə birgə aparılması, zəif müsabiqə vəziyyəti yaranan rus bölməsinə qəbul olanların faizinin azalmasına səbəb olmuşdur. Belə ki, bu illər ərzində Azərbaycan bölməsinə qəbul olanların faizi 82.65-dən 91.94-ə qədər artmış, rus bölməsində isə 17.35%-dən 8.06%-ə qədər azalmışdır.

Ali təhsil müəssisələrinə qəbul olan oğlan və qız abituriyentlərin sayları arasında fərq kiçikdir. Onların 46.29%-ni (17275 nəfər) oğlanlar, 53.71%-ni (20043 nəfər) qızlar təşkil edib. Dövlət sifarişi üzrə ali təhsil müəssisələrinə qəbul olanların isə 51.53%-ni (11062 nəfər) qız və 48.47%-ni (10405 nəfər) oğlan abituriyentlər təşkil edib. Subbakalavrlar arasında qəbul olanların 38.73%-ni (2035 nəfər) oğlanlar, 61.27%-ni (3220 nəfər) qızlar təşkil edib. Dövlət sifarişi üzrə ayrılan yerlərə qəbul olanlar arasında isə oğlanların payı 46.23% (423 nəfər), qızların payı isə 53.77% (492 nəfər) olub.

Cari ilin məzunları arasında da analoji vəziyyət müşahidə olunur. Belə ki, ali təhsil müəssisələrinə ümumilikdə qəbul olanların 46.66%-ni (15690 nəfər) oğlanlar, 53.34%-ni (17936 nəfər) qızlar, dövlət sifarişi əsasında qəbul olanların isə 48.69%-ni (9767 nəfər) oğlanlar, 51.31%-ni (10292 nəfər) qızlar təşkil edib.

Məlum olduğu kimi 2021-ci ildə dövlət sifarişi üzrə ayrılan yerlərin sayı 2020-ci illə müqayisədə artmış və ümumi qəbul planındakı payı 44.04%-dən 45.20%-ə qalxmışdır. Bu isə öz növbəsində bu yerlərə qəbul olanların da sayının artmasına gətirib çıxarıb. 1.1.4 və 1.1.5 saylı şəkillərin müqayisə etdikdə görürük ki, 2021-ci ildə dövlət sifarişi əsasında qəbul olanların ümumi qəbul olanların içərisindəki payı 54.48%-dən 57.52%-dək artıb.

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TƏHSİL FORMALARI ÜZRƏ PAYLANMASI

2020-cu il	**2021-ci il**
	
Şəkil 1.1.4	Şəkil 1.1.5

1.1.6 saylı şəkildə 2020 və 2021-ci illərdə ali təhsil müəssisələrinə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən və ödənişli təhsil formaları üzrə (xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla) qəbul olmuş abituriyentlərin imtahan ballarının paylanma diaqramları ixtisas qrupları ardıcıllığında təqdim edilmişdir. Diaqramların müqayisəli təhlili zamanı ötən ilə nəzərən 500-dən az bal toplayanlar seçməsində dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən yerlərə qəbul olan abituriyentlərin nisbi çəkisinin artması müşahidə olunur. Bunun başlıca səbəbi, həm ötən illə müqayisədə dövlət sifarişi üzrə ayrılan yerlərin artması, həm də yüksək hazırlıqlı abituriyentlərin seçimində təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına və yaxud öz hesabına olmasından asılı olmayaraq, ali təhsil müəssisələrinin və ixtisasların nüfuzu olmuşdur. Məsələn, I və II ixtisas qruplarında yüksək hazırlıqlı abituriyentlər Bakı Ali Neft Məktəbi və ADA Universitetinin ödənişli ixtisaslarını da öz ərizələrində ilk yerlərdə qeyd etmişlər.

2020 və 2021-ci İLLƏRDƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ VƏ ÖDƏNİŞLİ TƏHSİL FORMALARI ÜZRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN İMTAHAN BALLARININ PAYLANMA DİAQRAMLARI
(ixtisas qrupları üzrə, xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)



Şəkil 1.1.6

Ayrı-ayrı ali təhsil müəssisələrinin dövlət sifarişi ilə tələbə qəbulu imkanları (təhsil müəssisəsinin inhisarında olan ixtisaslar və digər ali təhsil müəssisələri ilə birgə qəbul aparılan ixtisaslar üzrə) və bu imkanlardan istifadə edilməsini əks etdirən göstəricilər (qəbulolma faizləri) 1.1.4 saylı cədvəldə təqdim edilir.

Cədvəl 1.1.4

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN DÖVLƏT SİFARİŞİ İLƏ TƏLƏBƏ QƏBULU İMKANLARI VƏ QƏBULUN NƏTİCƏLƏRİ

(subbakalavrlar istisna olmaqla)

№	Ali təhsil müəssisəsi	Dövlət sifarişi üzrə ali təhsil müəssisəsinin kadr hazırlığı imkanı və qəbulun nəticəsi					o cümlədən, dövlət sifarişi üzrə kadr hazırlığı üçün ali təhsil müəssisəsinin				
							inhisarında olan faktiki		digər ali təhsil müəssisələri ilə rəqabət apardığı faktiki		
		yerlərin sayı	bütün ali təhsil müəssisələri üzrə istifadə olunmayan yerlərin sayı	faktiki yerlərin sayı	faktiki yerlər üzrə qəbul olanların sayı	faktiki yerlər üzrə qəbulolma faizi	yerlərin sayı	yerlərin faizi	yerlərin sayı	yerlər üzrə qəbul olanların sayı	yerlər üzrə qəbulolma faizi
1	Bakı Dövlət Universiteti	5326	32	5294	3836	72.46	1022	19.30	4272	2814	65.87
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	3331	191	3140	2513	80.03	484	15.41	2656	2029	76.39
3	Azərbaycan Texniki Universiteti	2235	236	1999	856	42.82	100	5.00	1899	756	39.81
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	1915	182	1733	817	47.14	237	13.68	1496	580	38.77
5	Azərbaycan Tibb Universiteti	681	0	681	668	98.09	571	83.85	110	97	88.18
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	3580	22	3558	1709	48.03	35	0.98	3523	1674	47.52
7	Azərbaycan Dövlət İqtisad Universiteti	3377	15	3362	2476	73.65	49	1.46	3313	2427	73.26
8	Azərbaycan Dillər Universiteti	1190	0	1190	856	71.93	0	0.00	1190	856	71.93
9	Bakı Slavyan Universiteti	1070	0	1070	144	13.46	0	0.00	1070	144	13.46
10	Bakı Mühəndislik Universiteti	1088	7	1081	662	61.24	20	1.85	1061	642	60.51
11	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	446	0	446	370	82.96	5	1.12	441	365	82.77
12	Bakı Musiqi Akademiyası	149	0	149	120	80.54	0	0.00	149	120	80.54
13	Azərbaycan Milli Konservatoriyası	208	0	208	123	59.13	17	8.17	191	106	55.50
14	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	586	6	580	371	63.97	98	16.90	482	273	56.64
15	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	294	1	293	235	80.20	56	19.11	237	179	75.53
16	Azərbaycan Turizm və Menecment Universiteti	400	0	400	269	67.25	0	0.00	400	269	67.25
17	Bakı Xoreoqrafiya Akademiyası	40	0	40	36	90.00	30	75.00	10	6	60.00
18	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	661	30	631	581	92.08	337	53.41	294	244	82.99
19	Milli Aviasiya Akademiyası	473	0	473	353	74.63	107	22.62	366	246	67.21
20	Azərbaycan Dövlət Dəniz Akademiyası	150	0	150	150	100.00	130	86.67	20	20	100.00
21	Bakı Ali Neft Məktəbi	119	0	119	115	96.64	0	0.00	119	115	96.64
22	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	140	0	140	122	87.14	0	0.00	140	122	87.14
23	Naxçıvan Dövlət Universiteti	1290	1	1289	464	36.00	0	0.00	1289	464	36.00
24	Naxçıvan Müəllimlər İnstitutu	430	0	430	31	7.21	0	0.00	430	31	7.21
25	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	1520	127	1393	784	56.28	422	30.29	971	362	37.28
26	Gəncə Dövlət Universiteti	1734	16	1718	470	27.36	3	0.17	1715	467	27.23

Cədvəl 1.1.4 (ardı)

№	Ali təhsil müəssisəsi	Dövlət sifarişi üzrə ali təhsil müəssisəsinin kadr hazırlığı imkanı və qəbulun nəticəsi					o cümlədən, dövlət sifarişi üzrə kadr hazırlığı üçün ali təhsil müəssisəsinin				
							inhisarında olan faktiki		digər ali təhsil müəssisələri ilə rəqabət apardığı faktiki		
		yerlərin sayı	bütün ali təhsil müəssisələri üzrə istifadə olunmayan yerlərin sayı	faktiki yerlərin sayı	faktiki yerlər üzrə qəbul olanların sayı	faktiki yerlər üzrə qəbulolma faizi	yerlərin sayı	yerlərin faizi	yerlərin sayı	yerlər üzrə qəbul olanların sayı	yerlər üzrə qəbulolma faizi
27	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	950	21	929	72	7.75	0	0.00	929	72	7.75
28	Sumqayıt Dövlət Universiteti	1655	0	1655	244	14.74	9	0.54	1646	235	14.28
29	Mingəçevir Dövlət Universiteti	1055	0	1055	97	9.19	0	0.00	1055	97	9.19
30	Lənkəran Dövlət Universiteti	1730	0	1730	360	20.81	98	5.66	1632	262	16.05
31	Azərbaycan Kooperasiya Universiteti	1120	9	1111	52	4.68	0	0.00	1111	52	4.68
32	Azərbaycan İlahiyyat İnstitutu	72	1	71	68	95.77	56	78.87	15	12	80.00
33	Azərbaycan Universiteti	795	0	795	48	6.04	0	0.00	795	48	6.04
34	Qərbi Kaspi Universiteti	977	0	977	149	15.25	0	0.00	977	149	15.25
35	Xəzər Universiteti	960	0	960	462	48.13	0	0.00	960	462	48.13
36	Bakı Avrasiya Universiteti	820	0	820	2	0.24	0	0.00	820	2	0.24
37	Bakı Qızlar Universiteti	440	0	440	20	4.55	0	0.00	440	20	4.55
38	Odlar Yurdu Universiteti	995	0	995	34	3.42	0	0.00	995	34	3.42
39	Bakı Biznes Universiteti	905	0	905	19	2.10	0	0.00	905	19	2.10
40	Naxçıvan Universiteti (Naxçıvan şəhəri)	440	0	440	24	5.45	0	0.00	440	24	5.45
41	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	300	0	300	17	5.67	0	0.00	300	17	5.67

Cədvəldən göründüyü kimi, ən yüksək qəbulolma göstəricisi Azərbaycan Dövlət Dəniz Akademiyası (100.0%), Azərbaycan Tibb Universiteti (98.09%), Bakı Ali Neft Məktəbi (96.64%) və Azərbaycan İlahiyyat İnstitutuna (95.77%) aiddir.

Azərbaycan Dövlət Dəniz Akademiyasının dövlət büdcəsinin vəsaiti hesabına təhsil almaq üçün 150 nəfər tələbə qəbul etmək imkanına malik olmuşdur. Bu yerlərin 130-u bilavasitə onun inhisarında olan, 20-si isə digər ali təhsil müəssisələrinin də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər idi. Azərbaycan Dövlət Dəniz Akademiyasının digər ali təhsil müəssisələri ilə birgə iştirak etdiyi müsabiqələrdə 20 nəfər qalibin 20-si təhsilini davam etdirmək məqsədilə məhz bu ali təhsil müəssisəsini seçmişdir.

Azərbaycan Tibb Universiteti dövlət büdcəsinin vəsaiti hesabına təhsil almaq üçün 681 nəfər tələbə qəbul etmək imkanına malik olmuşdur. Bu yerlərdən 571-i bilavasitə onun inhisarında olan, 110-u isə digər ali təhsil müəssisələrinin də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər idi. Azərbaycan Tibb Universitetinin digər ali təhsil müəssisələri ilə birgə iştirak etdiyi müsabiqələrdə 110 nəfər qalibin 97-si təhsilini davam etdirmək məqsədilə məhz bu ali təhsil müəssisəsini seçmişdir.

Bakı Ali Neft Məktəbi dövlət büdcəsinin vəsaiti hesabına təhsil almaq üçün 119 nəfər tələbə qəbul etmək imkanına malik olub. Bu yerlərin hamısı digər ali təhsil müəssisələrinin də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər idi. Müsabiqədə Bakı Ali Neft Məktəbi böyük üstünlüyə malik olub və 119 nəfər qalibdən 115-i təhsilini davam etdirmək məqsədilə məhz bu ali təhsil müəssisəsini seçib.

Azərbaycan İlahiyyat İnstitunun dövlət büdcəsi hesabına ayrılan 71 yerdən 15-i digər ali təhsil müəssisələrinin də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər olub. Bu yerlərə qəbul olan 15 qalibdən 12-si Azərbaycan İlahiyyat İnstitutunda təhsilini davam etdirməyə üstünlük verib. Bunun əsas səbəbi bu ali təhsil müəssisəsinə dövlət sifarişi üçün ayrılan yerlərin müsabiqə şərtlərinin digər təhsil müəssisələrindən aşağı olmasıdır. Belə ki, III ixtisas qrupunda dövlət sifarişi üzrə ayrılan yerlərin müsabiqəsinə ən azı 200 bal toplayan abituriyentlər buraxıldığı halda, Azərbaycan İlahiyyat İnstitutunun ixtisaslarının müsabiqəsinə ən azı 150 bal toplayan abituriyentlər buraxılıb.

Dövlət ali təhsil müəssisələri arasında dövlət sifarişi ilə tələbə qəbulunda ən aşağı nəticə Naxçıvan Müəllimlər İnstitutuna məxsusdur. Bu ali təhsil müəssisəsi dövlət sifarişi üzrə 430 nəfər tələbə qəbul etmək imkanına malik olmuşdur. Bu yerlərin hamısı digər ali təhsil müəssisələrinin də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər idi. Nəticədə, Naxçıvan Müəllimlər İnstitutunun digər ali təhsil müəssisələri ilə birgə iştirak etdiyi müsabiqələrdə 430 nəfər qalibdən yalnız 31-i təhsilini davam etdirmək məqsədilə bu ali təhsil müəssisəsini seçmişdir.

Zəif nəticə göstərən digər təhsil müəssisələri Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.), Mingəçevir Dövlət Universiteti, Bakı Slavyan Universiteti və Sumqayıt Dövlət Universitetidir. Bu ali təhsil müəssisələri dövlət vəsaiti hesabına təhsil almaq üçün, müvafiq olaraq, 929, 1055, 1070 və 1655 nəfər tələbə qəbul etmək imkanına malik idi. Müsabiqə, adları qeyd olunan ali təhsil müəssisələrinin yüksək hazırlıqlı abituriyentlər arasında çox zəif nüfuza malik olduğunu göstərib. Belə ki, abituriyentlər Azərbaycan Texnologiya Universitetinin (Gəncə ş.) digər ali təhsil müəssisələri ilə birgə müsabiqəsi üçün ayrılan 929 dövlət sifarişli yerdən yalnız 72-ni (7.75%), Mingəçevir Dövlət Universiteti üçün ayrılan 1055 dövlət sifarişli yerdən yalnız 97-ni (9.19%), Bakı Slavyan Universitetinə ayrılan 1070 yerdən yalnız 144-nü (13.46%), Sumqayıt Dövlət Universitetinə ayrılan 1646 yerdən yalnız 235-ni (14.28%) seçmişlər.

Dövlət sifarişi üzrə tələbə qəbulunun müsabiqəsində 11 özəl ali təhsil müəssisəsi iştirak etmişdir. Onların hamısı birlikdə müxtəlif ixtisaslar üzrə dövlət büdcəsinin vəsaiti hesabına 7814 nəfər tələbə qəbul etmək imkanına malik olmuşdur. Bu yerlərin böyük əksəriyyəti digər ali təhsil müəssisələrinin (dövlət və özəl) də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər idi. Bütövlükdə götürdükdə, dövlət sifarişi ilə təhsil almaq hüququ qazanan cəmi 839 nəfər abituriyent təhsilini özəl ali təhsil müəssisələrində davam etdirmək istədiyini bildirmişdi. 839 qalibdən 462 nəfəri isə Xəzər Universitetini seçmişdir. Beləliklə, abituriyentlər öz ixtisas seçimləri ilə bu özəl ali təhsil müəssisəsinə böyük inam göstərdiklərini nümayiş etdirmişlər.

Bu il ali təhsil müəssisələri üzrə, bütövlükdə, dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilən ixtisaslara qəbul olanların (subbakalavrlar da nəzərə alınmaqla) 86.18%-i (19289 nəfər) Bakı şəhərində, 13.82%-i (3093 nəfər) isə respublikanın regionlarında yerləşən ali təhsil müəssisələrini seçmişdir. 2020-ci ildə bu göstəricilər, müvafiq olaraq, 86.31% (17876 nəfər) və 13.69% (2835 nəfər) olmuşdu. Bakı şəhərində və regionlarda yerləşən ali təhsil müəssisələrinə son on üç ildə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən yerlərə qəbul olanların nisbi çəkisinin müqayisəli təhlili göstərir ki, bu illər ərzində Bakı şəhərində yerləşən ali təhsil müəssisələrinə qəbul olanların faizi 79.73-dən 86.18-ə qədər artmış, regionlarda yerləşən ali təhsil müəssisələrinə qəbul olanların faizi isə 20.27-dən 13.82-yədək qədər azalmışdır. Beləliklə, aydın olur ki, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən yerlərə müsabiqənin bütün ali təhsil müəssisələri üzrə mərkəzləşdirilmiş şəkildə aparılması ötən illərlə müqayisədə hazırda regionlarda yerləşən ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə qəbul olanların faizinin azalmasına səbəb olmuşdur.

1.1.5 saylı cədvəldə qruplar və ixtisaslar üzrə dövlət sifarişi ilə tələbə qəbuluna ayrılan yerlərin sayı (tələbə qəbulunun proqnozu) və qəbulun nəticələri təqdim edilmişdir. Cədvəldə ixtisaslar üzrə ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin sayı həm bütövlükdə, həm də təhsil müəssisələri üzrə ayrılıqda verilmişdir. Cədvəldə təqdim edilən rəqəmlərin təhlili göstərir ki, bütövlükdə, dövlət sifarişi əsasında qəbul aparılan yerlərə qəbulolma faizi yüksəkdir.

Artıq doqquzuncu ildir ki, kənd təsərrüfatı ixtisaslarına abituriyentlərin maraqlarını artırmaq məqsədilə bu ixtisaslara qəbul üçün əlavə olaraq dövlət sifarişli yerlər ayrılır. Bundan əlavə, kənd təsərrüfatı ixtisaslarının bir çoxunun 2015-ci ildə IV qrupdan abituriyentlərin sayı çox olan I qrupa keçirilməsi bu ixtisaslar üzrə müsabiqəyə və nəticədə, qəbula ciddi dərəcədə yaxşı təsir göstərib. Məlum olduğu kimi, son illər I qrupa ərizə verən abituriyentlərin sayı daha da artmışdır.

Məlum olduğu kimi, "Memarlıq" və "Jurnalistika" ixtisasları istisna olmaqla, qalan bütün xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə buraxılış imtahanının (qəbul imtahanının I mərhələsinin) nəticələri əsasında aparılıb və nəticədə, bu ixtisaslar üzrə müsabiqə vəziyyəti xeyli yaxşılaşıb.

Cədvəl 1.1.5

QRUPLAR VƏ İXTİSASLAR ÜZRƏ DÖVLƏT SİFARİŞİ İLƏ TƏLƏBƏ QƏBULUNA AYRILAN YERLƏRİN SAYI VƏ QƏBULUN NƏTİCƏLƏRİ

(subbakalavrlar istisna olmaqla)

I QRUP

№	İxtisaslar	Tələbə qəbulunun proqnozu	Qəbul olan abituriyentlərin sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
1	Aerokosmik mühəndislik	60	66	110.00	212.0	Milli Aviasiya Akademiyası	66
2	Aqromühəndislik	70	72	102.86	218.7	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	72
3	Aqronomluq	195	185	94.87	199.2	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	114
						Lənkəran Dövlət Universiteti	71
4	Aviasiya təhlükəsizliyi mühəndisliyi	27	34	125.93	276.7	Milli Aviasiya Akademiyası	34
5	Balıqçılıq	45	41	91.11	200.3	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	41
6	Cihaz mühəndisliyi	170	148	87.06	208.1	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	118
						Azərbaycan Texniki Universiteti	12
						Milli Aviasiya Akademiyası	15
						Qərbi Kaspi Universiteti	3
7	Dəniz naviqasiyası mühəndisliyi	60	76	126.67	227.6	Azərbaycan Dövlət Dəniz Akademiyası	76
8	Ekologiya mühəndisliyi	215	102	47.44	236.1	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	36
						Azərbaycan Texniki Universiteti	10
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	10
						Azərbaycan Dövlət İqtisad Universiteti	25
						Bakı Mühəndislik Universiteti	7
						Milli Aviasiya Akademiyası	7
						Naxçıvan Dövlət Universiteti	1
						Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	1
						Sumqayıt Dövlət Universiteti	3
						Mingəçevir Dövlət Universiteti	2
9	Elektrik və elektronika mühəndisliyi	324	325	100.31	221.2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	142
						Azərbaycan Texniki Universiteti	56
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	21
						Azərbaycan Dövlət İqtisad Universiteti	29
						Bakı Mühəndislik Universiteti	27
						Milli Aviasiya Akademiyası	14
						Azərbaycan Dövlət Dəniz Akademiyası	20
						Naxçıvan Dövlət Universiteti	3
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	6
						Sumqayıt Dövlət Universiteti	3
						Xəzər Universiteti	4
10	Energetika mühəndisliyi	310	309	99.68	201.5	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	160
						Azərbaycan Texniki Universiteti	77
						Bakı Mühəndislik Universiteti	25
						Milli Aviasiya Akademiyası	15
						Naxçıvan Dövlət Universiteti	6
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	14
						Sumqayıt Dövlət Universiteti	4
						Mingəçevir Dövlət Universiteti	8

Cədvəl 1.1.5 (ardı)

№	İxtisaslar	Tələbə qəbulunun proqnozu	Qəbul olan abituriyentlərin sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
11	Fizika	142	135	95.07	250.7	Bakı Dövlət Universiteti	125
						Naxçıvan Dövlət Universiteti	10
12	Fizika müəllimliyi	255	255	100.00	360.1	Bakı Dövlət Universiteti	162
						Azərbaycan Dövlət Pedaqoji Universiteti	57
						Bakı Mühəndislik Universiteti	9
						Naxçıvan Dövlət Universiteti	4
						Gəncə Dövlət Universiteti	5
						Sumqayıt Dövlət Universiteti	2
						Lənkəran Dövlət Universiteti	8
						Xəzər Universiteti	8
13	Geologiya	90	50	55.56	201.9	Bakı Dövlət Universiteti	34
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	16
14	Geologiya və geofizika mühəndisliyi	141	101	71.63	200.9	Bakı Dövlət Universiteti	41
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	60
15	Geomatika və geodeziya mühəndisliyi	70	18	25.71	201.5	Bakı Dövlət Universiteti	10
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	8
16	Gəmi energetik qurğularının istismarı mühəndisliyi	60	65	108.33	284.4	Azərbaycan Dövlət Dəniz Akademiyası	65
17	Gəmiqayırma və gəmi təmiri mühəndisliyi	10	12	120.00	273.2	Azərbaycan Dövlət Dəniz Akademiyası	12
18	Hava nəqliyyatının hərəkətinin təşkili	15	19	126.67	302.4	Milli Aviasiya Akademiyası	19
19	Hərbi kompozisiya materialları mühəndisliyi	20	7	35.00	213.4	Azərbaycan Texniki Universiteti	7
20	Hərbi rabitə vasitələri mühəndisliyi	20	20	100.00	216.8	Azərbaycan Texniki Universiteti	20
21	Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi	112	118	105.36	226.5	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	74
						Azərbaycan Texniki Universiteti	21
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	23
22	İnformasiya texnologiyaları	775	795	102.58	211.7	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	197
						Azərbaycan Texniki Universiteti	141
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	104
						Azərbaycan Dövlət İqtisad Universiteti	110
						Bakı Mühəndislik Universiteti	74
						Milli Aviasiya Akademiyası	34
						Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	20
						Naxçıvan Dövlət Universiteti	20
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	18
						Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	5
						Sumqayıt Dövlət Universiteti	15
						Mingəçevir Dövlət Universiteti	15
						Lənkəran Dövlət Universiteti	12
						"Azərbaycan" Universiteti	7
						Qərbi Kaspi Universiteti	7
						"Odlar Yurdu" Universiteti	4
						Bakı Biznes Universiteti	9
						"Naxçıvan" Universiteti (Naxçıvan şəhəri)	3

Cədvəl 1.1.5 (ardı)

№	İxtisaslar	Tələbə qəbulunun proqnozu	Qəbul olan abituriyentlərin sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
23	İnformasiya təhlükəsizliyi	319	380	119.12	235.9	Bakı Dövlət Universiteti	25
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	144
						Azərbaycan Texniki Universiteti	83
						Azərbaycan Dövlət İqtisad Universiteti	70
						Bakı Mühəndislik Universiteti	25
						Bakı Ali Neft Məktəbi	9
						Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	20
						"Azərbaycan" Universiteti	3
						Qərbi Kaspi Universiteti	1
24	İnformatika müəllimliyi	225	225	100.00	290.1	Bakı Dövlət Universiteti	159
						Azərbaycan Dövlət Pedaqoji Universiteti	49
						Naxçıvan Müəllimlər İnstitutu	3
						Gəncə Dövlət Universiteti	14
25	İnşaat mühəndisliyi	220	231	105.00	212.9	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	31
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	151
						Bakı Mühəndislik Universiteti	41
						Xəzər Universiteti	8
26	Kimya mühəndisliyi	247	298	120.65	215.6	Bakı Dövlət Universiteti	29
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	192
						Azərbaycan Texniki Universiteti	4
						Bakı Mühəndislik Universiteti	32
						Bakı Ali Neft Məktəbi	25
						Sumqayıt Dövlət Universiteti	1
						Xəzər Universiteti	15
27	Kommunikasiya sistemləri mühəndisliyi	120	123	102.50	200.1	Azərbaycan Memarlıq və İnşaat Universiteti	83
						Azərbaycan Dövlət İqtisad Universiteti	40
28	Kompüter elmləri	569	609	107.03	309.2	Bakı Dövlət Universiteti	209
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	144
						Azərbaycan Texniki Universiteti	41
						Azərbaycan Dövlət İqtisad Universiteti	64
						Bakı Mühəndislik Universiteti	49
						Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	60
						Gəncə Dövlət Universiteti	2
						Xəzər Universiteti	40
29	Kompüter mühəndisliyi	595	607	102.02	216.0	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	197
						Azərbaycan Texniki Universiteti	136
						Bakı Mühəndislik Universiteti	48
						Milli Aviasiya Akademiyası	39
						Bakı Ali Neft Məktəbi	14
						Naxçıvan Dövlət Universiteti	10
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	15
						Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	8
						Sumqayıt Dövlət Universiteti	22
						Lənkəran Dövlət Universiteti	17
						Azərbaycan Kooperasiya Universiteti	2
						"Azərbaycan" Universiteti	15
						Qərbi Kaspi Universiteti	18
						Xəzər Universiteti	50
						"Odlar Yurdu" Universiteti	2
						"Naxçıvan" Universiteti (Naxçıvan şəhəri)	14

Cədvəl 1.1.5 (ardı)

№	İxtisaslar	Tələbə qəbulunun proqnozu	Qəbul olan abituriyentlərin sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
30	Qida mühəndisliyi	230	233	101.30	247.9	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	75
						Azərbaycan Texniki Universiteti	17
						Azərbaycan Dövlət İqtisad Universiteti	118
						Azərbaycan Turizm və Menecment Universiteti	15
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	5
						Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	1
						Lənkəran Dövlət Universiteti	2
31	Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi	190	204	107.37	217.7	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	82
						Azərbaycan Texniki Universiteti	43
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	29
						Bakı Mühəndislik Universiteti	24
						Milli Aviasiya Akademiyası	26
32	Maşın mühəndisliyi	150	46	30.67	200.3	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	21
						Azərbaycan Texniki Universiteti	6
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	2
						Azərbaycan Dövlət İqtisad Universiteti	13
						Bakı Mühəndislik Universiteti	3
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	1
33	Materiallar mühəndisliyi	110	29	26.36	208.9	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	14
						Azərbaycan Texniki Universiteti	1
						Azərbaycan Dövlət İqtisad Universiteti	14
34	Mexanika	30	30	100.00	256.0	Bakı Dövlət Universiteti	30
35	Mexanika mühəndisliyi	140	127	90.71	207.3	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	83
						Azərbaycan Texniki Universiteti	16
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	12
						Bakı Mühəndislik Universiteti	10
						Xəzər Universiteti	6
36	Mexatronika və robototexnika mühəndisliyi	95	100	105.26	224.4	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	83
						Azərbaycan Texniki Universiteti	17
37	Meliorasiya mühəndisliyi	110	39	35.45	229.4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	8
						Naxçıvan Dövlət Universiteti	1
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	30
38	Memarlıq	120	156	130.00	214.0 6.0	Azərbaycan Memarlıq və İnşaat Universiteti	120
						Bakı Mühəndislik Universiteti	29
						Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	6
						Naxçıvan Dövlət Universiteti	1
39	Meşəçilik	110	161	146.36	176.3	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	44
						Lənkəran Dövlət Universiteti	72
						Qərbi Kaspi Universiteti	45
40	Metallurgiya mühəndisliyi	70	3	4.29	206.8	Azərbaycan Texniki Universiteti	3
41	Mədən mühəndisliyi	55	21	38.18	201.8	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	20
						Azərbaycan Texniki Universiteti	1

Cədvəl 1.1.5 (ardı)

№	İxtisaslar	Tələbə qəbulunun proqnozu	Qəbul olan abituriyentlərin sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
42	Mühəndis fizikası	55	43	78.18	202.7	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	22
						Azərbaycan Texniki Universiteti	2
						Milli Aviasiya Akademiyası	18
						Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	1
43	Neft- qaz mühəndisliyi	285	282	98.95	211.9	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	193
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	48
						Bakı Ali Neft Məktəbi	29
						Sumqayıt Dövlət Universiteti	2
						Xəzər Universiteti	10
44	Nəqliyyat mühəndisliyi	175	86	49.14	201	Azərbaycan Texniki Universiteti	44
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	19
						Naxçıvan Dövlət Universiteti	10
						Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	6
						Mingəçevir Dövlət Universiteti	7
45	Nəqliyyat tikintisi mühəndisliyi	60	18	30.00	216.7	Azərbaycan Memarlıq və İnşaat Universiteti	16
						Bakı Mühəndislik Universiteti	2
46	Optotexnika mühəndisliyi	20	13	65.00	216.0	Azərbaycan Texniki Universiteti	13
Cəmi	**20578**	**52.78**	**18411**	**47.22**	**1804**	**50.33**	**1780**	**49.67**	**22382**	**52.57**	**20191**	**47.43**

Aşağıda 1.2.1, 1.2.2 və 1.2.3, 1.2.4 saylı şəkillərdə I-IV və V ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında və ödənişli təhsil forması üzrə qəbul olmuş abituriyentlərin ballarının paylanma diaqramları təsvir edilib. Diaqramlardan göründüyü kimi, bu yerlərə heç də hazırlıq səviyyəsi eyni olan abituriyentlər qəbul olmayıb. Dövlət sifarişi əsasında ayrılan yerlərə qəbul olan abituriyentlərin hazırlıq səviyyəsi ödənişli təhsil forması üzrə qəbul olanlardan əhəmiyyətli dərəcədə yüksəkdir. I-IV ixtisas qrupları üzrə dövlət sifarişi əsasında ayrılan yerlərə qəbul olanların 26.90%-ni 500-dən yuxarı bal toplamış abituriyentlər təşkil etdiyi halda, ödənişli təhsil forması üzrə ayrılan yerlərə qəbul olanlar arasında belələri yalnız 6.58%-dir. Digər tərəfdən, dövlət sifarişi əsasında ayrılan yerlərə qəbul olanlar arasında 200-300 intervalında bal toplayanlar 20.09%-dirsə, ödənişli təhsil forması üzrə belə göstəricilərlə qəbul olanlar 42.47% təşkil edir. Analoji vəziyyəti V ixtisas qrupu üzrə müqayisədə də görmək olar. Belə ki, bu ixtisas qrupunda dövlət sifarişi əsasında ayrılan yerlərə qəbul olanlar arasında 150-200 və 200-300 intervallarında bal toplayanlar uyğun olaraq 29.70 və 8.13% təşkil etdiyi halda, ödənişli təhsil forması üzrə qəbul olanlar arasında bu göstəricilər uyğun olaraq 8.17 və 0.10% olmuşdur. Aşağı bal intervalında başqa mənzərənin şahidi oluruq. Belə ki, dövlət sifarişi əsasında ayrılan yerlərə qəbul olanlar arasında 50-100 və 100-150 intervallarında bal toplayanlar 62.10%, ödənişli təhsil forması üzrə bu göstəricilərlər qəbul olanlar 91.59% təşkil edir. Dövlət sifarişi əsasında və ödənişli təhsil forması üzrə olan yerlərə qəbul olan abituriyentlərin bal göstəriciləri arasındakı fərq nəzərə alınaraq, ödənişli təhsil forması üzrə qəbul olanların təhsil üçün ödədiyi vəsaitin bir hissəsi onların müasir təhsil standartları səviyyəsində hazırlığına yönəldilməlidir. Eyni zamanda, dövlət sifarişi əsasında və ödənişli təhsil forması üzrə olan yerlərə qəbul olan abituriyentlərin bal göstəriciləri arasındakı fərq nəzərə alınaraq, ödənişli təhsil forması üzrə qəbul olanlar üçün ali təhsil müəssisələri tədris proqramında dəyişiklik aparmalı, onları bir qədər genişləndirilmiş proqram əsasında hazırlamalıdırlar.

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN DÖVLƏT SİFARİŞİ ƏSASINDA QƏBUL APARILAN YERLƏRİNƏ DAXİL OLMUŞ ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(I-IV qruplar üzrə)



Şəkil 1.2.1

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ QƏBUL APARILAN YERLƏRİNƏ DAXİL OLMUŞ ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(I-IV qruplar üzrə)



Şəkil 1.2.2

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRİNƏ QƏBUL OLMUŞ ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(V qrup üzrə)



Şəkil 1.2.3

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ AYRILAN YERLƏRİNƏ QƏBUL OLMUŞ ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(V qrup üzrə)



Şəkil 1.2.4

Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında ayrılan yerlərə və ödənişli təhsil forması üzrə qəbul olan abituriyentlərin bilik səviyyələri arasındakı fərqi müəyyən etmək üçün onların topladıqları ballar və test tapşırıqlarına cavabları da ixtisas qrupları və bölmələr üzrə ayrı-ayrılıqda araşdırılıb və nəticələr 1.2.5-1.2.9 saylı cədvəllərdə təqdim edilib.

Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında ayrılmış yerlərə qəbul olanların test tapşırıqlarının həlli üzrə ən yüksək göstəricisi Azərbaycan bölməsində I mərhələ üzrə III qrup abituriyentlərinin ana dili fənninə (78.96%), II mərhələ üzrə III qrup abituriyentlərinin ədəbiyyat fənninə (80.94%), rus bölməsində isə I mərhələ üzrə III qrup abituriyentlərinin ingilis dili fənninə (83.15%), II mərhələ üzrə III qrup abituriyentlərinin ədəbiyyat fənninə (80.51%) cavablarında özünü göstərib.

Test tapşırıqlarına cavabların müqayisəli təhlili göstərir ki, ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında ayrılmış yerlərə və ödənişli təhsil forması üzrə ayrılmış yerlərə qəbul olanların bilikləri arasında ən az fərq Azərbaycan bölməsində I mərhələ üzrə I ixtisas qrupunda (qəbul olan abituriyentlərin fənlər üzrə düzgün cavablarının faiz nisbəti 1.13-1.28 diapazonundadır), II mərhələ üzrə IV ixtisas qrupundadır (faiz nisbəti 1.25-1.34 diapazonundadır). Rus bölməsində hər iki mərhələ üzrə ən az fərq I ixtisas qrupundadır (faiz nisbəti I mərhələ üzrə 1.04-1.13, II mərhələ üzrə 1.15-1.27 diapazonundadır).

Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında ayrılmış yerlərə və ödənişli təhsil forması üzrə qəbul olanların fənlər üzrə cavablarının ortastatistik göstəriciləri arasında ən böyük fərq hər iki bölmədə həm I, həm II mərhələ üzrə II ixtisas müşahidə olunur. Ödənişli təhsil forması üzrə qəbul olanların cavablarının göstəriciləri dövlət sifarişi əsasında qəbul olanların cavablarından Azərbaycan bölməsində II ixtisas qrupunda I mərhələ üzrə 1.29-1.84, II mərhələ üzrə 1.57-2.00 dəfə, rus bölməsində isə I mərhələ üzrə 1.20-1.76, II mərhələ üzrə 1.63-1.88 dəfə aşağıdır.

Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında ayrılmış yerlərə və ödənişli təhsil forması üzrə ayrılmış yerlərə qəbul olan abituriyentlərin ayrılıqda ortastatistik bal göstəricilərinin (bax: cədvəl 1.2.9) müqayisəsi də biliklər arasında ən böyük fərqin hər iki bölmə üzrə II qrupda olduğunu təsdiq edir.

Ümumilikdə götürdükdə, dövlət sifarişi əsasında ayrılmış yerlərə qəbul olan ortastatistik abituriyentin* bal göstəricisi ödənişli təhsil forması üzrə ali təhsil müəssisəsinə qəbul olan ortastatistik abituriyentin bal göstəricisindən Azərbaycan bölməsində 1.34, rus bölməsində 1.27 dəfə yüksəkdir.

Cədvəl 1.2.5

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

AZƏRBAYCAN BÖLMƏSİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	64.22	61.72	62.13			48.40	51.02	54.90			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	68.00	55.85	64.10			46.11				67.96	58.37
III	Humanitar, pedaqogika ixtisasları	78.96	48.60	71.61	79.93	80.94					71.58	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	75.38	67.75	73.54				63.34	65.22	64.20		

* Burada ortastatistik abituriyent – ixtisas qrupu daxilində təhsil formasından (dövlət sifarişi əsasında yaxud ödənişli) asılı olaraq müəyyən seçməyə daxil olan abituriyentlərin ümumiləşdirilmiş obrazıdır. Ortastatistik abituriyentin imtahan fənni üzrə topladığı bal dedikdə, onun təmsil etdiyi seçməyə daxil olan abituriyentlərin həmin fəndən topladıqları nisbi balların orta qiyməti nəzərdə tutulur. Abituriyentin ümumi balı hesablanarkən onun hər bir fənn üzrə topladığı nisbi balı fənlərin müvafiq çəki əmsallarına vurulmaqla cəmlənir.

Cədvəl 1.2.6

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ AYRILAN YERLƏRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

AZƏRBAYCAN BÖLMƏSİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	57.05	48.25	53.26			34.60	37.10	41.35			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	52.90	30.40	44.34			23.02				43.38	33.22
III	Humanitar, pedaqogika ixtisasları	65.26	27.96	53.07	56.46	64.11					48.95	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	66.72	52.53	61.22				47.74	48.75	51.16		

Cədvəl 1.2.7

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

RUS BÖLMƏSİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	65.38	58.16	72.68			43.19	44.95	48.31			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	70.28	57.65	80.00			45.16				59.37	50.52
III	Humanitar, pedaqogika ixtisasları	77.29	43.82	83.15	78.98	80.51					62.64	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	70.41	56.68	75.44				51.54	54.51	52.95		

Cədvəl 1.2.8

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ AYRILAN YERLƏRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

RUS BÖLMƏSİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	62.60	51.47	69.05			37.57	35.34	41.51			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	58.45	32.73	62.55			23.97				36.53	28.63
III	Humanitar, pedaqogika ixtisasları	64.86	26.24	66.63	57.26	61.88					38.18	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	64.19	40.58	64.99				31.99	33.11	36.56		

Cədvəl 1.2.9

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRƏ VƏ ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN ORTASTATİSTİK BAL GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

№	İXTİSAS QRUPU	AZƏRBAYCAN BÖLMƏSİ			RUS BÖLMƏSİ		
		Ortastatistik abituriyentin topladığı ballar		Ballar nisbəti	Ortastatistik abituriyentin topladığı ballar		Ballar nisbəti
		dövlət sifarişi əsasında qəbul olan	ödənişli əsaslarla qəbul olan		dövlət sifarişi əsasında qəbul olan	ödənişli əsaslarla qəbul olan	
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	376.49	288.52	1.30	361.82	317.59	1.14
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	397.18	234.13	1.70	396.56	248.59	1.60
III	Humanitar, pedaqogika ixtisasları	498.45	351.01	1.42	487.30	344.56	1.41
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	459.38	359.55	1.28	400.05	284.54	1.41
Bütövlükdə		418.39	313.39	1.34	392.36	309.82	1.27

1.3. Dövlət və özəl ali təhsil müəssisələrinə tələbə qəbulunun müqayisəli təhlili

Qanunvericiliyə uyğun fəaliyyət göstərən özəl ali təhsil müəssisələrinə tələbə qəbulunun təşkili və keçirilməsi 1995-ci ildən Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına (indiki Dövlət İmtahan Mərkəzinə) həvalə olunub. Bununla əlaqədar Mərkəz hər il, bir qayda olaraq, özəl ali təhsil müəssisələrinin nümayəndələrinin iştirakı ilə keçirilən müşavirələrdə bütövlükdə ali təhsil müəssisələrinə əvvəlki illərdə aparılmış tələbə qəbulunun müxtəlif parametrlər üzrə nəticələri, o cümlədən özəl ali təhsil müəssisələrinə qəbulun nəticələri barədə ətraflı məlumat verir, tövsiyələrini bildirir.

Özəl ali təhsil müəssisələrinə tələbə qəbulu, əvvəlki illərdə olduğu kimi, bu il də dövlət ali təhsil müəssisələrinə qəbulla birgə elan olunmuşdu. Abituriyentlərə ərizələrində dövlət ali təhsil müəssisələrinin ixtisasları ilə yanaşı, özəl təhsil müəssisələrinin də ixtisaslarını qeyd etmək imkanı verilmişdi. Həmin ixtisaslara müsabiqənin aparılması şərtləri dövlət ali təhsil müəssisələrinin müvafiq ixtisasları ilə eyni olmuşdur. 2010-cu ildən ali təhsil müəssisələrində tətbiq olunan yeni qaydalara əsasən, özəl ali təhsil müəssisələrinə dövlət sifarişi ilə mütəxəssis hazırlığında iştirak etmək imkanı yaradılmışdır.

Bu təhsil müəssisələrinə cari ildə 7927 plan yeri ayrılmışdı. Özəl ali təhsil müəssisələrinin qəbul planı ötən illə müqayisədə bu il 2.39% (185 yer) artmışdır. Ayrılmış plan yerlərinin 58.87%-i Azərbaycan, 0.13%-i rus, 41.00%-i isə hər iki bölmə abituriyentlərinin birgə müsabiqəsi üçün nəzərdə tutulmuşdu. Qruplar üzrə götürdükdə planın 11.54%-i birinci, 44.03%-i ikinci, 36.74%-i üçüncü, 6.06%-i dördüncü, 1.64%-i isə beşinci ixtisas qrupuna aid olub. Ötən illərdə olduğu kimi, bu il də qəbul planının əsas hissəsi (80.77%-i) II və III qrup ixtisasları üçün nəzərdə tutulmuşdu. Sadəcə, ötən illə müqayisədə müsabiqə vəziyyətinin zəif olduğu II ixtisas qrupunun payı 46.69%-dən (2019-cu ildə 50.05% olub) 44.03%-ə qədər azalmış, müsabiqə vəziyyətinin yüksək olduğu III qrupun payı isə 35.35%-dən (2019-cu ildə 29.51% olub) 36.74%-dək çoxalmışdır. Özəl ali təhsil müəssisələrinin I ixtisas qrupu üzrə qəbul planı dövlət ali təhsil müəssisələrinin müvafiq qrup üzrə qəbul planının 6.25%, IV qrup üzrə 13.78%, V qrup üzrə 3.53%-nə bərabər olduğu halda, II qrup üzrə 34.84%, III qrup üzrə 29.58%-nə bərabər olub. Bütün qruplar üzrə ümumilikdə götürdükdə isə özəl ali təhsil müəssisələrinin qəbul planı dövlət ali təhsil müəssisələrinin qəbul planının 19.03%-i qədər olmuşdur.

Özəl ali təhsil müəssisələrinə sənədlərin qəbulu dövlət ali təhsil müəssisələri ilə birgə və eyni qaydalar əsasında aparılmışdır. DİM sənəd qəbulu mərhələsində bu təhsil müəssisələri rəhbərlərinin peşəyönümü işi aparmaqla bağlı müraciətlərini nəzərə alaraq, onların dövlət qeydiyyatından keçmiş ixtisasları barədə "Abituriyent" jurnalında geniş məlumatların verilməsini təmin etmişdir.

Sənəd qəbulunun nəticələrinin təhlili göstərir ki, müsabiqədə iştirak edən abituriyentlərin 34.31%-i (15458 nəfər), subbakalavrların isə 49.29%-i (7590 nəfər) öz ərizələrində özəl təhsil müəssisələrinin ixtisaslarını da qeyd etmişdir. Azərbaycan bölməsində özəl təhsil müəssisələrinin ixtisaslarını abituriyentlərin 34.61%-i (14210 nəfər), subbakalavrların 48.51%-i (7184 nəfər), rus bölməsində isə abituriyentlərin 31.21%-i (1248 nəfər), subbakalavrların 68.86%-i (409 nəfər) seçmişdir. Abituriyentlərin 919 nəfəri, subbakalavrların isə 517 nəfəri öz ərizələrində yalnız özəl ali təhsil müəssisələrinin ixtisaslarını qeyd etmişdir.

İxtisas qrupları üzrə dövlət və özəl ali təhsil müəssisələrinin qəbul planı, həmin ali təhsil müəssisələrinin ixtisaslarını seçmiş abituriyentlərin sayı və müsabiqə vəziyyəti haqqında məlumat 1.3.1 – 1.3.3 saylı cədvəllərdə təqdim olunur. Cədvəllərdən göründüyü kimi, ixtisas qrupları üzrə özəl ali təhsil müəssisələrinə ərizələrin sayı plan yerlərinin sayından çox olsa da, III ixtisas qrupundan başqa digər ixtisas qruplarının heç birində müsabiqə şəraitinin yaranma ehtimalı yoxdur. Çünki abituriyentlər bu təhsil müəssisələrinin ixtisaslarını ərizələrində axırıncı yerlərdə göstərmişlər. Xatırladaq ki, ehtimal olunan müsabiqənin hesablanması qaydasında abituriyentin seçdiyi ixtisasları öz ərizəsində hansı yerdə qeyd etməsi amili nəzərə alınır. Əgər subbakalavrları da nəzərə alsaq, I, III və IV ixtisas qruplarında müsabiqə şəraitinin olduğunu görərik.

Dövlət ali təhsil müəssisələrində də III və V ixtisas qruplarında müsabiqə şəraiti mövcud olmuşdur. Əgər subbakalavrları da nəzərə olsaq, dövlət ali təhsil müəssisələrində bütün ixtisas qrupları üzrə müsabiqə şəraitinin mövcud olduğunu görərik.

Dövlət ali təhsil müəssisələrində ən zəif müsabiqə (0.747) II, ən yüksək müsabiqə (2.042) isə V ixtisas qrupunda olub. Subbakalavrları da nəzərə alsaq, dövlət ali təhsil müəssisələrində ən zəif müsabiqə (1.216) yenə II, ən yüksək müsabiqə (2.140) isə V ixtisas qrupunda olub. Özəl ali təhsil müəssisələrində ən zəif müsabiqə (0.175) II, ən yüksək müsabiqə (1.166) III ixtisas qrupunda olub. Subbakalavrlarla birlikdə özəl ali təhsil müəssisələrində ən zəif müsabiqə (0.585) yenə II, ən yüksək müsabiqə (1.369) isə III ixtisas qrupunda olub.

Cədvəl 1.3.1

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI

№	İXTİSAS QRUPU	Dövlət ali təhsil müəssisələri				Özəl ali təhsil müəssisələri			
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	11752	851	2036	14639	445	0	470	915
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	7964	817	1235	10016	2390	0	1100	3490
III	Humanitar, pedaqogika ixtisasları	8108	1027	708	9843	1727	10	1175	2912
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	2868	210	405	3483	105	0	375	480
V	İncəsənət, musiqi, idman ixtisasları	934	105	2646	3685	0	0	130	130
CƏMİ		**31626**	**3010**	**7030**	**41666**	**4667**	**10**	**3250**	**7927**

Cədvəl 1.3.2

MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN ƏRİZƏLƏRİNİN SAYI

№	İXTİSAS QRUPU	Dövlət ali təhsil müəssisələri			Özəl ali təhsil müəssisələri		
		Azərb. bölməsi	Rus bölməsi	Bütövlükdə	Azərb. bölməsi	Rus bölməsi	Bütövlükdə
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	12218	1126	13344	2934	325	3259
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	6909	762	7671	2232	280	2512
III	Humanitar, pedaqogika ixtisasları	12233	1077	13310	7855	401	8256
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	2970	271	3241	819	126	945
V	İncəsənət, musiqi, idman ixtisasları	7597	1079	8676	375	118	493
CƏMİ		**40142**	**3991**	**44133**	**14210**	**1248**	**15458**

Cədvəl 1.3.3

ƏRİZƏ QƏBULU MƏRHƏLƏSİNDƏ İXTİSAS QRUPLARI ÜZRƏ MÜSABİQƏ VƏZİYYƏTİ
(subbakalavrlar istisna olmaqla)

№	İXTİSAS QRUPU	Dövlət ali təhsil müəssisələri				Özəl ali təhsil müəssisələri			
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, aqrar ixtisasları	0.888	0.979	1.605	0.880	0.850	---	1.036	0.822
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	0.754	0.738	1.375	0.747	0.174	---	0.262	0.175
III	Humanitar, pedaqogika ixtisasları	1.306	0.960	2.675	1.239	1.458	1.017	1.513	1.166
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	0.937	1.095	1.804	0.914	0.392	---	0.617	0.505
V	İncəsənət, musiqi, idman ixtisasları	4.684	5.102	1.365	2.042	---	---	0.715	0.715
CƏMİ		1.067	1.036	1.590	1.027	0.719	1.017	0.885	0.643

İmtahanların nəticələrinə əsasən, özəl ali təhsil müəssisələrinin plan yerlərinin dolma göstəricisi 75.05% olub. Ayrı-ayrı ixtisas qruplarında plan yerlərinin dolma faizləri fərqlidir. Bu göstəricilər I qrupda 71.15, II qrupda 62.78, III qrupda 92.62, IV qrupda 61.88, V qrupda isə 86.92%-ə bərabərdir. Qeyd etmək lazımdır ki, ixtisas seçimində iştirak edən abituriyentlərin bir hissəsi (I qrupda 197 nəfər, IV qrupda 11 nəfər) özəl ali təhsil müəssisələri ilə müqayisədə dövlət orta ixtisas təhsili müəssisələrinə üstünlük verib. Abituriyentlərin belə gözlənilməz seçim etmələrinin bir çox səbəbləri vardır. Bunların sırasında təhsil haqqını, diplomun əmək bazarındakı dəyərini, ali təhsil müəssisəsində təhsilin səviyyəsini və s. göstərmək mümkündür.

Özəl ali təhsil müəssisələrindən fərqli olaraq dövlət ali təhsil müəssisələrinin plan yerlərinin dolma faizi ümumilikdə 87.90% olub. Ən yüksək göstərici III ixtisas qrupunda (97.47%), ən aşağı göstərici isə I ixtisas qrupunda (82.40%) qeydə alınıb.

Özəl və dövlət ali təhsil müəssisələrinə qruplar və bölmələr üzrə qəbulolma göstəriciləri 1.3.4 və 1.3.5 saylı cədvəllərdə təqdim edilib.

Cədvəl 1.3.4

ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	915	403 (336)	45 (45)	448 (381)	48.96
II	3490	709 (114)	63 (7)	772 (121)	22.12
III	2912	2658 (261)	39 (2)	2697 (263)	92.62
IV	480	196 (143)	42 (16)	238 (159)	49.58
V	130	79 (6)	32 (1)	111 (7)	85.38
CƏMİ	**7927**	**4045 (860)**	**221 (71)**	**4266 (931)**	**53.82**
	Subbakalavrlar				
I	915	179 (0)	24 (0)	203 (0)	22.19
II	3490	1384 (158)	35 (12)	1419 (170)	40.66
III	2912	0 (0)	0 (0)	0 (0)	0.00
IV	480	58 (9)	1 (0)	59 (9)	12.29
V	130	2 (0)	0 (0)	2 (0)	1.54
CƏMİ	**7927**	**1623 (167)**	**60 (12)**	**1683 (179)**	**21.23**

Cədvəl 1.3.4(ardı)

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Bütövlükdə				
I	915	582 (336)	69 (45)	651 (381)	71.15
II	3490	2093 (272)	98 (19)	2191 (291)	62.78
III	2912	2658 (261)	39 (2)	2697 (263)	92.62
IV	480	254 (152)	43 (16)	297 (168)	61.88
V	130	81 (6)	32 (1)	113 (7)	86.92
CƏMİ	**7927**	**5668 (1027)**	**281 (83)**	**5949 (1110)**	**75.05**

Cədvəl 1.3.5

DÖVLƏT ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	14639	9616 (8345)	900 (769)	10516 (9114)	71.84
II	10016	6127 (3389)	680 (341)	6807 (3730)	67.96
III	9843	8660 (3890)	884 (204)	9544 (4094)	96.96
IV	3483	2525 (1909)	191 (158)	2716 (2067)	77.98
V	3685	3019 (1282)	450 (249)	3469 (1531)	94.14
CƏMİ	**41666**	**29947 (18815)**	**3105 (1721)**	**33052 (20536)**	**79.33**
	Subbakalavrlar				
I	14639	1512 (438)	35 (0)	1547 (438)	10.57
II	10016	1637 (176)	103 (0)	1740 (176)	17.37
III	9843	1 (0)	49 (0)	50 (0)	0.51
IV	3483	187 (119)	11 (0)	198 (119)	5.68
V	3685	37 (3)	0 (0)	37 (3)	1.00
CƏMİ	**41666**	**3374 (736)**	**198 (0)**	**3572 (736)**	**8.57**
	Bütövlükdə				
I	14639	11128 (8783)	935 (769)	12063 (9552)	82.40
II	10016	7764 (3565)	783 (341)	8547 (3906)	85.33
III	9843	8661 (3890)	933 (204)	9594 (4094)	97.47
IV	3483	2712 (2028)	202 (158)	2914 (2186)	83.66
V	3685	3056 (1285)	450 (249)	3506 (1534)	95.14
CƏMİ	**41666**	**33321 (19551)**	**3303 (1721)**	**36624 (21272)**	**87.90**

1.3.1 və 1.3.2 saylı şəkillərdə I–IV ixtisas qrupları üzrə özəl və dövlət ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin topladıqları balların paylanma diaqramları təsvir olunub. Göründüyü kimi, dövlət ali təhsil müəssisələrinə qəbul olanların 20.22%-nin, özəl ali təhsil müəssisələrinə qəbul olanların isə cəmi 2.97%-nin balı 500-700 intervalında yerləşir. Dövlət ali təhsil müəssisələrinə qəbul olanların əksəriyyətinin (68.90%) imtahan nəticələri orta (300-500) və yüksək (500-700) bal diapazonlarında yerləşdiyi halda, özəl ali təhsil müəssisələrinə qəbul olanların (60.26%) nəticələri, əsasən, aşağı (150-200 və 200-300) bal diapazonunda yerləşir.

V ixtisas qrupu üzrə qəbul olan abituriyentlər arasında bir qədər fərqli mənzərə görürük. Belə ki, V ixtisas qrupu üzrə özəl ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin çox az bir hissəsinin (14.06%) ən azı 150

bal topladığı halda, belələri dövlət ali təhsil müəssisələrinə qəbul olanlar arasında 20.98%-dir. Göründüyü kimi fərq azdır. Buna səbəb isə V qrupda özəl ali təhsil müəssisələrinə yalnız "Dizayn" və "Təsviri incəsənət müəllimliyi" ixtisasları üzrə qəbul aparılmasıdır. Belə ki, bu ixtisaslar üzrə müsabiqə vəziyyəti digərlərinə nisbətən daha yüksəkdir və nəticədə bu ixtisaslara daha hazırlıqlı abituriyentlər qəbul olur. Həm dövlət, həm də özəl ali təhsil müəssisələrinə qəbul olanların əksəriyyəti (müvafiq olaraq, 79.02% və 85.94%) 150 baldan aşağı nəticə göstərib. (1.3.3 və 1.3.4 saylı şəkillərə bax).

ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(I-IV ixtisas qrupları üzrə)



Şəkil 1.3.1

DÖVLƏT ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(I-IV ixtisas qrupları üzrə)



Şəkil 1.3.2

ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(V qrup üzrə)



Şəkil 1.3.3

DÖVLƏT ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(V qrup üzrə)



Şəkil 1.3.4

Abituriyentlərin imtahan fənlərinə cavablarının təhlili göstərir ki, özəl ali təhsil müəssisələrinə qəbul olanların göstəriciləri dövlət ali təhsil müəssisələrinə qəbul olanların göstəricilərindən aşağıdır. Belə nəticə göstərənlər sonradan birinci kursun tədris proqramını mənimsəməkdə çətinlik çəkirlər. Ona görə də özəl ali təhsil müəssisələri birinci kurs tələbələri üçün genişləndirilmiş tədris proqramları hazırlamalı və həmin proqramları tədrisin intensivləşdirilməsi hesabına həyata keçirməlidirlər.

Dövlət və özəl ali təhsil müəssisələrinə qəbul olmuş abituriyentlərin bilikləri arasındakı fərqin əyani müqayisəsi üçün 1.3.5 və 1.3.6 saylı şəkillər təqdim edilir. Şəkildəki diaqramlardan göründüyü kimi, həm Azərbaycan bölməsində, həm də rus bölməsində bütün fənlər üzrə üstünlük dövlət ali təhsil müəssisələrinə qəbul olan gənclərin tərəfindədir.

DÖVLƏT VƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ ORTASTATİSTİK NƏTİCƏLƏRİ (XÜSUSİ QABİLİYYƏT TƏLƏB EDƏN İXTİSASLAR İSTİSNA OLMAQLA)

AZƏRBAYCAN BÖLMƏSİ



Şəkil 1.3.5

DÖVLƏT VƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ ORTASTATİSTİK NƏTİCƏLƏRİ (XÜSUSİ QABİLİYYƏT TƏLƏB EDƏN İXTİSASLAR İSTİSNA OLMAQLA)

RUS BÖLMƏSİ



Şəkil 1.3.6

1.4 Xüsusi təyinatlı təhsil müəssisələrinə tələbə qəbulu

Dövlət İmtahan Mərkəzi 2021-ci il iyulun 14-də Polis Akademiyası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyası və Daxili Qoşunların Ali Hərbi Məktəbinə, iyulun 27-də və 28-də Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyası, Dövlət Sərhəd Xidməti Akademiyası, H.Əliyev adına Ali Hərbi Məktəb və Fövqəladə Hallar Nazirliyinin Akademiyasına, iyulun 1-də Naxçıvan MR Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinə, avqustun 4-də C.Naxçıvanski adına və H.Əliyev adına hərbi liseylərə test üsulu ilə qəbul imtahanı keçirib. Orta Hərbi Tibb Məktəbinə ayrıca qəbul imtahanı keçirilməmiş, Dövlət İmtahan Mərkəzi və Müdafiə Nazirliyinin birgə razılığına əsasən bu il müsabiqə 11-ci sinif buraxılış imtahanının nəticələrinə əsasən həyata keçirilib.

Azərbaycan Ali Hərbi Məktəbinə, hərbi liseylərə və Orta İxtisas Polis Məktəbinə qəbul ixtisaslar üzrə deyil, ümumiləşmiş şəkildə, Orta Hərbi Tibb Məktəbinə qəbul "Feldşer" ixtisası, Polis Akademiyasına "Hüquqşünaslıq", Daxili Qoşunların Ali Hərbi Məktəbinə "İctimai təhlükəsizlik və idarəetmə", Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasına "Hüquqşünaslıq" və "İnformasiya təhlükəsizliyi", Fövqəladə Hallar Nazirliyinin Akademiyasına "Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" və "Yanğın təhlükəsizliyi mühəndisliyi", Dövlət Sərhəd Xidmətinin Akademiyasına isə I qrup ixtisasları üzrə aparılıb.

H.Əliyev adına Ali Hərbi Məktəb, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Dövlət Sərhəd Xidmətinin Akademiyasının I qrup ixtisaslarında və Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "İnformasiya təhlükəsizliyi" ixtisasında təhsil almaq istəyən abituriyentlər mülki ali təhsil müəssisələrinin I qrupunun, Polis Akademiyası, Daxili Qoşunların Ali Hərbi Məktəbində və Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "Hüquqşünaslıq" ixtisasında təhsil almaq istəyənlər III qrupun abituriyentləri ilə birgə imtahan vermişlər.

Sənədlərin qəbulu xüsusi təyinatlı təhsil müəssisələrində aparılmış və abituriyentlər test imtahanından əvvəl həmin təhsil müəssisələrinin ixtisas-peşə tələblərinə uyğun xüsusi yoxlamalardan keçmişlər.

Xüsusi təyinatlı ali təhsil müəssisələrinə sənəd verən abituriyentlərin hamısı I mərhələdə ana dili, riyaziyyat və xarici dil fənlərindən imtahan verib. II mərhələdə H.Əliyev adına Ali Hərbi Məktəb, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Dövlət Sərhəd Xidmətinin Akademiyasının I qrup ixtisaslarına və Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "İnformasiya təhlükəsizliyi" ixtisasına sənəd verənlər riyaziyyat, fizika və kimya, Polis Akademiyasına, Daxili Qoşunların Ali Hərbi Məktəbinə və Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "Hüquqşünaslıq" ixtisasına sənəd verənlər Azərbaycan dili, tarix və ədəbiyyat fənlərindən imtahan vermişlər. Orta Hərbi Tibb Məktəbinə və Orta İxtisas Polis Məktəbinə sənəd verənlər ana dili, riyaziyyat və xarici dil, hərbi liseylərə sənəd verənlər isə riyaziyyat, fizika, kimya və Azərbaycan dili fənlərindən test imtahanı vermişlər. Xüsusi təyinatlı ali təhsil müəssisələrinə qəbul ola bilməyən abituriyentlərə, müsabiqə şərtlərini ödədikləri halda, imtahan verdikləri ixtisas qrupuna daxil olan mülki ali təhsil müəssisələrinin ixtisasları üzrə müsabiqədə iştirak etmək imkanı verilmişdir.

Azərbaycan Ali Hərbi Məktəbi, Orta Hərbi Tibb Məktəbi, Orta İxtisas Polis Məktəbi və hərbi liseylərdə təhsil almaq istəyən abituriyentlər üçün test tapşırıqları yalnız Azərbaycan dilində, Daxili Qoşunların Ali Hərbi Məktəbində, Polis Akademiyasında, Dövlət Təhlükəsizlik Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin Akademiyalarında təhsil almaq istəyən abituriyentlər üçün isə Azərbaycan və rus dillərində təqdim olunmuşdur.

Xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul Dövlət İmtahan Mərkəzi tərəfindən təsdiq olunmuş ali təhsil müəssisələrinə, ümumi və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanı proqramları əsasında aparılmışdır.

İmtahan nəticələrinin statistik təhlili nəticəsində abituriyentlərin ortastatistik portreti müəyyənləşdirilib.

Polis Akademiyası, Dövlət Təhlükəsizlik Xidməti Akademiyası və Daxili Qoşunların Ali Hərbi Məktəbinin ixtisasını seçən ortastatistik abituriyent ana dilindən test tapşırıqlarının 65.40/59.42, ədəbiyyatdan 65.11, riyaziyyatdan 39.10, tarixdən 59.31, ingilis dilindən isə 56.02%-ni düzgün cavablandırıb. Azərbaycan Ali Hərbi Məktəbinin, Dövlət Sərhəd Xidməti Akademiyasının və Fövqəladə Hallar Nazirliyi Akademiyasının ixtisaslarını seçən ortastatistik abituriyentin düzgün cavablarının faizi ana dilindən 44.40, riyaziyyatdan 32.73/24.31, fizikadan 25.78, kimyadan 27.72, ingilis dilindən 34.84 olub. Orta Hərbi Tibb Məktəbi və Orta İxtisas Polis Məktəbi abituriyentlərinin düzgün cavablarının faizi ana dilindən 50.60, riyaziyyatdan 33.84, ingilis dilindən 41.15, hərbi liseylərin abituriyentlərinin düzgün cavablarının faizi isə ana dilindən 26.01, riyaziyyatdan 32.22, fizikadan 19.51, kimyadan 25.34 olub.

1.5 Bölgələr üzrə 2021-ci il məzunlarının qəbul imtahanlarındakı nəticələrinin təhlili*

Burada ölkəmizin ayrı-ayrı bölgələrini təmsil edən məzunların imtahan nəticələrinin məktəb və rayon (şəhər) səviyyəsində elmi-statistik təhlili verilir. Bu təhlillər əsasında onların imtahan fənləri üzrə nəticələri, müxtəlif ixtisas qruplarına meyl və maraqları, ali məktəblərə qəbulolma göstəriciləri, habelə yüksək və zəif göstəricili məktəblər müəyyənləşdirilmişdir. Bu, ilk növbədə hər bir təhsil şöbəsi və məktəbin öz nəticələri haqqında dolğun məlumat əldə etməsi məqsədinə xidmət edir.

Materiallarda hər bölgə üzrə məzunların buraxılış imtahanındakı göstəriciləri bölgənin tam seçməsi üzrə təqdim edilmişdir. Bölgənin məzunlarının qəbul imtahanlarında ümumi və fənlər üzrə ayrılıqda əldə etdikləri nəticələr kimi isə onların I–IV qruplar üzrə keçirilən imtahanlarda topladıqlar ballar götürülmüşdür. V qrup üzrə müsabiqə buraxılış imtahanının nəticəsi əsasında aparıldığı üçün bu qrup üzrə abituriyentlərin göstəriciləri ayrıca verilməmişdir.

Bakı şəhəri:

2021-ci ildə şəhərin ümumtəhsil müəssisələrini 20157 şagird bitirib və onların 20082 nəfəri buraxılış imtahanında iştirak edib.

Şəhərin məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (51.60) respublika üzrə orta göstəricidən 12.00%, riyaziyyat fənni üzrə topladıqları orta bal (34.69) respublika üzrə orta göstəricidən 17.16%, xarici dil fənni üzrə topladıqları orta bal (50.53) respublika üzrə orta göstəricidən 25.18% və hər üç fənn üzrə birlikdə topladıqları orta bal (136.83) isə respublika üzrə orta göstəricidən 18.03% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 21.42%-i 30 və daha az, 53.23%-i 30-70 intervalında, 25.35%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 54.11%, 32.29% və 13.60%, xarici dil fənni üzrə isə 29.75%, 40.60% və 29.65% olmuşdur. Ümumilikdə 20114 nəfər attestat alıb.

Attestat alanların 77.88%-i (15664 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 59.34%-i (11935 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib.

Respublika üzrə rayonun (şəhərin) fərqlənən məktəblərini müəyyən etmək üçün aşağıdakı meyarlar əsas götürülmüşdür:

- Ali təhsil müəssisələrinə I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən məzunlarının sayı 10-dan və iştiraketmə faizi 50-dən az olmamalı və yaxud məzunlarının sayı 5-dən və iştiraketmə faizi 80-dən az olmamalı;
- Rayon və şəhər məktəblərinin məzunlarının I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal müvafiq olaraq 300 və 350 baldan az olmamalı;
- Məktəbin məzunlarının buraxılış imtahanında ana dili və riyaziyyat fənləri üzrə birlikdə və ayrı-ayrılıqda topladıqları orta bal ən azı respublika üzrə orta göstəriciyə bərabər olmalıdır.

Rayon (şəhər) üzrə fərqlənən məktəbləri müəyyən etmək üçün aşağıdakı meyarlar əsas götürülmüşdür:

- Ali təhsil müəssisələrinə I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən məzunlarının sayı 10-dan və iştiraketmə faizi 50-dən az olmamalı və yaxud məzunlarının sayı 5-dən və iştiraketmə faizi 80-dən az olmamalı;
- Rayon (şəhər) məktəblərinin məzunlarının I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal ən azı respublika üzrə orta göstəriciyə bərabər olmalı;
- Məktəbin məzunlarının buraxılış imtahanında ana dili və riyaziyyat fənləri üzrə birlikdə və ayrı-ayrılıqda topladıqları orta bal ən azı rayon (şəhər) üzrə orta göstəriciyə bərabər olmalıdır.

Hər il respublikada bütün fənlər üzrə ən yüksək nəticələri liseylərin məzunları əldə edirlər və onların nəticələri bölgələrin məzunlarının nəticələrindən kəskin şəkildə fərqlənir. Qeyd olunan hal respublikadakı real mənzərəni görməyə imkan vermir və bu səbəbdən fənlər üzrə respublikanın ən yüksək nəticə göstərən bölgələri haqqında məlumat müəyyən edilərkən TN tabeli və özəl liseylərin göstəriciləri nəzərə alınmır.

Qəbul imtahanlarının nəticələrinə əsasən şəhərin 10073 məzunu (imtahanlarda iştirak edənlərin 58.89%-i) tələbə adını qazanıb. Onların 58.83%-i (5926 nəfəri) dövlət, 2.68%-i (270 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 29.11%-i (2932 nəfəri) dövlət, 9.38%-i (945 nəfəri) isə özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Şəhərin məzunlarının 2054 nəfəri 500-dən, o cümlədən 566 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olub.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 11.19% (1753 nəfər), 100-200 intervalında 23.80% (3728 nəfər), 200-300 intervalında 21.42% (3355 nəfər), 300-500 intervalında 30.48% (4774 nəfər), 500-dən yuxarı 13.11% (2054 nəfər). Beləliklə, şəhərin abituriyentlərinin yalnız 43.59%-i 300-dən yuxarı bal toplayıb.

Şəhərin attestat qiymətləri əla olan abituriyentlərindən 4.94%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 46.21%-dir.

Qəbul imtahanlarında 306 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən 152 saylı tam orta məktəbin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il şəhərin 17, 95, 129, 159, 247, 283, 313 saylı tam orta məktəbləri, 62, 83, 220, 261, 264 saylı məktəb-liseyləri, 287 saylı "Zəkalar" liseyi, 291 saylı Ekologiya liseyi, Texniki humanitar lisey, 160 saylı klassik gimnaziya və 147 saylı texniki-humanitar təmayüllü lisey daxil olub.

Azərbaycan bölməsi:

Ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Abituriyentlərin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 292.462-yə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 6.2% yuxarıdır.

Rus bölməsi:

Şəhərin abituriyentlərinin göstəriciləri I-IV qruplarda fizika, kimya, biologiya və tarix fənlər üzrə respublikanın orta göstəricilərindən aşağıdır. Fərq fizikadan - 1.94%, kimyadan - 0.65%, biologiyadan - 0.99%, tarixdən - 2.43% təşkil edir.

Şəhərin ana dili, ədəbiyyat, riyaziyyat və coğrafiya fənləri üzrə göstəriciləri respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Ana dili, biologiya və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə ən yüksək göstəriciyə bərabərdir.

Abituriyentlərin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 285.458-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 1.2% yuxarıdır.

Naxçıvan şəhəri:

2021-ci ildə şəhərin ümumtəhsil müəssisələrini 749 şagird bitirib və onların 746 nəfəri buraxılış imtahanında iştirak edib.

Şəhərin məzunlarının buraxılış imtahanında topladıqları orta bal tədris dili fənni üzrə 56.96-ya, riyaziyyat fənni üzrə 31.40-a, xarici dil fənni üzrə 44.56-ya, hər üç fənn üzrə birlikdə topladıqları orta bal 132.92-yə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 23.63%, 6.03%, 10.39%, 14.66% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 18.10%-i 30 və daha az, 45.71%-i 30-70 intervalında, 36.19%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 56.57%, 35.25% və 8.18%, xarici dil fənni üzrə isə 34.72%, 46.11% və 19.17% olmuşdur. Ümumilikdə 749 nəfər attestat alıb.

Attestat alanların 85.85%-i (643 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 80.51%-i (603 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Attestat alanların 89.99%-i (674 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən şəhərin 463 məzunu (imtahanlarda iştirak edənlərin 68.69%-i tələbə adını qazanıb. Onların 46.87%-i (217 nəfəri) dövlət, 1.30%-i (6 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 40.17%-i (186 nəfəri) dövlət, 11.66%-i (54 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Şəhərin abituriyentlərinin I-IV qruplarda ədəbiyyat, tarix və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ədəbiyyatdan - 1.87%, tarixdən - 7.04%, coğrafiyadan - 0.29% təşkil edir.

Ana dili, riyaziyyat, fizika, kimya və biologiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Şəhərin məzunlarının 79 nəfəri 500-dən, o cümlədən 22 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutuna qəbul olub.

Şəhərin abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 284.19-a bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 3.2% yuxarıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 11.66% (75 nəfər), 100-200 intervalında 24.88% (160 nəfər), 200-300 intervalında 23.02% (148 nəfər), 300-500 intervalında 28.15% (181 nəfər), 500-dən yuxarı 12.29% (79 nəfər). Beləliklə, şəhərin abituriyentlərinin yalnız 40.44%-i 300-dən yuxarı bal toplayıb.

Şəhərin attestat qiymətləri əla olan abituriyentlərindən 4.78%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 35.41%-dir.

Qəbul imtahanlarında 20 məktəbin məzunları iştirak edib.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il şəhərin Naxçıvan Qarnizonu tam orta məktəbi daxil olub.

Bu il şəhərin ən yaxşı məktəbləri sırasında Naxçıvan şəhər qızlar liseyi və Heydər Əliyev adına tam orta məktəbi qeyd etmək olar.

Naxçıvan MR Babək rayonu:

2021-ci ildə rayonun ümumtəhsil müəssisələrini 497 şagird bitirib və onların hamısı buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (49.21) respublika üzrə orta göstəricidən 6.81% yuxarı, riyaziyyat fənni üzrə topladıqları orta bal (25.31) respublika üzrə orta göstəricidən 14.52%, xarici dil fənni üzrə topladıqları orta bal (35.13) respublika üzrə orta göstəricidən 12.99%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (109.65) respublika üzrə orta göstəricidən 5.41% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 30.78%-i 30 və daha az, 41.05%-i 30-70 intervalında, 28.17%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 68.21%, 26.56% və 5.23%, xarici dil fənni üzrə isə 51.91%, 40.85% və 7.24% olmuşdur. Ümumilikdə 497 nəfər attestat alıb.

Attestat alanların 79.28%-i (394 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 80.68%-i (401 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 86.72%-i (431 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 225 məzunu (imtahanlarda iştirak edənlərin 52.20%-i tələbə adını qazanıb. Onların 46.22%-i (104 nəfəri) dövlət, 1.33%-i (3 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 36.89%-i (83 nəfəri) dövlət, 15.56%-i (35 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya və tarix fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 0.53%, ədəbiyyatdan - 4.47%, riyaziyyatdan - 15.32%, fizikadan - 3.90%, kimyadan - 2.38%, tarixdən - 3.48% təşkil edir.

Biologiya və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 41 nəfəri 500-dən, o cümlədən 6 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və "Naxçıvan" Universitetinə (Naxçıvan şəhəri) qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 260.962-yə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 5.3% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 18.53% (73 nəfər), 100-200 intervalında 25.13% (99 nəfər), 200-300 intervalında 18.02% (71 nəfər), 300-500 intervalında 27.92% (110 nəfər), 500-dən yuxarı 10.41% (41 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 38.32%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 3.80%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 41.77%-dir.

Qəbul imtahanlarında 31 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən V.Zeynalov adına Gərməçataq, V.Şəkərov adına Aşağı Buzqov, Qaraqala və Yuxarı Buzqov kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun E.Əliyev adına Çeşməbasar kənd tam orta məktəbi daxil olub.

Naxçıvan MR Culfa rayonu:

2021-ci ildə rayonun ümumtəhsil müəssisələrini 336 şagird bitirib və onların 332 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (53.07) respublika üzrə orta göstəricidən 15.18%, riyaziyyat fənni üzrə topladıqları orta bal (32.10) respublika üzrə orta göstəricidən 8.40% yuxarı, xarici dil fənni üzrə topladıqları orta bal (39.20) respublika üzrə orta göstəricidən 2.90% aşağı, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (124.37) respublika üzrə orta göstəricidən 7.28% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 21.69%-i 30 və daha az, 47.59%-i 30-70 intervalında, 30.72%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 54.52%, 38.25% və 7.23%, xarici dil fənni üzrə isə 42.77%, 45.18% və 12.05% olmuşdur. Ümumilikdə 336 nəfər attestat alıb.

Attestat alanların 80.36%-i (270 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 62.20%-i (209 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 81.85%-i (275 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 177 məzunu (imtahanlarda iştirak edənlərin 64.36%-i tələbə adını qazanıb. Onların 49.15%-i (87 nəfəri) dövlət, 3.95%-i (7 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 35.59%-i (63 nəfəri) dövlət, 11.30%-i (20 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ədəbiyyat və kimya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ədəbiyyatdan - 1.51%, kimyadan - 4.03% təşkil edir.

Ana dili, riyaziyyat, fizika, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 30 nəfəri 500-dən, o cümlədən 7 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və "Naxçıvan" Universitetinə (Naxçıvan şəhəri) qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 288.525-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 4.8% yuxarıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 5.93% (16 nəfər), 100-200 intervalında 28.89% (78 nəfər), 200-300 intervalında 20.37% (55 nəfər), 300-500 intervalında 33.70% (91 nəfər), 500-dən yuxarı 11.11% (30 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 44.81%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 8.33%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 40.28%-dir.

Qəbul imtahanlarında 25 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Şurud kənd tam orta məktəbinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Şəhid Rəqib Quliyev adına Boyəhməd kənd tam orta məktəbinin bir məzunu belə ali təhsil müəssisələrinə qəbul üçün sənəd verməmişdir.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun Şəhid Məmməd Zeynalabdin adına Saltaq, Qızılca və Yaycı kənd 2 saylı tam orta məktəbləri daxil olub.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında Əlincə kənd tam orta məktəbini qeyd etmək olar.

Naxçıvan MR Kəngərli rayonu:

2021-ci ildə rayonun ümumtəhsil müəssisələrini 169 şagird bitirib və onların 168 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (51.14) respublika üzrə orta göstəricidən 10.99% yuxarı, riyaziyyat fənni üzrə topladıqları orta bal (26.36) respublika üzrə orta göstəricidən 10.97%, xarici dil fənni üzrə topladıqları orta bal (36.13) respublika üzrə orta göstəricidən 10.50%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (113.63) respublika üzrə orta göstəricidən 1.98% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 23.21%-i 30 və daha az, 50.00%-i 30-70 intervalında, 26.79%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 67.26%, 26.79% və 5.95%, xarici dil fənni üzrə isə 50.00%, 41.07% və 8.93% olmuşdur. Ümumilikdə 169 nəfər attestat alıb.

Attestat alanların 65.68%-i (111 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 12.43%-i (21 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 66.86%-i (113 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 77 məzunu (imtahanlarda iştirak edənlərin 68.14%-i tələbə adını qazanıb. Onların 33.77%-i (26 nəfəri) dövlət, 5.19%-i (4 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 42.86%-i (33 nəfəri) dövlət, 18.18%-i (14 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat, riyaziyyat və fizika fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 3.12%, ədəbiyyatdan - 0.50%, riyaziyyatdan - 5.16%, fizikadan - 2.58% təşkil edir.

Kimya, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 14 nəfəri 500-dən, o cümlədən 1 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti (Naxçıvan şəhəri) və Naxçıvan Müəllimlər İnstitutuna qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 306.85-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 11.4% yuxarıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 8.11% (9 nəfər), 100-200 intervalında 17.12% (19 nəfər), 200-300 intervalında 28.83% (32 nəfər), 300-500 intervalında 33.33% (37 nəfər), 500-dən yuxarı 12.61% (14 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 45.95%-i 300-dən yuxarı bal toplayıb.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 191 məzunu (imtahanlarda iştirak edənlərin 50.93%-i) tələbə adını qazanıb. Onların 50.26%-i (96 nəfəri) dövlət, 2.09%-i (4 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 45.03%-i (86 nəfəri) dövlət, 2.62%-i (5 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya və biologiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 3.21%, ədəbiyyatdan - 2.12%, riyaziyyatdan - 22.73%, fizikadan - 21.39%, kimyadan - 16.91%, biologiyadan - 24.15% təşkil edir.

Tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 28 nəfəri 500-dən, o cümlədən 3 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 245.059-a bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 11.0% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 16.33% (56 nəfər), 100-200 intervalında 28.57% (98 nəfər), 200-300 intervalında 23.62% (81 nəfər), 300-500 intervalında 23.32% (80 nəfər), 500-dən yuxarı 8.16% (28 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 31.49%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 19.40%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 19.40%-dir.

Qəbul imtahanlarında 34 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Sarıcalı kənd 1 saylı, R.Nəbiyev adına Söylən və Borsunlu kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında 1 saylı şəhər tam orta məktəbini qeyd etmək olar.

Tovuz rayonu:

2021-ci ildə rayonun ümumtəhsil müəssisələrini 1638 şagird bitirib və onların 1625 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (35.50) respublika üzrə orta göstəricidən 22.94%, riyaziyyat fənni üzrə topladıqları orta bal (28.07) respublika üzrə orta göstəricidən 5.21%, xarici dil fənni üzrə topladıqları orta bal (33.19) respublika üzrə orta göstəricidən 17.79%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (96.76) isə respublika üzrə orta göstəricidən 16.53% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 51.88%-i 30 və daha az, 37.05%-i 30-70 intervalında, 11.08%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 65.23%, 25.42% və 9.35%, xarici dil fənni üzrə isə 56.55%, 33.78% və 9.66% olmuşdur. Ümumilikdə 1629 nəfər attestat alıb.

Attestat alanların 59.85%-i (975 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 57.09%-i (930 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 66.48%-i (1083 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 539 məzunu (imtahanlarda iştirak edənlərin 49.77%-i) tələbə adını qazanıb. Onların 65.49%-i (353 nəfəri) dövlət, 1.48%-i (8 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 26.90%-i (145 nəfəri) dövlət, 6.12%-i (33 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda kimya və biologiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq kimyadan - 1.80%, biologiyadan - 0.31% təşkil edir.

Ana dili, ədəbiyyat, riyaziyyat, fizika, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 109 nəfəri 500-dən, o cümlədən 26 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 271.895-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 1.3% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 14.15% (138 nəfər), 100-200 intervalında 25.03% (244 nəfər), 200-300 intervalında 22.56% (220 nəfər), 300-500 intervalında 27.08% (264 nəfər), 500-dən yuxarı 11.18% (109 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 38.26%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 15.41%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 26.89%-dir.

Qəbul imtahanlarında 64 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Müşfiq Əliyev adına Yuxarı Öysüzlü, H.Vəliyev adına Əlibəyli, A.Sadıqov adına Vahidli, Papaqçılar və İsakənd kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

H.Vəliyev adına Əlibəyli kənd tam orta məktəbi abituriyentlərinin I-IV qruplar üzrə topladığı orta bal 100-dən aşağıdır.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun N.Tusi adına Təbiət və texniki təmayüllü məktəb-liseyi, E.Orucov adına Bayramlı, X.Cəfərov adına Çatax və Hacılar kənd orta məktəbləri daxil olub.

Ucar rayonu:

2021-ci ildə rayonun ümumtəhsil müəssisələrini 591 şagird bitirib və onların 590 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (42.85) respublika üzrə orta göstəricidən 6.99%, riyaziyyat fənni üzrə topladıqları orta bal (20.87) respublika üzrə orta göstəricidən 29.53%, xarici dil fənni üzrə topladıqları orta bal (29.17) respublika üzrə orta göstəricidən 27.75%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (92.89) isə respublika üzrə orta göstəricidən 19.87% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 39.32%-i 30 və daha az, 42.54%-i 30-70 intervalında, 18.14%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 75.25%, 22.88% və 1.86%, xarici dil fənni üzrə isə 65.25%, 28.47% və 6.27% olmuşdur. Ümumilikdə 590 nəfər attestat alıb.

Attestat alanların 62.54%-i (369 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 63.56%-i (375 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 67.97%-i (401 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 171 məzunu (imtahanlarda iştirak edənlərin 42.64%-i) tələbə adını qazanıb. Onların 58.48%-i (100 nəfəri) dövlət, 0.58%-i (1 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 32.16%-i (55 nəfəri) dövlət, 8.77%-i (15 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, tarix və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 9.76%, ədəbiyyatdan - 8.73%, riyaziyyatdan - 18.06%, fizikadan - 35.37%, kimyadan - 22.51%, tarixdən - 18.12%, coğrafiyadan - 20.30% təşkil edir.

Rayonun məzunlarının 22 nəfəri 500-dən, o cümlədən 3 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 229.474-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 16.7% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 21.95% (81 nəfər), 100-200 intervalında 27.91% (103 nəfər), 200-300 intervalında 17.62% (65 nəfər), 300-500 intervalında 26.56% (98 nəfər), 500-dən yuxarı 5.96% (22 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 32.52%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 16.48%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 13.19%-dir.

Qəbul imtahanlarında 36 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Ş.Həsənov adına Alpout kənd 2 saylı və T.Cavadov adına Yuxarı Şilyan kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında 1 saylı texniki və humanitar təmayüllü məktəb-liseyini qeyd etmək olar.

Yardımlı rayonu:

2021-ci ildə rayonun ümumtəhsil müəssisələrini 567 şagird bitirib və onların 553 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında topladıqları orta bal tədris dili fənni üzrə 31.76-ya, riyaziyyat fənni üzrə 23.62-yə, xarici dil fənni üzrə 24.28-ə, hər üç fənn üzrə birlikdə topladıqları orta bal isə 79.66-ya bərabərdir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 31.07%, 20.22%, 39.85%, 31.28% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 60.58%-i 30 və daha az, 30.20%-i 30-70 intervalında, 9.22%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 74.14%, 17.54% və 8.32%, xarici dil fənni üzrə isə 78.30%, 17.18% və 4.52% olmuşdur. Ümumilikdə 553 nəfər attestat alıb.

Attestat alanların 43.22%-i (239 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 34.36%-i (190 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 48.10%-i (266 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 139 məzunu (imtahanlarda iştirak edənlərin 52.26%-i) tələbə adını qazanıb. Onların 66.19%-i (92 nəfəri) dövlət, 2.16%-i (3 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 25.18%-i (35 nəfəri) dövlət, 6.47%-i (9 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ədəbiyyat və kimya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ədəbiyyatdan - 4.28%, kimyadan - 4.81% təşkil edir.

Ana dili, riyaziyyat, fizika, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 24 nəfəri 500-dən, o cümlədən 4 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 276.308-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 0.3% yuxarıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 16.74% (40 nəfər), 100-200 intervalında 21.34% (51 nəfər), 200-300 intervalında 18.41% (44 nəfər), 300-500 intervalında 33.47% (80 nəfər), 500-dən yuxarı 10.04% (24 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 43.51%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 17.80%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 20.34%-dir.

Qəbul imtahanlarında 44 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Porsova, Çanaqbulaq və Arvana kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Perinbel və Horonu kənd tam orta məktəblərinin bir məzunu belə ali təhsil müəssisələrinə qəbul üçün sənəd verməmişdir.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında şəhər 1 saylı tam orta məktəbini qeyd etmək olar.

Yevlax rayonu:

2021-ci ildə rayonun ümumtəhsil müəssisələrini 1050 şagird bitirib və onların 1037 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (34.97) respublika üzrə orta göstəricidən 24.09%, riyaziyyat fənni üzrə topladıqları orta bal (23.69) respublika üzrə orta göstəricidən 19.98%, xarici dil fənni üzrə topladıqları orta bal (33.54) respublika üzrə orta göstəricidən 16.91%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (92.21) isə respublika üzrə orta göstəricidən 20.46% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 53.13%-i 30 və daha az, 36.45%-i 30-70 intervalında, 10.41%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 74.25%, 20.35% və 5.40%, xarici dil fənni üzrə isə 56.61%, 31.34% və 12.05% olmuşdur. Ümumilikdə 1037 nəfər attestat alıb.

Attestat alanların 55.26%-i (573 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 46.96%-i (487 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 61.23%-i (635 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 305 məzunu (imtahanlarda iştirak edənlərin 48.03%-i) tələbə adını qazanıb. Onların 54.43%-i (166 nəfəri) dövlət, 1.64%-i (5 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 37.05%-i (113 nəfəri) dövlət, 6.89%-i (21 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, riyaziyyat, fizika, kimya, tarix, coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 6.18%, riyaziyyatdan - 16.93%, fizikadan - 4.51%, kimyadan - 9.08%, tarixdən - 11.05%, coğrafiyadan - 14.07% təşkil edir.

Ədəbiyyat və biologiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 46 nəfəri 500-dən, o cümlədən 14 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti və Mingəçevir Dövlət Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 252.73-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 8.2% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 16.93% (97 nəfər), 100-200 intervalında 28.27% (162 nəfər), 200-300 intervalında 20.42% (117 nəfər), 300-500 intervalında 26.35% (151 nəfər), 500-dən yuxarı 8.03% (46 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 34.38%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 14.69%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 21.47%-dir.

Qəbul imtahanlarında 42 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Nəmərli kənd tam orta məktəbinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun 5 saylı şəhər tam orta məktəbi daxil olub.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında Aran qəsəbə 2 saylı tam orta məktəbini qeyd etmək olar.

Zaqatala rayonu:

2021-ci ildə rayonun ümumtəhsil müəssisələrini 869 şagird bitirib və onların 867 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (47.65) respublika üzrə orta göstəricidən 3.43% yuxarı, riyaziyyat fənni üzrə topladıqları orta bal (24.29) respublika üzrə orta göstəricidən 17.96%, xarici dil fənni üzrə topladıqları orta bal (33.46) respublika üzrə orta göstəricidən 17.11%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (105.41) isə respublika üzrə orta göstəricidən 9.07% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 31.72%-i 30 və daha az, 44.75%-i 30-70 intervalında, 23.53%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 69.43%, 25.37% və 5.19%, xarici dil fənni üzrə isə 58.94%, 31.49% və 9.57% olmuşdur. Ümumilikdə 866 nəfər attestat alıb.

Attestat alanların 58.31%-i (505 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 44.34%-i (384 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 62.70%-i (543 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 274 məzunu (imtahanlarda iştirak edənlərin 50.46%-i) tələbə adını qazanıb. Onların 56.93%-i (156 nəfəri) dövlət, 12.41%-i (34 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 24.09%-i (66 nəfəri) dövlət, 6.57%-i (18 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat, kimya və tarix fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 4.59%, ədəbiyyatdan - 6.87%, kimyadan - 2.16%, tarixdən - 16.91% təşkil edir.

Riyaziyyat, fizika, biologiya və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 42 nəfəri 500-dən, o cümlədən 12 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Xəzər Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 266.015-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 3.4% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 13.27% (67 nəfər), 100-200 intervalında 27.13% (137 nəfər), 200-300 intervalında 24.36% (123 nəfər), 300-500 intervalında 26.93% (136 nəfər), 500-dən yuxarı 8.32% (42 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 35.25%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 9.30%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 22.67%-dir.

Qəbul imtahanlarında 49 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Şəhər inteqrasiya təlimli internat tipli gimnaziya, Əliabad qəsəbə 4 saylı və Mosul kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun Akademik Z.Əliyeva adına Texniki fənlər liseyi, Humanitar təmayüllü gimnaziya və Tala kənd 1 saylı tam orta məktəbi daxil olub.

Zəngilan rayonu:

2021-ci ildə rayonun ümumtəhsil müəssisələrini 444 şagird bitirib və onların hamısı buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (46.18) respublika üzrə orta göstəricidən 0.22% yuxarı, riyaziyyat fənni üzrə topladıqları orta bal (27.94) respublika üzrə orta göstəricidən 5.64% aşağı, xarici dil fənni üzrə topladıqları orta bal (43.50) respublika üzrə orta göstəricidən 7.76%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (117.62) isə respublika üzrə orta göstəricidən 1.46% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 31.98%-i 30 və daha az, 51.58%-i 30-70 intervalında, 16.44%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 63.51%, 28.38% və 8.11%, xarici dil fənni üzrə isə 39.86%, 41.22% və 18.92% olmuşdur. Ümumilikdə 444 nəfər attestat alıb.

Attestat alanların 73.65%-i (327 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 65.54%-i (291 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 81.98%-i (364 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 194 məzunu (imtahanlarda iştirak edənlərin 53.30%-i) tələbə adını qazanıb. Onların 44.33%-i (86 nəfəri) dövlət ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 48.97%-i (95 nəfəri) dövlət, 6.70%-i (13 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda riyaziyyat, fizika, kimya, tarix və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq riyaziyyatdan - 20.04%, fizikadan - 12.99%, kimyadan - 6.03%, tarixdən - 3.20%, coğrafiyadan - 25.22% təşkil edir.

Ana dili və ədəbiyyat fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 36 nəfəri 500-dən, o cümlədən 11 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 264.728-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 3.9% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 18.04% (59 nəfər), 100-200 intervalında 22.02% (72 nəfər), 200-300 intervalında 23.24% (76 nəfər), 300-500 intervalında 25.69% (84 nəfər), 500-dən yuxarı 11.01% (36 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 36.70%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 11.97%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 26.50%-dir.

Qəbul imtahanlarında 30 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən 3, 14 və 23 saylı tam orta məktəblərin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun 26 saylı tam orta məktəbi daxil olub.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında 34 saylı tam orta məktəbi qeyd etmək olar.

Zərdab rayonu:

2021-ci ildə rayonun ümumtəhsil müəssisələrini 408 şagird bitirib və onların hamısı buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (37.01) respublika üzrə orta göstəricidən 19.68%, riyaziyyat fənni üzrə topladıqları orta bal (25.76) respublika üzrə orta göstəricidən 13.01%, xarici dil fənni üzrə topladıqları orta bal (29.45) respublika üzrə orta göstəricidən 27.04%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (92.22) isə respublika üzrə orta göstəricidən 20.45% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 45.34%-i 30 və daha az, 47.06%-i 30-70 intervalında, 7.60%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 71.81%, 20.34% və 7.84%, xarici dil fənni üzrə isə 64.46%, 30.39% və 5.15% olmuşdur. Ümumilikdə 408 nəfər attestat alıb.

Attestat alanların 67.65%-i (276 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 69.12%-i (282 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 73.53%-i (300 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 136 məzunu (imtahanlarda iştirak edənlərin 45.33%-i) tələbə adını qazanıb. Onların 56.62%-i (77 nəfəri) dövlət, 11.03%-i (15 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 24.26%-i (33 nəfəri) dövlət, 8.09%-i (11 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat, riyaziyyat, fizika və tarix fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 16.33%, ədəbiyyatdan - 11.62%, riyaziyyatdan - 21.46%, fizikadan - 7.76%, tarixdən - 6.87% təşkil edir.

Kimya və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 14 nəfəri 500-dən, o cümlədən 1 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti, Mingəçevir Dövlət Universitet və Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 228.097-yə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 17.2% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 20.29% (56 nəfər), 100-200 intervalında 26.81% (74 nəfər), 200-300 intervalında 24.64% (68 nəfər), 300-500 intervalında 23.19% (64 nəfər), 500-dən yuxarı 5.07% (14 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 28.26%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 16.67%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 16.67%-dir.

Qəbul imtahanlarında 28 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Y.Məmmədəliyev adına Bəyimli qəsəbə və R.Rza adına Əlibəyli kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun İ.Nəsimi adına Yarməmmədbağı kənd tam orta məktəbi daxil olub.

Liseylər (TN tabeli və özəl):

2021-ci ildə liseyləri 2523 şagird bitirib və onların 2518 nəfəri buraxılış imtahanında iştirak edib.

Liseylərin məzunlarının buraxılış imtahanında topladıqları orta bal tədris dili fənni üzrə 64.80-ə, riyaziyyat fənni üzrə 51.52-yə, xarici dil fənni üzrə 70.43-ə, hər üç fənn üzrə birlikdə topladıqları orta bal isə 190.25-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 40.64%, 73.97%, 74.46%, 64.12% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 5.83%-i 30 və daha az, 47.11%-i 30-70 intervalında, 47.06%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 30.62%, 36.78% və 32.61%, xarici dil fənni üzrə isə 8.94%, 31.02% və 60.05% olmuşdur. Ümumilikdə 2517 nəfər attestat alıb.

Attestat alanların 67.14%-i (1690 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 36.55%-i (920 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib.

Qəbul imtahanlarının nəticələrinə əsasən liseylərin 1231 məzunu (imtahanlarda iştirak edənlərin 66.61%-i) tələbə adını qazanıb. Onların 66.53%-i (819 nəfəri) dövlət, 1.95%-i (24 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 26.00%-i (320 nəfəri) dövlət, 5.52%-i (68 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil üzrə qəbul olub.

Liseylərin məzunlarının 517 nəfəri 500-dən, o cümlədən 219 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olub.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 3.02% (51 nəfər), 100-200 intervalında 13.43% (227 nəfər), 200-300 intervalında 16.80% (284 nəfər), 300-500 intervalında 36.15% (611 nəfər), 500-dən yuxarı 30.59% (517 nəfər). Beləliklə, şəhərin abituriyentlərinin yalnız 66.75%-i 300-dən yuxarı bal toplayıb.

Liseylərin attestat qiymətləri əla olan abituriyentlərindən 3.36%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 54.95%-dir.

Qəbul imtahanlarında 49 liseyin məzunları iştirak edib.

Landau School ümumi təhsil müəssisəsi MMC-nin Yasamal filialı, Bakı Fransız Liseyi, "Oxbridge Academy" ümumi təhsil müəssisəsi, Azerbaijan British College təhsil kompleksi, SABIS SUN Beynəlxalq məktəbinin bir məzunu belə ali təhsil müəssisələrinə qəbul üçün sənəd verməmişdir.

ADA Universitetinin nəzdində "ADA" məktəbi abituriyentlərinin I-IV qruplar üzrə topladığı orta bal 100-dən aşağıdır.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il Bakı Türk liseyi (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi), Akademik Z.Əliyeva adına lisey, Fizika, riyaziyyat və informatika təmayüllü lisey, Humanitar fənlər təmayüllü məktəb-lisey, Kimya-biologiya təmayüllü lisey, BDU-nun nəzdində "Gənc istedadlar" liseyi, Bakı Avropa liseyi, "Kaspi" liseyinin Xətai filialı, "Ankara Məktəbi" məktəb-liseyi, Kaspi liseyi, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Heydər Əliyev adına lisey, Hədəf liseyi MMC, T.İsmayılov adına "İntellekt" məktəb-liseyi (6 saylı məktəb), S.C.Pişəvəri adına Humanitar fənlər gimnaziyası, İ.Əfəndiyev adına "Elitar" gimnaziya daxil olub.

Azərbaycan bölməsi:

Ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Abituriyentlərin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 400.191-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 45.3% yuxarıdır.

Rus bölməsi:

Ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix və coğrafiya fənləri üzrə göstəriciləri respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Abituriyentlərin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 353.271-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 25.2% yuxarıdır.

2. ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL

Azərbaycan Respublikası Prezidentinin 6 aprel 2005-ci il tarixli 219 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə"yə uyğun olaraq, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq ölkəmizin bütün ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul 2005-2015-ci illərdə TQDK tərəfindən həyata keçirilib. 2016-cı ildən isə ali təhsilin bu səviyyəsi üzrə qəbulu Dövlət İmtahan Mərkəzi mərkəzləşdirilmiş qaydada həyata keçirir.

Hər il magistratura səviyyəsinə qəbul imtahanlarına hazırlıq məqsədi ilə ali təhsil müəssisələrinin ixtisaslarının tədris planları təhlil olunur və onların klasterləşdirilməsi aparılır. Müəyyən edilmiş hər bir ixtisaslaşma istiqaməti üzrə qəbul proqramları hazırlanır, test sualları tərtib edilir və onların qapalı şəraitdə ekspertizası keçirilir. Qəbul proqramları "Magistr" jurnalında çap edilərək bakalavrların istifadəsinə verilir. İmtahanların məzmununu təşkil edən bütün bu materialları DİM-in mütəxəssislərinin təşkilatçılığı ilə respublikanın ali təhsil müəssisələrinin müvafiq ixtisas kafedralarının professor-müəllim heyəti hazırlayır.

Azərbaycan Respublikası Prezidentinin "Ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiq edilməsi barədə" 10 fevral 2010-cu il tarixli Fərmanına əsasən, 2010/2011-ci tədris ilindən başlayaraq respublikanın ali təhsil müəssisələrində magistr hazırlığına sərf olunan dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirmə dövlət sifarişi əsasında adambaşına maliyyələşdirmə prinsipi ilə reallaşdırılır. Bu prinsipə əsasən, müəyyən bir ixtisaslaşma üzrə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən tələbə yerlərinə müsabiqə ayrı-ayrı ali təhsil müəssisələri çərçivəsində deyil, bütövlükdə həmin ixtisaslaşma üzrə dövlət sifarişini yerinə yetirən bütün ali təhsil müəssisələri üzrə birlikdə həyata keçirilir. Bu o deməkdir ki, müəyyən ixtisaslaşma üzrə dövlət sifarişi əsasında kadr hazırlığı üçün ali təhsil müəssisəsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaiti yalnız birgə müsabiqədən keçərək həmin ali təhsil müəssisəsinin magistraturasına qəbul olan bakalavrların sayından asılı olaraq verilir. Beləliklə, ali təhsil müəssisəsinə dövlət sifarişi üzrə qəbul olan bakalavrın təhsili üçün nəzərdə tutulan vəsait həmin ali təhsil müəssisəsinin hesabına köçürülür.

2021-ci ildə respublikanın 33 dövlət və 11 özəl ali təhsil müəssisəsinin magistratura səviyyəsinə qəbul imtahanı keçirilib. Qəbul aparılan ixtisaslaşmalar 71 proqram üzrə qruplaşdırılıb. Qəbul "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul qaydaları" ilə tənzimlənib. Qaydalara əsasən, magistratura səviyyəsinə qəbul olmaq hüququna bakalavrlar və digər ali təhsilli şəxslər malikdirlər.

Cari ildə ilk dəfə olaraq bakalavrlara magistraturaya qəbul imtahanında 2 dəfə iştirak etmək imkanı yaradılmışdır – 1-ci cəhd üçün ərizə qəbulu 2021-ci il fevralın 9-dan 18-dək, 2-ci cəhd üçün isə aprelin 30-dan mayın 8-dək internet vasitəsilə aparılmışdır. İmtahanda iştirak etmək üçün bakalavrlar DİM-in internet saytının *ekabinet.dim.gov.az* səhifəsində "Şəxsi kabinet" yaradıblar. Bundan sonra onlar ərizə vermək üçün tələb olunan məbləği (müsabiqə ödənişli olub) "Şəxsi kabinet"lərindəki hesablarına əlavə ediblər. Daha sonra bakalavrlar "Şəxsi kabinet"lərinin istfadəçi adı və parolundan istifadə etməklə DİM-in internet saytının müvafiq səhifəsinə (*http://eservices.dim.gov.az/erizemag/erize*) daxil olub "Bakalavrın elektron ərizəsi" formasını doldurub təsdiq ediblər.

İmtahan DİM tərəfindən mərkəzləşdirilmiş qaydada, bakalavrların ümumi intellekt səviyyəsinin (məntiqi təfəkkürünün), informatika və xarici dil biliklərinin qiymətləndirilməsi üzrə keçirilib. Bakalavrlara məntiqi təfəkkür üzrə 50, xarici dil üzrə 25 və informatika üzrə 25 test tapşırığı təqdim olunub. Hər bir blok üzrə son 5 sual açıq formalı test tapşırıqlarından ibarət olub. İmtahan suallarının cavablandırılmasına 3 saat vaxt ayrılıb. Bakalavrların hər düzgün cavabı bir balla qiymətləndirilib. Tədrisi Azərbaycan dilində olan ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlara qəbul imtahanında ingilis, alman, fransız və ya rus dilini, tədrisi rus dilində olan ixtisaslaşmalara qəbul olmaq istəyənlərə ingilis, alman və ya fransız dilini, tədrisi ingilis (alman) dilində olan ixtisaslaşmalara qəbul olmaq istəyənlərə isə yalnız ingilis (alman) dilini xarici dil kimi seçmək imkanı verilib.

Filologiya ixtisasının Azərbaycan dili və Azərbaycan ədəbiyyatı, eləcə də və tarix ixtisasının tədrisi Azərbaycan dilində olan ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlara (HS 020100 Azərbaycan dili,

HS 020200 Azərbaycan dili və ədəbiyyatı, 050101 Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, HS 070100 Tarix, 050206 Tarix və 050113 Tarix müəllimliyi ixtisasları üzrə bakalavr dərəcəsi olanlara) xarici dil kimi ərəb və ya fars dilini də seçmək imkanı verilib.

Filologiya (xarici dil və ədəbiyyat), xarici dil və ədəbiyyat müəllimliyi, xarici dil müəllimliyi və tərcümə ixtisasları üzrə ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlara (HS 020000 Filologiya (xarici dil və ədəbiyyat) və HS 040000 Dilşünaslıq (xarici dillər üzrə) istiqamətləri üzrə, həmçinin 050201 Filologiya (xarici dil və ədəbiyyat), 050102 Xarici dil və ədəbiyyat müəllimliyi, 050103 Xarici dil müəllimliyi və 050203 Tərcümə ixtisasları üzrə bakalavr dərəcəsi olanlar nəzərdə tutulur), ixtisaslaşma dili istisna olmaqla, yuxarıda göstərilən digər xarici dillərdən birini xarici dil kimi seçmək imkanı verilib.

Regionşünaslıq (Amerikaşünaslıq), regionşünaslıq (ABŞ və Kanada üzrə), ölkəşünaslıq (Böyük Britaniyaşünaslıq) ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar xarici dil kimi yalnız ingilis dilini, ölkəşünaslıq (Almaniyaşünaslıq) ixtisaslaşmasına qəbul olmaq istəyən bakalavrlar yalnız alman dilini, ölkəşünaslıq (Fransaşünaslıq) ixtisaslaşmasına qəbul olmaq istəyən bakalavrlar isə yalnız fransız dilini seçə bilərdilər.

Qəbul imtahanının nəticələrinə görə DİM tərəfindən müəyyən olunmuş şərtləri (bax: cədvəl 2.1) ödəyən bakalavrlar ixtisaslaşma seçiminə buraxılıblar.

Qəbul aparılan ixtisaslaşmalar qəbul proqramları üzrə qruplaşdırılıb. Hər bir bakalavrın seçdiyi magistr ixtisaslaşması onun bitirdiyi bakalavr ixtisasına müvafiq olub. İxtisaslaşma seçiminə kömək məqsədi ilə "Magistratura səviyyəsi üzrə ixtisaslaşma seçimi cədvəli" tərtib edilərək "Magistr" jurnalının 3-cü sayında çap olunub və bununla hər bir bakalavrın bitirdiyi ixtisasa uyğun olaraq verilən ixtisaslaşma seçimi imkanlarından istifadə etməsinə şərait yaradılıb.

Artıq üçüncü ildir ki, qəbul imtahanında bakalavrlara xarici dil fənnindən dinləmə mətnləri üzrə test tapşırıqları təqdim olunur. Hər bir xarici dil fənni üzrə dinləmə mətnləri əvvəlcədən DİM-in səsyazma studiyasında səsləndirilmiş və arxivləşdirilmişdir. İmtahanda bakalavrlara 1 dinləmə mətni və bu mətnə aid 5 test tapşırığı təqdim olunmuşdur. Dinləmə mətninin audiofaylı bir audioqurğuya yazılmış və hər audioqurğu yalnız bir imtahan zalına aid olmuşdur. Dinləmə mətni bütün imtahan zallarında imtahanın əvvəlində səsləndirilmişdir. İmtahan başlandıqda audioqurğu yerləşdiyi zərfdən çıxarılmış və işə salınmışdır. 2 dəqiqə ərzində imtahan zallarındakı bakalavrlar həmin dinləmə mətni üzrə onlara təqdim olunan tapşırıqlarla tanış olmuşlar. Dinləmə mətni bütün zallarda arada 2 dəqiqəlik fasilə olmaqla 2 dəfə səsləndirilmişdir. Bundan sonra isə bakalavrlar həm dinləmə mətni üzrə onlara təqdim olunan, həm də digər tapşırıqları cavablandırmışlar.

2021/2022-ci tədris ili üçün ali təhsil müəssisələrinin magistratura səviyyəsinin 68, 69 və 70 saylı proqramlarına aid xüsusi qabiliyyət tələb edən ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlar qabiliyyət imtahanlarında iştirak etmək üçün iyunun 1-dən 5-dək internet vasitəsilə qeydiyyatdan keçiblər. Qabiliyyət imtahanları 9-11 iyun tarixlərində keçirilmişdir.

Jurnalistika üzrə ixtisaslaşmalara qəbul olmaq istəyən və qəbul imtahanında ən azı 50 bal toplayan bakalavrlar 2021-ci il iyunun 1-dən 6-dək DİM-in internet saytının müvafiq səhifəsində (eservices.dim.gov.az/erizemag/erize) jurnalistika üzrə ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrların qeydiyyatı üçün nəzərdə tutulmuş bölməyə daxil olaraq anket sorğusunu doldurmaqla qeydiyyatdan keçiblər. Qeydiyyatdan keçən bakalavrlar DİM-in elan etdiyi vaxtda "Bakalavrın qabiliyyət imtahanına buraxılış vərəqəsi"ni çap edərək iyunun 9-dan 12-dək vərəqədə göstərilən vaxtda qabiliyyət imtahanında iştirak ediblər. Qabiliyyət imtahanında bakalavrlar yazılı tapşırıqları yerinə yetirərkən intellektual səviyyələrini, dünyagörüşlərini, jurnalistika sahəsində nəzəri və təcrübi biliklərini, ədəbi dili, dil və nitq normalarını bilmələrini nümayiş etdiriblər. Bitirdikləri bakalavr ixtisasından asılı olmayaraq bütün bakalavrlara jurnalistika ixtisaslaşmaları üzrə təhsil almaq imkanı yaradılıb. Qabiliyyət imtahanından "məqbul" qiymət alan bakalavrlar ixtisaslaşma seçimi zamanı jurnalistika üzrə magistratura ixtisaslaşmalarını seçmək hüququ qazanıblar. Ümumilikdə, 27 nəfər jurnalistika üzrə ixtisaslaşmaları seçmək məqsədilə qabiliyyət imtahanında iştirak etmək üçün müraciət edib. Qabiliyyət imtahanının nəticələrinə əsasən, onların 23-ü "məqbul" alaraq 44-cü proqramı seçmək hüququ əldə edib və 22-si jurnalistika ixtisaslaşmaları üzrə magistraturaya qəbul olub. Qeyd edək ki, qəbul olan bakalavrların 20-si bakalavriat səviyyəsində təhsilini "Jurnalistika" ixtisası üzrə bitirib.

Hər bir bakalavra seçməyə hüququ olduğu və bitirdiyi bakalavr ixtisasına müvafiq 20-dək ixtisaslaşma kodunu seçmək imkanı verilib. Bakalavrlar seçdikləri ixtisaslaşmaları müəyyən olunmuş tarixdə istədikləri ardıcıllıqla öz elektron ərizə formalarına daxil edib, hər bir ixtisaslaşma üzrə dövlət sifarişi əsasında və ya

ödənişli əsaslarla təhsil almaq istədiklərini qeyd edərək təsdiqləyiblər. Seçilmiş ixtisaslaşmaların ərizə formalarında göstərilən ardıcıllığı müsabiqə zamanı hüquqi əsas kimi qəbul olunub və bakalavrlar topladıqları ballara əsasən müsabiqədən keçdikləri ixtisaslaşmaların birincisinə yerləşdiriliblər.

Magistraturada dövlət hesabına təhsil almış magistrlər, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, qüvvədə olan qanunvericilikdə və dövlətlərarası razılaşmalarda digər hallar nəzərdə tutulmayıbsa, dövlət sifarişi üzrə ayrılmış yerləri seçə bilməzdilər.

Müsabiqə zamanı ümumi balı eyni olan iki və daha çox bakalavrı fərqləndirmək üçün aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilər nəzərə alınıb:

- bakalavriat səviyyəsi üzrə ümumi orta müvəfəqiyyət göstəricisi (ÜOMG);
- ümumi intellekt səviyyəsini *(məntiqi təfəkkürü)* yoxlayan testdən toplanılan bal;
- xarici dil üzrə testdən toplanılan bal.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının magistraturasının tədrisi ingilis dilində olan ixtisaslaşmalarına, ADPU-nun tədrisi ingilis dilində olan və mütəxəssis hazırlığı ABŞ-ın Corc Vaşinqton Universiteti ilə ADPU-nun birgə beynəlxalq proqramı üzrə həyata keçirilən "Menecment (təhsilin təşkili və idarə olunması)" ixtisaslaşmasına, "ADA" Universitetinin, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının, Birgə Azərbaycan-Fransız Universitetinin (UFAZ), İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının və M.V.Lomonosov adına MDU-nun Bakı filialının magistraturasına qəbul olunmaq istəyən bakalavrlar qəbul imtahanından sonra həmin ali təhsil müəssisələrinin müəyyən etdiyi qəbul prosedurlarından keçiblər.

Cədvəl 2.1

Müsabiqə şərtləri

Magistratura üzrə ixtisaslar qrupunun (ixtisasın) adı	**İmtahanın nəticəsinə qoyulan minimal tələblər***		
	Fənlər üzrə minimal tələb		**İmtahan üzrə minimal bal**
	Fənnin adı	**Minimal bal**	
Təhsil ixtisasları qrupu Texniki və texnoloji ixtisaslar qrupu Səhiyyə, rifah və xidmət ixtisasları qrupu (Bədən tərbiyəsi və idman ixtisasından başqa)	Ümumi intellekt səviyyəsi (məntiqi təfəkkür)	15	**40 bal**
	İnformatika	5	
	Xarici dil	5	
Humanitar və sosial ixtisaslar qrupu*	Ümumi intellekt səviyyəsi (məntiqi təfəkkür)	15	**50 bal**
	İnformatika	5	
	Xarici dil	5	
Təbiət ixtisasları qrupu İqtisadiyyat və idarəetmə ixtisasları qrupu	Ümumi intellekt səviyyəsi (məntiqi təfəkkür)	15	**45 bal**
	İnformatika	5	
	Xarici dil	5	
Mədəniyyət və incəsənət ixtisasları qrupu* Kənd təsərrüfatı ixtisasları qrupu Xüsusi təyinatlı ixtisaslar qrupu Bədən tərbiyəsi və idman ixtisası	Ümumi intellekt səviyyəsi (məntiqi təfəkkür)	10	**30 bal**
	İnformatika	5	
	Xarici dil	5	

*** Tədrisi ingilis (alman) dilində olan ixtisaslaşmaların müsabiqəsində, bunlarla yanaşı, aşağıdakı şərtləri ödəyən bakalavrlar iştirak ediblər:**

- təhsili ödənişli əsaslarla həyata keçirilən ixtisaslaşmalar üzrə – qəbul imtahanında ingilis (alman) dilindən topladıqları bal 15-dən az olmayan bakalavrlar;
- təhsili dövlət sifarişi əsasında həyata keçirilən ixtisaslaşmalar üzrə – qəbul imtahanında ingilis (alman) dilindən topladıqları bal 20-dən az olmayan bakalavrlar.

Bu il ali təhsil müəssisələrinin magistratura səviyyəsinə ümumilikdə 11135 plan yeri ayrılmışdı. Bunlardan 7748 yer (69.58%) Azərbaycan bölməsi, 705 yer (6.33%) rus bölməsi, qalan 2682 yer (24.09%) isə hər iki bölmənin birgə müsabiqəsi üçün nəzərdə tutulmuşdu. Əvvəlki illə müqayisədə magistraturaya qəbul planı 18.55% (1742 yer) artmışdır. Dövlət sifarişi əsasında qəbul aparılan yerlər (3809 yer) qəbul planının 34.21%-ni təşkil etmişdir (şəkil 2.1). Qəbul planı üzrə yerlərin 9859-u dövlət, 1276-sı isə özəl ali təhsil müəssisələrinin payına düşmüşdür (şəkil 2.2).

QƏBUL PLANI



Şəkil 2.1



Şəkil 2.2

Plan yerlərinin təhsil formaları üzrə bölgüsünün müqayisəsi göstərir ki, 2021-ci ildə rus bölməsi və hər iki bölmənin birgə müsabiqəsi üçün ayrılan yerlərin nisbi sayı Azərbaycan bölməsi üçün ayrılan yerlərin hesabına artıb. Belə ki, ötən illə müqayisədə Azərbaycan bölməsində plan yerlərinin ümumi plandakı nisbi çəkisi 75.59%-dən 69.58%-ə qədər azalıb. Rus bölməsində plan yerlərin nisbi çəkisi 3.35%-dən 6.33%-ə, hər iki bölmənin birgə müsabiqəsi üçün isə 21.06%-dən 24.09%-ə qədər artıb.

Aşağıdakı cədvəldən göründüyü kimi, magistraturaya qəbul planında ən çox yer Azərbaycan Dövlət İqtisad Universitetinin payına düşüb. Bu təhsil müəssisəsinin qəbul planı dövlət ali təhsil müəssisələri üzrə ümumilikdə ayrılmış plan yerlərinin 17.59%-ni təşkil edib. Azərbaycan Dövlət İqtisad Universitetinin magistraturasına ayrılmış qəbul planı bu təhsil müəssisəsinin bakalavriat səviyyəsinə ayrılmış plan yerlərinin 51.30%-nə bərabər olub. Bu, həmin təhsil müəssisəsində magistr hazırlığının həm də müxtəlif beynəlxalq layihələr əsasında aparılması ilə bağlıdır.

Cədvəl 2.2

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİ ÜZRƏ QƏBUL PLANLARI

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	QƏBUL PLANI			
		Azərbaycan bölməsinin bakalavrları üçün	Rus bölməsinin bakalavrları üçün	Hər iki bölmənin bakalavrlarının birgə müsabiqəsi üçün	Cəmi
1	Bakı Dövlət Universiteti	794	140	229	1163
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	790	120	340	1250
3	Azərbaycan Texniki Universiteti	1045	90	115	1250
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	370	30	100	500
5	Azərbaycan Tibb Universiteti	0	0	35	35
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	297	0	50	347
7	Azərbaycan Dövlət İqtisad Universiteti	1203	181	575	1959
8	Azərbaycan Dillər Universiteti	312	39	0	351
9	Bakı Slavyan Universiteti	106	24	2	132

Cədvəl 2.2 (ardı)

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	QƏBUL PLANI			
		Azərbaycan bölməsinin bakalavrları üçün	Rus bölməsinin bakalavrları üçün	Hər iki bölmənin bakalavrlarının birgə müsabiqəsi üçün	Cəmi
10	Bakı Mühəndislik Universiteti	200	0	165	365
11	Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	65	27	5	97
12	Bakı Musiqi Akademiyası	0	0	51	51
13	Azərbaycan Milli Konservatoriyası	0	0	45	45
14	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	91	0	73	164
15	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	0	0	62	62
16	Azərbaycan Turizm və Menecment Universiteti	105	0	20	125
17	Bakı Xoreoqrafiya Akademiyası	13	4	4	21
18	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	0	0	50	50
19	Milli Aviasiya Akademiyası	41	9	21	71
20	Azərbaycan Dövlət Dəniz Akademiyası	18	7	0	25
21	Bakı Ali Neft Məktəbi	0	0	128	128
22	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	10	0	0	10
23	Azərbaycan Milli Elmlər Akademiyası	110	0	0	110
24	Naxçıvan Dövlət Universiteti	248	0	2	250
25	Naxçıvan Müəllimlər İnstitutu	48	0	0	48
26	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	320	6	4	330
27	Gəncə Dövlət Universiteti	232	0	0	232
28	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	159	0	69	228
29	Sumqayıt Dövlət Universiteti	159	2	0	161
30	Mingəçevir Dövlət Universiteti	55	0	0	55
31	Lənkəran Dövlət Universiteti	219	0	0	219
32	Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası	10	0	0	10
33	Fövqəladə Hallar Nazirliyinin Akademiyası	15	0	0	15
34	Azərbaycan İlahiyyat İnstitutu	8	0	0	8
35	Azərbaycan Kooperasiya Universiteti	122	0	60	182
36	Azərbaycan Universiteti	120	0	25	145
37	Qərbi Kaspi Universiteti	0	0	138	138
38	Xəzər Universiteti	117	0	153	270
39	Bakı Avrasiya Universiteti	86	0	0	86
40	Bakı Qızlar Universiteti	25	0	0	25
41	Odlar Yurdu Universiteti	57	21	151	229
42	Bakı Biznes Universiteti	145	5	10	160
43	Naxçıvan Universiteti (Naxçıvan şəhəri)	19	0	0	19
44	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	14	0	0	14
	Cəmi	**7748**	**705**	**2682**	**11135**

Magistraturaya bütövlükdə 22283 nəfər bakalavr ərizə verib (2020-ci ildə bu rəqəm 15738 olub). Ərizələrin 91.34%-i (20353-ü) Azərbaycan, 8.66%-i (1930-u) isə rus bölməsi üzrə olub. Sənəd verənlərin 45.86%-ni (10220 nəfər) oğlanlar, 54.14%-ni (12063 nəfər) isə qızlar təşkil edib. Onların da 11588 nəfəri (52.00%-i) bakalavriat səviyyəsinin builki məzunlarıdır və ali təhsil müəssisələrinə, əsasən, 2017-ci ildə daxil olanlardır. Həmin ildə 35811 nəfər gənc tələbə adını qazanmışdı.

Magistraturaya qəbul imtahanı (1-ci cəhd fevralın 23-də, 2-ci cəhd mayın 26-da) Bakı, Naxçıvan, Gəncə, Mingəçevir, Sumqayıt və Lənkəran şəhərlərində keçirilib. Sual kitabçaları hər bir bakalavr üçün xüsusi avtomatlaşdırılmış xətt vasitəsilə fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib. Sual kitabçasının "Dil fənni blokundakı xarici dil" bölməsində seçilən xarici dil üzrə test tapşırıqları təqdim olunub. Bütün fənlər üzrə tapşırıqlar 4 variantda hazırlanıb.

İmtahanda ümumilikdə 22007 nəfər bakalavr (1-ci cəhddə 19625, 2-ci cəhddə 14428, hər ikisində 12046 bakalavr) iştirak edib. 1-ci imtahanın nəticələri martın 2-də, 2-ci imtahanın nəticələri isə mayın 28-də DİM-in internet saytında elan olunub. Hər iki cəhddə iştirak edən bakalavrların bu iki imtahanda əldə etdikləri nəticələr təhlil olunub. Aparılan təhlil göstərib ki, bakalavrların 2-ci imtahanda əldə etdikləri nəticələr 1-ci imtahanda əldə etdikləri nəticələrdən nisbətən yaxşı olub və nəticələr arasındakı fərqlərin orta qiyməti 2.48-ə bərabər olub. Bakalavrların 54.42%-nin bu iki imtahandakı nəticələri arasındakı fərq 5 baldan, 83.30%-nin nəticələri arasındakı fərq isə 10 baldan aşağı olub. Qeyd edək ki, nəticələr arasındakı korrelyasiya əmsalı 0.83-ə bərabər olub. Aşağıdakı qrafikdə hər iki imtahanda iştirak edən bakalavrların topladıqları balların fərqlərinin paylanması təqdim olunub.

HƏR İKİ İMTAHANDA İŞTİRAK EDƏN EYNİ BAKALAVRLARIN İKİNCİ İMTAHANDA TOPLADIQLARI BALLARLA BİRİNCİ İMTAHANDA TOPLADIQLARI BALLARIN FƏRQİNİN PAYLANMASI



Qrafik 2.1

Bundan sonra bakalavrlar iyunun 29-dan iyulun 5-dək qəbul aparılan ixtisaslaşmaların müsabiqəsində iştirak etmək üçün DİM-in internet saytının müvafiq səhifəsində öz ərizələrinə daxil olaraq ixtisaslaşma seçimi aparıblar. Proqram və ixtisaslaşma seçimində 14981 nəfər (qəbul imtahanında iştirak edənlərin 68.07%-i) iştirak edib. Onların 44.70%-ni oğlanlar, 55.30%-ni isə qızlar təşkil ediblər. İxtisaslaşma seçimində iştirak edənlərin 58.73%-i (8798 nəfər) bakalavriat səviyyəsinin builki məzunlarıdır.

Qəbulun nəticələri iyulun 8-də DİM-in internet saytında elan olunub və "Magistr" jurnalının 5-ci sayında dərc edilib. Qəbulun nəticələrinə əsasən 10350 bakalavr magistraturaya qəbul olunub, onlardan 900-ü

qeydiyyatdan keçməyib və ümumilikdə 1685 yer boş qalıb. Bu səbəbdən avqustun 5-dən 11-dək boş qalan yerlərə ixtisaslaşma seçimi aparılıb. Bu mərhələdə 3248 nəfər (onlardan 86-sı birinci ixtisaslaşma seçimində iştirak etməyən olub) iştirak edib və onların 888-i magistraturaya qəbul olub (onlardan 610-u qeydiyyatdan keçib). Beləliklə, bütövlükdə 15067 nəfər ixtisaslaşma seçimində (qəbul imtahanında iştirak edənlərin 68.46%-i) iştirak edib (bax: şəkil 2.3) və magistraturaya 10060 nəfər (ixtisaslaşma seçimində iştirak edənlərin 66.77%-i) qəbul olub (bax: şəkil 2.4).

İXTİSASLAŞMA SEÇİMİ VƏ QƏBULUN NƏTİCƏLƏRİ

Fənn üzrə ümumi	36.21	27.05	34.17	25.08	19.90	26.03	22.19	36.57

Cədvəldən göründüyü kimi, rus bölməsində imtahan verən bakalavrların açıq tipli test tapşırıqlarını düzgün cavablandırma göstəriciləri Azərbaycan bölməsinin bakalavrlarından birinci cəhd imtahanında ingilis dili üzrə 6.3%, alman dili üzrə 9.16 %, ikinci cəhd imtahanında ingilis dili üzrə 3.02%, alman dili üzrə 13.75% yüksək, fransız dili üzrə birinci cəhd imtahanında 6.77% aşağı, ikinci cəhd imtahanında isə 14.38% yüksək olmuşdur. Açıq tipli test tapşırıqlarının cavablandırılmasında ən yaxşı nəticə alman dilində ikinci cəhd imtahanında qeydə alınmışdır (47.14%). Ən zəif nəticəni isə birinci cəhd imtahanında fransız dilindən imtahan verən bakalavrlar nümayiş etdirmişlər.

Xarici dil üzrə test blokuna daxil olan qapalı və açıq tipli test tapşırıqlarının birlikdə düzgün cavablandırılma faizləri aşağıdakı kimi olmuşdur:

Bakalavrların qapalı və açıq tipli tapşırıqları düzgün cavablandırma faizləri (orta statistik göstəricilər)

	İngilis dili		Alman dili		Fransız dili		Rus dili	
	1-ci cəhd	2-ci cəhd	1-ci cəhd	2-ci cəhd	1-ci cəhd	2-ci cəhd	1-ci cəhd	2-ci cəhd
Azərbaycan bölməsi	49.73	41.63	38.36	41.49	37.09	46.26	51.12	49.06
Rus bölməsi	62.63	51.58	50.72	59.51	29.67	56.89	–	–
Fənn üzrə ümumi	50.73	42.53	39.61	42.78	36.87	46.56	51.12	49.06

Cədvəldən göründüyü kimi, 2021-ci ildə rus bölməsində imtahan verən bakalavrların fransız dili birinci cəhd imtahanı istisna olmaqla bütün xarici dillərdən test tapşırıqlarını düzgün cavablandırma faizləri Azərbaycan bölməsinin bakalavrlarının göstəricilərindən yüksək olmuşdur.

Məlum olduğu kimi, xarici dillər üzrə test bloklarına ənənəvi olaraq oxuyub-anlama bacarığını yoxlayan bir mətn əsasında tərtib edilmiş 5 qapalı tipli tapşırıqdan ibarət oxu bloku daxil olunur. Ötən il isə oxu bloku ilə yanaşı, dinləyib-anlama bacarığını yoxlayan bir mətn (dialoq) əsasında tərtib olunmuş 5 qapalı tipli tapşırıqdan ibarət dinləmə bloku da daxil edilmişdir. Aşağıdakı cədvəldə həmin iki blokun cavablandırılma göstəriciləri əks olunur:

Bakalavrların oxu və dinləmə blokları üzrə tapşırıqları düzgün cavablandırma faizləri (ortastatistik göstəricilər)

	İngilis dili				Alman dili				Fransız dili				Rus dili			
	Oxu bloku		Dinləmə bloku		Oxu bloku		Dinləmə bloku		Oxu bloku		Dinləmə bloku		Oxu bloku		Dinləmə bloku	
	1-ci cəhd	2-ci cəhd	1-ci cəhd	2-ci cəhd	1-ci cəhd	2-ci cəhd	1-ci cəhd	2-ci cəhd	1-ci cəhd	2-ci cəhd	1-ci cəhd	2-ci cəhd	1-ci cəhd	2-ci cəhd	1-ci cəhd	2-ci cəhd
Azərbay-can bölməsi	48.70	31.26	42.68	42.38	45.86	31.37	26.31	50.71	41.36	36.41	38.75	49.48	71.97	48.28	68.59	58.82
Rus bölməsi	65.17	41.61	64.69	64.69	60.80	51.43	41.60	68.57	36.67	53.33	33.33	66.67	-		-	
Bölmələr üzrə ümumi	50.39	32.19	44.94	44.40	47.37	32.79	27.85	51.98	41.21	36.89	38.59	49.97	71.97	48.28	68.59	58.82

Cədvəldən göründüyü kimi, oxuyub-anlama bloku üzrə düzgün cavablandırma göstəriciləri 30-60% intervalında, dinləyib-anlama bloku üzrə isə 20-60% intervalında olmuşdur. Oxuyub-anlama blokları üzrə

nəticələr bütün dillər üzrə ümumi test blokları üzrə nəticələrdən yüksəkdir. Dinləyib-anlama blokunun ikinci ildir tətbiq olunduğunu nəzərə alsaq, həmin blok üzrə nəticələri də qənaətbəxş saymaq olar, lakin bakalavrların dinləmə bacarıqları oxu bacarıqlarından aşağı səviyyədədir.

İndi isə 2020-ci və 2021-ci illərin qəbul imtahanlarının nəticələri əsasında Azərbaycan və rus bölmələrindən olan bakalavrların xarici dil üzrə test bloklarını düzgün cavablandırma göstəricilərini müqayisə edək.

Bakalavrların xarici dil bloku üzrə tapşırıqları düzgün cavablandırma faizlərinin müqayisəsi (2020-ci və 2021-ci illər, faizlə)

Dillər / İllər	İngilis dili		Alman dili		Fransız dili		Rus dili	
2020	51.06		42.57		38.28		52.16	
2021	**1-ci cəhd**	**2-ci cəhd**	**1-ci cəhd**	**2-ci cəhd**	**1-ci cəhd**	**2-ci cəhd**	**1-ci cəhd**	**2-ci cəhd**
	50.73	42.53	39.61	42.78	36.87	46.56	51.12	49.06
Fərq	0.33	8.53	2.96	–	1.41	–	1.04	3.1

İngilis və rus dilləri ilə yanaşı, alman və fransız dillərini seçən bakalavrların da test tapşırıqlarını cavablandırmalarında müşahidə olunan spesifik cəhətlər, onların cavablandırmaqda çətinlik çəkdikləri ayrı-ayrı mövzulara aid test tapşırıqları üzərində bir qədər ətraflı dayanmağı, müvafiq statistik göstəricilər əsasında elmi-metodik təhlil aparmağı, nəticələr çıxarmağı və bəzi tövsiyələr verməyi məqsədəuyğun hesab edirik.

2021-ci ildə magistraturaya qəbul imtahanının 28.02.2021-ci il tarixində keçirilmiş birinci cəhd imtahanında xarici dil kimi ***ingilis dilini*** seçən bakalavrların sayı 16356 nəfər olmuşdur ki, bunun da 14674-ü Azərbaycan bölməsinin, 1682-si isə rus bölməsinin payına düşür. Magistraturaya qəbul imtahanının 26.05.2021-ci il tarixində keçirilmiş ikinci cəhd imtahanında isə xarici dil kimi ***ingilis dilini*** seçən bakalavrların sayı 11997 nəfər olmuşdur ki, bunun da 10915-i Azərbaycan bölməsinin 1082-si rus bölməsinin payına düşür. Hər iki cəhd üzrə 28353 nəfər bakalavr magistraturaya qəbul imtahanında iştirak etmişdir. 2020-ci ildə 12580 nəfər bakalavrın bu imtahanda iştirak etdiyini nəzərə alsaq qeyd edə bilərik ki, ötən illə müqayisədə imtahan verən namizədlərin sayında təxminən 125 % artım müşahidə olunur.

İngilis dili fənnindən təklif olunmuş test tapşırıqları bloku, əsasən, bakalavrların kommunikativ bacarıqlarını, leksika və qrammatika sahəsində biliklərini yoxlayan, onlardan təhliletmə, ümumiləşdirmə və məntiqi nəticə çıxarma bacarığı tələb edən tətbiqyönlü tapşırıqlardan, o cümlədən verilmiş sözlərin sinonim və antonimlərinin, eləcə də düzgün izahının tapılması, dialoqqurma, verilmiş cümlələrdən kiçik hekayənin tərtib edilməsi kimi leksik tapşırıqlardan və məchul növ, inkar söz və cümlə, əvəzlik, bağlayıcı, zaman formaları kimi qrammatik əsaslı tapşırıqlardan ibarət olmuşdur. Bunlarla yanaşı, magistraturaya qəbul imtahanında bakalavrlara oxuyub-anlama və dinləyib-anlama bacarığını yoxlayan test tapşırıqları bloku da təqdim olunmuşdur.

Statistik göstəricilərə əsasən, bakalavrlar 2021-ci ildə keçirilmiş birinci cəhd imtahanında oxuyub-anlama bacarığını yoxlayan test tapşırıqları ilə yanaşı qapalı test tapşırıqlarını da yaxşı cavablandırmışlar. İkinci cəhd imtahanında isə qapalı test tapşırıqları ilə yanaşı dinləyib-anlama blokuna dair tapşırıqlar da yaxşı cavablandırılmışdır.

İmtahan nəticələrinin təhlili göstərir ki, bakalavrların birinci cəhd imtahanında oxu mətni əsasında tərtib olunmuş test tapşırıqlarına cavabları qənaətbəxş hesab edilə bilər. Belə ki, ingilis dili üzrə mətn əsasında beş tapşırıqdan ibarət test blokunu bakalavrların orta hesabla 50.39%-i, o cümlədən Azərbaycan bölməsi üzrə 48.70%-i, rus bölməsi üzrə isə 65.17%-i düzgün cavablandırmışdır. Göründüyü kimi, rus bölməsində imtahan verən bakalavrların mətn üzrə test blokunu cavablandırma göstəricisi Azərbaycan bölməsində imtahan verən bakalavrların müvafiq göstəricisindən 16.47% yüksək olmuşdur. Dinləmə bloku üzrə isə bakalavrların orta hesabla 44.94%-i, o cümlədən Azərbaycan bölməsi üzrə 42.68%-i, rus bölməsi üzrə isə 64.69%-i müvəffəq nəticə göstərmişdir. Dinləmə bloku üzrə cavablandırma göstəricisi oxuyub-anlama blokuna nəzərən 5.45% daha yüksək olmuşdur.

Bakalavrların ikinci cəhd imtahanında oxu mətni əsasında tərtib olunmuş test tapşırıqlarına cavabları qənaətbəxş hesab edilə bilməz. Belə ki, ingilis dili üzrə oxu mətni əsasında beş tapşırıqdan ibarət test blokunu bakalavrların orta hesabla 32.19%-i, o cümlədən Azərbaycan bölməsi üzrə 31.26%-i, rus bölməsi üzrə isə 41.61%-i düzgün cavablandırmışdır. Göründüyü kimi, rus bölməsində imtahan verən bakalavrların oxu mətni üzrə test blokunu cavablandırma göstəricisi Azərbaycan bölməsində imtahan verən bakalavrların müvafiq göstəricisindən 10.35% yüksək olmuşdur. Dinləmə bloku üzrə isə bakalavrların orta hesabla

44.40%-i, o cümlədən Azərbaycan bölməsi üzrə 42.38%-i, rus bölməsi üzrə isə 64.69%-i müvəffəq nəticə göstərmişlər. Dinləmə bloku üzrə cavablandırma göstəricisi oxuyub-anlama blokuna nəzərən 12.21% yüksək olmuşdur.

Ümumilikdə, ingilis dili üzrə magistraturaya qəbul imtahanının birinci cəhdində test blokunda təqdim edilən tapşırıqlardan 1-nin düzgün cavablandırılma göstəricisi 0-20%, 5-nin 21-40%, 19-nun isə 41-90% intervalında olmuşdur. Qəbul imtahanının ikinci cəhdində isə test blokunda təqdim edilən test tapşırıqlarından 3-nün düzgün cavablandırılma göstəricisi 0-20%, 11-nin 21-40%, digər 11-nin isə 41-90% intervalında olmuşdur.

2021-ci ildə birinci cəhd imtahanında hər iki bölmə üzrə ümumilikdə bakalavrların 50.73%-i test tapşırıqlarını düzgün cavablandırmışdır. Müvafiq göstərici Azərbaycan bölməsində 49.73%, rus bölməsində isə 62.63% olmuşdur. Azərbaycan bölməsi üzrə bakalavrların 52.82%-i, rus bölməsi üzrə isə 67.82%-i qapalı tipli test tapşırıqlarına doğru cavab vermişdir. Hər iki bölmə üzrə ümumi göstərici 54.36%-dir. Açıq tipli test tapşırıqlarının cavablandırılmasında Azərbaycan bölməsi üzrə 35.56%, rus bölməsi üzrə isə 41.86%, hər iki bölmə üzrə ümumilikdə isə 36.21% nəticə qeydə alınmışdır.

2021-ci ildə ikinci cəhd imtahanında hər iki bölmə üzrə ümumilikdə bakalavrların 42.53%-i test tapşırıqlarını düzgün cavablandırmışdır. Müvafiq göstərici Azərbaycan bölməsində 41.63%, rus bölməsində isə 51.58% olmuşdur. Azərbaycan bölməsi üzrə bakalavrların 45.34%-i, rus bölməsi üzrə isə 57%-i qapalı test tapşırıqlarına doğru cavab vermişdir. Hər iki bölmə üzrə ümumi göstərici 46.39%-dir. Açıq tipli test tapşırıqlarının cavablandırılmasında Azərbaycan bölməsi üzrə 26.77%, rus bölməsi üzrə 29.89%, hər iki bölmə üzrə ümumilikdə isə 27.05% nəticə qeydə alınmışdır.

2021-ci ildə hər iki cəhd imtahanlarında test tapşırıqlarının cavablandırılmasına dair statistik göstəricilərə nəzər salsaq görərik ki, bu göstərici birinci və ikinci cəhd imtahanları üzrə müvafiq olaraq 50.73% və 42.53% olmuşdur. Bu da onu deməyə əsas verir ki, birinci cəhd imtahanında daha uğurlu nəticə qeydə alınmışdır. Dinləmə bloku üzrə test tapşırıqlarının cavablandırılmasında hər iki cəhd üzrə, demək olar ki, eyni nəticə (birinci cəhd – 44.94%, ikinci cəhd – 44.40% olmaqla) qeydə alınmışdır. Oxuyub-anlama bloku üzrə isə birinci cəhddə 50.39%, ikinci cəhddə 32.19% nəticənin qeydə alındığını nəzərə alsaq, birinci cəhd imtahanında 18.20% daha yüksək nəticənin əldə olunduğu qənaətinə gələ bilərik.

2020 və 2021-ci illərin göstəricilərini müqayisə etsək, belə bir nəticəyə gəlmək olar ki, bütün test tapşırıqlarının cavablandırılma göstəricisi ötən il 51.06% idisə, 2021-ci il birinci cəhd imtahanında bu göstərici 0.33%, ikinci cəhd imtahanında isə 8.53% azalmışdır. Qapalı test tapşırıqlarına 2020-ci ildə bakalavrların 50.87% doğru cavab verə bilmişdir. Qapalı test tapşırıqlarının doğru cavablandırılmasında ötən illə müqayisədə birinci cəhd üzrə 3.49% artım, ikinci cəhd üzrə isə 4.48% azalma özünü göstərir. Açıq tipli test tapşırıqlarını 2020-ci ildə bakalavrların 20.62%-i doğru cavablandıra bilmişdir. Ötən illə müqayisədə birinci cəhd üzrə bu blokda 15.59%, ikinci cəhd üzrə isə 6.43% artım müşahidə olunur.

Mətn blokuna dair verilmiş test tapşırıqlarının cavablandırılmasında 2020-ci illə müqayisədə birinci cəhd üzrə 4.69%, ikinci cəhd üzrə isə 13.51% artım müşahidə olunmaqdadır.

Dinləyib-anlama ilə bağlı olan test tapşırıqlarının statistik nəticələrində ötən ilə nəzərən yüksək nəticə qeydə alınmışdır. Belə ki, ötən illə müqayisədə birinci cəhd imtahanı üzrə 8.3%, ikinci cəhd imtahanı üzrə isə 7.76% daha yüksək nəticə qeydə alınmışdır. Ötən il isə bu rəqəm 36.64% olmuşdur.

İndi isə imtahanda istifadə edilmiş bir neçə test tapşırığına və onların cavablandırılmasının statistik göstəricilərinə nəzər salaq:

Dinləyib-anlama dialoqu ilə bağlı verilmiş *A variantında 3 saylı (C, B və D variantlarında 3 saylı)* test tapşırığına diqqət yetirək:

Answer the question according to the dialogue.

What kind of musician did Warren want to be?

A) a grunge rock star B) an electric guitarist C) a multitalented rock star

D) a heavy metal rock star E) an opera singer

Test tapşırığının aid olduğu dialoq iki nəfərin uşaqlıq xəyallarından bəhs edir. Tapşırığın şərtində Warren-in necə bir musiqiçi olmaq istəməsi soruşulur. Söhbətdən belə aydın olur ki, o, çoxlu bacarıq və istedadları olan bir musiqiçi olmaq istəyir. Bu məqsədlə dialoqda onun dilində **"versatile"** (hərtərəfli) sözü işlədilir. Bu test tapşırığı A, B, C və D variantlarının hər birində 20%-dən aşağı nəticə ilə cavablandırılıb. Bakalavrların 40%-dən çoxu D distraktorunu doğru cavab hesab etmişlər. Bu da onunla izah edilə bilər ki, bakalavrlar dialoqu dinləyərkən ***versatile*** sözünü nəzərdən qaçırmış və ya həmin sözün ifadə etdiyi mənanı bilməmişlər.

Doğru cavabı seçmiş bakalavrların sayı A, B, C və D variantlarında müvafiq olaraq 15.16%, 18%, 13.73% və 14.21% təşkil edir. Həmin göstəriciləri nəzərə alsaq, bu, çətinliklə cavablandırılmış test tapşırığı hesab edilir. Doğru cavab C bəndidir.

Bakalavrların 70%-i B variantı 10 saylı (A variantı 8, C variantı 9, D variantı 11) test tapşırığını hər beş variant üzrə doğru cavablandıra bilmişlər. Bu baxımdan, aşağıda verilmiş həmin tapşırıq asan hesab edilə bilər. Test tapşırığına nəzər salaq:

Make up a story.
1. "And what is the world record?" the champion asked.
2. "Forty", said the doctor.
3. "You have a high temperature, young man," the doctor said.
4. The doctor was standing by the side of the bed where the champion athlete was lying.
5. "How high?" the champion asked.
6. A famous sportsman was lying in the hospital.

A) 6, 2, 1, 4, 3, 5 B) 6, 4, 3, 5, 2, 1
C) 3, 1, 4, 2, 5, 6 D) 3, 2, 1, 6, 5, 4 E) 4, 3, 1, 6, 2, 5

Tapşırığın asanlıqla cavablandırıla bilməsi onunla izah edilə bilər ki, mətni yaradan cümlələr anlaşıqlı olmuş və bakalavrlar cümlələr arasındakı uyğunluğu nəzərə alıb onları düzgün sıralaya bilmişlər.

C variantında 11 saylı (ikinci cəhd) test tapşırığı isə düzgün bağlayıcının seçilməsi ilə bağlıdır. Bakalavrların 81.73%-i test tapşırığını doğru cavablandırmağa müvəffəq olmuşdur.

Choose the correct conjunction.
John is a true friend ... he is always ready to help us.
A) as if B) but C) when D) though E) because

Bu test tapşırığı çox asanlıqla cavablandırılmış hesab edilir. Burada doğru bağlayıcının seçilməsi tələb olunur. Verilmiş səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlənin tərkib hissələri onlar arasında "*because-çünki*" bağlayıcısının işlənməsini tələb edir. Cümlə bu şəkildə tərcümə edilir: *John əsl dostdur, çünki o, həmişə bizə kömək etməyə hazırdır.*

Oxuyub-anlama mətni ilə bağlı olan *B variantı 16 saylı* test tapşırığında da yanlış distraktorun düzgün cavabdan daha yüksək faizlə seçilməsi müşahidə olunur. Belə ki, bakalavrların 29.34%-i, doğru cavab olan E bəndini, 32.22% səhv cavab olan D distraktorunu, 14,58%-i C distraktorunu, 12,67%-i B distraktorunu, 10,10%-i isə A distraktorunu seçmişdir Test tapşırığına nəzər salaq:

Choose the correct statements according to the passage.
1. The invention of fuels such as kerosene and gasoline made petroleum the most important natural resource.
2. To prevent a full-scale energy shortage, scientists improve the quality of petroleum products.
3. It is impossible to replace oil sources after their consumption.
4. All the countries in the world are rich in oil and export it.

A) 1, 4 B) 1, 3 C) 1, 2 D) 2, 4 E) 2, 3

Burada mətnə əsasən doğru fikirlərin seçilməsi tələb olunur və göstəricilərdən aydın olur ki, bakalavrların nisbətən böyük hissəsi (32,22%) mətndə qeyd olunmayan fikri doğru fikirlərdən biri kimi seçmişdir.

What will current rates of oil consumption lead to?
A) the exportation of oil by all countries B) the increase of oil products
C) the abundance of petroleum products D) the shortage of energy sources
E) the inventions of kerosene and gasoline

A variantı 17 saylı yuxarıda verilmiş test tapşırığı da oxu mətni ilə bağlıdır. Mətnin məzmununa uyğun olaraq verilmiş sualın cavabının tapılması tələb edilir. Doğru cavab olan D bəndini bakalavrların 23.89%-i tapa bilmişdir. Bakalvrların 26.99%- i isə yanlış cavab olan C distraktorunu seçmişdir. Göstəricilərdən aydın olur ki, bakalavrlar "consumption" sözünün mənasını bilmirlər və belə olduğu halda C distraktorunda "abundance" sözünün əks məna yaratdığı məqamı da diqqətdən yayındırmışlar.

Magistraturaya qəbul imtahanının ikinci cəhd imtahanında oxuyub-anlama mətni üzrə təqdim edilmiş B variantı 20 (C variantı 20, D variantı 19) saylı aşağıda verilmiş test tapşırığı isə çətinliklə cavablandırılmış

tapşırıq hesab edilir. Belə ki, doğru cavab olan D bəndini bakalavrların 18.26%-i seçmişdir. Bakalavrların 39.31%-i səhv cavab olan B distraktorunu seçmişdir.

The word "***seep***" in the passage means:
A) to prevent the flow of something
B) to rise very quickly and in large quantities
C) to increase slowly and in small quantities
D) to flow slowly and in small quantities
E) to absorb something in large quantities

Burada mətndə seçilərək verilmiş ***seep*** sözünün mənasının tapılması tələb edilir. Tapşırıq sözün mənasının anlaşılması ilə bağlı olduğu üçün leksika bölməsinə aid edilə bilər. Cavablandırılma göstəricilərindən aydın olur ki, bakalavrlar bu sözün mənasını bilmirlər və mətndəki məzmun da mənanın anlaşılmasında onlara kömək ola bilməmişdir. Xatırladaq ki, ***seep*** az miqdarda asta-asta axmaq (sızmaq) mənasını verir.

B variantı 22 (C variantı 21, D variantı 23 saylı) açıq tipli test tapşırığına nəzər salaq.

Choose the correct variants.
The words ... and ... have the similar meanings.
1. to suffer, to smooth
2. to weep, to cry
3. to prefer, to deny
4. to achieve, to succeed
5. to obtain, to get

Bu tapşırıqda oxşar və ya eyni mənalı sözləri tapmaq lazımdır. Bunlar **achieve-succed** (nail olmaq, əldə etmək), **obtain-get** (əldə etmək), **weep-cry** (ağlamaq) sinonim sözləridir. Hər beş variant üzrə test tapşırığına 20%-dən aşağı bakalavr doğru cavab verə bilmişdir deyə bu, çətinliklə cavablandırılmış tapşırıq hesab edilir.

Digər bir açıq tipli B variantı 25 (C və D variantları 25) saylı test tapşırığı da 20%-dən aşağı nəticə ilə cavablandırılmışdır.

Choose the correct prepositions.
1. Molly apologized … the man for disturbing him.
2. I was very surprised … his wonderful choice.
3. They are afraid there is something wrong … him.
a. to b. of c. on d. at e. with

Burada verilmiş sözönüləri uyğun cümlələrdə yerləşdirmək lazımdır. Bildiyimiz kimi ***surprise*** (təəccüblənmək) sözü ***at***, **to be wrong** (problem olmaq, yanlış bir şey olmaq) ifadəsi ***with***, **apologize** (üzr istəmək) sözü isə ***kimdənsə üzr istəmək*** mənasında **to** sözönüsü ilə işlənir.

2021-ci ildə magistraturaya qəbul imtahanının Azərbaycan bölməsində xarici dil kimi ***rus dilini*** seçən bakalavrlar imtahanın birinci cəhdində 2614 nəfər, ikinci cəhdində isə 1909 nəfər olmuşdur. Bu fəndən təqdim edilən test tapşırıqları bakalavrların, əsasən, linqvistik bilik, bacarıq və vərdişlərinin, məntiqi təfəkkürlərinin və dildən kommunikativ məqsədlə istifadə etmək qabiliyyətlərinin üzə çıxarılması üçün nəzərdə tutulmuşdur. Test blokunda rus dilinin spesifik xüsusiyyətlərinə dair bilikləri və bu bilikləri tətbiq etmək bacarığını yoxlayan ümumiləşdirici tapşırıqlara, eləcə də dilə praktiki cəhətdən yiyələnmə səviyyəsini üzə çıxarmaq məqsədi daşıyan tapşırıqlara üstünlük verilmişdir.

Qəbul imtahanının həm birinci, həm də ikinci cəhdində bakalavrlar test blokundakı həqiqi və məcazi mənalı sözlərin tapılması, məntiqi tamamlama və digər mövzulara aid tapşırıqları yaxşı cavablandırmışdır. Məsələn, yuxarıda sadalanan mövzulara aid A variantındakı 6 (57.36%), 10 (60.42%), 11 (70.09%) saylı tapşırıqlarına, həmçinin digər variantlardakı analoji test tapşırıqlarına verilən cavabları buna misal göstərmək olar.

Qəbul imtahanının birinci cəhdində mətn əsasında tərtib edilmiş beş tapşırıqdan ibarət oxuyub-anlama blokuna bakalavrların cavabları qənaətbəxş, yəni orta hesabla 71.97%, ikinci cəhdində isə bu göstərici bir qədər aşağı, yəni orta hesabla 48.28% olmuşdur.

2019-cu ildən etibarən ilk dəfə olaraq Ümumavropa Çərçivə Sənədinin tələblərinə əsasən dil öyrənmənin ən vacib komponentlərindən hesab edilən dinləmə bacarığının yoxlanılmasına yönəlmiş test tapşırıqları bloku da qəbul imtahanında yer almışdır. Bakalavrlara dinləyib-anlama üçün mətn və mətnlə bağlı olan 5 test tapşırığı təqdim olunmuşdur. Mətn bakalavlar üçün iki dəfə səsləndirilmişdir. Tapşırıqlar isə mətnin əsas ideyasının müəyyən edilməsi, verilmiş cümlənin mətnə əsasən tamamlanması və mətnə görə düzgün fikirlərin seçilməsi istiqamətində olmuşdur. Hər bir xarici dil öyrənən bakalavr həmin dildə ona təqdim olunmuş yazılı məlumatı oxuyub-anlaya bilməli, öz fikrini yazılı və şifahi şəkildə sərbəst ifadə etməli,

eşitdiyi informasiyanı adekvat şəkildə qavramağı bacarmalıdır. Bu məzmunda olan test tapşırıqları onların oxuyub-anlama, dinləyib-anlama, yazı və danışıq qabiliyyətlərini qiymətləndirməkdə əhəmiyyətli rol oynayır. Ümumi nəticəyə nəzər salsaq, dinləyib-anlama ilə bağlı olan test tapşırıqlarının statistik nəticələri qənaətbəxş hesab edilə bilər. Qəbul imtahanının birinci cəhdində bakalavrların 68.59%-i dinləmə blokuna aid test tapşırıqlarına düzgün cavab vermişdir. Bu göstərici magistraturaya qəbul imtahanının ikinci cəhdində 58.82% olmuşdur.

Test tapşırıqlarının çətinlik dərəcəsinə, qabiliyyət göstəriciləri baxımından təhlilinə və statistik göstəricilərinə əsaslanaraq demək olar ki, bakalavrların rus dili üzrə nəticələri ümumilikdə qənaətbəxşdir. Rus dili üzrə test blokundakı tapşırıqların düzgün cavablandırılma faizi orta hesabla 51.12% (birinci cəhd) və 49.06% (ikinci cəhd) olmuşdur .

Aşağıdakı cədvəldə 2020-ci və 2021-ci illərdə qəbul imtahanının birinci və ikinci mərhələlərində imtahan verən bakalavrların rus dilini (Azərbaycan bölməsi üzrə) bilmə səviyyəsini müəyyən edən test tapşırıqlarının düzgün cavablandırılma faizləri (ortastatistik göstəricilər) verilmişdir:

İl	Bakalavrların sayı	Qapalı tipli sualların düzgün cavablandırılma faizi	Açıq tipli sualların düzgün cavablandırılma faizi	Qapalı və açıq tipli sualların (birlikdə) düzgün cavablandırılma faizi
2020	2363	59.65	22.19	52.16
2021 (1-ci cəhd)	2614	58.35	22.19	51.12
2021 (2-ci cəhd)	1909	52.18	36.57	49.06

Cədvəldən göründüyü kimi, bakalavrların 2021-ci ildə rus dili üzrə test tapşırıqlarını düzgün cavablandırmalarının ortastatistik göstəricisi 2020-ci ildəkindən az fərqlənir.

Bakalavrların 2021-ci ildə qapalı və açıq tipli test tapşırıqlarını düzgün cavablandırmalarının ortastatistik göstəricisi 2020-ci illə müqayisədə nisbətən azalmışdır.

Tapşırıqların statistik təhlili bakalavrların nitq konstruksiyalarından istifadə etmək bacarığının hələ arzuedilən səviyyədə olmadığını göstərir. Təhlildən aydın olur ki, bakalavrlar, əsasən, mətn tərtibi, feili sifətə aid xüsusiyyətlərin müəyyən edilməsi, paronim sözlər, sözlərin uzlaşması, nitq səhvlərinin tapılması, sözün leksik mənasının müəyyənləşdirilməsi və bəzi digər mövzularda çətinlik çəkirlər.

Magistraturaya qəbul imtahanının birinci cəhdində istifadə olunmuş test tapşırıqlarından bir neçəsinə nəzər salaq.

Statistik göstəricilərə əsasən, qəbul imtahanında dinləyib-anlama blokunda bakalavrlar üçün çətinlik törətməmiş test tapşırığına diqqət yetirək.

E variantı, 1 saylı test tapşırığı.

Где происходит действие диалога?

A) В офисе B) В ателье мод

C) В супермаркете D) В обувной мастерской E) В магазине

Test tapşırığı mürəkkəblik dərəcəsinə görə asan hesab oluna bilər. Nümunədə verilmiş test tapşırığı dinləmə blokuna aid olan beş tapşırıqdan biridir. Bakalavrlar dinlədikləri mətndə verilmiş məlumata əsasən dialoq harda baş tutub sualını cavablandırmalıdırlar. Bu tapşırığı bakalavrların 81.44%-i E bəndini seçməklə düzgün cavablandırmış, 18.40%-i yanlış bəndləri seçmişdir.

Qrammatika bölməsinə aid olan iki test tapşırığına diqqət yetirək.

A variantı, 10 saylı test tapşırığı.

Укажите речевую ***ошибку***.

A) Он никогда и никому не рассказывал своей тайны.

B) Говорил он резко, задыхаясь.

C) Все просили её спеть что-нибудь.

D) От страха и волнения сердце билось более сильнее и трепетнее.

E) Они пустили ложный слух о начале боевых действий.

Test tapşırığı mürəkkəblik dərəcəsinə görə çətin hesab oluna bilər. Qapalı tipli bu test tapşırığını bakalavrların 29.14%-i doğru cavablandırmış, 31.60%-i səhv olan A variantını, 37.73-i isə digər yanlış cavabları qeyd etmişlər.

Bu nəticə onların sifətin müqayisə dərəcələrini istifadə qaydalarını fərqləndirə bilməmələrindən irəli gəlir. Rus dilində müqayisə dərəcəsinin iki forması vardır: sadə və mürəkkəb. Sadə müqayisə dərəcəsi sifət əsasından *ее (-ей)* və *-е* suffiksləri vasitəsilə düzəlir. Müqayisə dərəcəsinin mürəkkəb forması sifətə *более* və ya *менее* sözlərini artırmaqla düzəlir. Test tapşırığının D variantının "От страха и волнения сердце билось более сильнее и трепетнее" cümləsində müqayisə dərəcəsinin hər iki forması bir sözlə istifadə olunur (более сильнее и трепетнее) və yazılı nitqdə qrammatik normalarının pozulmasını yaradır.

Avariantı, 12 saylı test tapşırığı.

Укажите предложения с грамматическими ***ошибками***:
1. Ружей в доме никогда не держали.
2. Двое девушек вышли из машины.
3. Всем участникам были вручены подарки.
4. Разработка этого месторождения является наиболее важнейшей задачей.
5. Книга, читающая студентом, очень интересна.

A) 1, 4, 5 B) 1, 3, 4 C) 2, 4, 5 D) 2, 3, 4 E) 1, 2, 3

Test tapşırığı mürəkkəblik dərəcəsinə görə çətin hesab oluna bilər. Qapalı formalı bu test tapşırığını bakalavrların 34.51%-i doğru cavablandırmış, 34.36%-i səhv olan A variantını, 28.54%-i isə digər yanlış cavabları qeyd etmişlər.

Bu nəticə onların, sifətin dərəcələrinə, saya və feli sifətə aid olan istifadə qaydalarını fərqləndirə bilməmələrindən irəli gəlir. 2-ci cümlədə "двое" rus dilində toplu saya aiddır və yalnız kişi cinsi ilə işlənilir. Ona görə "двое девушек" söz birləşməsi əvəzinə "две девушки" istifadə olunmalıdır. 4-cü cümlədə "наиболее важнейшей" rus dilində *самый, наиболее, наименее* sözləri adi dərəcəli sifətə əlavə olunur və çoxaltma dərəcəsinin mürəkkəb forması yaranır (наиболее важный). 5-ci cümlədə feili sifət tərkibi düzgün işlənməyib (Книга, читающая студентом/Книгу, которую читает студент).

Leksika bölməsinə aid olan bir test tapşırığına diqqət yetirək.

A variantı, 14 saylı test tapşırığı.

Составьте диалог.
– Лейла, где ты была вчера ?
– …
– А что тебе там особенно понравилось ?
– …
– Что ты нового узнала о таре?
– …
– Как он играл на таре?
– …
– А как раньше держали тар при исполнении?
– …
1. Раньше тар при исполнении держали на коленях.
2. Я узнала, что музыкант Мирза Садыг вместо пяти струн на таре сделал одиннадцать.
3. Он играл на таре, прижимая его к груди.
4. Я была в музее музыкальных инструментов.
5. Мне понравился тар.

A) 1, 3, 5, 2, 4 B) 4, 5, 2, 3, 1 C) 3, 1, 2, 4, 5 D) 4, 5, 1, 3, 2 E) 2, 4, 1, 5, 3

Test tapşırığı mürəkkəblik dərəcəsinə görə asan hesab edilə bilər. Bu test tapşırığını bakalavrların 90.80%-i düzgün, 9.05%-i isə yalnış cavablandırmışdır. Bu nəticə söz ehtiyatına və məntiqi təfəkkürə malik olan bakalavrlar test tapşırığına asanlıqla cavab verə bilirlər. Təhlillər göstərir ki, eyni çətinlikli açıq tipli test tapşırıqlarına verilən düzgün cavabların statistik göstəriciləri qapalı tipli test tapşırıqlarına verilən düzgün cavabların göstəricisindən xeyli aşağıdır. Söz ehtiyatı və qrammatik bilikləri kifayət qədər olan bakalavrlar tapşırığın qapalı və ya açıq tipli olmasından asılı olmayaraq, düzgün cavabı asanlıqla təyin edə bilirlər.

İndi isə oxu blokunda test tapşırığına diqqət yetirək.
A variantı, 16 saylı test tapşırığı.

Слово «история» в тексте означает:
A) достижения в науке B) исследование прошлого C) приобретение знаний
D) предсказание будущего E) совокупность взглядов

Test tapşırığı mürəkkəblik dərəcəsinə görə asan hesab edilə bilər. Bu test tapşırığını bakalavrların 79.45%-i düzgün, 19.18% isə səhv cavablandırmışdır. Test tapşırığında verilən "история" sözü mətndə "keçmişin araşdırılması" mənasında istifadə olunur. Verilmiş test tapşırığının cavablandırma nəticələri göstərir ki, imtahan verənlərin sözün mənası ilə bağlı bilikləri qənaətbəxşdir.

Leksika bölməsinə aid olan açıq tipli test tapşırığlarına diqqət yetirək.
A variantı, 21 saylı test tapşırığı.

Укажите верные толкования слов.
1. Замысел – задуманный план, действие
2. Жатва – время посева
3. Палисадник – небольшой огороженный садик
4. Рубец – глубокий след на теле от зажившей раны
5. Ущелье – широкая равнина

Bu tapşırıqda sözlərin düzgün izahını tapmaq üçün müvafiq sözlərin leksik mənasını başa düşmək, çoxmənalı sözlərin birdən çox mənasının olmasını bilmək tələb olunur. Adətən, bu mövzuya aid tapşırıqlar qapalı tipdə təqdim edilərkən yüksək cavablandırılma faizi ilə seçildiyi halda, açıq tipdə təqdim olunan bu tapşırığın düzgün cavabını bakalavrların yalnız 12.37%-i müəyyənləşdirmiş, 73.47%-i yanlış cavablandırmış, 13.80%-i isə cavab verməkdən imtina etmişdir. Bakalavrların söz ehtiyatının məhdud olması ilə yanaşı, bu tapşırığın açıq tipli olması da, onun zəif cavablandırılmasının səbəblərindəndir.

Doğru cavab: **1, 3, 4.**

Verilmiş test tapşırığına cavabların nəticələri göstərir ki, imtahan iştirakçılarının sözlərin mənaları ilə bağlı bilikləri qənaətbəxş deyildir.
A variantı, 24 saylı test tapşırığı.

Составьте текст.
1. Благодаря этим картинам его называли певцом природы.
2. Он с искренней любовью к Азербайджану писал Каспийское море, горы и леса, реки и поля.
3. Имя великого художника Саттара Бахлулзаде знакомо всем в Азербайджане и далеко за его пределами.
4. Другими словами, с его творчеством были знакомы в Европе и на Востоке.
5. Однако помимо уникальных пейзажей природы, художник создавал и образы азербайджанской классической поэзии, знаменитой тебризской миниатюры.

Test tapşırığı mürəkkəblik dərəcəsinə görə çətin hesab edilə bilər. Bu test tapşırığına bakalavrların 13.19%-i düzgün, 73.16% isə yalnış cavab vermişdir. Söz ehtiyatına və məntiqi təfəkkürə malik olan bakalavrlar test tapşırığına asanlıqla cavab verə bilirlər. Cümlələrdə açar sözlərə diqqət edərək mətni tərtib etmək olar.

İndi isə magistraturaya qəbul imtahanının ikinci cəhdində istifadə olunmuş test tapşırıqlarından bir neçəsinə nəzər salaq.

Statistik göstəricilərə əsasən qəbul imtahanında dinləyib-anlama blokunda bakalavrlar üçün çətinlik törətməmiş test tapşırığına diqqət yetirək.
A variantı, 3 saylı test tapşırığı.

Выберите верное утверждение.
A) В дохристианской России праздник назывался «весенние проводы».
B) Люди пекут блины, по форме напоминающие солнце.
C) Масленица у древних славян являлась поминальным праздником.
D) Масленица – это недельный праздник, праздник-обряд с хороводами, песнями и плясками.
E) Первоначально Масленица была связана с днём весеннего солнцеворота.

Nümunədə verilmiş test tapşırığı dinləmə blokuna aid olan beş tapşırıqdan biridir. Bakalavrlar dinlədikləri mətndə verilmiş məlumata əsasən mətnin məzmununa uyğun olan düzgün cümləni seçməlidirlər. Bu tapşırığı bakalavrların 73.47%-i D bəndini seçməklə düzgün cavablandırmış, 25.89%-i yanlış bəndləri seçmişdir. Mətndəki iştirakçılar dialoqda rus-xristian bayramı Pasxadan əvvəl qeyd edilən Maslenitsa barədə söhbət edirlər. Dialoqda və tapşırıqda verilən fikirlər üst-üstə düşmədiyi halda bu, səhv cavab sayılır. Səslənən mətnə diqqətlə qulaq asmaqla test tapşırığını düzgün cavablandırmaq çətinlik yaratmır.

"Qrammatika" və "Leksika" bölməsinə aid olan bir test tapşırığına diqqət yetirək.

A variantı, 11 saylı test tapşırığı.

Выберите соответствующий вариант.
1. Ребёнок скоро … .
2. Книги … с вами.
3. Я … вам интересную историю.
4. Книги могут … разные истории.

A) заговорит, заговорят, расскажу, рассказать
B) заговорят, заговорит, рассказать, говорить
C) расскажу, рассказать, заговорит, заговорят
D) заговорит, рассказать, расскажу, заговорят
E) расскажет, заговорят, заговорит, расскажу

Test tapşırığı mürəkkəblik dərəcəsinə görə asan hesab oluna bilər. Qapalı tipli bu test tapşırığını bakalavrların 74.53%-i doğru cavablandırmış, 25.89%-i yanlış olan digər cavabları qeyd etmişdir.

Bu nəticə onların feilin təsrifinin tək və cəm şəklində şəxs əvəzlikləri və isimlə birlikdə istifadə qaydalarını yaxşı fərqləndirə bilmələrindən irəli gəlir (*Ребенок* скоро заговор*ит*). Həmçinin, bakalavrlar bu test tapşırığını düzgün cavablandırmaq üçün "заговорить" və "рассказать" feilinin mənalarını bilməlidirlər. Cavab variantları ilə tanış olaq. "Ребенок заговорит/Книги заговорят" sözünün mənası "danışmağa başladı kim ilə və nə ilə", amma "Я расскажу/Книги могут рассказать" sözünün mənası "şifahi ünsiyyət qurmaq, bir şeyi bildirmək" deməkdir. Bu test tapşırığının cavablandırma nəticələri göstərir ki, bakalavrların feillərin mənaları və felin təsrifi ilə bağlı bilikləri qənaətbəxşdir.

"Leksika" bölməsinə aid olan digər iki test tapşırığına diqqət yetirək.

A variantı, 13 saylı test tapşırığı.

В каких предложениях глаголы употреблены в прямом значении?
1. Артист прошёл к сцене.
2. Прошёл последний месяц зимы.
3. Всю дорогу домой я прошёл пешком.
4. Мучительная боль прошла только к вечеру.
5. Они незаметно прошли мимо гостей.
6. Перед глазами больного старика прошла вся его жизнь.

A) 2, 4, 5 B) 2, 3, 4 C) 1, 5, 6 D) 1, 3, 5 E) 3, 4, 5

Mürəkkəblik dərəcəsinə görə asan hesab edilən test tapşırığını bakalavrların 70.74%-i düzgün, 28.43% isə yanlış cavablandırmışdır. Bu nəticə onların verilmiş "пройти" sözünün həqiqi və məcazi mənalarını bilmələri ilə izah olunur. Test tapşırığında 1, 3, 5 bəndlərdə verilən cümlələrdə "пройти" sözü "getmək; ötüb getmək" (прошёл к сцене – səhnə tərəfə getdi), amma 2, 4, 5 bəndlərdəki sözlər məcazi mənada "müxtəlif mənalarda keçmək" (боль прошла – ağrı keçdi) işlənilir.

Verilmiş test tapşırığının cavablandırma nəticələri göstərir ki, imtahan verənlərin sözlərin cümlədəki mənaları ilə bağlı bilikləri qənaətbəxşdir.

A variantı, 14 saylı test tapşırığı.

Со словом *дружеский (-ая, -ие)* сочетаются слова:
1. совет 2. беседа 3. привет
4. народ 5. связи 6. страны
7. обстановка

A) 1, 2, 7 B) 1, 2, 3 C) 5, 6, 7 D) 2, 3, 4 E) 4, 5, 6

Test tapşırığı mürəkkəblik dərəcəsinə görə çətin hesab edilə bilər. Bu test tapşırığına bakalavrların yalnız 25.89%-i düzgün (B bəndi) cavab vermiş, 25.05%-i yanlış olan E bəndini, 22.33%-i isə A bəndini seçmişdir.

Bildiyimiz kimi, "*дружеский*" sözü nitq hissəsi olaraq sifətdir, Azərbaycan dilinə tərcümədə "dostyana, dosta xas olan, dost münasibətlərini səciyyələndirən" deməkdir. 4, 5, 6, 7 bəndlərdə istifadə olunan sözlər "дружественный" sifəti ilə söz birləşmələri yaradır və "dostluğa əsaslanan, xeyirxah (xalqlar, dövlətlər və onlar arasındakı münasibətlər haqqında) deməkdir.

Bu test tapşırığının nəticələri göstərir ki, imtahan iştirakçılarının paronimlərin mənaları ilə bağlı bilikləri qənaətbəxş deyildir.

İndi isə oxuyub-anlama blokunda bakalavrlar üçün çətinlik törətmiş test tapşırığına diqqət yetirək.

E variantı, 18 saylı test tapşırığı.

Слово «*покровитель»* в тексте означает:

A) человек, который оказывает всем услуги

B) человек, который оказывает физическое давление на слабых

C) самоуверенно-снисходительный человек

D) человек, который совершает поступки, направленные на пользу обществу

E) человек, который оказывает кому-нибудь протекцию

Bakalarvların əksəriyyəti yanlış cavab bəndi olan D variantını seçdiyi halda, doğru cavab bəndi olan E variantını isə 12,84%-i seçmişdir. Test tapşırığında verilən "покровитель" sözü təkmənalıdır və mətndə "himayə edən, himayəçi, havadar" mənasında istifadə olunur. Verilmiş test tapşırığının cavablandırma nəticələri göstərir ki, imtahan edilənlərin sözün mənası ilə bağlı bilikləri qənaətbəxş deyildir.

"Leksika" bölməsinə aid olan bir test tapşırığına diqqət yetirək.

A variantı, 22 saylı test tapşırığı.

Выберите предложения, где фразеологизмы употреблены ***неверно.***

1. Мальчишка любил пускать пыль в глаза, рассказывая о своих успехах.
2. Обнаружено крупное хищение строительных материалов, в котором прораб играет первую скрипку.
3. Больная моя приятельница пролежала ещё несколько времени в таком состоянии жива-здорова.
4. Укорял он меня всю дорогу за то, что мы ничего не делаем, работаем засучив рукава.
5. И верно, жаловаться нельзя; дружно живут, как кошка с собакой.

Bu tapşırıqda frazeoloji birləşmələrin hansı cümlələrdə səhv istifadə olunmasını tapmaq üçün onların leksik mənasını başa düşmək və bilmək tələb olunur. Bu test tapşırığının düzgün cavabını bakalavrların yalnız 10.11%-i müəyyənləşdirmiş, 76.42%-i yanlış cavablandırmış, 13.47%-i isə cavab verməkdən imtina etmişdir.

Görünür, bakalavrların söz ehtiyatlarının məhdud olması ilə yanaşı, bu tapşırığın açıq tipli olması da onun zəif cavablandırılmasının səbəblərindən biridir.

Doğru cavab: **3, 4, 5.**

2021-ci ildə keçirilmiş magistraturaya qəbul imtahanının 1-ci cəhdi üzrə 222,
2-ci cəhd üzrə 183, ümumilikdə isə 405 bakalavr xarici dil kimi ***alman dilini*** seçmişdir. 2020-ci ildə isə magistraturaya qəbul imtahanında 238 nəfər xarici dil kimi ***alman dilini*** seçmişdir.

İmtahan nəticələrindən bu qənaətə gəlmək olar ki, 1-ci cəhd üzrə bakalavrların 39.61%-i, 2-ci cəhd üzrə isə 42.78%-i uğurlu nəticə göstərmişdir. Nəticələrdən görünür ki, 2-ci cəhddə bakalavrların imtahan nəticələri 1-ci cəhddən daha yaxşı olmuşdur.

Açıq tipli test tapşırıqlarına 1-ci cəhd üzrə bakalavrların 34.17%-i 2-ci cəhd üzrə isə 25.08%-i düzgün cavab vermişdir. İkinci cəhd imtahanının nəticələri birinciyə nəzərən daha aşağı olmuşdur.

Qapalı tipli test tapşırıqlarının cavablandırılması birinci cəhd üzrə 40.97%, 2-ci cəhd ürzə 47.21% olmuşdur. 2-ci cəhd üzrə qapalı test tapşırıqlarının düzgün cavablandırılmasına dair göstəricilər 6.24% daha yüksək olmuşdur.

Dinləyib-anlama bacarığının qiymətləndirilməsinə yönəlmiş test tapşırıqlarının cavablandırılma göstəricisinə nəzər salaq. Dinləmə bloku üzrə bakalavrlar 1-ci cəhd üzrə 27.85%, 2-ci cəhd üzrə isə 51.98% nəticə göstərmişlər. Bakalavrlar dinləmə bloku üzrə test tapşırıqlarını 2-ci cəhddə 1-ci cəhddən 24.13%-lə daha yaxşı cavablandırmışlar.

Oxu mətni blokuna dair statistik göstəricilərə nəzər salsaq görürük ki, oxu mətni üzrə test tapşırıqlarını 1-ci cəhd üzrə bakalavrların 47.37%-i, 2-ci cəhddə isə 32.79%-i doğru cavablandırmışdır.

Ötənilki göstəricilərə nəzər salaq. 2020-ci ildə keçirilmiş magistraturaya qəbul imtahanında 42.57% nəticə qeydə alınmışdır ki, bu da 2021-ci ildə keçirilmiş birinci cəhd imtahanından 2.96% yüksək, ikinci cəhd imtahanının göstəriciləri ilə isə, demək olar ki, eyni olmuşdur.

Açıq tipli test tapşırıqlarının cavablandırılmasında ötən il 19.58% nəticə qeydə alınmışdır ki, bu da 2021-ci ilin birinci cəhd imtahanının nəticələrindən 14.59%, ikinci cəhd imtahanının nəticələrindən isə 5.50% aşağı olmuşdur.

Qapalı tipli test tapşırıqlarının cavablandırılması üzrə ötən il 48.32%, 2021-ci ilin birinci cəhd imtahanında 40.97% nəticə qeydə alınması cari ildə nəticələrin 7.35% daha aşağı olduğunu göstərir. İkinci cəhd imtahanında qapalı tipli test tapşırıqlarının cavablandırılma göstəriciləri də ötən illə müqayisədə 1.11% aşağı olmuşdur.

Magistraturaya qəbul imtahanının birinci cəhdində **dinləyib-anlama** bacarığının qiymətləndirilməsinə yönəlmiş test tapşırıqlarının cavablandırılma göstəriciləri ötən ilə nəzərən 1.65% aşağı olmuşdur. İkinci cəhd imtahanının dinləyib-anlama blokuna daxil olan test tapşırıqlarının doğru cavablandırılma göstəriciləri ötən illə müqayisədə 22.48% yüksək olmuşdur. Xatırladaq ki, ötən il dinləyib-anlama blokuna daxil olan test tapşırıqlarının doğru cavablandırılma göstəriciləri 29.50% olmuşdur.

Oxuyub-anlama bacarıqlarının qiymətləndirilməsinə yönəlmiş test tapşırıqlarının doğru cavablandırılma göstəriciləri ötən il 50.25% olmuşdur ki, bu da 2021-ci ilin birinci cəhd imtahanının bu blok üzrə nəticələrindən 2.88%, ikinci cəhd imtahanının bu blok üzrə nəticələrindən isə 17.46% yüksək olmuşdur.

Bununla belə, bir neçə test tapşırığı bakalavrlar tərəfindən çətinliklə cavablandırılmışdır. Əvvəlcə dinləyib-anlama bacarığının qiymətləndirilməsinə yönəlmiş test tapşırıqlarının nəticələrinə nəzər salaq.

1-ci cəhd ürzə dinləmə bloku Azərbaycan bölməsi A variantı 1 saylı (B və C variantları 1) test tapşırığı:

Worum geht es hauptsächlich im Dialog?
A) Um die Finanzierung des Studiums
B) Um die Rolle der Fremdsprachen
C) Um das Medizinstudium an einer Universität
D) Um die Weiterbildung im Ausland
E) Um die besonderen Erfahrungen beim Studium

Bu test tapşırığını bakalavrların 10.53%-i düzgün cavablandırmışdır. Tapşırığın şərtinə görə, dinləmə mətnində əsasən nədən bəhs olunduğunu düzgün təyin etmək tələb olunur. Doğru cavab D bəndidir, söhbət xaricdə ixtisasartırmadan gedir. Bakalavrların 63.16%-i C distraktorunu seçməklə tapşırığı səhv cavablandırmışdır. Dinləmə mətnində dəvət olunan qonaq tibb sahəsində oxuduğundan bakalavrlar söhbətin tibbdən getdiyini düşündükləri üçün yanlış cavab vermişlər. Eyni zamanda ***Medizin,*** yəni tibb sözünün dialoqda çox işlədilməsi bakalavrların yanlış cavab seçmələrinə səbəb olmuşdur.

1-ci cəhd ürzə dinləmə bloku Azərbaycan bölməsi A variantı 3 saylı test tapşırığı:

Wählen Sie die richtige Aussage zum Dialog.
A) Das Medizinstudium im Ausland ist sehr günstig.
B) Pflichtsemester im Ausland macht keinen Spaß.
C) Pflichtsemester im Ausland ist obligatorisch.
D) Für manche Studenten ist ein Auslandssemester zu teuer.
E) Alle Studenten brauchen heutzutage Deutschkenntnisse.

Bu test tapşırığını bakalavrların 21.05%-i düzgün cavablandırmışdır. Tapşırığın şərtinə görə dinləmə mətninə əsasən düzgün fikrin tapılması tələb olunur. Doğru cavab D bəndidir, yəni "*Bəzi tələbələr üçün xaricdə bir semestrlik təhsilin xərci çox yüksəkdir"*. Bakalavrların 40.35%-i A, 22.81%-i B, 10.53%-i C distraktorunu seçməklə tapşırığı səhv cavablandırmışdır. Onlar mətnin məzmununu tam anlamamışlar. *Medizinstudium* – tibb təhsili termininin mətndə çox işlənməsi səbəbindən A distraktoruna üstünlük verilmişdir.

1-ci cəhd üzrə Azərbaycan bölməsi A variantı 8 saylı (B variantı 8, C variantı 13, D variantı 10) test tapşırığı.

Ergänzen Sie den Satz.
Er hat mich ermahnt, ...
A) ich meinen Partner nicht betrüge
B) ich die Formulare vollständig ausfülle
C) kein Eis zu essen
D) keinen Hund zu Hause haben
E) nicht so schnell fahren

Test tapşırığına bakalavrların təxminən 15,79%-i doğru cavab vermişdir. Bakalavrların səhv olaraq, 22.81%-i A distraktorunu, 36.84%-i isə B distraktorunu, D distraktorunu 8,77%-i, E distraktorunu 15,79%-i seçmişdir. Bu test tapşırığında bakalavrlardan tələb olunur ki, cümləni məntiqi baxımdan tamamlasınlar. Cümlə belə tərcümə olunur: "O, məni xəbərdar etdi, ..." Test tapşırığının düzgün cavabı C bəndidir. Bu bəndə əsasən cümlə belə tamamlanır: "O, məni dondurma yeməmək üçün xəbərdar etdi". Tələbələrin yanlış distraktorları seçməsinin səbəbi məsdər tərkibli cümlə strukturunu təyin edə bilməmələri, yaxud cümləni düzgün başa düşməmələri səbəb ola bilər.

1-ci cəhd üzrə Azərbaycan bölməsi A variantı 13 saylı test tapşırığı (C variantı 15):

Wählen Sie entsprechende Negationen aus.
" ... kann und darf mir helfen" sagte die zarte Frau. "Ich sehe hier ... Menschen, der mir helfe kann."
A) Niemand - kein B) Niemand - keinen
C) Niemand - keinem D) Niemandem - keinem E) Niemanden - keinen

Bakalavrların asanlıqla cavablandırdıqları suallar arasında olan bu test tapşırığına bakalavrların 68.42%-i doğru cavab vermişdir. Tapşırıqda bakalavrlardan inkar əvəzliyinin düzgün işlədilməsi tələb olunur. Doğru cavab B bəndidir.

1-ci cəhd üzrə Azərbaycan bölməsi A variantı 14 saylı test tapşırığı:

Wählen Sie die richtige Variante aus:
1. Er geht... zu einem Sprachkurs... zu einem Computer-Kurs.
2. ... ich darüber nachdenke,... sinnvoller scheint es mir.
3. Mich interessieren... Fortschritte in der Medizin ... in der Psychologie.
a. je mehr.. desto b. nicht nur...sondern auch c. einerseits...anderseits
d. weder...noch e. sowohl ... als auch
A) 1-b; 2 - c; 3-d B) 1 - d; 2-a; 3-e E) 1 - a; 2- b; 3-c
D) 1-a; 2 - e; 3-b E) 1-c; 2 - d; 3 –a

Test tapşırığına bakalavrların cəmi 19.30%-i B bəndini seçməklə doğru cavab vermişdir. Bakalavrların yanlış olaraq 28.07%-i A, 26.32%-i D, 21.05%-i C distraktorunu seçmişdir. Tapşırıqda mürəkkəb bağlayıcıların düzgün tapılması tələb olunur. Doğru cavabın tapılması cümlələrin mənalarına diqqət etməklə mümkündür. Bakalavrların A, C və D distraktorlarını seçməsinə səbəb bütün variantlara diqqət etməmələri ola bilər.

1-ci cəhd üzrə Azərbaycan bölməsi A variantı 25 *saylı test tapşırığı*:

Setzen Sie die Personalpronomen ein.
Werden Sie den Studenten den Text erklären?
– Ich habe... schon erklärt.
2. Aygun rief ihre Freundin an und fragte, ob … mit ... ins Kino gehen will.
3. Wir besuchten unsere Tante, weil … … gestern versprochen haben.
a. sie, uns b. wir, ihr c. sie, ihr
d. ihn, ihnen c. er, dir

Açıq tipli bu test tapşırığına bakalavrların 7.02%-i doğru cavab vermişdir. Bakalavrların 78.95%-i yanlış olan B distraktorunu seçmişdir. Test tapşırığına əsasən bakalavrlardan şəxs əvəzliklərinin ismin hallarına görə dəyişməsinə uyğun olaraq düzgün cavabın seçilməsi tələb olunur. Bu suala düzgün cavab vermək üçün feillərin və sözönülərin tələb etdiyi hallara diqqət etmək lazımdır, belə olan təqdirdə suala düzgün cavab vermək mümkündür.

Doğru cavab: **1–d; 2–c; 3–b.**

Oxu mətni blokuna dair 1-ci cəhd üzrə test tapşırıqlarından həm asanlıqla, həm də çətinliklə cavablandırılanlar mövcuddur. Həmin tapşırıqlar aşağıdakılardır:

1-ci cəhd üzrə Azərbaycan bölməsi, *B variantı 19 saylı test (A variantı 18) test tapşırığı:*

Antworten Sie auf die Frage.
Beantworten Sie folgende Frage zum Text.
Was lernen wir durch die Kunst kennen?
A) Die Eintrittskarten und ihre Preise B) Die Rettung der bekannten Bilder
C) Den Museumsführer und sein Leben D) Die Natur, die Geschichte und die Menschen
E) Den Traum, die Dresdener Gemäldegalerie zu besuchen

Verilmiş test tapşırığına bakalavrların 71.15%-i D bəndini seçməklə düzgün cavab verib. Faiz nisbətinin yüksək olması onu göstərir ki, bakalavrlar mətni düzgün təhlil edə bildikləri üçün doğru cavabı düzgün təyin edə biliblər. *Was lernen wir durch die Kunst kennen? – Biz incəsənt vasitəsi ilə nə ilə tanış oluruq?- Tapşırığa əsasən doğru cavab D bəndidir – Təbiət, tarix və insanlarla tanış oluruq.*

1-ci cəhd üzrə Azərbaycan bölməsi, C variantı 11 saylı test tapşırığı.

„Jemandem Vertrauen schenken“ bedeutet:
1. Sich verbrennen an Dat
2. Sich verlassen auf Akk.
3. Zuverlässig sein
4. Unsicher sein
5. Im Irrtum sein

A) 2, 4 B) 1, 4 C) 2, 3 D) 3, 5 E) 1, 5

Bu test tapşırığına bakalavrların 14.81%-i doğru cavab vermiş, 24.07%-i A, 24.07%-i B, 25.93%-i C, 11.11%-i isə E distraktorunu seçmişdir. Tapşırıqda bakalavrlardan tələb olunur ki, Jemandem Vertrauen schenken“ (kiməsə güvənmək) ifadəsinin mənasına yaxın olan ifadələri seçsinlər. “Sich verlassen auf*”* və “Zuverlässig sein*”* düzgün cavabdır. Hər iki ifadə “*güvənmək, etibar etmək*” mənasını verir. “*Sich verbrennen an” – özünü yandırmaq*, “*Unsicher sein”– əmin olmamaq*, “*Im Irrtum sein” – yanılmaq* deməkdir. Bu baxımdan, düzgün cavab D bəndidir. Bu bəndi seçmiş bakalavrlar 14.81% təşkil edir.

1-ci cəhd üzrə Azərbaycan bölməsi, *D variantı 17 saylı (A variantı* 20*) test tapşırığı*:

Ergänzen Sie den Satz anhand des Textes:
Es gibt die Museen, ...
A) die ihre Gemälde immer verkaufen
B) die sich voneinander nicht unterscheiden
C) in die der Eintritt frei ist
D) deren Gemälde jetzt in Gefahr sind
E) die Gegenstände zu gleichen Themen sammeln

Bu test bakalavrların yalnız 20.34%-nin doğru (C bəndi) cavab verməsi sualın çətinlik dərəcəsini göstərir. Tapşırığa əsasən mətnə uyğun olaraq cümlənin tamamlanması tələb olunur. Bu test tapşırığına bakalavrların 47.37%-i E distraktorunu seçməklə səhv cavab verib. Bu cavab məntiqi cəhətdən uyğun gəlməsinə baxmayaraq qrammatik cəhətdən verilmiş cümləni tamamlamır.

2-ci cəhd üzrə Azərbaycan bölməsi A variantı 6 saylı (B variantı 12) test tapşırığı:

Wählen Sie die Reihe der Sätze im Perfekt aus.
1. Hast du deinem Freund zum Weihnachten gratuliert?
2. Er hatte eine Postkarte bekommen.
3. Ich werde ihm telefonieren.
4. Er hat sich sehr gefreut.
5. Ich habe ihm ein Telegramm geschickt.

A) 2, 3, 5 B) 1, 4, 5 C) 2, 4, 5 D) 1, 2, 3 E) 1, 3, 4

Bu test tapşırığında keçmiş zamanda (*Perfekt zaman formasında*) verilmiş cümlələrin tapılması tələb olunurdu. Bakalavrların 74.47%-i B bəndini seçməklə tapşırığa doğru cavab vermişdir.

2-ci cəhd üzrə Azərbaycan bölməsi A variantı 7 saylı (C variantı 9) test tapşırığı:

Wählen Sie die richtigen Rektionen der Verben aus.
1. Während des Unterrichts konzentrierten sich die Kinder auf die Übungen.
2. Seit drei Tagen bereiteten sich die Studenten um die Prüfungen vor.
3. Ich habe gehört, dass der Wissenschaftler von dem Honorar verzichtet hat.
4. Der Rabe auf dem Zweig des Baumes glaubte an die Worte des Fuchses.
5. Obwohl der Lehrer von der Ehrlichkeit des Schülers zweifelte, sagte ihm nichts.

A) 1, 4 B) 3, 5 D) 2, 5 E) 1, 3 C) 2, 4

Bu test tapşırığında verilmiş cümlələrdə feillərin tələb etdiyi sözönülərinin düzgün tapılması tələb olunur. Bakalavrların 9.09%-i A bəndini seçməklə tapşırığa doğru cavab vermişdir. Duzgün cavabı tapmaq üçün feillərin tələb etdiyi sözönülərini bilmək vacibdir. Nəticədən də məlum olur ki, bakalavrların böyük hissəsi cümlələrdəki feillərin tələb etdiyi sözönülərini düzgün təyin edə bilmədikləri üçün səhv cavab vermişdir.

2-ci cəhd üzrə Azərbaycan bölməsi A variantı 8 saylı (D variantı 10 saylı) test tapşırığı:

Ergänzen Sie den Satz.

Mein jüngster Sohn will die Fremdsprachenuniversität beziehen, … .

A) darum seines Vaters ist das der Wunsch
B) da das ist sein großer Wunsch
C) weil das sein großer Wunsch ist
D) deshalb ich habe ihm empfohlen
E) denn das ein großer Wunsch ist

Bu test tapşırığında verilmiş cümlənin düzgün tamamlanması üçün doğru bəndin seçilməsi tələb olunur. Bakalavrların 74.47%-i C bəndini seçməklə tapşırığa düzgün cavab vermişdir. Cavablandırılma göstəricilərindən də görünür ki, doğru cavab verənlər həm qrammatik qaydanı, həm də cümlənin məntiqi ardıcıllığını düzgün təyin edə biliblər.

2-ci cəhd üzrə Azərbaycan bölməsi A variantı 9 saylı (B variantı 11, C variantı 8 və D variantı 7) test tapşırığı:

9. Wählen Sie die Reihe der Antonyme aus.

1. morgen - früh
2. selten - oft
3. unrein - schmutzig
4. früh - jetzt
5. spät - früh
6. damals - früher
7. hier – da
8. schön - hässlich

A) 2, 4, 6 B) 2, 5, 8 C) 1, 5,7 D) 1, 3, 4 E) 3, 6, 8

Bu test tapşırığında verilmiş antonimlərin düzgün təyin olunması tələb olunur. Bakalavrların 79.55%-i B bəndini seçməklə tapşırığı düzgün cavablandırıb. Nəticələrdən də göründüyü kimi, bakalavrlar antonimləri düzgün təyin edə biliblər.

2-ci cəhd üzrə Azərbaycan bölməsi A variantı 14 saylı (B variantı 14, C variantı 7 və D variantı 14 saylı) test tapşırığı:

Bilden Sie einen Text.

1. Die Geschichte ist interessant.
2. Alle hören aufmerksam zu.
3. Klaus zeichnet und Dirk liest eine Geschichte vor.
4. Die Familie sitzt im Zimmer eine Bluse.
5. Die Mutter stopft Strümpfe, die Tochter näht

A) 4, 2, 1, 3, 5 B) 5, 3, 4, 1, 2 C) 3, 1, 5, 4, 2
D) 3, 4, 2, 5, 1 E) 4, 5, 3, 1, 2

Bu test tapşırığında verilmiş cümlələrdən mətn qurulması tələb olunur. Bakalavrların 77.78%-i E bəndini seçməklə tapşırığa düzgün cavab verib. Tapşırığın əsas şərti məntiqi ardıcıllığı təyin etməklə mətnin qurulmasıdır. Mətndə söhbət ailə üzvlərinin evdə hansı işlə məşğul olmalarından gedir. Dördüncü cümlənin *Familie* sözü ilə başlaması mətnin qurulmasında bakalavrlara kömək olmuşdur.

Oxu mətni blokuna dair 2-ci cəhd üzrə bakalavrlar tərəfindən cavablandırılmış bir neçə test tapşırığına nəzər salaq:

2-ci cəhd üzrə Azərbaycan bölməsi A variantı 19 saylı (B variantı 19) test tapşırığı:

Antworten Sie auf die Frage.

Wie bezahlen junge Leute für ihr neues Zuhause in Hamburg seit diesem Herbst?

A) Die jungen Leute bezahlen nicht mehr mit Geld, sondern mit Hilfsarbeiten.
B) Die jungen Leute arbeiten eine halbe Stunde für jeden Quadratmeter des Zimmers.
C) Die jungen Leute sorgen für die Haustiere der Vermieter oder der Vermieterinnen.
D) Die jungen Leute bezahlen für ihr neues Zuhause sowohl mit Geld, als auch mit Hilfsarbeiten.
E) Die jungen Leute machen Einkäufe und übernehmen Krankenpflege

Oxu mətninə əsasən oxuyub-anlama qabiliyyətinin yoxlanılması üçün nəzərdə tutulan test tapşırığına tələbələrin 17.78%-i A bəndini seçməklə doğru cavab verib. Faiz nisbəti onu göstərir ki, tələbələrin çoxu bu sualın cavabını düzgün müəyyən edə bilməyib. Sual*: Bu payızdan etibarən Hamburqda cavanlar öz yeni evləri üçün necə ödəniş edəcəklər? –* Cavab A bəndidir. *– Gənclər kirayə haqqını daha pulla yox, ev işlərinə kömək etməklə ödəyəcəklər.* Bakalavrlar mürəkkəb bağlayıcıların mənalarını qarışıq saldıqları üçün bu suala doğru cavab verməkdə çətinlik çəkiblər.

2-ci cəhd üzrə A variantı 23 saylı test tapşırığı:

Wählen Sie die richtigen Negationen aus.
1. Es kostet niemanden, weil man nur drei Leute und einen Gummi braucht.
2. Heute wird es nicht mehr so oft Gummitwist gespielt.
3. Für Gummitwist braucht man keinen Ball.
4. Außerhalb von Deutschland kennt Gummitwist nichts.
5. Keine Erwachsene spielen nicht Gummitwist.

Açıq formalı bu test tapşırığına bakalavrların 8.51%-i 2-ci və 3-cü cavabları seçməklə düzgün cavab vermişdir. Bu test tapşırığında inkarlıq cümlələrini düzgün təyin etmək tələb olunur. Doğru cavablardan başqa, digər cavablarda inkarlıq sözləri işlədilsə də, düzgün şəkildə yazılmadığı üçün səhv cavablar hesab olunur.

2-ci cəhd ürzə dinləmə bloku Azərbaycan bölməsi B variantı 3 saylı (A variantı 3) test tapşırığı:

Welche Frage beantwortet der Dialog?
A) Wieviel bezahlen aserbaidschanische Studenten für das Studium in Deutschland?
B) Seit wann haben aserbaidschanische Studenten Chance in Deutschland zu studieren?
C) Wie lange können aserbaidschanische Studenten in Deutschland studieren?
D) Wo haben aserbaidschanische Studenten ihr Praktikum?
E) Welche Unterschiede gibt es zwischen dem Studium in Deutschland und in Aserbaidschan?

Bu test tapşırığını bakalavrların 73.33%-i düzgün cavablandırıb. Tapşırığın şərtində dinləmə mətninin hansı suala cavab verdiyi soruşulur. Doğru cavab E bəndidir. *Almaniya və Azərbaycanın təhsil sistemi arasında hansı fərqlər var?* Dialoqun içərisində bu tip sual səsləndiyi üçün bakalavrlar doğru cavab kimi E bəndini seçmişlər.

2-ci cəhd üzrə B variantı 23 saylı (A variantı 22, C variantı 22, D variantı 21) test tapşırığı:

Wählen Sie die Synonyme zum unterstrichenen Gedanken aus.
Pro Woche musst du <u>wenigstens</u> 7 Stunden trainieren
1.7 Stunden oder weniger 2. Weniger als 7 Stunden 3. Mindestens 7 Stunden
4. Genau 7 Stunden 5. 7 Stunden oder mehr

Açıq tipli test tapşırığına bakalavrların 8.89%-i 3-cü və 5-ci cavabları seçməklə düzgün cavab vermişdir. Cümlə bakalavrlar tərəfindən anlaşılmadığı üçün doğru cavab aşağı faizlə seçilmişdir. *Wenigstens – yəni ən azı* 7 saat məşq etməlisən. *Wenigstens* – sözünə sinonim kimi *weniger* seçmiş ola bilərlər. Əslində, *weniger* bu cümlədə sinonim deyil, yəni "daha az" mənasında verilib və bu da bakalavrların yanlış cavab seçməsinə səbəb ola bilər.

2-ci cəhd üzrə B variantı 25 saylı (A və D variantları 25) test tapşırığı:

Ordnen Sie zu.
1. woran
2. wofür
3. worauf
a. … wist du mich überzeugen?
b. Sagen Sie, ... ich achten soll.
c. … interessiert sich deine Tochter?
d. Sag mir, ... ich dich erkennen kann.
e. Kannst du mir sagen, ... ihr gesprochen habt?

Açıq tipli bu test tapşırığına bakalavrların 6.67%-i 1-d, 2-c və 3-b cavablarını verməklə düzgün cavablandırmağa müvəffəq olmuşdur. Bu test tapşırığında verilmiş sual sözlərinə uyğun sual cümlələri təyin olunmalıdır. Bunun üçün feillərin tələb etdiyi sözönülərini düzgün bilmək tələb olunur. Sözönülərini düzgün bildikdə sual cümləsinə uyğun gələn sual sözünü təyin etmək mümkündür.

2-ci cəhd ürzə dinləmə bloku C variantı 1 saylı (B variantı 1, C variantı 1saylı) test tapşırığı:

Ergänzen Sie den Satz.
Nicht alle haben Glück, … .
A) in ihrem Land Deutsch zu lernen
B) in Deutschland zu studieren
C) gründliche Ausbildung zu erhalten
D) an der Technischen Universität zu studieren
E) nach München zu fahren

Bu test tapşırığını bakalavrların 81.82%-i D bəndini seçməklə düzgün cavablandırmışdır. Tapşırığın şərtinə görə, dinləmə mətninə əsasən verilmiş cümlənin düzgün tamamlanması tələb olunur. *Hamının .... bəxti gətirmir. Doğru cavab D bəndidir. "Hamının Almaniyada təhsil almaq üçün bəxti gətirmir*."

2-ci cəhd üzrə Azərbaycan bölməsi C variantı 10 saylı test tapşırığı (A variantı 10, D variantı 9 saylı)

Welche Variante entspricht dem Inhalt des Textes ***nicht***?
Es lebte ein Schmiede im fernen Kaukasus. Er hatte einen Sohn, der sehr faul war. Der Sohn war schon 20 Jahre alt, hatte aber noch nie eine Kopeke verdient. Er war gesund und kräftig, hatte aber nur Gedanken: Trinken, Essen, Faulenzen. So lebte er von dem Geld des Vaters
A) Der Schmiede lebte im fernen Kaukasus.
B) Der Sohn war schon zwanzig Jahre alt.
C) Der Sohn verdiente viel Geld und half dem Vater.
D) Der Sohn war gesund und kräftig.
E) Der Schmiede hatte einen faulen Sohn.

Bakalavrların asanlıqla cavablandırdığı bu test tapşırığında mətnin məzmununa uyğun gəlməyən cavabın seçilməsi tələb olunur. Bu test tapşırığına bakalavrların 81.48%-i doğru cavab vermişdir. Faiz dərəcəsinin yüksək olması onu göstərir ki, bakalavrlar mətni düzgün başa düşdükləri üçün doğru cavabı asanlıqla təyin edə biliblər. Düzgün cavab C bəndidir, yəni *oğul çox pul qazanırdı və atasına kömək edirdi.*

2-ci cəhd üzrə Azərbaycan bölməsi D variantı 19 saylı (A variantı 20) test tapşırığı:

Ergänzen Sie den Satz.
In Hamburg gibt es Vermieter und Vermieterinnen, … .
A) die von den Mietern und den Mieterinnen sowohl Geld, als auch Arbeit fordern
B) die ein Zimmer gegen Hilfe anbieten
C) die für jeden Quadratmeter des Zimmers monatlich zwei Stunden Arbeit fordern
D) deren Mieter und Mieterinnen Krankenpflege übernehmen müssen
E) deren Mieter und Mieterinnen allerlei Arbeiten bedingungslos übernehmen

Oxu mətninə əsasən oxuyub-anlama qabiliyyətinin yoxlanılması üçün nəzərdə tutulan növbəti test tapşırığını bakalavrların 17.02%-i B bəndini seçməklə düzgün cavablandırıblar. Faiz nisbəti onu göstərir ki, bakalavrların az hissəsi bu sualın cavabını düzgün müəyyən edə biliblər. Tapşırğın şərtinə görə, verilmiş cümlə düzgün tamamlanmalıdır. Düzgün cavab B bəndidir. *In Hamburg gibt es Vermieter und Vermieterinnen, die ein Zimmer gegen Hilfe anbieten – Hamburqda ev işlərinə kömək müqabilində otaq kirayə verən şəxslər var*. B variantındakı *gegen* sözünün işlənməsi ilə bakalavrlar doğru cavab seçilməsində çətinlik çəkmişlər. ***Gegen – əksinə, əleyhinə*** mənalarında işlənməsinə baxmayaraq, bu cümlədə "*kömək qarşılığında*"mənasında işlənmişdir.

2021-ci ilin fevral ayında magistraturaya qəbul imtahanı vermiş və xarici dil kimi **fransız dilini** seçmiş bakalavrların sayı 396 nəfərdir. Onlardan 384 nəfər Azərbaycan bölməsində, 12 nəfər isə rus bölməsində imtahan vermişlər. Bakalavrların mətn əsasında tərtib edilmiş beş tapşırıqdan ibarət oxuyub-anlama blokuna cavabları qənaətbəxş, yəni orta hesabla 41.21% olmuşdur.

Ümumi nəticəyə nəzər salsaq, dinləyib-anlama ilə bağlı olan test tapşırıqlarının statistik nəticələri qənaətbəxş hesab edilə bilər. Çünki imtahanda iştirak edən bakalavrların 38.59%-i dinləmə blokuna aid test tapşırıqlarının öhdəsindən lazımınca gəlmişdir.

Test tapşırıqlarının çətinlik dərəcəsi, qabiliyyət göstəriciləri baxımından təhlili və statistik göstəricilərinə əsaslanaraq demək olar ki, bakalavrların fransız dili üzrə nəticələri ümumilikdə qənaətbəxşdir. Fransız dili üzrə test blokundakı tapşırıqların düzgün cavablandırılma faizi orta hesabla 36.87% olmuşdur.

2021-ci ilin may ayında imtahan vermiş və xarici dil kimi **fransız dilini** seçmiş bakalavrların sayı 315 nəfərdir. Bunlardan 306 nəfər Azərbaycan bölməsində, 9 nəfər isə rus bölməsində imtahan vermişlər. Bakalavrların mətn əsasında tərtib edilmiş beş tapşırıqdan ibarət oxuyub-anlama blokuna cavabları qənaətbəxş, yəni orta hesabla 36.89% olmuşdur.

Test tapşırıqlarının çətinlik dərəcəsi, qabiliyyət göstəriciləri baxımından təhlili və statistik göstəricilərinə əsaslanaraq demək olar ki, bakalavrların fransız dili üzrə nəticələri ümumilikdə qənaətbəxşdir. Fransız dili üzrə test blokundakı bütün tapşırıqların düzgün cavablandırılma faizi orta hesabla 46.56% olmuşdur.

Ənənəyə uyğun olaraq, hər il imtahan zamanı bakalavrlar tərəfindən yerinə yetirilən test tapşırıqlarının nəticələri mütəxəssislərin iştirakı ilə təhlil edilir, zəif tərəflər və çatışmazlıqlar üzə çıxarılır. Ötən illərdə olduğu kimi, 2021-ci ildə də bakalavrların imtahan zamanı nümayiş etdirdikləri bilik və bacarıqlarının, göstərdikləri nəticələrin heç də ürəkaçan olmaması məlum olmuşdur. Əldə edilən nəticələrin bu formada paylanması, zənnimizcə, müəyyən səbəblərdən qaynaqlanır. Bu təhlilimizdə həmin səbəblərin nədən irəli gəldiyini üzə çıxarmağa və təhlil etməyə cəhd edəcəyik. Beləliklə, xarici dili lazımınca mənimsəməyən, kifayət qədər qrammatik və leksik bilik və vərdişlər əldə edə bilməyən bakalavrlar onlara təqdim edilən test tapşırıqlarını yerinə yetirərkən yanlışlıqlara yol verir, bir sıra hallarda zəif nəticələr nümayiş etdirirlər. Əlbəttə, imtahanda bakalavrların müəyyən bir hissəsinin zəif nəticə göstərməsinin bir sıra məntiqi və subyektiv səbəbləri var. Belə səbəblər sırasında aşağıdakıları göstərməyi zəruri hesab edirik:

– bakalavrların bir qismi universitet təhsili zamanı ikinci xarici dil kimi təqdim edilən dillərə o qədər də əhəmiyyət vermir, nəticədə, imtahana hazırlaşarkən vaxtın az olmasını əsas gətirərək qəbul imtahanında lazımi bilik və bacarıqlar nümayiş etdirə bilmirlər. Bakalavrların böyük bir qismi universitetin son kursunda magistr dərəcəsinə yiyələnmək qərarına gəlirlər və hazırlıq prosesinə gec start verirlər və buna görə də onların müəyyən bir hissəsi zəif nəticələr nümayiş etdirirlər;
– bir çox hallarda bakalavr diqqətini cəmləşdirməkdə çətinlik çəkir, lazımi qədər diqqətli ola bilmir, test tapşırıqlarının icrasına qoyulmuş şərtləri dəqiqliklə başa düşmür, belə situasiyalarda isə nəticə qənaətbəxş olmur. Belə hallar əsasən, seçim və uyğunluq formalı test tapşırıqlarında doğru cavabları sona qədər araşdırmadıqda baş verir;
– məlumdur ki, ana dili ilə tədris olunan xarici dilin strukturunda müəyyən uyğunsuzluqlar olur və bu halın özü də iddiaçıların düşünmə və nəticə çıxarma faizlərinə mənfi təsir göstərir. Belə ki, müqayisə və ümumiləşdirmə tipli test tapşırıqlarının yerinə yetirilməsi zamanı ana dili ilə müqayisədə fransız dilində cümlədə söz sırasının və cümlə strukturunun fərqli olması bakalavrların imtahan nəticəsinə öz təsirini göstərir;
– imtahan üçün ayrılmış müddətdən düzgün istifadə olunmaması və sonra test tapşırıqlarının tələsik yerinə yetirilməsi amilləri də, təbii ki, yüksək nəticə göstərməyə mane olur və s.

2021-ci ildə keçirilmiş imtahan nəticələrini təhlil edərkən məlum olur ki, bakalavrların müəyyən qismi oxuyub-anlama mətni əsasında tərtib olunmuş test tapşırıqlarını cavablandırarkən yüksək nəticə əldə edə bilməmişdir və bu hal, şübhəsiz, təəssüf doğurur.

Magistraturaya qəbul imtahanında bakalavrların xarici dillər üzrə dinləyib-anlama bacarıqlarını yoxlamaq üçün istifadə olunan mətn əsasında hazırlanmış test tapşırıqları onların bu istiqamətdəki bacarıqlarını qiymətləndirməkdə əhəmiyyətli rol oynayır. Bakalavrlara mətn və mətnlə bağlı olan beş test tapşırığı təqdim olunmuşdur. Tapşırıqlar mətnin məzmun və ideyası ilə bağlıdır. Bununla yanaşı, cümlə tamamlama, doğru fikrin seçilməsi kimi tapşırıqlar da mətnlə əlaqələndirilmişdir. Artıq üçüncü ildir ki, tətbiq olunan dinləyib-anlama üzrə test tapşırıqlarının statistik nəticələri qənaətbəxş hesab edilə bilər. Demək olar ki, bakalavrlar öz üzərində işləyə bilmiş və sonda müvafiq olaraq nəticə müsbət olmuşdur. Ümumi nəticəyə nəzər salsaq, dinləyib-anlama ilə bağlı olan test tapşırıqlarının statistik göstəriciləri qənaətbəxş hesab edilə bilər. Bakalavrların 49.97%-i dinləmə blokuna aid test tapşırıqlarının öhdəsindən lazımınca gəlmişdir. Bununla belə, bakalavrlar bir sıra test tapşırıqlarını cavablandırarkən yanlışlığa yol vermiş və tələb olunan düzgün cavabı tapmaqda çətinlik çəkmişlər. Bu tip test tapşırıqlarından bir neçəsinə nəzər yetirək:

1-ci cəhd, A variantı, 5 saylı test tapşırığı.

Quelle est l'opinion de Pierre sur les polars?

A) Les polars sont des genres exceptionnels.
B) Beaucoup de personnes dédaignent ce genre.
C) Ce genre à la littérature est démodé.
D) Ils aident à comprendre les émotions des autres gens.
E) Ils aident à comprendre les écrivains.

Bu, dinləyib-anlama blokuna aid test tapşırığıdır və bakalavrların verdiyi cavablar bəndlər üzrə aşağıdakı kimi olmuşdur: A bəndi 28.8%, B bəndi 34.0%, C bəndi 13.3%, D bəndi 15.4%, E bəndi isə 8.25%. Göründüyü kimi, D bəndinin faiz göstəricisi, digər bəndlərin faiz göstəriciləri ilə uyğun gəlmir və iddiaçılar daha çox B bəndini seçmişlər. Buradan belə bir nəticəyə gəlmək olur ki, iddiaçıların böyük hissəsi ümumi biliklərinə istinad edərək cavab seçmiş, dinləyib-anlama mətnini düzgün başa düşməmişlər. Düzgün cavab D bəndi (**15.4%)** olduğu halda, faiz etibarilə B bəndini daha çox bakalavr seçmişdir. Test tapşırığının şərtinə əsasən, bakalavrlar dinlədikləri mətnə uyğun düzgün cavabı seçməli idilər, amma bu belə olmamışdır və bunu onunla əlaqələndiririk ki, cavab yalnız cavab vermək xatirinə seçilmişdir. Digər variantlarda bakalavrların düzgün cavabının faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur: B – 11.46%, C – 22.92%, D – 14.74%.

1-ci cəhd, A variantı, 9 saylı test tapşırığı.

Formez un texte.

1. Il a ouvert le frigo.
2. Antoine avait faim.
3. Et il a préparé son repas.
4. Alors, il est revenu chez lui.
5. Il était trois heures de l'après-midi.
6. Il a mangé une salade de tomates et des saucisses.
7. Puis il a pris un café.

A) 5, 2, 4, 1, 3, 6, 7 B) 6, 1, 7, 5, 3, 2, 4 C) 7, 6, 4, 3, 2, 1, 5
D) 4, 7, 5, 6, 3, 1, 2 E) 1, 2, 6, 5, 3, 7, 4

Mətn düzəltmə blokundan olan bu test tapşırığı bakalavrdan daha çox leksik bilik və vərdişlər tələb edir. Mətn elementlərinin xronoloji olaraq sıralanmasını yaxşı mənimsəyən iddiaçı bu test tapşırığını doğru cavablandırmaqda çətinlik çəkməməlidir; düzgün cavabın yuxarı faizi bunu deməyə əsas verir. Cavab bəndləri üzrə faizlər belə paylanmışdır: **A – 72.1%** (doğru cavab), B – 5.15%, C – 9.28%, D – 3.09% və E – 10.3%. Əslində, bu tip test tapşırıqlarını icra etməkdə iddiaçılar o qədər də çətinlik çəkmirlər, çünki sualın çətinlik dərəcəsi aşağı səviyyədədir. Bir məqamı qeyd etmək lazımdır ki, test tapşırığının leksik yükü o qədər mürəkkəb deyil və bakalavrların cavabları da bunu əyani şəkildə nümayiş etdirir. Digər variantlarda bakalavrların düzgün cavabının faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur: B – 56.25%, C – 56.25%, D – 66.32%

1-ci cəhd, A variantı, 11 nömrəli test tapşırığı.

Complétez.

Le vent ... . Il y a des nuages: la pluie n'est pas loin; il y aura peut-être … avant la nuit.

A) devient très froid, une journée très chaude
B) se lève, un orage
C) souffle sans arrêt, une belle journée
D) devient de plus en plus fort, une journée formidable
E) souffle très fort, une journée tranquille

Cümlə tamamlama blokuna aid olan bu test tapşırığında verilmiş cümlədəki boşluqları tamamlamaq tələb olunur. Bakalavrların **14.4%-i** B bəndini seçməklə onu düzgün cavablandırmış, digər bəndlər üzrə faiz bölgüsü belə olmuşdur: A – 25.7%, C – 12.3%, D – 29.9% və E – 16.4%. Bu test tapşırığını düzgün cavablandırmaq üçün kifayət qədər leksik bazaya sahib olmaq tələb olunur. Belə ki, bu məqamda söz ehtiyatının zənginliyi birmənalı olaraq köməyə gəlir. Test tapşırığında bəzi variantlardakı faiz yaxınlığı testin mürəkkəblik dərəcəsinin yetərli olduğundan xəbər verir. Düzgün cavab faizinin az olmasından çıxış edərək belə qənaətə gəlmək olar ki, bakalavrların leksik biliklərinin kifayət qədər olmaması düzgün cavab seçməyə mane olur. Digər variantlarda bakalavrların düzgün cavabının faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur: B – 15.63%, C – 15.63%, D – 15.79%.

1-ci cəhd, A variantı, 14 saylı test tapşırığı.

Choisissez la proposition à la forme négative.
A) Ma sœur ne joue qu'avec la poupée. B) Il n'a fait que deux exercices.
C) Elle ne va plus au jardin d'enfants. D) Mon ami a peur qu'il ne vienne.
E) Les élèves écrivent la dictée.

İnkar cümlələri bölməsinə aid olan bu test tapşırığında bakalavrlardan düzgün cavabı tapması tələb olunur. Əlbəttə, qrammatik bilik və vərdişlərə malik olan iddiaçı bu tip testləri asanlıqla cavablandıra bilər. Cavab variantları belə paylanmışdır: A – 9.28%, B – 11.03, C – **63.9%** (doğru cavab), D – 12.3% və E – 2.06%. Əslində, test tapşırığı elə də çətin deyil və bunu cavab variantının yüksək faizi əyani şəkildə göstərir. A, B, D variantlarında cavab faizləri demək olar ki, biri-birinə yaxındır və bu hal testin çətinlik dərəcəsinin aşağı səviyyəsini nümayiş etdirir. Digər variantlarda bakalavrların düzgün cavabının faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur : B – 66.67%, C – 72.92%, D – 61.05%.

1-ci cəhd, A variantı, 22 saylı test tapşırığı.

Choisissez les variantes correctes.
Elle a acheté un très beau manteau ... .
1. qui lui va très bien 2. en coton 3. en plastique
4. en laine 5. en bois 6. qui lui a coûté très cher

Bu açıq tipli test tapşırığı imtahanın nəticələrinə görə çətin test hesab edilmişdir (bakalavrların cəmi 10.3%-i onu doğru cavablandırmışdır). Əslində, bu tapşırıq elə də çətin deyil və leksik savad tələb etməklə bakalavrdan variantları diqqətlə oxuyub cavablandırmaq tələb olunur.

Cavab variantları belə paylanmışdır: A – **10.03**% (doğru cavab), B – 77.3 (yanlış cavab). Aydın məsələdir ki, məhdud söz ehtiyatına malik olan bakalavrlar bu tapşırığa düzgün cavab seçə bilməzlər. Tapşırığın şərtinə əsasən verilmiş cümləyə uyğun gələn mümkün variantları seçmək tələb olunur.

Cavab variantlarına fikir verdikdə məlum olur ki, düzgün cavablar 1, 2, 4, və 6-cı bəndlərdir, digərləri isə qətiyyən uyğun deyildir. Məlumdur ki, plastikdən və ağacdan palto ola bilməz, halbuki yaxşı yaraşan, yun, pambıq və çox baha qiymətə paltonun olması tam təbiidir. Deməli, bakalavrların əksəriyyəti zəngin söz ehtiyatının olmaması səbəbindən bu tapşırığı düzgün cavablandıra bilməmişdir. Digər variantlarda bakalavrların düzgün cavabının faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur: B – 6.25%, C – 8.33%, D – 11.58%.

1-ci cəhd, A variantı, 23 saylı test tapşırığı

Choisissez les phrases avec la préposition «en».
1. Son fils est bon en mathématiques.
2. La sportive s'alimente de plusieurs repas riches en protéines et en vitamines.
3. En France, j'ai rencontré mon professeur de philosophie.
4. Ils sont très appliqués et le chef en est content.
5. Les œuvres de l'écrivain ont été publiés en quelques volumes.
6. Nous n'en avons pas beaucoup, dit le soldat.

Bu, açıq tipli test tapşırığıdır və iddiaçıdan hansı bəndlərdə *en* sözönüsü işlənmiş cümlələrin seçilməsi tələb olunur. Bakalavrların çox az bir qismi **(A bəndi – 5. 15%)** düzgün cavabı tapmışdır. Yanlış cavablardan olan B bəndini isə bakalavrların 79.3%-i seçmişdir. Digər variantlar üzrə cavab seçilməmişdir. Verilən cavablardan da göründüyü kimi, qrammatik biliyi yetərli olmayan iddiaçının bu test tapşırığını düzgün qiymətləndirməsi mümkün deyildir. Odur ki, bu tapşırığın statistikaya görə çox çətin hesab edilməsi təəssüf doğurur. Əminliklə demək olar ki, 1, 2, 3 və 5-ci cümlələrdə *en* sözönüdür və müvafiq olaraq isimin qarşısında işlənmişdir və bu *en*-ın qrammatik funksiyasına tam uyğundur. 4 və 6-cı cümlələrdə isə *en* tamamlıq əvəzliyidir. Statistikaya istinad etsək görərik ki, bu cür açıq tipli testlərə düzgün cavab verə bilməyən iddiaçılar bütün seçim variantlarını qiymətləndirmir və bəzən tələskənlikdən variantın birini və ya ikisini seçmirlər. Bu, həm də qrammatikanı zəif bilməklə əlaqəlidir. Digər variantlarda bakalavrların düzgün cavabının faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur: B – 10.42%, C – 9.38%, D – 6.32%

2-ci cəhd, A variantı, 1 saylı test tapşırığı.

Qu'est-ce qu'Adèle va faire pendant les vacances?
A) Adèle va acheter une ferme.
B) Adèle partira avec les enfants à la campagne.
C) Elle voudrait visiter les musées.
D) Adèle va rester en ville.
E) Elle va déménager à la campagne.

Dinləyib-anlama blokuna aid bu test tapşırığına bakalavrların verdiyi cavablar bəndlər üzrə aşağıdakı kimi olmuşdur: A bəndi 7.79%, B bəndi **75.32**% (düzgün cavab), C bəndi 12.99%, D bəndi 1.3%, E bəndi isə 2.60%. B bəndinin faiz göstəricisi, digər bəndlərin faiz göstəricilərindən daha yuxarıdır. Buradan belə bir nəticəyə gəlmək olur ki, iddiaçıların əksəriyyəti cavabı ümumi dil biliklərinə istinad etməklə, dinləyib-anlama mətnini düzgün başa düşərək seçmişlər. Digər variantlarda bakalavrların düzgün cavabının faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur: B – 67.95%, C – 66.67%, D – 65.79%.

2-ci cəhd, A variantı, 13 saylı test tapşırığı.

Choisissez la réponse négative à la question.
Y a-t-il quelque chose sur cette table?
A) Il n'y a rien sous cette table.
B) Il y a beaucoup de choses sur cette table.
C) Il n'y a rien sur cette table.
D) Il n'y a personne près de cette table.
E) Il n'y a que deux livres sur cette table.

Qapalı testlər blokuna aid olan bu test tapşırığı bakalavrdan leksik bilik və vərdişlərlə bərabər qrammatik biliklər də tələb edir. Tapşırığın şərtini düzgün anlayan və inkar bəhsini yaxşı mənimsəyən iddiaçı bu test tapşırığını doğru cavablandırmaqda çətinlik çəkməməlidir. Düzgün cavab faizinın kifayət qədər yüksək olması bunu deməyə əsas verir. Cavab bəndləri üzrə faizlər belə paylanmışdır: A – 2.60%, B – 7.79%, C – **81.82**% (düzgün cavab), D – 5.19% və E – 2.60%. Əslində, bu tip test tapşırıqlarını icra etməkdə iddiaçılar o qədər də çətinlik çəkmirlər, çünki tapşırığın çətinlik dərəcəsi aşağı səviyyədədir. Bakalavrların cavablarından da görünür ki, bu test tapşırığının leksik yükü də o qədər mürəkkəb deyil. Digər variantlarda bakalavrların düzgün cavabının faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur : B – 75.64%, C – 81.33%, D – 77.63%

2-ci cəhd, A variantı, 16 nömrəli test tapşırığı.

Complétez.
John était arrivé en Syrie pour ... .
A) apprendre la langue arabe, se joindre aux caravanes dans le désert
B) se joindre aux caravanes arabes dans le désert, passer quelques années dans la ville de Pétra
C) apprendre la culture orientale, faire connaissance avec les historiens grecs et arabes
D) se joindre à l'armée de Napoléon, passer trois ans dans le désert de la Syrie
E) visiter les lieux antiques, découvrir la ville mystérieuse de Pétra

Oxuyub-anlama blokuna aid olan bu test tapşırığında verilmiş cümlədəki boşluqları mətnə əsasən tamamlamaq tələb olunur. Bakalavrların **11.69%-**i E bəndini seçməklə onu düzgün cavablandırmış, digər bəndlər üzrə faiz nisbəti belə olmuşdur: A – 2.60%, B – 5.19% C – 57.14%, və D – 23.38%. Bu test tapşırığını düzgün cavablandırmaq üçün kifayət qədər leksik bazaya sahib olmaq gərəkdir. Test tapşırığında bəzi variantlardakı faiz yaxınlığı testin mürəkkəblik dərəcəsinin yetərli olduğundan xəbər verir. Bütün variantlarda *apprendre la culture orientale, faire connaissance avec les historiens grecs et arabes* cavabının düzgün cavabdan daha çox seçilməsi göstərir ki, namizədlərin əksəriyyətinin leksik bilikləri mətnin məzmunu anlaması üçün kifayət etməyib, ona görə də uğurlu cavab seçənlərin sayı azdır. Həmçinin mətndə düzgün cavabın olduğu cümlənin qrammatik quruluşunun düzgün aydınlaşdırılması da anlamaya təsir edən faktorlardandır. Digər variantlarda bakalavrların düzgün cavab faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur: B – 15.38%, C – 20%, D – 23.68%

2-ci cəhd, A variantı, 17 saylı test tapşırığı.

Choisissez la bonne réponse.
Comment John avait-il pu surmonter les aventures dangereuses?
A) Grâce à sa connaissance des idées des historiens grecs et arabes.
B) Il connaissait bien la langue arabe et s'était déguisé en marchand indien.
C) Grâce à sa bonne connaissance de la cuisine indienne.
D) Son père était très respecté auprès des Arabes.
E) Il avait des amis arabes et s'adressait souvent à eux.

Oxuyub anlama blokuna aid olan bu test tapşırığında bakalavrlardan düzgün cavabı tapması tələb olunur. Əlbəttə, mətnin məzmunun başa düşən və leksik biliklərə malik olan iddiaçı bu tip testləri asanlıqla cavablandıra bilər. Cavab variantları belə paylanmışdır: A – 18.18%, B – **66.23 (doğru cavab)**, C – 6.49%, D –3.90% və E – 3.90%. Əslində test tapşırığı elə də çətin deyildir və bunu cavab variantının yüksək faizi əyani şəkildə göstərir. C, D, E variantlarında cavab faizləri demək olar ki, biri-birinə yaxındır və bu hal testin çətinlik dərəcəsinin aşağı səviyyəsini nümayiş etdirir. Digər variantlarda bakalavrların düzgün cavab faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur: B – 55.13%, C – 56%, D – 57.89%

2-ci cəhd, A variantı, 23 saylı test tapşırığı.

Choisissez les phrases avec la préposition « *devant* ».
1. Les membres de ce groupe se sont arrêtés devant un bel hôtel.
2. Je me trouve devant ce danger-là.
3. Tu dois nettoyer le devant de ta porte et ton jardin.
4. C'est mon grand-père, il marche devant moi, il est mon idéal.
5. Comment peut-il passer des heures devant cette école?
6. Alors, chers enfants, vous allez marcher devant.

Bu, açıq tipli, seçim formalı test tapşırığı imtahan nəticələrinə görə çətin test hesab edilmişdir. Əslində isə bu test tapşırığı orta səviyyəlidir, leksik və qrammatik biliklərə sahib olan bakalavr ona düzgün cavab verməkimkanına malikdir.

Cavab variantları belə paylanmışdır: A – **5.19**% (doğru cavab), B – 89.61 (yanlış cavab). 5.19 % namizəd isə tapşırığı cavablandırmayıb. Aydın məsələdir ki, məhdud söz ehtiyatına malik olanlar bu tapşırığa düzgün cavab seçə bilməzlər. Tapşırığın şərtinə əsasən, *devant* sözönü verilmiş cümlələri seçmək tələb olunur. Verilmiş cümlələrdə *devant* sözönü kimi işlənməklə bərabər yer zərfi və isim kimi istifadə olunmuşdur. Düzgün cavab 1, 2, 4, 5-dir. 3-cü cümlədə tələb olunan sözün isim, 6-cı cümlədə isə zərf kimi işləndiyini bilən namizəd düzgün cavabı tapmaqda çətinlik çəkməməlidir.

Digər variantlarda bakalavrların düzgün cavab faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur: B – 3.85%, C – 4%, D – 1.32%

2-ci cəhd, A variantı, 25 saylı test tapşırığı

Choisissez les bonnes définitions des mots suivants:
1. bûcheron
2. menuisier
3. vendeur
a. ouvrier qui travaille le bois en planche pour la fabrication de meubles
b. personne qui vend quelque chose
c. personne abattant les arbres
d. personne dont la profession est de vendre
e. artisan qui réalise des ouvrages de bois pour le

Açıq tipli bu test tapşırığında iddiaçıdan verilmiş sözlərin düzgün izahını seçmək tələb olunur. Bakalavrların çox az bir faizi **(6.49%)** düzgün cavabı tapmışdır. Yanlış cavablandıranların sayı 80.52% olmuşdur. Aydındır ki, leksik biliyi yetərli olmayan iddiaçının bu tip tapşırıqları düzgün cavablandırması mümkün deyildir və verilən cavablar bunu sübut edir. Odur ki, bu tapşırığın verilən cavabların statistikasına əsaslanıb çox çətin hesab edilməsi təəssüf doğurur. Düzgün cavab 1 – c; 2 – a, e; 3 – b, d. Statistikaya istinad etsək görərik ki, bu cür açıq tipli testlərdə iddiaçılar bütün bəndləri qiymətləndirmir və bəzən tələskənlikdən variantların birini və ya ikisini seçmirlər. Digər variantlarda isə bakalavrların düzgün cavab faiz nisbəti müvafiq olaraq aşağıdakı kimi olmuşdur : B – 5.13%, C – 5.33%, D – 6.58%

Beləliklə, fransız dili üzrə test tapşırıqlarının təhlilindən sonra aşağıdakı nəticələrə gəlmək olar:
- yanlış cavabları seçən bakalavrların əksər hissəsinin leksik-qrammatik bilikləri və təhliletmə səriştələri yetərli deyildir;
- əksər hallarda söz ehtiyatının zəif olması və məntiqi nəticə çıxarmaq bacarığının aşağı səviyyədə olması test tapşırıqlarını düzgün cavablandırmağa imkan vermir;
- istənilən xarici dili öyrənərkən ana dili ilə fərqli və oxşar olan məqamları diqqət mərkəzində saxlamaq, onları qarışdırmamaq tələb olunur;
- test tapşırıqları yetərincə təhlil edilmir, tələskənliyə yol verilir;
- test tapşırıqlarına ayrılan vaxt düzgün bölünmür və s.

İnformatika üzrə bilikləri yoxlayan test tapşırıqlarına verilən cavabların elmi-metodiki təhlili və tövsiyələr

2021-ci ildə magistratura səviyyəsinə qəbul imtahanının hər 2 cəhdində informatika üzrə istifadə olunmuş test tapşırıqları bu fənnə aid qəbul proqramında nəzərdə tutulan bütün mövzuları əhatə etmişdir. Bu imtahanlarda informatika fənni üzrə istifadə olunan 20 test tapşırığı qapalı, 5 test tapşırığı isə 2-si hesablama, 2-si seçim, 1-i uyğunluq formalı olmaqla açıq tipli olmuşdur.

Qeyd edək ki, I cəhddə informatika fənni üzrə test tapşırıqlarının düzgün cavablandırılma göstəricilərinə görə Azərbaycan bölməsində bakalavrlar 3 tapşırığa asanlıqla, 16 tapşırığa orta səviyyədə cavab vermiş, 6 tapşırığı yalnız yüksək hazırlıqlı bakalavrlar cavablandırmışlar. Rus bölməsində isə bakalavrlar 2 tapşırığa asanlıqla, 16 tapşırığa orta səviyyədə cavab vermiş, 7 tapşırığı isə yalnız yüksək hazırlığı olanlar cavablandırmışlar. II cəhddə isə informatika fənni üzrə test tapşırıqlarının düzgün cavablandırılma göstəricilərinə görə, Azərbaycan bölməsində bakalavrlar 3 tapşırığa asanlıqla, 19 tapşırığa orta səviyyədə cavab vermiş, 3 tapşırığı yalnız yüksək hazırlıqlı bakalavrlar cavablandırmışlar. Rus bölməsində isə bakalavrlar 2 tapşırığa asanlıqla, 19 tapşırığa orta səviyyədə cavab vermiş, 4 tapşırığı isə yalnız yüksək hazırlığı olanlar cavablandırmışlar.

Aşağıdakı cədvəldə 2021-ci ildə qəbul imtahanının hər 2 cəhdində bakalavrların informatika fənnini bilmə səviyyəsini müəyyən edən test tapşırıqlarının düzgün cavablandırılma faizləri (ortastatistik göstəricilər) verilmişdir:

	Bölmə	Bakalavr-ların sayı	Qapalı tipli sualların düzgün cavablandırılma faizi	Açıq tipli sualların düzgün cavablandırılma faizi	Qapalı və açıq tipli sualların (birlikdə) düzgün cavablandırılma faizi
I cəhd	**Azərbaycan**	17899	40.15	16.89	35.50
	Rus	1719	37.76	13.61	32.93
	Ümumi	19618	39.94	16.60	35.28
II cəhd	**Azərbaycan**	13319	52.12	28.41	47.38
	Rus	1105	46.56	25.81	42.41
	Ümumi	14424	51.69	28.21	47.00

Test tapşırıqlarının çətinlik dərəcəsi, qabiliyyət göstəriciləri baxımından təhlilinə və ortastatistik göstəricilərinə əsaslanaraq demək olar ki, bakalavrların informatika üzrə nəticələri ümumilikdə qənaətbəxş hesab oluna bilər.

Statistik nəticələr göstərir ki, bakalavrların əksər hissəsi magistratura səviyyəsinə qəbul imtahanının hər 2 cəhdində "Elektron hesablama maşınları (EHM). EHM-in təsnifatı. Fərdi kompüterlərin təsnifatı.", "Fərdi kompüterlərin əsas qurğuları. Daxil və xarici yaddaş qurğuları. Periferiya qurğuları.", "Sistem proqram təminatı. Tətbiqi proqram təminatı. İnstrumental proqram təminatı", "Əməliyyat sistemlərinin təsnifatı. Faylların əsas xarakteristikaları. Fayl sistemləri", "Microsoft Windows 10 əməliyyat sistemi" və digər mövzulara aid tapşırıqlara daha yaxşı cavab vermişlər.

İndi isə imtahanın I cəhdində istifadə edilmiş bir neçə test tapşırığına və onların cavablandırılmasının statistik göstəricilərinə nəzər salaq.

A variantı, 27 saylı test tapşırığı.

Rastr qrafik faylın çevrilməsində yalnız rəng palitrası dəyişdirilmişdir. Nəticədə, faylın həcmi 1,5 dəfə azalmışdır. Əgər çevrilmədən sonra 256 rəng çalarlı təsvir alınmışdırsa, çevrilməyə qədər neçə rəng çalarından istifadə olunmuşdur?

A) 384 (35.23%) B) 4096 (**22.58%)** C) 2048 (20.90%) D) 12 (8.88%) E) 3072 (9.14%)

Bu test tapşırığı "Qrafik verilənlərin kodlaşdırılması" mövzusuna aiddir. Faylın həcminin hesablanması düsturunu V=A x B x C (burada, A x B – ekranın icazə verilən xüsusiyyəti, C – hər bir pikselin rəngi haqqında informasiyanı yadda saxlamaq üçün tələb olunan bit sayıdır) şəklində versək, həcmlə hər bir pikselin rəngi haqqında informasiyanı yadda saxlamaq üçün tələb olunan bit sayı arasında düz mütənasib asılılığın olduğunu görərik. $C=\log_2 X$ (burada, X – təsvirdəki rəng çalarlarının sayıdır) olduğunu nəzərə alsaq, tapşırığın düzgün cavabının B bəndi olduğunu görərik. Bakalavrların 35.23%-nin A distraktorunu seçməsi onların sonuncu düsturu tətbiq etmədən birbaşa 256-nı 1,5-ə vurmaqla tapşırığı həll etdiklərini göstərir.

B variantı, 30 saylı test tapşırığı.

Seçilmiş faylın bir diskdən digər diskə Drag and Drop texnologiyasının köməyilə yerdəyişməsi üçün klaviaturanın hansı düyməsi basılı saxlanmalıdır (Windows 10)?

A) Alt (12.60%) B) Esc (4.89%) C) Ctrl (47.62%)
D) Shift (**20.28%**) E) Tab (12.98%)

Bu test tapşırığı "Windows 10" mövzusuna aiddir. Seçilmiş faylın bir diskdən digər diskə Drag and Drop texnologiyasının köməyi ilə yerdəyişməsini klaviaturanın *Shift* düyməsini basaraq siçanla sürükləməklə həyata keçirmək olar. İşçi sahəsində seçilmiş fayl və ya qovluq obyektinin başqa yerə köçürülməsini isə klaviaturanın *Ctrl* düyməsini basaraq siçanla sürükləməklə də həyata keçirmək olar. Bu anlayışların səhv salınması bakalavrların 47.62%-nin C distraktorunu seçməsinə səbəb olmuşdur.

C variantı, 35 saylı test tapşırığı.

"Elektron Hökumət" layihəsinin vətəndaşlar üçün əsas üstünlüklərini seçin:

1. Müasir texnologiyaların geniş tətbiqi ilə dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artması
2. Vətəndaşların dövlət idarəçiliyində fəal iştirak etmələri
3. İnformasiya tələbatının dolğun ödənilməsində rahatlıq
4. Effektiv, şəffaf, nəzarət oluna bilən dövlət idarəetməsinin bərqərar olması
5. Büdcə vəsaitlərinə qənaət edilməsi, dövlət xidmətlərinin göstərilməsi müddəti və xərclərinin azalması
6. Məhdud imkanlı insanların dövlət xidmətlərinə çıxış imkanı əldə etmələri

A) 3, 5, 6 (20.12%) B) 1, 4, 5 (36.26%) C) 2, 5, 6 (11.16%)
D) 1, 2, 4 (14.28%) E) 2, 3, 6 (**16.48%**)

Bu test tapşırığı "Elektron Hökumət" mövzusuna aiddir. Bu test tapşırığında düzgün cavab olan E bəndini bakalavrların 16.48%-i, B distraktorunu 36.26%-i seçmişdir. Lakin nəzərə almaq lazımdır ki, B distraktorundakı variantlar "Elektron Hökumət" layihəsinin hökumət üçün əsas üstünlüklərini özündə ehtiva edir.

D variantı, 32aylı test tapşırığı.

Halqa topologiyasının əsas fərqləndirici xüsusiyyəti hansıdır?

A) iki istiqamətli qapalı rabitə kanalı (22.42%)
B) bir istiqamətli qapalı rabitə kanalı (**27.16%**)
C) mərkəzi serverin olması (11.43%)
D) verilənlərin eyni anda bütün kompüterlərə ötürülməsi (31.50%)
E) abunəçilərin sayının məhdud olması (5.32%)

Bu test tapşırığı "Kompüter şəbəkələri. Lokal şəbəkələrin topologiyaları" mövzusuna aiddir. Halqa topologiyalı şəbəkələrdə verilənlər, bir qayda olaraq, bir istiqamətdə, dairə üzrə bir kompüterdən digərinə ötürülür. Bu test tapşırığında düzgün cavab olan B bəndini bakalavrların 27.16%-i seçmişdir. "Kompüter şəbəkələri" mövzusunu yaxşı mənimsəmələri bakalavrların 31.50%-nin D distraktorunu seçməsinə gətirib çıxarmışdır.

A variantı, 47 saylı test tapşırığı.

Elektron nəşr 128 səhifədən ibarətdir. Hər bir cüt səhifədə ölçüsü 1024x768 piksel olan 48 rəngdən ibarət qrafik təsvir, qalan səhifələrdə isə hər birində 64 sətir və hər sətrində 128 simvol olan Unicode-da kodlaşdırılan mətn yerləşir. Elektron nəşr neçə Mbayt yer tutur?

***Doğru cavab:* 37.**

Bu test tapşırığı "Müxtəlif tip informasiyanın kodlaşdırılması" mövzusuna aiddir. Bu test tapşırığı bakalavrlardan həm qrafik təsvirin, həm də mətnin həcmini hesablamaq bacarığını tələb edir.

İndi isə imtahanın II cəhdində istifadə edilmiş bir neçə test tapşırığına və onların cavablandırılmasının statistik göstəricilərinə nəzər salaq.

A variantı, 44 saylı test tapşırığı.

Aşağıdakı əməliyyatlardan hansılar ilə sətri cədvəldən silmək olar (MS Word 2010)?

1. sətri seçmək və klaviaturanın Delete düyməsini basmaqla
2. sətri seçmək və klaviaturanın Alt+Delete düymələrini basmaqla
3. sətri seçmək və kəsib mübadilə buferinə yerləşdirməklə
4. sətri seçmək və klaviaturanın BackSpace düyməsini basmaqla

A) 1, 3 (17.53%) B) 1, 4 (34.60%) C) 2, 3 (5.87%) D) 1, 2 (13.72%) E) 3, 4 (**27.50%**)

Bu test tapşırığı "Microsoft Word 2010 mətn prosessoru" mövzusuna aiddir. Düzgün cavab olan E bəndini bakalavrların 27.50%-i bakalavr, B distraktorunu 34.60%-i seçmişdir. Klaviaturanın hər iki düyməsi silmək əməliyyatını icra etsə də, cədvəldə *Delete* düyməsini basmaqla cədvəlin seçilmiş məzmunu, *BackSpace* düyməsini basmaqla isə cədvəlin seçilmiş strukturu silinir.

B variantı, 46 saylı test tapşırığı.

Doğru mülahizələri seçin.

1. Kompüterin işləmə sürəti onun yaddaşında saxlanıla bilən informasiyanın maksimum miqdarı ilə təyin olunur.
2. İkinci nəsil kompüterlərin element bazası inteqral sxemlərdir.
3. Kompüter söndürülərkən əməli yaddaşda olan informasiya silinir.
4. Birinci nəsil kompüterlərin element bazası elektron vakuum lampalarıdır.
5. Məhsuldarlıq – prosessorun yerinə yetirə bildiyi əmrlər sistemidir.

Doğru cavab: **3, 4.**

Bu test tapşırığı "Elektron hesablama maşınları (EHM). Fərdi kompüterlər" mövzusuna aiddir. Test tapşırığının faktoloji və açıq tipli olması bakalavrların əksəriyyətinin bu tapşırığı yanlış cavablandırması ilə nəticələnmişdir.

C variantı, 49 saylı test tapşırığı.

İş masasının fon şəklini hansı variantları tətbiq etməklə ekranda yerləşdirmək ***olmur*** (Windows 10)?

1. Center (По центру/Mərkəzə)
2. List (Список/Siyahı)
3. Details (Таблица/Təfərrüatlar)
4. Stretch (По размеру/Uyğunluq)
5. Thumbnails (Эскизы страниц/Eskizlər)
6. Full Screen (Полный экран/Tam ekran)
7. Tile (Замостить/Mozaika)

Doğru cavab: **2, 3, 5, 6.**

Bu test tapşırığı "Windows 10" mövzusuna aiddir. Test tapşırığının açıq tipli və inkar formada olması bakalavrların əksəriyyətinin yanlış cavablandırmasına səbəb olmuşdur. Belə ki, variantlar arasında İş masasının fon şəklini ekranda yerləşdirmək formaları ilə yanaşı, proqram pəncərəsinin iş sahəsində cari qovluğun daxilində mövcud olan fayl və alt qovluq obyektlərinin görünüş vəziyyətləri, həmçinin digər tətbiqi proqramlarda mövcud olan görünüş rejimləri də verilmişdir. Bu isə test tapşırığının şərtini diqqətlə oxumayan bakalavrlar üçün çətinlik yarada bilər.

D variantı, 50 saylı test tapşırığı.

Uyğunluğu müəyyən edin.

1. Müxtəlif topologiyalı, lakin eyni protokola malik lokal şəbəkələri birləşdirir.
2. İşçi stansiyaları yoğun koaksial kabelə qoşur.
3. Çoxportlu olub, şəbəkə abonentlərini birləşdirir.

a. repeater (повторитель/repiter)
b. hub (концентратор/hub)
c. bridge (мост/körpü)
d. transceiver (трансивер/transiver)
e. gateway (шлюз/şlüz)

Doğru cavab: ***1–c; 2–d; 3–b.***

Bu test tapşırıqları "Kompüter şəbəkələri" mövzusuna aiddir. Açıq tipli uyğunluğun müəyyən edilməsi tələb olunan bu tapşırıqda əsas çətinlik bir variant üçün bir neçə bəndin seçilməsinin zəruri olmasıdır. Bunun nəzərə alınmaması isə bəzən bakalavrların səhv etmələrinə gətirib çıxarır.

Açıq tipli test tapşırıqları informatika testləri üzrə beynəlxalq təcrübə nəzərə alınmaqla tərtib edilib, proqram tələblərinə tam cavab verir. Tapşırıqların aid olduğu mövzular DİM-in "İnformatika" vəsaitində və dərsliklərdə kifayət qədər ətraflı izah olunmuşdur. Bəzi tapşırıqların açıq test tapşırığı formasında təqdim olunması bakalavrların biliklərinin daha dəqiq yoxlanılmasına imkan verir.

Yuxarıda təhlil olunan test tapşırıqlarından belə nəticəyə gəlmək olar ki, bakalavrların xeyli hissəsi "Müxtəlif tip informasiyanın kodlaşdırılması", "Microsoft Word 2010 mətn prosessoru", "Kompüter şəbəkələri. Lokal şəbəkələrin topologiyaları", "Elektron Hökumət" bölmələrinə aid tapşırıqlarda çətinlik çəkmişdir. Bu da onu göstərir ki, bakalavrlar bu bölmələri nəzəri cəhətdən yaxşı mənimsəməmiş, praktiki səviyyədə isə kifayət qədər tətbiq etməmişlər.

Qəbul imtahanı göstəricilərinin təhlilindən çıxan əsas nəticə bundan ibarətdir ki, ali təhsilin bakalavriat səviyyəsində informatikanın tədrisi yaxşılaşdırılmalı, müasir dövrün tələblərinə uyğunlaşdırılmalı, eləcə də bu tələblərə cavab verən keyfiyyətli dərslik və dərs vəsaitləri hazırlanmalıdır.

Magistraturaya qəbula hazırlaşanlara metodiki kömək göstərmək məqsədi ilə DİM tərəfindən yenidən nəşr edilən "İnformatika" vəsaiti bu fənn üzrə qəbul proqramına uyğun hazırlanmışdır. Vəsaitdə bütün mövzuların nəzəri şərhi test tapşırıqları ilə müşayiət olunur. Bu da qəbula hazırlaşanlara imtahana təkcə nəzəri cəhətdən hazırlaşmağa deyil, həmçinin öz bilik və bacarıq səviyyələrini mövzular üzrə ümumiləşdirici test tapşırıqları vasitəsilə yoxlamağa və təkmilləşdirməyə imkan verir.

Məntiqi təfəkkürü yoxlayan test tapşırıqları üzrə elmi-metodiki təhlil və tövsiyələr

2021-ci ildə magistraturaya qəbul imtahanının hər bir cəhdində məntiqi təfəkkürü yoxlamaq məqsədi ilə bakalavrlara 14 verbal (sözlə bağlı), 15 fiqurlarla bağlı və 21 məntiqi-riyazi test tapşırığı təqdim edilmişdi. Verbal test tapşırıqları ilə bakalavrların sözlə ifadə olunmuş məlumatı təhliletmə, sintezetmə, müqayisəetmə, ümumiləşdirmə, mücərrədləşdirmə, müxtəlif sözlərin istifadəsində incəlikləri hissetmə qabiliyyətləri, fiqurlarla bağlı olan test tapşırıqları ilə onların fəza təfəkkürü, vizual məlumatı təhliletmə qabiliyyəti yoxlanılır. Məntiqi-riyazi test tapşırıqları bakalavrların ədədlər arasındakı qanunauyğunluğu aşkar etmək, praktiki riyazi məsələləri məntiqlə həll edə bilmək qabiliyyətini yoxlayır.

2021-ci ildə qəbul imtahanının hər bir cəhdində istifadə edilən 45 test tapşırığı (1-45-ci tapşırıqlar) qapalı (çoxseçimli), 5 test tapşırığı isə (46-50-ci tapşırıqlar) açıq tipli (2-si "hesablama", 1-i "seçim", 1-i "ardıcıllıq", 1-i "uyğunluq" formalı) olmuşdur. Cavab variantları verilmədən təqdim olunan bu tapşırıqların üçü məntiqi-riyazi, biri fiqurlarla bağlı, biri isə verbal tapşırıq idi. Çətinlik dərəcəsinə görə test tapşırıqlarının 14-ü asan, 22-si orta çətinlikdə və 14-ü çətin olmuşdur.

Məntiqi təfəkkürün inkişaf səviyyəsini müəyyən edən test tapşırıqları üzrə bakalavrların imtahan nəticələrinin statistik təhlili göstərir ki, birinci cəhd imtahanında 50 tapşırıqdan 14-nü bakalavrların 70%-dən çoxu, ikinci cəhd imtahanında isə 21-ni bakalavrların 70%-dən çoxu düzgün cavablandıra bilmişdir. Birinci cəhd imtahanında 31 test tapşırığı üzrə bu göstərici 20-70%, ikinci cəhd imtahanında isə 24 test tapşırığı üzrə 20-70% aralığında olmuşdur. Həm birinci, həm də ikinci cəhd imtahanında tapşırıqlardan 5-nin düzgün cavablandırılma göstəricisi 20%-dən aşağıdır.

Aşağıdakı cədvəldə 2016 – 2021-ci illər ərzində keçirilən qəbul imtahanlarında iştirak edən bakalavrların məntiqi təfəkkür səviyyəsini müəyyən edən test tapşırıqlarını düzgün cavablandırma faizləri (ortastatistik göstəricilər) verilmişdir:

		Bakalavrların sayı	**Qapalı tipli sualların düzgün cavablandırılma faizi**	**Açıq tipli sualların düzgün cavablandırılma faizi**	**Qapalı və açıq tipli sualların (birlikdə) düzgün cavablandırılma faizi**
2016	Azərbaycan bölməsi üzrə	20312	44.42	14.11	41.39
	Rus bölməsi üzrə	2097	44.35	11.86	41.10
	Hər iki bölmə üzrə birlikdə	22409	44.42	13.90	41.37

		Bakalavrların sayı	Qapalı tipli sualların düzgün cavablandırılma faizi	Açıq tipli sualların düzgün cavablandırılma faizi	Qapalı və açıq tipli sualların (birlikdə) düzgün cavablandırılma faizi
2017	Azərbaycan bölməsi üzrə	11733	61.08	23.52	57.29
	Rus bölməsi üzrə	1239	58.80	19.94	54.88
	Hər iki bölmə üzrə birlikdə	12972	60.86	23.18	57.06
2018	Azərbaycan bölməsi üzrə	11079	57.64	9.85	52.86
	Rus bölməsi üzrə	1156	55.2	8.97	50.79
	Hər iki bölmə üzrə birlikdə	12235	57.41	9.77	52.67
2019	Azərbaycan bölməsi üzrə	11382	58.44	20.72	54.67
	Rus bölməsi üzrə	1163	53.74	17.16	50.08
	Hər iki bölmə üzrə birlikdə	12545	58.01	20.39	54.25
2020	Azərbaycan bölməsi üzrə	14264	60.89	21.13	56.91
	Rus bölməsi üzrə	1282	56.93	17.66	53.01
	Hər iki bölmə üzrə birlikdə	15546	60.56	20.84	56.59
2021 I cəhd	Azərbaycan bölməsi üzrə	17899	56,93	18,28	53,77
	Rus bölməsi üzrə	1719	54,41	14,83	51,18
	Hər iki bölmə üzrə birlikdə	19618	56,71	17,97	53,54
2021 II cəhd	Azərbaycan bölməsi üzrə	13319	61,63	12,64	56,73
	Rus bölməsi üzrə	1105	56,76	10,61	52,15
	Hər iki bölmə üzrə birlikdə	14424	61,26	12,48	56,38

Artıq qeyd olunduğu kimi, 2017-ci ildən başlayaraq magistraturaya qəbul imtahanında iştirak üçün müvafiq ödənişin tələb olunması səbəbindən imtahan verən bakalavrların sayı 2017-ci ildə 2016-cı illə müqayisədə 9437 nəfər az olmuşdur. 2018-ci ildə bu azalmanın dinamikası əhəmiyyətli dərəcədə zəifləmiş və imtahan verən bakalavrların sayı 2017-ci illə müqayisədə 737 nəfər azalmışdır. 2019-cu ildə isə imtahan verən bakalavrların sayı 2018-ci illə müqayisədə 310 nəfər çox olmuşdur. Bu artımın dinamikası 2020 və 2021-ci illərdə də davam etmiş, imtahan verən bakalavrların sayı 2020-ci ildə 2019-cu illə müqayisədə 3001, 2021-ci ildə (I və II cəhd birlikdə) isə 2020-ci illə müqayisədə 18496 nəfər çox olmuşdur.

Bakalavrların cavablandırmaqda çətinlik çəkdikləri test tapşırıqlarından bəziləri üzrə nəticələrə nəzər salaq.

2021-ci il, magistraturaya qəbul imtahanının birinci cəhdi. A variantı, 98 saylı test tapşırığı:

Doqquz fərqli fiqurun hərəsinin çəkisi 1-dən 9-a qədər olan ədədlərdən birinə (hərəsi fərqli bir ədədə) uyğundur. 2 tərəzinin vəziyyətlərini nəzərə alaraq düzgün ***olmayan*** cavab variantlarını tapın.



Tapşırığın cavablandırılma statistikası belədir:

	Variantlar üzrə cavablandırma, %-lə							
	Azərbaycan bölməsi				**Rus bölməsi**			
	A variantı	**B** variantı	**C** variantı	**D** variantı	**A** variantı	**B** variantı	**C** variantı	**D** variantı
Düzgün cavablandıranlar	8.52	8.26	8.87	8.88	4.88	4.83	5.45	7.21
Səhv cavablandıranlar	57.36	56.23	56.98	58.04	60.00	54.59	58.61	55.77
Cavablandır-mayanlar	34.12	35.51	34.15	33.08	35.12	40.58	35.94	37.02

Bu test tapşırığı bakalavrın vizual məlumatı (fiqur və ya şəkil formasında verilənləri) təhliletmə, sintezetmə, müqayisəetmə, ümumiləşdirmə, mücərrədləşdirmə qabiliyyəti və ədədlər arasındakı qanuna-uyğunluğu aşkar etmək bacarığı yoxlanılır.

Soldakı tərəzinin vəziyyəti onun üstündəki fiqurların qiymətlərinin aşağıdakı kimi olduğunu məcburi edir: ●→ 1, ■→2 və ●→9.

Sağdakı tərəzinin vəziyyəti isə onun üstündəki fiqurların qiymətlərinin aşağıdakı kimi olduğunu məcburi edir: △→3, ▲→4, □→5, ■→8 və ○→7.

Tərəzidə olmayan fiqurun 6-ya bərabər olması da müəyyənləşir: ☆→6.

Cavablandırılma statistikası göstərir ki, bakalavrların 90%-dən çoxu tapşırığı həll edə bilməyib, lakin cavablandıranların Azərbaycan bölməsinin A variantı üzrə 12.93%-i, B variantı üzrə 12.81%-i, C variantı üzrə 13.47%-i, D variantı üzrə 13.27%-i və rus bölməsinin A variantı üzrə 7.52%-i, B variantı üzrə 8.13%-i, C variantı üzrə 8.51%-i, D variantı üzrə 11.45%-i bu test tapşırığının düzgün cavabını müəyyən edə bilmişdir.

Analoji test tapşırığının izahı ilə birlikdə 2019-2021-ci illərdə "Magistr" jurnalının 1-ci saylarında verilməsinə baxmayaraq, bakalavrların düzgün cavablandırma faizi aşağıdır.

Bu test tapşırığı üzrə bakalavrların zəif nəticə göstərmələrinin səbəbi tapşırığın yeni tipli olması və geniş yayılmamasıdır.

Beləliklə, doğru cavab 3, 4-dür.

2021-ci il, magistraturaya qəbul imtahanının ikinci cəhdi. A variantı, 98 saylı test tapşırığı:

Elə üç ədəd verilmişdir ki:

- ✓ Ədədlərdən biri ikirəqəmli, digər ikisi isə üçrəqəmlidir.
- ✓ Bu ədədlərin ədədi ortası 98-dir.
- ✓ Ədədlərdən biri digərindən 3 dəfə böyükdür.

Bu ədədlərin böyüyünün maksimum qiymətini tapın.

Tapşırığın cavablandırılma statistikası belədir:

	Variantlar üzrə cavablandırma, %-lə							
	Azərbaycan bölməsi				**Rus bölməsi**			
	A variantı	**B** variantı	**C** variantı	**D** variantı	**A** variantı	**B** variantı	**C** variantı	**D** variantı
Düzgün cavablandıranlar	5.63	5.89	6.18	5.18	5.28	3.55	5.42	4.27
Səhv cavablandıranlar	57.43	54.56	56.95	56.00	56.23	52.48	51.62	51.25
Cavablandır-mayanlar	36.94	39.55	36.87	38.82	38.49	43.97	42.96	44.48

Bu test tapşırığı ilə bakalavrların ədədlər arasındakı qanunauyğunluğu aşkar etmək qabiliyyəti yoxlanılır.

Şərtlərə uyğun bir üçrəqəmli ədədin maksimum qiymətini tapmaq üçün digər üçrəqəmli ədədin və ikirəqəmli ədədin minimum qiymətlərini tapmaq lazımdır. Üç misli üçrəqəmli ədədə bərabər olan ikirəqəmli ədədin minimum qiyməti 34-dür. Üçrəqəmli ədədin minimum qiyməti 102-yə bərabərdir. Üç ədədin ədədi ortası 98 olduğundan (34+102+X)/3=98, X=158. Beləliklə, doğru cavab158-dir.

Cavablandırılma statistikası göstərir ki, bakalavrların 90%-dən çoxu tapşırığı həll edə bilməyib, lakin cavablandıranların Azərbaycan bölməsinin A variantı üzrə 8.93%-i, B variantı üzrə 9.74%-i, C variantı üzrə 9.79%-i, D variantı üzrə 8.47%-i və rus bölməsinin A variantı üzrə 8.58%-i, B variantı üzrə 6.33%-i, C variantı üzrə 9.50%-i, D variantı üzrə 7.70%-i bu test tapşırığının düzgün cavabını müəyyən edə bilmişdir.

Bu test tapşırığı üzrə bakalavrların zəif nəticə göstərmələrinin səbəbi tapşırığın yeni tipli olması və geniş yayılmamasıdır. Güman olunur ki, bakalavrların bir hissəsi ədədi orta anlayışı ilə tanış deyil.

2021-ci il, magistraturaya qəbul imtahanının ikinci cəhdi. A variantı, 99 saylı test tapşırığı:

Verilmiş 9 fiquru ***fırlatmamaq*** şərti ilə şəkildə verilmiş 3×3 formasında elə yığın ki, müxtəlif fiqurlara aid qonşu ədədlər eyni olsun.





Hərflərə uyğun rəqəmləri şəkildə həmin hərflərin yerlərinə düşəcək ədədlərin artması ardıcıllığı ilə düzün.

a – 1, ***b*** – 2, ***c*** – 3, ***d*** – 4

Tapşırığın cavablandırılma statistikası belədir:

	Variantlar üzrə cavablandırma, %-lə							
	Azərbaycan bölməsi				Rus bölməsi			
	A variantı	**B** variantı	**C** variantı	**D** variantı	**A** variantı	**B** variantı	**C** variantı	**D** variantı
Düzgün cavablandıranlar	2.55	2.44	2.88	2.83	1.51	2.84	2.17	2.49
Səhv cavablandıranlar	56.47	53.02	55.21	53.20	56.23	50.35	51.99	49.47
Cavablandırmayanlar	40.98	44.54	41.91	43.97	42.26	46.81	45.85	48.04

Bu test tapşırığı bakalavrın vizual məlumatı (fiqur və ya şəkil formasında verilənləri) təhliletmə, sintezetmə, müqayisəetmə, ümumiləşdirmə, mücərrədləşdirmə qabiliyyətlərini yoxlayır.



Alt hissələrində "4" ədədi yazılmış fiqurlar şəklin aşağı hissəsində yerləşdirilməlidir. Əks halda, həmin fiqurların altında yerləşdirilməli fiqurların yuxarı hissəsində "4" ədədi olmalı idi. Heç bir fiqurun yuxarı hissəsində "4" ədədi olmadığından alt hissələrində "4" ədədi yazılmış fiqurlar mütləq şəklin aşağı hissəsində yerləşdirilməlidir. Bundan sonra, digər fiqurlar da məsələnin şərtinə uyğun yığılaraq aşağıdakı şəkli yaradır.

Buradan a=2, b=3, c=4 və d=1 alınır. Hərfləri onların yerinə düşəcək ədədlərin artması ardıcıllığı ilə düzsək *dabc*, bu hərfləri onlara uyğun rəqəmlərlə (***a***–1, ***b***–2, ***c***–3, ***d***–4) əvəz etsək *4123* alınar. Beləliklə, doğru cavab 4123-dür.

Cavablandırılma statistikası göstərir ki, bakalavrların 90%-dən çoxu tapşırığı həll edə bilməyib, lakin cavablandıranların Azərbaycan bölməsinin A variantı üzrə 5.20%-i, B variantı üzrə 4.4%-i, C variantı üzrə 4.96%-i, D variantı üzrə 5.05%-i və rus bölməsinin A variantı üzrə 2.62%-i, B variantı üzrə 5.34%-i, C variantı üzrə 4.01%-i, D variantı üzrə 4.79%-i bu test tapşırığının düzgün cavabını müəyyən edə bilmişdir.

Analoji test tapşırığının izahı ilə birlikdə 2018-2020-ci illərdə "Magistr" jurnalının 1-ci saylarında verilməsinə baxmayaraq, bakalavrların düzgün cavablandırma faizi aşağıdır.

İndi isə problemli distraktorların yer aldığı test tapşırıqlarını nəzərdən keçirək.

2021-ci il, magistraturaya qəbul imtahanının birinci cəhdi. A variantı, 93-95 saylı test tapşırıqları:

Ağacdan qopan yarpaqların bir hissəsi təmiz skamyaya, bir hissəsi ağacın yanından axan çaya, qalan hissəsi isə otların üstünə tökülmüşdü. Çaya tökülən yarpaqların 1/3 hissəsi çaydakı daşlara ilişmiş, qalanını su aparmışdı. Otların üstünə tökülmüş yarpaqlardan rəngləri qırmızı olanların sayı tək ədədlə ifadə olunurdu və onların sayı sarı rəngdə olanların sayından az, yaşıl rəngdə olanların sayından çox idi. Sonradan əsən külək ağacdan daha 6 yarpaq qoparır və otların üstünə tökür. Həmin külək skamyaya düşmüş yarpaqların 60%-ni sovuraraq yarısını otların üstünə tökür, digər yarısını isə çaydakı daşlara ilişmiş yarpaqların 1/4 hissəsi ilə birlikdə axan çaya qovuşdurur.

Namizədlərə bu mətn əsasında 3 test tapşırığı verilmişdir. Bu test tapşırıqları ilə bakalavrların verilən məlumatı (mətn şəklində) təhliletmə, sintezetmə, müqayisəetmə, ümumiləşdirmə, mücərrədləşdirmə qabiliyyəti və ədədlərlə işləmək bacarığı yoxlanılır.

93 saylı test tapşırığı

Ağacda ən azı neçə yarpaq olub?

Tapşırığın cavablandırılma statistikası belədir:

Bəndlər	**A variantı**	
	Azərbaycan bölməsi üzrə	**Rus bölməsi üzrə**
A	19.41%	17.44%
B	15.78%	15.58%
C	23.14%	24.42%
D	13.10%	13.26%
E	**21.17%**	**22.79%**
İmtina	7.40%	6.51%

Ağacda olan yarpaqlar:

1. skamyaya düşənlər – ən azı 10 yarpaq (*30%-i tam ədəd olan ən kiçik ədəd 10-dur*);
2. çaya tökülənlər – ən azı 12 yarpaq (*1/12 hissəsi tam ədəd olan ən kiçik ədəd 12-dir*);
3. otların üstünə tökülənlər – ən azı 8 yarpaq, yəni 1 yaşıl, 3 qırmızı və 4 sarı (qırmızıların sayı tək ədədlə ifadə olunur və onların sayı sarıdan az, yaşıldan çoxdur);
4. sonradan əsən külək nəticəsində ağacdan qopan daha 6 yarpaq.

Ağacda ən azı 10+12+8+6=36 yarpaq ola bilərdi.

Güman etmək olar ki, namizədlərin bir hissəsi doğru cavabın bəndlərdəki ədədlərin (32, 41, 34, 30 və 36) artma sırasında orta yerdə duran ədəd olduğunu düşünərək C bəndini seçmişlər.

Beləliklə, doğru cavab E bəndidir.

94 saylı test tapşırığı

Aşağıdakılardan hansını(ları) müəyyən etmək mümkündür?

I. Çay daşlarına ilişib qalan yarpaqların sayını

II. Otların üstündə qalan yaşıl ağac yarpaqlarının minimum sayını

III. Ağacda olan yarpaqların maksimum sayını

Tapşırığın cavablandırılma statistikası belədir:

Bəndlər	**A variantı**	
	Azərbaycan bölməsi üzrə	**Rus bölməsi üzrə**
A	**20.32%**	**17.44%**
B	28.33%	26.05%
C	16.83%	16.74%
D	19.90%	24.42%
E	7.85%	8.84%
İmtina	6.77%	6.51%

I. Çay daşlarına ilişib qalan yarpaqların sayini müəyyən etmək mümkün deyildir, çünki 1/12 hissəsi tam ədəd olan ədədlərin sayı sonsuzdur (12, 24, 36, 48 və s.);

II. Otların üstündə qalan yaşıl ağac yarpaqlarının minimum sayı 1-dir.(1 yaşıl, 3 qırmızı və 4 sarı);

III. Ağacda olan yarpaqların maksimum sayını müəyyən etmək mümkün deyildir, çünki onların sayı sonsuz ola bilər (məsələn: 36, 72 , 108 və s.).

Güman etmək olar ki, namizədlərin bir hissəsi çay daşlarına ilişib qalan yarpaqların da sayını müəyyən etməyin mümkün olduğunu düşünərək B bəndini seçmişlər.

Beləliklə, doğru cavab A bəndidir.

95 saylı test tapşırığı

Yarpaqlardan ən azı neçəsini su aparıb?

Tapşırığın cavablandırılma statistikası belədir:

Bəndlər	**A variantı**	
	Azərbaycan bölməsi üzrə	**Rus bölməsi üzrə**
A	14.89%	14.19%
B	17.95%	18.37%
C	22.00%	22.56%
D	21.40%	21.63%
E	**16.52%**	**16.51%**
İmtina	7.24%	6.74%

Suyun apardığı yarpaqlar:

1. skamyaya düşmüş yarpaqların 60%-nin yarısı, yəni skamyaya düşmüş yarpaqların 30%-i;
2. çaya tökülən yarpaqların 1/3 hissəsinin (çaydakı daşlara ilişmiş) 1/4 hissəsi, yəni çaya tökülən yarpaqların 1/12 hissəsi (1/3 x 1/4 = 1/12);
3. çaya tökülən yarpaqların 2/3 hissəsi (tökülən kimi suyun apardığı yarpaqlar) (1-1/3=2/3);

1. 30%-i tam ədəd olan ən kiçik ədəd 10-dur. 10x0,3=3 yarpaq.

2. 1/12 hissəsi tam ədəd olan ən kiçik ədəd 12-dir. 12x1/12=1 yarpaq.

3. 12x2/3=8 yarpaq.

Suyun apardığı ən azı 3+1+8=12 yarpaq ola bilər.

Bu test tapşırığı üzrə bakalavrların zəif nəticə göstərmələrinin səbəbi tapşırığın yeni tipli olması və geniş yayılmamasıdır.

Beləliklə, doğru cavab E bəndidir.

2021-ci il, magistraturaya qəbul imtahanının ikinci cəhdi. A variantı, 67 saylı test tapşırığı:

40 nəfərlik bir qrupda rus dilini bilənlər fransız dilini bilənlərdən 3 dəfə çoxdur. Hər iki dili bilənlər bu dillərdən heç birini bilməyənlərin yarısı qədərdir. Yalnız rus, yalnız fransız və hər iki dili bilənlər cəmi 32 nəfərdirsə, yalnız fransız dilini bilən neçə nəfər var?

Tapşırığın cavablandırılma statistikası belədir:

Bəndlər	**A variantı**	
	Azərbaycan bölməsi üzrə	**Rus bölməsi üzrə**
A	**15.97%**	**7.92%**
B	11.47%	13.21%
C	25.25%	27.17%
D	30.32%	31.70%
E	13.87%	15.09%
İmtina	3.12%	4.91%



Bu test tapşırığı ilə bakalavrların ədədlər arasındakı qanunauyğunluğu aşkar etmək qabiliyyəti yoxlanılır. Şərtdə verilənlərə əsasən aşağıdakılar alınar:

$x + y = 3\ (y + z)$

$y = \frac{k}{2}$

$x + y + z = 32$ olduğundan $k = 40 – 32 = 8$ alınar, onda $y = 4$ olar.

Tapdığımız qiymətləri tənliklərdə nəzərə alsaq,

$x – 3z = 8$

$x + z = 28$

Yekunda $z = 5$ alınar. Yalnız fransız dilini bilənlərin sayı 5-dir.

Güman etmək olar ki, bəzi bakalavrlar səhvən hər iki dili bilənlərin sayını yalnız fransız dilini bilənlərin sayı kimi qəbul edib səhv cavab bəndini seçiblər.

Belə test tapşırıqlarının həllində uğurlu nəticələr əldə etmək üçün bakalavrlara Eyler-Venn diaqramları haqqında məlumatlı olmaları tövsiyə edilir.

Beləliklə, doğru cavab A bəndidir.

2021-ci il, magistraturaya qəbul imtahanının ikinci cəhdi. A variantı, 94 saylı test tapşırığı:

Yalnız natural ədədə tətbiq olunan A və B operatorları haqqında məlumdur ki:

- A operatoru tətbiq olunduqda ədəd 3-ə vurulur və üzərinə 1 əlavə edilir.
- B operatoru tətbiq olunduqda ədəd 2-yə vurulur və üzərinə 3 əlavə edilir.

Nümunələr:

$4 \xrightarrow{B} \xrightarrow{A} = 11 \xrightarrow{A} = 34$

$4 \xrightarrow{A} \xrightarrow{A} = 5 \xrightarrow{B} \xrightarrow{A}$

Aşağıdakılardan neçəsi mütləq ***səhvdir***?

1. Ədədə yalnız bir dəfə operator tətbiq etməklə 90 almaq olmaz.
2. Ədədə iki dəfə ardıcıl olaraq eyni operatoru tətbiq etməklə 179 almaq olmaz.
3. Ədədə ardıcıl olaraq iki müxtəlif operator tətbiq etməklə 185 almaq olmaz.
4. B operatoru natural ədədi tək ədədə çevirir.
5. A operatoru natural ədədi cüt ədədə çevirir.

Tapşırığın cavablandırılma statistikası belədir:

Bəndlər	A variantı	
	Azərbaycan bölməsi üzrə	Rus bölməsi üzrə
A	9.89%	8.30%
B	**20.52%**	**16.23%**
C	10.55%	14.34%
D	25.61%	28.68%
E	29.33%	27.55%
İmtina	4.10%	4.91%

Bu test tapşırığı ilə bakalavrların ədədlər arasındakı qanunauyğunluğu aşkar etmək qabiliyyəti yoxlanılır.

1. $X \xrightarrow{A} = (3X+1) = 90, \quad 3X = 89.$ X=89/3 natural ədəd deyil.

   $Y \xrightarrow{B} = (2Y+3) = 90, \quad 2Y = 87.$ X=87/2 natural ədəd deyil.

   1-ci mühakimə mütləq doğrudur.

2. $X \xrightarrow{A} \xrightarrow{A} = (3X+1) \xrightarrow{A} = 9X+4 = 179.$ X=175/9 natural ədəd deyil.

   $Y \xrightarrow{B} \xrightarrow{B} = (2Y+3) \xrightarrow{B} = 4Y+9 = 179.$ Y=170/4 natural ədəd deyil.

   2-ci mühakimə mütləq doğrudur.

3. $X \xrightarrow{A} \xrightarrow{B} = (3X+1) \xrightarrow{B} = 6X+5 = 185.$ X=180/6=30 natural ədəddir

   $Y \xrightarrow{B} \xrightarrow{A} = (2Y+3) \xrightarrow{A} = 6Y+10 = 185.$ X=175/6 natural ədəd deyil.

   3-cü mühakimə mütləq səhv deyil (Həm doğru, həm də səhv ola bilər).

4. $X \xrightarrow{B} = (2X+3)$. Tək ədəddir.

   4-cü mühakimə mütləq doğrudur.

5. $Y \xrightarrow{A} = (3Y+1)$. Tək ədəddir.

   5-cü mühakimə mütləq səhvdir.

Yalnız 5-ci mühakimə mütləq səhvdir. Beləliklə, doğru cavab B bəndidir.

Bu test tapşırığı üzrə bakalavrların zəif nəticə göstərmələrinin səbəbi onun yeni tipli olması və geniş yayılmamasıdır.

3. REZİDENTURAYA QƏBUL

Rezidentura tibb ixtisasları üzrə əsas (baza ali) tibb təhsili əsasında həkim-mütəxəssis hazırlığı formasıdır. Burada təhsil dövlət standartı və proqramına uyğun olaraq hazırlanmış baza ali tibb təhsili proqramları əsasında, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 iyun 95 nömrəli qərarı ilə təsdiq edilmiş "Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların təsnifatı"nda qeyd olunan həkim-mütəxəssis ixtisasları üzrə aparılır. Rezidenturada ayrı-ayrı həkim-mütəxəssis ixtisasları üzrə təhsil müddəti 2 ildən 5 ilə qədərdir. Rezidenturada həkim-mütəxəssis hazırlığı klinik baza olaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş elm, təhsil müəssisələri və klinikalarda aparılır. Azərbaycan Respublikasının vətəndaşları üçün rezidenturada təhsil dövlət sifarişi əsasında həyata keçirilir.

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2009-cu il tarixli, 156 nömrəli fərmanı rəhbər tutulmaqla və "Rezidentura təhsilinin məzmunu və təşkili qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 mart 2010-cu il tarixli 50 nömrəli və 2013-cü il 21 noyabr tarixli 330 nömrəli qərarları əsas götürülməklə rezidenturaya qəbul 2021-ci ildə də DİM tərəfindən mərkəzləşdirilmiş şəkildə test üsulu ilə keçirilmişdir. Qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral 41 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rezidenturaya qəbul qaydaları" ilə tənzimlənib.

2010-cu ilin oktyabr ayından başlayaraq Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında (indiki Dövlət İmtahan Mərkəzi) rezidenturaya qəbul imtahanlarının keçirilməsi ilə bağlı baza və ixtisas fənləri üzrə elmi-metodik seminarlar təşkil olunmuşdur. Növbəti illərdə seminarlarda qəbul proqramları müzakirə edilmiş, test tərtibi metodikası üzrə treninqlər keçirilmiş, mövcud test bankı yeni test tapşırıqları ilə zənginləşdirilmişdir. 2021-ci ildə də əsas (baza ali) tibb təhsilinin bütün istiqamətləri üzrə baza və ixtisas fənlərindən qəbul proqramları əlavə və düzəlişlər edilməklə təkmilləşdirilmiş, müvafiq kafedraların əməkdaşlarının iştirakı ilə müzakirə edilmiş, kafedra müdirləri ilə razılaşdırılmış və institut rəhbərliyi tərəfindən təsdiqlənmişdir.

Rezidenturaya qəbul qaydaları və baza fənləri üzrə qəbul proqramları, test tapşırıqlarının elmi-metodik izahı və tövsiyələr, test tapşırığı nümunələri 2021-ci ilin yanvar ayında "Rezidentura" jurnalının 1-ci nömrəsində dərc olunaraq ictimaiyyətə çatdırılmışdır. Rezidenturaya qəbul elanı və ixtisas fənləri üzrə qəbul proqramları, test tapşırıqlarının elmi-metodik izahı və tövsiyələr, test tapşırığı nümunələri "Rezidentura" jurnalının 2-ci nömrəsində, qəbul imtahanının II mərhələsi və ixtisas seçimi haqqında elan, qəbul aparılan ixtisasların siyahısı, qəbul imtahanının I mərhələsinin nəticələri, qəbul planı və namizədlər üçün tövsiyələr, 2020-ci ildə rezidenturaya qəbul müsabiqəsində baza tibb təhsili müəssisələrinin ixtisasları üzrə formalaşmış keçid balları isə jurnalın 3-cü nömrəsində dərc edilmişdir. Jurnalın 4-cü nömrəsində rezidenturaya qəbul olanların adlı siyahısı və cari ildə klinik bazalar üzrə formalaşmış keçid balları verilmişdir.

2020-ci ildə rezidenturaya qəbulla bağlı müsabiqə şərtlərində bəzi dəyişikliklər edilib. Belə ki, imtahanın I mərhələsinin nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilib, imtahandan 40 və daha çox bal toplayan əsas (baza ali) tibb təhsilli namizədlər "məqbul" alaraq imtahanın II mərhələsində iştirak etmək hüququ qazanıblar. Bundan başqa, imtahanın I mərhələsində "məqbul" alanların nəticəsi 5 (beş) il qüvvədə qalır, yəni onlar 5 (beş) il ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına buraxılırlar. Rezidenturaya qəbulun I mərhələsinə əsas (baza ali) tibb təhsilinin III kursunu tam bitirmiş (III, IV və V kurs) tələbələr də buraxılıblar. Bu imtahandan "məqbul" alan tələbələr isə ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına rezidenturaya qəbul olunmaq hüququ əldə etdikdən sonra buraxılacaqlar.

Rezidenturaya qəbul aparılan ixtisaslar əsas (baza ali) tibb təhsilinə uyğun olaraq istiqamətlər üzrə qruplaşdırılıb. 3.1 saylı cədvəldə həm bu istiqamətlərin, həm də hər bir istiqamət üzrə imtahan verilən baza və ixtisas fənlərinin siyahısı təqdim edilib.

Cədvəl 3.1

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ İMTAHAN VERİLƏN BAZA VƏ İXTİSAS FƏNLƏRİ

İstiqamətin adı	Baza fənləri	İxtisas fənləri
I. Müalicə işi, pediatriya	İnsan anatomiyası Histologiya İnsan fiziologiyası Patologiya (patoloji anatomiya, patoloji fiziologiya) Mikrobiologiya Farmakologiya Biokimya	Daxili xəstəliklər (kardiologiya, pulmonologiya, qastroenterologiya, endokrinologiya, nefrologiya, hematologiya, nevrologiya, yoluxucu xəstəliklər, psixiatriya) Cərrahlıq (ümumi cərrahlıq, cərrahi xəstəliklər, uşaq cərrahlığı) Mamalıq və ginekologiya Uşaq xəstəlikləri (uşaq xəstəliklərinin propedevtikası,neonatologiya)
II. Stomatologiya	İnsan anatomiyası Histologiya İnsan fiziologiyası Patologiya (patoloji anatomiya, patoloji fiziologiya) Mikrobiologiya Farmakologiya Biokimya	Terapevtik stomatologiya Ortopedik stomatologiya Üz-çənə cərrahiyyəsi Uşaq stomatologiyası
III. Tibbi profilaktika	İnsan anatomiyası Histologiya İnsan fiziologiyası Patologiya (patoloji anatomiya, patoloji fiziologiya) Mikrobiologiya Farmakologiya Biokimya	Yoluxucu xəstəliklər Gigiyena (ümumi gigiyena, kommunal gigiyena, qidalanma gigiyenası, əmək gigiyenası) Epidemiologiya

2021-ci ildə rezidenturaya qəbul Səhiyyə Nazirliyi sistemi üzrə 4 klinik bazaya aparılıb. Rezidenturaya ümumilikdə Azərbaycan və rus bölmələrinin birgə müsabiqəsi üçün 425 plan yeri ayrılmışdı (onlardan 32 plan yeri Hərbi tibb fakültəsi üçün, 20 plan yeri isə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı üçün nəzərdə tutulmuşdur). 3.2 saylı cədvəldən də göründüyü kimi, rezidenturaya ən çox qəbul planı Azərbaycan Tibb Universitetinin payına düşüb (278 yer – Hərbi tibb fakültəsi də daxil olmaqla). Bu təhsil müəssisəsinin qəbul planı bütövlükdə rezidentura üçün ayrılmış qəbul planının 65.41%-ni təşkil edib.

Cədvəl 3.2

QƏBUL PLANININ KLİNİK BAZALAR ÜZRƏ PAYLANMASI

№	Müəssisənin adı	İstiqamətlər*					Bütöv-lükdə
		I	II	III	I, II, III	I, III	
1	Azərbaycan Tibb Universiteti	198	13	17	3	15	246
	Hərbi Tibb Fakültəsi (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi sistemi üçün)	10	0	0	0	0	10
	Hərbi Tibb Fakültəsi (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemi üçün)	22	0	0	0	0	22
2	Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu	83	1	4	3	3	94
3	Naxçıvan Dövlət Universiteti	24	3	2	1	3	33
4	İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı	20	0	0	0	0	20
C Ə M İ		**357**	**17**	**23**	**7**	**21**	**425**

*(İstiqamətlər: I – Müalicə işi, pediatriya; II – Stomatologiya; III – Tibbi-profilaktika)

Ötən illə müqayisədə qəbul planı müalicə işi, pediatriya istiqaməti üzrə 61 yer, stomatologiya istiqaməti üzrə 15 yer, sosial gigiyena və səhiyyənin təşkili ixtisası üzrə (I, II və III istiqamətlər üzrə birgə müsabiqə) 4 yer, yoluxucu xəstəliklər və tibbi mikrobiologiya ixtisasları (I, III istiqamətlər) üzrə isə 4 yer azalıb, tibbi profilaktika istiqaməti üzrə 1 yer artıb. Ümumilikdə, qəbul planı 16.34% (83 yer) azalıb.

Cari ildə ilk dəfə olaraq, namizədlərə baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında (I mərhələdə) iki dəfə iştirak etmək hüququ verilmişdir. Qəbul imtahanının I mərhələsinin 1-ci cəhdində iştirak etmək üçün ərizələrin qəbulu 2021-ci il mayın 26-dan iyunun 4-dək, 2-ci cəhdində iştirak etmək üçün isə iyulun 16-dan 22-dək internet vasitəsilə aparılıb. Namizədlər ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet"lərini yaratdıqdan sonra, "Şəxsi kabinet"lərinin istifadəçi adı və parolundan istifadə edərək DİM-in internet saytının müvafiq səhifəsinə (eservices.dim.gov.az/erizerez/erize) daxil olaraq "Namizədin elektron ərizəsi" formasını doldurub, təsdiq ediblər. Müsabiqədə iştirak ödənişli olmuşdur. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici ölkələrdə ali təhsil almış Azərbaycan Respublikasının vətəndaşları imtahanda iştirak etmək üçün "Namizədin elektron ərizəsi" formasını doldurduqdan sonra tələb olunan sənədlərin əslini şəxsən təqdim edərək elektron ərizələrini DİM-də yaradılmış Sənəd Qəbulu Komissiyalarında təsdiq etdiriblər.

Rezidenturada təhsil almaq üçün 1673 namizəd ərizə verib. Onların 40.29%-ni (674 nəfər) oğlanlar, 59.71%-ni (999 nəfər) qızlar təşkil edib. Sənəd verənlərin 681 nəfəri (40.71%) əsas (baza ali) tibb təhsilini bu il başa vurub. Onlardan 250 nəfəri oğlan (36.71%), 431 nəfəri isə qız (63.29%) olub.

Baza ali tibb təhsili istiqamətləri üzrə qəbul planı, imtahanda iştirak etmək üçün təqdim edilən ərizələrin sayı və ərizə qəbulu mərhələsində müsabiqə vəziyyəti 3.3 saylı cədvəldə göstərilir.

Cədvəl 3.3

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ VƏ BÖLMƏLƏR ÜZRƏ QƏBUL PLANI, NAMİZƏDLƏRİN ƏRİZƏLƏRİNİN PAYLANMASI VƏ MÜSABİQƏ VƏZİYYƏTİ

İstiqamət	Qəbul Planı*	Ərizələrin sayı			Müsabiqə vəziyyəti
		Azərbaycan bölməsi	Rus bölməsi	Cəmi	
I. Müalicə işi, pediatriya	385 (357)	1181	218	1399	3.6
II. Stomatologiya	24 (17)	104	9	113	4.7
III. Tibbi profilaktika	51 (23)	157	4	161	3.2
C Ə M İ	**425****	**1442**	**231**	**1673**	**3.9**

* Mötərizədə yalnız bu istiqamət üzrə ayrılan plan yerlərinin (digər istiqamətlərlə birgə olan plan yerləri istisna olunmaqla) sayı göstərilib.

** Müalicə işi, pediatriya, stomatologiya və tibbi profilaktika istiqamətləri üzrə 7 yer (sosial gigiyena və səhiyyənin təşkili ixtisası üzrə), müalicə işi, pediatriya və tibbi profilaktika istiqamətləri üzrə 21 yer (tibbi mikrobiologiya və yoluxucu xəstəliklər ixtisasları üzrə) üçün birgə müsabiqə aparılıb.

3.3 saylı cədvəldən görünür ki, imtahanda iştirak etmək üçün ən çox ərizə müalicə işi, pediatriya istiqaməti üzrə təqdim edilib. Ümumiyyətlə, ərizələrin sayı ötən illə müqayisədə müalicə işi, pediatriya, stomatologiya və tibbi profilaktika istiqamətləri üzrə uyğun olaraq 1.33 (351 ərizə), 1.35 (29 ərizə) və 1.19 dəfə (26 ərizə), bütün istiqamətlər üzrə isə bütövlükdə 1.32 dəfə (406 ərizə) artmışdır.

İstiqamətlər üzrə ən yüksək müsabiqə vəziyyəti stomatologiya istiqaməti (bir yerə orta hesabla 4.7 ərizə), ən aşağı müsabiqə vəziyyəti isə tibbi profilaktika istiqaməti üzrə (bir yerə orta hesabla 3.2 ərizə) müşahidə olunub. Ümumilikdə ötən illə müqayisədə müsabiqə vəziyyəti 2.5-dən 3.9-a qədər artmışdır. Müsabiqə vəziyyətinin yuxarı olması plan yerlərinin sayının azalması və ərizə verənlərin sayının çoxalması ilə əlaqədardır.

Rezidenturaya qəbul imtahanı iki mərhələdə keçirilib. I mərhələ üzrə imtahanın 1-ci cəhdi iyunun 20-də, 2-ci cəhdi avqustun 4-də, II mərhələ üzrə imtahan isə sentyabrın 26-da keçirilib. Qəbul imtahanının hər iki mərhələsi Bakı və Naxçıvan şəhərlərində keçirilib. II mərhələyə imtahanın I mərhələsində nəticələri

“məqbul” olan (40 və daha çox bal toplayan) və müsabiqədə iştirak etmək hüququ olan namizədlər buraxılıblar. İmtahanın birinci mərhələsində namizədlərin baza ali tibb təhsili istiqamətinə müvafiq olaraq baza fənləri, ikinci mərhələsində isə ixtisas fənləri üzrə bilikləri yoxlanılıb. Namizədlərə hər mərhələdə 100 test tapşırığı təqdim olunub. Hər bir test tapşırığına düzgün cavab bir balla qiymətləndirilib, səhv cavablar namizədin imtahan nəticələrinə təsir göstərməyib. Hər mərhələdə imtahan suallarının cavablandırılmasına 2.5 saat vaxt ayrılıb.

İmtahanın I mərhələsində baza ali tibb təhsilinin bütün istiqamətləri üzrə patologiya bloku (patoloji anatomiya və patoloji fiziologiya) və insan fiziologiyası fənnindən son 5 sual açıq tipli test tapşırığı olub. İmtahanın II mərhələsində müalicə işi, pediatriya istiqaməti üzrə daxili xəstəliklər blokundan, stomatologiya istiqaməti üzrə terapevtik stomatologiya fənnindən və tibbi profilaktika istiqaməti üzrə epidemiologiya fənnindən son 5 sual açıq tipli test tapşırığı olub. Hər iki mərhələdə sual kitabçaları fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib. Sual kitabçaları imtahanın hər iki mərhələsində müalicə işi, pediatriya istiqaməti üzrə 2 variantda, digər istiqamətlər üzrə isə 1 variantda, Azərbaycan və rus dillərində hazırlanıb. Bütövlükdə, imtahanlarda 24 sual kitabçasından və 2400 test tapşırığından istifadə edilib.

Qəbul imtahanının I mərhələsi üzrə 1-ci cəhdin nəticələri iyunun 21-də, 2-ci cəhdin nəticələri avqustun 5-də, II mərhələsi üzrə nəticələr isə sentyabrın 28-də DİM-in internet saytında elan olunub.

Məlum olduğu kimi əsas (baza ali) tibb təhsilinin III kursunu tam bitirmiş tələbələrə də (III, IV və V kurs tələbələri) baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında (I mərhələdə) iştirak etmək imkanı yaradılmışdır. Bu imkandan faydalanmaq üçün 662 tələbə (234 nəfər oğlan, 428 nəfər qız) müraciət etmiş, onlardan 658-i (232 nəfər oğlan, 426 nəfər qız) baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında iştirak etmiş və 382-si (130 nəfər oğlan, 252 nəfər qız) “məqbul” almışdır.

İmtahanın I mərhələsində iştirak edən 2001 namizəddən 1343-ü (585 nəfər oğlan, 758 nəfər qız) əvvəlki və cari ilin məzunları olmuşdur. Bu namizədlərdən 573-ü (219 nəfər oğlan (37.44%), 354 nəfər qız (46.70%)) məqbul alaraq II mərhələdə iştirak etmək hüququ əldə etmişdir.

Aşağıdakı cədvəldə əsas (baza ali) tibb təhsili istiqamətləri üzrə imtahanın I mərhələsində iştirak edən cari ilin məzunlarının nəticələrinin IV və V kurs tələbələrinin nəticələri ilə müqayisəsi təqdim olunmuşdur.

Cədvəldən də göründüyü kimi, 2021-ci ildə imtahanın I mərhələsində iştirak edən cari ilin məzunlarının bütövlükdə 53.05%-i, III, IV və V kurs tələbələrinin isə 58.05%-i “məqbul” almışdır. Qeyd etmək istərdik ki, cari il məzunlarının 105-i 2020-ci ildə V kurs tələbəsi kimi imtahanın I mərhələsindən “məqbul” aldığı üçün cari ildə imtahanın I mərhələsində iştirak etməmişdir. Əgər onları da nəzərə alsaq, bu halda cari il məzunlarından “məqbul” alanların nisbi sayı faktiki olaraq 60.32 faiz olardı.

Cədvəl 3.4

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ İMTAHANIN I MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏNLƏRİN NƏTİCƏLƏRİNİN MÜQAYİSƏSİ

İstiqamət	İmtahanda iştirak edənlərin sayı		Məqbul alanların sayı və faizi			
			Cari ilin məzunları		III, IV və V kurs tələbələri	
	Cari ilin məzunları	IV və V kurs tələbələri	sayı	faizi	sayı	faizi
I. Müalicə işi, pediatriya	466	575	253	54.29	342	59.48
II. Stomatologiya	48	13	20	41.67	4	30.77
III. Tibbi profilaktika	59	70	31	52.54	36	51.43
C Ə M İ	**573**	**658**	**304**	**53.05**	**382**	**58.05**

3.1-3.3 saylı şəkillərdə qəbul imtahanının I mərhələsində iştirak edən əvvəlki illərin məzunlarının, cari ilin məzunlarının, III, IV və V kurs tələbələrinin ayrı-ayrılıqda topladıqları balların paylanma diaqramı təqdim edilib. Diaqramlar göstərir ki, III, IV və V kurs tələbələrinin nəticələri digər imtahan iştirakçılarından yüksək, əvvəlki illərin məzunlarının nəticələri isə zəifdir. III, IV və V kurs tələbələrinin 8.97%-i, cari ilin məzunlarının və əvvəlki illərin məzunlarının, müvafiq olaraq, cəmi 4.53% və 0.91%-i 60 bal və daha yüksək nəticə göstərib. III, IV və V kurs tələbələrinin 58.05%-i imtahanın I mərhələsində ən azı 40 bal toplayıb. Bu cür nəticə göstərənlərin nisbi sayı cari ilin məzunları arasında 52.87%, əvvəlki illərin məzunları arasında isə 33.77% təşkil edib. Əvvəlki illərin məzunlarının 66.24%-i 40 baldan aşağı nəticə göstərərək məqbul nəticə əldə edə bilməmişlər. Təhlil zamanı bu namizədlərin hazırlıq səviyyəsinin digər imtahan iştirakçılarından aşağı olduğunu görürük. Fikrimizcə, bunun əsas səbəbi belə imtahan iştirakçıları arasında daha çox əvvəlki illərdə rezidenturaya qəbul ola bilməyənlərin üstünlük təşkil etməsidir.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ (BAZA FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI) İŞTİRAK EDƏN ƏVVƏLKİ İLLƏRİN MƏZUNLARININ TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.1

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ (BAZA FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI) İŞTİRAK EDƏN CARİ İLİN MƏZUNLARININ TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.2

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ (BAZA FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI) İŞTİRAK EDƏN III, IV VƏ V KURS TƏLƏBƏLƏRİNİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.3

Cari ildə imtahanın I mərhələsində iştirak edənlərdən 573 nəfər əsas (baza ali) tibb təhsili istiqamətləri üzrə imtahanın II mərhələsində iştirak etmək hüququ qazanmış və onlardan 510 nəfəri imtahanın II mərhələsində iştirak etmək üçün ərizə vermişdir. Bundan başqa, 2020-ci ildə rezidenturaya qəbul imtahanının I mərhələsində iştirak edərək "məqbul" alan 304 nəfər də II mərhələdə iştirak etmək üçün ərizə vermiş və ümumilikdə II mərhələdə iştirak etmək üçün ərizə verənlərin sayı 814 nəfər olmuşdur. İmtahanın II mərhələsində 810 nəfər iştirak edib və bu namizədlərin çoxu (545 nəfər – 67.28%) müsabiqədə iştirak etmək hüququ qazanıb. Onlardan 161 nəfəri oğlan (93 nəfər cari ilin məzunu), 384 nəfəri qız (198 nəfər cari ilin məzunu) olub.

İmtahanda və müsabiqədə iştirak etmək hüququ qazanan namizədlərin istiqamətlər üzrə sayı barədə məlumat 3.5 saylı cədvəldə təqdim olunur.

Cədvəl 3.5

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ QƏBUL PLANI, İMTAHANIN II MƏRHƏLƏSİNDƏ VƏ MÜSABİQƏDƏ İŞTİRAK ETMƏK HÜQUQU QAZANAN NAMİZƏDLƏRİN PAYLANMASI

İstiqamət	Qəbul planı*	İmtahanda iştirak edən namizədlərin sayı		Müsabiqədə iştirak etmək hüququ qazanmış namizədlərin sayı
		I mərhələ	II mərhələ**	
I. Müalicə işi, pediatriya	385 (32)	1130 (169)	676 (59)	429 (28)
II. Stomatologiya	24	100	41	30
III. Tibbi profilaktika	51	113	93	86
C Ə M İ	**425 (32)**	**1343 (169)**	**810 (59)**	**545 (28)**

* mötərizədə o cümlədən, hərbi tibb fakültəsi üzrə məlumat verilmişdir.

** II mərhələdə I mərhələ üzrə ən azı 40 bal toplayan namizədlər iştirak ediblər.

3.4 və 3.5 saylı şəkillərdə rezidenturaya qəbul olmaq üçün imtahanda iştirak edən cari və əvvəlki illərin məzunlarının I və II mərhələ üzrə topladıqları balların paylanma diaqramları təqdim edilib. I mərhələdə namizədlərin 41.91%-i "məqbul" almaq üçün qoyulan tələbi (40 və daha yüksək bal) ödəyib və bu namizədlər II mərhələdə iştirak etmək hüququ qazanıblar. Ötən il bu göstərici 53.46%-ə bərabər olub.

Qəbul imtahanının II mərhələsində iştirak edən namizədlərin böyük hissəsi (67.28%-i) 50 baldan yuxarı nəticə göstərərək ixtisas seçiminə buraxılıblar. Namizədlərin 32.72%-i isə 50 baldan aşağı nəticə göstərdiyi üçün ixtisas seçiminə buraxılmayıb.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ (BAZA FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI) İŞTİRAK EDƏN NAMİZƏDLƏRİN (CARİ VƏ ƏVVƏLKİ İLLƏRİN MƏZUNLARI) TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.4

QƏBUL İMTAHANININ II MƏRHƏLƏSİNDƏ (İXTİSAS FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI) İŞTİRAK EDƏN NAMİZƏDLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.5

Qəbul imtahanının nəticələri əsasında reprezentativ seçməyə malik olan müalicə işi, pediatriya istiqaməti üzrə I və II mərhələdə iştirak edən namizədlərin ayrılıqda topladıqları balların paylanmasının ədədi xarakteristikaları və histoqramları müəyyənləşdirilib (3.6, 3.7 saylı cədvəllərə və 3.1, 3.2 saylı qrafiklərə bax). Qrafiklərdə namizədlərin topladıqları balların paylanma histoqramı, riyazi gözləmə (orta) qiyməti (M) və namizədlər seçməsini sayca iki bərabər hissəyə ayıran mediana (Me) qiymətləri təsvir edilib. Balların paylanma histoqramı həm I mərhələdə, həm də II mərhələdə demək olar ki, normal paylanmaya yaxındır.

Müalicə işi, pediatriya istiqaməti
(*I mərhələ, III, IV və V kurs tələbələri də nəzərə alınmaqla*)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə :	39.07	Minimal bal :	12
Ortakvadratik meyil :	11.25	Maksimal bal :	94
Moda :	37	Namizədlərin sayı :	1705
Mediana :	38.03		

Cədvəl 3.6

Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	0	0.00	0.00	31 - 35	261	15.31	39.53	66 - 70	20	1.17	99.12
1 - 5	0	0.00	0.00	36 - 40	295	17.30	56.83	71 - 75	10	0.59	99.71
6 - 10	0	0.00	0.00	41 - 45	286	16.77	73.61	76 - 80	2	0.12	99.82
11 - 15	7	0.41	0.41	46 - 50	206	12.08	85.69	81 - 85	2	0.12	99.94
16 - 20	38	2.23	2.64	51 - 55	111	6.51	92.20	86 - 90	0	0.00	99.94
21 - 25	143	8.39	11.03	56 - 60	59	3.46	95.66	91 - 95	1	0.06	100.00
26 - 30	225	13.20	24.22	61 - 65	39	2.29	97.95	96 - 100	0	0.00	100.00

Qrafik 3.1



Müalicə işi, pediatriya istiqaməti
(*II mərhələ*)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə :	53.48	Minimal bal :	25
Ortakvadratik meyil :	10.73	Maksimal bal :	85
Moda :	57	Namizədlərin sayı :	676
Mediana :	52.80		

Cədvəl 3.7

Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	0	0.00	0.00	31 - 35	20	2.96	4.14	66 - 70	59	8.73	94.53
1 - 5	0	0.00	0.00	36 - 40	52	7.69	11.83	71 - 75	24	3.55	98.08
6 - 10	0	0.00	0.00	41 - 45	83	12.28	24.11	76 - 80	9	1.33	99.41
11 - 15	0	0.00	0.00	46 - 50	110	16.27	40.38	81 - 85	4	0.59	100.00
16 - 20	0	0.00	0.00	51 - 55	116	17.16	57.54	86 - 90	0	0.00	100.00
21 - 25	3	0.44	0.44	56 - 60	118	17.46	75.00	91 - 95	0	0.00	100.00
26 - 30	5	0.74	1.18	61 - 65	73	10.80	85.80	96 - 100	0	0.00	100.00

Qrafik 3.2



Rezidenturaya qəbul imtahanının II mərhələsində iştirak edənlər və qəbul olanlar seçmələri üzrə ayrılıqda ortastatistik namizədin portreti müəyyənləşdirilib. II mərhələ üzrə Azərbaycan bölməsində imtahanda iştirak edənlər seçməsini təmsil edən ortastatistik namizədin topladığı bal 54.80-ə, rus bölməsində 55.80-ə bərabərdir. Azərbaycan bölməsində rezidenturaya qəbul olanlar seçməsini təmsil edən ortastatistik namizədin imtahanın II mərhələsində topladığı bal 62.81-ə, rus bölməsində isə 62.95-ə bərabərdir. Təqdim edilən rəqəmlərdən də göründüyü kimi, bölmələr üzrə ayrılıqda namizədlərin imtahana hazırlığı və imtahan nəticələri çox az fərqlənir.

Müsabiqəyə buraxılan namizədlər malik olduqları əsas (baza ali) tibb təhsilinin istiqamətinə uyğun olaraq sentyabrın 30-dan oktyabrın 4-dək ixtisas seçimi aparıblar. İxtisas seçiminə rezidenturaya qəbul imtahanındakı nəticələri Mərkəz tərəfindən müəyyən edilmiş müsabiqə şərtini ödəyən – ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında 50 və daha çox bal toplayan namizədlər buraxılıblar.

İxtisas seçiminə kömək məqsədilə "Rezidentura" jurnalının 3-cü sayında "Rezidentura üzrə ixtisas seçimi cədvəli" dərc olunub (cədvəl 3.8). Bununla da hər bir namizədə bitirdiyi istiqamətə uyğun olaraq səmərəli ixtisas seçimi imkanı yaradılıb.

Cədvəl 3.8

REZİDENTURA ÜZRƏ İXTİSAS SEÇİMİ CƏDVƏLİ

Əsas (baza ali) tibb təhsili üzrə istiqamətlər (fakültələr)	**Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisaslar**
I. Müalicə işi, pediatriya	060901 - Anesteziologiya-reanimatologiya 060902 - Ümumi cərrahiyyə 060903 - Neyrocərrahiyyə 060904 - Plastik cərrahiyyə 060905 - Ürək-damar cərrahiyyəsi 060906 - Uşaq cərrahiyyəsi 060907 - Otorinolarinqologiya 060908 - Travmatologiya-ortopediya 060909 - Onkologiya 060910 - Urologiya 060911 - Oftalmologiya 060912 - Mamalıq-ginekologiya 060913 - Psixiatriya 060914 - Nevrologiya 060915 – Daxili xəstəliklər 060916 - Kardiologiya 060917 - Nefrologiya 060918 - Qastroenterologiya 060919 - Hematologiya 060920 - Dermatovenerologiya 060922 – Allerqologiya və immunologiya 060923 - Yoluxucu xəstəliklər 060924 - Revmatologiya 060925 - Endokrinologiya 060926 - Narkologiya 060927 - Fizioterapiya və tibbi bərpa 060928 - Ftiziatriya 060929 - Patoloji anatomiya, məhkəmə-tibbi ekspertiza 060930 - Pediatriya 060931 - Şüa terapiyası 060932 - Şüa diaqnostikası 060935 - Sosial gigiyena və səhiyyənin təşkili 060937 – Tibbi mikrobiologiya 060939 - Tibbi genetika 060941 - Ailə təbabəti 060942 - Nüvə təbabəti 060949 - Uşaq və yeniyetmə psixiatriyası 060950 - Neonatologiya 060951 - Uşaq endokrinologiyası

Cədvəl 3.8 (ardı)

Əsas (baza ali) tibb təhsili üzrə istiqamətlər (fakültələr)	Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisaslar
I. Müalicə işi, pediatriya	060952 - Uşaq kardiologiyası 060953 - Uşaq nefrologiyası 060954 - Uşaq nevrologiyası 060955 - Uşaq qastroenterologiyası 060956 - Uşaq urologiyası 060957 - Uşaq yoluxucu xəstəlikləri 060958 - Uşaq ürək-damar cərrahiyyəsi
II. Stomatologiya	060934 - Üz-çənə cərrahiyyəsi 060935 - Sosial gigiyena və səhiyyənin təşkili 060943 - Endodontiya 060944 - Parodontologiya 060945 - Restorativ stomatologiya 060946 - Ortopedik stomatologiya 060947 - Uşaq stomatologiyası 060948 - Ortodontiya
III. Tibbi profilaktika	060935 - Sosial gigiyena və səhiyyənin təşkili 060936 - Gigiyena 060937 – Tibbi mikrobiologiya 060938 - Laboratoriya işi 060940 - Epidemiologiya 060923 - Yoluxucu xəstəliklər

Seçilmiş ixtisasların ərizə formasında ardıcıllığını namizəd özü müəyyənləşdirib və o, topladığı ballara əsasən müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilib.

Müsabiqə zamanı balı eyni olan iki və daha çox namizədi fərqləndirmək üçün aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilər nəzərə alınıb:

– əsas (baza ali) tibb təhsili üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG);

– baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından toplanılan bal.

Müsabiqənin nəticələri oktyabrın 5-də elan edilmişdir.

Müsabiqədə iştirak edən namizədlərin ərizələrinin rezidentura təhsilini həyata keçirən klinik bazalar üzrə paylanması 3.9 saylı cədvəldə təqdim edilmişdir.

Cədvəl 3.9

MÜSABİQƏDƏ İŞTİRAK EDƏN NAMİZƏDLƏRİN ƏRİZƏLƏRİNİN KLİNİK BAZALAR ÜZRƏ PAYLANMASI

№	Müəssisənin adı	Ərizələrin sayı			
		Müalicə işi, pediatriya istiqaməti üzrə	Stomatologiya istiqaməti üzrə	Tibbi-profilaktika istiqaməti üzrə	Bütövlükdə
1	Azərbaycan Tibb Universiteti	395	30	82	507
	Hərbi Tibb Fakültəsi (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi sistemi üçün)	7	0	0	7
	Hərbi Tibb Fakültəsi (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemi üçün)	21	0	0	21
2	Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu	383	26	63	472
3	Naxçıvan Dövlət Universiteti	44	8	33	85
4	İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı	25	0	0	25
	BÜTÖVLÜKDƏ	**427**	**30**	**84**	**541**

Cədvəldən göründüyü kimi, müsabiqədə iştirak edən 541 namizədin 78.93%-i (427 nəfər) müalicə işi, pediatriya, 5.55%-i (30 nəfər) stomatologiya, 15.53%-i (84 nəfər) tibbi profilaktika istiqaməti üzrə imtahan verənlərdir.

Müsabiqədə iştirak edən namizədlərin 93.72%-i (507 nəfər) öz ərizəsində Azərbaycan Tibb Universitetinə (hərbi tibb fakültəsi ilə birlikdə 98.89% (535 nəfər)), 87.25%-i (472 nəfər) Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutuna aid olan ixtisasları qeyd edib.

İmtahanlarda iştirak üçün qeydiyyatdan keçən namizədlərin 24.93%-i rezidenturaya qəbul olub. Baza ali tibb təhsili istiqamətləri üzrə rezidenturaya qəbul olan namizədlərin sayı haqqında statistik məlumat 3.10 saylı cədvəldə təqdim edilib.

Cədvəl 3.10

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT

İstiqamət	Qəbul planı*	Qəbul olanların sayı			Qəbul olub (%)
		Azərbaycan bölməsi	Rus bölməsi	Cəmi	
I. Müalicə işi, pediatriya	357 (32)**	293 (28)	57 (0)	350 (28)	98.04 (87.50)
II. Stomatologiya	17	15	2	17	100.00
III. Tibbi profilaktika	51	49	1	50	98.04
C Ə M İ	**425 (32)**	**357 (28)**	**60 (0)**	**417 (28)**	**98.12 (87.50)**

*Birgə müsabiqə aparılan ixtisaslar üzrə qəbul olanların paylanması nəzərə alınaraq əsas (baza ali) tibb təhsili istiqamətlərinin qəbul planları dəqiqləşdirilib (bax: cədvəl 3.3).

**Mötərizədə o cümlədən hərbi tibb fakültəsi üzrə məlumat verilmişdir.

Cədvəldən göründüyü kimi, yalnız stomatologiya istiqaməti üzrə qəbul planı tam dolub. Qəbul planı ümumilikdə 98.12%, o cümlədən müalicə işi, pediatriya və tibbi profilaktika istiqamətlərinin hər biri üzrə 98.04% dolub.

Rezidenturaya sənəd verənlərin 681 nəfərini əsas (baza ali) tibb təhsilini cari ildə başa vuranlar (36.71%-i oğlanlar, 63.29%-i qızlar) təşkil edib. Tibb təhsili istiqamətləri üzrə onların paylanması belədir: Müalicə işi, pediatriya – 561 nəfər, stomatologiya – 49 nəfər və tibbi profilaktika – 71 nəfər. Cari ilin məzunlarından qəbul imtahanının I mərhələsində 573, II mərhələsində isə 372 nəfər iştirak edib və onların 235 nəfəri (istiqamətlər üzrə, müvafiq olaraq, 196, 11 və 28 nəfər) rezidenturaya qəbul olub. Cari ilin məzunlarının rezidenturaya qəbulolma göstəriciləri tam seçməyə nəzərən yüksək olub – 41.01%. Rezidenturaya qəbul olan məzunların 34.04%-ni oğlanlar, 65.96%-ni isə qızlar təşkil ediblər.

Əsas (baza ali) təhsili istiqamətləri üzrə rezidenturaya sənəd verən və qəbul olan oğlan və qız namizədlərin sayı barədə məlumat 3.11 saylı cədvəldə göstərilib. Rezidenturaya sənəd verən və qəbul olan namizədlərin seçmələrində oğlan və qızların sayca nisbi çəkilərində qismən dəyişiklik baş verib. Belə ki, rezidenturaya sənəd verən namizədlərin 40.29%-ni oğlanlar, 59.71%-ni qızlar təşkil etdiyi halda, qəbul olanlar seçməsində namizədlərin 32.85%-i oğlanlar, 67.15%-i isə qızlardır. Ümumiyyətlə, 2021-ci ildə rezidenturaya qəbul olmaq üçün sənəd verən qız namizədlərin rezidenturaya qəbulolma göstəriciləri (28.03%) oğlan namizədlərin qəbulolma göstəricilərindən (20.33%) yüksəkdir.

Cədvəl 3.11

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ ƏRİZƏ VERƏN VƏ QƏBUL OLAN OĞLAN VƏ QIZ NAMİZƏDLƏRİN SAYI HAQQINDA MƏLUMAT

İstiqamət	Ərizə verən				Qəbul olan			
	oğlanların		qızların		oğlanların		qızların	
	sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
I. Müalicə işi, pediatriya	604	43.17	795	56.83	123	35.14	227	64.86
II. Stomatologiya	45	39.82	68	60.18	8	47.06	9	52.94
III, Tibbi-profilaktika	25	15.53	136	84.47	6	12.00	44	88.00
C Ə M İ	**674**	**40.29**	**999**	**59.71**	**137**	**32.85**	**280**	**67.15**

Rezidenturaya qəbul olan namizədlərin topladıqları balların paylanma diaqramı 3.6 saylı şəkildə təqdim olunub. Diaqramdan görünür ki, qəbul olanların 41.25%-nin topladığı bal 50-59, 56.12%-nin topladığı bal isə 60-79 bal diapazonlarında yerləşir. Qeyd edək ki, maksimal toplanıla bilən bal 100-ə bərabər olub.

Klinik bazalar üzrə rezidenturaya qəbul olan namizədlərin sayı və orta bal göstəriciləri 3.12 saylı cədvəldə təqdim edilib. Cədvəldən aydın olur ki, Azərbaycan Tibb Universitetinə qəbul olan namizədlərin qəbul imtahanında topladıqları balların orta qiymətləri (həmin tibb müəssisələrinə qəbul olanları təmsil edən ortastatisik namizədin qəbul imtahanında topladığı bal) ən yüksəkdir. Bu klinik bazaya qəbul olan ortastatistik namizədin balı 64.616-ya bərabər olub.

QƏBUL OLAN NAMİZƏDLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.6

Nisbətən zəif hazırlıqlı namizədlər Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemləri üçün) qəbul olublar (ortastatistik namizədlərin qəbul imtahanında topladıqları ballar, müvafiq olaraq, 55.143 və 55.762-yə bərabərdir). Nəzərə almaq lazımdır ki, Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin məzunlarından təyinatla müxtəlif hərbi hissələrdə, eləcə də cəbhə bölgələrində ən azı 3 il işləyənlər sənəd vermək hüququ əldə edirlər.

Azərbaycan Tibb Universitetində 1 yer (bu təhsil müəssisəsi üçün ayrılmış plan yerlərinin 0.41%), Naxçıvan Dövlət Universitetində 3 yer (9.09%), Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsində 4 yer (12.50% - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi sistemi üçün ayrılan yerlərin 3-ü (30%-i), Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemi üçün ayrılan yerlərin 1-i (4.55%-i)) boş qalmışdır. Akademik Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı üçün ayrılan plan yerləri tam dolub.

Cədvəl 3.12

KLİNİK BAZALAR ÜZRƏ REZİDENTURAYA QƏBUL OLAN NAMİZƏDLƏRİN SAYI VƏ ORTA BAL GÖSTƏRİCİLƏRİ

	Tibb müəssisələri	Qəbul planı	Qəbul olanların sayı			Orta bal
			oğlan	qız	cəmi	
1	Azərbaycan Tibb Universiteti	246	65	180	245	64.616
	Hərbi Tibb Fakültəsi (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi sistemi üçün)	10	7	0	7	55.143
	Hərbi Tibb Fakültəsi (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemi üçün)	22	21	0	21	55.762
2	Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu	94	29	65	94	62.723
3	Naxçıvan Dövlət Universiteti	33	10	20	30	57.633
4	İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı	20	5	15	20	59.350
	C Ə M İ	**425**	**137**	**280**	**417**	**62.830**

COVID-19 pandemiyasının törətdiyi çətinliklərə baxmayaraq, Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələri nəzərə alınmaqla və profilaktik tədbirlərə riayət edilməklə Azərbaycan Tibb Universitetinin professor-müəllim heyətinin iştirakı ilə 2021/2022-ci tədris ili üçün rezidenturaya qəbul imtahanlarında istifadə olunmuş test tapşırıqlarının elmi-statistik təhlili aparılmışdır: ayrı-ayrı test tapşırıqları üzrə namizədlərin əldə etdikləri nəticələr təhlil edilib, onların cavablandırmaqda çətinlik çəkdikləri test tapşırıqları müzakirə olunub, tapşırıqların nisbətən çətin cavablandırılmasının səbəbləri araşdırılıb, bu səbəblərin aradan qaldırılması üçün müvafiq təklif və tövsiyələr hazırlanıb. Təhlillərdən əldə olunan nəticələr test bankının təkmilləşdirilməsi və zənginləşdirilməsi sahəsində işlər aparılarkən nəzərə alınır.

Qeyd etmək lazımdır ki, rezidenturaya qəbul imtahanı proqramları, eləcə də qəbul imtahanında istifadə olunacaq test tapşırıqlarının tipi və mürəkkəblik dərəcəsi haqqında məlumat, test tapşırığı nümunələri ilin əvvəlində "Abituriyent" jurnalının xüsusi buraxılışı olan "Rezidentura" jurnalının 1-ci və 2-ci saylarında dərc edilmişdi.

2021/2022-ci tədris ili üçün rezidenturaya qəbul imtahanlarında da ayrı-ayrı fənlər üzrə istifadə olunan test tapşırıqlarının mövzu və bölmələr üzrə paylanmasında onların nəzəri və praktiki əhəmiyyəti nəzərə alınmışdır. Bütün istiqamətlər üzrə test blokuna terminoloji, faktoloji, ümumiləşdirmə, izahat tələb edən, uyğunluğun müəyyən edilməsi və təklif olunan fəaliyyət kateqoriyalı, çətinlik dərəcəsinə görə sadə, orta və mürəkkəb olan test tapşırıqları daxil edilmiş, bununla da namizədlərin qəbul proqramı üzrə materialı necə mənimsədiyini dəqiq qiymətləndirmək, eləcə də bilik və bacarıqlarını tətbiq etmək qabiliyyətlərini yoxlamaq mümkün olmuşdur.

Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında istifadə olunan 100 (yüz) test tapşırığından 10-u (normal fiziologiya fənnindən və patologiya blokundan), ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında isə istifadə olunan 100 (yüz) test tapşırığından 5-i (müalicə işi, pediatriya istiqaməti üzrə daxili xəstəliklər blokundan, stomatologiya istiqaməti üzrə terapevtik stomatologiya fənnindən, tibbi profilaktika istiqaməti üzrə epidemiologiya fənnindən) açıq formalı idi.

Baza fənləri üzrə namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri bəzi test tapşırıqlarının izahını təqdim edirik.

İnsan anatomiyası fənni üzrə "Kəllə sümükləri və onların birləşmələri", "Mərkəzi sinir sisteminin anatomiyası", "Damar sistemi haqqında məlumat", "Kiçik və böyük qan dövranı damarları", "Duyğu orqanlarının morfofunksional anatomiyası", "Periferik sinir sisteminin anatomiyası", "Cinsiyyət və endokrin orqanlarının morfofunksional anatomiyası", "Yuxarı və aşağı boş vena sistemləri", "Gövdənin əzələlərinin və fassiyalarının morfofunksional anatomiyası", "Qapı venası. Venoz anastomozlar", "Ətraf əzələlərinin və fassiyalarının morfofunksional anatomiyası", "Tənəffüs sistem orqanlarının morfofunksional anatomiyası" və s. bölmələri üzrə bilikləri yoxlayan test tapşırıqları təqdim edilmişdi. Elmi-metodik təhlildən məlum olur ki, müalicə işi, pediatriya istiqaməti üzrə ***insan anatomiyası*** fənninin "Kəllə sümükləri və onların birləşmələri" bölməsi üzrə təqdim olunan test tapşırığının cavablandırılmasında namizədlər daha çox çətinlik çəkib. Həmin test tapşırığının şərhini təqdim edirik.

B variantı, 1 saylı test tapşırığı

Gicgahaltı çuxurda yerləşən törəmələri müəyyən edin:
1. Əng siniri
2. Çənə siniri
3. Əng arteriyasının qanadabənzər hissəsi
4. Qanad-damaq düyünü
5. Qanadabənzər venoz kələf
6. Əsas-damaq arteriyası

A) 3, 4, 5 B) 1, 2, 6 C) 1, 5, 6 D) 2, 3, 5 E) 2, 4, 6

Namizədlərin 16,99%-nin doğru cavablandırdığı test tapşırığı çətinlik dərəcəsinə görə mürəkkəbdir (doğru cavab: D).

Kəllənin və onun anatomik törəmələrinin topoqrafiyasının öyrənilməsi bir çox sinir xəstəliklərinin (məsələn, nevralgiyaların), qanaxmaların diaqnostikası və müalicəsində mühüm əhəmiyyət kəsb edir. Test tapşırığında göstərilən törəmələrdən çənə siniri, əng arteriyasının qanadabənzər hissəsi və qanadabənzər venoz kələf gicgahaltı çuxurda yerləşir. Namizədlərin əksəriyyətinin (25,28%-nin) seçdiyi A bəndini təhlil etdikdə aydın olur ki, onlar digər iki anatomik törəməni doğru müəyyən etsələr də, qanad-damaq düyününün gicgahaltı çuxurda yerləşdiyini hesab etmişlər. Lakin qanad-damaq düyünü qanadabənzər-damaq çuxurunda

yerləşir. Bu çuxur gicgahaltı çuxurdan içəridə yerləşir (bax: Şadlinski V.B., Mövsümov N.T., Qasımov Ş.İ. və b. İnsan anatomiyası: 3 cilddə, Bakı: Müəllim, III cild, 2019, s. 65, 175, 239; Şadlinski V.B., Qasımov Ş.İ., İsayev A.B., Hüseynov B.M. İnsan anatomiyası. Rezidenturaya hazırlaşanlar üçün vəsait. TQDK – "Abituriyent", Bakı: 2015, s.291, 313, 420; Шадлинский В.Б., Касумов Ш.И., Исаев А.Б., Гусейнов Б.М. Анатомия человека /пособие для поступающих в резидентуру. ГЭЦ: Print House Poliqrafaz, Баку: 2020, с. 288, 311, 418; Шадлинский В.Б., Сапин М.Р., Мовсумов Н.Т. Анатомия человека: Баку: Муаллим, 2010, том 2, с. 63, 136, 433).

Namizədlərin 23,03%-nin seçdiyi B bəndinə aid edilmiş 1-ci bənddə göstərilən əng siniri girdə dəlikdən qanadabənzər-damaq çuxuruna daxil olur. Əng və çənə sinirlərinin üçlü sinirin müvafiq olaraq II və III şaxələri olduğu məlumdur. Bu isə namizədlərin həm üçlü sinirin, həm də kəllə əsasının topoqrafiyası barədə kifayət qədər biliyə malik olmadığını göstərir. Əgər əng sinirinin girdə, çənə sinirinin isə oval dəlikdən kəllə əsasına çıxdığını və kəllənin orta çuxurunun girdə dəlik vasitəsilə qanadabənzər-damaq çuxuru ilə, oval dəlik vasitəsilə isə gicgahaltı çuxurla əlaqələndiyini nəzərə alsaq, əng sinirinin qanadabənzər-damaq çuxuruna, çənə sinirinin isə gicgahaltı çuxura daxil olduğunu asanlıqla müəyyən etmək olar. Qeyd edilənlər C bəndini seçmiş namizədlərə (17,98%) də aiddir. B, C, eləcə də E (16,15%) bəndlərini seçən namizədlər əsas-damaq arteriyasının da gicgahaltı çuxurda yerləşdiyini hesab etmişlər. Bu arteriya qanadabənzər-damaq çuxurunda əng arteriyasından ayrılır, eyniadlı dəlikdən burun boşluğuna daxil olur, burunun selikli qişasına, əng cibinə və s. şaxələr verir. Əng arteriyası topoqrafo-anatomik cəhətdən 3 hissəyə bölünür:

1. Çənə boynuna dolanan **çənə hissə;**
2. Gicgahaltı çuxurda yerləşən **qanadabənzər hissə**;
3. Qanadabənzər-damaq çuxurunda yerləşən **qanadabənzər-damaq hissə**.

B və E bəndlərini seçmiş namizədlər qanadabənzər venoz kələfin gicgahaltı çuxurda yerləşmədiyini düşünürək səhvə yol vermişlər. Belə ki, bu kələf əng sümüyü cisminin arxasında gicgahaltı çuxurda yerləşir, beyinin sərt qişasının orta venasından venoz qanı qəbul edir. Stomatoloji praktikada aparılan tuberal anesteziya texnikasının pozulması ilə əlaqədar bu kələfin zədələnməsinə və hematomanın əmələ gəlməsinə rast gəlinir.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, namizədlərin bu test tapşırığını cavablandırarkən səhvə yol vermələrinin səbəbi kəllənin topoqrafiyası barədə kifayət qədər məlumatlı olmamalarıdır.

2021-ci ildə də ***histologiya*** fənni üzrə sitologiya, embriologiya, ümumi və xüsusi histologiya üzrə 7 test tapşırığı təqdim edilib. Bu tapşırıqlar "İfrazat, cinsiyyət sistemi orqanlarının ümumi quruluş-funksiya səciyyəsi", "Ürək-damar, immun müdafiə sistemi orqanlarının ümumi quruluş-funksiya səciyyəsi. Qanyaranma", "Toxumalar: təsnifatı, quruluş-funksiya səciyyəsi", "Hüceyrə, plazmolemma, sitoskelet, orqanellər və əlavələr" və s. bölmələri əhatə edir. Elmi-metodik təhlildən aydın olur ki, bu il də namizədlər histologiya fənni üzrə təqdim olunan bir çox test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkib. Bu fənn üzrə namizədlərin daha çox çətinlik çəkdiyi (müalicə işi, pediatriya istiqaməti üzrə) test tapşırığının şərhini təqdim edirik.

B variantı, 15 saylı test tapşırığı

Xüsusiyyətlər	Hüceyrə
1. Nüvəyə malik deyil 2. Sitoplazmada qocalmış mitoxondrilər, endoplazmatik şəbəkə və ribosom qalıqları vardır 3. Qırmızı sümük iliyindən qana keçir	X

X-i müəyyən edin.

A) retikulosit B) bazofil eritroblast C) eritrosit
D) proeritroblast E) eritroblast

Namizədlərin 27,39%-nin doğru cavablandırdığı "Ürək-damar, immun müdafiə sistemi orqanların ümumi morfofunksional xüsusiyyətləri" bölməsinə aid bu test tapşırığı çətinlik dərəcəsinə görə mürəkkəbdir (doğru cavab: A).

Qanyaranma prosesi yetkin orqanizmdə qırmızı sümük iliyində baş verir. Qanyaranmanın unitar nəzəriyyəsinə görə bütün qan hüceyrələrinə başlanğıc verən hemopoetik kök hüceyrə qırmızı sümük iliyində yerləşir. Hemopoetik kök hüceyrələrin bölünməsi nəticəsində mielopoezin və limfopoezin polipotent sələf hüceyrələri, bu hüceyrələrin bölünməsindən isə müvafiq olaraq, ayrı-ayrı qan hüceyrələrinə başlanğıc verən oliqopotent və unipotent sələf hüceyrələr yaranır.

Eritropoez eritrositlərin yaranması prosesidir. Məlumdur ki, eritropoez zamanı əvvəlcə partlayıştörədici vahid – BFU-E yaranır və onun bölünməsi nəticəsində Koloniya törədici vahid-E (KtV-E) adlanan eritropoezin çoxlu sayda unipatent sələf hüceyrələri meydana çıxır. KtV-E-nin proliferasiyası və diferensiasiyası zamanı proeritroblastlar formalaşır. Sonra isə proeritroblastlardan ardıcıl olaraq eritroblastlar, retikulositlər və nəhayət eritrositlər diferensiasiya edir.

Namizədlərin 7,16%-nin seçdiyi D bəndində göstərilmiş proeritroblast mitoz aktivliyinə malik iri ölçülü hüceyrədir, nüvəyə, bazofil sitoplazmaya və yaxşı inkişaf etmiş orqanellərə malikdir. Proeritroblastların bölünməsi nəticəsində yaranan hüceyrələr eritroblastlara diferensiasiya edir.

Namizədlərin 7,87%-nin seçdiyi E bəndində göstərilmiş eritroblastların diferensiasiyası zamanı bu hüceyrələrin ardıcıl olaraq üç növü əmələ gəlir: bazofil eritroblastlar, polixromatofil eritroblastlar və oksifil eritroblastlar. Diferensiasiyanın bu mərhələlərində tədricən hüceyrələrin ölçüləri kiçilir, nüvə xromatini kondensasiyaya uğrayır, orqanellərdə müəyyən dəyişikliklər baş verir.

Eritrositlərin inkişafı

Eritropoez prosesi zamanı hemoqlobin sintezi ilə əlaqədar olaraq eritroblastlarda dənəli endoplazmatik tor elementləri maksimal inkişaf səviyyəsinə çatır, buna görə də onların sitoplazması bazofil olur. Beləliklə, ilk olaraq namizədlərin 8,85%-nin seçdiyi B bəndində göstərilmiş bazofil eritroblastlar diferensiasiya edir. Bu hüceyrələr bölünmə qabiliyyətini saxlayır.

Diferensiasiyanın sonrakı mərhələsində kondensə olunmuş xromatinə malik nüvə piknozlaşaraq hüceyrədən kənarlaşdırılır. Beləliklə, nüvəsini itirmiş oksifil eritroblast retikulositə çevrilir. Retikulositin sitoplazmasının hemoqlobinlə zəngin olmasına baxmayaraq, burada hələ də dezinteqrasiyaya uğramış orqanel (endoplazmatik şəbəkə, ribosom, qocalmış mitoxondrilər) qalıqları olur, bu da sitoplazmaya torlu görünüş verir. Retikulositlər 6-8 mkm diametrə malik olur, qırmızı sümük iliyindən qan cərəyanına keçir və 24-48 saat ərzində yetkinləşərək eritrositlərə çevrilir (bax: Кузнецов С.Л., Мушкамбаров Н.Н. Гистология, цитология и эмбриология. Учеб. для мед. ВУЗов. М.: ООО "МИА", 2012, с. 330; Султанова Т.А., Эюбова Г.М., Наджафова Т.М. Гистология (цитология, эмбриология, общая и частная гистология /пособие для поступающих в резидентуру. ГЭЦ: Print House Poliqrafaz, Баку: 2019, с.169, 370).

Retikulositlər sirkulyasiya edən eritrositlərin 1-2%-ni təşkil edir. Normal fizioloji şəraitdə qırmızı sümük iliyindən qana daxil olan retikulositlərin sayı öz həyat tsiklini başa vuraraq kənarlaşdırılan eritrositlərin sayına bərabər olur. Supravital boyama zamanı retikulositlərin sitoplazmasında zəif bazofil torlu strukturlar (ribosom RNT qalıqlarının boyanması nəticəsində) görünür.

Namizədlərin əksər hissəsinin (48,67%-nin) seçdiyi C bəndində göstərilmiş eritrositlərin elektron mikroskopiyası zamanı nəinki nüvə, hətta digər orqanellər, həmçinin onların qalıqları belə aşkar edilmir. Eritrositlərin sitoplazmasında sitoskeletin müəyyən elementləri saxlanılır, sitoplazmanın həcminin əsas hissəsini burada diferensiasiya zamanı toplanmış hemoqlobin təşkil edir. Eritrositin funksiyalarının icra olunmasında, əsasən, hemoqlobin (həmçinin sitoplazmada olan karboanhidraza fermenti), membran zülalları, onlarla əlaqəli olan sitoskelet elementləri və kortikal sitoplazma zülalları iştirak edir.

Yekun olaraq qeyd etmək lazımdır ki, namizədlər eritropoez sırası hüceyrələrinin, xüsusən də sələf və yetkin hüceyrələrin səciyyəvi əlamətlərinin öyrənilməsində diqqətli olmalıdırlar. Çünki bu parametrlər tibbi diaqnostikada vacib əhəmiyyətə malikdir. Test tapşırığının düzgün cavablandırması üçün qan və qanyaradıcı orqanlar üzrə biliklərin ümumiləşdirilməsi tələb olunur

Normal fiziologiya fənnindən "İfrazat sisteminin fiziologiyası", "Analizatorlar", "Sinir hüceyrələrinin fiziologiyası", "Oyanan toxumaların ümumi fiziologiyası", "Tənəffüs sisteminin fiziologiyası", "Əzələlərin fiziologiyası", Həzm sisteminin fiziologiyası", "Vegetativ funksiyaların sinir tənzimi", "Ürək fəaliyyətinin fiziologiyası", "Daxili sekresiya vəzlərinin fiziologiyası. Fizioloji funksiyaların hormonal tənzimi", "Maddələr və enerji mübadiləsi. Qidalanma", "Orqanizmin inteqrativ fəaliyyəti" və s. mövzular üzrə bilik və bacarıqları yoxlayan test tapşırıqları təqdim edilmişdir. Namizədlər müalicə işi, pediatriya istiqaməti üzrə

daha çox "Əzələlərin fiziologiyası"bölməsinə aid olan test tapşırığının həllində çətinlik çəkmişlər. Bu fənn üzrə namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik.

B variantı, 91 saylı test tapşırığı

Əzələnin yığılma sürəti ..... sayı ilə düz mütənasibdir.

A) sarkomerin miofibrillərinin
B) motor vahidindəki liflərin
C) sinapslarda mediator qovuqcuqlarının
D) əzələ lifinin sarkomerlərinin
E) əzələni innervasiya edən sinir liflərinin

Namizədlərin 18,26%-i tərəfindən doğru cavablandırılmış test tapşırığı çətinlik dərəcəsinə görə mürəkkəbdir (doğru cavab: D).

Əzələnin yığılma sürəti "əzələ lifinin sarkomerlərinin" sayı ilə düz mütənasibdir, belə ki, skelet əzələsinin bir lifi yığılarkən hər bir sarkomerin yaratdığı gərginlik digər sarkomerlərlə eyni olur. Sarkomerlərin ardıcıl birləşməsi nəticəsində əzələ lifinin yığılma sürəti onun sarkomerlərinin sayı ilə mütənasib olaraq artır. Ona görə də uzun əzələ liflərində qısalma sürəti qısa liflərə nisbətən daha çox olur (bax: Физиология человека. /Под ред. В.М.Покровского и Г.Ф. Коротько. 2-е изд. М.: Медицина, 2003, с.82; Бахшиева З.Т., Рустам-заде А.Ш., Алиев А.Х., Гасанова Г.А. Нормальная физиология /пособие для поступающих в резидентуру. ГЭЦ: Print House Poliqrafaz, Баку: 2019, с. 42).

Namizədlərin 25,84%-nin seçdiyi A bəndində göstərilmiş "sarkomerin miofibrillərinin" sayı yığılma zamanı əzələnin mütləq gücünün artmasına səbəb ola bilər.

B bəndində göstərilmiş "motor vahidindəki liflərin" sayının çox olması gövdədə və ətrafların proksimal şöbələrində rast gəlinir ki, burada yığılma sürəti və hərəkətin koordinasiyası nisbətən daha zəif olur. Namizədlərin 19,38%-i bu bəndi seçmişdir.

C bəndində (12,08%) göstərilmiş "sinapslarda mediator qovuqcuqlarının" sayı əzələnin yığılma gücü və ya sürəti üçün deyil, sinaptik yorulma üçün əhəmiyyətlidir.

E bəndində (23,31%) göstərilmiş "əzələni innervasiya edən sinir liflərinin" sayı əzələ lifinin oyanması üçün əhəmiyyət kəsb edir. Hər bir lif oyanarkən onun yığılma gücü "hamı və ya heç nə" qanununa tabe olur, buna görə də sinir liflərinin sayı yığılma gücünə və sürətinə təsir etmir.

Patologiya bloku üzrə *patoloji fiziologiya* **fənnində "Qaraciyərin patolofiziogiyası", "Allergiya", "Həzm sisteminin patofiziologiyası", "İltihab", "İrsiyyətin və konstitusiyanın patologiyada rolu", "Ekstremal vəziyyətlər. Ümumi adaptasiya sindromu", "Su-elektrolit mübadiləsinin pozulması", "Qanın fiziki-kimyəvi xassələrinin pozulması", "Endokrin sisteminin patofiziologiyası", "Mikrosirkulyasiyanın və yerli qan dövranının pozulması" və s. mövzular üzrə bilik və bacarıqları yoxlamağa imkan verən test tapşırıqlarından istifadə edilmişdir. Aparılmış elmi-metodik təhlil zamanı aşkar olunmuşdur ki, müalicə işi, pediatriya istiqaməti üzrə "Qaraciyərin patoloji fiziologiyası" bölməsinə aid olan test tapşırığının cavablandırılmasında namizədlər çətinlik çəkmişlər. Həmin test tapşırığının şərhini təqdim edirik.**

B variantı, 73 saylı test tapşırığı

Prehepatik sarılıqla müşayiət edilir:

A) Rotor sindromu
B) Gilbert sindromu
C) Kuli xəstəliyi
D) Dubin-Johnson sindromu
E) öddaşı xəstəliyi

Namizədlərin 22,05%-nin doğru cavablandırdığı test tapşırığı orta çətinlik dərəcəsinə malikdir (doğru cavab: C).

Sarılıq qanda bilirubinin miqdarının artması nəticəsində yaranan sindromdur. Patogenezinə görə sarılığın üç növü ayırd edilir:

- prehepatik (hemolitik);
- intrahepatik (parenximatoz);
- posthepatik (mexaniki).

Prehepatik sarılıq eritrositlərin hemolizinin sürətlənməsi ilə əlaqədardır. Hemolitik anemiya törədən bütün amillər prehepatik sarılığın yaranmasına səbəb ola bilər. Test tapşırığının C bəndində göstərilən Kuli xəstəliyi (β-talassemiya) eritrositlərin parçalanmasının sürətlənməsi ilə müşayiət olunan patologiyalara aiddir.

İntrahepatik sarılıq hepatositlərin bilirubini tutmaq, qlükuron turşusu ilə birləşdirmək və öd yollarına ifraz etmək qabiliyyətinin ayrı-ayrılıqda və ya qarışıq şəkildə pozulması ilə əlaqədardır. Bu baxımdan sarılığın bu

növünün qaraciyər-hüceyrə, enzimopatik və xolestatik formaları ayırd edilir. Namizədlərin, müvafiq olaraq, 6,88%-i, 28,65%-i və 10,53%-nin seçdiyi A, B və D bəndlərində göstərilən Rotor, Gilbert və Dabin-Conson sindromlarında intrahepatik enzimopatik sarılıq müşahidə edilir. Belə ki, bu patologiyalarda sarılıq bilirubin metabolizmində iştirak edən fermentlərin və qaraciyərdə piqment mübadiləsində rol oynayan zülalların genetik çatışmazlığı nəticəsində inkişaf edir.

Posthepatik sarılıq ödün qaraciyərdən ifraz edilməsinin çətinləşməsi nəticəsində yaranır. Namizədlərin 31,18%-nin seçdiyi E bəndində göstərilən öddaşı xəstəliyi belə patologiyalardan biridir (bax: Əliyev S.C., Əliyev M.X. Patoloji fiziologiya. 2-ci cild. Bakı: Təbib, 2016, s.218; Əliyev S.C., Əliyev M.X., Əliyeva C,T., Pənahova S.R. Patoloji fiziologiya/dərs vəsaiti. DİM, Bakı: Print House Poliqrafaz, 2020, c. 418; Алиев С.Дж., Алиев М.Х., Панахова С.Р., Алиева Дж.Т. Патологическая физиология /пособие для поступающих в резидентуру. ГЭЦ: Print House Poliqrafaz, Баку: 2019, с. 425; Новицкий В.В., Гольдберг Е.Д., Уразова О.И. Патофизиология. М.: ГЭОТАР-Медиа, 2010, том 2, с.411; Robbins, Kumar V., Abdul K.Abbas, N.Fausto, Ricard N.Mitchell. Basic Pathology. 8-th edition. 2007, p. 639)

Patologiya blokunda ***patoloji anatomiya*** fənni üzrə "Ateroskleroz. Hipertenziya (arterial hipertoniya xəstəliyi)", "Böyrək xəstəlikləri", "Həzm traktı xəstəlikləri", "Sinir sisteminin xəstəlikləri", "Vərəm", "Şişlər", "Tənəffüs sistemi xəstəlikləri. Peşə xəstəlikləri", "Parenximatoz, mezenximal və qarışıq distrofiyalar", "Hüceyrə ölümü (nekroz və apoptoz). Ölüm, meyit əlamətləri" və s. bölmələr üzrə bilik və bacarıqları yoxlamağa imkan verən test tapşırıqlarından istifadə edilmişdir.

Müalicə işi, pediatriya istiqaməti üzrə namizədlərin cavab verməkdə çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik.

B variantı, 64 saylı test tapşırığı

Hemorragik insultun növü olan hemorragik hopma üçün səciyyəvi ***deyil***:

A) kistanın yaranması
B) nekrobiotik dəyişikləri olan sinir hüceyrələri
C) boz yumşalma ocağı
D) ocağın sərhədlərinin dəqiq olmaması
E) bir-biri ilə birləşən xırda qansızma ocaqları

Namizədlərin 17,56%-nin doğru cavablandırdığı test tapşırığı "Sinir sisteminin xəstəlikləri" bölməsinə aiddir, orta çətinlik dərəcəsinə malikdir (doğru cavab: C).

Hemorragik insult baş beyinə qansızma ilə səciyyələnən kəskin qan dövranı pozulmasıdır və 3 növü vardır:

- hematoma;
- hemorragik hopma;
- subaraxnoidal qansızma.

Hemorragik hopma damarlardan massiv diapedez qanaxma (petexial qansızmalar) nəticəsində inkişaf edir. Damar mənfəzindən çıxan eritrositlər beyin maddəsinin struktur elementləri arasındakı sahəyə daxil olur və beyin maddəsinə hopur. Namizədlərin 12,20%-nin doğru cavab kimi seçdiyi B bəndində də göstərildiyi kimi, neyronlar ağır distrofik və nekrobiotik dəyişikliklərə məruz qalaraq nekrozlaşır (Həsənov Ə.B. Patoloji anatomiya. Dərslik. Bakı: Elm, 2003, s. 336; Серов В.В., Струков А.И. Патологическая анатомия. М.: Медицина 1995, с. 282).

D bəndində göstərilmiş ocağın sərhədlərinin dəqiq olmaması, eləcə də E bəndində verilmiş bir-biri ilə birləşən xırda qansızma ocaqları hemorragik hopma üçün səciyyəvi xüsusiyyətlərdir. Namizədlərin 47,19%-i A bəndini doğru cavab kimi seçmişdir. Lakin hemorragik hopma kistanın əmələ gəlməsi ilə nəticələnir. Baş beyində nekroz ocaqlarının yerində kistanın yaranması prosesi "Nekroz" bölməsində də təsvir edilmişdir. Baş beyinin həm işemik, həm də hemorragik insultu kistanın əmələ gəlməsi ilə nəticələnir.

Hemorragik hopma zamanı qansızma ocaqlarının yerində beyinin qırmızı yumşalması baş verir. Boz yumşalma isə baş beyinin işemik infarktı üçün səciyyəvidir.

Mikrobiologiya fənni üzrə təqdim olunmuş test tapşırıqları ümumi və xüsusi mikrobiologiya, xüsusi virusologiya, tibbi mikologiya, tibbi parazitologiya, eləcə də klinik mikrobiologiya sahəsində namizədlərin bilik və bacarıqlarını yoxlamağa imkan vermişdir. Test tapşırıqları "Aerob və fakultativ-anaerob qram müsbət çöpvari bakteriyalar", "İmmunologiyanın əsasları", "Tənəffüs yolları infeksiyalarının mikrobiologiyası və diaqnostika prinsipləri", "Mikroorqanizmlərin ekologiyası", "İnfeksion xəstəliklərin kimyəvi terapiyası və profilaktikası", "Patogen və şərti-patogen enterobakteriyalar", "Patogen və şərti patogen anaeroblar", "Patogen xlamidiyalar", "RNT-tərkibli viruslar", "Tibbi mikologiya" və s. bölmələr üzrə bilik və bacarıqları yoxlamağa imkan vermişdir.

Təhlilə əsasən belə qənaətə gəlmək olar ki, namizədlər öz nəzəri biliklərini lazımi səviyyədə sistemləşdirə bilmir və nəticədə test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkirlər. Müalicə işi, pediatriya istiqaməti üzrə biliklərin ümumiləşdirilməsini tələb edən test tapşırığının cavablandırılmasında namizədlər daha çox çətinlik çəkmişlər. Həmin test tapşırığının şərhini təqdim edirik.

B variantı, 26 saylı test tapşırığı

Meningeal əlamətləri olan 3 həftəlik yenidoğulmuşun onurğa beyni mayesi kulturasından indol (+), laktoza (+), katalaza (+), oksidaza (-), qram (-), hərəkətli bakteriyalar izolə edilmişdir. Törədicini müəyyən edin:

A) *Streptococcus agalactiae* B) *Neisseria meningitidis* C) *Listeria monocytogenes*
D) *Escherichia coli* E) *Klebsiella pneumoniae*

Namizədlərin 19,52%-nin doğru cavablandırdığı test tapşırığı "Patogen və şərti patogen enterobakteriyalar" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə mürəkkəbdir (doğru cavab: D).

Test tapşırığının cavab bəndlərində göstərilən bütün mikroorqanizmlər meningitin törədiciləridir. Tapşırığı həll etmək üçün onun şərtində göstərilən məlumatları diqqətlə təhlil etmək vacibdir. Belə ki, namizədlərin 8,99%-nin seçdiyi A bəndində göstərilmiş *Streptococcus agalactiae* yeni doğulmuşlarda meningit törədə bilər. Lakin *Streptococcus agalactiae* qram müsbət bakteriyadır (Qarayev Z.Ö., Qurbanov A.İ. Tibbi mikrobiologiya və immunologiya. Bakı: Təbib, 2010, s. 371-371, 374; Qarayev Z.Ö., Bayramlı R.R. Tibbi mikrobiologiya, immunologiya və klinik mikrobiologiya. Təcrübə məşğələlərinə rəhbərlik. Bakı: Təbib, 2011, s. 273; Медицинская микробиология, вирусология и иммунология. /Под ред. А.А.Воробьева. М.: Мед.информ. агентство, 2004, с. 355, 356; Jawetz, Melnick & Adelberg. Medical microbiology. 27th edition, 2016, p. 231-233).

Namizədlərin əksəriyyəti (50,14%-i) bakteriyanın adı ilə tapşırığın şərtində göstərilmiş xəstəliyin adının oxşar olduğu B bəndini (*Neisseria meningitidis*) seçmişdir. Baxmayaraq ki, *Neisseria meningitidis* də meningit törədə bilər və qram mənfidir, bu törədici hərəkətsizdir və indol əmələ gətirmir.

Namizədlərin 14,19%-nin seçdiyi C bəndində göstərilmiş *Listeria monocytogenes* hərəkətlidir, katalaza müsbətdir, lakin o, qram müsbətdir və indol əmələ gətirmir.

Namizədlərin 7,02%-nin seçdiyi E bəndində göstərilmiş törədici (*Klebsiella pneumoniae*) isə hərəkətsiz bakteriyadır.

Doğru cavabda göstərilmiş *Escherichia coli* test tapşırığında sadalanan bütün xüsusiyyətlərə malikdir.

Farmakologiya fənni üzrə təqdim olunmuş test tapşırıqları ötən illərdə olduğu kimi farmakokinetika, farmakogenetika və xronofarmakologiya, qan sisteminə və həzm sistemi orqanlarının motor funksiyasına təsir göstərən dərman maddələri sahəsində, eləcə də dərman maddələrinin təsir mexanizminə dair namizədlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi daşıyır. Bu fənn üzrə təqdim olunmuş test tapşırıqları "Həzm sistemi orqanlarının motor funksiyasına təsir göstərən dərman maddələri", "Vitamin və ferment preparatları", "Steroid quruluşlu hormon preparatları", "Allergiya əleyhinə dərman maddələri", "Spesifik antimikrob dərman maddələri", "Ümumi reseptura", "Avtonom sinir sisteminə təsir göstərən dərman maddələri", "Psixoleptiklər" və s. bölmələr üzrə bilik və bacarıqları yoxlamağa imkan verir.

Müalicə işi, pediatriya istiqaməti üzrə namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik.

B variantı, 37 saylı test tapşırığı

Prednizolonun təsir mexanizmi:
A) hüceyrə membranı reseptorlarının oyanması
B) hüceyrə membranının ion kanallarının blokadası
C) fermentlərin transmembran axınının stimulyasiyası
D) sitoplazmatik reseptorlarla birləşməsi
E) kalmodulinin stimulyasiyası

Namizədlərin 17,28%-nin doğru cavablandırdığı test tapşırığı "Steroid quruluşlu hormon preparatları" bölməsinə aiddir, orta çətinlik dərəcəsinə malikdir (doğru cavab: D).

Dərmanların təsir mexanizmi onların hədəflərlə qarşılıqlı əlaqəsi ilə izah olunur. Bu hədəflərdən biri də reseptorlardır. Prednizolon qlükokortikoidlərin sintetik analoqudur. Steroidlərin hədəf hüceyrələrə təsir

mexanizmi bu molekulların hüceyrəyə transmembran ötürülməsi ilə (hüceyrə membranının lipid qatında onların həll olmasına görə) başlayır, sonra hormon sitoplazmatik zülal-reseptorla birləşir. Reseptor zülalı ilə bu əlaqə steroid hormonun nüvəyə daxil olması və nüvə reseptoru ilə qarşılıqlı əlaqəsi üçün zəruridir. Hormon-nüvə reseptor kompleksinin sonrakı qarşılıqlı əlaqəsi spesifik mRNT-nin transkripsiyasının aktivləşməsinə, nəqliyyat və ribosom RNT-lərinin sintezinə, ilkin RNT transkriptlərinin prosessinqinə və mRNT-nin sitoplazmaya daşınmasına, nRNT-nin lazımi səviyyəsində ribosomlarda zülalların və fermentlərin sintezi ilə müşayiət olunan mRNT-nin translyasiyasına səbəb olur.

Əksər dərmanlar və endogen liqandların təsiri namizədlərin 17,28%-nin seçildiyi A bəndində göstərilən hüceyrə membranı reseptorlarının oyanması yolu ilə həyata keçir. Metabotrop reseptorlar oyandıqda, birincili (hormonlar, neyrotransmitterlər və s.) və ikincili messencerlər sisteminin iştirakı mümkündür. Birincili messencerlər, adətən, yüksək hidrofilliyə malik molekullar (məsələn, epinefrin və ya serotonin) olduğundan hüceyrədaxili fizioloji dəyişikliklərin kaskadının işə salınması üçün hüceyrə membranının fosfolipid qatını keçə bilmir. İkincili vasitəçilər kiçik qeyri-zülal molekullardır – tsAMF, tsQMF, inozitoltrifosfat, diasilqliserol, kalsium ionları, azot oksidi. Steroidlərin təsir mexanizmi sadalanan proseslərlə əlaqədar deyil.

Namizədlərin 42,42%-nin seçildiyi B bəndində göstərilən ion kanalları hüceyrənin sitoplazması ilə xarici mühit arasında ionların hərəkətini təmin edən bir nəqliyyat mexanizmi hesab edilir və bir çox dərmanlar üçün hədəf rolu oynayır. Bu kanalların həm aktivləşdirilməsi, həm də blokadası mümkündür. Məsələn, kalium kanalının aktivatorları (minoksidil, diazoksid) antianginal və hipotenziv təsir göstərir. Natrium kanallarının blokatorları natrium kanalları vasitəsilə natrium ionlarının keçiriciliyinə mane olur. Bu qrupa aid dərman maddələri antiaritmik preparatlar, lokal anestetiklər, antikonvulsantlar və s. kimi istifadə olunur.

Bəzi dərmanların təsir mexanizmi funksiyaları pozulmuş hüceyrələrdə məhz müəyyən fermentləri aktivləşdirməsi və ya inhibə etməsi ilə əlaqədardır. Məsələn, C vitamini oksid-reduktazaların fəaliyyətini artırır, qeyri-steroid iltihabəleyhinə preparatlar siklooksigenazaları inhibisiya edir. Namizədlərin 17,98%-i C bəndini seçmişdir. Fermentlərin axınına, daha doğrusu, fermentin aktiv mərkəzinin zülal sahəsinin hərəkətinə təsir maddələrin fermentə birbaşa təsiri ilə baş verir. Enzim sistemlərinin steroid dərmanların təsirinin həyata keçirilməsində iştirakına baxmayaraq, onlar transmembran fermentlərinə təsir etmir, aktiv mərkəzdəki axınlara və xüsusən də onların stimullaşdırılmasına və ya inhibisiyasına birbaşa təsir göstərmir.

Namizədlərin 4,49%-nin seçildiyi E bəndində göstərilən kalmodulin bütün eukariotik hüceyrələrin sitoplazmasında olan kalsium-birləşdirici zülaldır. Kalmodulin özü fermentativ aktivliyə malik deyil, lakin bir çox fermentlərin (proteinkinazalar, proteinfosfatazalar, fosfodiesterazalar, əzələ hərəkəti fermentləri) subvahididir. Kalmodulin iltihab, maddələr mübadiləsi, apoptoz, saya əzələlərin yığılması, hüceyrədaxili hərəkət, qısa və uzunmüddətli yaddaş, immun cavab kimi bir çox proseslərdə iştirak edir. Kalmodulin endoplazmatik və sarkoplazmatik retikulumdakı kalsium ehtiyatlarından da istifadə edə bilər. Misal olaraq norepinefrinin təsirini göstərmək olar. Norepinefrin α_1-adrenergik reseptoru stimullaşdırır, bu da G_q-zülalının α-subvahidinin və fosfolipaza C-nin aktivləşməsinə, I_3F və Ca^{2+} konsentrasiyasının artmasına səbəb olur. Ca^{2+} kalmodulinlə birləşir, nəticədə miozinkinaza aktivləşir, miozinin yüngül zəncirləri fosforlaşır, miozin aktinlə qarşılıqlı əlaqəyə girir və nəticədə saya əzələ hüceyrələrinin yığılması baş verir. Kalmodulin steroid quruluşlu maddələrin təsir mexanizmində iştirak etmir.

Namizədlərin diqqətinə çatdırmaq istərdik ki, "Farmakologiya" dərsliyindən (bax: Qəniyev M.M. Farmakologiya. Dərslik, Bakı: Təbib, II cild, 2014, s. 461; Харкевич Д.А. Фармакология. Учебник для студентов высших учебных заведений. М.: Медицина, 2015, s.464) istifadə etməklə dərman maddələrinin təsir mexanizmlərinə dair biliklərə yiyələnmək zəruridir.

Biokimya fənni üzrə statik, dinamik və funksional biokimya sahəsində namizədlərin bilik və bacarıqlarını yoxlayan test tapşırıqları təqdim edilmişdir. Cari ildə biokimya fənni üzrə "Fermentlər", "Əzələ toxumasının biokimyası", "Nuklein turşularının mübadiləsi", "Vitaminlər", "Maddələr mübadiləsinin əsas qanunauyğunluqları. Enerji mübadiləsi", "Hormonlar", "Karbohidratların kimyası və funksiyası", "Zülalların kimyası və funksiyası", "Zülal mübadiləsi", "Böyrəklərin biokimyası", "Karbohidrat mübadiləsi", "Nuklein turşularının kimyası və funksiyası" və "Lipid mübadiləsi" mövzularını əhatə edən 13 test tapşırığı təqdim olunmuşdur. Namizədlər "Maddələr mübadiləsinin qanunauyğunluqları. Enerji mübadiləsi" bölməsinə aid olan test tapşırıqlarını (müalicə işi, pediatriya istiqaməti) doğru cavablandırmaqda çətinlik çəkmişlər.

Həmin test tapşırığının şərhini təqdim edirik.

B variantı, 52 saylı test tapşırığı

Limon turşusu dövranında kəhrəba turşusu ilə elektrondaşıyıcı zəncir arasında əlaqə yaradan komponent (I) və sintez olunan ATF molekullarının sayı (II):

I	II
A) $FADH_2$-dehidrogenaza	2,5
B) sitoxrom b	1,0
C) $NADH_2$-dehidrogenaza	2,5
D) ubixinon	1,5
E) $KoQH_2$-dehidrogenaza	2,0

Namizədlərin 10,81%-i tərəfindən doğru cavablandırılmış test tapşırığı orta çətinlik dərəcəsinə malikdir (doğru cavab: D).

Limon turşusu dövranı (katabolizmin II ümumi yolu, Krebs dövranı) zülalların, yağların və karbohidratların oksidləşməsinin son ümumi yoludur. Limon turşusu dövranının bütün reaksiyaları mitoxondrilərdə lokalizə olunur və enerji metabolizmində müstəsna rola malikdir (10 mol ATF sintez olunur).

Limon turşusu dövranını təşkil edən 8 ardıcıl biokimyəvi reaksiyadan dördü dehidrogenləşmə reaksiyalarıdır. Bu reaksiyaları kataliz edən fermentlərin üçü NAD-dan (izositratdehidrogenaza, α-ketoqlutaratdehidrogenaza, malatdehidrogenaza), biri isə FAD-dan asılı (suksinatdehidrogenaza) fermentlərdir (İslamzadə F., Əfəndiyev A. və b. İnsan biokimyasının əsasları: Dərslik, 2-ci cild, Bakı: Müəllim, 2015, s.44; Qarayev A.N. Bioloji kimya. Rezidenturaya hazırlaşanlar üçün vəsait. TQDK – "Abituriyent", Bakı: 2016, s. 214, 233-234; Гасанова Ш.И., Азизова Г.И. Биологическая химия. /Пособие для поступающих в резидентуру. DİM , Print hous Poliqrafaz, 2019, c. 256-257, 266). Kofermentlərin regenerasiyası dehidrogenaza reaksiyalarının gedişi üçün vacib şərtdir. Bunun üçün katabolizmin ümumi yolu və tənəffüs zənciri bir-biri ilə sıx əlaqədədir. $NADH_2$ və $FADH_2$ elektronları mitoxondrilərin daxili membranında yerləşən oksigenə ötürürlər. FAD-dan asılı dehidrogenazaların iştirakı ilə substratların oksidləşməsində I kompleks iştirak etmir, çünki suksinatdehidrogenaza limon turşusu dövranının yeganə fermentidir ki, mitoxondrial membranla möhkəm birləşir və elektronları kəhrəba turşusundan ubixinona (KoQ) ötürür. Elektronların oksigenə ötürülməsi zamanı tənəffüs zəncirinin üç sahəsində ATF sintezi üçün zəruri olan sərbəst enerjinin azalması müşahidə edilir:

$$\boldsymbol{NAD^+ \rightarrow FMN;\ sitoxrom\ b \rightarrow sitoxrom\ c;\ sitoxrom\ aa_3 \rightarrow oksigen}$$

Oksidləşmə reaksiyaları nəticəsində yaranan qatılıq fərqinə görə H^+-ionları matriksdən membranarası sahəyə keçir. Məlumdur ki, NADH-dan oksigenə bir cüt elektron ötürülməsi zamanı matriksdən membranarası sahəyə 10, kəhrəba turşusundan oksigenə bir cüt elektron ötürülməsi zamanı isə 6 proton keçir. Bu zaman 1 mol ATF-in sintezi və onun sitozola ötürülməsinə 4 (3+1) proton sərf edilir. Ona görə də oksidləşmə-fosforlaşma əmsalı (P/O) $NADH_2$ üçün 2,5 (10:4)-ə bərabər olur. Elektronların donoru kəhrəba turşusu olduqda əmələ gələn $FADH_2$ ubixinon vasitəsi ilə elektrondaşınma zənciri ilə əlaqələnir, bu zaman P/O=1,5 (6:4) olur.

Təhlillər göstərmişdir ki, namizədlər açıq formalı test tapşırıqlarının həllində hər il olduğu kimi cari ildə də çətinlik çəkmişlər. Buna misal olaraq (müalicə işi, pediatriya istiqaməti), patologiya bloku üzrə ***patoloji fiziologiya*** fənnindən təqdim olunmuş və namizədlərin cavab verməkdə çətinlik çəkdikləri uyğunluğun müəyyən edilməsini və ***normal fiziologiya*** fənnindən seçim tələb edən test tapşırıqlarının şərhini təqdim edirik.

Patoloji fiziologiya **fənni**,

B variantı, 85 saylı (açıq formalı) test tapşırığı

Uyğunluğu müəyyən edin.

1. Denervasiya sindromu
2. Deafferentasiya sindromu
3. Deserebrasion rigidlik

a. Onurğa beyni seqmentlərinə impulsların daxil olmasının kəsilməsi
b. Bütün açıcı əzələlərin tonusunun kəskin artması
c. Orqan və toxumalarda trofik pozulmalar
d. Qırmızı nüvə-onurğa beyni yolunun zədələnməsi
e. Orbeli-Kunstman fenomeni

Namizədlərin yalnız 9,27%-i tərəfindən doğru cavablandırılmış açıq formalı test tapşırığı "Sinir sisteminin patoloji fiziologiyası" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə mürəkkəbdir (doğru cavab: 1 – c; 2 – a, e; 3 – b, d).

Denervasiya sindromu dedikdə, orqan və toxumaların sinirdən məhrum edilməsi ilə əlaqədar dəyişikliklər nəzərdə tutulur. Onun təzahürlərinə hissi, hərəki (iflic, hiperkinez və s.) və trofiki (xoralar, distrofiyalar və s.) pozulmalar aiddir. Orqan və toxumalarda trofik pozulmalar denervasiya sindromunun təzahür formasıdır.

Deafferentasiya sindromu zamanı hissi sinirlər vasitəsilə mərkəzi sinir sisteminə gələn impulslar kəsilir. Bu sindrom eksperimentdə onurğa beyninin arxa sütununu kəsmək yolu ilə yaradılır. Bu zaman arxa sütunun kəsildiyi tərəfdə olan ətraflarda müvəqqəti iflic yaranır, çünki hissi impulslar ötürülmədiyinə görə deafferentasiyaya uğramış toxumalar və onurğa beyni arasında əlaqə pozulur. Belə vəziyyət "onurğa beyni seqmentlərinə impulsların daxil olmasının kəsilməsi" ilə əlaqədardır. Daha sonra iflic olmuş ətrafda hərəkət tədricən bərpa olunur. Lakin onurğa beyninin müvafiq seqmentlərində hərəki sinirlərin oyanıqlığı artdığından sağlam ətrafla müqayisədə zədələnmiş ətrafda spesifik hərəkətlər yaranır. Məsələn, ətrafda tənəffüs hərəkətləri ilə analoji ritmdə spontan hərəkət müşahidə edilir. Buna Orbeli-Kunstman fenomeni deyilir və deafferentasiya sindromu üçün səciyyəvi əlamətdir.

Beyin kötüyünü ön və arxa qoşatəpələr arasında kəsdikdə piramid və ekstrapiramid yollar eyni vaxtda zədələnir və hərəkət pozulmaları yaranır. Bu zaman yaranan patoloji vəziyyət deserebrasion rigidlik adlanır. Deserebrasion rigidliyi qırmızı nüvə-onurğa beyni yolunu zədələmək yolu ilə yaratmaq olar. Deserebrasion rigidlik bütün açıcı əzələlərin tonusunun kəskin artması, boynun arxa əzələlərinin və kürək əzələlərinin gərginləşməsi, başın arxaya çevrilməsi ilə təzahür edir. Bütün açıcı əzələlərin tonusunun kəskin artması deserebrasion rigidliyin təzahürüdür (bax: Əliyev S.C., Əliyev M.X. Patoloji fiziologiya. 2-ci cild. Bakı: Təbib, 2016, s.311-312, 315; Əliyev S.C., Əliyev M.X., Əliyeva C,T., Pənahova S.R. Patoloji fiziologiya/dərs vəsaiti. DİM, Bakı: Print House Poliqrafaz, 2020, c. 467, 469; Алиев С.ДЖ., Алиев М.Х., Панахова С.Р., Алиева Дж.Т. Патологическая физиология /пособие для поступающих в резидентуру. ГЭЦ: Print House Poliqrafaz, Баку: 2019, с. 475, 477; Новицкий В.В., Гольдберг Е.Д., Уразова О.И. Патофизиология. М.: ГЭОТАР-Медиа, 2010, том 2, с.539)

Normal fiziologiya **fənni,**
B variantı, 97 saylı (açıq formalı) test tapşırığı

İnsan orqanizmində yüksək bioloji fəallığa malik mikroelementlər:

1. Natrium 2. Maqnezium 3. Dəmir
4. Mis 5. Kalsium 6. Kobalt

Namizədlərin 5,34%-nin doğru cavablandırdığı açıq tipli test tapşırığı "Maddələr və enerji mübadiləsi. Qidalanma" bölməsinə aiddir, orta çətinlik dərəcəsinə malikdir (Doğru cavab: 3, 4, 6).

Orqanizmin bir çox mübadilə proseslərində iştirak edən mineral duzların qəbul edilməsinə ehtiyacı vardır. Natrium hüceyrəxarici mayenin əsas kationudur. O, orqanizmə xörək duzu şəklində 3-6 q/gün miqdarda qəbul edilir və onun miqdarı toxuma mayesində hüceyrə daxilinə nisbətən 6-12 dəfə daha çox olur. Natriumun miqdarı orqanizmdə nisbətən yüksək olduğuna görə o, mikroelement deyil.

Kalsium yüksək bioloji aktivliyə malikdir. O, sümüklərin və dişlərin əsas struktur komponentidir, kalsiumun 99%-i bu toxumalarda olur. Yetkin insan gündə 800-1000 mq kalsium qəbul etməlidir, buna görə də o makroelementdir.

Maqnezium insan orqanizmində nisbətən yüksək miqdarda olduğu üçün o da makroelementdir.

Həyat fəaliyyətinin təmin edilməsində insan orqanizmində az miqdarda olan elementlər – mikroelementlər də mühüm rol oynayır, onların əksər hissəsi fermentlərin tərkibinə daxildir. Bu elementlərə dəmir, mis və kobalt aiddir (bax: Физиология человека. /Под ред. В.М.Покровского и Г.Ф. Коротько. 2-е изд. М.: Медицина, 2003, с.460; Бахшиева З.Т., Рустам-заде А.Ш., Алиев А.Х., Гасанова Г.А. Нормальная физиология /пособие для поступающих в резидентуру. ГЭЦ: Print House Poliqrafaz, Баку: 2019, с. 325).

Statistik təhlil göstərmişdir ki, namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri yuxarıda şərhini təqdim etdiyimiz test tapşırıqlarının etibarlılığı normaldır. Belə ki, imtahanda yüksək bal toplamış namizədlər bu tapşırıqları doğru cavablandırmışlar.

Təhlillər nəticəsində aydın olmuşdur ki, həzm sisteminə aid biliklərin tətbiqini tələb edən test tapşırıqlarını doğru cavablandırmaqda namizədlərin böyük əksəriyyəti çətinlik çəkmişlər. Dərsliklərdə həzm sistemi orqanlarının quruluşu, funksiyası, fiziologiyası və patologiyaları haqqında ətraflı məlumatlar verilməsinə baxmayaraq, namizədlərin bu mövzular üzrə test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkmələrinin səbəbləri araşdırılmalıdır. Bu hal müvafiq kafedraların professor-müəllim heyəti tərəfindən tədris zamanı nəzərə alınmalı, problemin həlli istiqamətində lazımi işlər görülməlidir.

Proqramı tam mənimsəmiş, güclü məntiqi təfəkkürə malik namizədlərin hazırlıq səviyyələrinin yoxlanılmasına, müstəqil araşdırma bacarıqlarının aşkara çıxarılmasına və qiymətləndirilməsinə imkan verən, seçim tipli və uyğunluğun müəyyən edilməsini tələb edən açıq formalı test tapşırıqlarına DİM-in nəşr etdiyi vəsaitlərdə kifayət qədər yer ayrılmasına baxmayaraq, təəssüf ki, namizədlər cari ildə də belə test tapşırıqlarının həllində çətinlik çəkmişlər. Əslində, açıq tipli test tapşırıqlarına cavab vermək üçün tələb olunan bacarıqlar çoxseçimli test tapşırıqlarına cavab vermək üçün tələb olunan bacarıqlardan mahiyyətcə fərqlənmir. Kifayət qədər biliyə və məntiqi təfəkkürə malik olan namizədlər bu tapşırıqlara asanlıqla cavab verə bilərlər. Namizədlərin bilik, bacarıq və vərdişlərində olan çatışmazlıqların bir qismi onların praktikyönlü biliyinin dərin olmaması ilə bağlıdır ki, bu da, əsasən, tədris prosesində həmin istiqamətə az diqqət yetirilməsinin göstəricisidir.

Aparılan təhlillərdən belə nəticəyə gəlmək olar ki, rezidenturaya qəbul imtahanlarında uğur qazanmaq üçün namizədlərdən dərslikdəki materialları öyrənməklə yanaşı, həm də ümumiləşdirmə aparmaq, mənimsədikləri bilikləri sistemləşdirmək və tətbiq etmək bacarığını da inkişaf etdirmək tələb olunur. Əsas (baza ali) tibb təhsili verən ali təhsil müəssisələrində isə tələbələrin məntiqi düşünmə, nəzəri bilikləri tətbiqetmə bacarıqlarının inkişaf etdirilməsinə diqqət artırılmalı, təhsilin səviyyəsi müasir tələblərə uyğunlaşdırılmalı və daha çox tətbiqyönlü olmalı, eləcə də bu tələblərə cavab verən dərsliklər və dərs vəsaitləri hazırlanmalıdır. DİM rezidenturaya qəbul imtahanına hazırlaşanlara elmi-metodik kömək göstərilməsini həmişə diqqət mərkəzində saxlayır. Ötən illərdə bu istiqamətdə baza fənlərindən "İnsan anatomiyası" və "Bioloji kimya", eləcə də rus dilində "Биологическая химия", "Патологическая физиология","Нормальная физиология", Гистология (цитология, эмбриология, общая и частная гистология)", ixtisas fənlərindən isə ilk dəfə olaraq stomatologiya istiqaməti üzrə "Terapevtik stomatologiya (Parodont və oral mukoza xəstəlikləri)" adlı elmi-metodik vəsaitlər işlənib-hazırlanmışdır. Eyni zamanda "Патологическая анатомия" və "Фармакология" adlı elmi-metodik vəsaitlər işlənib-hazırlanmış, eləcə də "Terapevtik stomatologiya (Parodont və oral mukoza xəstəlikləri)" elmi-metodik vəsaiti rus dilinə tərcümə edilərək elektron kitab formasında namizədlərə təqdim edilmişdir. Cari ildə isə ilk dəfə olaraq müalicə işi, pediatriya istiqaməti üzrə "İxtisas fənləri üzrə test toplusu" işlənib hazırlanaraq nəşr olunmuşdur. Hazırlanmış elmi-metodik vəsaitlər rezidenturaya qəbul proqramları əsasında tərtib olunmuşdur. Sevindirici haldır ki, adı çəkilən vəsaitlər Azərbaycan Tibb Universitetinin Elmi Şurasında müzakirə edilərək dərs vəsaiti kimi nəşrə tövsiyə olunmuşdur. Bu silsilədən olan işlər davam etdirilir. Qeyd etmək istəyirik ki, yuxarıda adı çəkilən, rus dilində tərtib olunmuş vəsaitlər İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin müvafiq kafedralarında da müzakirə olunmuş və onlara mütəxəssislər tərəfindən müsbət rəy verilmişdir.

Ümidvarıq ki, təqdim olunan vəsaitlər həm rezidenturaya hazırlaşan namizədlər, həm də praktik fəaliyyətlə məşğul olan həkim-mütəxəssislər üçün faydalı olacaqdır.

4. ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU

4.1 Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu

Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ərizələrin qəbulu "Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu qaydaları"na uyğun olaraq mayın 26-dan iyunun 9-dək internet vasitəsilə aparılıb. Abituriyentlər ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə Dövlət İmtahan Mərkəzinin müvafiq internet səhifəsinə (eservices.dim.gov.az/erizebak/erize) daxil olub, "Abituriyentin elektron ərizəsi" formasını doldurub və təsdiq ediblər (etdiriblər). Müsabiqədə iştirak ödənişli olmuşdur. "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamına əsasən orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olub. Bundan əlavə, "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli 2635 nömrəli Sərəncamına əsasən aşağıdakı kateqoriyadan olan Azərbaycan Respublikası vətəndaşlarının da (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olmuşdur:

- Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;
- şəhid ailəsinin üzvləri;
- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;
- məcburi köçkün statusu olan şəxslər;
- I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.

Ərizənin təsdiqi DİM-in məlumat bazalarında abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla həyata keçirilib:

1. Aşağıda göstərilən kateqoriyalardan olan abituriyentlər elektron ərizələrini Sənəd Qəbulu Komissiyalarına (SQK) müraciət etmədən özləri təsdiq ediblər:

1.1. Azərbaycan Respublikasının tam orta təhsil müəssisələrini cari ildə bitirən abituriyentlər;

1.2. Azərbaycan Respublikasının tam orta təhsil müəssisələrini 2012-ci və ondan sonrakı illərdə bitirən abituriyentlər;

1.3. Azərbaycan Respublikasının ilk peşə-ixtisas təhsili müəssisələrini 2013-cü və ondan sonrakı illərdə bitirən abituriyentlər;

1.4. 2012-ci və ondan sonrakı illərdə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə verib onu təsdiq etdirmiş abituriyentlər.

2. 1.1, 1.2, 1.3 və 1.4 -ci yarımbəndlərdə göstərilən abituriyentlərdən başqa digər abituriyentlər elektron ərizələrini doldurduqdan sonra tələb olunan sənədləri şəxsən təqdim etməklə elektron ərizələrini müvafiq Sənəd Qəbulu Komissiyalarında (SQK) təsdiq etdiriblər. Ərizə qəbulu elanının tam mətni DİM-in internet saytında ictimaiyyətə təqdim olunub və ərizə qəbulu ilə bağlı bütün digər lazımi məlumatlar da müntəzəm və operativ şəkildə saytda yerləşdirilib.

Azərbaycanda təhsil almış Azərbaycan Respublikasının vətəndaşları (1.1, 1.2, 1.3 və 1.4-cü bəndlərdə göstərilən abituriyentlər istisna olmaqla) tələb olunan sənədləri təqdim etməklə elektron ərizələrini aşağıdakı SQK-larda təsdiq etdiriblər:

Bakı şəhərində:

DİM-in Bakı şəhərində yerləşən inzibati binaları:

- *Bakı ş, Yasamal r, Mikayıl Müşfiq küç., 1M*
- *Bakı ş, Nəsimi r, Abdulvahab Salamzadə küç., 28*
- *Bakı ş, Nərimanov r, Koroğlu Rəhimov küç., 108A*

Digər şəhər və rayonlarda:

Naxçıvan ş.	*DİM-in Regional Bölməsi;*
Gəncə ş.	*DİM-in Regional Bölməsi*
Lənkəran ş.	*DİM-in Regional Bölməsi;*
Şəki r-nu.	*DİM-in Regional Bölməsi;*
Xaçmaz r-nu.	*DİM-in Regional Bölməsi;*
Şirvan ş.	*DİM-in Regional Bölməsi;*
Göyçay r-nu.	*DİM-in Regional Bölməsi;*
Bərdə r-nu.	*DİM-in Regional Bölməsi;*
Şəmkir r-nu.	*DİM-in Regional Bölməsi.*

Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu müsabiqəsi ali təhsil müəssisələrinə V ixtisas qrupu üzrə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında toplanılan ballar əsasında aparılıb. Tam orta təhsil səviyyəsini əvvəlki illərdə bitirən və təhsil haqqında sənəd alan, yaxud tam orta təhsil səviyyəsini Azərbaycan Respublikasının hüdudlarından kənarda bitirən abituriyentlər müsabiqədə iştirak etmək üçün Azərbaycan və ya rus dili, riyaziyyat və xarici dil fənlərindən qəbul imtahanı veriblər. Cari ildə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə yaranmış şəraitə uyğun olaraq DİM tərəfindən imtahanların təşkili zamanı Nazirlər Kabineti yanında operativ qərargahın tələb və tövsiyələri nəzərə alınmışdır. İmtahanlar iyulun 1 və 2-sində aşağıdakı imtahan mərkəzlərində keçirilmişdir:

- 01.07.2021 – Bakı, Gəncə, Şəki, Bərdə, Sabirabad, Lənkəran, Naxçıvan MR;
- 02.07.2021 – Sumqayıt, Abşeron, Qazax, Ağstafa, Şəmkir, Mingəçevir, Göyçay, Kürdəmir, Şirvan, Salyan, Cəlilabad, Xaçmaz.

Qeyd 1: Buraxılış imtahanı ilə yanaşı xarici dil üzrə fərq imtahanı və (və ya) bölmənin dəyişdirilməsi ilə əlaqədar tədris dili üzrə əlavə imatahan verən abituriyentlər onlara uyğun rayonlar üçün imtahanın keçirildiyi gün Dövlət İmtahan Mərkəzinin Abdulvahab Salamzadə küçəsi, 28 ünvanında yerləşən inzibati binasında imtahan veriblər.

Qeyd 2: Məcburi köçkün rayonlarından olan abituriyentlər faktiki yaşadıqları rayonlara uyğun yerlərdə imtahan veriblər.

Qeyd 3: Faktiki yaşadıqları (əgər faktiki yaşadıqları yer qeyd edilməyibsə qeydiyyatda olduqları) yer xarici ölkələr olan abituriyentlər Bakı şəhərində imtahan veriblər.

2020-ci ildə keçirilmiş qəbul (buraxılış) imtahanlarının nəticələri 2 il qüvvədə olduğundan, abituriyentlər cari il üzrə müsabiqə şərtlərini ödədikləri halda, həmin nəticə əsasında cari tədris ilində orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında keçirilən tələbə qəbulu üzrə müsabiqədə iştirak edə biliblər.

Tam orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində cari ildə bitirən abituriyentlər müsabiqədə qəbul imtahanı vermədən buraxılış imtahanında (11-ci siniflər üzrə) tədris dilindən, riyaziyyat və xarici dil fənlərindən əldə etdikləri nəticələr əsasında iştirak ediblər. Lakin aşağıdakı xüsusi hallarda bu abituriyentlər əlavə olaraq bəzi fənn və yaxud fənlərdən imtahan veriblər:

- Tədris dili Azərbaycan və rus dillərindən fərqli olan ümumi təhsil müəssisələrinin məzunları orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə təqdim etdikləri halda ərizədə qeyd etdikləri bölməyə uyğun olaraq Azərbaycan dili və ya rus dili fənnindən əlavə olaraq imtahan veriblər.
- Tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər orta ixtisas təhsili müəssisələrinin tədris rus dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq rus dili fənnindən, tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər isə orta ixtisas təhsili müəssisələrinin tədris Azərbaycan dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq Azərbaycan dili fənnindən imtahan veriblər.

- Qəbul imtahanında buraxılış imtahanı çərçivəsində verdikləri xarici dil fənnindən fərqli xarici dil fənni üzrə imtahan vermək istəyən məzunlar müsabiqədə iştirak etmək üçün həmin xarici dildən imtahan veriblər.
- Xarici dil fənni tədris olunmayan təhsil müəssisələrinin məzunları istədikləri halda qəbul imtahanında xarici dil fənni üzrə imtahan verə biliblər. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində istədikləri xarici dili seçiblər. Qeyd olunan kateqoriyadan olan məzunlar xarici dil fənnindən imtahan vermək istəmədikləri halda "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində "Xarici dildən imtahan vermək istəmirəm" bəndini seçiblər. Bu zaman onların imtahandan toplaya biləcəkləri maksimal ümumi balları iki fənn (Azərbaycan və ya rus dili və riyaziyyat) üzrə toplanan balların cəmlənməsi əsasında müəyyənləşməklə 200 bal təşkil edib.

İmtahanda abituriyentlərə Azərbaycan (rus) dili fənnindən 30, riyaziyyat fənnindən 25 və xarici dil fənnindən 30 olmaqla, ümumilikdə 85 tapşırıq təqdim olunmuş, test tapşırıqlarının cavablandırılmasına ümumilikdə 3 saat vaxt ayrılmışdı. İmtahan fənləri üzrə tapşırıqların strukturu aşağıdakı kimi olmuşdur:

- ***Xarici dil***
  - Dinləyib-anlamaya dair mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 6 tapşırıq: qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 1 tapşırıq;
  - Qapalı tipli 16 tapşırıq;
  - Oxuyub-anlamaya dair mətn və mətnə aid 8 tapşırıq; qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 3 tapşırıq.
- ***Azərbaycan (rus) dili***
  - Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq;
  - Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq (cəmi 20 tapşırıq): qapalı tipli 8 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 2 tapşırıq.
- ***Riyaziyyat***
  - Qapalı tipli 13 tapşırıq;
  - Cavabların kodlaşdırılması tələb olunan açıq tipli 8 tapşırıq;
  - Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 4 tapşırıq.

Qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanununa əsasən Azərbaycan dili fənnindən test imtahanı veriblər. İmtahanın nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilib. Bu imtahanda abituriyentlərə 30 test tapşırığı təqdim edilib. Hər düzgün cavab bir balla qiymətləndirilib. Səhv cavablar yekun bala təsir göstərməyib. Abituriyentin "məqbul" alması üçün onun topladığı bal 15-dən az olmamalıdır.

Bu il "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən imtahan iki dəfə - iyunun 24-də (Bakı, Naxçıvan, Gəncə, Şəki və Xaçmaz şəhərlərində) və avqustun 12-də (Bakı, Gəncə, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində) keçirilib.

Azərbaycan Respublikasının tədris Azərbaycan dilindən fərqli dillərdə aparılan tam orta təhsil müəssisələrini cari ildə bitirən abituriyentlərin buraxılış imtahanı çərçivəsində verdikləri "Azərbaycan dili" (dövlət dili kimi) fənni imtahanı üzrə nisbi balı ən azı 50 olduqda, onların həmin nəticələri əsas götürülüb və "məqbul" almış hesab olunublar. Həmin imtahanda nisbi balı 50-dən az olan abituriyentlər isə "qeyri-məqbul" almış hesab olunublar və "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən yenidən imtahan veriblər.

I imtahanda iştirak etməyən və yaxud "qeyri-məqbul" alan abituriyentlər, həmçinin buraxılış imtahanı çərçivəsində bu fənn üzrə verdikləri imtahanda nisbi balı 50-dən az olan cari il məzunları, avqustun 12-də keçirilən (ikinci) imtahanda iştirak etmişlər. "Azərbaycan dili" (dövlət dili kimi) fənni imtahanından "məqbul" ala bilməyən abituriyentlər müsabiqəyə buraxılmayıblar.

2020-ci ildə keçirilmiş Azərbaycan dili fənni üzrə imtahandan "məqbul" alan abituriyentlər cari ildə ali təhsil müəssisələri və tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün müsabiqəyə cari ildə keçirilən "Azərbaycan dili" (dövlət dili kimi) fənni üzrə müvafiq imtahanda iştirak etmədən buraxılmışlar.

İxtisas seçimi ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələri elan olunduqdan sonra aparılıb. İxtisas seçiminə qəbul imtahanında topladıqları ümumi balı 50-dən, Azərbaycan dili (rus dili) və riyaziyyat fənlərinin hər biri üzrə balı 10-dan az olmayan abituriyentlər buraxılıb (xarici dil fənni üzrə bal məhdudiyyəti tətbiq edilmir). Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ixtisas seçimi ali təhsil müəssisələrinin boş qalan yerlərinə ixtisas seçimi ilə eyni vaxtda – sentyabrın 6-dan 10-dək internet vasitəsi ilə aparılıb. Abituriyentlərə eyni zamanda həm ali təhsil müəssisələrinin boş qalan yerlərinin, həm də orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının müsabiqəsində iştirak etmək imkanı verilib. Abituriyentlər elektron ərizələrində hər iki təhsil pilləsindən 20-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstərib.

Xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsinə ümumi balı 40-dan az olmayan abituriyentlər buraxılıblar (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir). "Xoreoqrafiya sənəti" və "Rəqs müəllimliyi" ixtisaslarının müsabiqəsində isə ümumi balı 30-dan az olmayan abituriyentlər iştirak edə bilmişlər (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir). Onlara xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslarla yanaşı, müsabiqə şərtlərini ödədikləri halda digər ixtisasların da kodlarını seçmək imkanı verilmişdi.

Sentyabrın 29-dan oktyabrın 3-dək tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə əlavə müsabiqə elan olunmuşdu. Müsabiqə cari ilin məzunları üçün buraxılış imtahanının, digər abituriyentlər üçün keçirilmiş qəbul imtahanının nəticələrinə əsasən aparılmışdır. Müsabiqədə iştirak edən abituriyentlər elektron ərizələrində yalnız orta ixtisas təhsili müəssisələrinin 20-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstərmişlər.

Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ümumilikdə 11830 tələbə qəbulu nəzərdə tutulmuşdu. Bu yerlərin 2080-i özəl orta ixtisas təhsili müəssisələrinə (660 yer Bakı Biznes və Kooperasiya Kollecinə, 500 yer Odlar Yurdu Universitetinin "Odlar Yurdu" Kollecinə, 340 yer Bakı Avrasiya Kollecinə, 580 yer isə Qərbi Kaspi Universitetinin orta ixtisas təhsili pilləsinə) ayrılmışdı. Plan yerlərinin sayı ötən illə müqayissədə 10.80% (1153 yer) artmışdı. Yerlərin 29.31%-i ödənişsiz, 70.69%-i isə ödənişli təhsil forması üçün ayrılmışdı. Ümumi plan yerlərinin 87.29%-i Azərbaycan, 3.25%-i rus, 9.46%-i isə Azərbaycan və rus bölmələri abituriyentlərinin birgə müsabiqəsi üçün nəzərdə tutulmuşdu.

Bu il 49 dövlət orta ixtisas təhsili müəssisəsinə tələbə qəbulu aparılıb. Ən çox plan yerləri 2 nömrəli Bakı Baza Tibb Kollecinə (667 yer), ən az isə Naxçıvan Musiqi Kollecinə (10 yer) ayrılmışdı. Orta ixtisas təhsili müəssisələrinin qəbul planları haqqında məlumat aşağıdakı cədvəldə verilir:

Cədvəl 4.1.1

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI (TAM ORTA TƏHSİL BAZASINDA)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
1	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	100	0	0	100	230	0	0	230	330
2	Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kolleci	73	0	0	73	87	0	0	87	160
3	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Qida Sənayesi Kolleci	59	20	0	79	129	22	0	151	230
4	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kollec	62	7	0	69	203	18	0	221	290
5	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kolleci	90	12	0	102	260	28	0	288	390
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	135	30	0	165	230	35	0	265	430
7	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	65	10	0	75	185	15	0	200	275
8	1 nömrəli Bakı Tibb Kolleci	15	0	171	186	0	0	314	314	500
9	2 nömrəli Bakı Baza Tibb Kolleci	56	0	171	227	126	0	314	440	667
10	Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	4	3	0	7	10	0	0	10	17
11	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec	62	0	0	62	58	0	0	58	120
12	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	0	0	27	27	0	0	49	49	76
13	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	0	0	45	45	0	0	10	10	55
14	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	50	0	0	50	210	0	0	210	260
15	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	45	0	0	45	180	0	0	180	225

Cədvəl 4.1.1 (ardı)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
16	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	59	0	0	59	140	0	0	140	199
17	Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Azərbaycan Dənizçilik Kolleci	30	0	0	30	15	0	0	15	45
18	Naxçıvan Tibb Kolleci	102	0	0	102	138	0	0	138	240
19	Naxçıvan Musiqi Kolleci	0	0	0	0	10	0	0	10	10
20	Gəncə Tibb Kolleci	120	0	0	120	190	0	0	190	310
21	Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollec	143	0	0	143	302	0	0	302	445
22	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	42	0	0	42	108	0	0	108	150
23	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	30	0	0	30	96	0	0	96	126
24	Ə.Əliyev adına Sumqayıt Tibb Kolleci	130	0	0	130	195	0	0	195	325
25	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	50	0	0	50	105	0	0	105	155
26	Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kolleci	0	0	14	14	0	0	4	4	18
27	Quba Dövlət Sosial-İqtisadi Kolleci	18	0	0	18	32	0	0	32	50
28	Quba Tibb Kolleci	30	0	0	30	35	0	0	35	65
29	Şamaxı Dövlət Regional Kolleci	128	0	0	128	217	0	0	217	345
30	Mingəçevir Tibb Kolleci	90	0	0	90	130	0	0	130	220
31	Mingəçevir Turizm Kolleci	98	0	0	98	199	0	0	199	297
32	Şəki Tibb Kolleci	55	0	0	55	70	0	0	70	125
33	Şəki Dövlət Regional Kolleci	59	0	0	59	70	0	0	70	129
34	Şuşa Humanitar Kolleci	46	0	0	46	73	0	0	73	119
35	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	55	0	0	55	150	0	0	150	205
36	Ağdam Musiqi Kolleci	17	0	0	17	18	0	0	18	35
37	Ağdaş Dövlət Humanitar Kolleci	32	0	0	32	65	0	0	65	97
38	Ağcabədi Pedaqoji Kolleci	37	0	0	37	53	0	0	53	90
39	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	116	0	0	116	208	0	0	208	324
40	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	63	0	0	63	117	0	0	117	180
41	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	40	0	0	40	75	0	0	75	115
42	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	105	0	0	105	131	0	0	131	236
43	Lənkəran Tibb Kolleci	90	0	0	90	130	0	0	130	220
44	Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar-Texnoloji Kollec	127	0	0	127	137	0	0	137	264
45	Astara Pedaqoji Kolleci	50	0	0	50	66	0	0	66	116
46	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	75	0	0	75	160	0	0	160	235
47	Saatlı Tibb Kolleci	30	0	0	30	30	0	0	30	60
48	Cəlilabad Tibb Kolleci	20	0	0	20	40	0	0	40	60
49	Masallı Dövlət Regional Kolleci	54	0	0	54	61	0	0	61	115
50	Bakı Biznes və Kooperasiya Kolleci	0	0	0	0	555	105	0	660	660
51	Odlar Yurdu Kolleci	0	0	0	0	500	0	0	500	500
52	Bakı Avrasiya Kolleci	0	0	0	0	340	0	0	340	340
53	Qərbi Kaspi Universiteti (orta ixtisas təhsili pilləsi)	0	0	0	0	500	80	0	580	580
	Cəmi	**2957**	**82**	**428**	**3467**	**7369**	**303**	**691**	**8363**	**11830**

Orta ixtisas təhsili müəssisələrinə qəbul üçün ümumilikdə 61564 abituriyent ərizəsi daxil olub, onlardan ixtisas seçimi mərhələsində 18300 nəfər iştirak edib. Ötən illə müqayisədə cari ildə ixtisas seçimi mərhələsində iştirak edənlərin sayı 16.69% azalıb (3667 nəfər).

Sənəd verənlərin 46.67%-ni (28731 nəfər) oğlanlar, 53.33%-ni (32833 nəfər) qızlar, ixtisas seçimi mərhələsində iştirak edənlərin isə 36.96%-ni (6764 nəfər) oğlanlar, 63.04%-ni (11536 nəfər) qızlar təşkil edib. İxtisas seçimi mərhələsində daxil olmuş ərizələrin 95.81%-i Azərbaycan, 4.19%-i rus bölməsinə aid olub.

Dövlət orta ixtisas təhsili müəssisələrinin qəbul planı və abituriyent ərizələrinin sayının illər üzrə dinamikası 4.1.1 saylı şəkildəki diaqramlarda təqdim edilir. Şəkildən göründüyü kimi, 1993 və 1994-cü illərdə abituriyent ərizələrinin sayı plan yerlərinin sayından xeyli çox olub. Əslində, bu həmin illərdə abituriyentlərin orta ixtisas təhsili müəssisələrinə istəklərinin artmasının nəticəsi deyil, həmin təhsil müəssisələrinə qəbul imtahanlarının ali təhsil müəssisələri ilə birgə aparılmasının nəticəsi idi. O illərdə abituriyentlərə ali təhsil müəssisələri ilə yanaşı, orta ixtisas təhsili müəssisələrinin də ixtisaslarını göstərmək imkanı verildiyindən, onlar əksər hallarda ərizələrində ilk yerlərdə ali təhsil müəssisələrinin, sonrakı yerlərdə isə orta ixtisas təhsili müəssisələrinin ixtisaslarını göstərirdilər. Nəticədə, onların böyük əksəriyyəti ali təhsil müəssisələrinə qəbul olduğundan orta ixtisas təhsili müəssisələrinin planı dolmurdu. Buna görə də bu təhsil pilləsi üzrə qəbul planının dolma faizi 1993-cü ildə cəmi 34.96, 1994-cü ildə isə 52.79% təşkil etmişdi. Qeyd etmək lazımdır ki, orta ixtisas təhsili müəssisələrinə qəbulun ali təhsil müəssisələri ilə birgə aparıldığı illərdə yalnız orta ixtisas təhsili müəssisələrinin ixtisaslarını 1992-ci ildə 5466, 1993-cü ildə 848, 1994-cü ildə isə cəmi 454 nəfər abituriyent seçmişdi.

1995–1997-ci illərdə abituriyent ərizələrinin sayı qəbul planından az olmuş və planın yalnız 72-77%-ni təşkil etmişdi. 1998, 1999-cu illərdə bu fərq azalmış, 2000–2004-cü illərdə ərizələrin sayı qəbul planından bir qədər artıq olmuşdu. Bununla belə, ixtisaslar üzrə abituriyentlərin istəkləri qeyri-bərabər paylandığından bəzi ixtisaslarda yüksək müsabiqə vəziyyəti yaranmış, digərlərinə isə heç planın yarısı qədər də ərizə verilməmişdi. 2005, 2006, 2007, 2008, 2009 və 2010-cu illərdə, nəhayət, ərizələrin sayı plan yerlərinin sayını əhəmiyyətli dərəcədə (göstərilən illərə uyğun olaraq 2.3, 2.9, 3.9, 5.2, 4.5 və 3.5 dəfə) üstələmişdi. Lakin 2011-ci ildə müsabiqədə iştirak etmək üçün ümumi bala qoyulan tələb 50-dən 100-ə qaldırıldığı üçün abituriyentlərin ərizələrinin sayı əvvəlki ilə nəzərən azalmışdı. Son yeddi ildə abituriyent ərizələrinin sayında kəskin artım müşahidə olunub. Bu orta ixtisas təhsili müəssisələrinə qəbulun buraxılış imtahanlarının nəticəsi əsasında aparılması (əvvəlki illərin məzunları müsabiqədə buraxılış imtahanı modelinə uyğun verdikləri imtahanın nəticəsi, cari ilin məzunları isə buraxılış imtahanlarında əldə etdikləri nəticə əsasında iştirak etmişlər) və cari ilin məzunları üçün müsabiqənin pulsuz olması ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, son altı ildə qəbul planı üzrə də artım həyata keçirilib. Xüsusilə 2018-ci ildə plan yerlərinin sayı 2017-ci illə müqayisədə birdən-birə 20.74% artmışdır. 2021-ci ildə də bu tendensiya davam etmiş və ötən illə müqayisədə plan yerləri 11.02% artmışdır.

QƏBUL PLANI VƏ ƏRİZƏLƏRİN* SAYI (DÖVLƏT ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN ÖDƏNİŞSİZ VƏ ÖDƏNİŞLİ TƏHSİL FORMALARI ÜZRƏ)



Şəkil 4.1.1

* 2008-ci ildən etibarən ixtisas seçimi mərhələsində yalnız müsabiqə şərtlərini yerinə yetirən abituriyentlər iştirak edib.

Dövlət orta ixtisas təhsili müəssisələrinin ödənişli və ödənişsiz təhsil formalarının 1992–2021-ci illər üzrə qəbul planlarının dinamikası 4.1.2 saylı şəkildəki diaqramda təqdim edilib. Bu təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul 1995-ci ildən aparıldığından diaqramda ondan əvvəlki illər üçün yalnız ödənişsiz təhsil formasının qəbul planı göstərilib.

Diaqramdan göründüyü kimi, 1995–2001-ci illər ərzində ödənişsiz təhsil forması üçün ayrılan plan yerləri sayca böyük üstünlüyə malik olub. Lakin 2002-ci ildən ödənişli və ödənişsiz təhsil formaları üzrə qəbul planları, demək olar ki, bərabərləşdirilib. 2011-ci ildən isə artıq ödənişli təhsil forması üzrə qəbul planı üstünlüyə malik olub.



Şəkil 4.1.2

2021-ci ildə orta ixtisas təhsili müəssisələrinə qəbul üçün ayrılmış plan yerləri və ərizə vermiş abituriyentlərin sayı, təhsil bölmələri və ixtisaslar üzrə paylanma spektri, uyğun olaraq, 4.1.2, 4.1.3 və 4.1.4 saylı cədvəllərdə göstərilib.

Təqdim olunan ərizələrin paylanmasının təhlili göstərir ki, abituriyentlərin 85.48%-i texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisasları, 2.43%-i xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisaslarını, 44.80%-i tibb ixtisaslarını, 7.14%-i kimya-texnoloji ixtisasları, 21.38%-i baytarlıq və aqronomluq ixtisaslarını, 42.78%-i humanitar ixtisasları və 2.61%-i isə xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisaslarını seçib. Qəbul planının bölgüsü isə belədir: plan yerlərinin 59.04%-i texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslara, 1.86%-i xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisaslarına, 23.90%-i tibb ixtisaslarına, 0.66%-i kimya-texnoloji ixtisaslara, 3.02%-i baytarlıq və aqronomluq ixtisaslarına, 7.37%-i humanitar ixtisaslara və 4.15%-i isə xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisaslarına aiddir.

4.1.4 saylı cədvəldən göründüyü kimi, abituriyentlərin 18.38%-i (3364 nəfər) ərizələrində yalnız texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisasları, 9.45%-i (1729 nəfər) isə yalnız tibb ixtisaslarını qeyd edib.

Müsabiqə vəziyyəti 4.1.5 saylı cədvəldə təqdim edilib. Ən yüksək müsabiqə kimya-texnoloji ixtisasları üzrə olub. Bu ixtisaslar üzrə bir tələbə yerinə, 3-4 abituriyent sənəd verib.

Ümumilikdə, bütün ixtisasları götürdükdə, müsabiqə vəziyyəti 1.547-yə bərabər olub, yəni bir yerə 1-2 abituriyent sənəd verib. Ötən illə müqayisədə müsabiqə vəziyyəti aşağı olub. Plan yerlərinin dolma faizi isə 97.85%-dən 95.59%-ə qədər azalıb.

Cədvəl 4.1.2

QƏBUL PLANLARI VƏ İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYI

№	İstiqamətlər	QƏBUL PLANI				ƏRİZƏLƏRİN SAYI		
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsi	Rus Bölməsi	Bütövlükdə
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	6643	342	0	6985	14930	712	15642
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	220	0	0	220	445	0	445
3	Tibb ixtisasları	1857	0	970	2827	7759	440	8199
4	Kimya-texnoloji ixtisaslar	78	0	0	78	1307	0	1307
5	Baytarlıq və aqronomluq	357	0	0	357	3913	0	3913
6	Humanitar ixtisaslar	832	40	0	872	7455	373	7828
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	339	3	149	491	457	20	477
	C Ə M İ	**10326**	**385**	**1119**	**11830**	**17533**	**767**	**18300**

Cədvəl 4.1.3

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN PAYLANMASI

№	İstiqamətlər	Azərb. bölməsi		Rus Bölməsi		Bütövlükdə	
		ərizələrin sayı	ərizələrin faizi	ərizələrin sayı	ərizələrin faizi	ərizələrin sayı	ərizələrin faizi
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	14930	85.15	712	92.83	15642	85.48
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	445	2.54	0	0.00	445	2.43
3	Tibb ixtisasları	7759	44.25	440	57.37	8199	44.80
4	Kimya-texnoloji ixtisaslar	1307	7.45	0	0.00	1307	7.14
5	Baytarlıq və aqronomluq	3913	22.32	0	0.00	3913	21.38
6	Humanitar ixtisaslar	7455	42.52	373	48.63	7828	42.78
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	457	2.61	20	2.61	477	2.61
	C Ə M İ	**17533**	**100.00**	**767**	**100.00**	**18300**	**100.00**

Cədvəl 4.1.4

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ ƏRİZƏLƏRİN İXTİSASLAR ÜZRƏ PAYLANMASI

№	ABİTURİYENT ƏRİZƏLƏRİNİN BÖLGÜSÜ	ƏRİZƏLƏRİN	
		mütləq sayı	nisbi sayı, %
1	Yalnız texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslarının qeyd edildiyi ərizələr	3364	18.38
2	Yalnız xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisaslarının qeyd edildiyi ərizələr	203	1.11
3	Yalnız tibb ixtisaslarının qeyd edildiyi ərizələr	1729	9.45
4	Yalnız kimya-texnoloji ixtisaslarının qeyd edildiyi ərizələr	0	0.00
5	Yalnız baytarlıq və aqronomluq ixtisaslarının qeyd edildiyi ərizələr	22	0.12
6	Yalnız humanitar ixtisaslarnın qeyd edildiyi ərizələr	47	0.26
7	Yalnız xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisaslarının qeyd edildiyi ərizələr	307	1.68
8	Müxtəlif ixtisaslarının qeyd edildiyi ərizələr	12628	69.01
	Cəmi	**18300**	**100.00**

Cədvəl 4.1.5

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ MÜSABİQƏ VƏZİYYƏTİ

№	İstiqamətlər	Azərb. bölməsi	Rus Bölməsi	Birgə	Bütövlükdə
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	1.542	1.513		1.541
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	1.909			1.909
3	Tibb ixtisasları	2.404		2.881	2.294
4	Kimya-texnoloji ixtisaslar	3.530			3.530
5	Baytarlıq və aqronomluq	2.542			2.542
6	Humanitar ixtisaslar	3.063	3.017		3.061
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	0.650	0.333	1.968	0.891
	C Ə M İ	**1.523**	**1.472**	**2.758**	**1.547**

Orta ixtisas təhsili müəssisələrinin əyani şöbələrinin ixtisasları arasında ən yüksək müsabiqə texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar istiqaməti üzrə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kollecinin "Kompüter sistemlərində proqram təminatı" (bir yerə 26.67 ərizə), Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecinin "Kompüter

sistemləri və kompleksləri" (bir yerə 26.02 ərizə), Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollecin "Mühasibat uçotu" (bir yerə 25.51 ərizə), Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kollecinin "Kompüter sistemlərində proqram təminatı" (bir yerə 23.63 ərizə), Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecinin "Mühasibat uçotu" (bir yerə 21.74 ərizə), xüsusi qabiliyyət tələb edən dizayn və idman ixtisasları istiqaməti üzrə Gəncə Dövlət Universitetinin nəzdində Regional Kolleci və Ağdaş Dövlət Humanitar Kollecinin "Fiziki tərbiyə müəllimliyi" (bir yerə, müvafiq olaraq, 14.14, 7.53 ərizə), tibb ixtisasları istiqaməti üzrə Naxçıvan Tibb Kollecinin "Laboratoriya diaqnostikası" və "Əczaçılıq" (bir yerə, müvafiq olaraq, 25.91 və 19.07 ərizə), Gəncə Tibb Kollecinin "Əczaçılıq" (bir yerə 18.54 ərizə), kimya-texnoloji ixtisaslar istiqaməti üzrə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kollecinin "Neft emalı və neft kimyası" (bir yerə 9.39 ərizə), baytarlıq və aqronomluq istiqaməti üzrə İsmayıllı Dövlət Humanitar və Texnologiya Kollecinin "Baytarlıq" (bir yerə 9.39 ərizə), Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecinin "Aqronomluq" (bir yerə 9.09 ərizə), humanitar ixtisaslar istiqaməti üzrə Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kollecinin "Məktəbəqədər təhsil" (bir yerə 18.41 ərizə), xüsusi qabiliyyət tələb edən incəsənət və musiqi ixtisasları istiqaməti üzrə Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kollecinin "Dekorativ-tətbiqi sənət", "Rəngkarlıq" (bir yerə, müvafiq olaraq, 16.85 və 15.89 ərizə), ixtisaslarında olub.

Qəbul planı 20-dən az olmayan orta ixtisas təhsili müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisasları üzrə ən yüksək müsabiqə vəziyyəti Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kolleci (bir yerə 8.3 ərizə), Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kollecində (bir yerə 6.8 ərizə) yaranıb. Təhsili ödənişli əsaslarla olan ixtisaslar üzrə isə ən yüksək müsabiqə Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kolleci (bir yerə 6.2 ərizə), Ağcabədi Pedaqoji Kollecində (bir yerə 5.2 ərizə) olub.

Xüsusi qabiliyyət tələb edən ixtisaslara ümumilikdə 711 plan yeri ayrılmışdı. 919 abituriyent ixtisas seçimində bu ixtisasları öz ərizəsində göstərib, onlardan 3-ü ərizəsində həm dizayn və bədən tərbiyəsi ixtisaslarını, həm də musiqi və incəsənət ixtisaslarını qeyd edib. Qeyd edək ki, ötən il xüsusi qabiliyyət tələb edən ixtisasları 12247 abituriyent öz ərizəsində göstərib, cari ildə isə bu ixtisasları öz ərizələrində göstərənlərin sayı birdən-birə ən azı 13.33 dəfə azalmışdır. Bunun da başlıca səbəbi koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar olaraq, ötən il bəzi ixtisaslar üzrə qabiliyyət imtahanlarının ləğv edilməsi və bu ixtisaslar üzrə müsabiqənin yalnız test imtahanı nəticələri əsasında aparılması olub. Belə ki, 2019-cu ildə ixtisas seçimi mərhələsində ərizələrin sayı xüsusi qabiliyyət tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları üzrə 602, incəsənət və musiqi ixtisasları üzrə 469 olduğu halda, 2020-ci ildə bu göstərici müvafiq olaraq, 8988 və 8170 olmuşdur. Yəni, bu ixtisaslar üzrə ərizələrin sayı müvafiq olaraq, 14.93 və 17.42 dəfə artmışdır. Əgər 2021-ci ildəki göstəriciləri 2019-cu illə müqayisə etsək, görərik ki, ərizələrin sayı 14.19% azalmışdır.

Xüsusi qabiliyyət tələb edən ixtisasların qəbul planları və həmin ixtisaslar üzrə ərizə vermiş abituriyentlərin sayı aşağıdakı cədvəldə təqdim olunur:

Cədvəl 4.1.6

XÜSUSİ QABİLİYYƏT TƏLƏB EDƏN İXTİSASLAR ÜZRƏ MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN SAYI

İXTİSAS	Qəbul planı	İxtisas seçimində ərizə vermiş abituriyentlərin sayı
Xüsusi qabiliyyət tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	220	445
Xüsusi qabiliyyət tələb edən musiqi və incəsənət ixtisasları	491	477

Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulunun nəticələri haqqında məlumat sentyabrın 11-də DİM-in internet saytında yerləşdirilib və «Abituriyent» jurnalının 10-cu sayında dərc olunub. Qəbul olanların qeydiyyatı aparıldıqdan sonra boş qalan yerlərə əlavə yerləşdirmə aparılıb və nəticələr oktyabrın 4-də elan olunub. Müsabiqədə iştirak edənlərin 11308 nəfəri tələbə adını qazanıb. Bunlardan 3392 nəfəri dövlət ödənişsiz, 5973 nəfər dövlət ödənişli təhsil forması üzrə qəbul olub. 1943 nəfər özəl orta ixtisas təhsili müəssisələrinə qəbul olub. Qəbul olanların 33.64%-i oğlan (3804 nəfər), 66.36%-i isə (7504 nəfər) qız abituriyent olub.

Qəbul imtahanında iştirak edən və qəbul olan abituriyentlərin ballarının paylanma diaqramı 4.1.3 və 4.1.4 saylı şəkillərdə təqdim edilib. Xatırladaq ki, qəbul imtahanında toplanıla biləcək maksimal bal 300-ə bərabər olub.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 4.1.3

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 4.1.4

Qəbul imtahanında iştirak edən abituriyentlərin 10.58%-i 50-dən az, 7.72%-i isə 200-dən çox bal toplayıb.

Qəbul olan abituriyentlərin əksəriyyətinin (92.96%) imtahan nəticəsi 50-150 bal diapazonunda yerləşir. 50-100 bal intervalında nəticə göstərənlər qəbul olanların 44.83%-ni, 100-150 bal intervalında nəticə göstərənlər isə 48.13%-ni təşkil edib. İmtahan nəticələri ən yuxarı (200-223) bal diapazonunda nəticə göstərən abituriyentlərin nisbi sayı 0.14 faizdir. Qəbul olan abituriyenlərin yalnız 0.38%-i 36-50 bal diapazonunda nəticə göstərib.

İxtisas seçimində iştirak edənlərin 11787 nəfəri (64.41%) cari ilin məzunlarıdır. Onlardan 7664 nəfəri tələbə olmaq arzusunu reallaşdıra bilib. Beləliklə, cari il məzunlarının qəbulolma göstəricisi 65.02%, bütövlükdə orta ixtisas təhsili müəssisələrinə sənəd verənlərin qəbulolma göstəricisi isə 61.79% olub.

Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisasları üzrə plan yerlərinin 6643-ü Azərbaycan bölməsinin, 342-si rus bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində Azərbaycan bölməsində 14930, rus bölməsində 712 nəfər abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 6343, rus bölməsində 320 nəfəri qəbul olub. Qəbul planı 95.39% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 97.99%, ödənişli əsaslarla olan ixtisaslarında isə 95.21% olub. Özəl təhsil müəssisələrinə qəbul planı 93.59% yerinə yetirilib.

Orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları üzrə plan yerlərinin hamısı (220 yer) Azərbaycan bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində 445 nəfər abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərdən 218 nəfəri qəbul olub. Qəbul planı 99.09% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin ödənişsiz ixtisaslarında 100.00%, ödənişli ixtisaslarında isə 98.55% olub.

Tibb ixtisasları üzrə plan yerlərinin 1857-si Azərbaycan bölməsinin abituriyentləri üçün, 970-i hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün ayrılmışdı. Ərizələrində bu ixtisasları Azərbaycan bölməsində 7759, rus bölməsində isə 440 abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 2723, rus bölməsində 99 nəfəri qəbul olub. Qəbul planı 99.82% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 99.63%, ödənişli əsaslarla olan ixtisaslarında isə 99.94% olub.

Kimya-texnoloji ixtisaslar üzrə plan yerlərinin hamısı (78 yer) Azərbaycan bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində 1307 nəfər abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərdən 76 nəfəri qəbul olub. Qəbul planı 97.44% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin ödənişsiz ixtisaslarında 100.00%, ödənişli ixtisaslarında isə 96.23% olub.

Baytarlıq və aqronomluq ixtisasları üzrə plan yerlərinin hamısı (357 yer) Azərbaycan bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində 3913 nəfər abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərdən 329 nəfəri qəbul olub. Qəbul planı 92.16% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin ödənişsiz ixtisaslarında 96.30%, ödənişli ixtisaslarında isə 88.72% olub.

Humanitar ixtisaslar üzrə plan yerlərinin 832-si Azərbaycan bölməsinin abituriyentləri üçün, 40-ı rus bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində Azərbaycan bölməsində 7455, rus bölməsində isə 373 abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 792-si, rus bölməsində 39-u qəbul olub. Qəbul planı 95.30% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 97.07%, ödənişli əsaslarla olan ixtisaslarında isə 94.29% olub. Özəl təhsil müəssisələrində qəbul planı 94.67% yerinə yetirilib.

Xüsusi qabiliyyət tələb edən incəsənət və musiqi ixtisasları üzrə plan yerlərinin 339-u Azərbaycan bölməsinin abituriyentləri üçün, 3 nəfər rus bölməsinin, 149-u isə hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində Azərbaycan bölməsində 457, rus bölməsində 20 abituriyent göstərmişdir. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 358-i, rus bölməsində 11-i qəbul olub. Qəbul planı 75.15% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 88.41%, ödənişli əsaslarla olan ixtisaslarında isə 60.70% olub. Özəl təhsil müəssisələrində qəbul planı 85.45% yerinə yetirilib.

Ötən illə müqayisədə plan yerlərinin yerinə yetirilmə faizi bütövlükdə 97.85%-dən 95.59%-ə qədər azalıb, qəbul olanların mütləq sayı isə 10447 nəfərdən 11308 nəfərədək (861 nəfər) artıb. Müsabiqə və yerləşdirmənin nəticələri 4.1.7 – 4.1.9 saylı cədvəllərdə verilib.

Cədvəl 4.1.7

TAM ORTA TƏHSİL BAZASINDA ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

№	İstiqamətlər	Plan	Qəbul olub			Qəbulolma faizi (%)
			Azərbaycan bölməsi	Rus bölməsi	Bütövlükdə	
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	6985	6343	320	6663	95.39
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	220	218	0	218	99.09
3	Tibb ixtisasları	2827	2723	99	2822	99.82
4	Kimya-texnoloji ixtisaslar	78	76	0	76	97.44
5	Baytarlıq və aqronomluq	357	329	0	329	92.16
6	Humanitar ixtisaslar	872	792	39	831	95.30
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	491	358	11	369	75.15
	C Ə M İ	**11830**	**10839**	**469**	**11308**	**95.59**

Cədvəl 4.1.8

TAM ORTA TƏHSİL BAZASINDA DÖVLƏT ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN TƏHSİLİ ÖDƏNİŞSİZ ƏSASLARLA OLAN İXTİSASLARINA QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

№	İstiqamətlər	Plan	Qəbul olub			Qəbulolma faizi (%)
			Azərbaycan bölməsi	Rus bölməsi	Bütövlükdə	
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	1589	1501	56	1557	97.99
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	82	82	0	82	100.00
3	Tibb ixtisasları	1095	1061	30	1091	99.63
4	Kimya-texnoloji ixtisaslar	25	25	0	25	100.00
5	Baytarlıq və aqronomluq	162	156	0	156	96.30
6	Humanitar ixtisaslar	307	279	19	298	97.07
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	207	175	8	183	88.41
	C Ə M İ	**3467**	**3279**	**113**	**3392**	**97.84**

Cədvəl 4.1.9

TAM ORTA TƏHSİL BAZASINDA DÖVLƏT ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN TƏHSİLİ ÖDƏNİŞLİ ƏSASLARLA OLAN İXTİSASLARINA QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

№	İstiqamətlər	Plan	Qəbul olub			Qəbulolma faizi (%)
			Azərbaycan bölməsi	Rus bölməsi	Bütövlükdə	
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	3446	3188	93	3281	95.21
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	138	136	0	136	98.55
3	Tibb ixtisasları	1732	1662	69	1731	99.94
4	Kimya-texnoloji ixtisaslar	53	51	0	51	96.23
5	Baytarlıq və aqronomluq	195	173	0	173	88.72
6	Humanitar ixtisaslar	490	442	20	462	94.29
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	229	136	3	139	60.70
	C Ə M İ	**6283**	**5788**	**185**	**5973**	**95.07**

Abituriyentlərin Azərbaycan və rus bölmələri üzrə ayrılıqda topladıqları ballar hesablanmış, onların əsasında balların paylanma histoqramları təyin edilmişdir. Hər iki bölmədə abituriyentlərin topladıqları balların paylanma histoqramı demək olar ki, sağtərəfli asimmetriyaya malikdir.

Azərbaycan bölməsini təmsil edən ortastatistik abituriyent 109.20, rus bölməsini təmsil edən isə 122.71 bal toplayıb. Azərbaycan bölməsində abituriyentlərin yarısı 97.93-dən, rus bölməsində isə 116.43-dən çox bal toplaya bilməyib. Azərbaycan bölməsində maksimal bal 300.0, rus bölməsində isə 286.6 olub.

Ərizə verən ortastatistik abituriyent Azərbaycan bölməsində Azərbaycan dilindən tapşırıqların 45.85, riyaziyyatdan 26.51, ingilis dilindən 37.00, rus dilindən tapşırıqların 35.57%-nə, rus bölməsində rus dilindən tapşırıqların 49.93, riyaziyyatdan 25.68, ingilis dilindən 47.19%-nə düzgün cavab verib. Qəbul olan ortastatistik abituriyent Azərbaycan bölməsində Azərbaycan dilindən tapşırıqların 46.46, riyaziyyatdan 23.92, ingilis dilindən 34.28, rus dilindən 42.84%-nə, rus bölməsində rus dilindən tapşırıqların 51.02, riyaziyyatdan 23.55, ingilis dilindən 45.68%-nə düzgün cavab verib.

Yuxarıda da qeyd edildiyi kimi, orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının müsabiqəsində cari ilin məzunları buraxılış imtahanının nəticələri əsasında, digərləri isə buraxılış imtahanının modelinə uyğun keçirilən qəbul imtahanının nəticələri əsasında iştirak ediblər. Müsabiqədə iştirak etmək üçün qoyulan tələbləri nəzərə alsaq, görərik ki, imtahanda iştirak edən 60900 abituriyentin 14.34%-i (8731 nəfər) Azərbaycan (rus) dili və riyaziyyat fənlərindən biri üzrə nisbi balı 10 baldan aşağı olduğu üçün, 4.65%-i (2832 nəfər) isə ümumi balı 50-dən az olduğu üçün ixtisas seçiminə buraxılmamışdır. Digər abituriyentlər isə minimal tələbi ödədikləri üçün ixtisas seçimində iştirak etmək hüququ qazanıblar və belə abituriyentlər imtahanda iştirak edənlərin 81.01%-ni təşkil edib.

Təhlilin nəticələri göstərir ki, ixtisas seçimində iştirak edənlərin çox az hissəsi (4.91%) həm Azərbaycan (rus) dili, həm də riyaziyyat fənlərinin hər biri üzrə 40 bal və daha yüksək nəticə göstərib. Orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin isə 7.41%-i hər iki fənn üzrə 40 bal və daha yüksək nəticə göstərib. Göründüyü kimi, həm Azərbaycan (rus) dili, həm də riyaziyyat fənlərinin hər biri üzrə ən azı 40 bal toplayanların qəbul olanlar arasındakı nisbi çəkisi ixtisas seçimində iştirak edənlər arasındakı nisbi çəkisinə nəzərən 1.51 dəfə çox olub.

İxtisas seçimində iştirak edən abituriyentlərin 2.91%-i xarici dil fənni üzrə 10-dan az bal toplayıb. Orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin arasında isə xarici dil fənni üzrə 10-dan az bal toplayanların nisbi çəkisi cəmi 1.03%-ə bərabər olub. Müsabiqədə iştirak etmək üçün xarici dil fənnindən toplanılan ballara heç bir məhdudiyyət qoyulmayıb.

4.1.10 saylı cədvəldə orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerləri haqqında məlumat təqdim edilir. Cədvəldən göründüyü kimi, bu təhsil müəssisələrinin 11-də plan yerləri 100% dolub. 35 orta ixtisas təhsili müəssisəsində boş qalan yerlər 10 faizədək, 7-də isə 10%-dən yuxarıdır. Ağdam Musiqi Kollecinə tam orta təhsil bazasında tələbə qəbulunda plan yerlərinin 60.00 faizi, Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsinə 58.82 faizi, Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kollecində 33.33 faizi, Naxçıvan Musiqi Kollecində 30.00 faizi boş qalıb.

Cari ildə 2 nömrəli Bakı Baza Tibb Kolleci, 1 nömrəli Bakı Tibb Kolleci, Naxçıvan Tibb Kolleci və Saatlı Tibb Kollecindən başqa respublika üzrə bütün tibb kolleclərində plan yerlərinin hamısı dolub. Adları sadalanan tibb kolleclərində isə plan yerlərinin dolma faizi 98 faizdən yuxarı olub.

Cədvəl 4.1.10

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİ ÜZRƏ BOŞ QALAN YERLƏR HAQQINDA MƏLUMAT

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	Plan	Boş yerlərin	
			sayı	faizi
1	Ağdam Musiqi Kolleci	35	21	60.00
2	Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	17	10	58.82
3	Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kolleci	18	6	33.33
4	Naxçıvan Musiqi Kolleci	10	3	30.00
5	Şəki Dövlət Regional Kolleci	129	17	13.18
6	Astara Pedaqoji Kolleci	116	13	11.21
7	Masallı Dövlət Regional Kolleci	115	12	10.43
8	Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollec	445	44	9.89
9	Qərbi Kaspi Universiteti (orta ixtisas təhsili pilləsi)	580	57	9.83
10	Şuşa Humanitar Kolleci	119	10	8.40
11	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec	120	10	8.33
12	Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar-Texnoloji Kollec	264	22	8.33
13	Quba Dövlət Sosial-İqtisadi Kolleci	50	4	8.00

Cədvəl 4.1.10 (ardı)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	Plan	Boş yerlərin	
			sayı	faizi
14	Şamaxı Dövlət Regional Kolleci	345	27	7.83
15	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	126	9	7.14
16	Bakı Biznes və Kooperasiya Kolleci	660	45	6.82
17	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	235	16	6.81
18	Mingəçevir Turizm Kolleci	297	19	6.40
19	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	150	9	6.00
20	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	236	14	5.93
21	Bakı Avrasiya Kolleci	340	19	5.59
22	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	115	6	5.22
23	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	180	9	5.00
24	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	324	16	4.94
25	Ağcabədi Pedaqoji Kolleci	90	4	4.44
26	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	155	6	3.87
27	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	275	10	3.64
28	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	199	7	3.52
29	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	205	7	3.41
30	Odlar Yurdu Kolleci	500	16	3.20
31	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kolleci	390	11	2.82
32	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	260	7	2.69
33	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Qida Sənayesi Kolleci	230	6	2.61
34	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kollec	290	7	2.41
35	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	225	5	2.22
36	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	430	8	1.86
37	Saatlı Tibb Kolleci	60	1	1.67
38	Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kolleci	160	2	1.25
39	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	330	3	0.91
40	Naxçıvan Tibb Kolleci	240	1	0.42
41	1 nömrəli Bakı Tibb Kolleci	500	2	0.40
42	2 nömrəli Bakı Baza Tibb Kolleci	667	1	0.15
43	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	76	0	0.00
44	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	55	0	0.00
45	Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Azərbaycan Dənizçilik Kolleci	45	0	0.00
46	Gəncə Tibb Kolleci	310	0	0.00
47	Ə.Əliyev adına Sumqayıt Tibb Kolleci	325	0	0.00
48	Quba Tibb Kolleci	65	0	0.00
49	Mingəçevir Tibb Kolleci	220	0	0.00
50	Şəki Tibb Kolleci	125	0	0.00
51	Ağdaş Dövlət Humanitar Kolleci	97	0	0.00
52	Lənkəran Tibb Kolleci	220	0	0.00
53	Cəlilabad Tibb Kolleci	60	0	0.00
	C Ə M İ	**11830**	**522**	**4.41**

4.2 Orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulu

Orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulunu 1995-1998-ci illərdə mərkəzləşdirilmiş qaydada Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, 1999-2004-cü illərdə isə orta ixtisas təhsili müəssisələrinin özləri aparıb. 2005-ci ildən etibarən bu təhsil pilləsinə qəbul imtahanlarının keçirilməsi yenidən TQDK-ya (indiki DİM) həvalə olunub.

Bu il ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün ərizə qəbulu iyunun 14-dən 29-dək internet vasitəsilə aparılmışdır. Qəbul qaydaları və qəbul haqqında elan DİM-in internet saytında yerləşdirilmiş, qəbul aparılan ixtisasların siyahısı və plan yerləri haqqında məlumat isə "Abituriyent" jurnalının 3-cü sayında dərc olunub. Abituriyentlər ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə Dövlət İmtahan Mərkəzinin müvafiq internet səhifəsinə (eservices.dim.gov.az/erizetex/erize) daxil olub, "Abituriyentin elektron ərizəsi" formasını doldurublar və təsdiq ediblər (etdiriblər).

Müsabiqədə iştirak ödənişli olmuşdur. "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamına əsasən orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olub. Bundan əlavə, "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli 2635 nömrəli Sərəncamına əsasən aşağıdakı kateqoriyadan olan Azərbaycan Respublikası vətəndaşlarının da (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olmuşdur:

- Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;
- şəhid ailəsinin üzvləri;
- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;
- məcburi köçkün statusu olan şəxslər;
- I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.

Yuxarıda qeyd olunan kateqoriyadan olan abituriyentlər elektron ərizələrini təsdiq etməzdən (etdirməzdən) əvvəl DİM-in internet səhifəsində eyni adlı qeydiyyat sistemində qeydiyyatdan keçiblər (ekabinet.dim.gov.az/pSerencam2635.aspx).

Qəbul imtahanının nəticəsi 2 il qüvvədə olduğuna görə 2020-ci ildə qəbul imtahanında iştirak edən, lakin qəbul olmayan abituriyentlərin həmin ildə topladıqları bal ilə cari ildəki müsabiqədə (topladıqları balları cari ilin müsabiqə şərtlərini ödədikləri halda) iştirak etmək imkanları olub. Lakin, həmin abituriyentlər cari ildə keçirilən imtahanda iştirak etmək istəyiblərsə, bu halda elektron ərizənin müvafiq bölməsində bu istəklərini qeyd edib və tələb olunan məbləği şəxsi kabinetindəki hesabına əlavə ediblər. Bu zaman abituriyentlər müsabiqədə hansı imtahanın nəticəsi ilə iştirak edəcəklərini ixtisas seçimi zamanı özləri müəyyən ediblər.

Ərizənin təsdiqi DİM-in məlumat bazalarında abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla həyata keçirilib:

1. Aşağıda göstərilən kateqoriyalardan olan abituriyentlər elektron ərizələrini Sənəd Qəbulu Komissiyalarına (SQK) müraciət etmədən özləri təsdiq ediblər:

1.1. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini cari ildə bitirən abituriyentlər;

1.2. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə 2013-cü və ondan sonrakı illərdə bitirən abituriyentlər;

1.3. 2013-cü və ondan sonrakı illərdə Azərbaycan Respublikasının ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə verib onu təsdiq etdirmiş abituriyentlər.

2. 1.1, 1.2 və 1.3 -cü yarımbəndlərdə göstərilən abituriyentlərdən başqa digər abituriyentlər isə elektron ərizələrini doldurduqdan sonra tələb olunan sənədləri şəxsən təqdim etməklə elektron ərizələrini müvafiq SQK-larda təsdiq etdiriblər.

Ümumi orta təhsil (9 illik) səviyyəsini cari ildə bitirən abituriyentlər qəbul imtahanı verməmiş, müsabiqədə Azərbaycan (rus) dili, riyaziyyat və xarici dil fənlərindən buraxılış imtahanında (9-cu siniflər üzrə) əldə etdikləri nəticələr əsasında iştirak etmişlər. Bu təhsil səviyyəsini əvvəlki illərdə bitirən abituriyentlər müsabiqədə iştirak etmək üçün Azərbaycan (rus) dili, riyaziyyat və xarici dil fənlərindən bir mərhələdə qəbul imtahanı vermişlər. İmtahanda abituriyentlərə tədris dili fənnindən 30, xarici dil fənnindən 30 və riyaziyyat fənnindən 25 olmaqla, ümumilikdə 85 tapşırıq təqdim olunmuş, abituriyentlərin toplaya biləcəyi maksimal bal hər fənn üzrə 100 bal olmaqla, cəmi 300 bal olmuşdur. Cari ildə qəbul imtahanında test tapşırıqları hazırlanarkən yalnız qapalı və cavablarının kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlardan istifadə olunmuşdur. Test tapşırıqlarının strukturu haqqında daha ətraflı məlumat cədvəl 5.1-də 9-cu siniflər üzrə buraxılış imtahanı bölməsində (bax: səh. 397) təqdim olunub. İmtahanların təşkili zamanı Nazirlər Kabineti yanında operativ qərargahın tələb və tövsiyələri nəzərə alınmışdır. Qəbul imtahanı avqustun 11-də Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Sumqayıt, Abşeron, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Sabirabad, Lənkəran, Cəlilabad və Xaçmaz rayonlarında keçirilib.

Ümumi orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində cari ildə bitirən abituriyentlər müsabiqədə qəbul imtahanı vermədən buraxılış imtahanında (9-cu siniflər üzrə) topladıqları ballar əsasında iştirak ediblər. Lakin aşağıdakı xüsusi hallarda bu abituriyentlər əlavə olaraq yuxarıda göstərilən tarixlərdə bəzi fənn və yaxud fənlərdən imtahan veriblər:

- Tədris dili Azərbaycan və rus dillərindən fərqli olan ümumi təhsil müəssisələrinin məzunları orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə təqdim etdikləri halda ərizədə qeyd etdikləri bölməyə uyğun olaraq Azərbaycan dili və ya rus dili fənnindən əlavə imtahan veriblər.

- Tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər orta ixtisas təhsili müəssisələrinin tədris rus dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq rus dili fənnindən, tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər isə orta ixtisas təhsili müəssisələrinin tədris Azərbaycan dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq Azərbaycan dili fənnindən imtahan veriblər. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən, müsabiqəsində iştirak etmək istədikləri ixtisasların tədris dilinə uyğun olaraq ərizənin "Test imtahanı verəcəyi dil (Bölmə)" bölməsində Azərbaycan və ya rus dilini seçiblər.

- Qəbul imtahanında buraxılış imtahanı çərçivəsində verdikləri xarici dil fənnindən fərqli xarici dil fənni üzrə imtahan vermək istəyən məzunlar müsabiqədə iştirak etmək üçün həmin xarici dildən imtahan veriblər. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində istədikləri xarici dili seçiblər.

- Xarici dil fənni tədris olunmayan təhsil müəssisələrinin məzunları istədikləri halda qəbul imtahanında xarici dil fənni üzrə imtahan verə biliblər. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində istədikləri xarici dili seçiblər. Qeyd olunan kateqoriyadan olan məzunlar xarici dil fənnindən imtahan vermək istəmədikləri halda "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində "Xarici dildən imtahan vermək istəmirəm" bəndini seçiblər. Bu zaman onların imtahandan toplaya biləcəkləri maksimal ümumi balları iki fənn (Azərbaycan və ya rus dili və riyaziyyat) üzrə toplanan balların cəmlənməsi əsasında müəyyənləşməklə 200 bal təşkil edib.

İxtisas seçimi avqustun 27-dən sentyabrın 7-dək internet vasitəsilə həyata keçirilib. İxtisas seçiminə qəbul (buraxılış) imtahanında ümumi balı 50-dən, Azərbaycan dili və ya rus dili fənni üzrə balı 20-dən və riyaziyyat fənni üzrə balı 10-dan az olmayan abituriyentlər buraxılıblar (xarici dil fənni üzrə nisbi bal məhdudiyyəti tətbiq edilməyib). Hər bir abituriyent müxtəlif təhsil müəssisələrinin təhsili dövlət büdcəsinin vəsaiti hesabına və ödənişli olan 12-yə qədər ixtisas kodunu seçib. İxtisas kodlarının ardıcıllığını abituriyent özü müəyyənləşdirib. Qəbul qaydalarına əsasən müsabiqə zamanı həmin ardıcıllıq hüquqi əsas kimi nəzərə alınıb və abituriyent müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilib.

Qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər ümumi qaydada elektron ərizələrini təsdiq etdikdən (etdirdikdən) sonra "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanununa əsasən "Azərbaycan dili (dövlət dili kimi)" fənnindən (ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul üçün) imtahan veriblər. İmtahanın nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilib. Bu imtahanda abituriyentlərə fənn kurikulumu əsasında hazırlanmış 30 test tapşırığı təqdim edilib. Tapşırıqların yerinə yetirilməsinə 45 dəqiqə vaxt ayrılıb. Hər düzgün cavab bir balla qiymətləndirilib. Səhv cavablar yekun bala təsir göstərməyib. Abituriyentin "məqbul" alması üçün onun topladığı bal 15-dən az olmamalı idi.

Azərbaycan Respublikasının tədris Azərbaycan dilindən fərqli dillərdə aparılan ümumtəhsil müəssisələrini (ümumi orta təhsil səviyyəsi üzrə) cari ildə bitirən abituriyentlərin buraxılış imtahanı çərçivəsində verdikləri "Azərbaycan dili (dövlət dili kimi)" fənni imtahanından nisbi balı ən azı 50 olduğu halda, onların həmin nəticələri əsas götürülüb və "məqbul" almış hesab olunublar. Həmin imtahan üzrə nisbi balı 50-dən az olan abituriyentlər isə "qeyri-məqbul" almış hesab olunublar və qəbul imtahanı çərçivəsində "Azərbaycan dili (dövlət dili kimi)" fənnindən yenidən imtahan veriblər.

"Azərbaycan dili (dövlət dili kimi)" fənni üzrə imtahanın nəticəsi iki il qüvvədə olduğundan, 2020-ci ildə həmin imtahandan "məqbul" alan abituriyentlərin cari ildə bu imtahanda iştirak etmələrinə ehtiyac qalmayıb.

"Azərbaycan dili (dövlət dili kimi)" fənni imtahanından "məqbul" ala bilməyən abituriyentlər müsabiqəyə buraxılmayıblar.

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə təhsil almaq istəyən abituriyentlər, imtahanda topladıqları ümumi balları müvafiq müsabiqə şərtlərini ödədiyi halda imtahanların nəticəsi elan olunduqdan sonra, avqustun 13-dən 17-dək eservices.dim.gov.az/qabiliyyet internet səhifəsinə daxil olaraq seçdiyi xüsusi qabiliyyət tələb edən ixtisasın aid olduğu komissiya üzrə qeydiyyatdan keçiblər. 2021/2022-ci tədris ili üçün "Kinooperator" ixtisasına qəbul üzrə qabiliyyət imtahanları keçirilməyib. Bu ixtisasa qəbul olmaq istəyən abituriyentlər müsabiqəyə qəbul (buraxılış) imtahanında topladıqları bal əsasında qatılıblar.

Qabiliyyət imtahanlarında iştirak ödənişli olmuşdur. Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikasının vətəndaşlarının cari ildə ilk seçdiyi (qeydiyyatdan keçdiyi) komissiya üzrə (yalnız bir ixtisas üzrə) qabiliyyət imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına (pulsuz) olmuşdur. Bundan əlavə, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları, şəhid ailəsinin üzvləri, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, məcburi köçkün statusu olan şəxslər, I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların da qeydiyyatdan keçdikləri bütün komissiyalar üzrə qabiliyyət imtahanlarında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olmuşdur. Qabiliyyət imtahanının nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilib. Xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsinə ümumi balı 50-dən az olmayan (fənlər üzrə bal məhdudiyyəti qoyulmayıb) və müvafiq komissiya tərəfindən keçirilən qabiliyyət imtahanlarından "məqbul" alan abituriyentlər buraxılıblar. "Xoreoqrafiya sənəti (sahələr üzrə)" və "Rəqs müəllimliyi" ixtisaslarının müsabiqəsində isə ümumi balı 30-dan (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir) az olmayan abituriyentlər iştirak ediblər. "Kinooperator" ixtisasına qəbul olmaq istəyən abituriyentlər isə müsabiqəyə yalnız qəbul (buraxılış) imtahanında topladıqları bal əsasında qatılıblar. Qəbul qaydalarına əsasən abituriyentlərə xüsusi qabiliyyət tələb edən ixtisaslarla yanaşı, digər ixtisasları da seçmək imkanı verilib.

Qəbul planı (9449 yer) ötən illə müqayisədə 4.41% (436 yer) azalıb. Plan yerlərinin 4166-sı (44.09%) ödənişsiz, 5283-ü (55.91%) isə ödənişli təhsil forması üzrə olub. Qəbul planının 93.68%-i Azərbaycan, 2.07%-i rus, 4.24%-i isə hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün ayrılıb. Qəbul planının 14.76%-i (1395 yer) xüsusi qabiliyyət tələb edən ixtisasların payına düşürdü.

40 orta ixtisas təhsili müəssisəsinə tələbə qəbulu aparılıb. Sayca ən çox plan yeri Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinə (435 yer), ən az isə Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsinə (68 yer) ayrılmışdı. Orta ixtisas təhsili müəssisələrinin qəbul planları haqqında məlumat aşağıdakı cədvəldə verilir:

Cədvəl 4.2.1

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI (ÜMUMİ ORTA TƏHSİL BAZASINDA)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
1	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	90	0	0	90	115	0	0	115	205
2	Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kolleci	99	0	0	99	151	0	0	151	250
3	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Qida Sənayesi Kolleci	86	12	0	98	92	13	0	105	203
4	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kollec	75	0	0	75	150	0	0	150	225
5	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kolleci	106	6	0	112	244	14	0	258	370
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	140	30	0	170	230	35	0	265	435
7	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	175	0	0	175	235	0	0	235	410
8	Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	38	22	0	60	8	0	0	8	68
9	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec	77	22	0	99	81	22	0	103	202
10	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	0	0	30	30	0	0	44	44	74
11	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	0	0	170	170	0	0	65	65	235
12	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	80	0	0	80	180	0	0	180	260
13	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	145	0	0	145	155	0	0	155	300
14	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	151	0	0	151	215	0	0	215	366
15	Naxçıvan Dövlət Texniki Kolleci	66	0	0	66	117	0	0	117	183
16	Naxçıvan Musiqi Kolleci	80	0	0	80	60	0	0	60	140
17	Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollec	148	0	0	148	237	0	0	237	385
18	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	133	0	0	133	142	0	0	142	275
19	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	113	0	0	113	126	0	0	126	239
20	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	130	0	0	130	140	0	0	140	270
21	Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kolleci	0	0	75	75	0	0	17	17	92
22	Quba Dövlət Sosial-İqtisadi Kolleci	127	0	0	127	143	0	0	143	270
23	Şamaxı Dövlət Regional Kolleci	183	0	0	183	232	0	0	232	415
24	Mingəçevir Turizm Kolleci	127	0	0	127	126	0	0	126	253
25	Şəki Dövlət Regional Kolleci	190	0	0	190	166	0	0	166	356
26	Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci	54	0	0	54	50	0	0	50	104
27	Şuşa Humanitar Kolleci	79	0	0	79	79	0	0	79	158
28	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	104	0	0	104	151	0	0	151	255
29	Ağdam Musiqi Kolleci	46	0	0	46	50	0	0	50	96

Cədvəl 4.2.1 (ardı)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
30	Ağdaş Dövlət Humanitar Kolleci	118	0	0	118	157	0	0	157	275
31	Ağcabədi Pedaqoji Kolleci	97	0	0	97	123	0	0	123	220
32	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	96	0	0	96	98	0	0	98	194
33	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	50	0	0	50	50	0	0	50	100
34	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	80	0	0	80	100	0	0	100	180
35	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	124	0	0	124	132	0	0	132	256
36	Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar-Texnoloji Kollec	114	0	0	114	105	0	0	105	219
37	Astara Pedaqoji Kolleci	128	0	0	128	148	0	0	148	276
38	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	60	0	0	60	100	0	0	100	160
39	Masallı Dövlət Regional Kolleci	90	0	0	90	85	0	0	85	175
40	Bakı Biznes və Kooperasiya Kolleci	0	0	0	0	280	20	0	300	300
	Cəmi	**3799**	**92**	**275**	**4166**	**5053**	**104**	**126**	**5283**	**9449**

1995–1998-ci illərdə ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün abituriyent ərizələrinin sayı plan yerlərindən 30-40% az olub. Qəbul imtahanlarının yenidən mərkəzləşdirilmiş qaydada keçirildiyi 2005-2006-cı illərdə bu təhsil müəssisələrində, zəif də olsa, müsabiqə vəziyyəti mövcud olub. Bu illərdə orta ixtisas təhsili müəssisələrinə sənəd qəbulunu həmin məktəblərdə yaradılmış Sənəd Qəbulu Komissiyaları həyata keçirirdi. Sənəd qəbulu prosesində abituriyentlərin və onların valideynlərinin rahatlığını təmin etmək məqsədilə 2007-2012-ci illərdə respublikanın bütün regionlarının təhsil şöbələrində Sənəd Qəbulu Komissiyaları yaradılmışdı. Artıq doqquz ildir ki, barələrində DİM-in informasiya bazasında yetərli məlumatlar olan abituriyentlərə ərizələrini Sənəd Qəbulu Komissiyalarına müraciət etmədən internet vasitəsilə bilavasitə özlərinin təsdiq etməsinə imkan yaradılıb.

Cari ildə müsabiqənin nəticələri sentyabrın 8-də DİM-in internet saytında və "Abituriyent" jurnalının xüsusi buraxılışında yerləşdirilərək ictimaiyyətə çatdırılıb. Bundan sonra sentyabrın 29-dan oktyabrın 3-dək orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə əlavə müsabiqə elan olunub. Müsabiqədə iştirak edən abituriyentlər elektron ərizələrində orta ixtisas təhsili müəssisələrinin 12-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstəriblər. Boş qalan plan yerlərinə əlavə yerləşdirmənin nəticələri oktyabrın 4-də elan olunub.

Qəbul (buraxılış) imtahanlarında 32240 nəfər abituriyent iştirak edib. Onların 15182-si oğlan (47.09%), 17058-i isə qız abituriyent (52.91%) olub. Ötən illə müqayisə etdikdə, cari ildə qəbul (buraxılış) imtahanlarında iştirak edənlərin sayı 14928 nəfər artıb. Qeyd edək ki, orta ixtisas təhsili müəssisələrinə qəbul olub oranı bitirən şəxslərə "subbakalavr" peşə-ixtisas dərəcəsi verilir. Bu dərəcəyə malik olan şəxslər əmək bazarına ixtisaslı kadr kimi daxil olurlar. Bundan başqa, subbakalavrlar ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinin ixtisaslarının müsabiqəsində də iştirak etmək imkanı əldə edirlər. Fikrimizcə, bu sadalanan hallar abituriyentlərin orta ixtisas təhsili müəssisələrində təhsil almaq maraqlarını artırır.

İmtahan verən abituriyentlərin 21226-sı (65.84%) ixtisas seçimində iştirak etmək üçün ərizə verib. Ayrı-ayrı təhsil formaları üzrə qəbul planı, abituriyent ərizələrinin sayı və müsabiqə vəziyyəti 4.2.2 və 4.2.3 saylı cədvəllərdə təqdim olunur.

İxtisas seçimində iştirak etmək üçün ərizələrin 97.95%-i (20791-i) Azərbaycan, 2.05%-i (435-i) isə rus bölməsinə verilmişdi. Abituriyentlərin 44.70%-ni oğlanlar, 55.30%-ni isə qızlar təşkil edibdir.

Cədvəl 4.2.2

QƏBUL PLANLARI VƏ İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYI

№	TƏHSİL FORMASI	QƏBUL PLANI				ƏRİZƏLƏRİN SAYI*		
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsi	Rus bölməsi	Bütövlükdə
1	**Dövlət ödənişsiz**	**3799**	**92**	**275**	**4166**	**16753**	**409**	**17162**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	3321	60	0	3381	15515	344	15859
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	478	32	275	785	1868	77	1945
2	**Dövlət ödənişli**	**4773**	**84**	**126**	**4983**	**17625**	**354**	**17979**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	4299	74	0	4373	16549	312	16861
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	474	10	126	610	1843	51	1894
2	**Özəl**	**280**	**20**	**0**	**300**	**3159**	**217**	**3376**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	280	20	0	300	3159	217	3376
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	0	0	0	0	0	0	0
	Bütövlükdə	**8852**	**196**	**401**	**9449**	**20791**	**435**	**21226**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	7900	154	0	8054	19698	372	20070
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	952	42	401	1395	2028	79	2107

Cədvəl 4.2.3

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ MÜSABİQƏ VƏZİYYƏTİ

№	TƏHSİL FORMASI	Plan yerləri üzrə müsabiqə vəziyyəti			
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Bütövlükdə
1	**Dövlət ödənişsiz**	**3.718**	**3.641**	**1.941**	**3.572**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	3.897	5.194	---	3.920
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	2.827	0.766	1.941	2.292
2	**Dövlət ödənişli**	**1.981**	**1.603**	**2.057**	**1.962**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	2.065	1.798	---	2.060
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	1.535	0.229	2.057	1.511
3	**Özəl**	**1.916**	**2.877**	**---**	**1.980**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	1.916	2.877	---	1.980
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	---	---	---	---
	Bütövlükdə	**2.303**	**1.952**	**1.483**	**2.246**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	2.420	2.332	---	2.418
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	1.607	0.601	1.483	1.446

* İxtisas seçimində iştirak edənlər

Müsabiqədə iştirak edən 21226 abituriyentdən 9022-si qəbul olub. Onlardan 4078-i dövlət ödənişsiz, 4670-i dövlət ödənişli, 274-ü isə özəl təhsil müəssisəsinə ödənişli təhsil forması üzrə qəbul olub. Qəbul planı ümumilikdə 95.48% yerinə yetirilib. Dövlət ödənişsiz təhsil forması üzrə qəbul planının dolma göstəricisi 97.89, dövlət ödənişli təhsil forması üzrə 93.72, özəl təhsil müəssisəsi üzrə isə 91.33% olub. Qəbul olan abituriyentlərin 3785-i (41.95%) oğlan, 5237-si isə (58.05%) qız olub.

Qəbulda iştirak edən və qəbul olan abituriyentlərin bal göstəriciləri aşağıdakı diaqramlarda təsvir edilib. Hər bir fənn üzrə 100 bal olmaqla, maksimum toplanıla bilən bal 300-ə bərabər olmuşdur.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 4.2.1

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 4.2.2

Diaqramların müqayisəli təhlili göstərir ki, əgər qəbul (buraxılış) imtahanında iştirak edənlər seçməsində imtahan nəticəsi 50–100 bal intervalında yerləşən abituriyentlər sayca üstünlük təşkil edirsə, qəbul olanlar seçməsində sayca üstünlük imtahan nəticəsi 100–150 bal intervalında yerləşənlərin tərəfindədir. Yerləşdirmə aparıldıqdan sonra 100–150 bal intervalına daxil olanların nisbi çəkisi 27.99%-dən (şəkil 4.2.1) 59.43%-ə (şəkil 4.2.2) qədər yüksəlib. İmtahanda toplanılan maksimal bal 293.400-ə bərabər olub.

Təhsil formaları üzrə aparılan müsabiqə və yerləşdirmənin nəticələri 4.2.4 saylı cədvəldə təqdim olunur.

Cədvəl 4.2.4

ÜMUMİ ORTA TƏHSİL BAZASINDA ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

№	TƏHSİL FORMASI	Qəbul planı	Qəbul olub			Qəbulolma faizi
			Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
1	**Dövlət ödənişsiz**	**4166**	**3966**	**112**	**4078**	**97.89**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	3381	3263	59	3322	98.25
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	785	703	53	756	96.31

Cədvəl 4.2.4 (ardı)

№	TƏHSİL FORMASI	Qəbul planı	Qəbul olub			Qəbulolma faizi
			Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
2	**Dövlət ödənişli**	**4983**	**4583**	**87**	**4670**	**93.72**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	4373	4073	72	4145	94.79
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	610	510	15	525	86.07
3	**Özəl**	**300**	**256**	**18**	**274**	**91.33**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	300	256	18	274	91.33
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	0	0	0	0	--
Bütövlükdə		**9449**	**8805**	**217**	**9022**	**95.48**
- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar		8054	7592	149	7741	96.11
- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar		1395	1213	68	1281	91.83

Orta ixtisas təhsili müəssisələri arasında daha yüksək müsabiqə vəziyyəti Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci, Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kolleci və Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kollecdə yaranıb. Bu təhsil müəssisələrinin orta hesabla bir plan yerinə təqdim edilən ərizələrin sayı müvafiq olaraq, 10.9, 9.3 və 7.9 olub.

Orta ixtisas təhsili müəssisələri arasında ən aşağı müsabiqə vəziyyəti Şamaxı Dövlət Regional Kolleci, Astara Pedaqoji Kolleci, Mingəçevir Turizm Kolleci, Bakı Biznes və Kooperasiya Kolleci, Naxçıvan Musiqi Kolleci, Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kolleci, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci və Ağdam Musiqi Kollecində yaranıb. Bu təhsil müəssisələrində orta hesabla 1 plan yerinə 2-dən az ərizə verilib. Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsində isə 1 plan yerinə 1-dən az ərizə verilib.

Abituriyentlərin Azərbaycan və rus bölmələri üzrə ayrılıqda topladıqları ballar hesablanaraq, onların əsasında balların paylanma histoqramları təyin edilib. Hər iki bölmədə histoqram bir qədər asimmetrikdir. Asimmetriya müsbət, yaxud sağtərəflidir. Bu onu göstərir ki, ortastatistik nəticə göstərən abituriyentlərə nəzərən zəif nəticə göstərən abituriyentlərin rastgəlmə ehtimalı daha yüksəkdir.

Azərbaycan bölməsini təmsil edən ortastatistik abituriyent 93.29, rus bölməsini təmsil edən isə 110.18 bal toplayıb. Azərbaycan bölməsində abituriyentlərin yarısı 86.37-dən, rus bölməsində isə 102.08-dən çox bal toplaya bilməyib. Azərbaycan bölməsində maksimal bal 293.400, rus bölməsində isə 261.300 olub.

Azərbaycan bölməsində ortastatistik abituriyent Azərbaycan dili fənnindən 38.63, riyaziyyatdan 28.98, xarici dildən 25.67, rus bölməsində isə rus dilindən 43.29, riyaziyyatdan 31.24, xarici dildən 35.65 bal toplayıb.

Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul 9-cu sinif üzrə buraxılış imtahanı standartları əsasında aparılıb. İmtahanda iştirak edən 32240 abituriyentin 48.42%-i, heç olmasa, bir fənn üzrə 20 baldan, 93.46%-i 40 baldan aşağı nəticə göstərib. Abituriyentlərin əksəriyyəti (85.25%-i) xarici dil fənni üzrə 40 baldan aşağı nəticə göstərib. 286 abituriyent fənlərin hər biri üzrə ən azı 60 bal, 27 abituriyent isə ən azı 80 bal toplayıb. Qəbul olan 9022 nəfər abituriyentin, 17.50%-i heç olmasa, bir fənn üzrə 20 baldan, 83.75%-i 40 baldan aşağı nəticə göstərib. Qəbul olan abituriyentlərin arasında 169-u fənlərin hər biri üzrə ən azı 60 bal, 10-u isə ən azı 80 bal toplayıb.

Yuxarıda qeyd olunduğu kimi, bu il ümumi orta təhsil bazasında 40 orta ixtisas təhsili müəssisəsinə qəbul aparılıb. Cədvəldən göründüyü kimi, 3 orta ixtisas təhsili müəssisəsində plan yerləri 100% dolub. 33 orta ixtisas təhsili müəssisəsində boş qalan plan yerləri 10 faizədəkdir, qalan 4 orta ixtisas təhsili müəssisəsində isə 10%-dən yuxarıdır.

Orta ixtisas təhsili müəssisələri arasında qəbul planının ən az dolma göstəricisi Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsindədir. Cədvəldən göründüyü kimi, bu orta ixtisas təhsili müəssisəsinin plan yerlərinin 27.94%-i boş qalıb.

Son illər ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbulla bağlı göstəricilər əvvəlki illərlə müqayisədə xeyli yaxşılaşıb. Müqayisə üçün qeyd edək ki, 1998-ci ildə orta ixtisas təhsili müəssisələrindən yalnız birində plan yerləri tam dolmuş, yarısına qədərində isə 50%-dən çox kəsirdə qalmışdı.

Orta ixtisas təhsili müəssisələrinin boş qalmış plan yerləri haqqında məlumat 4.2.5 saylı cədvəldə təqdim olunur.

Cədvəl 4.2.5

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİ ÜZRƏ BOŞ QALAN PLAN YERLƏRİ HAQQINDA MƏLUMAT

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	Plan	Boş yerlərin	
			sayı	faizi
1	Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	68	19	27.94
2	Şuşa Humanitar Kolleci	158	26	16.46
3	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec	202	31	15.35
4	Naxçıvan Musiqi Kolleci	140	19	13.57
5	Şamaxı Dövlət Regional Kolleci	415	38	9.16
6	Bakı Biznes və Kooperasiya Kolleci	300	26	8.67
7	Masallı Dövlət Regional Kolleci	175	14	8.00
8	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	239	18	7.53
9	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	160	12	7.50
10	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	180	13	7.22
11	Ağcabədi Pedaqoji Kolleci	220	14	6.36
12	Ağdam Musiqi Kolleci	96	6	6.25
13	Mingəçevir Turizm Kolleci	253	15	5.93
14	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	275	16	5.82
15	Ağdaş Dövlət Humanitar Kolleci	275	15	5.45

Cədvəl 4.2.5 (ardı)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	Plan	Boş yerlərin	
			sayı	faizi
16	Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kolleci	92	5	5.43
17	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	100	5	5.00
18	Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kolleci	250	11	4.40
19	Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar-Texnoloji Kollec	219	9	4.11
20	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	270	11	4.07
21	Quba Dövlət Sosial-İqtisadi Kolleci	270	11	4.07
22	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Qida Sənayesi Kolleci	203	7	3.45
23	Astara Pedaqoji Kolleci	276	9	3.26
24	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	255	8	3.14
25	Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci	104	3	2.88
26	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	256	7	2.73
27	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	194	5	2.58
28	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	300	7	2.33
29	Şəki Dövlət Regional Kolleci	356	8	2.25
30	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kollec	225	5	2.22
31	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	366	8	2.19
32	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	435	9	2.07
33	Naxçıvan Dövlət Texniki Kolleci	183	3	1.64
34	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kolleci	370	6	1.62
35	Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollec	385	5	1.30
36	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	205	2	0.98
37	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	260	1	0.38
38	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	410	0	0.00
39	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	74	0	0.00
40	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	235	0	0.00
	C Ə M İ	**9449**	**427**	**4.52**

5. ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ BURAXILIŞ İMTAHANLARININ NƏTİCƏLƏRİ

"Ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsinin (attestasiyasının) aparılması Qaydaları"na əsasən şagirdlər 9-cu və 11-ci siniflər üzrə buraxılış imtahanını tədris dili (Azərbaycan bölməsinin şagirdləri üçün – Azərbaycan dili, rus bölməsinin şagirdləri üçün – rus dili, gürcü bölməsinin şagirdləri üçün – gürcü dili), riyaziyyat və xarici dil fənlərindən vermişlər. Tədris dili Azərbaycan, rus və ya gürcü dillərindən fərqli olan ümumtəhsil müəssisələrinin şagirdləri yalnız riyaziyyat və xarici dil fənləri üzrə imtahan vermişlər. 9-cu və 11-ci siniflər üzrə buraxılış imtahanında üzrsüz səbəbdən iştirak etməyən şagirdlərə attestat verilməmişdir.

Koronavirus (COVID-19) pandemiyası səbəbindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 mart 2021-ci il tarixli qərarına əsasən "Ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyasının aparılması Qaydaları"nda edilən dəyişikliyə uyğun olaraq cari ildə ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı bir mərhələdən ibarət olmaqla keçirilib. Belə ki, 9-cu siniflər üzrə buraxılış imtahanında şagirdlərə tədris dili fənnindən 30, xarici dil fənnindən 30 və riyaziyyat fənnindən 25 olmaqla, ümumilikdə 85 tapşırıq təqdim olunmuş, şagirdlərin toplaya biləcəyi maksimal bal hər fənn üzrə 100 bal olmaqla, cəmi 300 bal olmuşdur. Cari ildə 9-cu siniflər üzrə buraxılış imtahanında test tapşırıqları hazırlanarkən yalnız qapalı və cavablarının kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlardan istifadə olunmuşdur. Test tapşırıqlarının strukturu haqqında daha ətraflı məlumat cədvəl 5.1-də təqdim olunub.

Həm 9, həm də 11-ci siniflər üzrə buraxılış imtahanlarında tədris dili Azərbaycan dilindən fəqli olan şagirdlər yuxarıda qeyd olunan fənlərdən əlavə dövlət dili kimi Azərbaycan dili fənnindən də imtahan veriblər.

İmtahanlar bölgələr üzrə aşağıdakı tarixlərdə keçirilmişdir:

- **Ümumi təhsil səviyyəsi üzrə buraxılış imtahanı:**
  - 02.06.2021-ci il tarixdə: Abşeron (I hissə), Gəncə-Kəpəz, Qazax, Şəki, Lənkəran, Bərdə, Ağsu, Ağdaş, Saatlı, Qusar, Siyəzən, Xızı;
  - 03.06.2021-ci il tarixdə: Naxçıvan, Sumqayıt (I hissə), Gəncə-Nizami, Daşkəsən, Ağstafa, Qəbələ, Astara, Lerik, Yardımlı, Yevlax, Zərdab, Ucar, Şirvan, Şabran, Qobustan, Hacıqabul;
  - 09.06.2021-ci il tarixdə: Nəsimi, Qaradağ, Nərimanov, Abşeron (II hissə), Goranboy, Naftalan, Zaqatala, Masallı (I hissə), Ağdam, Tərtər, Şamaxı, Xaçmaz (I hissə), Sabirabad;
  - 10.06.2021-ci il tarixdə: Nizami, Səbail, Suraxanı, Sumqayıt (II hissə), Mingəçevir, Balakən, Cəlilabad (I hissə), Ağcabədi, İsmayıllı, Quba (I hissə), İmişli, Biləsuvar;
  - 16.06.2021-ci il tarixdə: Yasamal, Xəzər, Xətai, Göygöl, Tovuz, Gədəbəy, Oğuz, Masallı (II hissə), Beyləqan, Göyçay, Xaçmaz (II hissə), Salyan;
  - 17.06.2021-ci il tarixdə: Binəqədi, Sabunçu, Pirallahı, Samux, Şəmkir, Qax, Cəlilabad (II hissə), Füzuli, Kürdəmir, Quba (II hissə), Neftçala, Respublika üzrə tədris gürcü, ingilis və fransız dilində olan məktəblər, Bakı-xüsusi məktəblər (internat məktəbləri, cəza çəkmə müəssisələrində olan məktəblər və s.), Çilov adası.

Qeyd 1: Bəzi şəhər və rayonlar üzrə şagirdlərin hərəkət intensivliyinin azaldılması məqsədilə onlar 2 hissəyə ayrılmış və müxtəlif günlərdə imtahan vermişlər. Cədvəldə bu hal müvafiq olaraq, hissələrlə adlandırılıb.

Qeyd 2: Məcburi köçkün rayonlarından olan şagirdlər buraxılış imtahanını ümumtəhsil müəssisəsinin yerləşdiyi şəhərdə (rayonda) yuxarıda göstərilən qrafikə uyğun veriblər.

- **Tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı:**
  - 15.04.21-ci il tarixdə: Gəncə-Kəpəz, Qazax, Qax, Lənkəran, Ağdam, Tərtər, İsmayıllı, Şirvan, Siyəzən, Xızı, Hacıqabul;
  - 16.04.21-ci il tarixdə: Nizami, Suraxanı, Binəqədi, Səbail, Sumqayıt, Gəncə-Nizami, Ağstafa, Oğuz, Astara, Ağcabədi, Şamaxı, Saatlı;
  - 22.04.21-ci il tarixdə: Goranboy, Naftalan, Zaqatala, Cəlilabad, Beyləqan, Ağdaş, Ucar, Salyan, Xaçmaz, Qobustan;
  - 23.04.21-ci il tarixdə: Xəzər, Qaradağ, Yasamal, Nərimanov, Abşeron, Mingəçevir, Balakən, Masallı, Füzuli, Ağsu, Zərdab, Neftçala, Quba, Ölkə üzrə tədris gürcü dilində olan məktəblər;
  - 29.04.21-ci il tarixdə: Naxçıvan, Göygöl, Şəmkir, Şəki, Lerik, Bərdə, Göyçay, Sabirabad, Qusar, Respublika üzrə tədris ingilis və fransız dilində olan məktəblər, Bakı-xüsusi məktəblər (internat məktəbləri, cəza çəkmə müəssisələrində olan məktəblər və s.), Çilov adası;
  - 30.04.21-ci il tarixdə: Xətai, Sabunçu, Nəsimi, Pirallahı, Samux, Daşkəsən, Tovuz, Gədəbəy, Qəbələ, Yardımlı, Yevlax, Kürdəmir, İmişli, Şabran, Biləsuvar.

Qeyd 1: Məcburi köçkün rayonlarından olan şagirdlər buraxılış imtahanını ümumtəhsil müəssisəsinin yerləşdiyi şəhərdə (rayonda) yuxarıda göstərilən qrafikə uyğun veriblər.

İmtahanda şagirdlərə təqdim olunan sualların strukturu aşağıdakı cədvəldə verilib:

Cədvəl 5.1

Fənlər	9-cu siniflər üzrə buraxılış imtahanı	11-ci siniflər üzrə buraxılış imtahanı
Xarici dil	Dinləyib-anlamaya dair mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 6 tapşırıq (qapalı tipli 5 və və cavabının kodlaşdırılması tələb olunan (seçim formalı) açıq tipli 1 tapşırıq); Dil qaydalarına dair 16 tapşırıq: qapalı tipli 14 və cavablarının kodlaşdırılması tələb olunan (seçim formalı) açıq tipli 2 tapşırıq; Oxuyub-anlamaya dair mətn və mətnə aid 8 tapşırıq: qapalı tipli 7 və cavabının kodlaşdırılması tələb olunan (seçim formalı) açıq tipli 1 tapşırıq; Cəmi 30 tapşırıq	Dinləyib-anlamaya dair mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 6 tapşırıq: qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 1 tapşırıq; Qapalı tipli 16 tapşırıq; Oxuyub-anlamaya dair mətn və mətnə aid 8 tapşırıq: qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 3 tapşırıq. Cəmi 30 tapşırıq
Tədris dili	Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq; Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq (cəmi 20 tapşırıq): qapalı tipli 8 və cavablarının kodlaşdırılması tələb olunan (seçim formalı) açıq tipli 2 tapşırıq; Cəmi 30 tapşırıq	Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq; Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq: qapalı tipli 8 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 2 tapşırıq (cəmi 20 tapşırıq). Cəmi 30 tapşırıq
Riyaziyyat	Qapalı tipli 21 tapşırıq; Cavablarının kodlaşdırılması tələb olunan (hesablama formalı) açıq tipli 4 tapşırıq. Cəmi 25 tapşırıq	Qapalı tipli 13 tapşırıq; Cavabların kodlaşdırılması tələb olunan açıq tipli 8 tapşırıq; Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 4 tapşırıq; Cəmi 25 tapşırıq
Cəmi	85 tapşırıq (73 qapalı tipli və cavablarının kodlaşdırılması tələb olunan 12 açıq tipli tapşırıq)	85 tapşırıq (65 qapalı tipli, yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 12 və cavabların kodlaşdırılması tələb olunan 8 açıq tipli tapşırıq)

Balların hesablanması qaydaları aşağıdakı cədvəllərdə təqdim olunub:

Cədvəl 5.2

9-cu sinif buraxılış imtahanı üzrə balların hesablanma qaydası

Fənn	Maksimal bal	Test tapşırıqlarının sayı	Bal
Tədris dili (Azərbaycan dili, rus dili, gürcü dili)	**100**	**30 tapşırıq (26 qapalı və 4 açıq tipli)**	$\frac{10}{3}\cdot n_d$
Xarici dil (ingilis, alman, fransız, rus, ərəb, fars dilləri)	**100**	**30 tapşırıq (26 qapalı və 4 açıq tipli)**	$\frac{10}{3}\cdot n_d$
Riyaziyyat	**100**	**25 tapşırıq (21 qapalı və 4 açıq tipli)**	$4\cdot n_d$

Qeyd 1: $n_{d\,(qapalı)}$ - qapalı və açıq tipli test tapşırıqları üzrə düzgün cavabların cəmi.

Cədvəl 5.3

11-ci sinif buraxılış imtahanı üzrə balların hesablanma qaydası

Fənnin adı	Maksimal bal	Tapşırıqların sayı	Bal
Tədris dili (Azərbaycan, rus və ya gürcü)	100	**30 tapşırıq** (qapalı tipli 26 tapşırıq və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 4 tapşırıq)	$\frac{100}{34}\cdot\left(2n_{d(açıq,\,yazılı)}+n_{d(qapalı)}\right)$
Riyaziyyat	100	**25 tapşırıq** (qapalı tipli 13 tapşırıq, cavabların kodlaşdırılması tələb olunan açıq tipli 8 tapşırıq, həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 4 tapşırıq)	$\frac{100}{29}\cdot\left(2n_{d(açıq,\,yazılı)}+n_{d(açıq,kod)}+n_{d(qapalı)}\right)$
Xarici dil (ingilis, alman, fransız, rus, ərəb və ya fars dili)	100	**30 tapşırıq** (qapalı tipli 26 tapşırıq və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 4 tapşırıq)	$\frac{100}{34}\cdot\left(2n_{d(açıq,\,yazılı)}+n_{d(qapalı)}\right)$

Qeyd 1: $n_{d(açıq,\,kod)}$ - cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(qapalı)}$ - qapalı tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(açıq,\,yazılı)}$ - yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi.

Qeyd 2: Qapalı tipli və cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqların hər birinə verilən düzgün cavab 1 balla qiymətləndirilir.

Qeyd 3: Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında 0, $\frac{1}{3}$, $\frac{1}{2}$, $\frac{2}{3}$ və ya 1 balla qiymətləndirilə bilər.

Ötən ildə olduğu kimi, bu il də həm 9-cu, həm də 11-ci siniflər üzrə buraxılış imtahanında dinləmə mətnlərinə aid test tapşırıqlarından istifadə olunub. Həmin mətnlər DİM-in səsyazma studiyasında səsləndirilib və arxivləşdirilib.

İmtahanda şagirdlərə hər bir xarici dil fənni üzrə 1 dinləmə mətni təqdim olunub. Audioqurğuya yazılmış həmin mətn bütün imtahan zallarına hərəsində bir audioqurğu olmaqla paylanıb. İmtahan başlandıqda audioqurğu yerləşdiyi zərfdən çıxarılıb və işə salınıb. Dinləmə mətni üzrə təqdim olunan tapşırıqlarla tanış olmaları üçün şagirdlərə 2 dəqiqə vaxt ayrılıb və bundan sonra arada 2 dəqiqəlik fasilə ilə mətn 2 dəfə səsləndirilib.

Yazılı və ətraflı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə şagirdlərin işləri markerlər tərəfindən kompüterlərdə yoxlanılıb. Yoxlama prosesində DİM-in əməkdaşlarının hazırladığı "Onlayn Marker Sistemi" proqram təminatından istifadə olunub. İstifadə olunan proqram sayəsində Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar tətbiq olunan xüsusi karantin rejimi dövründə markerlər DİM-ə gəlmədən onlayn şəkildə yoxlama prosesində iştirak edib. Yoxlama prosesinin mümkün bütün mərhələləri avtomatlaşdırılıb və bütün təhlükəsizlik tədbirləri görülüb. Belə ki, bir şagirdin cavab vərəqi proqram vasitəsilə tapşırıq-tapşırıq bölünərək fərqli markerlərə göndərilib və markerin qarşısında oturduğu kompüterin ekranında şagird haqqında heç bir məlumat olmayıb, yəni tapşırığı kimin cavablandırdığı tam məxfi saxlanılıb. Bundan başqa, yoxlanan tapşırıq üzrə eyni bir iş ən azı iki marker tərəfindən yoxlanılıb, bu markerlərin qiymətləri üst-üstə düşmədiyi halda növbəti markerə müraciət olunub, proses ən azı 2 markerin eyni işə verdikləri qiymətlər üst-üstə düşənə qədər davam etdirilib.

Aşağıda təqdim olunan 5.4 saylı cədvəldə 11-ci siniflər üzrə buraxılış imtahanında açıq tipli test tapşırıqlarının yoxlanılması prosesi haqqında statistik məlumat verilib:

Cədvəl 5.4

Açıq tipli test tapşırıqlarının yoxlanılması haqqında statistik məlumat (11-ci siniflər üzrə buraxılış imtahanı)

	İmtahan fənləri					Bütövlükdə
	Azərbaycan dili	Rus dili	Gürcü dili	Riyaziyyat	Xarici dil	
Tapşırıqların ümumi sayı	398852	32516	348	432276	439292	1303284
Cavablandırılmayan tapşırıqların sayı *(faizlə)*	145630 (36.51)	8290 (25.50)	160 (45.98)	301881 (69.84)	220814 (50.27)	676775 (51.93)
Markerlər tərəfindən qiymətləndirilən tapşırıqların sayı	253222	24226	188	130395	218478	626509
Yoxlamaların ümumi sayı *(bir tapşırıq iki fərqli marker tərəfindən yoxlanılır və qiymətlərin üst-üstə düşmədiyi halda, başqa marker(lər) tərəfindən də yoxlanılır)*	563941	55611	451	270727	449772	1340502
Orta hesabla bir tapşırığı yoxlayan markerlərin sayı	2.2	2.3	2.4	2.1	2.1	2.1
Yoxlama prosesində iştirak edən markerlərin sayı	316	34	4	193	208	755
Orta hesabla bir markerə düşən tapşırıqların sayı	1784.6	1635.6	112.8	1402.7	2162.4	1775.5

İmtahanın ümumi müddəti həm 9, həm də 11-ci siniflər üzrə 3 saat (tədris dili Azərbaycan, rus və gürcü dillərindən fərqli olan ümumtəhsil müəssisələrinin şagirdləri üçün imtahanın müddəti 2 saat) müəyyən edilmişdi.

Buraxılış imtahanlarından əvvəl şagirdlərə kömək məqsədilə tədris dili (Azərbaycan bölməsinin şagirdləri üçün – Azərbaycan dili, rus bölməsinin şagirdləri üçün – rus dili, gürcü bölməsinin şagirdləri üçün – gürcü dili), riyaziyyat və xarici dil fənlərindən tapşırıq nümunələri hazırlanmış, yazı işinin qiymətləndirilməsi üçün meyarlar müəyyənləşdirilmiş və DİM-in internet saytında yerləşdirilmişdi.

Şagirdlərin rahatlığının təmin olunması üçün imtahanlar yalnız rayon mərkəzlərində deyil, ucqar kənd məktəblərində də keçirilmişdir. Cari ildə 9-cu və 11-ci siniflərin buraxılış imtahanları 998 imtahan mərkəzində təşkil olunmuşdu. İmtahanların təhlükəsizliyinin təmin olunması məqsədilə binalara buraxılış

rejimini təşkil etmək üçün 965 kişi polis əməkdaşı, Təhsil Nazirliyinin və Gənclər və İdman Nazirliyinin xətti ilə 952 qadın əməkdaş, imtahan binalarını imtahandan bir gün əvvəl yoxlayıb möhürlənməyə isə 295 nəfər cəlb olunmuşdur.

İmtahanın idarə olunması üçün hər bir rayonda yerli məktəblərin müəllimlərindən ibarət nəzarətçilər seçilmiş, DİM-in əməkdaşları imtahandan əvvəl onlar üçün yerlərdə təlimlər keçmişdir. Ümumiyyətlə, imtahan prosesində respublikanın ümumi təhsil müəssisələrinin müəllimləri arasından 20367 nəfər nəzarətçi, ayrı-ayrı dövlət strukturlarının mütəxəssisləri arasından 2712 nəfər imtahan rəhbəri qismində iştirak etmişdir.

Hər buraxılış imtahanından sonra DİM-də və onun regional bölmələrində vətəndaşların buraxılış imtahanları ilə bağlı müraciətlərinə baxılmış və müvafiq qərarlar qəbul edilmişdir.

Buraxılış imtahanlarında cari ilin 211278 məzunu iştirak etmişdir. Onların 128246-sı (7 nəfər yalnız Azərbaycan dili (dövlət dili kimi) imtahanında iştirak edib) 9-cu, 83032-si (3 nəfər yalnız Azərbaycan dili (dövlət dili kimi) imtahanında iştirak edib) isə 11-ci sinif şagirdləri olub. Qeyd edək ki, 2021-ci ildə respublika üzrə 9-cu və 11-ci sinif şagirdlərinin ümumi sayı, müvafiq olaraq, 130022 və 83157 nəfər idi. Göründüyü kimi, buraxılış imtahanlarında bu və ya digər səbəblərdən 1901 nəfər (9-cu və 11-ci siniflər üzrə, müvafiq olaraq, 1776 və 125 nəfər) iştirak etməmişdir.

DİM qəbul imtahanlarının məzmununu və test tapşırıqlarının çətinlik dərəcəsini imtahanın məqsədinə uyğun olaraq maksimum dərəcədə asanlaşdırmışdı. Belə ki, bütün imtahan fənləri üzrə tədris planında çətin sayılan bir sıra mövzulara aid test tapşırıqları imtahana salınmamışdı. İmtahanların keçirilmə tarixləri ilə əlaqədar olaraq da bir sıra mövzular imtahan proqramlarına daxil edilməmişdir. Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına əsasən tədris prosesinin tədris ilinin müəyyən dövrlərində dayandırılması və onlayn qaydada keçilən dərslərin bütün şagirdlər üçün əlçatan olmaması nəzərə alınaraq müəyyən mövzular imtahana salınmamışdır. Cari ildə imtahan proqramlarından çıxarılan mövzular aşağıda təqdim olunmuşdur:

Çətinlik dərəcəsinin asanlaşdırılması və imtahanların keçirilmə tarixləri ilə əlaqədar buraxılış imtahanlarının proqramlarına daxil edilməyən mövzular.

9-cu siniflər üzrə

- **Riyaziyyat:** İkidəyişənli xətti bərabərsizliklər. İkidəyişənli xətti bərabərsizliklər sistemi.
- **Rus dili:** Frazeologiya. Atalar sözləri

11-ci siniflər üzrə

- **Riyaziyyat:** Binomial açılışlar. Bernuli sınaqlar. Çoxhədli funksiya. Rasional funksiya. Müstəvinin tənliyi. Sferanın tənliyi. İkinci tərtib törəmə. Qeyri-müəyyən inteqral. Əyrinin əhatə etdiyi sahə. Müəyyən inteqral və sahə. Nyuton-Leybnis düsturu. Müəyyən inteqralın xassələri. Əyrilərlə hüdudlanmış fiqurun sahəsi. Fırlanmadan alınan fiqurların həcmi. Statistik göstəricilər. Məlumatların paylanma formaları. Normal paylanma. Qutu-qulp diaqramı. Təsadüfi hadisələr və ehtimal (11-ci sinifdə tədris edilən hissəsi). İrrasional tənliklər və bərabərsizliklər. Üstlü tənliklər sistemi. Loqarifmik tənliklər sistemi. Triqonometrik tənliklər sistemi.
- **Rus dili:** Frazeologiya. Atalar sözləri
- **İngilis dili:** Sifətin sıralanması (The order of adjective). Miqdar bildirən sözlər (Quantifier: a great deal of, a majority of).

Koronavirus (COVİD-19) pandemiyası ilə əlaqədar buraxılış imtahanları proqramlarından ixtisar edilən mövzular.

9-cu siniflər üzrə

- **Azərbaycan dili (tədris dili):** Tabeli mürəkkəb cümlənin tərkib hissələrini bir-birinə bağlayan vasitələr (intonasiya, tabelilik bağlayıcıları, digər vasitələr). Tabeli mürəkkəb cümlələrdə vergül işarəsindən istifadə edilməsi. Tabeli mürəkkəb cümlələrdə bağlayıcı sözlər. Baş və budaq cümlələrin sıralanması. Vasitəsiz nitq. Vasitəsiz nitqdə durğu işarələri (qoşa nöqtə, dırnaq, tire). Vasitəli nitq.
- **Rus dili (tədris dili):** Сложноподчинённые предложения с несколькими придаточными и пунктуация в них.

  Бессоюзные сложные предложения. Знаки препинания между частями бессоюзного сложного предложения. Запятая и точка с запятой, двоеточие и тире в бессоюзном сложном предложении.

- **Riyaziyyat:** Ədədi ardıcıllıq. Ədədi silsilə. Ədədi silsilənin n-ci həddinin və ilk n həddinin cəmi düsturları. Həndəsi silsilə. Həndəsi silsilənin n-ci həddinin və ilk n həddinin cəmi düsturları. Sonsuz həndəsi silsilənin $(|q|<1)$ cəmi.

  Koordinat müstəvisində vektorlar. Vektorun uzunluğu (mütləq qiyməti, modulu). Vektorların toplanması və çıxılması. Vektorun ədədə vurulması. Vektorun komponentləri. Komponentlərinə görə vektorun uzunluğunun hesablanması. Komponentləri verilmiş vektorlar üzərində əməllər. Vektorların kollinearlıq şərti. Çevrə daxilinə çəkilmiş bucaq. Çevrədə vətərlərin xassələri. Kəsən və toxunanların əmələ gətirdiyi bucaqlar. Çevrədə mütənasib parçalar.

  Birləşmələr nəzəriyyəsinin elementləri (permutasiya, kombinezon).
- **Rus dili: Сложное предложение.**

  Сложные предложения с союзами и союзными словами и, а, но, пока, так как, потому что, чтобы, если, хотя, как, где, куда, откуда, когда, какой, который и др.
- **Fars dili:** Mürəkkəb cümlə. Tabeli və tabesiz mürəkkəb cümlələr.

11-ci siniflər üzrə

- **Riyaziyyat:** Funksiyanın böhran və ekstrmum nöqtələri, törəmənin köməyi ilə onların tapılması. Funksiyanın parçada ən böyük və ən kiçik qiymətləri. Funksiyanın tədqiq sxemi.
- **Fransız dili:** Vasitəsiz və vasitəli nitq. Vasitəsiz nitqin vasitəli nitqə çevrilməsi.
- **Ərəb dili:** İdiomlar, alınma sözlər.
- **Fars dili:** Tabeli mürəkkəb cümlənin tərkib hissələri olan baş və budaq cümlələr. Təyin, tamamlıq, zaman, şərt, səbəb, məqsəd və güzəşt budaq cümləli tabeli mürəkkəb cümlələr və onların yaranma üsulları.

Yuxarıda qeyd olunanlara baxmayaraq, təəssüf ki, 9-cu sinif şagirdləri arasında nəinki tədris proqramını minimum mənimsəməyənlər, hətta oxuyub-yazmaqda çətinlik çəkənlər və ya ümumiyyətlə, oxuyub-yazmağı bacarmayanlar da aşkar olunmuşdur. Beləliklə 9-cu sinif şagirdləri arasında 38 nəfər olub. Bu cür halların imtahan rəhbərlərinin əksəriyyətinin protokollarında qeyd olunmamasını nəzərə alsaq, yuxarıda göstərilən faktların, əslində, daha çox olduğunu ehtimal etmək olar. Rayonlar üzrə oxumağı və yazmağı bacarmayan 9-cu sinif şagirdlərinin sayı belədir: Cəlilabad rayonunda 5 nəfər, Goranboy və Ucar rayonlarının hərəsində 4 nəfər, Füzuli, Masallı və Tərtər rayonlarının hərəsində 3 nəfər, Lerik və Şəmkir rayonlarının hərəsində 2 nəfər və Ağcabədi, Balakən, Beyləqan, Gədəbəy, Kəlbəcər, Kürdəmir, Lənkəran, Oğuz, Salyan, Şirvan, Tovuz və Zaqatala rayonlarının hərəsində 1 nəfər.

Ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında şagirdlərin nəticələri hər bir fənn üzrə 100 ballıq şkalada qiymətləndirilib. Buraxılış imtahanında iştirak edən ortastatistik şagird tədris dili fənni üzrə 45.12, riyaziyyat fənni üzrə 37.25, xarici dil fənni üzrə 34.04 bal toplayıb və ümumi balı 116.27-yə bərabər olub. Qapalı tipli test tapşırıqları üzrə bu göstərici tədris dili fənnindən 47.72-yə, riyaziyyat fənnindən 40.78-ə və xarici dil fənnindən 35.95-ə, cavabların kodlaşdırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə bu göstəricilər müvafiq olaraq 28.23, 18.68 və 21.58-ə bərabər olub.

Aşağıdakı diaqramda hər bir fənn üzrə şagirdlərin buraxılış imtahanında əldə etdikləri nəticələr göstərilib.



Şəkil 5.1

Aşağıdakı cədvəldə ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında hər bir xarici dil fənni üzrə şagirdlərin imtahan nəticələri və tədrisi dili Azərbaycan dilindən fərqli olan şagirdlər üçün dövlət dili kimi Azərbaycan dili fənni üzrə onların imtahan nəticələri də təqdim edilmişdir.

Cədvəl 5.5

Fənlər	İmtahanda iştirak edənlərin sayı (faizi)	Nisbi ballar üzrə intervallar					
		0	0-20	20-40	40-60	60-80	80-100
İngilis	109311	1336	39834	33770	15434	11453	7484
	(100.00)	1.22	36.44	30.89	14.12	10.48	6.85
Fransız	2269	35	960	829	280	131	34
	(100.00)	1.54	42.31	36.54	12.34	5.77	1.50
Alman	1303	16	465	505	188	95	34
	(100.00)	1.23	35.69	38.76	14.43	7.29	2.61
Ərəb	38	0	23	8	3	4	0
	(100.00)	0.00	60.53	21.05	7.89	10.53	0.00
Rus	15229	283	7584	5206	1365	573	218
	(100.00)	1.86	49.80	34.18	8.96	3.76	1.43
Azərbaycan dili (dövlət dili kimi)	10466	42	732	2340	3377	3185	790
	(100.00)	0.40	6.99	22.36	32.27	30.43	7.55

11-ci sinif üzrə buraxılış imtahanında şagirdlərin nəticələri hər bir fənn üzrə 100 ballıq şkalada qiymətləndirilib. Buraxılış imtahanında iştirak edən ortastatistik şagird tədris dili fənni üzrə 46.08, riyaziyyat fənni üzrə 29.61, xarici dil fənni üzrə 40.37 bal toplayıb və ümumi balı 115.93-ə bərabər olub. Aşağıdakı diaqramda hər bir fənn üzrə şagirdlərin buraxılış imtahanında əldə etdikləri nəticələr göstərilib. Şəkillərdən də göründüyü kimi, şagirdlərin imtahanda əldə etdikləri nəticələr qənaətbəxş deyil. 9-cu sinfin buraxılış imtahanında olduğu kimi, 11-ci siniflər üzrə buraxılış imtahanında da şagirdlərin bacarıq və vərdişlərinin inkişaf etdirilməsi üzərində qurulan tapşırıqları yerinə yetirməkdə çətinlik çəkdiklərini görürük. Fənlər üzrə qapalı və açıq tipli tapşırıqların nəticələrini müqayisə etdikdə müəyyən olur ki, bu göstəricilər arasında böyük fərq var. Xüsusilə riyaziyyat fənni üzrə bu fərq daha böyükdür. Belə ki, ortastatistik şagirdin yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə balı (faizlə) tədris dili fənnindən 36.70, xarici dil fənnindən 24.61, riyaziyyat fənnindən 11.85-dir. Qapalı tipli test tapşırıqları üzrə isə bu göstərici tədris dili fənnindən 48.96-ya, xarici dil fənnindən 45.22-yə və riyaziyyat fənnindən 45.97-yə bərabər olub. Riyaziyyat fənnindən cavabların kodlaşdırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə orta bal (faizlə) 20.83-dir. Bütün bu təhlillərdən belə qənaətə gəlmək olar ki, ümumtəhsil məktəblərində kurikulumun tətbiqi çox zəifdir və şagirdlərə aşılanan bacarıq və vərdişlər lazımi səviyyədə deyil.



Şəkil 5.2

Aşağıdakı cədvəldə tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında hər bir xarici dil fənni üzrə şagirdlərin imtahan nəticələri və tədrisi dili Azərbaycan dilindən fərqli olan şagirdlər üçün dövlət dili kimi Azərbaycan dili fənni üzrə onların imtahan nəticələri də təqdim edilmişdir.

Cədvəl 5.6

Fənlər	İmtahanda iştirak edənlərin sayı (faizi)	Nisbi ballar üzrə intervallar					
		0	0-20	20-40	40-60	60-80	80-100
İngilis	69852	402	17187	19148	13936	11639	7540
	(100.00)	0.58	24.60	27.41	19.95	16.66	10.79
Fransız	1541	15	507	441	285	230	63
	(100.00)	0.97	32.90	28.62	18.49	14.93	4.09
Alman	948	6	284	340	185	93	40
	(100.00)	0.63	29.96	35.86	19.51	9.81	4.22
Ərəb	42	3	10	9	6	7	7
	(100.00)	7.14	23.81	21.43	14.29	16.67	16.67
Rus	10596	163	4176	3588	1477	786	406
	(100.00)	1.54	39.41	33.86	13.94	7.42	3.83
Azərbaycan dili (dövlət dili kimi)	7273	3	426	1481	2387	2400	576
	(100.00)	0.04	5.86	20.36	32.82	33.00	7.92

Klassik test nəzəriyyəsi əsasında buraxılış imtahanlarında istifadə edilən testlərin etibarlılığı təhlil olunmuşdur. 9-cu siniflər üzrə buraxılış imtahanında fənlər üzrə testlərin etibarlılıq əmsalları 0.82-0.94 (Küder-Riçardson (KR-20)), 11-ci siniflər üzrə buraxılış imtahanında isə fənlər üzrə testlərin etibarlılıq əmsalları 0.80-0.93 (KR-20) hüdudlarında yerləşir. Göründüyü kimi, bu il buraxılış imtahanlarında fənlər üzrə istifadə edilən testlər kifayət qədər etibarlı olmuşdur. Bundan başqa, hər bir imtahan zonasında istifadə edilən buraxılış imtahanı testlərinin Split-Half metodu və Mosye (Mosier) düsturu əsasında bütövlükdə etibarlılıq əmsalları da hesablanmışdır. İmtahan zonaları üzrə ayrı-ayrılıqda aparılmış hesablamalar nəticəsində məlum olmuşdur ki, buraxılış imtahanı testlərinin etibarlılıq əmsalları 9-cu siniflər üzrə buraxılış imtahanı üzrə 0.82-0.97, 11-ci siniflər üzrə 0.83-0.98 intervallarında yerləşir. Təqdim edilən rəqəmlər sübut edir ki, 2021-ci ildə buraxılış imtahanlarında hər bir imtahan zonası üzrə tərtib edilmiş testlər çox yüksək etibarlılıq xassəsinə malikdir.

DİM buraxılış imtahanlarında şagirdlərə təqdim olunan testlərin məzmununu elə layihələşdirmişdi ki, aşağı və orta qabiliyyətlərin ölçülməsində maksimal dəqiqlik təmin edilsin. 5.1 saylı qrafikdə şagirdlərin Azərbaycan dili fənni üzrə bilik və bacarıq səviyyələrinə görə paylanması və hər bir test tapşırığına düşən informasiya əyrisi təqdim edilib. Təqdim olunan informasiya əyrisini və histoqramı müqayisə etdikdə, test tapşırıqlarının qabiliyyət səviyyələrinə görə daha çox şagirdin cəmləşdiyi hissədə bizə daha çox informasiya verdiyini görürük. Bu isə bizə maksimum dəqiqliklə imtahan verən şagirdlərin çoxunun qabiliyyətinin ölçülməsinə imkan verir. Qeyd olunan xüsusiyyətlər riyaziyyat fənni üzrə testlərdə özünü göstərmir. 5.3 saylı qrafikdən də göründüyü kimi, kurikulumun tələbləri səviyyəsində tərtib edilmiş bu testlər 0.45 loqitdə yerləşən şagirdlərin bilik və bacarıqları haqqında maksimal informasiya əldə etməyə imkan verir. Qrafikdəki histoqrama nəzər saldıqda isə, demək olar ki, şagirdlərin yarısının qabiliyyət səviyyələrinin -0.95 loqitdən aşağıda yerləşdiyinin şahidi oluruq. Bunun başlıca səbəbi orta məktəblərdə kurikulum üzrə dərslərin hələ də qənaətbəxş şəkildə tədris olunmamasıdır.

5.2 saylı qrafikdə Azərbaycan dili fənni, 5.4 saylı qrafikdə riyaziyyat fənni və 5.5 saylı qrafikdə ingilis dili fənni üzrə şagirdlərin buraxılış imtahanında müxtəlif tipli test tapşırıqları üzrə əldə etdikləri nəticələr arasındakı əlaqə göstərilib. Qrafiklərdən də göründüyü kimi riyaziyyat fənni üzrə qapalı tipli və cavabları

kodlaşdırılan açıq tipli test tapşırıqları üzrə orta nəticə göstərən şagirdlər belə, yazılı şəkildə cavablandırılması tələbə olunan açıq tipli test tapşırıqları üzrə çox zəif nəticə göstəriblər. Azərbaycan dili və ingilis dili fənləri üzrə buna bənzər mənzərənin şahidi olsaq da, burada vəziyyət nisbətən daha yaxşıdır.

AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN İNFORMASİYA ƏYRİSİ VƏ ŞAGİRDLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI
(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.1

AZƏRBAYCAN DİLİ FƏNNİ ÜZRƏ ŞAGİRDLƏRİN MÜXTƏLİF TİPLİ TEST TAPŞIRIQLARI ÜZRƏ ƏLDƏ ETDİKLƏRİ NƏTİCƏLƏR ARASINDAKI ƏLAQƏ
(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.2

RİYAZİYYAT FƏNNİNDƏN İNFORMASİYA ƏYRİSİ VƏ ŞAGİRDLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI
(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.3

RİYAZİYYAT FƏNNİ ÜZRƏ ŞAGİRDLƏRİN MÜXTƏLİF TİPLİ TEST TAPŞIRIQLARI ÜZRƏ ƏLDƏ ETDİKLƏRİ NƏTİCƏLƏR ARASINDAKI ƏLAQƏ
(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.4

İNGİLİS DİLİ FƏNNİ ÜZRƏ ŞAGİRDLƏRİN MÜXTƏLİF TİPLİ TEST TAPŞIRIQLARI ÜZRƏ ƏLDƏ ETDİKLƏRİ NƏTİCƏLƏR ARASINDAKI ƏLAQƏ

(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.5

1) Zal nəzarətçilərinin könüllülük və müqavilə əsasında seçilməsi. Bir neçə mərhələdən ibarət olan bu seçimdə müxtəlif qiymətləndirmə meyarları və prinsipləri əsas götürülür. Birinci mərhələdə bazaya yeni nəzarətçilərin əlavə olunması məqsədilə ümumtəhsil müəssisələri və digər təşkilatlarla iş aparılır, nəzarətçilərə aid şəxsi məlumatlar dəqiqləşdirildikdən sonra onlar xüsusi hazırlanmış internet proqramı vasitəsi ilə nəzarətçilər bazasına daxil edilir.

Növbəti mərhələ imtahanların idarə olunmasına cəlb edilməsi nəzərdə tutulan şəxslərlə təlimlərin keçirilməsidir. Təlimlərdə imtahanın texnologiyasına dair prosedur qaydalarının mənimsənilməsi üçün interaktiv üsullara, sorğu-suallara əsaslanan öyrənmə formasına, dialoqlara, izahat işinin videomaterialların müşayiəti ilə aparılmasına üstünlük verilir. Təlimlərin keçirilməsi zamanı qarşıya aşağıdakı məqsədlər qoyulur:

- *nəzarətçilərin fərdi keyfiyyətləri ilə yaxından tanış olmaq,*
- *şəxsi anket məlumatlarını dəqiqləşdirmək,*
- *onlara imtahan texnologiyalarını və imtahanın gedişi ilə bağlı prosedur qaydalarını öyrətmək,*
- *imtahan auditoriyasının – imtahan zalının idarə olunmasında professionallığın əldə olunması baxımından mühüm olan məqamları izah etmək,*
- *imtahanın gedişində rast gəlinəcək problemlərin həlli yollarını izah etmək,*
- *nəzarətçi–imtahan iştirakçısı, nəzarətçi–imtahan rəhbəri münasibətlərinin tənzimlənməsində əsas olan qaydaları onların diqqətinə çatdırmaq,*
- *xüsusi hallarda onların operativ qərar qəbuletmə qabiliyyətlərini interaktiv üsullarla – sorğu-suallarla ortaya çıxarmaq.*

Təlimlər ayrı-ayrı rayonlar (şəhərlər) üzrə 15–20 nəfərlik qruplarla real imtahan zalında həyata keçirilir. Qarşıya qoyulan məqsədə nail olunması üçün onlara imtahanın gedişi – imtahan iştirakçılarının imtahan zalına buraxılması zamanı sənədlərin yoxlanılması, öz sıra və yerlərində oturmaları, cavab kartlarının (vərəqlərinin), sual kitabçalarının paylanmasında diqqət etməli olduqları məqamlar, nəzarətçi protokolunun düzgün doldurulması, abituriyentlərin davranış qaydalarına uyğun davranması, imtahan rəhbərləri ilə koordinasiyalı fəaliyyətin qurulması və imtahan zalının idarə olunması qaydası izah olunur. Bunların yaddaşda möhkəmləndirilməsi məqsədi ilə imtahanın bütün mərhələlərini özündə əks etdirən videoçarx nümayiş etdirilir. Bu mərhələdə hər bir nəzarətçinin test imtahanlarının prosedur qaydalarını nəzəri

baxımdan mənimsəmə səviyyəsi müəyyənləşdirilməklə yanaşı, onun fərdi keyfiyyətlərinin də nəzarətçi üçün tələb olunan aşağıdakı meyarlara cavab verməsi dəyərləndirilir:

- imtahan rəhbəri və imtahan iştirakçıları ilə ünsiyyət qura bilməsi;
- təmkinlilik nümayiş etdirməsi və emosional olmaması;
- fiziki imkanlarının (hərəkətlilik-dinamiklik, sağlamlıq imkanlarının məhdud olmaması və s.) nəzarətçilik fəaliyyətini yerinə yetirməsinə uyğun olması;
- auditoriyanı idarəetmə qabiliyyətinə malik olması;
- informasiyanı imtahan iştirakçılarına doğru çatdırması və təlqinetmə keyfiyyətlərinə malik olması;
- imtahan iştirakçısının imtahanda davranışı ilə bağlı xüsusi hallarda doğru qərar qəbul edə bilməsi;
- təlimati qaydalara riayət olunması, sənədləşmənin aparılması baxımından ciddilik nümayiş etdirməsi;
- imtahanın texnologiyası ilə əlaqədar meydana çıxan suallar qarşısında operativlik nümayiş etdirməsi.

Növbəti seçim mərhələsi DİM tərəfindən keçirilən sınaq imtahanları mərhələsini əhatə edir. Sınaq imtahanları nəzarətçilər bazasına yeni daxil edilmiş şəxslərin test imtahanlarına yararlılığı səviyyəsinin yoxlanılması baxımından xüsusilə mühüm əhəmiyyət daşıyır. Bu mərhələdə nəzarətçinin **yuxarıda sadalanan fərdi keyfiyyətlərə malik olub-olmaması bir daha nəzərdən keçirilir, onun qəbul və buraxılış imtahanlarına hazır olub-olmaması haqda rəy dəqiqləşdirilir.**

Sınaq imtahanları yekunlaşdıqdan sonra hansı nəzarətçilərin sınaqlara cəlb olunduğu, aldıqları qiymətlər, sınaq imtahanlarında baş vermiş xüsusi hallar ayrıca araşdırma mövzusu olur. Beləliklə, biz qəbul və buraxılış imtahanlarına hazırlığa dair kəmiyyət və keyfiyyət göstəricilərini nəzərdən keçirmək imkanı əldə edirik.

Nəzarətçilərin seçimi mərhələlərində əsas götürülən tələblər və meyarlar nəticə etibarı ilə imtahan iştirakçılarının öz bilik səviyyəsini dolğun nümayiş etdirməsi üçün lazımi şəraitin yaradılmasına, şəffaflığın və obyektivliyin təmin olunmasına hesablanır.

2) Zal nəzarətçisinin fəaliyyətinin sertifikatlaşdırılması.

Dövlət İmtahan Mərkəzi model, texnologiya və məzmun baxımından müxtəlif imtahanlar həyata keçirir. Bu müxtəliflik zal nəzarətçilərinin fəaliyyətinin təkmilləşdirilməsini və peşəkarlıq səviyyəsinin yüksəldilməsini zəruri edir . Zal nəzarətçisinin fəaliyyətinin sertifikatlaşdırılması qaydaları birinci növbədə bu məqsədlərə nail olmağa xidmət edir. Digər tərəfdən, bu yolla işdə rəqabətlilik artırılaraq daha keyfiyyətli idarəetmə reallaşır, ictimaiyyətin daha geniş hissəsi imtahanlara cəlb edilərək idarəetmədə şəffaflıq təmin edilir. Zal nəzarətçisi kimi sertifikat almaq istəyənlər üçün aşağıdakı tələblər qoyulur:

- ali təhsilli,
- tabeliyindən və mülkiyyət növündən asılı olmayaraq hər hansı bir təşkilatda hazırda işləyən (və ya iş yerinin olub olmamasından asılı olmayaraq pedaqoji profilli ixtisaslar üzrə subbakalavr və bakalavr ali peşə-ixtisas dərəcəsi olanlar),
- yaşı 22-45 arasında olan
- məhkumluğu olmayan və fiziki cəhətdən sağlam olan şəxslər müraciət edə bilərlər.

Bunun üçün namizəd elektron qeydiyyatdan keçir, müsahibəyə və psixometrik testə dəvət olunur, ümumi intellekt səviyyəsi yoxlanılır, iki günlük ***səmərəli ünsiyyət texnikaları, etik davranış qaydaları, stresin idarə olunması və imtahanların texnologiyaları*** adlı intensiv təlimlərə cəlb edilir, imtahanların texnologiyası ilə bağlı yekun imtahandan keçir. Mərhələləri uğurla başa vuran namizədlər A və ya B kateqoriya sertifikat əldə edə bilir. Onlara, imtahanların texniki tələbləri gözlənilməklə, təyinat zamanı üstünlük verilir və stimullaşdırıcı tədbir kimi əmək haqları müəyyən çəki əmsalına vurulmaqla hesablanır.

Nəzarətçilərlə təcrübi işin yekun mərhələsi imtahanlar mərhələsidir. Hər bir imtahandan

öncə:

- nəzarətçilər bazasından əvvəlki imtahanda fəaliyyəti "qeyri-kafi" qiymətləndirilən,
- proqram tərəfindən və ya imtahan rəhbəri tərəfindən köçürməyə şərait yaratdığı müəyyənləşdirilən,
- imtahan sənədləri ilə iş və auditoriyanın idarə edilməsi ilə bağlı haqqında neqativ rəy olan,
- üzrsüz olaraq imtahana gəlməyən nəzarətçilər cari bazadan çıxarılır,
- sonra kompüter proqramı vasitəsi ilə təsadüfi seçim qaydasında nəzarətçilərin binalar və zallar üzrə təyinatı aparılır, vəsiqələri hazırlanır və əlaqələndiricilər vasitəsi ilə nəzarətçilərə paylanır;
- imtahana bir neçə gün qalmış hər bir rayon (şəhər) üzrə cəlb edilən nəzarətçilərlə müvafiq imtahanın idarə edilməsi və texnologiyasına dair təlimlər keçirilir;
- sağlamlıq imkanları məhdud iştirakçılara təhkim edilmiş nəzarətçilərə də ayrıca təlim keçirilir.

sonra:

- imtahanın gedişi haqqında protokol qeydləri zal nəzarətçisi bazası proqramına daxil edilir;
- imtahanın gedişi haqqında protokollar nəzərdən keçirilərək imtahana gəlməyənlərin, imtahandan xaric olunanların, imtahan binasına buraxılmayanların siyahısı hazırlanır, imtahan zamanı baş vermiş xüsusi hallar araşdırılaraq müvafiq formada protokollaşdırılır və bunlara imtahan nəticələrinin emalı zamanı etibarlı hüquqi sənəd kimi müraciət edilir.

Hər bir imtahandan sonra zal nəzarətçilərinin fəaliyyəti barədə rəy və qiymətlər bazaya daxil edilir. Bu qiymətləndirmə iki istiqamətdə aparılır:

1) İmtahan sənədləri (imtahan rəhbərinin protokolu, imtahanın gedişi haqqında protokol, aktlar və s.), imtahan rəhbərləri və DİM nümayəndələrinin rəyləri, abituriyentlərin, valideynlərin, ictimaiyyətin, müxtəlif hökumət və qeyri-hökumət təşkilatlarının müraciəti əsasında aparılan araşdırma və qiymətləndirmə. Bu istiqamətdə aparılan qiymətləndirmə nəticəsində

- imtahana üzrsüz səbəbdən gəlməyən;
- imtahan zamanı imtahan rəhbərinin nəzarətçinin fəaliyyətini qiymətləndirməsinə dair rəyinə əsasən
  - imtahan texnologiyasını və prosedur qaydalarını qeyri-qənaətbəxş bilən;
  - auditoriyanı idarəetmə qabiliyyəti zəif olan;
  - imtahan sənədləri ilə iş aparması lazımi səviyyədə olmayan;
  - abituriyentlər və imtahan rəhbəri ilə ünsiyyətində təlimat qaydalarını pozan;
- imtahanın gedişi haqqında protokolun doldurulmasında ciddi səhvlərə yol verən;
- abituriyentlərin bir-birindən köçürmə hallarına bilərəkdən şərait yaratdığı müəyyənləşdirilən nəzarətçilər cari bazadan çıxarılır, araşdırma aparıldıqdan sonra onlar növbəti imtahana cəlb olunacaq nəzarətçilər bazasından çıxarılır və ya xəbərdarlıq edilir. İmtahan rəhbərləri bu qiymətləndirmələri apararkən "zal nəzarətçilərinin qiymətləndirmə meyarları"na uyğun hərəkət edir. Bu meyarlar imtahan rəhbərinin zal nəzarətçisini obyektiv şəkildə qiymətləndirməsinə imkan verir.

2) Birinci istiqamətdə aparılan araşdırma və qiymətləndirmədə müəyyən subyektiv yanaşmaların ortaya çıxması mümkün olduğundan ikinci istiqamətdə imtahan zalında baş verən və imtahan rəhbərlərinin diqqətindən yayınan faktiki köçürmələrin müəyyənləşdirilməsində kompüter proqramına müraciət olunur. Kontingentin tərkibi, köçürülən fənnin sayı, köçürmədə iştirak edən abituriyentlərin sayı ilə bağlı parametrlər də təhlilə daxil edilərək nəzarətçinin köçürməyə hansı dərəcədə yol verdiyi müəyyənləşdirilir.Nəzarətçilər tərəfindən yol verilən qayda pozuntuları ağır, orta və zəif dərəcə olmaqla üç səviyyədə qiymətləndirilir.

Qəbul imtahanları yekunlaşdırıldıqdan sonra hər iki istiqamətdə aparılan qiymətləndirmələr ümumiləşdirilir. Nəzarətçilərin növbəti imtahanlara cəlb olunmasında əsas rol oynayan yekun qiymətlər bazaya daxil edilir. Fəaliyyəti qeyri-kafi qiymətləndirilən nəzarətçilər isə müəyyən dövr üçün və ya həmişəlik olaraq bazadan çıxarılır.

Qiymətləndirmənin yekun mərhələsində yuxarıdakı parametrlərlə yanaşı qəbul imtahanında 600-dən yuxarı bal toplayan abituriyentlərin sorğu-anketlərində nəzarətçinin fəaliyyətinə verilən qiymətlərə də baxılır.

İmtahanlar yekunlaşdıqdan sonra zal nəzarətçilərinin fəaliyyətlərinin qiymətləndirilməsi və keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi ilə bağlı xüsusi araşdırma aparılır və hesabat-arayış hazırlanır.

Bunların nəticəsində imtahana cəlb edilmiş nəzarətçilər aşağıdakı kateqoriyalara ayrılır:

- fəaliyyəti əla qiymətləndirilənlər, o cümlədən fəxri fərmanlarla təltif olunanlar;
- fəaliyyəti yaxşı qiymətləndirilənlər;
- fəaliyyəti kafi qiymətləndirilənlər;
- fəaliyyəti qeyri-kafi hesab olunanlar, ciddi təlimat pozuntularına və köçürmə hallarına yol verənlər.

İl ərzində keçirilən müxtəlif imtahanlara, ilk növbədə fəaliyyəti yüksək qiymətləndirilən nəzarətçilər cəlb olunurlar. Bu da digər nəzarətçilərin daha yaxşı fəaliyyət göstərməsini stimullaşdırır. Araşdırmanın nəticələri ilə bağlı müvafiq rayon (şəhər) təhsil şöbələrinə, ümumtəhsil müəssisələrinə məktublar ünvanlanır.

İndi isə nəzarətçilərin fəaliyyəti haqqında statistik məlumatlara diqqət yetirək. 2021-ci ildə keçirilən test imtahanlarına cəlb edilməsi nəzərdə tutulan nəzarətçilər bazası 16346 nəfərdən ibarət olmuşdur. Nəzarətçilər bazası ümumi təhsil müəssisələrinin pedaqoji işçilərindən, ali təhsil müəssisələrinin, AMEA-nın müxtəlif institutlarının və bir çox dövlət orqanlarının əməkdaşlarından formalaşmışdır. Belə ki, imtahan prosesinə Bakı və Sumqayıt şəhərlərində məskunlaşmış məcburi köçkün rayonlarının (Qubadlı, Laçın, Şuşa və Zəngilan) məktəbləri də daxil olmaqla respublikanın 2397 ümumi təhsil müəssisəsinin, 47 ali təhsil

müəssisəsinin, Dövlət İmtahan Mərkəzinin və bir neçə dövlət orqanının əməkdaşları cəlb edilmişdir. Bunlardan əlavə 65 rayon üzrə müxtəlif özəl strukturlarda işləyən və ya iş yeri olmayan, lakin ali pedaqoji təhsili olduğu üçün zal nəzarətçisi sertifikatı alaraq imtahanlara cəlb olunan şəxslər də bu bazada yer alır. Belə nəzarətçilərin ümumi sayı 1204 nəfərdir.

Bu təhlildə buraxılış imtahanlarına və I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarının II mərhələsinə cəlb olunan nəzarətçilərin fəaliyyəti onların digər bütün imtahanlardakı fəaliyyətləri də nəzərə alınmaqla qiymətləndirilib.

2021-ci ildə keçirilən buraxılış imtahanlarına və ali təhsil müəssisələrinə qəbul imtahanlarının II mərhələsinə cəlb olunmuş nəzarətçilərin rayonlar üzrə sayı ilə bağlı statistik məlumat aşağıdakı kimidir:

Cədvəl 1

İMTAHANLARA CƏLB OLUNMUŞ NƏZARƏTÇİLƏRİN RAYONLAR ÜZRƏ SAYI

Rayonlar (Şəhərlər)	İmtahanlara cəlb olunmuş nəzarətçilərin sayı	Bazada nəzarətçilərin ümumi sayı	İmtahanlara cəlb olunma faizi
AMEA	195	219	89,0
Yasamal*	233	303	76,9
Binəqədi*	394	494	79,8
Səbail*	173	221	78,3
Xətai*	486	593	82,0
Xəzər	200	232	86,2
Nərimanov*	248	329	75,4
Suraxanı	305	363	84,0
Sabunçu*	554	642	86,3
Nəsimi*	229	282	81,2
Qaradağ	132	172	76,7
Nizami*	301	381	79,0
Kəngərli	29	78	37,2
Naxçıvan*	269	320	84,1
Babək	84	180	46,7
Ordubad	41	103	39,8
Sədərək	15	33	45,5
Culfa	48	120	40,0
Şərur	81	224	36,2
Şahbuz	19	53	35,8
Gəncə*	589	663	88,8
Daşkəsən	28	37	75,7
Şəmkir*	336	401	83,8
Göygöl	94	123	76,4
Samux	83	120	69,2
Gədəbəy	106	148	71,6
Qazax*	149	163	91,4
Ağstafa*	130	141	92,2
Tovuz	211	302	69,9
Sumqayıt*	546	623	87,6
Abşeron*	334	391	85,4
Xızı	18	26	69,2
Şamaxı	116	145	80,0
Qobustan	42	58	72,4
Mingəçevir*	207	223	92,8
Goranboy	160	199	80,4

Cədvəl 1 (ardı)

Rayonlar (Şəhərlər)	İmtahanlara cəlb olunmuş nəzarətçilərin sayı	Bazada nəzarətçilərin ümumi sayı	İmtahanlara cəlb olunma faizi
Yevlax	146	228	64,0
Şəki*	347	370	93,8
Zaqatala*	167	183	91,3
Balakən	103	149	69,1
Qəbələ	147	186	79,0
Qax	62	93	66,7
Oğuz	57	90	63,3
Bərdə*	310	334	92,8
Şuşa	7	9	77,8
Ağcabədi*	268	297	90,2
Ağdam	104	148	70,3
Tərtər	92	136	67,6
Göyçay*	210	249	84,3
Ucar	92	142	64,8
Kürdəmir*	178	193	92,2
Zərdab	62	79	78,5
Ağdaş	123	153	80,4
İsmayıllı	91	131	69,5
Ağsu	71	92	77,2
İmişli	163	190	85,8
Qubadlı	64	79	81,0
Füzuli	81	120	67,5
Beyləqan	125	175	71,4
Laçın	10	17	58,8
Zəngilan	20	24	83,3
Şirvan*	187	227	82,4
Hacıqabul	94	116	81,0
Sabirabad*	247	287	86,1
Biləsuvar	134	147	91,2
Neftçala	78	102	76,5
Salyan*	175	197	88,8
Saatlı	107	142	75,4
Lənkəran*	334	357	93,6
Astara	141	173	81,5
Lerik	56	77	72,7
Yardımlı	63	73	86,3
Cəlilabad*	235	269	87,4
Masallı*	215	232	92,7
Quba*	235	275	85,5
Qusar	115	157	73,2
Xaçmaz*	275	318	86,5
Şabran	85	95	89,5
Siyəzən	62	68	91,2
DIM	5	62	8,1
CƏMİ	**13128**	**16346**	**80,3**

Qeyd (*) - Bu rayonlarda həm cari, həm əvvəlki illərin məzunları üçün keçirilən buraxılış imtahanları ilə yanaşı qəbul imtahanlarının II mərhələsi də keçirilmişdir. Digər rayonlarda yalnız cari ilin məzunları üçün buraxılış imtahanları keçirilmişdir.

Yuxarıdakı statistikaya əsasən deyə bilərik ki, respublika üzrə bazaya cəlb edilmiş müəllimlərin təxminən hər 5 nəfərindən 4-ü imtahanlara cəlb olunmuşdur. Bunlardan 4437 nəfəri 1 dəfə, 4547 nəfəri 2 dəfə, 1701 nəfəri 3 dəfə, 1081 nəfəri 4 dəfə, 770 nəfəri 5 dəfə, 389 nəfəri 6 dəfə, 123 nəfəri 7 dəfə, 40 nəfəri 8 dəfə, 29 nəfəri 9 dəfə, 11 nəfəri 10 dəfə, ümumilikdə isə 13128 nəzarətçi (bazanın 80,3%-i) 30694 dəfə cəlb edilmişdir. Onların 68,4%-i 1–2 dəfə cəlb edilmişdir.

Ayrılıqda götürdükdə qəbul imtahanlarının ikinci mərhələsində nəzarətçi bazasının 51,3%-dən, buraxılış imtahanlarında isə 66,7%-dən istifadə edilmişdir.

2011-ci ildən bəri nəzarətçilərin imtahanlara cəlb edilmə faizi ortalama 65–70 arasındadır. Hər bir nəzarətçinin il ərzində heç olmasa, bir dəfə imtahana cəlb edilməsi ilə bağlı aparılan işlər, imtahan iştirakçılarının tək-tək əyləşdirilməsi və buraxılış imtahanlarında iştirakçı sayının əvvəlki illərə nəzərən qismən artması səbəbindən cari ildə cəlbetmə faizi bir qədər yuxarı – 80,3% olmuşdur.

Aşağıdakı 2 saylı cədvəldə buraxılış və qəbul imtahanlarında nəzarətçilərin iştirakını əks edən rəqəmlər təqdim edilir.

Cədvəl 2

NƏZARƏTÇİLƏRIN İMTAHANLARDA İŞTİRAKI

Rayonun, təşkilatın adı	İmtahanlara cəlb edilmiş nəzarətçi sayı (nəfər,təkrarla)	İmtahanlarda iştirak etməyən nəzarətçilər		İmtahanlara üzrsüz olaraq gəlməyənlər	
		nəfər (təkrarla)	cəlb olunanların sayına nəzərən, faizlə	nəfər (təkrarla)	cəlb olunanların sayına nəzərən, faizlə
AMEA	638	43	6,7	20	3,1
Yasamal	737	50	6,8	26	3,5
Binəqədi	1375	82	6,0	60	4,4
Səbail	547	20	3,7	12	2,2
Xətai	1203	70	5,8	54	4,5
Xəzər	470	23	4,9	13	2,8
Nərimanov	837	49	5,9	38	4,5
Suraxanı	902	63	7,0	43	4,8
Sabunçu	1391	57	4,1	43	3,1
Nəsimi	806	37	4,6	16	2,0
Qaradağ	287	12	4,2	8	2,8
Nizami	908	39	4,3	25	2,8
Kəngərli	43	0	0,0	0	0,0
Naxçıvan	674	8	1,2	7	1,0
Babək	145	2	1,4	1	0,7
Ordubad	64	0	0,0	0	0,0
Sədərək	24	1	4,2	1	4,2
Culfa	79	1	1,3	1	1,3
Şərur	130	1	0,8	0	0,0
Şahbuz	33	0	0,0	0	0,0
Gəncə	1262	32	2,5	23	1,8
Daşkəsən	47	1	2,1	1	2,1
Şəmkir	739	28	3,8	19	2,6
Göygöl	159	2	1,3	2	1,3
Samux	132	1	0,8	0	0,0
Gədəbəy	177	4	2,3	4	2,3
Qazax	407	6	1,5	4	1,0
Ağstafa	234	2	0,9	2	0,9
Tovuz	355	6	1,7	5	1,4
Sumqayıt	1212	45	3,7	33	2,7
Abşeron	955	41	4,3	33	3,5
Xızı	31	0	0,0	0	0,0
Şamaxı	174	3	1,7	2	1,1

Cədvəl 2 (ardı)

Rayonun, təşkilatın adı	İmtahanlara cəlb edilmiş nəzarətçi sayı (nəfər,təkrarla)	İmtahanlarda iştirak etməyən nəzarətçilər		İmtahanlara üzrsüz olaraq gəlməyənlər	
		nəfər (təkrarla)	cəlb olunanların sayına nəzərən, faizlə	nəfər (təkrarla)	cəlb olunanların sayına nəzərən, faizlə
Qobustan	62	3	4,8	1	1,6
Mingəçevir	608	12	2,0	11	1,8
Goranboy	268	3	1,1	3	1,1
Yevlax	251	3	1,2	2	0,8
Şəki	805	27	3,4	21	2,6
Zaqatala	364	12	3,3	10	2,7
Balakən	166	4	2,4	3	1,8
Qəbələ	246	5	2,0	5	2,0
Qax	103	1	1,0	1	1,0
Oğuz	94	0	0,0	0	0,0
Bərdə	856	20	2,3	15	1,8
Şuşa	35	1	2,9	1	2,9
Ağcabədi	496	17	3,4	12	2,4
Ağdam	174	2	1,1	1	0,6
Tərtər	147	2	1,4	0	0,0
Göyçay	481	9	1,9	4	0,8
Ucar	147	1	0,7	0	0,0
Kürdəmir	415	9	2,2	7	1,7
Zərdab	97	0	0,0	0	0,0
Ağdaş	195	3	1,5	0	0,0
İsmayıllı	154	5	3,2	2	1,3
Ağsu	117	0	0,0	0	0,0
İmişli	264	9	3,4	9	3,4
Qubadlı	119	1	0,8	0	0,0
Füzuli	141	7	5,0	5	3,5
Beyləqan	202	3	1,5	0	0,0
Laçın	23	1	4,3	0	0,0
Zəngilan	65	1	1,5	0	0,0
Şirvan	400	8	2,0	7	1,8
Hacıqabul	131	1	0,8	1	0,8
Sabirabad	676	13	1,9	10	1,5
Biləsuvar	208	1	0,5	0	0,0
Neftçala	128	6	4,7	5	3,9
Salyan	511	10	2,0	9	1,8
Saatlı	172	3	1,7	2	1,2
Lənkəran	860	14	1,6	9	1,0
Astara	214	6	2,8	6	2,8
Lerik	96	4	4,2	2	2,1
Yardımlı	115	3	2,6	3	2,6
Cəlilabad	613	12	2,0	9	1,5
Masallı	578	12	2,1	12	2,1
Quba	537	13	2,4	11	2,0
Qusar	194	5	2,6	3	1,5
Xaçmaz	747	25	3,3	22	2,9
Şabran	135	1	0,7	1	0,7
Siyəzən	98	2	2,0	2	2,0
DIM	9	1	11,1	0	0,0
Ümumi	**30694**	**1030**	**3,4**	**723**	**2,4**

Cədvəldən göründüyü kimi qəbul və buraxılış imtahanlarında 1030 nəfər (cəlb olunanların 3,4%-) imtahanda iştirak etməmişdir. Onlardan 723 nəfər (cəlb olunanların 2.4%-i) üzürsüz səbəbdən imtahanda iştirak etməyənlərdir. Yalnız qəbul imtahanlarının II mərhələsi üçün bu göstəricilər uyğun olaraq 4,6% və 3,7%-dir. Yalnız buraxılış imtahanları üçün isə uyğun olaraq 3,0% və 2,0%-dir.

Cari ildə imtahanlara cəlb olunduğu halda iştirak etməyənlərin faizi ən çox Bakı şəhəri (Səbail rayonu istisna olmaqla) və Abşeron, Qobustan, Füzuli, Neftçala, Sədərək və Lerik rayonları üzrə qeydə alınmışdır. Belə ki, bu rayonlar üzrə imtahanda iştirak etməyənlərin faizi respublika üzrə orta göstəricidən təxminən 1,5-2 dəfə yüksəkdir.

İmtahan rəhbərləri zal nəzarətçilərinin imtahanın texnologiyasını mənimsəmə səviyyələrini (abituriyentlərin imtahan zalına buraxılması zamanı sənədlərin yoxlanılması, sıra və yerlərində oturmaları, cavab kartlarının və sual kitabçalarının paylanması qaydası, imtahan sənədləri ilə iş və s.) və imtahan zalını idarəetmə bacarığını (abituriyentlərin davranış qaydalarına əməl etmələrinə nəzarət edilməsi, köçürmə hallarına şərait yaratmaması, sakitliyin təmin olunması və s.) nəzərə alaraq onların fəaliyyətini qiymətləndirmişlər (3 saylı cədvələ bax). Yuxarıda da qeyd olunduğu kimi, imtahan rəhbərləri bu qiymətləndirmələri apararkən "zal nəzarətçilərinin qiymətləndirmə meyarları"nı əsas götürürlər.

Cədvəl 3

İMTAHAN RƏHBƏRLƏRİNİN NƏZARƏTÇİLƏRİN İŞİNİ QİYMƏTLƏNDİRMƏSİNƏ DAİR MƏLUMAT

Rayonun (şəhərin, təşkilatın) adı	İmtahanlara cəlb edilən nəzarətçilərin sayı (təkrarla)	Qeyri-kafi [2;2.5)		Kafi [2.5;3.5)		Yaxşı [3.5;4.5)		Əla [4.5;5]		Qiymət yazılmayan	
		Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%
AMEA	595	0	0	1	0,2	18	3,0	532	89,4	44	7,4
Yasamal	687	1	0,1	3	0,4	47	6,8	598	87,0	38	5,5
Binəqədi	1293	1	0,1	6	0,5	68	5,3	1151	89,0	67	5,2
Səbail	527	0	0,0	0	0,0	39	7,4	464	88,0	24	4,6
Xətai	1133	2	0,2	9	0,8	76	6,7	993	87,6	53	4,7
Xəzər	447	0	0,0	2	0,4	46	10,3	370	82,8	29	6,5
Nərimanov	788	0	0,0	1	0,1	46	5,8	682	86,5	59	7,5
Suraxanı	839	0	0,0	3	0,4	64	7,6	743	88,6	29	3,5
Sabunçu	1334	3	0,2	7	0,5	94	7,0	1189	89,1	41	3,1
Nəsimi	769	0	0,0	5	0,7	48	6,2	676	87,9	40	5,2
Qaradağ	275	0	0,0	3	1,1	13	4,7	243	88,4	16	5,8
Nizami	869	0	0,0	6	0,7	65	7,5	763	87,8	35	4,0
Kəngərli	43	0	0,0	1	2,3	19	44,2	21	48,8	2	4,7
Naxçıvan	666	2	0,3	28	4,2	176	26,4	442	66,4	18	2,7
Babək	143	0	0,0	3	2,1	27	18,9	107	74,8	6	4,2
Ordubad	64	0	0,0	1	1,6	25	39,1	38	59,4	0	0,0
Sədərək	23	0	0,0	1	4,3	11	47,8	11	47,8	0	0,0
Culfa	78	0	0,0	1	1,3	18	23,1	58	74,4	1	1,3
Şərur	129	0	0,0	12	9,3	42	32,6	71	55,0	4	3,1
Şahbuz	33	0	0,0	0	0,0	8	24,2	25	75,8	0	0,0
Gəncə	1230	4	0,3	12	1,0	128	10,4	1026	83,4	60	4,9
Daşkəsən	46	0	0,0	2	4,3	9	19,6	34	73,9	1	2,2
Şəmkir	711	3	0,4	43	6,0	203	28,6	446	62,7	16	2,3
Göygöl	157	0	0,0	0	0,0	27	17,2	126	80,3	4	2,5
Samux	131	0	0,0	0	0,0	14	10,7	112	85,5	5	3,8
Gədəbəy	173	0	0,0	5	2,9	31	17,9	131	75,7	6	3,5

Cədvəl 3 (ardı)

Rayonun (şəhərin, təşkilatın) adı	İmtahanlara cəlb edilən nəzarətçilərin sayı (təkrarla)	Qeyri-kafi [2;2.5)		Kafi [2.5;3.5)		Yaxşı [3.5;4.5)		Əla [4.5;5]		Qiymət yazılmayan	
		Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%
Qazax	401	3	0,7	14	3,5	105	26,2	273	68,1	6	1,5
Ağstafa	232	1	0,4	11	4,7	53	22,8	164	70,7	3	1,3
Tovuz	349	0	0,0	17	4,9	73	20,9	246	70,5	13	3,7
Sumqayıt	1167	4	0,3	13	1,1	105	9,0	993	85,1	52	4,5
Abşeron	914	1	0,1	6	0,7	64	7,0	806	88,2	37	4,0
Xızı	31	0	0,0	0	0,0	1	3,2	30	96,8	0	0,0
Şamaxı	171	1	0,6	3	1,8	32	18,7	115	67,3	20	11,7
Qobustan	59	0	0,0	3	5,1	14	23,7	39	66,1	3	5,1
Mingəçevir	596	0	0,0	3	0,5	41	6,9	542	90,9	10	1,7
Goranboy	265	0	0,0	3	1,1	62	23,4	190	71,7	10	3,8
Yevlax	248	1	0,4	2	0,8	38	15,3	195	78,6	12	4,8
Şəki	778	0	0,0	4	0,5	53	6,8	681	87,5	40	5,1
Zaqatala	352	0	0,0	7	2,0	58	16,5	280	79,5	7	2,0
Balakən	162	0	0,0	0	0,0	35	21,6	122	75,3	5	3,1
Qəbələ	241	0	0,0	2	0,8	51	21,2	170	70,5	18	7,5
Qax	102	0	0,0	2	2,0	15	14,7	73	71,6	12	11,8
Oğuz	94	0	0,0	0	0,0	11	11,7	78	83,0	5	5,3
Bərdə	836	2	0,2	7	0,8	94	11,2	702	84,0	31	3,7
Şuşa	34	0	0,0	0	0,0	4	11,8	29	85,3	1	2,9
Ağcabədi	479	3	0,6	21	4,4	118	24,6	321	67,0	16	3,3
Ağdam	172	0	0,0	6	3,5	25	14,5	136	79,1	5	2,9
Tərtər	145	0	0,0	4	2,8	20	13,8	116	80,0	5	3,4
Göyçay	472	0	0,0	5	1,1	67	14,2	388	82,2	12	2,5
Ucar	146	0	0,0	0	0,0	14	9,6	127	87,0	5	3,4
Kürdəmir	406	0	0,0	9	2,2	77	19,0	310	76,4	10	2,5
Zərdab	97	0	0,0	2	2,1	12	12,4	79	81,4	4	4,1
Ağdaş	192	0	0,0	7	3,6	48	25,0	126	65,6	11	5,7
İsmayıllı	149	0	0,0	0	0,0	18	12,1	126	84,6	5	3,4
Ağsu	117	0	0,0	2	1,7	20	17,1	92	78,6	3	2,6
İmişli	255	1	0,4	5	2,0	85	33,3	153	60,0	11	4,3
Qubadlı	118	0	0,0	0	0,0	4	3,4	110	93,2	4	3,4
Füzuli	134	0	0,0	0	0,0	17	12,7	109	81,3	8	6,0
Beyləqan	199	0	0,0	8	4,0	61	30,7	118	59,3	12	6,0
Laçın	22	0	0,0	1	4,5	2	9,1	18	81,8	1	4,5
Zəngilan	64	0	0,0	1	1,6	1	1,6	61	95,3	1	1,6
Şirvan	392	0	0,0	2	0,5	43	11,0	340	86,7	7	1,8
Hacıqabul	130	0	0,0	0	0,0	37	28,5	89	68,5	4	3,1
Sabirabad	663	3	0,5	13	2,0	193	29,1	433	65,3	21	3,2
Biləsuvar	207	0	0,0	1	0,5	39	18,8	160	77,3	7	3,4
Neftçala	122	0	0,0	3	2,5	23	18,9	91	74,6	5	4,1
Salyan	501	0	0,0	12	2,4	121	24,2	353	70,5	15	3,0
Saatlı	169	0	0,0	2	1,2	49	29,0	113	66,9	5	3,0

Cədvəl 3 (ardı)

Rayonun (şəhərin, təşkilatın) adı	İmtahanlara cəlb edilən nəzarətçilərin sayı (təkrarla)	Qeyri-kafi [2;2.5)		Kafi [2.5;3.5)		Yaxşı [3.5;4.5)		Əla [4.5;5]		Qiymət yazılmayan	
		Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%
Lənkəran	846	0	0,0	7	0,8	155	18,3	663	78,4	21	2,5
Astara	208	1	0,5	7	3,4	64	30,8	130	62,5	6	2,9
Lerik	92	1	1,1	4	4,3	29	31,5	55	59,8	3	3,3
Yardımlı	112	0	0,0	3	2,7	31	27,7	72	64,3	6	5,4
Cəlilabad	601	1	0,2	15	2,5	139	23,1	433	72,0	13	2,2
Masallı	566	0	0,0	13	2,3	169	29,9	367	64,8	17	3,0
Quba	524	2	0,4	7	1,3	74	14,1	430	82,1	11	2,1
Qusar	189	0	0,0	3	1,6	23	12,2	160	84,7	3	1,6
Xaçmaz	722	2	0,3	9	1,2	80	11,1	602	83,4	29	4,0
Şabran	134	0	0,0	6	4,5	43	32,1	82	61,2	3	2,2
Siyəzən	96	0	0,0	4	4,2	28	29,2	64	66,7	0	0,0
DİM	8	0	0,0	0	0,0	0	0,0	8	100,0	0	0,0
Ümumi	**29664**	**43**	**0,1**	**434**	**1,5**	**4200**	**14,2**	**23815**	**80,3**	**1172**	**4,0**

- *Qeyd: İmtahanda iştirak edən 29664 nəfərdən 1172 nəfərə qiymət verilməmişdir. Bunlardan 648 nəfəri ehtiyat nəzarətçi olmuş, 524 nəfəri isə zalda olduqları halda fəaliyyətləri qiymətləndirilməmişdir.*

2015–2021-ci illərdə buraxılış və qəbul imtahanlarında nəzarətçilərin qiymətləndirmə meyarları üzrə paylanması aşağıdakı diaqramda təqdim edilmişdir.



Şəkil 1

Qrafikdən göründüyü kimi, 2020-ci il istisna olmaqla fəaliyyəti "əla" qiymətləndirilənlərin faizi getdikcə artmış, fəaliyyəti "qeyri-kafi" və "kafi" qiymətləndirilənlərin faizi isə azalmışdır. 2020-ci ildə fəaliyyəti əla qiymətləndirilənlərin sayının azalmasının və "kafi" və "qeyri-kafi" qiymətləndirilənlərin sayının artmasının əsas səbəbi qəbul imtahanlarının yeni imtahan mərkəzlərində qəbul imtahanları təcrübəsi az olan müəllimlərlə keçirilməsidir. Digər illərdə fəaliyyəti "əla" qiymətləndirilən nəzarətçilərin sayının artmasını, qəbul imtahanları üçün nəzarətçi bazasının ən yaxşılarının seçilməsinə imkan verəcək şəkildə geniş olması, nəzarətçilər və imtahan rəhbərləri ilə təlimlərin kiçik qruplar şəkilində təşkil edilərək interaktiv üsullarla aparılması, zal nəzarətçi işinin yaxşılaşdırılması üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi (mükafatlandırma, təltif, fəaliyyəti yüksək qiymətləndirilənlər barədə işlədikləri müəssisələri məlumatlandırılması) və "zal nəzarətçisi sertifikatı" alan nəzarətçilərin imtahanlarda daha çox iştirak etməsi kimi faktorlarla izah etmək olar. Bu tendensiyanın səbəblərindən biri də "Zal nəzarətçilərinin fəaliyyətinin qiymətləndirilməsi meyarları"nın imtahan rəhbərləri tərəfindən getdikcə daha dəqiq tətbiq edilməsidir.

Ali təhsil müəssisələrinə qəbul imtahanlarının II mərhələsində imtahanda iştirak edən nəzarətçilər bazasının fənlər üzrə ümumi tərkibi ilə (şəkil 2) qayda pozuntusuna yol verən nəzarətçilərin fənlər üzrə tərkibi (şəkil 3) müqayisə edilərək cari ildəki qəbul imtahanlarında hansı ixtisas müəllimlərinin, ümumilikdə yol verilən qayda pozuntularında daha çox paya malik olması aşkarlanmışdır.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN NƏZARƏTÇİLƏRİN İXTİSAS FƏNLƏRİ ÜZRƏ PAYLANMASI (FAİZLƏ)



Şəkil 2

QƏBUL İMTAHANLARINDA NƏZARƏTÇİLƏRİN QAYDA POZUNTUSUNA YOLVERMƏ FAİZİ (İXTİSASLAR ÜZRƏ)



Şəkil 3

Cari ildə qəbul imtahanlarında qayda pozuntusuna yol verənlərin 32%-i ibtidai təhsil, hər biri 12,2% olmaqla tarix və ingilis dili müəllimləridir. 2020-ci ildə qayda pozuntusuna yol verənlərin 34,5%-i ibtidai təhsil, 14%-i tarix müəllimləri idi. 2019-cu ildə isə belə hallara yol verənlərin 20,9%-i ibtidai təhsil, 14,9%-i ingilis dili, 12,3%-i tarix, 9,8%-i ana dili və ədəbiyyat, 6,8%-i kimya, 3,8%-i əmək təlimi müəllimləri olmuşdur.

2010–2019-ci illərdə qəbul imtahanlarında iştirak edən ana dili və ədəbiyyat müəllimlərinin sayının nəzarətçilərin ümumi sayının kiçik bir hissəsini (2010-cu ildə 9,8%, 2011-ci ildə 12,2%, 2012-ci ildə 14,8%, 2013-cü ildə 17,4%, 2014-cü ildə 14,6%, 2015-ci ildə 16,3%, 2016-cı ildə 12,9%, 2017-ci ildə 10,7%, 2018-ci ildə 11,3%, 2019-cu ildə 8,5%) təşkil etməsinə baxmayaraq yol verilən qayda pozuntularının böyük bir hissəsi (uyğun olaraq 2010-cu ildə 18,4%, 2011-ci ildə 24,2%, 2012-ci ildə 16,1%, 2013-cü ildə 33,6%, 2014-cü ildə 25,1%, 2015-ci ildə 27,7%, 2016-cı ildə 20,6%, 2017-ci ildə 17,7% , 2018-ci ildə 12,7%, 2019-cu ildə 9,8%) onların payına düşürdü. Aradakı fərqin ilbəil azalması bazaya yeni ana dili və ədəbiyyat müəllimlərinini götürülməməsi və fəaliyyəti qeyri-qənaətbəxş hesab edilənlərin bazadan çıxarılması ilə əlaqədar idi. Nəhayət 2020-ci ildə ana dili və ədəbiyyat müəllimləri ilə bağlı bu tendensiya sona çatdı. Belə ki, bu göstəricilər 2020-ci ildə uyğun olaraq 4,7%, 2,8% , cari ildə isə 6,4% və 3,8% olmuşdur. Bənzər nəticələr ingilis dili, digər xarici dillər, əmək təlimi və ibtidai sinif müəllimləri üçün də təkrarlanır.

Bu nəticələrə görə demək olar ki, riyaziyyat, fizika, biologiya və coğrafiya müəllimləri imtahan zallarını daha yaxşı idarə edirlər. İdman müəllimlərinin son illərdəki nəticələrinin yaxşılaşmasını da bazaya bu ixtisas üzrə yeni nəzarətçilərin götürülməməsi və cari bazada ən bacarıqlıların qalması ilə izah etmək olar.

Aşağıdakı 4 saylı cədvəldə cari ildə buraxılış və qəbul imtahanlarında nəzarətçilər tərəfindən qayda pozuntusu hallarının bölgələr üzrə paylanması təqdim edilmişdir.

Cədvəl 4

QAYDA POZUNTUSU HALLARININ BÖLGƏLƏR ÜZRƏ PAYLANMASI

Rayonun (şəhərin, təşkilatın) adı	Qəbul imtahanlarında		Buraxılış imtahanlarında	
	1*	2*	1*	2*
AMEA	1,9	1,3	2,0	0
Yasamal	2,0	0,6	2,4	0
Binəqədi	4,1	0,6	4,4	0
Səbail	1,7	0,6	1,8	1,8
Xətai	5,0	2,6	3,5	3,5
Xəzər	1,9	0,0	1,4	1,8
Nərimanov	2,5	1,9	2,7	0,0
Suraxanı	3,1	0,6	2,7	0,0
Sabunçu	5,9	4,5	4,1	0,0
Nəsimi	2,7	0,6	2,6	0,0
Qaradağ	1,3	0,6	0,8	0,0
Nizami	--	--	3,0	1,8
Kəngərli	--	--	0,2	0,0
Naxçıvan	4,3	4,5	1,7	1,8
Babək	--	--	0,6	0,0
Ordubad	--	--	0,3	0,0
Sədərək	--	--	0,1	0,0
Culfa	--	--	0,3	0,0
Şərur	--	--	0,6	5,3
Şahbuz	--	--	0,1	0,0
Gəncə	6,5	7,1	3,5	0,0
Daşkəsən	--	--	0,2	0,0
Şəmkir	2,5	11,5	2,4	8,8
Göygöl	--	--	0,7	1,8
Samux	--	--	0,6	0,0
Gədəbəy	--	--	0,7	0,0
Qazax	2,2	6,4	1,1	8,8
Ağstafa	1,3	7,1	0,6	3,5
Tovuz	--	--	1,5	1,8
Sumqayıt	4,3	0,6	3,8	0,0
Abşeron	4,1	1,3	2,8	0,0
Xızı	--	--	0,1	0,0
Şamaxı	--	--	0,7	0,0
Qobustan	--	--	0,3	1,8
Mingəçevir	3,3	2,6	1,6	1,8
Goranboy	--	--	1,1	0,0
Yevlax	--	--	1,1	5,3
Şəki	3,8	0,0	2,3	0,0
Zaqatala	2,1	2,6	0,9	0,0
Balakən	--	--	0,7	1,8
Qəbələ	--	--	1,0	1,8
Qax	--	--	0,4	0,0
Oğuz	--	--	0,4	0,0
Bərdə	3,3	6,4	2,7	0,0

Rayonun (şəhərin, təşkilatın) adı	Qəbul imtahanlarında		Buraxılış imtahanlarında	
	1*	2*	1*	2*
Şuşa	0,1	0,0	0,1	0,0
Ağcabədi	--	--	1,4	8,8
Ağdam	--	--	0,7	0,0
Tərtər	--	--	0,6	7,0
Göyçay	2,5	7,7	1,4	0,0
Ucar	--	--	0,6	0,0
Kürdəmir	2,4	1,3	1,2	0,0
Zərdab	--	--	0,4	0,0
Ağdaş	--	--	0,8	0,0
İsmayıllı	--	--	0,6	0,0
Ağsu	--	--	0,5	0,0
İmişli	--	--	1,1	1,8
Qubadlı	0,5	0,6	0,4	0,0
Füzuli	--	--	0,6	0,0
Beyləqan	--	--	0,9	3,5
Laçın	0,1	0,0	0,1	0,0
Zəngilan	0,2	0,0	0,2	0,0
Şirvan	1,8	3,2	1,2	3,5
Hacıqabul	--	--	0,6	0,0
Sabirabad	2,9	3,2	2,1	3,5
Biləsuvar	--	--	0,9	1,8
Neftçala	--	--	0,5	1,8
Salyan	2,8	4,5	1,4	7,0
Saatlı	--	--	0,7	0,0
Lənkəran	3,3	0,6	2,7	0,0
Astara	--	--	0,9	1,8
Lerik	--	--	0,4	0,0
Yardımlı	--	--	0,5	0,0
Cəlilabad	1,6	4,5	2,1	1,8
Masallı	2,1	3,2	1,9	5,3
Quba	2,7	1,3	1,5	0,0
Qusar	--	--	0,8	0,0
Xaçmaz	2,6	1,9	2,4	0,0
Şabran	--	--	0,6	0,0
Siyəzən	--	--	0,4	0,0

Qeyd1:

1*.Rayon üzrə nəzarətçi sayının ümumi nəzarətçi sayına nisbətin faizlə ifadəsi ;

2*.Rayon üzrə qayda pozuntusuna yol verənlərin sayının qayda pozuntusuna yol verənlərin ümumi sayına nisbətinin faizlə ifadəsi.

Qeyd2:

qarşısında "--" işarəsi olan rayonlarda yalnız buraxılış imtahanları keçirilmişdir.

Cədvəl 4-də 1-ci damadakı göstəricinin 2-cidən kiçik olması müvafiq rayon üzrə nəzarətçilərin qayda pozuntularına daha çox yol verdiyini göstərir. Cədvəldən göründüyü kimi, həm buraxılış, həm də ali təhsil müəssisələrinə qəbul imtahanlarının keçirildiyi bəzi rayonlarda qayda pozuntusu hallarına daha çox şərait yaradılmışdır: Ağstafa, Qazax, Şəmkir, Ağcabədi, Cəlilabad, Şirvan, Salyan, Masallı, Kürdəmir. Ağstafa, Qazax, Şəmkir, Cəlilabad, Masallı və Kürdəmir rayonları 2020-ci ildə də qayda pozuntuları daha çox müşahidə olunan rayonlar arasında idi.

Yalnız buraxılış imtahanlarının keçirildiyi rayonlar götürüldükdə qayda pozuntusu hallarına ən çox bu rayonlarda rast gəlinir: Şərur, Qobustan, Yevlax, Tərtər, İmişli, Beyləqan, Neftçala və Astara. Şərur və Beyləqan rayonları 2020-ci ildə keçirilən buraxılış imtahanlarında da bu siyahıda yer almışdır. 2015-ci ildən bəri ümumi statistikaya baxdıqda buraxılış imtahanlarında Qazax, Şərur, Şəmkir və Beyləqan nəzarətçilərinin daha çox qayda pozuntularına yol verdiklərini demək olar.

Buraxılış və qəbul imtahanlarında qayda pozuntusuna yol verən nəzarətçilərin ümumi sayı 213, ciddi qayda pozuntusuna yol verənlərin sayı isə 69 nəfərdir. Bu göstəricilər müvafiq olaraq qəbul imtahanları üzrə 156 və 57, buraxılış imtahanları üzrə 57 və 12-dir.

Yaş tərkibinə görə fərqli olan imtahan iştirakçısı kontingentinin yerləşdiyi zallar üzrə qayda pozuntusu (köçürmə) hallarının paylanması 5 və 6 saylı cəvdəldə təqdim edilmişdir.

Cədvəl 5

QƏBUL İMTAHANLARINDA QAYDA POZUNTUSU HALLARININ PAYLANMASI (ABİTURİYENT KONTİNGENTİNİN YAŞ TƏRKİBİ ÜZRƏ)

Kontingentin yaş tərkibi	Yaş kontingentinə görə		Qayda pozuntusuna yol verilən zalların	
	Zalların Ümumi sayı	Faizi (ümumi zal sayına nəzərən)	sayı	faizi (qayda pozuntusuna yol verilən zalların ümumi sayına nəzərən)
ən çox 18	4505	83,5	134	74,4
18-20	408	7,6	28	15,6
20-dən çox	478	8,9	18	10,0

Cədvəl 6

BURAXILIŞ İMTAHANLARINDA QAYDA POZUNTUSU HALLARININ PAYLANMASI (ŞAGİRD KONTİNGENTİNİN YAŞ TƏRKİBİ ÜZRƏ)

Kontingentin yaş tərkibi	Yaş kontingentinə görə		Qayda pozuntusuna yol verilən zalların	
	Zalların Ümumi sayı	Faizi (ümumi zal sayına nəzərən)	sayı	faizi (qayda pozuntusuna yol verilən zalların ümumi sayına nəzərən)
ən çox 18	16703	90,7	161	84,3
18-dən böyük	1710	9,3	30	15,7

5 və 6 saylı cədvəldən göründüyü kimi, cari ildə qəbul və buraxılış imtahanlarında əvvəlki illərin məzunlarının yerləşdiyi zallarda yol verilən qayda pozuntusu halları ilə cari il məzunlarının yerləşdiyi zallarda yol verilən qayda pozuntusu hallarının faiz nisbətində ciddi fərq var.

Araşdırmalar göstərir ki, imtahan təcrübəsi artdıqca nəzarətçilərin qayda pozuntusuna yolvermə hallarında da azalma müşahidə olunur (7 saylı cədvələ bax).

Cədvəl 7

NƏZARƏTÇİLƏRİN QAYDA POZUNTUSU HALLARI
(İMTAHANLARDA İŞTİRAK SAYI ÜZRƏ)

İştirak sayı	İştirak edən nəzarətçilərin		Qayda pozuntusuna yol verən nəzarətçilərin		Qayda pozuntularına yol verən nəzarətçilərin sayının iştirak edən nəzarətçilərin sayına nisbəti (faizlə)
	sayı	faizi (ümumi iştirak sayına nəzərən)	sayı	faizi (qayda pozuntusuna yol verənlərin cəminə nəzərən)	
ən çox 5	2886	22,0	77	36,7	2,7
6 - 15	3345	25,5	58	27,6	1,7
16 - 35	5126	39,0	66	31,4	1,3
ən az 36	1771	13,5	9	4,3	0,5

Cari ildə keçirilən imtahanlarda iştirak etmiş nəzarətçilər arasından indiyə qədər iştirak etdiyi bütün imtahanlarda:

- təyin olunduğu zallarda köçürmə faktı aşkarlanmayan;
- bir qayda olaraq, cəlb olunduğu bütün imtahanlarda iştirak edən;
- qeyri-kafi qiymət almayan, yekun qiyməti 4-dən böyük olan və cari ildə yekun qiymətini daha da yaxşılaşdıran;
- heç bir təlimat pozuntusuna yol verməyən və cari ildə imtahan rəhbərinin protokollarında "yaxşı" və "əla" ilə qiymətləndirilən;
- 600-dən yuxarı bal toplayan abituriyentlərin fəaliyyətinə verdiyi rəyi "yaxşı" və "əla" olan;
- imtahanlarda ən azı 15 dəfə (son iki il ərzində 3 dəfə, o cümlədən qəbul imtahanlarında heç olmasa 1 dəfə) iştirak edən nəzarətçilər müəyyənləşdirilmiş və fəaliyyətləri yüksək qiymətləndirilmişdir. Belə nəzarətçilərin sayı 2170 nəfərdir.

CARİ İLDƏ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ FƏALİYYƏTİ YÜKSƏK QİYMƏTLƏNDİRİLƏN ZAL NƏZARƏTÇİLƏRİNİN SAYI

Cari ildə fəaliyyəti yüksək qiymətləndirilən zal nəzarətçilərinin sayı 2170 nəfərdir. Onlardan 28 nəfəri fəxri fərmanla təltif edilmişdir.

Cədvəl 8

1. Təhsil müəssisələri üzrə paylanma

S/s	Təhsil müəssisəsinin adı*	Nəzarətçi sayı
1.	Azərbaycan Dövlət Aqrar Universiteti	14
2.	Şəki şəhəri 11 nömrəli tam orta məktəb	14
3.	Xaçmaz şəhəri 9 nömrəli tam orta məktəb	14
4.	Lənkəran şəhəri 10 nömrəli tam orta məktəb	13
5.	Lənkəran şəhəri 5 nömrəli tam orta məktəb	11
6.	Lənkəran şəhəri 1 nömrəli tam orta məktəb	10
7.	Azərbaycan Texnologiya Universiteti	9
8.	Şamaxı şəhəri 9 nömrəli tam orta məktəb	9

* Bu kateqoriyadan olan təhsil müəssisələrinin sayı ümumilikdə 1059-dur.

Cədvəl 9

2. İxtisas fənləri üzrə paylanma

S/s	İxtisasın adı	Nəzarətçi sayı
1.	Tarix	413
2.	İbtidai təhsilin pedaqogika və metodikası	338
3.	Biologiya	264
4.	Fizika	257
5.	Coğrafiya	228
6.	Digər ixtisaslar	216
7.	Kimya	172
8.	Əmək təlimi	68
9.	İngilis dili	58
10.	Riyaziyyat	50
11.	İdman	50
12.	Digər xarici dillər	32
13.	Ana dili və ədəbiyyat	24

Bu siyahıda 3 məktəb 14 nəfərlə, 1 məktəb 13 nəfərlə, 1 məktəb 11 nəfərlə, 3 məktəb 10 nəfərlə, 2 məktəb 9 nəfərlə, 8 məktəb 8 nəfərlə, 15 məktəb 7 nəfərlə, 13 məktəb 6 nəfərlə, 36 məktəb 5 nəfərlə, 52 məktəb 4 nəfərlə, 115 məktəb 3 nəfərlə, 256 məktəb 2 nəfərlə, 552 məktəb 1 nəfərlə təmsil olunur.

YEKUN STATİSTİKA



Şəkil 4

Diaqramdan göründüyü kimi bu il buraxılış imtahanlarına və ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarının II mərhələsinə cəlb edilmiş nəzarətçi-müəllimlərin, qayda pozuntuları da nəzərə alınmaqla, 79,8%-nin fəaliyyəti əla, 14,0%-nin yaxşı, 1,4%-nin kafi, 0,9%-nin isə qeyri-kafi qiymətləndirilir.

Fəaliyyəti kafi qiymətləndirilən müəllimlərin nəzarətçi kimi hazırlıq səviyyəsinin artırılması məqsədi ilə hər il olduğu kimi, bu il də, təlimlərin ayrı-ayrı qruplarda təşkil olunması və onların növbəti ilin sınaq imtahanlarına cəlb olunması və fəaliyyətlərinin ayrıca izlənilməsi nəzərdə tutulur. Fəaliyyəti qeyri-kafi qiymətləndirilən müəllimlər isə cari ilin nəzarətçilər bazasından çıxarılmışdır.

DİM nümunəvi işi ilə seçilən və fəaliyyəti əla qiymətləndirilən müəllimləri il boyu müxtəlif dövlət qurumlarına keçirilən işə qəbul imtahanlarına da öncəliklə dəvət edir, nəzarətçilər üçün keçirilən təlimlərdə onların təcrübələrindən istifadə edilir və onlar imtahan rəhbərliyinə namizədlər siyahısına daxil edilirlər.

Xatırladaq ki, cari il də daxil olmaqla (2170 nəfər) indiyə qədər DİM-in keçirdiyi imtahanlarda nümunəvi fəaliyyətinə görə fərqlənmiş 4733 nəfər nəzarətçiyə təşəkkür elan edilmiş, bunlardan 363 nəfəri fəxri fərmanlarla təltif edilmişdir.

Nəzarətçilərin fəaliyyətlərinin təhlilinin nəticələri barədə, bir qayda olaraq, hər il Təhsil Nazirliyinə, müvafiq rayon (şəhər) təhsil şöbələrinə və ümumtəhsil müəssisələrinə məlumat verilir.

Nəticə

2021-ci ildə buraxılış və ali təhsili müəssisələrinə keçirilən qəbul imtahanlarının II mərhələsinə cəlb edilmiş nəzarətçi-müəllimlərin fəaliyyətinin təhlili ilə bağlı əldə olunan nəticələr:

- Qəbul imtahanları üçün nəzarətçi bazası ən yaxşılarının seçilməsi üçün, əsasən, yetərli olmuşdur. Belə ki, cari ildə imtahana cəlb edilməsi nəzərdə tutulan bazanın 51,3%-i qəbul imtahanlarının II mərhələsində, 66,7%-i isə buraxılış imtahanlarında istifadə edilmişdir. İmtahanlara cəlb edilmə faizi həm buraxılış, həm də qəbul imtahanlarının II mərhələsinin keçirildiyi rayonlar üzrə 85-dən yuxarı olmuşdur. Lakin cari ilin məzunları üçün buraxılış imtahanlarının keçirildiyi bəzi rayonlar (Xəzər, İmişli, Biləsuvar, Yardımlı, Şabran, Siyəzən) üzrə də imtahanlara cəlb edilmə faizi 85-dən yuxarı olmuşdur. Seçim imkanlarının daha geniş olmasını təmin etmək üçün növbəti ildə bu rayonlar üzrə nəzarətçi sayının artırılmasına ehtiyac var.
- Əlaqələndiricilərin nəzarətçiləri imtahana cəlb etməsi işində müsbət tendensiya davam edir. Belə ki, buraxılış imtahanlarında və qəbul imtahanlarının II mərhələsində imtahana gəlməyənlərin faizi pandemiya ilə əlaqədar qismən artsa da, 3,4%-i (qəbul imtahanlarının II mərhələsində 4,6%, buraxılış imtahanlarında 3,0%) keçməmişdir. Cari ildə cəlb olunanların 2,4%-i imtahanda üzrlü səbəbləri olduğu üçün iştirak etməmişdir.
- 2020-ci il istisna olmaqla fəaliyyəti "əla" qiymətləndirilənlərin faizi getdikcə artmış, fəaliyyəti "qeyri-kafi" və "kafi" qiymətləndirilənlərin faizi isə azalmışdır. 2020-ci ildə fəaliyyəti əla qiymətləndirilənlərin sayının azalmasının və "kafi" və "qeyri-kafi" qiymətləndirilənlərin sayının artmasının əsas səbəbi qəbul imtahanlarının yeni imtahan mərkəzlərində qəbul imtahanları təcrübəsi az olan müəllimlərlə keçirilməsidir.
- Əla qiymətləndirilən nəzarətçilərin faiz nisbətinin artması (2020-ci il istisna olmaqla) yalnız nəzarətçi kontingentinin yaxşıların seçiminə imkan verəcək şəkildə geniş olması, təlimlərdə təlim metodlarının dəyişdirilməsi, stimullaşdırıcı tədbirlərin tətbiqi, sertifikatlı nəzarətçilərin cəlb edilməsi və s. bu kimi yuxarıda qeyd olunan səbəblərlə izah olunmur. Eyni zamanda təhlil onu göstərir ki, imtahan rəhbərlərinin nəzarətçiləri yaxşı və xüsusilə də əla qiymətlərlə qiymətləndirməyə meyilli olmaları da bu artıma təsir göstərmişdir. Odur ki, imtahan rəhbərləri ilə təlimlərdə bu məsələyə diqqətin artırılması nəzərdə tutulur.
- İmtahan rəhbərləri və nəzarətçilərlə il boyu aparılan təlimat işinin nəticəsi kimi köçürmə hallarının azalması tendensiyası davam edir. Cari ildə qəbul imtahanlarının II mərhələsində nəzarətçilərin 2,4%-i, buraxılış imtahanlarında 0,3%-i qayda pozuntularına yol vermişdir. Bu azalma buraxılış imtahanlarında daha kəskin nəzərə çarpır. Köçürmə hallarının azalmasında çoxvariantlılığın tətbiqi və iştirakçıların imtahan zalında tək-tək əyləşdirilməsi faktorlarının da böyük təsiri var.
- Nəzarətçilərin ixtisasına görə qayda pozuntuları hallarının araşdırılması riyaziyyat, fizika, biologiya və coğrafiya ixtisaslı müəllimlərin qayda pozuntularına nisbətən daha az yol verdiklərini və imtahan zallarını daha yaxşı idarə etdiklərini göstərir. Lakin tarix, ingilis dili və digər xarici dillər və ibtidai sinif müəllimlərinin daha çox köçürməyə yol verdikləri tendensiyası davam edir.
- Həm buraxılış, həm də ali təhsil müəssisələrinə qəbul imtahanlarının keçirildiyi bəzi rayonlarda köçürmə hallarına daha çox şərait yaradılmışdır: Ağstafa, Qazax, Şəmkir, Ağcabədi, Cəlilabad, Şirvan, Salyan, Masallı, Kürdəmir. Yalnız buraxılış imtahanlarının keçirildiyi rayonlar götürüldükdə köçürmə hallarına ən çox bu rayonlarda rast gəlinir: Şərur, Qobustan, Yevlax, Tərtər, İmişli, Beyləqan, Neftçala və Astara. Şəmkir istisna olmaqla köçürmə halları demək olar ki, regional bölmə mərkəzlərinin yerləşdiyi rayonlardan kənarda baş verir.
- İmtahan iştirakçıları kontingentinin yaş tərkibinə görə köçürmə hallarının araşdırılması cari ildə qəbul imtahanlarında yaşı 18 və 18-dən yuxarı olan əvvəlki illərin məzunlarının yerləşdiyi zallarda yol verilən qayda pozuntusu halları ilə cari il məzunlarının yerləşdiyi zallarda yol verilən qayda pozuntusu hallarının faiz nisbətində ciddi bir fərq olduğunu göstərir.
- Araşdırma göstərir ki, nəzarətçilərin təcrübəsi artdıqca qayda pozuntularına yol verilməsi halları azalır.

Dövlət İmtahan Mərkəzinin dövlət qulluğu üzrə müsahibələrə buraxılma və sertifikatlarla iş sahəsində fəaliyyəti

M.M.Abbaszadə, B.B.Xəlilov, V.O.Əkbərov, H.R.Zeynalov

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 11 iyul tarixli 285 nömrəli Qərarına əsasən dövlət qulluğuna qəbul üzrə test imtahanında iştirak edərək uğur qazanmış şəxslərin sertifikat əldə etmək üçün qeydiyyatdan keçdikdən sonra sənədlərinin yoxlanılması, dövlət qulluğuna qəbul edilməsinin mümkün olub-olmaması haqqında məlumatların yerləşdirilməsi, sertifikatların təqdim edilməsi, müsabiqənin müsahibəsi, ümumi müsahibə və daxili müsahibələrdə iştirak üçün müraciət edən şəxslərin sənədlərinin düzgünlüyünün və qanunvericiliklə müəyyən edilmiş qaydada vəzifənin tutulma şərtlərinə uyğunluğunun yoxlanılması Dövlət İmtahan Mərkəzi tərəfindən yerinə yetirilir. Qeyd edilən fəaliyyət sahələri "Namizəd-müsahibə" elektron informasiya sistemi vasitəsilə həyata keçirilir. Bu istiqamətdə işlər əvvəlki illərdə olduğu kimi, 2021-ci ildə də Mərkəz tərəfindən davam etdirilmiş, məlumat bazaları əsasında müxtəlif statistik və analitik təhlillər aparılmışdır.

Aşağıdakı cədvəldə (Cədvəl 1) 2021-ci ildə qövlət qulluğuna qəbul olmaq üçün müsabiqənin test imtahanı mərhələsində iştirak edərək uğur qazanmış və sertifikat əldə etmək üçün elektron qaydada müraciət etmiş namizədlərin sənədlərinin yoxlanılması barədə statistik məlumatlar verilmişdir.

Cədvəl 1

	Dövlət qulluğu üzrə sertifikat əldə etmək üçün müraciət etmiş namizədlərin sənədlərinin yoxlanılması			
İl	**İmtahanda uğurlu nəticə əldə etmişdir**	**Müraciət etmişdir**	**Razılıq verilmişdir**	**İmtina verilmişdir**
2021	4359	4193	4193	0

Sertifikatların çap edilərək təqdim edilməsi üçün Mərkəzin Direktorlar Şurasının sədri tərəfindən müvafiq əmr imzalandıqdan sonra proqram sistemi üzərindən hər bir namizədə e-mail vasitəsi ilə elektron bildiriş göndərilir. Bildirişdə namizədlərin sertifikatları əsas binadan və yaxud regional bölmələrdən əldə edə bilmələri haqqında məlumat verilir. Növbəti cədvəldə (Cədvəl 2) 2021-ci ildə dövlət qulluğu üzrə sertifikatların təqdim edilməsi barədə məlumatlar verilmişdir:

Cədvəl 2

İl	**Sertifikat təqdim edilib**	**Sertifikat təqdim edilməyib**	
		Namizəd qeydiyyatdan keçməyib	**Namizəd sertifikatı götürməyib**
2021	2130	80	2149

Namizədlərin əldə etdikləri sertifikatların növlər üzrə paylanması barədə statistik məlumatlar isə Cədvəl 3-də təqdim edilmişdir:

Cədvəl 3

İl	**Sertifikat növləri**															
	AB1	**AB2**	**AB3**	**AB4**	**AC1**	**AC2**	**AC3**	**AC4**	**BA1**	**BA2**	**BA3**	**BA4**	**BB1**	**BB2**	**BB3**	**BB4**
2021	0	1	2	5	7	17	18	34	37	88	223	419	524	665	983	1336

Yuxarıda qeyd edildiyi kimi, dövlət qulluğu vəzifəsini tutmaq üçün müsahibələrdə iştirak etmək istəyən namizədlər barədə məlumatların yoxlanılması da "Namizəd-müsahibə" sistemi vasitəsilə həyata keçirilir. Cədvəl 4-də 2021-ci ildə müsahibələrdə iştirak etmək üçün elektron qeydiyyatdan keçmiş namizədlər barədə zəruri sənədlərin yoxlanılmasının nəticələri əks olunmuşdur.

Cədvəl 4

Müsahibə növü	İmtina edilib										Namizəd imtina edib	Razılıq verilib
	Vəzifəyə uyğun sertifikatı yoxdur	İxtisas tələbi uyğun deyil	İntizam tənbeh tədbiri var	Ödənilməmiş məhkumluğu var	Təhsil məlumatları uyğun deyil*	Zəruri sənədlər tam təqdim edilməyib	Qulluq stajı uyğun deyil	Qanunvericilik tələbləri pozulub	Müsahibədə iştirak hüququ yoxdur	Cəmi		
Müsabiqə üzrə müsahibə	0	0	18	0	18	73	106	0	0	**51**	128	**8265**
Ümumi müsahibə	2	1	11	0	9	78	61	14	78	**64**	11	**810**
Daxili müsahibə	1	4	3	0	4	26	23	8	0	**26**	2	**657**
Cəmi:	**3**	**5**	**32**	**0**	**31**	**177**	**190**	**22**	**78**	**141**	**141**	**9732**

* "Tələbə-məzun" dövlət elektron məlumat sistemi (TMMS) və namizədin daxil etdiyi təhsil məlumatları arasında fərq var, TMMS-də məlumat yoxdur, diplom həqiqi deyil və s.

Mövcud qanunvericiliyə görə qeydiyyatdan keçmiş və müraciətinə Mərkəz tərəfindən razılıq verilmiş namizədlər müsahibələrə buraxılırlar. 2021-ci ildə müsahibələrdə iştirak etmiş və uğur qazanmış namizədlər barədə məlumatlar Cədvəl 5-də verilmişdir.

Cədvəl 5

Müsahibələr	Müsahibədə iştirak barədə							Müahibədən uğurla keçənlər barədə						
	Uyğundur	Uyğun deyil	İştirak etməyib	Etibarsız sayılıb	Başqa vaxta keçirilib	Ləğv edilib	Cəmi	Vəzifəyə təyin edilib	Ehtiyata daxil edilib	Vəzifəyə təyin edilməyib	Ehtiyatdan imtina edib	Vəzifədən imtina edib	Qərar qəbul edilməyib	Cəmi
Müsabiqə üzrə müsahibə	877	2622	627	8	80	0	**4214**	422	363	0	51	0	41	**877**
Ümumi müsahibə	174	336	57	1	14	5	**587**	129	24	14	2	1	4	**174**
Daxili müsahibə	368	179	46	0	5	2	**600**	327	18	14	2	0	7	**368**
YEKUN:	**1419**	**3137**	**730**	**9**	**99**	**7**	**5401**	**878**	**405**	**28**	**55**	**1**	**52**	**1419**

Cədvəl 5-dən göründüyü kimi, 2021-ci il ərzində müsahibədə iştirak etmiş 5401 namizəddən 1419 nəfəri (26.3%) iddia etdikləri vəzifəyə uyğun hesab edilmiş, onlardan 878 nəfər isə dövlət orqanlarında infibati vəzifələrə təyin edilmişdir ki, bu da müsahibədə iştirak edənlərin 16.3 faizini, müsahibədən uğurla keçənlərin 61.9 faizini təşkil edir.

Məlumdur ki, Nazirlər Kabinetinin 2020-ci il 23 mart tarixli 106 nömrəli, 2019-cu il 22 may tarixli 237 nömrəli və 2010-cu il 1 iyul tarixli 129 nömrəli qərarları əsasında Dövlət İmtahan Mərkəzi tərəfindən doktoranturaya qəbul imtahanı, aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert imtahanı və peşəkar mühasibatlıq üzrə imtahan keçirilir. Bu imtahanlarda müvəffəqiyyət qazanmış namizədlərə müvafiq sertifikat və şəhadətnamələr təqdim edilir. Sertifikat və şəhadətnamələr barədə məlumatlar "Namizəd-müsahibə" elektron informasiya sisteminə daxil edilmişdir.

"Tələbə-məzun" sistemi Azərbaycan Respublikası Prezidentinin 26 iyul 2019-cu il tarixli 1354 nömrəli Sərəncamına əsasən təsis edilmiş "Yüksəliş" müsabiqəsinin həyata keçirilməsi üçün istifadə edilən informasiya sistemlərinə inteqrasiya edilmişdir. Bu layihə üzrə müsabiqədə iştirak etmək istəyən vətəndaşların qeydiyyatı zamanı müvafiq təhsil məlumatları Mərkəzin veb servisi vasitəsilə avtomatik ötürülür.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Orta ixtisas təhsili müəssislərinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas(baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydaları"nın təsdiq edilməsi haqqında 20 may 2019-cu il tarixli 230 nömrəli Qərarına əsasən ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların sənəd qəbulu "Tələbə-məzun" sistemi ilə həyata keçirilir. Orta ixtisas təhsili müəssisləri tərəfindən subbakalavrın ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) və təhsil haqqında sənədə (attestata) yazılmış və qərarda müəyyən edilmiş fənlər üzrə yekun qiymətlərin ədədi ortası haqqında məlumatlar təhsil müəssisləri tərəfindən "Tələbə-məzun" sisteminə daxil edilir. Müvafiq məlumatları sistemə daxil edilmiş subakalavrlar imtahanda iştirak etmədən müsabiqədə iştirak üçün müraciət hüququ əldə edirlər. Eyni zamanda bakalavriat təhsilini başa vura bilməyən şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsinin həyata keçirilməsi üçün sistemdə yeni funksional imkanlar yaradılmışdır.

"Tələbə-məzun" sistemində qanunvericiliklə müəyyən edilmiş qaydada əlavə təhsil (ikinci ixtisas təhsili) almaq üçün ali və orta ixtisas təhsili müəssisələrinə müraciət etmiş şəxslərin baza təhsili səndələrinin sistemdə yoxlanılması, qəbul əmrləri verildikdən sonra müvafiq məlumatların sistemə daxil edilməsi və bu prosesə nəzarət mexanizmi yaradılmışdır. Belə ki, sistemə əlavə təhsil almaq üçün təhsil müəssisəsinə müraciət edən şəxslərin baza təhsili sənədlərinin həqiqiliyinin yoxlanmasını təmin edən yeni funksional imkanlar əlavə edilmişdir. Yoxlma nəticəsində baza təhsili sənədinin dövlət nümunəli olduğu müəyyən edildikdə təhsil müəssisələri tərəfindən əlavə təhsil almaq üçün verilmiş qəbul əmrləri ilə bağlı məlumatların sistemə daxil edilməsinə icazə verilir, əks halda sistem bu barədə təhsil müəssisələrinin istifadəçilərinə müvafiq xəbərdarlıq edir və əlavə təhsilə qəbul məlumatlarının daxil edilməsinə icazə vermir. Baza təhsili sənədləri haqqında məlumat sistemdə aşkar edilmədikdə əlavə qəbul həyata keçirən təhsil müəssisələri həmin şəxslərin sənədlərinin araşdırılması üçün sistem üzərindən baza təhsili diplomunu vermiş təhsil müəssisələrinə və yaxud Təhsil Nazirliyinə müraciət edir. Sorğulara cavabda baza təhsili diplomunun dövlət nümunəli olduğu təsdiq edildikdə proqram sistemi tərəfindən müvafiq şəxslər barədə əlavə təhsil məlumatlarının daxil edilməsinə icazə verilir. 2020/2021-ci tədris ilində əlavə təhsil almaq üçün təhsil müəssisələri tərəfindən mövcud qanunvericiliyə uyğun olaraq daxili əmrlə qəbul edilmiş 1594 tələbə haqqında məlumat "Tələbə-məzun" siateminə daxil edilmişdir.

"Tələbə-məzun" sisteminə 2021-ci ildə təhsil müəssisələri tərəfindən 71963, ümumiikdə isə 736211 diplom məlumatları daxil edilmişdir.

2012-ci ildən əvvəlki illərdə təhsillərini başa vurmuş şəxslərin diplom məlumatlarının sistemə daxil edilməsinin zəruriliyi barədə Mərkəz tərəfindən təhsil müəssisələrinə göndərilmiş müvafiq məktublardan sonra 2021-ci ildə təhsil müəssisələri tərəfindən 10889 nəfərin diplom məlumatları sistemə daxil edilmişdir.

2021-ci ildə ali təhsil müəssisələrinə qəbul olmuş 43813 nəfər bakalavr, o cümlədən 5265 nəfər imtahan vermədən subbakalavr kimi bakalavr səviyyəsinə qəbul olmuş, 10413 nəfər magistr, tam orta təhsil bazasından orta ixtisas təhsil müəssisələrinə qəbul olmuş 11379 nəfər subbakalavr və ümumi orta təhsil bazasından orta ixtisas təhsil müəssisələrinə qəbul olmuş 9030 nəfər subbakalavr barədə məlumatlar Mərkəz tərəfindən "Tələbə-məzun" sisteminə daxil edilmişdir.

Cədvəl 1-də 1992–2021-ci illər ərzində qəbul imtahanları nəticəsində tələbə statusu qazanmış şəxslər barədə məlumatlar, Cədvəl 2-də isə təhsil müəssisələri tərəfindən qanunvericilikdə müəyyən edilmiş qaydada daxili əmrlə qəbul edilmiş şəxslər barədə məlumatlar təqdim edilmişdir.

Cədvəl 1

Təhsil səviyyəsi	Say
Bakalavriat	863440
Magistratura	90200
Tam orta təhsil bazasından orta ixtisas təhsili	229517
Ümumi orta təhsil bazasından orta ixtisas təhsili	170800
Cəmi:	**1353957**

Cədvəl 2

Qəbul forması	Bakalavr	Magistr	Tam orta təhsil bazasından orta ixtisas təhsili təhsili	Ümumi orta təhsil bazasından orta ixtisas təhsili	Say
Təhsil müəssisəsi tərəfindən həyata keçirilimiş qəbul	4789	1152	153	5795	**11889**
Xarici təhsil müəssisələrindən köçürmələr	12927	12	42	27	**13008**
Əcnəbi və vətəndaşlığı olmayan tələbələrin qəbulu	7958	889	32	26	**8905**
Əlavə təhsil almaq istəyən şəxslərin qəbulu	12181	1	1716	87	**13985**
Cəmi:	**37855**	**2054**	**1943**	**5935**	**47787**

Qeyd etmək lazımdır ki, sistemə 1992-ci ildən əvvəl ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmuş şəxslərin də məlumatlarını daxil etmək mümkündür. 2021-ci ildə bu kateqoriyadan olan 864 şəxs barədə təhsil məlumatları sistemə daxil edilmişdir.

"Tələbə-məzun" sistemində təhsil müəssisələri tərəfindən tələbələrin oxuduğu müddətdə baş vermiş hərəkətlər – xaricolma, bərpa, ixtisasdəyişmə, təhsil formasının dəyişməsi, ödəniş formasının dəyişməsi və s. bu kimi əməliyyatlar da qeyd edilir. Həmin məlumatların 2021-ci il üzrə statistikası Cədvəl 3-də təqdim edilir.

Cədvəl 3

Əməliyyatın adı	Təhsil səviyyələri üzrə saylar				
	Bakalavriat	Magistratura	Tam orta ixtisas bazası	Ümumi orta ixtisas bazası	Cəmi
Əcnəbi və vətəndaşlığı olmayan tələbələrin qəbulu	497	32	9	2	**540**
Əlavə təhsil almaq istəyən şəxslərin qəbulu	1669	0	393	8	**2070**
Təhsil müəssisəsi tərəfindən həyata keçirilimiş qəbul	367	199	11	100	**677**
Xarici təhsil müəssisələrindən köçürmələr	291	3	3	1	**298**
Ölkədaxili köçürmələr	668	27	151	496	**1342**
İxtisas dəyişmələri	549	18	60	80	**707**
İxtisas dəyişməklə ölkədaxili köçürmələr	800	0	53	32	**885**
Təhsilalma forması dəyişmələri	1087	4	62	57	**1210**
Təhsilalma forması dəyişməklə ölkədaxili köçürmələr	49	0	21	7	**77**
Dövlət hesablı təhsildən ödənişli əsaslarla təhsilə keçməklə ixtisas dəyişmələri	0	0	0	1	**1**
Dövlət hesablı təhsildən ödənişli əsaslarla təhsilə keçməklə ölkədaxili köçürmələr	3	0	2	4	**9**
Akademik borca görə xaricedilmələr	119	50	59	93	**321**
Digər təhsil müəssisəsinə köçürülmə ilə əlaqədar xaricedilmələr	1232	29	130	92	**1483**

Cədvəl 3 (ardı)

Əməliyyatın adı	Təhsil səviyyələri üzrə saylar				
	Bakalavriat	**Magistratura**	**Tam orta ixtisas bazası**	**Ümumi orta ixtisas bazası**	**Cəmi**
Təhsil haqqının ödənilməməsinə, dərs buraxmaya görə və ya öz xahişi ilə xaricedilmələr	2670	766	1216	958	**5610**
Təhsil müəssisəsinin fəaliyyətinin dayandırılması ilə əlaqədar xaricedilmələr	111	0	110	511	**732**
Təkrar kursda saxlanılmalar	20	0	15	63	**98**
Akademik məzuniyyətin alınması (xaricdə təhsil almaq məqsədilə)	103	44	2	0	**149**
Akademik məzuniyyətin alınması (xəstəlik və digər səbəblərdən)	661	137	114	57	**969**
Akademik məzuniyyətin alınması (həqiqi hərbi xidmətə çağırışla əlaqədar)	570	240	1858	224	**2892**
Akademik məzuniyyətin alınması (təhsil haqqını ödəmək imkanının olmamasına görə)	29	3	5	1	**38**
Bərpalar	1578	374	1203	387	**3542**
İxtisas dəyişməklə tələbələr sırasına bərpalar	111	3	68	43	**225**
Təhsilalma forması dəyişməklə tələbələr sırasına bərpalar	61	10	79	37	**187**
Dövlət sifarişi əsasında təhsildən ödənişli əsaslarla təhsilə keçməklə tələbələr sırasına bərpalar	244	17	0	0	**261**
Dövlət hesablı təhsildən ödənişli əsaslarla təhsilə keçməklə tələbələr sırasına bərpalar	28	1	64	83	**176**
Şəxsi məlumatların dəyişməsi	1902	323	446	405	**3076**
Ölüm halları	57	6	16	11	**90**
Diplomalma	48416	6560	9033	7954	**71963**
Cəmi:	**63892**	**8846**	**15183**	**11707**	**99628**

"Tələbə-məzun" sistemində istifadəçilər tərəfindən müxtəlif parametrlərə görə həyata keçirilən bütün növ axtarışların qeydiyyatı aparılır. 2021-ci il ərzində icra edlmiş axtarışların statistikası Cədvəl 4-də verilmişdir.

Cədvəl 4

Axtarışın növü	Ali təhsil müəssisələri	Orta ixtisas təhsili müəssisələri	Dövlət orqanları		Cəmi
			DİM	**Digər orqanlar**	
İdentifikasiya kodu və FİN-ə görə axtarış	8735	1350	10535	2585	**23205**
Şəxsi məlumata görə axtarış	295172	147789	9740	5835	**458536**
Diplom məlumatına görə axtarış	1407	96	321	1078	**2902**
İxtisasa görə axtarış	6443	320	3	322	**7088**
Təhsildə fasiləyə görə axtarış	31	60	10	0	**101**
Bərpaya görə axtarış	10	19	0	0	**29**
Cəmi:	**311798**	**149634**	**20609**	**9820**	**491861**

Növbəti cədvəldə isə (Cədvəl 5) veb-servis vasitəsilə Mərkəzin məlumat bazalarından istifadə edən dövlət orqanları tərəfindən "Tələbə-məzun" sisteminə 2021-ci il ərzində edilmiş müraciətlərin statistikası verilmişdir.

Cədvəl 5

İstifadəçilər	**Müraciət sayı**
Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	7215759
Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi	2
Azərbaycan Respublikası Təhsil Nazirliyi	700383
Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi	154
Dövlət İmtahan Mərkəzi	4651489
Elektron Hökumət Portalı	497011
Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti	493386
Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	7215759
Cəmi:	**20773943**

Cədvəl 5-dən görünür ki, dövlət orqanları sistemdən aktiv istifadə edirlər.

2021-ci ildə ali təhsil müəssisələrinin subbakalavriat, bakalavriat və magistratura səviyyələrini bitirmiş şəxslər barədə məlumatlar Cədvəl 6-da təqdim edilmişdir. Bu cədvəllərdəki statistik rəqəmlər təhsil müəssisələri tərəfindən sistemə daxil edilmiş məlumatlara əsaslanır.

Cədvəl 6

Təhsil səviyyəsi	**2021-ci ildə təhsilini başa vurmalı olan tələbələrin təhsil müəssisələrinə qəbul forması üzrə sayı**					**2021-ci ildə təhsilini başa vurmuş tələbələrin sayı**				**Təhsilini davam etdirənlər**	**Xaric olunan, bərpa olunan, fasilə verən tələbələrin sayı**
	DİM	**Xaricdən köçürülmə**	**Əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin qəbulu**	**Əlavə təhsilə qəbul**	**Cəmi**	**Məzunlar**		**o cümlədən, diplom rekvizitiləri daxil edilməyib**			
						Say	**%**	**Say**	**%**		
Bakalavriat	39315	117	476	1113	**41021**	35419	90.23	8722	24.63	3837	1765
Magistratura	7102	2	38	0	**7142**	6158	90.49	2611	42.40	647	337
Tam orta təhsil bazasından orta ixtisas təhsili	10541	3	8	249	**10801**	8117	86.49	3715	45.77	1268	1416
Ümumi orta təhsil bazasından orta ixtisas təhsili	9410	3	3	3	**9419**	7377	88.13	3138	42.54	994	1048

Buraxılış və qəbul imtahanlarının məzmunu ilə bağlı metodiki materialların hazırlanması, dərslik komplektlərinin elmi-metodiki monitorinqi (qiymətləndirilməsi) və hazırlıq kursları haqqında

A. Batıyeva

Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar dünyada bu dərs ilində də təhsilin bütün pillə və səviyyələri üzrə çətinliklər yaranıb. Buna baxmayaraq, bu il də Metodika və dərsliklərin monitorinqi şöbəsi tərəfindən əsasnaməyə uyğun olaraq ümumi təhsil pilləsi üzrə buraxılış imtahanlarının, bakalavriat səviyyəsi və hərbi liseylər üzrə isə qəbul imtahanlarının məzmunu ilə bağlı materiallar (proqramlar, imtahan modelləri) hazırlanıb. Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi ilə bütün ümumtəhsil müəssisələri üçün dərslik komplektlərinin nəşrəqədərki layihələrinin elmi-metodiki monitorinqi və qiymətləndirilməsi həyata keçirilib. Həmçinin imtahanlara hazırlaşanlara, şagirdlərə və müəllimlərə metodik kömək məqsədilə materiallar (siniflər üzrə qiymətləndirmə vasitələri, vəsaitlər, tövsiyələr) hazırlanıb və nəşr edilib.

Qeyd edilən materiallar ayrı-ayrı fənlər üzrə işçi qruplarında ciddi müzakirə olunmaqla ümumtəhsil və ali təhsil müəssisələrinin müəllimləri, metodistlər, AMEA-nın müvafiq sahələr üzrə mütəxəssislərinin iştirakı ilə hazırlanıb. İşçi qruplarında müzakirələr zamanı imtahanlarda tələblərinin yoxlanılması və qiymətləndirilməsi mümkün olan alt standartlar seçilib, dərsliklərdə həmin alt standartların tələblərinin reallaşdırılmasına imkan verən mövzular müəyyənləşdirilib. Qəbul qaydalarına əsasən tam orta təhsil səviyyəsi (11 illik) üzrə buraxılış imtahanı qəbul imtahanının birinci mərhələsi, ixtisas qrupları üzrə imtahan isə ikinci mərhələsi hesab edildiyindən, buraxılış və qəbul imtahanlarının həm birinci, həm də ikinci mərhələsi üçün proqramlar və imtahan modelləri hazırlanıb. Tarix fənni üzrə qəbul proqramına "Qarabağ uğrunda Vətən müharibəsi (İkinci Qarabağ müharibəsi)" mövzusu daxil edilib. Ədəbiyyat fənni üzrə bir sıra şair və yazıçıların "Həyatı və yaradıcılığı" proqrama daxil edilməyib. Tarix və coğrafiya fənlərindən bir sıra mövzular üzrə tapşırıqlar VI-IX sinif materialları əsasında hazırlanıb. Tapşırıqların digər bölmələr üzrə paylanmasında məktəb kursunda mövzuların əhəmiyyətlilik dərəcəsi, tədris prosesində bölmələrə ayrılan vaxt və ixtisas qruplarının peşə xüsusiyyətləri nəzərə alınıb.

Qəbul imtahanı modellərinə abituriyentlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması məqsədilə müxtəlif çətinlik dərəcəsinə malik, nəzəri biliklərin tətbiqi tələb olunan, məntiqi düşüncəyə əsaslanan, səbəb-nəticə əlaqələri üzərində qurulan tapşırıqlar daxil edilib. Tapşırıqlar qapalı (verilənlərdən bir doğru cavabın seçilməsi), cavabı kodlaşdırılan açıq (hesablama, seçim, uyğunluğu müəyyən etmək) və cavabı yazı ilə ifadə edilən açıq tipli olub. Cavabı yazı ilə ifadə edilən tapşırıqlar riyaziyyat, fizika, kimya, coğrafiya və biologiya fənləri üzrə situasiya, Azərbaycan dili (rus dili) və ədəbiyyat fənləri üzrə mətn, tarix fənni üzrə isə mənbə əsasında hazırlanıb.

Ümumi orta (9 illik) və tam orta (11 illik) təhsil səviyyələri üzrə buraxılış imtahanları üçün materiallar "Abituriyent" jurnalının xüsusi buraxılışlarında, qəbul imtahanı üçün materiallar isə "Abituriyent" jurnalının birinci sayında dərc olunub.

Yaranmış böhranlı şəraitdə imtahanlara hazırlaşanlara maksimum dəstək olmaq məqsədilə ilboyu lazımi metodik kömək göstərilib və silsilə tədbirlər həyata keçirilib.

Bütün imtahan fənləri üzrə təcrübəli ekspertlərin internet vasitəsilə qəbul proqramlarına aid video-məsləhətləri təşkil edilib. Həmçinin qəbul proqramlarının mövzularına dair 154 videomühazirə hazırlanıb və DİM-in **"*Youtube*"** kanalına yerləşdirilib. Videomühazirələrdə nəzəri materialla bərabər, mövzulara dair tapşırıqların izahları da verilib.

Qarabağ uğrunda Vətən müharibəsi (İkinci Qarabağ müharibəsi)" mövzusu ilə bağlı dərsliklərdə məlumat olmadığı üçün, hazırlanmış material internet saytında yerləşdirilib.

İmtahanlara hazırlaşanlar və tədris prosesində istifadə üçün 4–11-ci sinif dərsliklərinin hər bir tədris vahidi (8 800 tapşırıq), hər bir mövzusu (28 535 tapşırıq) üzrə onlayn sınaq variantları, eləcə də buraxılış və qəbul imtahanlarında tətbiq edilən tapşırıq modellərinə uyğun 4 (hər biri 1 variant olmaqla) onlayn sınaq variantları hazırlanıb və *otk.az.* portalına yerləşdirilib.

Qəbul imtahanlarında istifadə edilmiş tapşırıqlar müvafiq fənn kurikulumlarının təlim nəticələrinə uyğun hazırlanıb. Bu cür tapşırıqlara dair nümunələr DİM-in nəşrləri olan vəsaitlərdə və siniflər üzrə qiymətləndirmə tapşırıqları kitabçalarında kifayət qədər verilib.

Pandemiya ilə əlaqədar olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə birgə razılaşmalar əsasında tədrisdə meydana çıxan çətinliklər test tapşırıqlarının hazırlanmasında və imtahan prosesində nəzərə alınıb. Belə ki, tədris ilində keçilməyən mövzulardan test tapşırıqları tərtib edilməyib, habelə digər tapşırıqların da mürəkkəblik dərəcəsi müəyyən qədər nəzərə alınıb. Test bloklarına tədrisi dərs ilinin ikinci yarımilinə təsadüf edən mövzulara aid tapşırıqlar daxil edilməyib.

İmtahanlardan sonra ayrı-ayrı fənlər üzrə işçi qruplarında qəbul imtahanlarında istifadə olunmuş tapşırıqların hər biri imtahan nəticələrinin statistik göstəriciləri əsasında məzmun, qabiliyyət göstəriciləri, çətinlik dərəcəsi baxımından təhlil edilib və zəif cavablandırılmış tapşırıqlar müəyyənləşdirilib. Həmin tapşırıqların izahlarına dair metodik tövsiyələr hazırlanıb və "Abituriyent" jurnalının ikinci sayında dərc olunub.

Müvafiq fənn kurikulumlarının təlim nəticələri nəzərə alınmaqla 1-11-ci sinif dərslikləri əsasında 126 adda "Qiymətləndirmə tapşırıqları" kitabçaları (Azərbaycan və rus dillərində), "Kimya", "Biologiya", "Riyaziyyat", "Fizika", "Coğrafiya", "Tarix", "Ədəbiyyat", "Azərbaycan dili", "Rus dili", "Literatura", "İngilis dili", "Fransız dili", "Alman dili", "Rus dili (xarici dil kimi)", "Azərbaycan dili (dövlət dili)" vəsaitləri, "İngilis dili lüğəti", "Azərbaycan dilinin orfoqrafiya lüğəti" yenidən işlənib və təkmilləşdirilib.

Şagirdlər siniflər üzrə "Qiymətləndirmə tapşırıqları" kitabçalarında verilmiş materiallardan tapşırıqlarla işləmək bacarıqlarına yiyələnmək, müstəqil olaraq tədris prosesində mövzuları necə mənimsədiklərini yoxlamaq, müəllimlər məktəbdaxili (diaqnostik, formativ və summativ) qiymətləndirmə aparmaq üçün istifadə edə bilərlər. Valideynlər isə övladlarının fənn üzrə hazırlıq səviyyələrini yoxlaya bilərlər. Bu materiallarla buraxılış və qəbul imtahanlarına hazırlaşmaq da mümkündür. Qeyd etmək lazımdır ki, 9 və 11-ci siniflər üzrə kitabçaların sonunda buraxılış imtahanlarında istifadə edilmiş tapşırıq variantlarından biri və onun qiymətləndirmə meyarları da verilib.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi ilə ümumtəhsil məktəblərin 1, 2 və 6-cı sinifləri üçün təkmilləşdirilmiş, həmçinin 9-cu sinifləri üçün yeni hazırlanmış "Zəfər tarixi" dərs vəsaiti də daxil olmaqla 74 dərslik komplektinin (dərslik və müəllim üçün metodik vəsait) nəşrəqədərki layihələrinin (Azərbaycan və rus bölmələri üzrə birlikdə) elmi-metodiki monitorinqi və qiymətləndirilməsi aparılıb. Təhsil Nazirliyinin təsdiq etdiyi "Dərsliklərin qiymətləndirilməsi meyarları"na uyğun olaraq hər bir dərslik komplektinin layihəsi məzmun, dil və yazı üslubu, dizayn və bədii tərtibat,tapşırıqların məzmuna uyğunluğu, müəllim üçün metodik vəsaitin məzmunu baxımından təhlil edilərək qiymətləndirilib və hazırlanmış yekun rəylər Təhsil Nazirliyinə göndərilib.

Həmçinin respublikanın ümumtəhsil müəssisələrində 2020/2021-ci tədris ilində istifadədə olan 5-11-ci sinif dərsliklərinin elmi-metodiki monitorinqi də aparılıb. Monitorinq nəticəsində dərsliklərdəki mübahisəli məqamlar, məzmun uyğunsuzluqları, tərcümə qüsurları müəyyənləşdirilib və test bankının təkmilləşdirilməsində, imtahanlar üçün sual kitabçalarının formalaşdırılmasında xidməti istifadə üçün bütün fənlər üzrə metodiki tövsiyələr (19 tövsiyə) hazırlanıb. Tövsiyələr hazırlanarkən pandemiya ilə bağlı tətbiq edilən xüsusi karantin qaydalarının tədris prosesinə təsiri nəzərə alınıb və tədrisi ikinci yarımilə təsadüf edən mövzular proqramlardan çıxarılıb. Tövsiyələr kitabça şəklində nəşr edilərək müvafiq şöbələrə təqdim edilib.

Buraxılış və qəbul imtahanları üçün fənn kurikulumlarının təlim nəticələri əsasında qiymətləndirmə materiallarının hazırlanması, ekspertizası və yoxlanılması ilə bağlı Azərbaycan dili, rus dili, riyaziyyat, kimya, fizika, biologiya, tarix, coğrafiya və ingilis dili fənləri üzrə hazırlıq kurslarının fəaliyyəti davam edib. Bu müddət ərzində 2 dəfə: may və oktyabr aylarında kurslar keçirilib. Kurslarda Bakı, Naxçıvan, Gəncə, Göyçay, Lənkəran, Şirvan, Xaçmaz, Şəki və Bərdədən elektron qeydiyyatdan keçmiş müəllimlər, metodistlər, pedaqoji profilli ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin müvafiq fənn üzrə təhsil alan axırıncı kurs tələbələri və həmin müəssisələrdə təhsil alan magistrlər iştirak ediblər. onlayn – "Zoom" platforması üzərindən isə 16 hazırlıq kursu təşkil olunub. Kursu müvəffəqiyyətlə keçən 91 (may ayında 61 nəfər, oktyabr ayında 30 nəfər) nəfər sertifikat alıb. Onların şəxsi məlumatları "Elektron məlumat bazası"na daxil edilib.

Dövlət İmtahan Mərkəzi ilə Milli Qəhrəman Mübariz İbrahimov adına Bağça -Məktəb-Lisey Kompleksi arasında bağlanmış müqavilə əsasında Kompleksdə iyun və dekabr aylarında 4-11-ci siniflər üzrə keçirilmiş monitorinq imtahanları üçün (iyun ayı 1081 + dekabr ayı 1293) ümumilikdə: 2374 sayda tapşırıq hazırlanıb.

Dövlət İmtahan Mərkəzi ilə "LANDAU School" Ümumi Təhsil Müəssisəsi Qapalı Səhmdar Cəmiyyəti arasında bağlanmış müqavilə əsasında abituriyentlər, şagirdlər və müəllimlər üçün nəzərdə tutulmuş 18 adda vəsait hazırlanır. Artıq fizika və kimya fənlərindən (rus dilində) hazırlanmış vəsaitlər "LANDAU School" Ümumi Təhsil Müəssisəsinə təhvil verilmişdir. Digər vəsaitlər üzərində iş gedir.

Xüsusi qabiliyyət imtahanlarının təhlili

N.L.Əliyev, Z.M.Mustafayeva

Dövlət İmtahan Mərkəzi (DİM) 2021-ci ildə həm ali, həm də orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına (XQTİ) qəbul üçün qabiliyyət imtahanları keçirmişdir. İl ərzində həyata keçirilmiş fəaliyyətə xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul proqramlarının hazırlanması, müsabiqə şərtlərinin müəyyənləşdirilməsi, abituriyentlərə kömək məqsədilə "Xüsusi qabiliyyət imtahanları" jurnalının hazırlanması, istiqamətlər üzrə ekspertlər və müəllim-nəzarətçilərlə təlimat işlərinin aparılması daxildir. Bundan əlavə, yaradılmış xüsusi elektron sistem vasitəsilə respublika üzrə imtahan cədvəllərinin işlənməsi, regional bölmələr üzrə xüsusi qabiliyyət imtahanlarına hazırlıq işlərinin həyata keçirilməsi, Bakı, eləcə də respublikanın digər regionlarında xüsusi qabiliyyət imtahanlarının təşkil edilməsi, imtahan nəticələrinin analizi və əldə edilmiş statistikaya əsasən ilin yekunlarının elmi-metodiki təhlilinin həyata keçirilməsi də il ərzində görülən işlərə aiddir.

COVİD-19 pandemiyası ilə əlaqədar olaraq 2021/2022-ci tədris ili üçün keçirilən qabiliyyət imtahanlarında müvəqqəti şərtlər tətbiq edilmiş, XQTİ-lərin bəzilərinə keçirilmiş qabiliyyət imtahanları ləğv olunmuşdur.

Əksər komissiyalarda abituriyentlər bir qabiliyyət imtahanı fənni üzrə imtahan vermişdir. Xüsusi qabiliyyət imtahanları təsviri sənət, musiqi, memarlıq, teatr, kino və xoreoqrafiya sənəti, eləcə də bədən tərbiyəsi və idman istiqamətləri üzrə keçirilmişdir. Bundan əlavə, İslamşünaslıq ixtisasına qəbul üçün müsahibələr də keçirilmişdir.

Cari ildə "Xüsusi qabiliyyət imtahanları" jurnalının iki sayı çap olunub. Bu jurnalda xüsusi qabiliyyət tələb edən ixtisasların yığcam xarakteristikası, XQTİ-lər üzrə müsabiqə şərtləri, onların hansı ali təhsil müəssisələrində mövcud olması haqqında məlumatlar, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları dərc olunub. Həmin jurnalda imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, çalışmalar, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər, cədvəllər, normativlər, bir sözlə, xüsusi qabiliyyət tələb edən ixtisasları seçənlərin marağına uyğun olan, sorğularına aydınlıq gətirən, imtahana hazırlaşmalarına fayda verə bilən ən zəruri materiallar da əksini tapıb.

2021-ci ildə qabiliyyət imtahanları 16 iyun tarixindən 25 avqust tarixinədək Bakı, Naxçıvan, Gəncə, Şəmkir və Lənkəran şəhərlərində keçirilib. Komissiyalarda xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə mütəxəssis hazırlığını həyata keçirən ali təhsil müəssisələrindən və müxtəlif yaradıcılıq ittifaqlarından dəvət edilmiş ekspertlər təmsil olunub.

Abituriyentlərə 2 istiqamət üzrə ən çoxu 6 Qabiliyyət İmtahanı Komissiyası (QİK) üzrə qeydiyyatdan keçmək imkanı verilmişdi. Cari ildə **19314** abituriyent öz elektron ərizəsində yalnız V ixtisas qrupunu qeyd etmişdir ki, bunlardan **786**-sı subbakalavr idi. **4742** nəfər ümumi orta təhsil bazasından, **5217** nəfər tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinin XQTİ-lərinə qəbul üçün qeydiyyatdan keçmişdi. Ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul üçün 68, 69 və 70-ci proqramlar üzrə keçirilmiş qabiliyyət imtahanlarına **238** bakalavr qeydiyyatdan keçmişdi.

Dizayn və Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi komissiyaları üzrə qeydiyyatdan keçənlərin sayı digər komissiyalarla müqayisədə daha çoxdur. İmtahanlar xüsusi qabiliyyət tələb edən 21 ixtisas üzrə aparılmışdır. Bu ixtisaslar, əsasən, V ixtisas qrupuna aid olsa da, digər ixtisas qruplarına aid olanlar da vardır (III ixtisas qrupuna aid islamşünaslıq və jurnalistika, I ixtisas qrupuna aid memarlıq ixtisası). Xüsusi qabiliyyət tələb edən ixtisaslar 6 istiqamət üzrə qruplaşdırılmışdır:

1. Təsviri sənət
2. Musiqi sənəti
3. Memarlıq
4. Teatr, kino və xoreoqrafiya sənəti
5. Jurnalistika
6. Bədən tərbiyəsi və idman

Azərbaycan İlahiyyat İnstitutunun islamşünaslıq ixtisasına qəbul olmaq istəyən abituriyentlər DİM tərəfindən həmin institutda yaradılan dini-psixoloji komissiyada aparılan müsahibədə iştirak ediblər. Müsahibədən uğurla keçən abituriyentlər ixtisas seçimi zamanı digər ixtisaslarla yanaşı, Azərbaycan İlahiyyat İnstitutunun islamşünaslıq ixtisasını da seçmək imkanı qazanıb. Karantin rejiminin abituriyentlər

üçün yaratdığı əlavə çətinlikləri nəzərə alaraq Naxçıvanda yaşayan abituriyentlərin müsahibədə iştirakını təmin etmək məqsədilə onlar üçün onlayn müsahibə keçirilib.

2021/2022-ci tədris ili üçün ali təhsil müəssisələrinə keçirilmiş qəbul imtahanlarının istiqamətlər üzrə statistikası Cədvəl 1 və Cədvəl 4-də verilmişdir. Cədvəl 4-də Qabiliyyət imtahanı komissiyaları üzrə abituriyentlərin imtahan nəticələri faizlərlə göstərilmişdir. Müsabiqə şərtlərinə görə komissiyalar üzrə tələb olunan minimal nəticə 6 bal olmuşdur. Müəllimlik ixtisasları üzrə imtahan nəticələri məqbul və ya qeyri-məqbulla qiymətləndirilmişdir.

İstiqamətlər üzrə imtahan verən abituriyentlərin statistikası

Cədvəl 1

İstiqamətlər	Qeydiyyatdan keçən abituriyentlərin sayı	Məqbul qiymət alanların sayı
Təsviri sənət	5507	2206
Musiqi	1673	960
Memarlıq	214	166
Teatr, kino və xoreoqrafiya	1169	181
Bədən tərbiyəsi və idman	10643	4693
İlahiyyat	108	43

2021-ci il ali təhsil müəssisələrinə qəbulda cari ilin qəbul qaydalarına uyğun olaraq subbakalavrlara xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmaq üçün I mərhələdə iştirak etmədən II mərhələdə – qabiliyyət imtahanlarında iştirak imkanı verilmişdi. Bu imtahanlarda 786 subbakalavr iştirak edib.

Bununla yanaşı, ali təhsilin **magistratura səviyyəsinə** təsviri sənət, musiqi, teatr, kino və xoreoqrafiya sənətləri istiqamətləri üzrə qabiliyyət imtahanları keçirilib. Bakalavrlar 29 Qabiliyyət İmtahanı Komissiyası üzrə imtahanlarda iştirak ediblər. İmtahanlar Bakı şəhərində 4 binada təşkil olunub. 232 bakalavrın iştirak etdiyi xüsusi qabiliyyət imtahanlarında "məqbul" qiymət almış bakalavrlar ixtisaslaşma seçimində iştirak etmək hüququ qazanıb.

Orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq üçün abituriyentlər Bakıdan əlavə respublikanın 8 bölgəsində imtahan veriblər. İmtahanlar xüsusi qabiliyyət tələb edən ixtisasların xüsusiyyətlərinə uyğun olaraq 4 istiqamət üzrə keçirilib:

1. Təsviri sənət
2. Musiqi sənəti
3. Teatr, kino və xoreoqrafiya sənəti
4. Bədən tərbiyəsi və idman

İstiqamətlər üzrə imtahan verən abituriyentlərin statistikası

Cədvəl 2

İstiqamətlər	Qeydiyyatdan keçən abituriyentlərin sayı	Məqbul qiymət alanların sayı
Təsviri sənət	1380	444
Musiqi	462	203
Teatr, kino və xoreoqrafiya	163	22
Bədən tərbiyəsi və idman	3212	521

Qabiliyyət imtahanları qurtardıqdan sonra 2021/2022-ci tədris ili üçün qəbul imtahanlarının keçirilməsini təkmilləşdirmək, eləcə də imtahanların elmi-metodiki təhlilini aparmaq məqsədilə bütün istiqamətlər üzrə seminarlar keçirilmişdir. Seminarlarda növbəti ilin müsabiqə şərtləri, qəbul proqramları və yeni imtahanların məzmunu ilə bağlı müzakirələr aparılmış, qəbul edilmiş qərarlar ictimaiyyətə vaxtında çatdırılmışdır. Seminarlar oktyabr ayından növbəti ilin yanvar ayına qədər davam etmişdir.

Abituriyentlərin yaradıcılıq qabiliyyətinin qiymətləndirilməsində şəffaflığın təmin edilməsi məqsədilə xüsusi qabiliyyət imtahanlarında ekspert kimi iştirak edən ali və orta ixtisas təhsili müəssisələrinin pedaqoji heyətinin vahid reyestri – QABİS-in təkmilləşdirilməsi davam etmişdir.

Karantin rejiminin abituriyentlər üçün yaratdığı əlavə çətinlikləri nəzərə alaraq Naxçıvanda yaşayan abituriyentlərin(subbakalavrların) bütün qabiliyyət imtahanları onlayn keçirilmiş, Bakıda təşkil edilmiş QİK qiymətləndirməni həyata keçirmişdir.

Ümumi orta təhsil bazasında istiqamətlər üzrə imtahan verən abituriyentlərin statistikası

Cədvəl 3

İstiqamətlər	Qeydiyyatdan keçən abituriyentlərin sayı	Məqbul qiymət alanların sayı
Təsviri sənət	881	430
Musiqi	1235	846
Teatr, kino və xoreoqrafiya	170	62
Bədən tərbiyəsi və idman	2456	963

2021/2022-ci tədris ili üçün ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul üçün keçirilmiş imtahanların nəticələri

(Qabiliyyət imtahanı komissiyaları üzrə)

Cədvəl 4

Komis-siya kodu	Komissiyanın adı	Müsabiqə şərti		Qeydiy-yatdan keçib	Məqbul alıb	Qiymətlər					
		Qabiliyyət imtahanının qiyməti	Test balı			10	9	8	7	6	5
** 10	Rəngkarlıq	6	60	181	59	1 (0.6%)	9 (5.0%)	22 (12.2%)	17 (9.4%)	10 (5.5%)	2 (1.1%)
** 11	Qrafika	6	60	277	83	1 (0.4%)	10 (3.6%)	16 (5.8%)	35 (12.6%)	21 (7.6%)	5 (1.8%)
** 12	Heykəltəraşlıq	6	60	84	11	0 (0.0%)	1 (1.2%)	3 (3.6%)	6 (7.1%)	1 (1.2%)	0 (0.0%)
* 13	Təsviri incəsənət müəllimliyi	6	60	1006	555	25 (2.5%)	70 (7.0%)	94 (9.3%)	133 (13.2%)	233 (23.2%)	23 (2.3%)
** 14	Dizayn	6	60	2035	596	35 (1.7%)	108 (5.3%)	131 (6.4%)	127 (6.2%)	195 (9.6%)	70 (3.4%)
** 15	Dekorativ sənət	6	60	617	430	12 (1.9%)	51 (8.3%)	145 (23.5%)	146 (23.7%)	76 (12.3%)	4 (0.6%)
** 20	Fortepiano, orqan, klavesin (BMA)	6	60	101	78	8 (7.9%)	18 (17.8%)	26 (25.7%)	16 (15.8%)	10 (9.9%)	4 (4.0%)
** 21	Orkestr alətləri (BMA)	6	60	54	49	28 (51.9%)	11 (20.4%)	6 (11.1%)	3 (5.6%)	1 (1.9%)	2 (3.7%)
** 22	Xalq çalğı alətləri (AMK)	6	60	93	83	39 (41.9%)	23 (24.7%)	9 (9.7%)	9 (9.7%)	3 (3.2%)	0 (0.0%)
** 23	Xalq çalğı alətləri	6	60	140	104	52 (37.1%)	22 (15.7%)	14 (10.0%)	8 (5.7%)	8 (5.7%)	0 (0.0%)
** 24	Akademik vokal(BMA)	6	60	19	9	3 (15.8%)	3 (15.8%)	1 (5.3%)	1 (5.3%)	1 (5.3%)	0 (0.0%)
** 25	Xanəndəlik	6	60	129	85	11 (8.5%)	27 (20.9%)	23 (17.8%)	17 (13.2%)	7 (5.4%)	1 (0.8%)
** 26	Populyar musiqi və caz ifaçılığı	6	60	56	29	2 (3.6%)	6 (10.7%)	11 (19.6%)	3 (5.4%)	7 (12.5%)	3 (5.4%)
** 27	Dirijorluq	6	60	16	10	6 (37.5%)	2 (12.5%)	1 (6.3%)	1 (6.3%)	0 (0.0%)	0 (0.0%)
** 28	Milli vokal	6	60	53	18	0 (0.0%)	4 (7.5%)	3 (5.7%)	4 (7.5%)	7 (13.2%)	1 (1.9%)
** 29	Bəstəkarlıq	6	60	3	1	1 (33.3%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)
** 30	Musiqişünaslıq	6	60	70	39	0 (0.0%)	3 (4.3%)	11 (15.7%)	15 (21.4%)	10 (14.3%)	0 (0.0%)
** 31	İnstrumental ifa	6	60	255	119	19 (7.5%)	36 (14.1%)	28 (11.0%)	11 (4.3%)	25 (9.8%)	4 (1.6%)
* 32	Musiqi müəllimliyi	6	60	265	173	30 (11.3%)	41 (15.5%)	28 (10.6%)	28 (10.6%)	46 (17.4%)	1 (0.4%)
** 36	Populyar musiqi və caz ifaçılığı	6	60	24	7	1 (4.2%)	3 (12.5%)	2 (8.3%)	1 (4.2%)	0 (0.0%)	0 (0.0%)
* 40	Memarlıq	6	200	211	164	24 (11.4%)	37 (17.5%)	55 (26.1%)	34 (16.1%)	14 (6.6%)	0 (0.0%)
** 50	Aktyor sənəti	6	60	341	71	5 (1.5%)	8 (2.3%)	22 (6.5%)	15 (4.4%)	21 (6.2%)	6 (1.8%)
** 51	Rejissorluq	6	60	264	30	0 (0.0%)	2 (0.8%)	5 (1.9%)	6 (2.3%)	17 (6.4%)	5 (1.9%)

Cədvəl 4 (ardı)

Komissiya kodu	Komissiyanın adı	Müsabiqə şərti		Qeydiyyatdan keçib	Məqbul alıb	Qiymətlər					
		Qabiliyyət imtahanının qiyməti	Test balı			10	9	8	7	6	5
** 52	Operator sənəti	6	60	111	7	1 (0.9%)	2 (1.8%)	1 (0.9%)	3 (2.7%)	0 (0.0%)	0 (0.0%)
** 53	Xoreoqrafiya	6	30	429	67	13 (3.0%)	12 (2.8%)	13 (3.0%)	11 (2.6%)	18 (4.2%)	6 (1.4%)
* 61	Məşqçilik	6	75	3295	1898	53 (1.6%)	157 (4.8%)	473 (14.4%)	730 (22.2%)	485 (14.7%)	0 (0.0%)
* 62	Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı müəllimliyi	6	75	3749	1944	382 (10.2%)	624 (16.6%)	423 (11.3%)	351 (9.4%)	164 (4.4%)	0 (0.0%)
** 67	Rəngkarlıq (NDU)	6	60	100	19	0 (0.0%)	1 (1.0%)	0 (0.0%)	10 (10.0%)	8 (8.0%)	3 (3.0%)
** 69	Bəstəkarlıq (NDU)	6	60	16	4	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	1 (6.3%)	3 (18.8%)	0 (0.0%)
* 70	Təsviri incəsənət müəllimliyi (NMİ)	6	60	233	84	5 (2.1%)	4 (1.7%)	17 (7.3%)	17 (7.3%)	41 (17.6%)	5 (2.1%)
** 71	Fortepiano (NDU)	6	60	32	9	0 (0.0%)	1 (3.1%)	1 (3.1%)	3 (9.4%)	4 (12.5%)	0 (0.0%)
** 72	Orkestr alətləri (NDU)	6	60	6	2	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	1 (16.7%)	1 (16.7%)	0 (0.0%)
** 73	Musiqişünaslıq (NDU)	6	60	55	9	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	1 (1.8%)	8 (14.5%)	0 (0.0%)
** 74	Xalq çalğı alətləri (NDU)	6	60	40	19	6 (15.0%)	2 (5.0%)	3 (7.5%)	6 (15.0%)	2 (5.0%)	1 (2.5%)
** 75	Dirijorluq (NDU)	6	60	14	7	1 (7.1%)	3 (21.4%)	1 (7.1%)	1 (7.1%)	1 (7.1%)	0 (0.0%)
* 76	Musiqi müəllimliyi (NDU)	6	60	42	17	1 (2.4%)	1 (2.4%)	3 (7.1%)	4 (9.5%)	8 (19.0%)	1 (2.4%)
* 77	Memarlıq (NDU)	6	200	3	2	0 (0.0%)	0 (0.0%)	1 (33.3%)	0 (0.0%)	1 (33.3%)	0 (0.0%)
* 78	Məşqçilik (NDU)	6	60	401	106	2 (0.5%)	6 (1.5%)	19 (4.7%)	36 (9.0%)	43 (10.7%)	0 (0.0%)
* 79	Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı müəllimliyi (NDU)	6	60	387	120	4 (1.0%)	12 (3.1%)	34 (8.8%)	39 (10.1%)	31 (8.0%)	0 (0.0%)
** 80	Aktyor sənəti (NDU)	6	60	24	6	0 (0.0%)	0 (0.0%)	1 (4.2%)	3 (12.5%)	2 (8.3%)	0 (0.0%)
* 81	Təsviri incəsənət müəllimliyi (GDU)	6	60	506	200	7 (1.4%)	3 (0.6%)	16 (3.2%)	42 (8.3%)	132 (26.1%)	4 (0.8%)
* 83	Musiqi müəllimliyi (GDU)	6	60	138	64	10 (7.2%)	9 (6.5%)	8 (5.8%)	15 (10.9%)	22 (15.9%)	6 (4.3%)
* 84	Məşqçilik (GDU)	6	60	909	167	7 (0.8%)	17 (1.9%)	31 (3.4%)	81 (8.9%)	31 (3.4%)	0 (0.0%)
* 85	Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı müəllimliyi (GDU)	6	60	1902	458	42 (2.2%)	39 (2.1%)	112 (5.9%)	194 (10.2%)	71 (3.7%)	0 (0.0%)
** 87	Dizayn (ATU)	6	60	388	130	4 (1.0%)	4 (1.0%)	19 (4.9%)	28 (7.2%)	75 (19.3%)	2 (0.5%)
* 89	Təsviri incəsənət müəllimliyi (LDU)	6	60	80	39	1 (1.3%)	4 (5.0%)	5 (6.3%)	8 (10.0%)	21 (26.3%)	0 (0.0%)
* 90	Dini Psixoloji Komissiya	6	150	108	43	4 (3.7%)	5 (4.6%)	10 (9.3%)	10 (9.3%)	14 (13.0%)	6 (5.6%)
* 93	Musiqi müəllimliyi (LDU)	6	60	25	17	0 (0.0%)	2 (8.0%)	4 (16.0%)	4 (16.0%)	7 (28.0%)	0 (0.0%)
** 95	Xanəndəlik(NDU)	6	60	6	1	0 (0.0%)	0 (0.0%)	1 (16.7%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)
** 96	Milli vokal(NDU)	6	60	21	7	1 (4.8%)	0 (0.0%)	1 (4.8%)	2 (9.5%)	3 (14.3%)	0 (0.0%)

DİM-in vətəndaşlara göstərdiyi elektron xidmətlər

M.M.Abbaszadə, Ç.C.Xəlilov

DİM-də informasiya-kommunikasiya texnologiyalarının (İKT) kütləvi proseslərə tətbiqi istiqamətində işlər 2021-ci ildə də intensiv şəkildə davam etdirilmişdir. İKT istər ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrinə, istər rezidenturaya, istər orta ixtisas təhsili pilləsinə qəbul prosesinin, ümumi təhsil müəssisələri şagirdlərinin buraxılış imtahanlarının, istərsə də dövlət qulluğuna işə qəbulun bütün mərhələlərində tətbiq edilmişdir. Bununla da yüz minlərlə vətəndaşa elektron xidmət göstərilmişdir. Belə ki, 2021-ci ildə DİM tərəfindən göstərilən elektron xidmətlərdən 8 milyon 950 mindən artıq istifadə qeydə alınmışdır.

DİM tərəfindən 2021-ci ildə göstərilən elektron xidmətlərin təsnifatı:

№	Elektron xidmətin adı	Xidmətdən istifadələrin sayı				
		I rüb	II rüb	III rüb	IV rüb	Cəmi
1	Namizədlərin (abituriyentlərin, bakalavrların, namizədlərin (rezidenturaya sənəd verənlər) ərizələrinin onlayn qəbulu	26133	245040	15786	3948	**290907**
2	Namizədlərə imtahana buraxılış vərəqələrinin internet vasitəsilə verilməsi	59590	1483190	327638	28529	**1898947**
3	Namizədlərin elektron ixtisas seçimi ərizələrinin onlayn qəbulu	0	11565	112160	6016	**129741**
4	Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi	150986	1662977	1545489	99395	**3458847**
5	Namizədlərə onların cavab kartlarının qrafik təsvirlərinin internet vasitəsilə verilməsi	31273	626561	212408	10668	**880910**
6	Bakalavrların bakalavr pilləsinə qəbul olmaq üçün təqdim etdikləri ərizələrin iş nömrələrinin axtarışı	37137	8527	3962	3008	**52634**
7	Sınaq imtahanına yazılış	80	0	0	5443	**5523**
8	Onlayn sınaq imtahanının keçirilməsi	0	0	0	0	**0**
9	İnternetdə video–mühazirələr	676000	330500	206800	489400	**1702700**
10	DİM-in virtual ödəmə kartlarının onlayn və qısa mesaj (SMS) vasitəsilə satışı	0	0	0	0	**0**
11	DİM nəşrlərinin və onların elektron versiyalarının onlayn satışı	1047	1601	3433	1133	**7214**
12	DİM-in yenilikləri barədə SMS məlumatlandırma	0	0	0	0	**0**
13	Vətəndaşların DİM rəhbərliyinin və məsul işçilərinin qəbuluna onlayn yazılması	0	0	0	0	**0**
14	Ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə biliyinin yekun qiymətləndirilməsi (attestasiyası) aparılan təhsilalanların DİM-in "Şagird-məzun sistemi"ndə özləri haqqında məlumatları internet vasitəsilə yoxlaması	5420	211975	13329	2754	**233478**

№	Elektron xidmətin adı	Xidmətdən istifadələrin sayı				
		I rüb	II rüb	III rüb	IV rüb	Cəmi
15	Müsabiqə və müsahibə nəticələri barədə məlumatların verilməsi					
16	Dövlət qulluqçularının Reyestrindən məlumatların verilməsi					**290111**
17	Dövlət qulluqçularının etik davranış qaydalarına riayət etməsi barədə müraciətlərin qəbulu					
18	Dövlət qulluğu stajı kalkulyatoru					**78**
	Cəmi	**987666**	**4581936**	**2441005**	**650294**	**8951090**

DİM-in 2021-ci ildə keçirdiyi imtahanlarda 454504 nəfər iştirak etmişdir.

Dövlət İmtahan Mərkəzi tərəfindən 2021-ci ildə keçirilən imtahanlarda iştirakçı sayları barədə məlumat

Ümumi təhsilin ümumi və tam orta təhsil səviyyələri üzrə imtahanlar	**Cəm**
Ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları	133389
Tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları	90497
Buraxılış imtahanları çərçivəsində Azərbaycan dili (dövlət dili kimi) imtahanı	18567
Cəmi:	**242453**

Azərbaycan Respublikasının ali və orta ixtisas təhsil müəssisələrinə qəbul	**Cəm**
Ali təhsilin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul	71403
o cümlədən :	
“Hərbi hakim işi” ixtisasına qəbul	
H.Əliyev adına Ali Hərbi Məktəbə qəbul	
DİN-nin Polis Akademiyasına qəbul	
DİN-nin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul	
Dövlət Təhlükəsizliyi Xidmətinin Akademiyasına qəbul	
Dövlət Sərhəd Xidməti Akademiyasına qəbul	
Fövqaladə Hallar Nazirliyinin Akademiyasına qəbul	
Dövlət Gömrük Komitəsinin Akademiyasına qəbul	
Bakalavriat səviyyəsi üzrə jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı	760
Ali təhsilin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün ana dili və xarici dil üzrə fərq imtahanları (cari ilin məzunları üçün)	1929
Qəbul imtahanları çərçivəsində Azərbaycan dili (dövlət dili kimi) imtahanı	3192
Ali təhsilin bakalavriat səviyyəsinə V qrup üzrə və tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul (əvvəlki illərin məzunları üçün)	20826

Azərbaycan Respublikasının ali və orta ixtisas təhsil müəssisələrinə qəbul	**Cəm**
Ali təhsilin bakalavriat səviyyəsinin və tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı	24531
Ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul (əvvəlki illərin məzunları üçün)	8422
Ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün ana dili və xarici dil üzrə fərq imtahanları (cari ilin məzunları üçün)	105
Ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı	4742
Ali təhsilin magistratura səviyyəsinə qəbul	34578
Ali təhsilin magistratura səviyyəsinin xüsusi qabiliyyət tələb edən ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar üçün qabiliyyət imtahanı	232
Magistratura səviyyəsi üzrə jurnalistika ixtisasına qəbul olmaq istəyən bakalavrlar üçün qabiliyyət imtahan	27
Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasına magistraturaya qəbul imtahanı	104
Ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsi üzrə sınaq imtahanları	3871
Ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsi üzrə coğrafiya fənnindən sınaq imtahanı	13
Azərbaycan dili (dövlət dili kimi) üzrə sınaq imtahanı	1070
Magistratura səviyyəsi üzrə sınaq imtahanı	290
Cəmi:	**176095**

Baza ali tibb təhsili əsasında rezidenturaya qəbul	**Cəm**
Baza ali tibb təhsili əsasında rezidenturaya qəbul	3518
Cəmi:	**3518**

Doktoranturaya qəbul	**Cəm**
Doktoranturaya qəbul ilə bağlı xarici dillər, habelə əcnəbilərin Azərbaycan dili imtahanları	2820
Doktorantura, dissertantura və adyunkturada təhsil alan və ya təhsilini bitirmiş iddiaçıların xarici dillər, habelə əcnəbilərin Azərbaycan dili imtahanları	322
Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasına adyunkturaya qəbul ilə bağlı xarici dil imtahanı	22
TƏBİB- in tabeliyində olan elmi-tədqiqat institutları və mərkəzlərə doktoranturaya qəbul ilə bağlı xarici dil imtahanı	21
Cəmi:	**3185**

Hərbi təhsil müəssisələrinə qəbul	**Cəm**
Hərbi liseylərə qəbul	1911
Dövlət Sərhəd Xidmətinin xüsusi məktəbinə qəbul	3074
Cəmi:	**4985**

Dövlət qulluğuna və dövlət orqanlarına işə qəbul	**Cəm**
Dövlət qulluğuna işə qəbul	12107
Dövlət qulluğuna işə qəbul (elektron imtahan)	297
Dövlət vergi orqanlarına işə qəbul	1692
Prokurorluq orqanlarına işə qəbul (elektron imtahan)	818
Ədliyyə orqanlarına işə qəbul (elektron imtahan)	366
Xarici İşlər Nazirliyində diplomatik xidmətə qəbul olmaq istəyən namizədlər üçün sınaq imtahanı	199
Hakimlərin seçimi üzrə test imtahanı (elektron imtahan)	557
Vəkillər Kollegiyasına üzv olmaq istəyən namizədlər üçün imtahan (elektron imtahan)	561
Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı almaq istəyən namizədlər üçün test imtahanı (elektron imtahan)	104
Peşəkar mühasib sertifikatı almaq istəyən namizədlər üçün sınaq imtahanı	80
Peşəkar mühasib sertifikatı almaq istəyən namizədlər üçün test imtahanının I mərhələsi	613
Peşəkar mühasib sertifikatı almaq istəyən namizədlər üçün test imtahanının II mərhələsi	545
Notariat fəaliyyəti ilə məşğul olmaq məqsədilə şəhadətnamə almaq istəyən namizədlər üçün test imtahanı (elektron imtahan)	60
Hərbi Lisey müəllimləri üçün attestasiya imtahanı (elektron imtahan)	118
Dövlət Sosial Müdafiə Fonduna işə qəbul	1777
Cəmi:	**19894**

Beynəlxalq imtahanlar	**Cəm**
SAT imtahanı	420
TOEFL iBT imtahanı	434
GRE imtahanı	71
Person VUE ixtisaslaşma imtahanları	60
ACCA imtahanı	11
Akademik ingilis dili imtahanı (PTE Academic)	4
Beynəlxalq rus dili imtahanı (ТРКИ)	16
ICDL imtahanı	5
Cambridge TKT	6
Cəmi:	**1027**

Digər imtahanlar	**Cəm**
Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Bağça-Məktəb-Lisey Kompleksinin V-XI sinif şagirdlərinin qiymətləndirilməsi imtahanı	1550
"SABAH" qruplarına qəbul imtahanının 2- ci mərhələsi	1691
"SOCAR Midstream Operations" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən maliyyələşdirilən Massaçusets Texnologiya İnstitutu (MİT) "Data, iqtisadiyyat və inkişaf siyasəti" mikromaster proqramında iştirak etmək üçün test imtahanı (elektron imtahan)	106
Cəmi:	**3347**
Ümumi cəm:	**454504**

DİM-də aparılan elmi-metodiki işlər və fənn seminarları haqqında statistik məlumatlar

1992–2021-ci illərdə DİM-də (TQDK-da) APARILMIŞ ELMİ-METODİKİ İŞLƏR

ÜMUMİ TƏHSİL ÜZRƏ YOXLAMA-ÖLÇMƏ MATERİALLARININ HAZIRLANMASI ÜZRƏ

	1992	1993	1994	1995-1997	1998	1999-2000	2001-2003	2004-2009	2010-2020	2021
FƏNN KURİKULUMLARI ÜZRƏ QƏBUL PROQRAMLARI										
METODİKİ VƏSAİTLƏR										
QİYMƏTLƏNDİRMƏ TAPŞIRIQLARI										
TEST TAPŞIRIĞI TOPLULARI										
STATİSTİK TƏDQİQATLAR										
TELEVİZİYA VERİLİŞLƏRİ										
SINAQ İMTAHANLARI										
PSİXOLOJİ KÖMƏK VƏ PEŞƏYÖNÜMÜ İŞİ										
İNTERNET VASİTƏSİLƏ İNFORMASİYA MÜBADİLƏSİ XİDMƏTİ										
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN VƏSAİTLƏR										
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN ELEKTRON VƏSAİTLƏR										
TƏCRÜBƏLİ EKSPERTLƏRİN FƏNLƏR ÜZRƏ VİDEO-MÜHAZİRƏLƏRİ										

ALİ TƏHSİL ÜZRƏ YOXLAMA-ÖLÇMƏ MATERİALLARININ HAZIRLANMASI (MAGİSTRATURA) ÜZRƏ

	2005-2006	2007-2008	2009	2010	2011	2012	2013	2014	2015-2021
QƏBUL PROQRAMLARI									
MODEL TESTLƏR									
TEST TAPŞIRIQLARININ ELMİ-METODİKİ İZAHI VƏ TÖVSİYƏLƏR									
MƏNTİQ TESTLƏRİ									
İNFORMATİKA ÜZRƏ VƏSAİT									
SINAQ İMTAHANLARI									
ONLAYN SINAQ İMTAHANLARI									

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ ÜZRƏ (REZİDENTURA)

	2011	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020	2021
QƏBUL PROQRAMLARI											
MODEL TESTLƏR											
TEST TAPŞIRIQLARININ ELMİ-METODİKİ İZAHI VƏ TÖVSİYƏLƏR											
SINAQ İMTAHANLARI											
ONLİNE SINAQ İMTAHANLARI											
BAZA FƏNLƏRİ ÜZRƏ TEST TOPLUSU (rezidenturaya hazırlaşanlar üçün vəsait)											
Сборник тестов по базовым дисциплинам (пособие для готовящихся в резидентуру)											
BAZA FƏNLƏRİ ÜZRƏ TEST TAPŞIRIĞI NÜMUNƏLƏRİ VƏ ONLARIN İZAHI (rezidenturaya hazırlaşanlar üçün vəsait) azərbaycan və rus dillərində											
İXTİSAS FƏNLƏRİ ÜZRƏ TEST TOPLUSU (rezidenturaya hazırlaşanlar üçün vəsait)											
İNSAN ANATOMİYASI (rezidenturaya hazırlaşanlar ucun vəsait)											
BİOLOJİ KİMYA (rezidenturaya hazırlaşanlar ucun vəsait)											
TERAPEVTİK STOMATOLOGİYA (rezidenturaya hazırlaşanlar ucun vəsait)											
Терапевтическая стоматология (пособие для поступающих в резидентуру, электронная версия)											
PATOLOJİ FİZİOLOGİYA (dərs vəsaiti)											
НОРМАЛЬНАЯ ФИЗИОЛОГИЯ (пособие для поступающих в резидентуру)											
БИОЛОГИЧЕСКАЯ ХИМИЯ (пособие для поступающих в резидентуру)											
АНАТОМИЯ ЧЕЛОВЕКА (пособие для поступающих в резидентуру)											
ПАТОЛОГИЧЕСКАЯ ФИЗИОЛОГИЯ (пособие для поступающих в резидентуру)											
ГИСТОЛОГИЯ (пособие для поступающих в резидентуру)											
Фармакология (пособие для поступающих в резидентуру, электронная версия)											
ПАТОЛОГИЧЕСКАЯ АНАТОМИЯ (пособие для поступающих в резидентуру, электронная версия)											
Медицинская микробиология и иммунология (пособие для поступающих в резидентуру, электронная версия)											

DƏRSLİK VƏ DƏRS VƏSAİTLƏRİNİN ELMİ-METODİKİ MONİTORİNQİ ÜZRƏ

	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020	2021
I-XI SİNİFLƏR ÜZRƏ DƏRSLİK VƏ DƏRS VƏSAİTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ										
DƏRSLİK PORTALI										
DİM-nin NƏŞRLƏRİNİN ELMİ-METODİKİ MONİTORİNQİ										

ELMİ-METODİKİ SEMİNARLARIN İŞTİRAKÇILARININ SAY TƏRKİBİ

ÜMUMİ TƏHSİL ÜZRƏ YOXLAMA-ÖLÇMƏ MATERİALLARININ HAZIRLANMASI ÜZRƏ

№	FƏNNİN ADI	Ümumi say tərkibi	Onlardan		
			professorlar	dosentlər	məktəb müəllimləri
1	Azərbaycan dili və ədəbiyyatı	238	7	15	216
2	Azərbaycan dili (rus bölməsi üçün)	46	1	5	40
3	Rus dili və ədəbiyyatı	108	2	9	97
4	Rus dili (Azərbaycan bölməsi üçün)	67	1	3	63
5	Riyaziyyat	302	4	25	273
6	Fizika	247	7	35	205
7	Kimya	205	6	23	176
8	Biologiya	185	3	19	163
9	Tarix	233	4	21	208
10	Coğrafiya	187	5	17	165
11	İngilis dili	184	0	6	178
12	Qərb dilləri (alman, fransız)	75	2	4	69
13	Şərq dilləri (ərəb, fars)	52	3	2	47
	Cəmi	*2129*	*45*	*184*	*1900*

ALİ TƏHSİL ÜZRƏ YOXLAMA-ÖLÇMƏ MATERİALLARININ HAZIRLANMASI: MAGİSTRATURA ÜZRƏ

№	FƏNNİN ADI	Ümumi say tərkibi	Onlardan		
			Professorlar, elmlər doctorları	Dosentlər, fəlsəfə doktorları	Ali təhsil müəssisələrinin müəllimləri, elmi mərkəzlərin mütəxəssisləri, doktorant və dissertantlar
1	Psixometriya (məntiq)	12	1	4	7
2	İnformatika	16	2	4	10
3	Xarici dillər	46	6	18	22

REZİDENTURA ÜZRƏ*

№	Rezidentura üzrə	Ümumi say tərkibi	Onlardan				
			professor	dosent	baş müəllim	assistent	həkim
1	Baza fənləri	56	8	31	6	11	-
2	İxtisas fənləri:						
	Müalicə işi, Pediatriya istiqaməti	61	3	39	7	7	5
	Stomatologiya istiqaməti	26	4	9	3	8	2
	Tibbi profilaktika istiqaməti	21	2	12	5	3	-

* Cədvəldə seminarlarda iştirak etmək hüququ olanların ümumi sayı verilmişdir. Pandemiya ilə əlaqədar olaraq seminarlar əsasən onlayn qaydada aparılmışdır.

DƏRSLİK VƏ DƏRS VƏSAİTLƏRİNİN ELMİ-METODİKİ MONİTORİNQİ ÜZRƏ

№	Seminarın adı	Ümumi say tərkibi		
		Bakı və Sumqayıt şəhərləri üzrə	Regionlar üzrə	Cəmi
1.	Azərbaycan dili və ədəbiyyatı	260	232	492
2.	Azərbaycan dili (rus bölməsi üçün)	46	0	46
3.	Rus dili və ədəbiyyatı	108	34	142
4.	Rus dili (Azərbaycan bölməsi üçün)	67	31	98
5.	Riyaziyyat	302	225	527
6.	Fizika	247	175	422
7.	Kimya	207	167	374
8.	Biologiya	185	156	341
9.	Tarix	233	163	396
10.	Coğrafiya	187	153	340
11.	İngilis dili	180	83	263
12.	Qərb dilləri (alman, fransız)	75	40	115
13.	Şərq dilləri (ərəb, fars)	52	0	52
14.	İbtidai siniflər	1541	158	1699

Qeyd: COVİD -19 pandemiyası ilə bağlı ciddi karantin qaydaları nəzərə alınaraq , 2020-2021- ci illərdə elmi-metodiki seminarlar müvafiq fənlər üzrə işçi qrupları kimi fəaliyyət göstərib.

DİM-in beynəlxalq əməkdaşlıq və strateji inkişaf layihələrinin həyata keçirilməsi üzrə fəaliyyəti

Vəli Hüseyn, Vəfa Ələkbərova, Səbinə Hüseynova

DİM dövlət qulluğu, təhsilin qiymətləndirilməsi və tələbə qəbulu sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, Azərbaycan dövlət qulluğu modelinin və təhsilin qiymətləndirilməsi sahəsində Azərbaycan təcrübəsinin təbliği məsələsinə xüsusi önəm verir. Bu məqsədlə 2021-ci ildə "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Nizamnaməsi"nə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Prezidentinin fərmanların sərəncamlarını rəhbər tutaraq təhsilin qiymətləndirilməsi, tələbə qəbulu, dövlət qulluğu məsələləri üzrə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq, konfrans, seminar və digər tədbirlərin təşkili, beynəlxalq imtahanların Azərbaycan Respublikasında keçirilməsinin təmin edilməsi, dövlət qulluğunun inkişafına yönəlmiş dövlət və beynəlxalq proqramların həyata keçirilməsi istiqamətində tədbirlər reallaşdırılmışdır.

Qiymətləndirmə sahəsində əməkdaşlıq:

1. 27 aprel tarixində DİM və Pearson VUE təşkilatının birgə təşkilatçılığı ilə **"PTE Academic ilə tanışlıq" adlı onlayn seminar** keçirilmişdir. Tədbirə ingilis dilini tədris edən müəllimlər və ingilis dilini öyrənmək, dil bacarıqlarını qiymətləndirmək istəyən 40 iştirakçı qoşulmuşdur.
2. 20 may tarixində DİM-in nümayəndəsi Azərbaycan Respublikasının Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə **Birgə Hökumətlərarası Komissiyanın** 4-cü iclasında iştirak etmişdir. İclasın protokol sənədində DİM və Birləşmiş Krallığın müvafiq dövlət qurumları arasında aşağıda qeyd olunan istiqamətlər üzrə əməkdaşlığın təşkil edilməsi qərara alınmışdır:

   Təhsildə qiymətləndirmə sahəsi üzrə:

   - Qarşılıqlı təcrübə mübadiləsi çərçivəsində DİM-in qiymətləndirmə alətlərinin keyfiyyət standartlarının yüksəldilməsi;
   - Birləşmiş Krallığın imtahanların məsafədən idarə olunması və imtahanlarda rəqəmsallaşmanın tətbiqinə dair təcrübəsinin öyrənilməsi;
   - Qiymətləndirmə alətlərinin hazırlanması və imtahanların təşkili üzrə qayda və təlimatların tərtibi istiqamətində təcrübə mübadiləsi.

   İqtisadi sahə üzrə:

   - İqtisadi göstəricilərin yaxşılaşdırılması, xərclərin azaldılması, risklərin idarə edilməsi, onların azaldılması, beynəlxalq ticarətin artırılması, innovasiyaların tətbiqinin sürətləndirilməsi, dayanıqlılığın, keyfiyyətin artırılması, sərmayədarlara qarşı inamın yaradılması məqsədilə beynəlxalq standartlar və kvalifikasiyalardan bir alət kimi istifadə edilməsinin yollarının müzakirə edilməsi.
3. 24 may tarixində DİM və ETS Global təşkilatı birgə "TOEFL iBT® & Home Edition" imtahanları ilə tanışlıq məqsədini daşıyan **"TOEFL iBT and TOEFL iBT Home Edition: Insights you need" adlı vebinar** təşkil edilmişdir. Tədbirə ingilis dilini tədris edən müəllimlər və ingilis dilini öyrənmək, dil bacarıqlarını qiymətləndirmək istəyən 28 nəfər qoşulmuşdur.
4. 31 may tarixində DİM ETS Global təşkilatı ilə əməkdaşlıq çərçivəsində "GRE General Test" imtahanları ilə tanışlıq məqsədini daşıyan **"GRE General Test: Insights You Need"** adlı vebinar təşkil etmişdir. Tədbirdə 53 nəfər iştirak etmişdir.
5. 22 iyun tarixində DİM **ETS Global və EducationUSA ilə birgə** TOEFL iBT və GRE General Test imtahanları barədə məlumat sessiyası keçirmişdir. Tədbirdə 57 nəfər iştirak etmişdir.
6. 25 iyun tarixində DİM "Cambridge Assessment English" qurumu ilə birgə TKT imtahanına dair **"Prove Your Teaching Knowledge with TKT"** adlı onlayn məlumat sessiyası keçirmişdir. Tədbirdə 57 nəfər iştirak etmişdir.

7. 30 iyun tarixində Birləşmiş Krallığın Daxili İşlər Nazirliyi (**UK Home Office**) DİM tərəfindən PTE Academic (PTE A), PTE A UKVI və PTE Home imtahanlarının keçirilməsinə dair bütün qaydalara riayət edilməsini, həmçinin keyfiyyətin və təhlükəsizliyin təmin edilməsini audit etmişdir. DİM auditdən keçərək yekun rəy və imtahanların davam etdirilməsi üçün icazə almışdır.

8. 5 avqust tarixində **DİM və Ofqual** – Böyük Britaniyanın Qiymətləndirmə üzrə Keyfiyyətə Nəzarət qurumu arasında əməkdaşlıq imkanları müzakirə olunmuşdur. Görüşdə hər iki ölkənin təhsildə qiymətləndirmə siyasəti və innovativ yanaşmalar haqqında fikir mübadiləsi aparılmışdır.

9. 24 avqust tarixində DİM-in əməkdaşları ETS Global təşkilatı tərəfindən keçirilən **"The Propell® Workshop for Teachers"** adlı praktik təlimdə iştirak etmişdir.

10. 1 sentyabr tarixində DİM və **ACCA - (The Association of Chartered Certified Accountants – İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası)** arasında Anlaşma Memorandumu imzalanmışdır. Tərəflər arasında imzalanan memorandum aşağıdakı mövcud əlaqələrin rəsmiləşdirilməsi məqsədini daşıyır:

- Peşəkar sərişte, bacarıq və texniki biliklər sahəsində öyrənmə və inkişaf imkanlarını araşdırmaq;
- ACCA kvalifikasiyaları və sertifikatları haqqında məlumatlılığın artırılması və tanıdılması üçün birgə fəaliyyət göstərmək və tədbirlər həyata keçirmək;
- DİM və ACCA arasında əməkdaşlığı təşviq etmək üçün birgə strategiya və marketinq kampaniyaları hazırlamaq;
- Mühasibatlıq və maliyyə sahəsində uğurlu karyera qurmaq üçün tələbələrin təlim və inkişafını dəstəkləmək üçün birgə proqramlar təşkil etmək.

Qurumlar arasındakı razılığa əsasən DİM-ə peşəkar araşdırmalar üçün ACCA-nın müvafiq resurslarından istifadə etmək üçün şərait yaradılacaq və hər iki qurum peşə bacarıqları, sərişteler və texniki biliklər sahəsində öyrənmə və inkişaf təşəbbüsləri üçün potensial imkanları araşdıracaq.

11. 3 sentyabr tarixində DİM-in Direktorlar Şurasının sədri **"British Council" təşkilatının Azərbaycan üzrə rəhbəri Samr Şahı** qəbul etmişdir. Görüşdə tərəflər gələcək əməkdaşlıq perspektivlərini, həmçinin Azərbaycan Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 4-cü iclasında əhatə olunan məsələləri də müzakirə etmişlər.

12. 29 sentyabr tarixində DİM və Türkiyənin **Ölçmə, Seçmə və Yerləşdirmə Mərkəzinin** rəhbər şəxsləri arasında görüş keçirilmişdir. Görüşdə qurumlar arasında qarşılıqlı əməkdaşlıq imkanları müzakirə edilmişdir.

13. 15-17 oktyabr tarixlərində DİM-in nümayəndələri Naxçıvan Muxtar Respublikasında keçirilmiş **"Mühasiblərin və Auditorların VII Avrasiya Forumu"**nda iştirak etmişlər.

14. 3-4 noyabr və 1-2 dekabr tarixlərində DİM-in əməkdaşları onlayn keçirilən və imtahanların təhlükəsizliyinə həsr olunmuş 10-cu illik konfransda (#COTS2021) iştirak etmişlər.

15. 24 noyabr tarixində DİM-in Direktorlar Şurasının sədri "Yüksəliş" müsabiqəsinin mentorluq proqramı çərçivəsində **"Yüksəliş"** müsabiqəsinin qaliblərindən biri olan Orxan Zakirovla görüşmüşdür.

16. 24 noyabr tarixində DİM və **Özbəkistan Respublikası Nazirlər Kabineti yanında Dövlət Test Mərkəzi (DTM)** arasında Anlaşma Memorandumu imzalanmışdır. Memoranduma əsasən DİM və DTM aşağıdakı istiqamətlər üzrə təcrübə mübadiləsi aparmağı razılaşdırmışdır:

- testlərin hazırlanma prosesi;
- markerlərin təlimi və qiymətləndirmə meyarlarının hazırlanması;
- şagirdlər, tələbələr və müəllimlər üçün metodiki vəsaitlərin hazırlanması;
- imtahanların təşkili prosedurları (yerli və beynəlxalq imtahanlar);
- imtahanlara dair İKT imkanları və məlumatların qorunması;
- elmi-tədqiqat yönlü məqalələrin nəşri;
- qəbul və seçim prosesi;
- kurikulumlar, dərsliklər və qiymətləndirmənin inkişafı istiqamətində islahatların aparılması.

17. 10, 17 və 24 noyabr tarixlərində DİM-in əməkdaşı **Cambridge Assessment Network (CAN)** tərəfindən müasir test nəzəriyyəsinə (IRT) həsr olunmuş onlayn təlimdə iştirak etmişdir.

18. 27 noyabr tarixində DİM-də **Rusiya Federasiyası Elmlər Akademiyasının** prezidenti Aleksandr Sergeyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir.

19. 28 noyabr tarixində "SOCAR Midstream Operations" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən maliyyələşdirilən **Massaçusets Texnologiya İnstitutu (MİT) "Data, iqtisadiyyat və inkişaf siyasəti" mikromaster proqramında** iştirak etmək üçün test imtahanı keçirilmişdir. İmtahanda 64 nəfər iştirak etmişdir.

20. 7 və 22 dekabr tarixlərində Azərbaycan Respublikasının bir sıra ali təhsil müəssisələrinin rektorlarının iştirakı ilə DİM və **ali təhsil müəssisələri arasında qarşılıqlı əməkdaşlığa** həsr olunmuş görüş keçirilmişdir. DİM-in əməkdaşları Mərkəz tərəfindən təqdim olunan aşağıdakı xidmətlər barədə təqdimatlarla çıxış etmişlər:

- ən yaxşı beynəlxalq və yerli təcrübə əsasında tədris prosesinin təşkilinə dəstək;
- qiymətləndirmə alətlərinin hazırlanmasına dəstək;
- ali təhsil müəssisələrində kompüter əsaslı qiymətləndirməyə keçidə dəstək;
- elektronlaşma – rəqəmsal platformaların tətbiqi;
- verilənlər əsasında qərarların qəbul edilməsinə dəstək;
- tələbələrə təcrübi və psixoloji dəstək;
- DİM-in və ali təhsil müəssisələrinin fəaliyyət istiqamətləri və əməkdaşlığı üzrə təbliğatın aparılması.

21. 14 dekabr tarixində DİM-də **Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin Bakı nümayəndəliyinin** rəhbər şəxsləri ilə görüş keçirilmişdir.

22. 15 dekabr tarixində DİM-in Direktorlar Şurasının sədri **ABŞ-ın ölkəmizdəki səfirliyinin** nümayəndələrini qəbul etmişdir.

23. 16, 18 və 19 dekabr tarixlərində DİM ETS Global ilə birgə ESL (ingilis dili ikinci dil kimi) müəllimləri üçün **TOEFL iBT Propell praktik təlimini** təşkil etmişdir. Təlimin hər üç günündə iştirak etmiş 110 nəfər sertifikatla təltif edilmişdir.

Beynəlxalq qiymətləndirmə proqramları və ali məktəblərə müsabiqədənkənar tələbə qəbulu:

1. 2021-ci ildə DİM Azərbaycan vətəndaşlarının **xaricdə təhsil imkanlarını** dəstəkləyərək pandemiya müddətində beynəlxalq təcrübə əsasında imtahanlar təşkil etmişdir. İmtahanlar Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) imtahan mərkəzlərində (zallarında) imtahan müddətində əməkdaşların və iştirakçıların sağlamlığının qorunmasına dair hazırladığı metodiki göstərişlərə və müvafiq sanitar-gigiyenik qaydalara uyğun olaraq inzibati binaların hər imtahan otağında 5-10 nəfər olmaqla və sosial məsafə gözlənilməklə təşkil olunmuşdur. 2021-ci il üçün DİM-də, ümumilikdə, 8 fərqli beynəlxalq imtahanın keçirilməsi nəzərdə tutulmuşdur.

2. 2021-ci ildə keçirilmiş beynəlxalq imtahanlara dair **statistik məlumatlar**:



Qeyd: Mərkəz tərəfindən keçirilən beynəlxalq imtahanlarda Türkiyə, Gürcüstan, İran, Koreya, Kolumbiya Yaponiya, ABŞ və Rusiyadan olan əcnəbilər də iştirak etmişlər.

SAT imtahanlarında iştirak edənlərin sayı (imtahan tarixləri üzrə)



SAT imtahanlarında iştirak edənlərin sayı (gender üzrə)



SAT imtahanlarında iştirak edənlərin sayı (iştirakçıların doğum tarixləri üzrə)





Pearson VUE platforması vasitəsilə keçirilmiş **ixtisaslaşma imtahanlarının aid olduğu qurumların** siyahısı:

№	Qurumlar (istiqamətlər üzrə)
İnformasiya texnologiyaları	
1.	Cisco Systems, Inc.
2.	Fortinet
3.	IBM Corporation
4.	Microsoft
5.	Oracle Certification Program
Rəqəmsal marketinq	
6.	Digital Marketing Institute
Daxili audit	
7.	Institute of Internal Auditors
Layihələrin idarə edilməsi	
8.	PMI - Project Management Institute
Tibb	
9.	Royal College of Obstetricians and Gynaecologists
Maliyyə və mühasibatlıq	
10.	ACAMS
11.	CAIA Association

3. Müsabiqədənkənar qəbul:

Qəbul qaydalarına əsasən *beynəlxalq və respublika fənn olimpiadalarının*, *beynəlxalq müsabiqələrin və yarışların qalibləri*, həmçinin *beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları* - (Beynəlxalq Bakalavriat Diplom Proqramı (IB Diploma Programme), Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (Advanced Level of General Certificate of Education), Yüksək yerləşdirmə (Advanced Placement) üzrə təhsil alan abituriyentlər ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olmaq hüququna malikdirlər.

2021/2022-ci tədris ili üçün müsabiqədənkənar qəbulun göstəriciləri



Respublika fənn olimpiadasının qalibi olan 13 nəfər müvafiq fənnə aid seçə biləcəyi ixtisaslara müsabiqədənkənar qəbul olunmaqdan imtina etmiş və qəbul imtahanından topladıqları bal əsasında müsabiqədə iştirak etmişlər.

IB Diploma Programme məzunlarından ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin sayı (ali təhsil müəssisələri üzrə)



Bundan əlavə, SAT imtahanının nəticələrinə əsasən 14 nəfər "ADA" Universitetinə qəbul olmuşdur.

SAT imtahanının nəticələrinə əsasən qəbul olan abituriyentlərin % bölgüsü (ixtisaslar üzrə)



4. 16 iyun tarixində beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlər üçün **məlumat kitabçası** hazırlanmış və ictimaiyyətə təqdim edilmişdir.
5. 23 sentyabr tarixində DİM beynəlxalq imtahanlara yazılmaq üçün **Vahid Qeydiyyat Platforması** istifadəyə vermişdir. Platforma DİM-də keçirilən 8 müxtəlif beynəlxalq imtahana vahid məkandan qeydiyyatdan keçmək və ya məlumat əldə etmək imkanını yaradır. Hesabat ilində 24 nəfər yeni platforma vasitəsilə müxtəlif növ beynəlxalq imtahanlara qeydiyyatdan keçmişdir.

Qiymətləndirmə sahəsində beynəlxalq və yerli strateji layihələr:

1. DİM tərəfindən təşkil olunan imtahanların keyfiyyəti Niderland Krallığında yerləşən və imtahanların keyfiyyətinin qiymətləndirilməsi üzrə aparıcı ekspertiza mərkəzi kimi fəaliyyət göstərən **RCEC (Research Centre for Examination and Certification - İmtahan və Sertifikatlaşdırma üzrə Tədqiqat Mərkəzi)** təşkilatının auditindən uğurla keçmiş və DİM-ə müvafiq keyfiyyət nişanını əks etdirən sertifikat təqdim olunmuşdur. Audit ISO 9001, ISO 17024, ISO 17065 və təhsilin qiymətləndirilməsinə dair beynəlxalq keyfiyyət standartları əsasında təşkil edilmişdir.
2. Xarici dil üzrə imtahanların keçirilməsində aparılan davamlı islahatların bir hissəsi kimi qiymətləndirmənin beynəlxalq dil normalarına uyğunlaşdırılması, xarici dil (ingilis dili) fənninin tədrisinin təkmilləşdirilməsi məqsədilə DİM ABŞ Səfirliyinin "English Language Specialist" proqramı çərçivəsində Təhsil İnstitutu ilə birlikdə **"Xarici dil fənn kurikulumu, dərslikləri və qiymətləndirmə vəsaitlərinin (ingilis dili) təkmilləşdirilməsinə dəstək" layihəsini** həyata keçirmişdir. Layihə dörd mərhələdən ibarətdir və ilk mərhələsi 24 avqust – 6 oktyabr 2020-ci il tarixlərində həyata keçirilmişdir. Layihənin mərhələləri müvafiq olaraq aşağıdakı məqsədləri daşıyır:
   - I mərhələ - yerli xarici dil fənn kurikulumu, dərslik, qiymətləndirmə vəsaitlərinin təhlili və təkmilləşdirilməsi istiqamətində təkliflərin hazırlanması;
   - II mərhələ (yanvar-mart, 2021-ci il) – dərsliklərin CEFR (Dillər üzrə Ümumavropa çərçivə sənədi – The Common European Framework of Reference for Languages) səviyyələri əsasında təkmilləşdirilməsi məqsədi ilə dərsliklər üçün əlavə materialların hazırlanması.
   - III mərhələ (avqust-sentyabr, 2021-ci il) - bu mərhələ çərçivəsində yeni tərtib edilmiş **6-cı sinif ingilis dili dərsliyi** beynəlxalq ekspert, Kaliforniya Universitetinin (Fullerton şəhəri) professoru Nathan Carr tərəfindən təhlil edilmişdir. Təhlil nəticəsində dərsliyin CEFR standartlarına və şagirdlərdə kommunikativ dil bacarıqlarının formalaşdırılması məqsədlərinə uyğunlaşdırılması üçün tövsiyələr hazırlanmış və Təhsil Nazirliyinə təqdim edilmişdir.
3. 2 fevral tarixində DİM **CEFR sənədinin Azərbaycan dilinə tərcümə** edilməsi məqsədilə Avropa Şurası və Azərbaycan Dövlət Tərcümə Mərkəzi ilə əməkdaşlığa başlamışdır. CEFR-in son nəşrinin Azərbaycan dilinə tərcümə olunması layihəsinin əsas məqsədi ölkədə xarici dillərin öyrənilməsi, tədrisi və qiymətləndirilməsi istiqamətində görülən işlərə dəstək göstərməkdir.
4. 24 fevral – 1 aprel tarixlərində DİM DAAD-ın Azərbaycandakı nümayəndəliyinin dəstəyi ilə **"Alman dili üzrə qiymətləndirilmə alətlərinin təkmilləşdirilməsi" layihəsini** həyata keçirmişdir. Layihə çərçivəsindəki təlimlər dilin qiymətləndirilməsi üzrə mütəxəssis, Almaniyanın Ruhr Universitenin müəllimi Anna Soltyska tərəfindən həyata keçirilmişdir.
5. 26 fevral tarixində DİM Direktorlar Şurasının sədri ilə **Gürcüstanın Milli Qiymətləndirmə və İmtahan Mərkəzinin (MQİM)** direktoru, həmçinin hər iki qurumun rəhbər şəxsləri arasında onlayn formatda görüş keçirilmiş və tərəflər arasında 2020-ci ildə imzalanmış Anlaşma Memorandumu yenilənmişdir. DİM və MQİM 2020-ci ildə aşağıda qeyd olunan istiqamətlər üzrə əməkdaşlıq etmişdir:
   - gürcü dili üzrə 9 və 11-ci sinif buraxılış imtahanlarında istifadə edilən test tapşırıqlarının təkmilləşdirilməsi;
   - gürcü məktəblərində işləyən Azərbaycan dili və ədəbiyyatı müəllimləri üçün müəllimlərin peşə-ixtisas imtahanında istifadə edilən tapşırıqların hazırlanması;
   - MQİM-in Azərbaycan dilinə tərcümə edilən riyazi və verbal məntiq testlərinin təkmilləşdirilməsi;
   - MQİM-ə riyazi və verbal məntiq testlərini Azərbaycan dilinə tərcümə edəcək əməkdaşın seçilməsinə kömək edilməsi.

   2021-ci il üzrə yenilənən memorandumda aşağıdakı qarşılıqlı əməkdaşlıq sahələri də öz əksini tapmışdır:
   - MQİM ekspertləri tərəfindən DİM-in gürcü dili üzrə buraxılış imtahanlarında (9 və 11-ci sinif səviyyəsi üzrə) istifadə etdiyi test bankının nəzərdən keçirilməsi və təkmilləşdirilməsi;
   - DİM-in köməkliyi ilə gürcü məktəblərində işləyən Azərbaycan dili və ədəbiyyatı müəllimləri üçün müəllimlərin peşə-ixtisas imtahanı üzrə sual bankının hazırlanması.

6. DİM ilə **Sankt-Peterburq Dövlət Universiteti (SPDU)** arasında 2020-ci ilin əvvəlindən başlayan danışıqların nəticəsi olaraq aşağıdakı istiqamətlər üzrə layihələr hazırlanmış və onların icrasına başlanmışdır:

- SPDU-nun təcrübəsindən istifadə edərək "Rus dili" fənni üzrə DİM-in buraxılış imtahanlarında (9 və 11-ci siniflər) istifadə olunan yoxlama-ölçmə materiallarının ekspertizası və təkmilləşdirilməsi:
  - 12-30 aprel tarixlərində **"Rus dili üzrə qiymətləndirmə alətlərinin təkmilləşdirilməsi" layihəsinin** icrasına başlanmışdır;
- Azərbaycanda ТРКИ (Тест по русскому языку как иностранному – rus dili xarici dil kimi) imtahanlarının keçirilməsi üçün test mərkəzinin yaradılması:
  - Bir sıra **ali təhsil müəssisələrinin tədris proqramları** SPDU tərəfindən nəzərdən keçirilmiş və müvafiq rəy təqdim edilmişdir;
- Azərbaycan məktəblərinin rus bölmələrində tədris aparan müəllimlərin ixtisasının artırılması üçün təlimlərin təşkili:
  - 30 mart tarixində DİM və SPDU-nun birgə təşkilatçılığı ilə **"ТРКИ - beynəlxalq rus dili imtahanı"** adlı vebinar təşkil edilmişdir. Tədbirdə 25 nəfər rus dilini tədris edən müəllim, Rusiya universitetlərinə daxil olmaq istəyən tələbələr və rus dilini öyrənmək, biliklərini qiymətləndirmək istəyən şəxslər iştirak etmişlər;
  - 5 aprel tarixində ТРКИ imtahanı ilə əlaqədar DİM tərəfindən növbəti **"ТРКИ - Rus dili imtahanlarına necə hazırlaşmalı"** adlı vebinar təşkil etmişdir. Tədbirdə rus dilini tədris edən 52 müəllim və rus dilini öyrənmək, bacarıqlarını qiymətləndirmək istəyən şəxslər iştirak etmişlər;
- Rus dili ilə əlaqəli bilik yarışlarına və tədbirlərə marağın artırılması:
  - 6 aprel tarixində DİM-in Direktorlar Şurasının sədri SPDU-nun təşkil etdiyi II **"Rus dili xarici dil kimi" beynəlxalq onlayn olimpiadada** Azərbaycanı təmsil edən 293 nəfərdən uğur qazanan 24 qalibi mükafatlandırmışdır. Qaliblərə DİM-in sınaq imtahanları üçün xüsusi kupon, diplom, xatirə mükafatları, rus dilinə aid dərs vəsaitləri və ТРКИ imtahanına ödənişsiz vauçer təqdim olunmuşdur.

7. Aprel ayında DİM fransız dili üzrə bilik və bacarıqların qiymətləndirilməsini təkmilləşdirmək məqsədilə **Fransız İnstitutu (İFA)** ilə əməkdaşlığa başlamışdır. Qurumlar arasındakı razılığa əsasən DİM-in fransız dili fənni üzrə ekspertləri İFA tərəfindən təşkil edilən fransız dilinin qiymətləndirilməsi üzrə 5 günlük təlimdə iştirak etmişlər.

8. Aprel - may aylarında DİM ali təhsil və orta ixtisas təhsili müəssisələri ilə birlikdə **İKT istiqaməti** üzrə beynəlxalq imtahanların (ICDL) tədrisdə nəzərə alınmasına dair onlayn görüşlər keçirmiş və gələcək əməkdaşlıq istiqamətləri üzrə müzakirə aparmışdır.

9. 12 iyul tarixində DİM Niderlandın **Təhsildə Ölçmə İnstitutu – Cito (National Institute for Educational Measurement)** ilə arasındakı əməkdaşlığın yenilənməsi məqsədilə Anlaşma Memorandumu imzalamışdır. Memoranduma əsasən, DİM və Cito aşağıdakı istiqamətlər üzrə əməkdaşlıq etməyi razılaşdırmışdır:

- təhsilin qiymətləndirilməsi, kompüter əsaslı imtahanların təşkili, psixometrik test, səriştə əsaslı qiymətləndirmə, tələbə izləmə sistemləri kimi sahələrdə öyrənmə və inkişaf təşəbbüslərini həyata keçirmək;
- təhsildə qiymətləndirmə üzrə mütəxəssis və təlimçilərin hazırlanmasına, inkişafına və sınaq zamanı keyfiyyət təminatı mexanizmlərinə dəstək olan ortaq tərəfdaşlıq proqramlarını reallaşdırmaq;
- Azərbaycanda və Avrasiya bölgəsində təhsilin qiymətləndirilməsi sahəsində birgə regional təşəbbüsləri artırmaq;
- təhsilin qiymətləndirilməsində əməkdaşlığın əlaqəli olduğu və əlavə dəyər yaradan yeni təşəbbüslərlə bağlı məlumatları müntəzəm olaraq qarşılıqlı şəkildə paylaşmaq.

10. Aprel ayından başlayaraq DİM ali təhsil müəssisələri ilə birlikdə **maliyyə və mühasibatlıq istiqaməti üzrə beynəlxalq kvalivikasiyaların** tədrisdə nəzərə alınmasına dair onlayn görüşlər keçirmiş və gələcək əməkdaşlıq istiqamətləri üzrə müzakirə aparmışdır.

11. Maliyyə və mühasibatlıq sahəsində bir sıra beynəlxalq sertifikatlardan birinə* malik olan namizədlər 2021-ci ildə ilk dəfə **Peşəkar Mühasib Sertifikatı (PMS) imtahanının** I mərhələsindən azad olunmuşdular. Təqdim edilən sertifikatların həqiqiliyi Strateji inkişaf şöbəsinin əməkdaşları tərəfindən yoxlanılmış və imtahan üçün həqiqiliyi təsdiqlənmişdir.

**Beynəlxalq sertifikatların siyahısı:*

Sıra №	Qurum	İmtahan
1.	The Association of Chartered Certified Accountants (ACCA)	FR - Financial Reporting
		DipIFR – Diploma in International Financial Reporting
2.	Chartered Institute of Management Accountants (CIMA)	F2 – Advanced Financial Reporting
3.	CPA – A certified public accountant	
4.	The Institute of Chartered Accountants in England and Wales ICAEW	ACA – Associate Chartered Accountant Program
5.	Institute of Certified Financial Managers ICFM	Diploma in International Financial Reporting Standards (IFRS)
6.	Chartered Institute Of Public Finance & Accountancy CIPFA	

12. 8 oktyabr tarixində DİM-in əməkdaşları Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) tərəfindən təşkil olunan **"Hərə bir qəhrəman oldu" layihəsinin** açılış tədbirində iştirak etmişlər. II Qarabağ müharibəsi şəhidlərinin övladlarının təhsilinə kömək göstərmək məqsədilə DİM-in Strateji inkişaf şöbəsinin əməkdaşları tədbirdə iştirak edən şəhid övladlarına anket təqdim etmiş və onların DİM tərəfindən nəşr olunan vəsaitlərə dair ehtiyac və istəkləri qeydə alınmışdır.

13. 4 noyabr tarixində Zəfər Günü münasibətilə DİM-in və "YAŞAT" Fondunun birgə təşkilatçılığı və Vətənin bütövlüyü uğrunda aparılmış 44 günlük müharibədə canlarından keçmiş şəhidlərin məktəbli övladlarının iştirakı ilə tədbir keçirilmişdir. Tədbirdə **DİM ilə "YAŞAT" fondu arasında əməkdaşlığa dair Anlaşma Memorandumu** imzalanmışdır. İmzalanan memorandumun əsas məqsədi Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar şəhid olmuş şəxslərin ailələrinin üzvlərinə və qazilərə mənəvi dəstək vermək, onların təhsilinə, gələcək karyerasının planlaşdırılmasına və inkişafına əməli yardım göstərməkdir. DİM və "YAŞAT" fondu arasındakı əsas əməkdaşlıq sahələri aşağıdakılardır:

- peşəkar səriştə, bacarıq və texniki bilik və digər sahələrdə öyrənmə və inkişaf imkanlarını araşdırmaq;
- şəhid övladlarına və qazilərə qayğı məqsədilə DİM tərəfindən təşkil olunacaq tədbirlərin hazırlanması və keçirilməsi üçün müvafiq mütəxəssislərin cəlb olunmasına kömək göstərmək;
- şəhid övladlarının, qazilərin bilik və bacarıqlarını artırmaq, həmçinin karyeralarını yüksəltmək üçün yeni yollar axtarmaq və yaratmaq;
- şəhid övladlarının və qazilərin akademik göstəricilərinin təhlilinə dair elmi konfrans keçirmək;
- potensialın artırılması təşəbbüsləri ilə məktəbli və tələbə olan şəhid övladları və qazilərin məşğulluğunu artırmaq.

Tədbir iştirakçılarına DİM əməkdaşları tərəfindən DİM-in fəaliyyət istiqamətləri və tarixinə dair təqdimat göstərilmiş, e-psixoloq.az və otk.az səhifələrinin imkanları haqqında məlumat verilmişdir. Bundan əlavə, iştirakçılara DİM-in onlayn imtahanlarından istifadə etmək üçün otk.az kuponları təqdim olunmuşdur.

13.1 18 dekabr tarixində DİM "YAŞAT" fondu ilə birgə **Bərdə və Naxçıvan şəhərlərində** 44 günlük Vətən müharibəsində şəhid olmuş şəxslərin məktəbli övladlarının iştirakı ilə tədbir təşkil etmişdir. Bərdə və Naxçıvan şəhərlərində keçirilən tədbirlərə COVID-19 pandemiyası ilə əlaqədar məhdudiyyətlər nəzərə alınmaqla, müvafiq olaraq 50 və 25 məktəbli və onların valideynləri dəvət olunmuşdur. Tədbir iştirakçılarına DİM tərəfindən nəşr olunan müxtəlif dərs vəsaitləri hədiyyə olunmuş (*ümumilikdə 704 ədəd*), otk.az saytı vasitəsilə keçirilən sınaq imtahanlarına ödənişsiz kuponlar təqdim edilmişdir.

13.2 25 dekabr tarixində DİM **Gəncə, Tovuz və Şirvan şəhərlərində** 44 günlük Vətən müharibəsində şəhid olmuş şəxslərin məktəbli övladlarının iştirakı ilə tədbirlər təşkil etmişdir. Gəncə, Tovuz və Şirvan şəhərlərində keçirilən tədbirlərə COVID-19 pandemiyası ilə əlaqədar məhdudiyyətlər nəzərə alınmaqla, müvafiq olaraq 33, 18, 16 nəfər məktəbli və onların valideynləri dəvət olunmuşdur. Tədbir iştirakçılarına DİM tərəfindən nəşr olunan müxtəlif dərs vəsaitləri (*ümumilikdə 689 ədəd*) hədiyyə olunmuş, otk.az saytı vasitəsilə keçirilən sınaq imtahanlarına ödənişsiz kuponlar təqdim edilmişdir.

14. Aprel-avqust aylarında **College Board-ın Higher Education Reporting** portalı vasitəsilə "ADA" Universitetinə müsabiqədənkənar iştirak etmək üçün DİM-in hesabına abituriyentlərin SAT imtahanın nəticələri göndərilmiş, Strateji inkişaf şöbəsinin əməkdaşları tərəfindən ali təhsil müəssisələrinə qəbul zamanı nəzərə alınması üçün emal edilmiş və son siyahı müvafiq şöbəyə yönləndirilmişdir.

15. İyun ayında IELTS-in rəsmi internet səhifəsinin **IELTS Test Report Form (TRF) Verification Service** platforması vasitəsilə müsabiqədənkənar qəbul üçün və xarici dil üzrə fəlsəfə doktoru imtahanından azad olunmaq üçün beynəlxalq dil sertifikatını (IELTS) təqdim edənlərin sertifikatlarının həqiqiliyi Strateji inkişaf şöbəsinin əməkdaşları tərəfindən yoxlanılmış və qəbul prosesi üçün uyğunluğu təsdiqlənmişdir.

16. Beynəlxalq və yerli tərəfdaşlar ilə ilkin danışıqlar zamanı DİM-in fəaliyyətinin Azərbaycan və ingilis dillərində daha geniş təqdim olunması üçün DİM-in bütün sahələrini əhatə edən **Korporativ məlumat kitabının** (62 səhifəlik, həm Azərbaycan, həm də ingilis dilində) hazırlanması işləri yekunlaşdırılmışdır.

17. Hesabat ili ərzində DİM-in rəsmi **LinkedIn səhifəsində** qurumun fəaliyyəti sosial medianın izləyiciləri üçün *(2020-ci ildə izləyicilərin sayı 800, 2021-ci ildə isə 1600 nəfərə çatmışdır)* mütəmadi olaraq işıqlandırılmışdır.

18. Süni intellektin imtahan nəticələrinin proqnozlaşdırılmasında tətbiqi ilə bağlı olaraq **Riiid Labs** ilə danışıqların aparılması davam etdirilmişdir.

19. İyul ayında DİM-in əməkdaşları Böyük Britaniya universitetlərinə qəbul olmaq istəyən şəxslər üçün konsultasiya xidmətlərini təşkil edən "**Vermillion Groups**" tərəfindən müştərilərə müvafiq xidmətlərin göstərilməsinə dair təlimlərdə iştirak etmişlər.

20. DİM-in mütəxəssisləri tərəfindən onlayn imtahanların keçirilməsi üçün hazırlanmış **"ProctorDİM" adlı xüsusi proqram təminatının** təkmilləşdirilməsi istiqamətində yanvar-mart aylarında işlər görülmüş və bir sıra ali təhsil müəssisələri də prosesə cəlb olunmuşdur.

21. 10 iyul tarixində DİM tərəfindən **SABAH qruplarına** tələbə seçimi müsabiqəsinin ikinci mərhələsi (test imtahanı) keçirilmişdir.

22. 26 dekabr tarixində DİM **Xarici İşlər Nazirliyində** diplomatik xidmətə qəbul olmaq istəyən namizədlər üçün sınaq imtahanı keçirmişdir. Həmin imtahanda 185 nəfər iştirak etmişdir.

23. 2020-ci ildə başlanılmış beynəlxalq imtahanların keçirilməsinin keyfiyyət səviyyəsinin ölçülməsi və namizəd bazasının yaradılması üçün hazırlanmış **sorğular** vasitəsilə imtahan verənlərin rəyinin toplanması və emalı prosesi davam etdirilmişdir.

23.1 2021-ci ildə aparılmış sorğulara dair statistik məlumatlar:



DİM-də imtahan verilməsini tanışlarınıza tövsiyə edərdiniz?



24. İl ərzində beynəlxalq imtahanlarla əlaqəli **346 vətəndaş sorğusu** cavablandırılmışdır.

DİM-in fəaliyyətinin dünyada işıqlandırılması:

1. 30 sentyabr – 2 oktyabr tarixlərində **Elektrik və Elektronika Mühəndisləri İnstitutu təşkilatı tərəfindən keçirilmiş Avtomatika və İnformatika üzrə onlayn beynəlxalq konfransda** DİM-in əməkdaşı "E-learning" istiqamətində "Dövlət İmtahan Mərkəzinin fəaliyyətində informasiya sistemlərinin rolu" mövzusunda təqdimatla çıxış etmiş, Mərkəzin "Şagird-məzun", "Tələbə-məzun" sistemləri, eləcə də "Dövlət qulluqçularının reyestri", "Ehtiyat kadrlar" informasiya sistemləri haqqında ətraflı məlumat vermişdir.
2. 22-23 oktyabr tarixlərində DİM-in nümayəndələri **Təhsildə Keyfiyyətin Qiymətləndirilməsi üzrə Avrasiya Assosiasiyasının (EAOKO) onlayn formatda 10-cu illik beynəlxalq konfransında** iştirak etmişdir. Konfransda DİM-in nümayəndəsi buraxılış imtahanının 10 il ərzində inkişafı, əsas xüsusiyyətləri, keçirilmə qaydası, həmçinin vahid qəbul imtahanının tətbiqinin ümumi və statistik nəticələri kimi məsələləri əhatə edən "Azərbaycan Respublikasında mərkəzləşdirilmiş buraxılış imtahanları sisteminin inkişafının onilliyi: əsas nəticələr" adlı təqdimatla çıxış etmişdir.
3. 14 aprel tarixində Rusiyanın **Ali İqtisadiyyat Məktəbi Milli Tədqiqat Universitetinin** (National Research University Higher School of Economics) "Rusiya və qonşu ölkələrdə ali təhsil" adlı beynəlxalq tədqiqatlar jurnalının "Ali təhsil müəssisələrinə qəbul mexanizmləri və ali təhsilin əlçatanlığı"na həsr olunan 2021-ci il 26 nömrəli buraxılışında DİM-in fəaliyyəti haqqında "Azərbaycanda ali təhsil müəssisələrinə qəbul sistemi" adlı məqalə nəşr olunmuşdur.
4. May ayında DİM-in beynəlxalq tərəfdaşlarından biri olan **Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya (IAEA)** rəsmi səhifəsində dünyanın əksər ölkələrində müşahidə olunan pandemiya səbəbindən böyük miqyaslı imtahanların keçirilməsi ilə bağlı çətinliklərlə üzləşən qiymətləndirmə qurumlarının bu sahədə həyata keçirdikləri təcrübələrini təqdim etmişdir. İmtahanların təşkili ilə bağlı təcrübəsi paylaşılan qiymətləndirmə qurumları arasında DİM də yer almışdır.
5. 16 iyul tarixində **UNESCO-nun "A Global Framework of Reference on Digital Literacy Skills for Indicator 4.4.2 (4.4.2 Göstəricisi üzrə Rəqəmsal Savadlılıq Bacarıqlarına dair Qlobal Çərçivə sənədi)"** adlı hesabatında DİM-in təşkil etdiyi ICDL beynəlxalq imtahanlarına dair məlumat və həmin imtahanların İKT savadlılığı üzrə beynəlxalq standartlar və bu sahəyə aid digər beynəlxalq imtahanlar ilə müqayisəsi verilmişdir.

Dövlət qulluğu sahəsində beynəlxalq əməkdaşlıq:

1. Hesabat dövrü ərzində DİM **Avropa İttifaqının (Aİ) Şərq Tərəfdaşlığı (ŞT) proqramının** "Demokratiya, Yaxşı İdarəçilik və Sabitlik" adlı I Platforması çərçivəsində Dövlət İdarəçiliyi İslahatları Panelində fəaliyyətini davam etdirmişdir. Bu çərçivədə:

   - 30 avqust tarixində DİM-in əməkdaşları ŞT Regional İdarəçilik İslahatı fondu və GIZ (Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı) Regional fondunun birgə təşkilatçılığı ilə ŞT ölkələrinin iştirakı ilə "Peşəkar dövlət qulluğu, habelə texniki peşə təhsili və təlimi" layihəsi üzrə onlayn planlaşdırma görüşündə iştirak etmişdir. İştirakçılar müxtəlif potensial əməkdaşlıq istiqamətləri üzrə fikir mübadiləsi aparmışlar. Layihə üzrə növbəti addım kimi təşkilatçılar tərəfindən qrup müzakirəsi nəticəsində tərtib edilən təkliflərin təhlili və iştirakçı ölkələr üçün inkişaf layihələri təkliflərinin təqdim edilməsi planlaşdırılır.
   - 27 sentyabr - 1 oktyabr tarixlərində ŞT Dövlət İdarəçilik Akademiyası Proqramı çərçivəsində "Korrupsiyaya qarşı mübarizə" adlı onlayn təlimdə DİM-in əməkdaşı "Azərbaycanda anti-korrupsiya siyasətinin tətbiqi üzrə yaxşı təcrübə" mövzusunda təqdimatla çıxış etmişdir.
   - 15-19 noyabr tarixlərində ŞT Dövlət İdarəçilik Akademiyası Proqramı çərçivəsində "Şərq Tərəfdaşlığı ölkələrinin dövlət qulluğu sistemində insan resurslarının idarə edilməsinin gücləndirilməsi" adlı onlayn təlimdə DİM-in nümayəndəsi "Dövlət qulluğunda tətbiq olunan islahatlar" mövzusunda təqdimatla çıxış etmişdir.

2. 2021-ci il ərzində DİM **Astanada yerləşən Dövlət Qulluğu üzrə Regional Xab** (Regional Xab) ilə əməkdaşlığı davam etdirmişdir. 2021-ci il ərzində Regional Xabla əməkdaşlıq çərçivəsində:

   - 26 yanvar tarixində Belarus Respublikasının Prezidenti yanında İdarəçilik Akademiyasının "Müasir dövlət idarəetməsi: təhsil, elm, təcrübə" mövzusunda keçirdiyi beynəlxalq elmi-praktik konfrans çərçivəsində Regional Xabın "Dövlət idarəçiliyində insan resursları (İR) məsələləri: çətinliklər və perspektivlər" adlı panel sessiyası təşkil edilmişdir. Tədbirdə DİM-in Direktorlar Şurasının sədr müavini DİM-in Azərbaycan Respublikasının dövlət qulluğu sisteminin kadr siyasətində islahatların aparılması istiqamətində həyata keçirdiyi fəaliyyəti haqqında tədbir iştirakçılarına məlumat vermiş və müzakirə əsasında verilən sualları cavablandırmışdır. Tədbirdə, həmçinin DİM-in əməkdaşları iştirak edərək Regional Xaba üzv olan ölkələrin dövlət qulluğunda İR-in idarə edilməsi prosesinin təşkili və təkmilləşdirilməsi üzrə islahatlarla tanış olmuş, müzakirələrə qoşulmuşdur.
   - 4 aprel tarixində DİM-in sədr müavini Qazaxıstanın Türküstan şəhərində yerləşən **Xoca Əhməd Yəsəvi adına Qazax-Türk Beynəlxalq Universitet**inin dəvəti ilə tələbələr üçün "İdarəetmə heyətinin peşəkarlaşdırılması: Azərbaycan nümunəsi" mövzusunda açıq onlayn mühazirə oxumuşdur.
   - 18 avqust tarixində DİM-in icraçı direktoru Regional Xabın və Qazaxıstanın Türküstan şəhərində yerləşən Xoca Əhməd Yəsəvi adına Qazax-Türk Beynəlxalq Universitetinin dəvəti ilə Türküstan Dövlət İdarəçilik Yay Məktəbində onlayn şəkildə keçirilmiş tədbirdə "Dövlət qulluğunda motivasiya və meritokratiya" mövzusunda mühazirə oxumuşdur.
   - 14 sentyabr 2021-ci il tarixində DİM və Regional Xabın birgə təşkilatçılığı ilə "Dövlət qulluğunda mövcud islahatlar: çağırışlar və perspektivlər" mövzusunda onlayn konfrans keçirilmişdir. Tədbirdə 20 ölkədən 200-dən artıq nümayəndə iştirak etmişdir.
   - 27-29 oktyabr tarixlərində DİM-in Direktorlar Şurasının sədr müavini və aparat rəhbəri Regional Xabın Qazaxıstanın Nur-Sultan şəhərində keçirilən illik konfransında iştirak etmişdir. Konfransın builki əsas mövzusu "Dövlət xidmətlərinin inkişafı və həmin sahədə əməkdaşlıq" olmuşdur. Tədbirdə dövlət orqanlarının inkişafının müəyyən aspektləri, dövlət idarəçiliyinin potensialının artırılması, dövlət idarəçiliyində ən son araşdırmalar və dövlət xidmətləri sahəsində əməkdaşlıq kimi mövzularda müzakirələr aparılmışdır. Qarışıq formatda keçirilən illik konfransda 40-dan çox ölkənin dövlət qulluğu orqanlarının rəhbər şəxsləri, ekspertlər və alimlər iştirak etmişdir.

- 7 dekabr tarixində Qətərin paytaxtı Doha şəhərində Yaxın Şərq Dövlət Siyasəti və İdarəetmə Assosiasiyasının 10-cu konfransı çərçivəsində (AMEPPA) Regional Xabın "Postsovet ölkələrdə idarəetmə: inkişaf və çağırışlar" mövzusunda onlayn panel sessiyasında DİM-in Direktorlar Şurasının sədr müavini çıxış etmişdir.

3. 20 may tarixində DİM-in nümayəndəsi Azərbaycan Respublikasının Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında **iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın** 4-cü iclasında iştirak etmişdir. İclasın protokol sənədində DİM və Birləşmiş Krallığın müvafiq dövlət qurumları arasında dövlət qulluğun aşağıda göstərilən istiqamətləri üzrə əməkdaşlığın təşkil edilməsi qərara alınmışdır:

- Birləşmiş Krallıqda Dövlət Xidmətinə qəbul - işə qəbulun müraciət, seçim və müsahibə mərhələləri və onların onlayn şəkildə idarə edilməsi;
- dövlət Xidmətində fəaliyyətin idarə edilməsi – Birləşmiş Krallığın Dövlət Xidmətinin geniş yanaşması və onun Birləşmiş Krallığın dövlət nazirliklərində fərdi tətbiqi;
- istedadın idarə edilməsi yanaşmaları və bunların karyerada irəliləmə, yüksəlməni təmin etmək üçün Birləşmiş Krallığın Dövlət Xidmətində istifadə edilməsi yolları.

Dövlət qulluğu sahəsində beynəlxalq strateji layihələr:

1."Sərişta modelinin təsdiqlənməsi" layihəsi

DİM "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya"nın "5.4. Dövlət qulluğunda sərişta (kompetensiya) modelinin tətbiqi"nin həyata keçirilməsinə dəstək vermək məqsədilə Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT/OECD) SIGMA (Rəhbərlik və İdarəetmədə Təkmilləşdirməyə Dəstək) proqramı çərçivəsində beynəlxalq ekspertlərin dəstəyi ilə dövlət qulluğunda "Sərişta modelinin təsdiqlənməsi" üzrə pilot layihəni davam etdirmişdir. Hesabat ili ərzində aşağıdakı işlər görülmüşdür:

- 26 fevral tarixində DİM-in əməkdaşları və SIGMA proqramının beynəlxalq ekspertləri arasında dövlət qulluğu sistemi üçün sərişta modelinin tətbiqi istiqamətində praktik fəaliyyətin müzakirə edildiyi onlayn görüş keçirilmişdir;
- 2 aprel tarixində SIGMA proqramının beynəlxalq ekspertləri tərəfindən DİM-in İşçi qrupu üçün 18-19 may tarixlərində pilot layihənin iştirakçı qurumlarının (İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Qida Təhlükəsizliyi Agentliyi və Bakı Apellyasiya Məhkəməsi) işçi qrupları üçün vəzifə təhlili, səriştalərin hazırlanmasına dair bacarıqlarını inkişaf etdirmək və praktik məşğələlər vasitəsilə situasiya əsaslı müsahibə üsulları haqqında biliklərini inkişaf etdirmək məqsədilə onlayn təlim keçirilmişdir;
- 22 iyun tarixində pilot layihənin cari vəziyyəti, qarşıya çıxan çətinliklər və əldə olunan nailiyyətləri müzakirə etmək məqsədilə rəhbər komitənin görüşü təşkil edilmişdir;
- 13 oktyabr tarixində SIGMA ekspertləri tərəfindən DİM-in dövlət qulluğunda vakant vəzifələrin tutulması məqsədilə müsahibə komissiyasında mütəmadi olaraq iştirak edən əməkdaşları üçün "Sərişta əsaslı müsahibələrin təşkili" qaydaları ilə bağlı onlayn təlim keçirilmişdir;
- 18-19 oktyabr tarixlərində situasiya əsaslı müsahibə üsulları haqqında pilot qurumlar üçün növbəti təlim keçirilmişdir.

2. “Dövlət qurumlarında daxili nəzarət mexanizmlərinin təkmilləşdirilməsi” layihəsi

DİM Avropa İttifaqı və İƏİT ilə birgə SIGMA proqramı çərçivəsində “Dövlət qurumlarında daxili nəzarət mexanizmlərinin təkmilləşdirilməsi” layihəsini davam etdirmişdir.

Layihənin məqsədi “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya”nın “5.1. Dövlət qulluğunda institusional islahatların həyata keçirilməsi” istiqamətində fəaliyyətin təşkili, dövlət qurumlarında idarəçiliyin inkişaf etdirilməsi, daxili nəzarət funksiyalarını yerinə yetirən struktur bölmələrin fəaliyyətinin səmərəliliyinin və effektivliyinin artırılması məqsədilə daxili nəzarətin həyata keçirilməsi üçün zəruri olan metod və alətlərin təqdim edilməsidir. Hesabat ili ərzində aşağıdakı işlər görülmüşdür:

- 11 fevral tarixində layihə ilkin mərhələ üzrə “Dövlət idarəçiliyində daxili nəzarət mexanizmlərinə giriş” adlı onlayn seminar ilə başlamış və iki gün davam etmişdir. Seminarda dövlət orqanlarında daxili nəzarət funksiyalarını yerinə yetirən struktur bölmələrdən 52 nümayəndə iştirak etmişdir.
- 4 iyun tarixində pilot layihənin onlayn işçi görüşü keçirilmişdir. Görüşün keçirilməsində əsas məqsəd SIGMA ekspertlərini iştirakçı qurumların daxili nəzarət-audit mexanizmləri ilə tanış etmək və işçi qrupun rolunu müəyyənləşdirmək idi.
- 25 iyun tarixində pilot layihənin təqdimat görüşü keçirilmişdir.
- 16 iyul tarixində pilot layihənin ilk onlayn təlimi keçirilmişdir. Təlim iştirakçıları SIGMA-nın təcrübəli eksperti tərəfindən “COSO” daxili nəzarət sisteminin əsas komponentləri, prinsipləri və risklərin qiymətləndirilməsi metodologiyası barədə təqdimatı dinləmiş, fikir mübadiləsi aparmışdır.
- 22 iyul tarixində DİM tərəfindən növbəti onlayn təlim təşkil edilmişdir. Təlimdə daxili audit üzrə təcrübəli ekspert tərəfindən pilot dövlət qurumlarının auditorları üçün daxili auditin əsas anlayışlarına aid olan standartlar, məqsədlər, prinsiplər, eyni zamanda sənədlər (nizamnamə, etik qaydalar və digər) barədə təqdimat nümayiş etdirilmişdir.
- 2 dekabr tarixində DİM tərəfindən onlayn təlim təşkil edilmişdir. Təlim iştirakçıları SIGMA-nın təcrübəli eksperti tərəfindən risklərin müəyyən edilməsi mərhələsindən sonra risklərin idarə edilməsi mərhələsinin əsas komponentlərini əhatə etmiş və onların DİM-də tətbiqini izah etmişdir.

3. Azərbaycanda dövlət qulluğu sistemindəki islahata dəstək (Texniki yardım layihəsi)

“Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya”nın həyata keçirilməsinə töhfə vermək məqsədilə DİM tərəfindən "Azərbaycanda dövlət qulluğu sistemindəki islahata dəstək" 2022-2023 texniki yardım layihəsi yazılmış və Avropa İttifaqı tərəfindən təsdiqlənmişdir.

DİM-in ictimaiyyətin istifadəsinə verdiyi nəşrlər

“Abituriyent” jurnalı özünün bütün sayları, xüsusi buraxılış və nəşrləri ilə ictimaiyyətin, xüsusilə də abituriyentlərin və təhsil işçilərinin maarifləndirilməsinə xidmət göstərir, qəbul kampaniyasının bütün gedişi, mərhələləri, istiqamətləri barədə dolğun, dəqiq və etibarlı informasiya mənbəyi rolunu oynayır.

Rəsmi, elmi-metodiki, informativ nəşrlərin təsnifatı belədir:

Rəsmi materiallar

- təhsilin müxtəlif pillə və səviyyələrinə qəbul qaydaları;
- təhsilin müxtəlif pillə və səviyyələrinə qəbul qaydalarının təfsilatını açıqlayan qəbul elanları;
- ali təhsil müəssisələri, tam orta və ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul qaydaları, müsabiqə şərtləri və bunların təfsilatını açıqlayan normativ sənədlər;
- tələbə qəbulu prosesinin ayrı-ayrı istiqamət və mərhələləri üzrə ictimaiyyətə ünvanlanan elanlar;
- ümumi orta (9 illik) və tam orta (11 illik) təhsil səviyyələri üzrə buraxılış imtahanları proqramları;
- ümumi orta (9 illik) və tam orta (11 illik) təhsil səviyyələri üzrə buraxılış imtahanları modellərinə uyğun tapşırıq nümunələri;
- ali təhsil müəssisələrinə və hərbi liseylərə qəbul imtahanları proqramları;
- ali təhsil müəssisələrinə və hərbi liseylərə qəbul imtahanı modellərinə uyğun tapşırıq nümunələri;
- ali təhsil müəssisələrinə qəbul imtahanlarında zəif cavablandırılan tapşırıqların izahlarına dair metodik tövsiyələr;
- ali təhsil müəssisələri, tam orta və ümumi orta təhsil müəssisələrinə qəbul aparılan ixtisaslar və plan yerləri:
- ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu;
- ali təhsil müəssisələrinə, tam orta və ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin siyahısı:
- təhsilin müxtəlif pillə və səviyyələrinə tələbə qəbulunun və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanları nəticələrinin elmi-statistik təhlili.

Metodik vəsaitlər

Bu vəsaitlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin ümümtəhsil məktəbləri üçün qüvvədə olan fənlər üzrə tədris proqramları və dərsliklər əsasında hazırlanmış DİM-in qəbul proqramlarına tam uyğundur və DİM-in qəbul imtahanları proqramı əsasında hazırlanmışdır.

Vəsaitlər şagirdlər, abituriyentlər, fənn müəllimləri üçün nəzərdə tutulsa da, universitetlərin müvafiq fakültələrinin tələbələri də istifadə edə bilərlər.

“Yeni təhsil proqramı (kurikulum) üzrə qiymətləndirmə tapşırıqları” vəsaitləri

Yeni təhsil proqramlarına (kurikulumlara) uyğun hazırlanmış bu vəsaitlərdən istifadə etməklə məktəblilərin təlim nailiyyətlərinin qiymətləndirilməsi həyata keçirilir. Vəsaitdən həm diaqnostik, həm formativ, həm də summativ qiymətləndirmədə istifadə olunur.



5-11-ci siniflər

5-11-ci siniflər

6-11-ci siniflər

6-11-ci siniflər



6-11-ci siniflər

5-11-ci siniflər



6-11-ci siniflər

7-11-ci siniflər

6-11-ci siniflər



5-11-ci siniflər

“İbtidai siniflər üçün qiymətləndirmə tapşırıqları” vəsaitləri

Bu kitabçalar respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan 1-4-cü sinif dərsliklərinin hər bir mövzusu üzrə hazırlanmışdır.

Kitabçaya daxil edilən tapşırıqların hər biri şagirdlərin idrakyönümlü, məntiqi, nəzəri bilik və bacarıqlarını yoxlamağa imkan verir. Bu tapşırıqlarla tədris prosesində diaqnostik, formativ, summativ qiymətləndirmə aparmaq mümkündür.

Kitabçadan ümumi təhsil müəssisələrində qiymətləndirmə vasitəsi kimi, həmçinin pedaqoji yönümlü ali təhsil müəssisələrində və müəllimlər üçün təlim kurslarında metodiki material kimi istifadə oluna bilər.

Test topluları

Bu toplulara DİM (əvvəlki TQDK) tərəfindən müxtəlif illərdə və müxtəlif təyinatlı imtahanlarda, habelə "Abituriyent" jurnalının ayrı-ayrı saylarında dərc edilmiş test modelləri daxildir. Bununla yanaşı, hər topludakı test tapşırıqlarının 25 faizini heç bir imtahanda istifadə olunmamış tapşırıqlar təşkil edir. Onlar test bankındakı tapşırıqların əsas modellərini əhatə edir və gələcəkdə imtahanlara düşməsi istisna olunmur.

Test topluları şagirdlər, abituriyentlər, müəllimlər, test tərtibi ilə məşğul olan mütəxəssislər və ümumiyyətlə, testologiyaya maraq göstərənlər üçün dəyərli örnəkdir. Eyni zamanda, təlim-tədris prosesində biliyin qiymətləndirilməsində istifadə üçün faydalı vəsaitdir.

"Xüsusi qabiliyyət imtahanları" buraxılışları

"Abituriyent" jurnalının xüsusi buraxılışı olan bu jurnalda ali və orta ixtisas təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarının yığcam xarakteristikası, ixtisaslar üzrə kadr hazırlığı aparan təhsil müəssisələri haqqında məlumatlar, bu ixtisaslar üzrə müsabiqə şərtləri, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, çalışmalar, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər, cədvəllər, normativlər, bir sözlə, burada xüsusi qabiliyyət tələb edən ixtisasları seçənlərin marağına uyğun olan, sorğularına aydınlıq gətirən, imtahana hazırlaşmalarına fayda verə bilən ən zəruri materiallar əksini tapıb.

Peşəyönümü xarakterli vəsaitlər

DİM (TQDK) öz fəaliyyətinin xüsusiyyətinə uyğun olaraq hər zaman gənclərin peşə-ixtisas yönümünə kömək göstərilməsinə böyük önəm verib. Bu istiqamət üzrə nəşrləri mövzu dairəsinə görə belə qruplaşdırmaq olar:

- ali təhsil müəssisələri və onların ixtisaslar şəbəkəsi haqqında nəşrlər;
- peşə-ixtisas seçiminə dair psixoloq məsləhətləri, sahə mütəxəssislərinin tövsiyələri;
- beynəlxalq təhsil proqramları haqqında materiallar;
- tələbə qəbulu müsabiqəsində ali və orta ixtisas təhsili müəssisələrinin ixtisasları üzrə formalaşan keçid ballarına aid materiallar;
- "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı vəsaitlər;
- "Ali təhsil müəssisələrinin bakalavr ixtisasları" kitabları;
- "Abituriyentin məlumat kitabı".

Sonuncu iki nəşr ixtisas qruplarına uyğun olaraq 4 kitabdan ibarət hazırlanmışdır. Birinci kitabda (I qrup) 65 ixtisas, ikinci kitabda (II qrup) 19 ixtisas, üçüncü kitabda (III qrup) 43 ixtisas, dördüncü kitabda isə (IV qrup) 22 ixtisas haqqında məlumatlar əksini tapmışdır. Hər bir ixtisas haqqında informasiyada həmin

- ixtisas üzrə kadrların hansı təhsil müəssisəsində hazırlanması;
- ixtisasın xarakteristikası, təyinatı;
- ixtisas üzrə hazırlanan bakalavrlara təhsil müddətində tədris edilən peşə-ixtisas fənləri, həmin fənlər əsasında öyrədilən ixtisas bilik və bacarıqları;
- hazırlanan mütəxəssisin gələcək fəaliyyətinin əsas sahələri və iş yerləri barədə məlumat verilmişdir.

Magistraturaya və rezidenturaya qəbula aid xüsusi buraxılışlar

Bu məcmuələrdə qəbul qaydaları və elanları, qəbul aparılan ixtisaslar, plan yerləri, imtahanların təşkili və keçirilməsinə aid yeniliklər, qəbul olanların siyahısı, ixtisaslar üzrə keçid balları, DİM-in digər qərar, məlumat və elanları, eyni zamanda metodiki materiallar təqdim olunmuşdur.

Rezidenturaya qəbul imtahanlarına hazırlaşanlar üçün vəsaitlər

Vəsaitlər Azərbaycan Tibb Universitetinin tədris proqramı və rezidenturaya qəbul imtahanı proqramı əsasında hazırlanmışdır. Vəsaitlər tərtib olunarkən elmin müasir nailiyyətlərindən istifadə edilmiş, tədris prosesində qarşıya çıxan konkret problemlərə daha çox diqqət yetirilmişdir. Vəsaitlərdən Azərbaycan Tibb Universitetinin, eləcə də tibb təhsili verən digər tədris müəssisələrinin tələbələri və müvafiq fənləri tədris edən müəllimlər istifadə edə bilərlər.

Dövlət qulluğuna qəbul olmaq istəyənlər üçün "Dövlət qulluğu" xüsusi buraxılışları

Dövlətimiz tərəfindən dövlət qulluğu və digər kadr siyasəti məsələlərində daha mükəmməl və şəffaf modelə nail olmaq mədsədilə müntəzəm olaraq müvafiq tədbirlər həyata keçirilir, qanunvericilik bazasında zəruri dəyişikliklər edilir, yeni normativ hüquqi aktlar qəbul olunur. Dövlət İmtahan Mərkəzinin əsas fəaliyyət istiqamətlərindən biri də bu sahədə vahid dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək, dövlət qulluğuna qəbulu mərkəzləşdirilmiş qaydada, müsabiqə əsasında şəffaf şəraitdə aparmaqdan ibarətdir.



DİM ictimaiyyəti bu sahə ilə bağlı maarifləndirməyi və zəruri məlumatlarla təmin etməyi də əsas vəzifələrindən biri hesab edir. "Abituriyent" jurnalının xüsusi buraxılışı olan "Dövlət qulluğu" jurnalının nəşrlərində bilik sahələri üzrə hazırlanmış proqramlar, qanunvericilik bazasında baş verən dəyişikliklər, test tapşırığı nümunələri, müsabiqəyə təqdim olunmuş vakant vəzifələrin siyahısı və digər zəruri məlumatlar təqdim olunmuşdur.

Elmi-statistik araşdırmaların nəticələrinə dair vəsaitlər

Tələbə qəbulu sistemində müasir informasiya texnologiyalarından istifadə olunması həm də ölkədə təhsilin vəziyyətinə dair geniş məlumat bazasına yiyələnməyə imkan verir. Bu məlumatların təhlili, əldə olan materialların pedaqoji ictimaiyyətə çatdırılması, qabaqcıl təcrübənin yayılması, çatışmazlıqların aidiyyəti təşkilatların diqqətinə çatdırılması təhsilin inkişafı ilə bağlı strateji qərarların qəbul olunması üçün mühüm əhəmiyyət kəsb edir. Odur ki, hər il qəbul imtahanlarının nəticələrinə əsasən ölkədə məktəb təhsilinin vəziyyətinin elmi-statistik təhlili aparılır və araşdırmanın nəticələri çap edilib təhsil ictimaiyyətinə çatdırılır. Aparılan elmi-statistik təhlilin tərkib hissələri kimi "Tələbə qəbulunun gender aspektləri" ("Qadınlar statistikada"), "Kənd təsərrüfatı profilli ixtisaslar statistikada" və "Neft-qaz ixtisasları statistikada" adlı kitabçalar hazırlanır. Bunlarla bərabər, ölkənin hər bir rayonunun məzunlarının qəbul imtahanlarındakı göstəricilərini əks etdirən kitabçalar da çap edilib müvafiq təhsil orqanlarına göndərilir. Qəbulun nəticələrinin bu miqyasda, bu səviyyədə araşdırılmasını təhsilin vəziyyətinin monitorinqi də adlandırmaq olar.





Əvvəlki illərdə olduğu kimi, bu il də DİM ali və orta ixtisas təhsili məktəblərinə tələbə qəbulunun nəticələrinə əsasən təhsilin həm ümumilikdə ölkə səviyyəsində, həm də ayrı-ayrı bölgə və məktəblər üzrə göstəriciləri, eləcə də abituriyentlərin ayrı-ayrı fənlər üzrə nəticələri, onların müxtəlif ixtisas qruplarına meyil və maraqları, ali təhsil müəssisələrinə qəbulolma göstəriciləri, yüksək və zəif göstəricili rayon və məktəblər, ali məktəblərin reytinqi, magistraturaya və rezidenturaya qəbulun nəticələri, həmçinin ümumtəhsil müəssisələri şagirdlərinin buraxılış imtahanları üzrə nəticələri və s. məsələlərə dair əhatəli araşdırmalar aparılıb.

DİM 2021-ci ildə: görülmüş işlərin, tədbir və yeniliklərin xronologiyası

Redaksiyamız bu ənənəvi rubrikada Dövlət İmtahan Mərkəzinin cari ildəki fəaliyyətinin xronologiyasını təqdim edir. Burada Mərkəzin 2021-ci ildə gördüyü əsas işlər, həyata keçirdiyi tədbirlər, əldə etdiyi mühüm nailiyyətlər xronoloji ardıcıllıqla əks etdirilib.

- 5 və 7 yanvar tarixlərində beynəlxalq ACCA imtahanları keçirilib. İmtahanlarda 2 nəfər iştirak edib.
- 8 yanvarda DİM-in Direktorlar Şurasının sədri M.Abbaszadə İkinci Qarabağ müharibəsində iştirak edən DİM işçiləri, qurumla uzun illər əməkdaşlıq edən ekspertlər, marker-müəllimlər, imtahan rəhbərləri və nəzarətçilərlə onlayn görüş keçirib.
- 11 yanvar – 18 mart tarixlərində xarici dillər üzrə fənn kurikulumu, tədris və qiymətləndirmə vəsaitlərinin (ingilis dili) təkmilləşdirilməsinə dəstək layihəsinin II mərhələsi həyata keçirilib.
- 11-15 yanvarda müxtəlif peşə sahələri üzrə beynəlxalq imtahanlar (ACCA və Pearson VUE) keçirilib. Bu imtahanlarda 8 nəfər iştirak edib.
- Yanvarın 13-də TOEFL imtahanı keçirilib. İmtahanda 8 yerli vətəndaş və 1 əcnəbi olmaqla 9 nəfər iştirak edib.
- Yanvarın 14-də DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə 2020-ci ildə keçirilən imtahanlarda fərqlənmiş nəzarətçi-müəllimlər və imtahan rəhbərləri ilə onlayn görüş keçirib.
- Yanvarın 15-dən fevralın 28-dək 2021/2022-ci tədris ili üzrə Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin V sinfinə, 2020/2021-ci tədris ili üzrə isə VI, VII, VIII və IX siniflərinə qəbul olmaq üçün şagirdlərin qeydiyyatı aparılıb.
- Yanvarın 15-də 2021/2022-ci tədris ili üçün ali təhsil müəssisələrinin Məşqçilik və Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi ixtisasları üzrə qabiliyyət imtahanlarının məzmununa həsr edilmiş işçi qupunun onlayn iclası keçirilib. İclasda DİM-in Direktorlar Surasının sədri M.Abbaszadə, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının, Azərbaycan Dövlət Pedaqoji Universitetinin müvafiq sahə üzrə mütəxəssisləri və DİM-in Qabiliyyət imtahanları üzrə sektorunun əməkdaşları iştirak ediblər.
- Yanvarın 16-da TOEFL imtahanı keçirilib. İmtahanda 9 nəfər iştirak edib.
- Yanvarın 15-dən aprelin 18-dək fənn kurikulumları əsasında qiymətləndirmə vasitələrinin işlənməsi və onların meyarlar əsasında yoxlanılmasına dair hazırlıq kurslarında iştirak etmək istəyənlərin qeydiyyatı aparılıb.
- DİM-in Metodika və dərsliklərin monitorinqi şöbəsinin əməkdaşları və dərsliklərin monitorinqi ilə məşğul olan ekspertlər 16 yanvar və 6 fevral tarixlərində Təhsil İnstitutu və Sinqapur "Alston" Nəşriyyat Evinin birgə əməkdaşlığı ilə təbiət elmləri üzrə təhsil proqramlarının və dərsliklərin təkmilləşdirilməsi üzrə, 23 və 30 yanvar tarixlərində isə Sinqapur Nəşriyyat evi "Marshall Cavendish" ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən riyaziyyat fənni üzrə təlimlərdə iştirak ediblər.
- Yanvarın 18-dən fevralın 7-dək aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı almaq istəyən namizədlər üçün test imtahanının I mərhələsinə qeydiyyat aparılıb.
- 18-22 yanvar tarixlərində müxtəlif peşə sahələri üzrə beynəlxalq imtahanlar (Perason Vue) keçirilib.
- Yanvarın 19-dan fevralın 19-dək dövlət qulluğunda inzibati rəhbər (A növü) və inzibati icraçı (B növü) vəzifələr üzrə müsabiqənin test imtahanında iştirak etmək üçün qeydiyyat aparılıb.
- Yanvarın 20-də Dövlət İmtahan Mərkəzində 20 Yanvar faciəsinə həsr olunan anım mərasimi keçirilib.
- Yanvarın 21-də Dövlət İmtahan Mərkəzində GRE imtahanı keçirilib. İmtahanda 2 nəfər iştirak edib.

♦ Yanvarın 21-də DİM-də 2021/2022-ci tədris ili üçün ali və orta ixtisas təhsili müəssisələrinin musiqi sənəti istiqamətinə aid xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul imtahanları ilə əlaqədar işçi qrupun onlayn iclası keçirilib.

♦ 22 yanvar – 8 fevral tarixlərində peşəkar mühasib sertifikatı almaq istəyən namizədlərə kömək məqsədi ilə imtahanın 1-ci mərhələsi – mühasibat uçotu üzrə əsas imtahan modelinə uyğun sınaq imtahanlarına qeydiyyat aparılıb.

♦ 23-24 yanvar tarixlərində Dövlət İmtahan Mərkəzində Azərbaycan dili, ingilis dili, riyaziyyat və rus dili fənləri üzrə onlayn hazırlıq kursları keçirilib.

♦ Yanvarın 25-dən martın 5-dək dövlət qulluğunda inzibati rəhbər (A növü) və inzibati icraçı (B növü) vəzifələr üzrə müsabiqənin mart ayında keçiriləcək test imtahanında iştirak etmək üçün qeydiyyat aparılıb.

♦ 25-29 yanvar tarixlərində müxtəlif peşə sahələri üzrə beynəlxalq imtahanlar (ACCA və Pearson Vue) keçirilib.

♦ Yanvarın 26-dan fevralın 7-dək doktorantura və ya dissertanturada təhsil alan iddiaçıların xarici dil üzrə, həmçinin əcnəbi və vətəndaşlığı olmayan iddiaçıların Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanında iştirak etmələri üçün qeydiyyatı aparılıb.

♦ 26 yanvarda Astana Dövlət Qulluğu üzrə Regional Xabın təşkilatçılığı ilə "Dövlət idarəçiliyində insan resurslarına dair məsələlər: çətinliklər və perspektivlər" mövzusunda panel sessiya keçirilib. Tədbirdə DİM-in Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov ölkəmizin dövlət qulluğu sisteminin kadr siyasətində islahatların aparılması istiqamətində mərkəzin həyata keçirdiyi fəaliyyəti haqqında tədbir iştirakçılarına məlumat verib. Tədbirdə, həmçinin DİM-in icraçı direktoru Vəfadar Misirov, Strateji inkişaf və Dövlət qulluğu məsələləri şöbələrinin müdirləri iştirak edərək Regional Xaba üzv olan ölkələrin dövlət qulluğunda insan resurslarının idarə edilməsi prosesinin təşkili və təkmilləşdirilməsi üzrə islahatlarla tanış olub, müzakirələrə qoşulublar.

♦ 28 yanvarda DİM əməkdaşları tərəfindən qabiliyyət imtahanlarına cəlb ediləcək ekspertlərin reyestri – Qabiliyyət İnformasiya Sistemi (QABİS) ilə bağlı növbəti treninq keçirilib. Treninqdə 16 ali və orta ixtisas təhsili müəssisəsinin nümayəndələri iştirak ediblər.

♦ 29 yanvarda DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə mətbuat konfransı keçirib. Konfransda cari ildə keçiriləcək buraxılış və qəbul imtahanları, imtahanların qrafiki, həmçinin digər tədbirlər haqqında məlumat verilib.

♦ 29 yanvarda "Magistr" jurnalının 1 nömrəli buraxılışı nəşr edilib. Jurnalda ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul qaydaları, məntiqi təfəkkür, xarici dillər və informatika üzrə qəbul imtahanı proqramları, həmçinin məntiqi təfəkkürün yoxlanılması üzrə çoxseçimli və açıq tipli test tapşırığı nümunələri Azərbaycan və rus dillərində dərc edilib.

♦ 30-31 yanvar tarixlərində tarix, fizika, kimya, biologiya və coğrafiya fənləri üzrə qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması və onların yoxlanılmasına dair hazırlıq kursları keçirilib.

♦ 30 yanvarda Dövlət İmtahan Mərkəzində ilk ТРКИ (Тест по русскому языку как иностранному) imtahanı təşkil edilib. 1 namizəd dillər üzrə Ümumavropa tövsiyə çərçivə sənədinin (CEFR) səviyyələri ilə uyğunlaşdırılmış ТРКИ imtahanının ən yuxarı səviyyəsi – C2 üzrə imtahan verib.

♦ Yanvarın 31-də TOEFL imtahanı keçirilib. İmtahan DİM-in Abdulvahab Salamzadə küçəsi, 28 ünvanında yerləşən inzibati binasında təlimata uyğun təşkil olunub. İmtahanda 13 nəfər iştirak edib.

♦ 1 fevralda Dövlət İmtahan Mərkəzinin "Psixoloji xidmət" layihəsi çərçivəsində e-psixoloq.az elektron portalı fəaliyyətə başlayıb. Səhifədə müxtəlif mövzularda məqalələr, maraqlı videoçarxlar və psixoloji testlər yerləşdirilib.

♦ 1 fevralda GRE imtahanı keçirilib. İmtahanda 2 nəfər iştirak edib.

♦ 1 fevralda "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda onlayn təlim təşkil edilib. Təlimdə Bakı Şəhəri Nizami Rayon Məhkəməsinin əməkdaşları iştirak ediblər.

♦ 2 fevralda Dövlət İmtahan Mərkəzi «Abituriyent» jurnalının 1-ci nömrəsini nəşr edib. Jurnalın bu nömrəsində ali təhsil müəssisələrinə tələbə qəbulu qaydaları, qəbul imtahanının ikinci mərhələsi üçün I, II, III və IV ixtisas qruplarına daxil olan fənlər üzrə qəbul imtahanı proqramları (o cümlədən tarix fənni üzrə Vətən müharibəsi ilə bağlı əlavə edilmiş yeni mövzular), ədəbiyyat siyahısı, tapşırıq nümunələri, balların hesablanma qaydası, xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul elanları və digər zəruri materiallar dərc olunub.

♦ 2-11 fevral tarixlərində DİM "Alman dili üzrə qiymətləndirmə alətlərinin təkmilləşdirilməsi" layihəsinə iştirakçı qəbulu elan edib.

♦ 3 fevralda DİM-də ICDL (International Computer Driving Licence – Beynəlxalq Kompüter İşlətmə Lisenziyası) imtahanının Professional proqramının "Computing" modulu üzrə imtahanı təşkil edilib. İmtahan 45 dəqiqə müddətində aparılıb və 1 nəfər iştirak edib.

♦ 2 fevral tarixində DİM 2013-cü ildən etibarən keçirilmiş buraxılış imtahanlarında iştirak edən və attestat əldə etmiş məzunlara buraxılış imtahanı nəticələri barədə arayışı onlayn əldə etmək imkanı verən elektron xidmət istifadəyə verib.

♦ 5 fevralda Dövlət İmtahan Mərkəzi Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə birgə prokurorluq orqanlarında işə qəbul olmaq istəyən namizədlər üçün test imtahanı keçirib. İmtahan kompüter vasitəsilə elektron qaydada 2 növbədə keçirilib. İşə qəbul olmaq üçün ərizə təqdim etmiş 412 namizəddən 42 nəfəri imtahana gəlməyib. İmtahanda iştirak etmiş 370 namizəddən 163 nəfər müsabiqə şərtini (70 və daha çox bal) ödəyərək növbəti mərhələyə buraxılıb.

♦ 9 fevralda Dövlət İmtahan Mərkəzi "Rezidentura" xüsusi buraxılışının 1-ci nömrəsini nəşr edib. Bu nömrədə rezidenturaya qəbul qaydaları, rezidentura üzrə ixtisas seçimi cədvəli, baza fənləri üzrə qəbul proqramları, qəbul imtahanında istifadə olunmuş bəzi test tapşırıqlarının izahı və tövsiyələr, test tapşırığı nümunələri və s. məlumatlar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ 9 fevralda "Magistr" jurnalının 2-ci sayı nəşr olunub. Bu nömrədə ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul haqqında elanın tam mətni, "Şəxsi kabinet"in yaradılması və istifadə qaydası, müsabiqə şərtləri, "Bakalavrın elektron ərizəsi" formasının doldurulma qaydası və onun nümunəsi, magistratura səviyyəsinə qəbula hazırlaşan bakalavrlara kömək məqsədilə ümumi intellekt səviyyəsini (məntiqi təfəkkürü) , informatika üzrə bilikləri, xarici dilləri bilmə səviyyəsini yoxlayan test tapşırığı nümunələri dərc edilib.

♦ Fevralın 9-dan 18-dək DİM 2021/2022-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul elan edib.

♦ Fevralın 10-da Dövlət İmtahan Mərkəzi "İnformatika" adlı vəsaitin yenilənmiş nəşrini çap edib. İnformatika üzrə magistraturaya qəbul proqramına uyğun hazırlanmış bu vəsaitdə bütün mövzuların nəzəri şərhi test tapşırıqları ilə müşayiət olunub.

♦ 16 yanvar və 6 fevral tarixlərində Dövlət İmtahan Mərkəzinin Metodika və dərsliklərin monitorinqi şöbəsinin əməkdaşları və dərsliklərin monitorinqi ilə məşğul olan ekspertlər Təhsil İnstitutu və Sinqapur "Alston" Nəşriyyat Evinin birgə əməkdaşlığı ilə təbiət elmləri üzrə təhsil proqramlarının və dərsliklərin təkmilləşdirilməsi, 23 və 30 yanvar tarixlərində isə Sinqapur Nəşriyyat evi "Marshall Cavendish" ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən riyaziyyat fənni üzrə təlimlərdə iştirak ediblər.

♦ Fevralın 10-da TOEFL imtahanı keçirilib. İmtahanlar iki növbədə DİM-in Abdulvahab Salamzadə küçəsi, 28 ünvanında yerləşən inzibati binasında müvafiq sanitar-gigiyenik qaydalara uyğun təşkil olunub. Günün birinci yarısında keçirilən imtahanda 8, ikinci yarısında keçirilən imtahanda isə 12 nəfər iştirak edib.

♦ 11 fevralda Dövlət İmtahan Mərkəzi "Məntiqi təfəkkürü yoxlayan testlər" adlı vəsaitin yeni nəşrini çap edib. "Məntiqi təfəkkürü yoxlayan testlər" vəsaiti ali təhsilin magistratura səviyyəsinə və vakant iş yerlərinə qəbul imtahanlarına hazırlaşanlar üçün tərtib edilib.

♦ Fevralın 11-də DİM əməkdaşları tərəfindən qabiliyyət imtahanlarına cəlb ediləcək ekspertlərin reyestri– Qabiliyyət İnformasiya Sistemi (QABİS) ilə bağlı növbəti treninq keçirilib.

♦ 11 fevralda zal nəzarətçisi sertifikatı əldə etmək istəyən namizədlər üçün test imtahanı keçirilib. Ümumi intellekt səviyyəsinin yoxlanılması üçün imtahan kompüter vasitəsilə 1 saat müddətində elektron qaydada aparılıb. Onlayn treninqdə orta ixtisas təhsili müəssisəsinin nümayəndələri iştirak ediblər.

♦ 12 fevralda Dövlət İmtahan Mərkəzi "Dövlət qurumlarında daxili nəzarət mexanizmlərinin təkmilləşdirilməsi" layihəsinin icrasına başlayıb.

♦ 13 fevralda DİM Ədliyyə Nazirliyi ilə birlikdə ədliyyə orqanlarında işləmək istəyən namizədlər üçün test imtahanı keçirib. İmtahan kompüter vasitəsilə elektron qaydada 2 növbədə təşkil olunub. İmtahanda iştirak üçün namizədliyi qeydə alınmış 268 nəfərdən 27 nəfər imtahana gəlməyib. 55 və daha çox bal toplamış 126 namizəd müsabiqənin ikinci mərhələsinə – müsahibəyə buraxılıb.

♦ 14 Fevralda DİM tərəfindən xarici dillər üzrə doktoranturaya qəbul və xarici dillər üzrə fəlsəfə doktoru imtahanları keçirilib. İmtahanlar Bakı şəhərində 7, Naxçıvan şəhərində 1 binada keçirilib.

♦ Fevralın 19-da dövlət qulluğunda inzibati icraçı (B növü) vəzifələrə aid qruplar üzrə test imtahanları keçirilib. İmtahanda 732 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ Fevralın 19-dan martın 5-dək dövlət qulluğuna qəbul üzrə test imtahanından müvəffəqiyyət əldə etmiş şəxslərin sertifikat əldə etmək üçün qeydiyyatı aparılıb.

♦ Fevralın 20-də fevralın 14-də keçirilən xarici dillər üzrə doktoranturaya qəbul və fəlsəfə doktoru imtahanlarının və fevralın 15-də keçirilən əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar üçün Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanının nəticələri elan edilib. İmtahanlarda 1444 namizəd (1244 nəfər doktoranturaya qəbul, 195 nəfər fəlsəfə doktoru, 5 nəfər Azərbaycan dili imtahanı) iştirak edib. Ümumilikdə 96 nəfər imtahana gəlməyib. 2 nəfər imtahandan xaric olunub.

♦ Fevralın 20-də TOEFL imtahanı keçirilib. İmtahan DİM-in Abdulvahab Salamzadə küçəsi, 28 ünvanında yerləşən inzibati binasında müvafiq sanitar-gigiyenik qaydalara uyğun təşkil olunub. İmtahanda 14 nəfər iştirak edib.

♦ Fevralın 21-də peşəkar mühasib sertifikatı almaq istəyən namizədlər üçün sınaq imtahanı keçirilib.

Sınaq imtahanı İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə – I, II səviyyə PMS-i almaq istəyən namizədlər üçün keçirilib. İmtahanda 50 nəfər iştirak edib.

♦ 22 fevralda Dövlət İmtahan Mərkəzində növbəti GRE:General Test imtahanı keçirilib. İmtahanda 1 nəfər iştirak edib.

♦ 25 fevralda DİM yeni və təcrübəsi az olan nəzarətçi-müəllimlər üçün seminar-məşğələləri yekunlaşdırıb. 15 yanvar – 25 fevral 2021-ci il tarixlərində keçirilən və bütün respublika ərazisini əhatə edən təlimlərə 6496 nəzarətçi-müəllim dəvət olunub.

♦ 26 fevralda DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ilə Gürcüstanın Milli Qiymətləndirmə və İmtahan Mərkəzinin (MQİM) direktoru Sofia Qorqodze, həmçinin hər iki qurumun rəhbər şəxsləri arasında onlayn formada görüş keçirilib. Görüşdə 20 may 2020-ci ildə imzalanan Anlaşma Memorandumunun yenilənməsinə dair məmnunluq ifadə edilib və ötən ilin qurumlar arasında əlaqələrin möhkəmlənməsində əhəmiyyətli olduğu vurğulanıb.

♦ 26 fevralda Dövlət İmtahan Mərkəzinin əməkdaşları, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) və Avropa İttifaqının SIGMA proqramının beynəlxalq ekspertləri arasında dövlət qulluğu sistemi üçün sərişdə modelinin tətbiqi istiqamətində praktiki fəaliyyətin müzakirə edildiyi onlayn görüş keçirilib.

♦ Fevralın 27-də TOEFL imtahanı keçirilib. İmtahan DİM-in Abdulvahab Salamzadə küçəsi, 28 ünvanında yerləşən inzibati binasında təlimata uyğun təşkil olunub. İmtahanda 13 nəfər iştirak edib.

♦ Fevralın 27-də aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı almaq istəyən namizədlər üçün test imtahanının I mərhələsi keçirilib. İmtahana qeydiyyatdan keçən 32 namizəddən 30 nəfəri imtahanda iştirak edib. Onlardan 12 nəfər 72 və daha yüksək bal toplayaraq müvəffəqiyyət əldə edib.

♦ Fevralın 28-də ali təhsil müəssisələrinin magistraturalarına qəbul imtahanı keçirilib. Magistratura səviyyəsinə qəbul imtahanı respublikanın 7 şəhər və rayonunda – Bakı, Sumqayıt, Abşeron, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəranda, ümumilikdə 81 imtahan binasında aparılıb. İmtahanda iştirak etmək üçün 19885 bakalavr ərizə təqdim edib.

♦ 28 fevralda fizika, coğrafiya və tarix fənləri üzrə qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması və ekspertizasına dair hazırlıq kurslarının növbəti məşğələləri keçirilib.

♦ Martın 1-də Dövlət İmtahan Mərkəzində növbəti GRE: General Test imtahanı keçirilib. İmtahanda 1 nəfər iştirak edib.

♦ Martın 2-də Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına fevralın 28-də keçirilmiş qəbul imtahanının nəticələrini elan edib. İmtahanda iştirakı nəzərdə tutulan 19885 bakalavrdan 256 nəfəri imtahana gəlməyib.

♦ Martın 3-də hakim vəzifəsinə qəbul olmaq istəyən namizədlər üçün test imtahanı keçirilib. 155 nəfər müsabiqə şərtini ödəyərək növbəti mərhələyə buraxılıb.

♦ Martın 5-də Dövlət İmtahan Mərkəzi Vəkillər Kollegiyası ilə birgə 2021-ci il martın 5-də Vəkillər Kollegiyasına üzv olmaq istəyən namizədlər üçün test imtahanı keçirib.

♦ Martın 7-də dövlət qulluğunda inzibati rəhbər (A növü) və inzibati icraçı (B növü) vəzifələrə aid olan vəzifə qrupları üzrə test imtahanları keçirilib. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçən 57 nəfərdən 52 nəfər imtahana gəlib. 8 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ 6-7 martda Azərbaycan dili, riyaziyyat, biologiya, kimya və tarix fənləri üzrə qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması və ekspertizasına dair hazırlıq kurslarının növbəti məşğələləri keçirilib.

♦ Martın 9-da ilk peşə-ixtisas təhsili müəssisələrinin tədrisi Azərbaycan dilindən fərqli dildə olan bölmələrinin şagirdləri üçün buraxılış imtahanı çərçivəsində Azərbaycan dili (dövlət dili) imtahanı keçirilib. İmtahanda iştirakı nəzərdə tutulan 94 nəfərdən 4 nəfər imtahana gəlməyib.

♦ Martın 9-da 7 martda keçirilmiş inzibati icraçı (B növü) vəzifələrə aid olan vəzifə qrupları üzrə test imtahanının nəticələri elan olunub. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçən 1855 namizəddən 70 nəfər imtahana gəlməyib. 554 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ Martın 9-da "Yüksəliş" müsabiqəsinin İşçi Qrupu tərəfindən növbəti vebinar keçirilib. Vebinarda Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə "Uğurlu karyera və xoşbəxt insan tənliyinin gender aspektləri" mövzusunda təqdimatla çıxış edib. Məleykə Abbaszadə iştirakçılara tövsiyələrində bildirib ki, karyera seçimlərində, iş prinsiplərində qərarlı olsunlar, özlərinə, biliklərinə güvənsinlər, bacarıqları üzərində daim çalışsınlar. "Öz işini dərindən bilmək, öyrənmək çox vacibdir, bunlar insanı həm də xoşbəxt edən amillərdəndir".

♦ Martın 10-da TOEFL iBT imtahanı keçirilib. İmtahan DİM-in Abdulvahab Salamzadə küçəsi, 28 ünvanında yerləşən inzibati binasında müvafiq sanitar-gigiyenik qaydalara uyğun təşkil olunub. İmtahanda 4 nəfər iştirak edib.

♦ 9-10 mart tarixlərində Dövlət İmtahan Mərkəzində Azərbaycan dili, riyaziyyat, kimya, fizika, biologiya, coğrafiya və tarix fənləri üzrə hazırlıq kurslarının Bakı şəhəri üzrə qeydiyyatdan keçmiş iştirakçıları buraxılış və qəbul imtahanlarında istifadə edilən, cavabı yazı ilə ifadə olunan tapşırıqların kompüterdə xüsusi proqram vasitəsilə yoxlanılması (kalibrləmə) prosesindən keçiblər.

♦ 10 martda fənlər üzrə işçi qrupları tərəfindən dərsliklər məzmun, dil və yazı üslubu, dizayn və bədii tərtibat, tapşırıqların məzmuna uyğunluğu baxımından müzakirə edilib. Dövlət İmtahan Mərkəzində respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan 5-11-ci sinif "Русский язык", "Литература" və "Fizika" dərsliklərinin elmi-metodiki monitorinqi aparılıb.

♦ Martın 12-dən aprelin 11-dək dövlət qulluğunda inzibati icraçı (B növü) vəzifələr üzrə müsabiqənin aprel ayında keçiriləcək test imtahanında iştirak etmək üçün qeydiyyat aparılıb.

♦ 11-12 mart tarixlərində Dövlət İmtahan Mərkəzində ümumtəhsil müəssisələrində qüvvədə olan 5-11-ci sinif "Tarix", "Biologiya", "Riyaziyyat" və "Coğrafiya" dərsliklərinin elmi-metodiki monitorinqi aparılıb.

♦ 13 mart 2021-ci ildə DİM Dövlət Vergi Xidməti ilə birgə vergi orqanlarına işə qəbul olmaq istəyən namizədlər üçün test imtahanı keçirib. İmtahanda iştirak etmək üçün 1370 namizəd qeydiyyatdan keçib. Onlardan 126 namizəd imtahana gəlməyib. 67 namizəd müsabiqə şərtini ödəyərək – 70 və daha yüksək bal toplamaqla ikinci mərhələyə – müsahibəyə buraxılıb.

♦ Martın 13-də TOEFL iBT və SAT imtahanları keçirilib. SAT imtahanında 3 əcnəbi olmaqla 58 nəfər iştirak edib. TOEFL iBT imtahanında isə 1 əcnəbi olmaqla 14 nəfər iştirak edib.

♦ 15 martda martın 14-də keçirilən Dövlət Sərhəd Xidməti Xüsusi Məktəbinin V, VI, VII, VIII və IX sinfinə qəbul imtahanlarının nəticələri elan edilib. İmtahanlarda iştirakı nəzərdə tutulan 3074 nəfərdən 62 nəfər imtahana gəlməyib.

♦ Martın 15-də İngilis dili 4-cü sinif və Русский язык 3-cü siniflər üçün qiymətləndirmə tapşırıqları vəsaitləri nəşr olunub.“İbtidai siniflər üçün qiymətləndirmə tapşırıqları” vəsaitləri Dövlət İmtahan Mərkəzi tərəfindən ibtidai sinif şagirdləri üçün fənn kurikulumunun təlim nəticələri əsasında hazırlanıb.

♦ 15 martda 13 dövlət orqanında inzibati vəzifələrin 4-7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə ümumi müsahibə elanı verilib.

♦ 15 martda mərkəzi icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanları olmaqla inzibati dövlət qulluğu vəzifələrinin 4-7-ci təsnifatı üzrə A və B növünə aid olan ümumilikdə 31 dövlət orqanında 521 vakant vəzifənin tutulması üçün müsabiqənin müsahibə mərhələsi elan edilib.

♦ 15 martda ilk peşə-ixtisas təhsili müəssisələrinin sonuncu sinfində təhsil alan şagirdlər üçün martın 7-də keçirilmiş buraxılış imtahanının nəticələri elan olunub. İmtahanda iştirakı nəzərdə tutulan 3254 nəfərdən 54 nəfər imtahana gəlməyib.

♦ Martın 16-da Dövlət İmtahan Mərkəzi yeni təhsil proqramı üzrə imtahana hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün “Coğrafiya” adlı vəsait nəşr edib.

♦ Martın 18-də 11 yanvar – 18 mart tarixlərini əhatə edən Dövlət İmtahan Mərkəzinin ABŞ-ın Azərbaycandakı Səfirliyinin dəstəyi ilə Təhsil Nazirliyinin Təhsil İnstitutu ilə birlikdə həyata keçirdiyi “Xarici dil üzrə fənn kurikulumu, dərsliklər və qiymətləndirmə vəsaitlərinin (ingilis dili) təkmilləşdirilməsinə dəstək” layihəsinin II mərhələsi uğurla başa çatıb. 32 təlim və konsultasiya sessiyasından ibarət olan II mərhələ ərzində təlim iştirakçıları dərsliklərin yazılması zamanı riayət edilməli addımlar və istinad edilməli mənbələr, kommunikativ bacarıqların inkişaf etdirilməsi üçün tapşırıqların hazırlanması yolları barədə məlumatlandırılıb.

♦ Martın 24-də və 27-də TOEFL iBT imtahanları keçirilib. İmtahanlar DİM-in Abdulvahab Salamzadə küçəsi, 28 ünvanında yerləşən inzibati binasında müvafiq sanitar-gigiyenik qaydalara uyğun təşkil olunub. İmtahanlarda ümumilikdə 19 nəfər iştirak edib.

♦ Martın 26-da GRE imtahanı olunub. İmtahanda 1 nəfər iştirak edib.

♦ Martın 25-də DİM və ACCA-in Türkiyə nümayəndəliyi arasında birgə əməkdaşlığa dair görüş keçirilib.

♦ 29 martdan 30 aprelədək YƏİ-nin Bakı nümayəndəliyi tərəfindən DİM-in dəstəyi ilə təşkil ediləcək TYS imtahanı üçün qeydiyyat aparılıb.

♦ Martın 30-da Dövlət İmtahan Mərkəzi tərəfindən “ТРКИ - beynəlxalq rus dili imtahanı” ilə əlaqədar seminar təşkil edilib. Seminar onlayn qaydada rus dilində keçirilib. Tədbirdə 25 nəfər rus dilini tədris edən müəllim, Rusiya universitetlərinə daxil olmaq istəyən tələbələr və rus dilini öyrənmək, biliklərini qiymətləndirmək istəyən şəxslər iştirak ediblər.

♦ 1 apreldə Dövlət İmtahan Mərkəzi və DAAD-ın Azərbaycandakı nümayəndəliyinin əməkdaşlıq layihəsi uğurla tamamlanıb. “Alman dili üzrə qiymətləndirmə alətlərinin təkmilləşdirilməsi” layihəsi çərçivəsində təşkil olunan təlim proqramı 10 sessiyadan ibarət olmaqla 24 fevral – 1 aprel 2021-ci il tarixlərini əhatə edib.

♦ Aprelin 2-dən 25-dək “PTE Academic ilə tanışlıq” vebinarına qeydiyyat aparılıb.

♦ 2 apreldə GRE imtahanı keçirilib. İmtahanda 1 nəfər iştirak edib.

♦ 5-9 aprel tarixlərində 2021/2022-ci tədris ili üçün Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Əlaqələr Universitetinə Azərbaycan Respublikası vətəndaşları üçün tələbə qəbulu elan edilib.

♦ 5 apreldə DİM və Sankt-Peterburq Dövlət Universitetinin (SPDU) birgə təşkilatçılığı ilə "ТРКИ – Rus dili imtahanlarına necə hazırlaşmalı" adlı seminar keçirilib.

♦ Aprelin 8-dən mayın 8-dək DİM tərəfindən aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı almaq istəyən namizədlər üçün qeydiyyat aparılıb.

♦ Aprelin 9-da “Dövlət idarəçiliyində yenidən düşünülmüş liderlik: Postsovet ölkələrində çətinliklər və perspektivlər” mövzusunda Dövlət qulluğu üzrə Astana Regional Xabı tərəfindən panel sessiya təşkil edilib. Panel sessiyanın məqsədi qeyd olunan ölkələrdə dövlət idarəçiliyi sahəsində liderliyin təhlili və əhatəli xülasəsinin təmin edilməsi, həmçinin gələcək inkişaf perspektivlərinin müəyyən edilməsi olub.

♦ Aprel 10-da TOEFL iBT imtahanı keçirilib. İmtahan DİM-in Abdulvahab Salamzadə küçəsi, 28 ünvanında yerləşən inzibati binasında müvafiq sanitar-gigiyenik qaydalara uyğun təşkil olunub. İmtahanda 14 nəfər iştirak edib.

♦ 11 apreldə dövlət qulluğunda inzibati icraçı (B növü) vəzifələrə aid olan vəzifə qrupları üzrə test imtahanı keçirilib.

♦ Aprelin 12-dən 16-dək Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı almaq üçün keçirilmiş test imtahanının I mərhələsində uğur qazanaraq Aqrar Sığorta Fondunun təşkil etdiyi təlimlərə cəlb olunmuş namizədlərin II mərhələ üçün qeydiyyatı aparılıb.

♦ Aprelin 12-də inzibati vəzifələrin B növünə aid olan vəzifə qrupları üzrə dövlət qulluğuna qəbul olmaq üçün aprelin 11-də keçirilən test imtahanının nəticələri elan olunub. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş 1370 namizəddən 43 nəfər imtahana gəlməyib. 482 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ 13 apreldə xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmaq istəyənlər üçün "Xüsusi qabiliyyət imtahanları" jurnalının 2021-ci il üçün 1-ci nömrəsi nəşr edilib.

♦ Aprelin 13-də notariat fəaliyyəti ilə məşğul olmaq məqsədilə şəhadətnamə almaq istəyən namizədlər üçün test imtahanı keçirilib. İmtahanda iştirak etmək üçün 60 namizəd qeydiyyatdan keçib. 7 namizəd imtahana gəlməyib. 28 namizəd müsabiqə şərtini ödəyərək – 55 və daha yüksək bal toplamaqla ikinci mərhələyə – müsahibəyə buraxılıb.

♦ 14 apreldən DİM tərəfindən dövlət qulluğuna qəbul üzrə test imtahanlarında uğur qazanaraq sertifikat əldə etmiş şəxslər üçün yeni elektron xidmətlər istifadəyə verilib. Bu xidmətlərdən biri dövlət qulluğu sertifikatının elektron surətinin çap edilməsinə, digəri isə həmin surətin aid olduğu dövlət qulluğu sertifikatının həqiqiliyinin tələb olunan yerdə onlayn qaydada yoxlanılmasına imkan yaradıb.

♦ Aprelin 15-də tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları keçirilib. İmtahanlar 11 şəhər və rayonda təşkil olunub. İmtahanların keçirilməsi üçün ümumilikdə 36 imtahan binası, 634 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 36 ümumi imtahan rəhbəri, 107 imtahan rəhbəri, 763 nəzarətçi-müəllim, 72 buraxılışı təşkil edən əməkdaş (mühafizə), 36 bina nümayəndəsi ayrılıb.

♦ 15 apreldə "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda onlayn təlim təşkil edilib. Təlimdə Dövlət Turizm Agentliyinin əməkdaşları iştirak ediblər.

♦ Aprelin 16-da tam (11 illik) orta təhsil səviyyəsi üzrə növbəti buraxılış imtahanları keçirilib. İmtahanların təşkil edilməsi üçün ümumilikdə 79 imtahan binası, 1367 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 79 ümumi imtahan rəhbəri, 227 imtahan rəhbəri, 1727 nəzarətçi-müəllim, 158 buraxılışı təşkil edən əməkdaş (mühafizə), 79 bina nümayəndəsi ayrılıb.

♦ 17 apreldə aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı almaq istəyən namizədlər üçün test imtahanının II mərhələsi keçirilib. II mərhələ üzrə test imtahanında iştirak etmək üçün qeydiyyatdan keçən 18 namizədin hamısı imtahana gəlib. Onlardan 14 nəfər 84 və daha yüksək bal toplayaraq imtahandan uğur qabanıb.

♦ Aprelin 14-dən mayın 14-dək dövlət qulluğunda inzibati rəhbər (A növü) vəzifələr üzrə müsabiqənin test imtahanına qeydiyyat elan edilib.

♦ 20 apreldə Dövlət İmtahan Mərkəzi fransız dili üzrə bilik və bacarıqların qiymətləndirilməsinin təkmilləşdirilməsi məqsədilə qiymətləndirmə ekspertlərinin peşəkar inkişafı istiqamətində Azərbaycanda fəaliyyət göstərən Fransız İnstitutu (İFA) ilə əməkdaşlığa başlayıb.

♦ Aprelin 22-də tam (11 illik) orta təhsil səviyyəsi üzrə növbəti buraxılış imtahanları keçirilib. İmtahanlar 10 şəhər və rayonda keçirilib. İmtahanların təşkil edilməsi üçün ümumilikdə 41 imtahan binası, 696 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 41 ümumi imtahan rəhbəri, 115 imtahan rəhbəri, 836 nəzarətçi-müəllim, 82 buraxılışı təşkil edən əməkdaş (mühafizə), 41 bina nümayəndəsi cəlb edilib.

♦ Aprelin 23-də tam (11 illik) orta təhsil səviyyəsi üzrə növbəti buraxılış imtahanları keçirilib. İmtahanlar 16 şəhər və rayonda keçirilib.İmtahanların təşkil edilməsi üçün ümumilikdə 85 imtahan binası, 1359 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 85 ümumi imtahan rəhbəri, 225 imtahan rəhbəri, 1712 nəzarətçi-müəllim, 170 buraxılışı təşkil edən əməkdaş (mühafizə), 85 bina nümayəndəsi ayrılıb.

♦ 24-25 aprel tarixlərində Dövlət İmtahan Mərkəzi tərəfindən riyaziyyat, kimya, biologiya, coğrafiya və ingilis dili fənləri üzrə qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və açıq tipli tapşırıqların yoxlanılmasına dair hazırlıq kursları keçirilib.

♦ Aprelin 23-də DİM-də TOEFL iBT imtahanı keçirilib. İmtahanda 14 nəfər iştirak edib.

♦ Aprelin 24-də GRE imtahanı təşkil olunub. İmtahanda 1 nəfər iştirak edib.

♦ 26 apreldə 15 mart 2021-ci il tarixində elan edilmiş ümumi müsahibələrin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 11 dövlət orqanında mövcud olan 45 vakant vəzifə ümumi müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə 224 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ 26 apreldə 15 mart 2021-ci il tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsinin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 29 dövlət orqanında mövcud olan inzibati dövlət qulluğu vəzifələrinə aid 507 vakant vəzifə müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə qeydiyyatdan keçmiş 1188 namizədlə 1560 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ Aprelin 27-dən buraxılış və qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə vasitələrinin hazırlanması və onların meyarlar əsasında yoxlanılmasına dair hazırlıq kurslarında iştirak etmək istəyənlərin qeydiyyatı aparılıb.

♦ 27 apreldə DİM və Pearson VUE təşkilatının birgə təşkilatçılığı ilə "PTE Academic ilə tanışlıq" adlı onlayn seminar keçirilib.

♦ 29 apreldə GRE: General Test imtahanı keçirilib. İmtahanda 2 nəfər iştirak edib.

♦ 29 apreldə tam (11 illik) orta təhsil səviyyəsi üzrə növbəti buraxılış imtahanları keçirilib. İmtahanların təşkil edilməsi üçün ümumilikdə 69 imtahan binası, 1024 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 69 ümumi imtahan rəhbəri, 166 imtahan rəhbəri, 1271 nəzarətçi-müəllim, 116 buraxılışı təşkil edən əməkdaş (mühafizə), 69 bina nümayəndəsi ayrılıb.

♦ Aprelin 30-dan mayın 8-dək ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul imtahanının ikinci cəhdində iştirak etmək üçün qeydiyyat elan edilib.

♦ Aprelin 30-da tam (11 illik) orta təhsil səviyyəsi üzrə növbəti buraxılış imtahanları keçirilib. İmtahanlar 15 şəhər və rayonda keçirilib. İmtahanların təşkil edilməsi üçün ümumilikdə 81 imtahan binası, 1343 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 81 ümumi imtahan rəhbəri, 220 imtahan rəhbəri, 1666 nəzarətçi-müəllim, 161 buraxılışı təşkil edən əməkdaş (mühafizə), 81 bina nümayəndəsi ayrılıb.

♦ 1-2 may tarixlərində qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və açıq tipli tapşırıqların yoxlanılmasına dair hazırlıq kurslarında Azərbaycan dili, fizika və tarix fənləri üzrə ilk məşğələlər, kimya, biologiya, ingilis dili fənləri üzrə isə növbəti məşğələlər keçirilib.

♦ 3 mayda GRE imtahanı təşkil olunub. İmtahanda 1 nəfər iştirak edib.

♦ 4 mayda Dövlət İmtahan Mərkəzi “Cambridge Assessment English” imtahanlarının keçirilməsinə dair lisenziya əldə edib.

♦ Mayın 6-da tam (11 illik) orta təhsil səviyyəsi üzrə 15-16 aprel 2021-ci il tarixlərində keçirilmiş buraxılış imtahanlarının nəticələri elan olunub. Bu imtahanlarda iştirakı nəzərdə tutulan 26491 nəfərdən 376 nəfər imtahana gəlməyib. Tələb olunan imtahan qaydalarını pozduğu üçün 7 nəfərin nəticəsi ləğv olunub.

♦ 7 mayda “Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları” mövzusunda onlayn təlim keçirilib. Təlimdə Dövlət İmtahan Mərkəzinin əməkdaşları və müstəqil ekspertlər iştirak ediblər.

♦ 8 və 11 may 2021-ci il tarixlərində Dövlət İmtahan Mərkəzi tərəfindən qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması və onların yoxlanılmasına dair hazırlıq kurslarının rus dili fənni üzrə ilk məşğələsi, Azərbaycan dili və fizika fənləri üzrə isə növbəti məşğələləri keçirilib.

♦ Mayın 8-də SAT (SAT və SAT Subject) imtahanları təşkil olunub. İmtahanlarda ümumilikdə 90 nəfər iştirak edib (87 nəfər SAT, 3 nəfər isə SAT Subject olmaqla). İştirakçıların 5-i əcnəbi olub.

♦ Mayın 8-dən 23-dək Dövlət İmtahan Mərkəzi ETS Global təşkilatı ilə əməkdaşlıq çərçivəsində “TOEFL iBT® & Home Edition” imtahanları ilə tanışlıq vebinarına qeydiyyat elan edib.

♦ Mayın 15-də DİM-də müvafiq sanitar-gigiyenik qaydalara uyğun TOEFL iBT imtahanları keçirilib. Günün birinci yarısında keçirilən imtahanda 8, ikinci yarısında keçirilən imtahanda isə 12 nəfər iştirak edib.

♦ Mayın 16-da dövlət qulluğunda inzibati rəhbər (A növü) vəzifələrə aid olan vəzifə qrupları üzrə test imtahanları keçirilib. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçən 61 nəfərdən 60 nəfər imtahana gəlib. İmtahanda 2 namizəd uğur qazanıb.

♦ 17 mayda orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyənlər üçün "Xüsusi qabiliyyət imtahanları" jurnalının 2021-ci il 2-ci nömrəsi nəşr edilib.

♦ 17-25 may tarixlərində 2021/2022-ci tədris ili üçün Rusiya Federal Gömrük Xidməti Rusiya Gömrük Akademiyasına "Gömrük işi" ixtisası üzrə tələbə qəbulu elan edilib.

♦ 17 maydan 10 iyunadək dövlət qulluğunda inzibati icraçı (B növü) vəzifələr üzrə müsabiqənin iyun ayında keçiriləcək test imtahanında iştirak etmək üçün qeydiyyat elan edilib.

♦ 17 mayda tam (11 illik) orta təhsil səviyyəsi üzrə 22-23 aprel tarixlərində keçirilmiş buraxılış imtahanlarının nəticələri elan olunub. Bu imtahanlarda iştirakı nəzərdə tutulan 26469 nəfərdən 277 nəfər imtahana gəlməyib. Tələb olunan imtahan qaydalarını pozduğu üçün 2 nəfərin nəticəsi ləğv olunub.

♦ 19 mayda "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda onlayn formada təlim təşkil edilib. Təlimdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşları iştirak ediblər.

♦ 18-19 mayda Dövlət İmtahan Mərkəzi tərəfindən Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə birgə SIGMA proqramı çərçivəsində dövlət qulluğunda "Səriştə modelinin təsdiqlənməsi" üzrə pilot layihənin növbəti onlayn təlimi keçirilib. Pilot layihə üzrə təlimin keçirilməsində əsas məqsəd iştirakçıların vəzifə təhlili və səriştələrin hazırlanmasına dair bacarıqlarını inkişaf etdirmək və praktiki məşğələlər vasitəsilə situasiya əsaslı müsahibə üsulları haqqında biliklərini inkişaf etdirmək olub.

♦ Mayın 20-dən 28-dək ETS Global təşkilatı ilə əməkdaşlıq çərçivəsində "The GRE® General Test: Insights You Need" vebinarına qeydiyyat elan edilib. Vebinarın məqsədi GRE imtahanına qeydiyyat, imtahanın strukturu, nəticələr və hazırlıq resursları barədə məlumat vermək olub.

♦ 20 mayda DİM-in nümayəndəsi Azərbaycan Respublikası və Birləşmiş Krallığın birgə təşkil olunan Hökumətlərarası Əməkdaşlıq Komissiyasının 4-cü iclasında onlayn şəkildə iştirak edib. İclasda tərəflər arasında təhsildə qiymətləndirmə, dövlət qulluğu və digər sahələr üzrə əməkdaşlıq edilməsi ilə bağlı razılıq əldə olunub.

♦ 21 mayda mayın 20də keçirilən "Azərbaycan dili" fənni (dövlət dili kimi) üzrə imtahanın nəticələri elan olunub. İmtahanda iştirakı nəzərdə tutulan 17987 abituriyentdən 396 nəfəri imtahana gəlməyib. Tələb olunan qaydaları pozduğu üçün 1 nəfərin imtahan nəticəsi ləğv olunub.

♦ Mayın 22-də DİM-in Abdulvahab Salamzadə küçəsi, 28 ünvanında yerləşən inzibati binasında müvafiq sanitar-gigiyenik qaydalara uyğun TOEFL iBT imtahanı keçirilib. İmtahanda 11 nəfər iştirak edib.

♦ 24 maydan 22 iyunadək 13 dövlət orqanında inzibati vəzifələrin 3-7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə ümumi müsahibə elanı verilib.

♦ Mayın 24-dən iyunun 22-dək mərkəzi icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanları olmaqla inzibati dövlət qulluğu vəzifələrinin 4-7-ci təsnifatı üzrə A və B növünə aid olan ümumilikdə 22 dövlət orqanında 177 vakant vəzifənin tutulması üçün müsabiqənin müsahibə mərhələsi elan edilib.

♦ 24 may tarixində "The TOEFL iBT® Test and TOEFL iBT Home Edition: Insights you need" adlı vebinar təşkil edilib. Vebinar "Zoom" platforması vasitəsilə ingilis dilində keçirilib. Tədbirə ingilis dilini tədris edən müəllimlər və ingilis dilini öyrənmək, bacarıqlarını qiymətləndirmək istəyən 28 nəfər qoşulub.

♦ 26 mayda "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda onlayn formada təlim təşkil edilib. Təlimdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları iştirak ediblər.

♦ Mayın 26-dan iyunun 4-dək 2021/2022-ci tədris ili üçün rezidenturaya qəbul elan edilib.

♦ 26 mayda tam (11 illik) orta təhsil səviyyəsi üzrə 29-30 aprel 2021-ci il tarixlərində keçirilmiş buraxılış imtahanlarının nəticələri elan olunub. Bu imtahanlarda iştirakı nəzərdə tutulan 30525 nəfərdən 423 nəfər imtahana gəlməyib. Tələb olunan imtahan qaydalarını pozduğu üçün 6 nəfərin nəticəsi ləğv olunub.

♦ 26 mayda Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ali və orta ixtisas təhsili müəssisələrinə, həmçinin rezidenturaya sənəd qəbulunun başlanması ilə əlaqədar mətbuat konfransı keçirib.

♦ 26 mayda ali təhsil müəssisələrinin magistraturalarına qəbul imtahanı (II cəhd) keçirilib. Magistratura səviyyəsinə qəbul imtahanı respublikanın 7 şəhər və rayonunda – Bakı, Sumqayıt, Abşeron, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəranda, ümumilikdə 63 imtahan binasında aparılıb. Binalarda bakalavrların rahat imtahan verməsi üçün zəruri şərait yaradılıb. İmtahanda iştirak üçün 14693 bakalavr ərizə təqdim edib. İmtahanın idarə olunmasına 63 ümumi imtahan rəhbəri, 169 imtahan rəhbəri, 1365 nəzarətçi-müəllim, 126 buraxılış rejimi əməkdaşı (mühafizə), 63 bina nümayəndəsi cəlb olunub.

♦ Mayın 26-da "Rezidentura" jurnalının 2-ci sayı nəşr edilib. Qəbul elanının tam mətni, "Şəxsi kabinet"in yaradılması və istifadə qaydası, rezidenturaya ərizə verən namizəd üçün təlimat, "Namizədin elektron ərizəsi"nin doldurulma qaydası, onun nümunəsi, rezidenturaya ixtisas fənləri üzrə qəbul imtahanı proqramları, test tapşırığı nümunələri və digər materiallar Azərbaycan və rus dillərində "Rezidentura" jurnalının 2-ci sayında təqdim edilib.

♦ Mayın 26-dan iyunun 8-dək 2021/2022-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu elan edilib.

♦ 28 mayda ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına 2021-ci il mayın 26-da keçirilmiş qəbul imtahanının II cəhdinin nəticələri elan edilib. İmtahanda iştirakı nəzərdə tutulan 14693 bakalavrdan 265 nəfəri imtahana gəlməyib.

♦ Mayın 30-da "Abituriyent" jurnalının 2‑ci nömrəsi çap edilib. Bu nömrədə 2021/2022-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu elanının tam mətni, ixtisaslar üzrə müsabiqə şərtləri, ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə müsabiqə şərtləri və digər zəruri materiallar dərc edilib.

♦ 31 may – 7 iyun tarixlərində ali təhsil müəssisələrinin və 11 illik təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyən abituriyentlərin qeydiyyatı aparılıb.

♦ 31 may tarixində "The GRE General Test: Insights You Need" adlı vebinar təşkil edilib. Tədbirə ingilis dilini tədris edən müəllimlər və ingilis dilini öyrənmək, bacarıqlarını qiymətləndirmək istəyən 53 nəfər qoşulub.

♦ 31 may – 6 iyun tarixlərini əhatə edən DİM-in həyata keçirdiyi "Xarici dil fənn kurikulumu, dərsliklər və qiymətləndirmə vəsaitlərinin (ingilis dili) təkmilləşdirilməsinə dəstək" layihəsinin III mərhələsi çərçivəsində yeni tərtib edilmiş 6-cı sinif ingilis dili dərsliyi beynəlxalq ekspert, Kaliforniya Universitetinin (Fullerton şəhəri) professoru Nathan Carr tərəfindən təhlil edilib.

♦ İyunun 1-dən 6-dək ali təhsil müəssisələrinin magistraturalarının jurnalistika üzrə ixtisaslaşmalarına qəbul üçün keçirilən qabiliyyət imtahanına qeydiyyat aparılıb.

♦ İyunun 1-dən 5-dək magistraturada 68, 69 və 70 saylı qəbul proqramlarına aid ixtisaslaşmaları seçmək istəyən bakalavrların qeydiyyatı aparılıb.

♦ 2 iyunda ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları keçirilib. İmtahanlar 12 şəhər və rayonda təşkil olunub. İmtahanların təşkil edilməsi üçün ümumilikdə 87 imtahan binası, 1446 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 87 ümumi imtahan rəhbəri, 236 imtahan rəhbəri, 1757 nəzarətçi-müəllim, 174 buraxılışı rejimi əməkdaşı (mühafizə), 87 bina nümayəndəsi ayrılıb. İmtahanlarda 18609 şagirdin iştirakı nəzərdə tutulub. Mərkəz tərəfindən pandemiya şəraitinin tələblərinə əsasən iştirakçıların yalnız tibbi maska ilə imtahan binasına daxil olmasına icazə verilib. Buraxılış rejimi yeni qaydalara uyğun şəkildə tənzimlənib, imtahan heyəti müvafiq qoruyucu vasitələrlə (əlcək, üz sipəri, tibbi maska və s.) təmin olunub.

♦ 3 iyunda ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə növbəti buraxılış imtahanları keçirilib. İmtahanlar respublikanın 16 şəhər və rayonunda təşkil olunub. İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 98 imtahan binası, 1605 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 98 ümumi imtahan rəhbəri, 267 imtahan rəhbəri, 1945 nəzarətçi-müəllim, 196 buraxılışı rejimi əməkdaşı (mühafizə), 98 bina nümayəndəsi ayrılıb. Bu gün keçiriləcək imtahanlarda 20438 şagirdin iştirakı nəzərdə tutulub.

♦ İyunun 5-də TOEFL iBT və SAT Subject imtahanları keçirilib. SAT imtahanında 1 əcnəbi olmaqla 51 nəfər iştirak edib. TOEFL iBT imtahanında isə 1 əcnəbi olmaqla 14 nəfər iştirak edib.

♦ 5 iyunda ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə 2-3 iyun 2021-ci il tarixlərində keçirilmiş buraxılış imtahanlarının nəticələri elan olunub. Bu imtahanlarda iştirakı nəzərdə tutulan 39047 nəfərdən 538 nəfər imtahana gəlməyib. Tələb olunan imtahan qaydalarını pozduğu üçün 7 nəfərin nəticəsi ləğv olunub.

♦ İyunun 7-dən 13-dək 2021-2022-ci tədris ili üçün doktoranturaya və dissertanturaya xarici dil üzrə qəbul imtahanında iştirak etmək üçün qeydiyyat aparılıb.

♦ İyunun 7-dən 13-dək iddiaçıların xarici dil üzrə, həmçinin, əcnəbi və vətəndaşlığı olmayan iddiaçıların Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanında iştirak etmələri üçün qeydiyyat elan edib.

♦ 9 iyunda ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə növbəti buraxılış imtahanları keçirilib. İmtahanlar respublikanın 15 şəhər və rayonunda təşkil olunub. İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 96 imtahan binası, 1638 imtahan zalı ayrılıb. İmtahanların idarəolunmasına 96 ümumi imtahan rəhbəri, 271 imtahan rəhbəri, 2048 nəzarətçi-müəllim, 192 buraxılışı rejimi əməkdaşı (mühafizə), 96 bina nümayəndəsi ayrılıb. İmtahanlarda 21423 şagirdin iştirakı nəzərdə tutulub.

♦ 10 iyunda ümumi (9 illik) orta təhsil səviyyəsi növbəti buraxılış imtahanları keçirilib. İmtahanlar 12 şəhər və rayonda keçirilib. İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 101 imtahan binası, 1695 imtahan zalı ayrılıb. İmtahanların idarəolunmasına 101 ümumi imtahan rəhbəri, 278 imtahan rəhbəri, 2118 nəzarətçi-müəllim, 202 buraxılışı rejimi əməkdaşı (mühafizə), 101 bina nümayəndəsi ayrılıb. İmtahanlarda 22215 şagirdin iştirakı nəzərdə tutulub. 1 nəfərdə mobil telefon aşkarlandığı üçün imtahandan xaric edilib.

♦ 11 iyunda ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə 9-10 iyun 2021-ci il tarixlərində keçirilmiş buraxılış imtahanlarının nəticələri elan olunub. Bu imtahanlarda iştirakı nəzərdə tutulan 43638 nəfərdən 762 nəfər imtahana gəlməyib. Tələb olunan imtahan qaydalarını pozduğu üçün 7 nəfərin nəticəsi ləğv olunub.

♦ 12-21 iyun tarixlərində DİM ETS Global və EducationUSA ilə birgə TOEFL iBT® və GRE® imtahanları barədə məlumat sessiyasına qeydiyyat elan edib.

♦ İyunun 9-dan 12-dək jurnalistika üzrə magistratura ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar üçün qabiliyyət imtahanı keçirilib.

♦ 12-13 iyun 2021-ci il tarixlərində Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Bağça-Məktəb-Lisey Kompleksinin V-XI sinif şagirdlərinin qiymətləndirilməsi üçün buraxılış və qəbul imtahanlarının əhatə etdiyi fənlər üzrə imtahanlar keçirilib. İmtahanlar Biləsuvar şəhərində kompleksin inzibati binasında təşkil olunub. İmtahanlarda ümumilikdə 413 şagird iştirak edib.

♦ İyunun 14-dən 29-dək orta ixtisas təhsili müəssisələrinə ərizələrin qəbulu aparılıb.

♦ 6 iyunda ümumi (9 illik) orta təhsil səviyyəsi növbəti buraxılış imtahanları keçirilib. İmtahanlar 12 şəhər və rayonda keçirilib. İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 105 imtahan binası, 1853 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 105 ümumi imtahan rəhbəri, 297 imtahan rəhbəri, 2313 nəzarətçi-müəllim, 210 buraxılışı rejimi əməkdaşı (mühafizə), 105 bina nümayəndəsi ayrılıb. İmtahanlarda 23920 şagirdin iştirakı nəzərdə tutulub.

♦ 16 iyundan etibarən ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul üçün qabiliyyət imtahanlarına start verilib. Qabiliyyət imtahanlarında iştirak üçün birinci sənəd qəbulunda müxtəlif komissiyalar üzrə 14215 müraciət qeydə alınıb.

♦ 16 iyunda «Magistr» jurnalının 3-cü nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində "Magistratura səviyyəsi üzrə ixtisaslaşma seçimi cədvəli" təqdim olunub.

♦ 17 iyunda ümumi (9 illik) orta təhsil səviyyəsi növbəti buraxılış imtahanları keçirilib. İmtahanlar Bakı şəhərinin Binəqədi, Pirallahı, Sabunçu rayonlarında, həmçinin Cəlilabad, Füzuli, Kürdəmir, Neftçala, Qax, Quba, Samux, Şəmkir rayonlarında keçirilib. Bakı şəhərində yerləşən xüsusi məktəblərin – internat məktəbləri, eşitmə pozulmaları və danışma əngəlli şagirdlər üçün xüsusi məktəblər, Bakıda və Şəmkirdə yerləşən tədrisi ingilis, fransız, gürcü dilində olan məktəblər, Çilov adasında yerləşən məktəb, cəzaçəkmə müəssisələrində olan məktəblərin şagirdləri də imtahan veriblər. Çilov adasında yerləşəm məktəbə imtahan rəhbəri və materialların daşınması Azneft İstehsalat Birliyinin helikopteri vasitəsilə həyata keçirilib. İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 120 imtahan binası, 1747 imtahan zalı ayrılıb. İmtahanların idarəolunmasına 120 ümumi imtahan rəhbəri, 303 imtahan rəhbəri, 2211 nəzarətçi-müəllim, 240 buraxılışı rejimi əməkdaşı (mühafizə), 120 bina nümayəndəsi ayrılıb. İmtahanlarda 22698 şagirdin iştirakı nəzərdə tutulub.

♦ 18-29 iyun tarixlərində ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyən cari ilin abituriyentlərinin qeydiyyatı aparılıb.

♦ 18 iyunda 16-17 iyun 2021-ci il tarixlərində keçirilmiş buraxılış imtahanlarının nəticələri elan olunub. Bu imtahanlarda iştirakı nəzərdə tutulan 46618 nəfərdən 593-ü imtahana gəlməyib. Tələb olunan imtahan qaydalarını pozduğu üçün 2 nəfərin nəticəsi ləğv olunub.

♦ 19 iyunda aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı almaq istəyən namizədlər üçün test imtahanının I mərhələsi keçirilib. İmtahana qeydiyyatdan keçən 28 namizəddən 27 nəfər imtahanda iştirak edib. Onlardan 5 nəfər 72 və daha yüksək bal toplayaraq imtahandan müvəffəqiyyət əldə edib.

♦ 20 iyunda rezidentura, dövlət qulluğu və doktoranturaya qəbul imtahanları keçirilib. İmtahanların keçirilməsi üçün ümumilikdə 22 imtahan binası, 61 imtahan rəhbəri, 22 ümumi imtahan rəhbəri, 460 nəzarətçi-müəllim, 44 buraxılış rejimi əməkdaşı (mühafizə) və 22 bina nümayəndəsi ayrılıb.

♦ 20 iyunda ТРКИ (Тест по русскому языку как иностранному) imtahanı keçirilib. 1 namizəd Xarici dillər üzrə ümumavropa tövsiyə çərçivə sənədinin (CEFR) səviyyələri əsasında hazırlanmış ТРКИ imtahanın ən yuxarı səviyyəsi – C2 üzrə imtahan verib.

♦ 21 – 25 iyun tarixlərində 31 may – 8 iyun tarixlərində qabiliyyət imtahanı komissiyaları üzrə qeydiyyatdan keçməyən ali təhsil müəssisələrinin bədən tərbiyəsi və idman istiqaməti üzrə xüsusi qabiliyyət tələb edən ixtisaslarına (XQTİ) qəbul olmaq istəyən abituriyentlər qabiliyyət imtahanlarında iştirak etmək istətən abituriyentlərin qeydiyyatı aparılıb.

♦ 21 iyunda inzibati vəzifələrin B növünə aid olan vəzifə qrupları üzrə dövlət qulluğuna qəbul olmaq üçün iyunun 20-də keçirilən test imtahanının nəticələri elan olunub. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş 1943 namizəddən 37 nəfər imtahana gəlməyib. İmtahanda 661 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ 21 iyunda "Dövlət qulluğunda problemlər, çağırışlar və perspektivlər" mövzusunda onlayn formada konfrans təşkil edilib.

♦ 21 iyunda rezidenturaya qəbul olmaq üçün 20 iyunda keçirilmiş baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanının birinci cəhdinin nəticələri elan edilib. Nəticələrə əsasən, imtahanda iştirakı nəzərdə tutulan 1738 namizəddən 31 nəfəri imtahana gəlməyib. 715 namizəd birinci mərhələnin müsabiqə şərtini (40 və daha yüksək bal) ödəyib. İmtahanda 256 nəfər bu ilin, 207 nəfər isə əvvəlki illərin məzunları olmaqla, ümumilikdə 463 namizəd ikinci mərhələyə buraxılıb.

♦ 22 iyunda ETS Global və EducationUSA ilə birgə TOEFL iBT® və GRE® General Test imtahanları barədə məlumat sessiyası keçirilib.

♦ İyunun 23-də dövlət qulluğunda "Sərişte modelinin təsdiqlənməsi" üzrə pilot layihə çərçivəsində rəhbər komitənin növbəti onlayn görüşü keçirilib.

♦ İyunun 23-də 2020-ci il üçün tələbə qəbulu və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanları nəticələrinə dair elmi-statistik materiallar "Abituriyent" jurnalının 12-ci nömrəsində nəşr edilib.

♦ 24 iyunda dövlət qulluğunda ehtiyat kadrlarla işin səmərəliliyinin və effektivliyinin artırılması məqsədilə DİM tərəfindən xüsusi proqram təminatı – Ehtiyat Kadrların Elektron Sorğu Sistemi istifadəyə verilib.

♦ 24 iyunda ali və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanını rus dilində verən abituriyentlər və buraxılış imtahanı çərçivəsində keçirilən "Azərbaycan dili" (dövlət dili kimi) fənni üzrə imtahanda üzrlü səbəbdən iştirak etməyən XI sinif şagirdləri üçün "Azərbaycan dili" fənnindən ikinci test imtahanı keçirilib. İmtahan Bakı, Naxçıvan, Şəki, Xaçmaz və Gəncə şəhərlərində, ümumilikdə 12 binada aparılıb. İmtahanın idarə olunması üçün 12 ümumi imtahan rəhbəri, 31 imtahan rəhbəri, 221 nəzarətçi-müəllim, 24 buraxılış rejimi əməkdaşı (mühafizə), 12 bina nümayəndəsi ayrılıb. İmtahanda 2432 nəfərin iştirakı nəzərdə tutulub.

♦ 24 iyunda «Magistr» jurnalının 4-cü nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində 2021/2022-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul üçün ixtisaslaşma seçimi haqqında elan dərc edilib. Bu nömrədə, həmçinin "Bakalavrın elektron ərizəsi"ndə ixtisaslaşmaların seçimi və təsdiqi üçün təlimat, elektron ərizə formasının nümunəsi, müsabiqə şərtləri, ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul aparılan ixtisaslaşmalar üzrə ümumi qəbul planı və dövlət sifarişi ilə qəbulun proqnozu təqdim olunub.

♦ 25 iyunda 24 iyunda keçirilən Azərbaycan dili fənni (dövlət dili kimi) üzrə imtahanın nəticələri elan olunub. İmtahanda iştirakı nəzərdə tutulan 2432 nəfərdən 157 nəfəri imtahana gəlməyib.

♦ 25 iyunda SİGMA proqramı çərçivəsində "Daxili nəzarət sisteminin həyata keçirilməsi" pilot layihəsinin icrasına başlanılıb.

♦ 25 iyunda Dövlət İmtahan Mərkəzi "Cambridge Assessment English" qurumu ilə birgə TKT imtahanına dair "Prove Your Teaching Knowledge with TKT" adlı onlayn məlumat sessiyası keçirib.

♦ İyunun 26-da TOEFL iBT imtahanı təşkil olunub. İmtahanda 1-i əcnəbi olmaqla 13 nəfər iştirak edib.

♦ İyunun 27-də xarici dillər üzrə doktoranturaya qəbul və fəlsəfə doktoru imtahanının, əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar üçün Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanının nəticələri elan olunub. İmtahanlarda 1249 namizəd və iddiaçı (999 nəfər doktoranturaya qəbul, 244 nəfər fəlsəfə doktoru, 6 nəfər isə Azərbaycan dili imtahanında) iştirak edib. Ümumilikdə 29 nəfər imtahana gəlməyib. Doktorantura və dissertanturaya qəbul imtahanının nəticələrinə əsasən, 424 nəfər tələb olunan şərtləri ödəyərək fəlsəfə imtahanına buraxılıb. 41 nəfər xarici dil üzrə fəlsəfə doktoru imtahanı üçün müəyyən edilmiş şərtləri ödəyib. 3 əcnəbi iddiaçı Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanı üçün müəyyən edilmiş şərtləri ödəyib.

♦ İyunun 29-dan iyulun 5-dək ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul olmaq üçün proqram və ixtisaslaşma seçimi aparılıb.

♦ İyunun 30-dan iyulun 31-dək dövlət qulluğunda inzibati rəhbər (A növü) vəzifələr üzrə müsabiqənin test imtahanına qeydiyyat elan edilib.

♦ İyunun 30-da DİM-in Pearson VUE mərkəzi B.Britaniya Daxili İşlər Nazirliyinin SELT imtahanlarının keçirilməsi üçün təşkil etdiyi auditdən keçib.

♦ 1 iyuldan ali təhsil müəssisələrinin və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına musiqi sənəti üzrə qabiliyyət imtahanları başlayıb.

♦ 1 iyuldan 27 iyuladək dövlət qulluğunda inzibati icraçı (B növü) vəzifələr üzrə müsabiqənin avqust ayında keçiriləcək test imtahanında iştirak etmək üçün qeydiyyat elan edilib.

♦ 1 iyulda əvvəlki illərin məzunları üçün qəbul imtahanının I mərhələsi, V ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə və 11 illik təhsil bazasında kolleclərə qəbul imtahanı, qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyənlər üçün əlavə imtahan, müsabiqədə buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyənlər üçün əlavə xarici dil imtahanı, aprel ayında keçirilən buraxılış imtahanlarında üzrlü səbəbdən iştirak edə bilməyən XI sinif şagirdləri üçün buraxılış imtahanı və eksternat qaydasında imtahan verənlər üçün buraxılış imtahanı keçirilib. İmtahanlar 7 şəhər və rayonda təşkil olunub. İmtahanların təşkil edilməsi üçün ümumilikdə 76 imtahan binası, 1294 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 76 ümumi imtahan rəhbəri, 218 imtahan rəhbəri, 1615 nəzarətçi-müəllim, 152 buraxılış rejimi əməkdaşı, 76 bina nümayəndəsi ayrılıb.

♦ 2 iyulda əvvəlki illərin məzunları üçün qəbul imtahanının I mərhələsi, V ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə və 11 illik təhsil bazasında kolleclərə qəbul imtahanı, qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyənlər üçün əlavə imtahan, müsabiqədə buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyənlər üçün əlavə xarici dil imtahanı, aprel ayında keçirilən buraxılış imtahanlarında üzrlü səbəbdən iştirak edə bilməyən XI sinif şagirdləri üçün buraxılış imtahanı və eksternat qaydasında imtahan verənlər üçün buraxılış imtahanı keçirilib. İmtahanlar 12 şəhər və rayonda təşkil olunub. İmtahanların təşkil edilməsi üçün ümumilikdə 44 imtahan binası, 728 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 44 ümumi imtahan rəhbəri, 124 imtahan rəhbəri, 889 nəzarətçi-müəllim, 88 buraxılış rejimi əməkdaşı, 44 bina nümayəndəsi ayrılıb.

♦ İyulun 3-də TOEFL iBT imtahanı təşkil olunub. İmtahanda 13 nəfər iştirak edib.

♦ 6 iyulda "Ehtiyat Kadrların Elektron Sorğu Sistemi"ndən istifadə qaydaları" mövzusunda onlayn təlim təşkil edilib. Təlimdə dövlət orqanlarının müəyyən etdiyi 70-ə yaxın ehtiyat kadrlarla iş üzrə məsul şəxs iştirak edib.

♦ 6-7 iyul tarixlərində DİM-də ICDL (International Computer Driving Licence - Beynəlxalq Kompüter İşlətmə Lisenziyası) imtahanının Professional və Workforce proqramları üzrə imtahanı təşkil olunub.

♦ İyulun 8-də ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul olma üçün keçirilən müsabiqənin nəticələri elan edilib. Müsabiqənin nəticələrinə əsasən ixtisaslaşma seçimində iştirak edən 14981 bakalavrdan 10350 nəfəri ali təhsil müəssisələrinin magistraturalarına qəbul olunub. Qəbul olunanlardan 3766 nəfər dövlət sifarişi, 6584 nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib.

♦ 8 iyul – 10 avqust tarixlərində ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı subbakalavrların ərizələrinin qəbulu aparılıb.

♦ 10 iyulda SABAH qruplarına tələbə seçimi müsabiqəsinin ikinci mərhələsi (test imtahanı) keçirilib. İmtahan Bakı, Naxçıvan, Gəncə, Şəki, Bərdə, Xaçmaz və Lənkəranda təşkil olunub. İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 11 imtahan binası, 124 imtahan zalı ayrılıb. İmtahanların idarəolunmasına 11 ümumi imtahan rəhbəri, 21 imtahan rəhbəri, 163 nəzarətçi-müəllim, 22 buraxılış rejimi əməkdaşı (mühafizə), 11 bina nümayəndəsi ayrılıb.

♦ İyulun 10-da «Magistr» jurnalının 5-ci nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul olanların siyahısı, ixtisaslaşmalar üzrə minimal keçid balları, o cümlədən dövlət sifarişi üzrə müsabiqə nəticəsində formalaşmış keçid balları və digər zəruri məlumatlar əksini tapıb.

♦ İyulun 13-dən 22-dək ali təhsil müəssisələrinin və AMEA-nın magistratura səviyyəsinə qəbul olmuş şəxslərin elektron qaydada portal.edu.az platformasında qeydiyyatı aparılıb.

♦ 14 iyulda III ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib. İmtahan 22 şəhər və rayonda təşkil olunub. İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 93 imtahan binası, 1607 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 93 ümumi imtahan rəhbəri, 264 imtahan rəhbəri, 2101 nəzarətçi-müəllim, 223 buraxılış rejimi əməkdaşı, 93 bina nümayəndəsi cəlb olunub.

♦ 15 iyulda II ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib. İmtahan 22 şəhər və rayonda təşkil olunub. İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 75 imtahan binası, 1266 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 75 ümumi imtahan rəhbəri, 249 imtahan rəhbəri, 1647 nəzarətçi-müəllim, 157 buraxılış rejimi əməkdaşı, 75 bina nümayəndəsi ayrılıb.

♦ İyulun 16-dan 22-dək əsas (baza ali) tibb təhsili əsasında rezidenturaya qəbul imtahanının 1-ci mərhələsinin 2-ci cəhdində iştirak etmək üçün qeydiyyat aparılıb.

♦ 16 iyulda Dövlət İmtahan Mərkəzi tərəfindən Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT/OECD) ilə birgə SIGMA (Rəhbərlik və idarəetmədə təkmilləşdirməyə dəstək) proqramı çərçivəsində "Daxili nəzarət sisteminin həyata keçirilməsi" üzrə pilot layihənin ilk onlayn təlimi keçirilib.

♦ 17 iyulda 1-2 iyul tarixlərində keçirilən imtahanların nəticələri elan olunub. Bu imtahanlarında iştirakı nəzərdə tutulan 22679 nəfərdən 3437 nəfər imtahana gəlməyib. 15 nəfər isə tələb olunan qaydaları pozduğu üçün imtahandan xaric olunub.

♦ 22-29 iyul tarixlərində ali təhsil müəssisələrinin və 11 illik təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına (XQTİ) qəbul olmaq istəyən və bununla bağlı ərizəsi olan abituriyentlərin qabiliyyət imtahanlarında iştirak etmək üçün qeydiyyatı aparılıb.

♦ 22 iyulda DİM tərəfindən Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə birgə SIGMA proqramı çərçivəsində "Dövlət qurumlarında daxili nəzarət mexanizmlərinin təkmilləşdirilməsi" üzrə pilot layihənin növbəti onlayn təlimi keçirilib.

♦ 23 iyulda Dövlət İmtahan Mərkəzi tərəfindən "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda onlayn təlim təşkil edilib.Təlimdə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları iştirak ediblər.

♦ İyulun 24-də iki növbədə TOEFL iBT imtahanları keçirilib. Günün birinci yarısında keçirilən imtahanda 13, ikinci yarısında keçirilən imtahanda isə 1-i əcnəbi olmaqla 14 nəfər iştirak edib.

♦ 27 iyulda I ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib. İmtahan 11 şəhər və rayonda təşkil olunub. İmtahanda 19184 şagirdin iştirakı nəzərdə tutulub. İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 83 imtahan binası, 1431 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 83 ümumi imtahan rəhbəri, 238 imtahan rəhbəri, 1859 nəzarətçi-müəllim, 168 buraxılış rejimi əməkdaşı, 83 bina nümayəndəsi ayrılıb.

♦ 28 iyulda I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanları keçirilib. İmtahanlar 22 şəhər və rayonda təşkil olunub. İmtahanlarda ümumilikdə 14426 abituriyentin iştirakı nəzərdə tutulub.

İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 68 imtahan binası, 1113 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 68 ümumi imtahan rəhbəri, 184 imtahan rəhbəri, 1450 nəzarətçi-müəllim, 140 buraxılış rejimi əməkdaşı, 68 bina nümayəndəsi cəlb edilib.

♦ 29 iyulda II və III ixtisas qrupları üzrə 14-15 iyul tarixlərində keçirilən qəbul imtahanlarının nəticələri elan edilib. İmtahanda iştirak etmək üçün ərizə təsdiq etmiş 37793 abituriyentdən (II qrup üzrə 16758 nəfər, III qrup üzrə 21035 nəfər) 1767 nəfəri (II qrup üzrə 1021 nəfər, III qrup üzrə 746 nəfər) imtahanda iştirak etməyib. İmtahanda iştirak edən abituriyentlərdən 18 nəfəri qaydaları pozduqlarına görə imtahandan xaric olunub və nəticələri ləğv edilib. Bu imtahanda II ixtisas qrupu üzrə ən yüksək nəticəni 400 bal toplayan 2 nəfər – Salyan rayonu, 4 saylı şəhər tam orta məktəbi və Bakı şəhəri 192 saylı tam orta məktəbin məzunları göstəriblər. Salyan rayonu, 4 saylı şəhər tam orta məktəbin məzunu hər iki mərhələnin cəminə görə 691.2 bal toplayıb və bu nəticə II ixtisas qrupu üzrə ən yüksək bal olub. Bu imtahanda III ixtisas qrupu üzrə ən yüksək nəticəni 396.2 bal toplayan Bakı şəhəri 323 saylı tam orta məktəbin məzunu göstərib.

III ixtisas qrupu üzrə hər iki mərhələnin cəminə görə ən yüksək nəticə isə Sumqayıt şəhəri 21 saylı tam orta məktəbin məzununa məxsus olub. O, imtahanın II mərhələsində 385.2 bal, I mərhələsində isə 294.8 bal, toplayıb. Beləliklə, III ixtisas qrupu üzrə ən yüksək nəticə 680 bal olub.

♦ 29 iyul – 2 avqust tarixlərində ali məktəblərə və kolleclərə (11 illik) qəbul olmaq üçün sənəd verən, lakin Azərbaycan dili üzrə daha əvvəl keçirilən imtahanlardan qeyri-məqbul alan və ya iştirak etməyən abituriyentlər üçün avqustun 12-də keçiriləcək imtahana qeydiyyat elan olunub.

♦ 30 iyul – 4 avqust tarixlərində İslamşünaslıq ixtisasına qəbul olmaq istəyən abituriyentlərin müsahibədə iştirak etmək üçün Dini Psixoloji Komissiya üzrə qeydiyyatı aparılıb.

♦ 31 iyulda dövlət qulluğunda inzibati rəhbər (A növü) vəzifələrə aid olan vəzifə qrupları üzrə test imtahanı keçirilib. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçən 48 nəfərdən 45 nəfər imtahana gəlib. İmtahanda 18 namizəd uğur qazanıb.

♦ 31 iyulda DSMF-yə işə qəbul imtahanının nəticələri elan olunub. Namizədlərin qeydiyyatı Dövlət Sosial Müdafiə Fondu tərəfindən aparılıb. Müsabiqədə iştirak etmək üçün qeydiyyatdan keçən 1777 nəfərdən 492 nəfəri imtahana gəlməyib. DSMF-yə işə qəbul imtahanının keçirilməsi üçün mərkəz tərəfindən 7 bina, 128 zal, 7 ümumi imtahan rəhbəri, 21 imtahan rəhbəri, 165 nəzarətçi-müəllim, 14 buraxılış rejimi əməkdaşı ayrılıb.

♦ 2 avqustda orta ixtisas təhsili pilləsi üzrə "Subbakalavr" peşə-ixtisas dərəcəsi almış və ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq istəyən şəxslər üçün "Abituriyent" jurnalının xüsusi buraxılışı nəşr edilib. Burada ali təhsil müəssisələrinə qəbul üzrə SUBBAKALAVRLARIN İXTİSAS SEÇİMİ ELANI", "Subbakalavr dərəcəsini almış şəxslərin ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbulu ilə bağlı İXTİSAS UYĞUNLUĞU CƏDVƏLİ " və digər faydalı məlumatlar təqdim olunub.

♦ Avqustun 2-dən 20-dək aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı almaq üçün keçirilmiş test imtahanının I mərhələsində müvəffəqiyyət qazanaraq Aqrar Sığorta Fondunun təşkil etdiyi təlimlərə cəlb olunmuş namizədlərin test imtahanının II mərhələsində iştirak etmək üçün qeydiyyatı aparılıb.

♦ Avqustun 2-dən sentyabrın 4-dək "Cambridge Assessment English" beynəlxalq qiymətləndirmə qurumunun rəsmi test mərkəzi olaraq ingilis dili müəllimlərinin xarici dil bacarıqlarını beynəlxalq səviyyədə təsdiq edən kvalifikasiya – TKT (Teaching Knowledge Test) imtahanlarına qeydiyyat elan edilib.

♦ Avqustun 4-də rezidenturaya qəbul imtahanının birinci mərhələsinin (baza fənləri üzrə biliklərin qiymətləndirilməsi) ikinci cəhdi və hərbi liseylərə qəbul imtahanı keçirilib. İmtahanların təşkil edilməsi üçün ümumilikdə 13 imtahan binası, 208 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 13 ümumi imtahan rəhbəri, 37 imtahan rəhbəri, 269 nəzarətçi-müəllim, 26 buraxılış rejimi əməkdaşı cəlb olunub.

♦ Avqustun 5-dən 11-dək 2021/2022-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarının boş qalan yerlərinə qəbul olmaq üçün ixtisaslaşma seçimi elan edilib.

♦ Avqustun 5-də DİM və Ofqual – Böyük Britaniyanın qiymətləndirmə üzrə keyfiyyətə nəzarət qurumu arasında əməkdaşlıq imkanları müzakirə olunub. Görüşdə hər iki ölkənin qiymətləndirmə qurumları arasında əməkdaşlıq perspektivləri müzakirə edilib, əməkdaşlıq sahələri üzrə qarşılıqlı təcrübə və fikir mübadiləsi aparılıb, eyni zamanda əməkdaşlıq çərçivəsində atılacaq növbəti addımlar müəyyən edilib.

♦ Avqustun 5-də "Dövlət qulluğuna dair qanunvericiliyə edilmiş dəyişikliklər və tətbiqi məsələləri" mövzusunda onlayn görüş təşkil edilib. Görüşdə mərkəzi icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanları üzrə ümumilikdə 134 dövlət orqanından 148 nümayəndə iştirak edib.

♦ 5 avqustda rezidenturaya qəbul olmaq üçün 4 avqustda keçirilmiş baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanının ikinci cəhdinin nəticələri elan edilib. Nəticələrə əsasən, imtahanda iştirakı nəzərdə tutulan 966 namizəddən 21 nəfəri imtahana gəlməyib. 230 namizəd müsabiqə şərtini (40 və daha yüksək bal) ödəyib.

♦ Avqustun 7-də DİM-in Abdulvahab Salamzadə küçəsi, 28 ünvanında yerləşən inzibati binasında müvafiq sanitar-gigiyenik qaydalara uyğun iki növbədə TOEFL iBT imtahanları təşkil olunub. Günün birinci yarısında keçirilən imtahanda 13, ikinci yarısında keçirilən imtahanda isə 14 nəfər olmaqla, ümumilikdə 27 nəfər (o cümlədən 2 əcnəbi) imtahanlarda iştirak edib.

♦ Avqustun 9-da Müdafiə Nazirliyinin hərbi liseylərinə avqustun 4-də keçirilən qəbul imtahanının nəticələri elan edilib. İmtahanda iştirakı gözlənilən 1911 abituriyentdən 44 nəfər imtahanda iştirak etməyib.

♦ 10 avqustda I və IV ixtisas qrupları üzrə 27-28 iyul tarixlərində keçirilən qəbul imtahanlarının nəticələri elan edilib. Bu imtahanda I ixtisas qrupu üzrə ən yüksək nəticəni 400 bal toplayan 11 nəfər – Qubadlı rayonu, Çaytumas kənd tam orta məktəbi, Bakı şəhəri 217 və 297 saylı tam orta məktəblər, Sumqayıt şəhəri 11 saylı orta məktəb (2 nəfər), Sumqayıt şəhəri "İstedad" liseyi (humanitar və təbiət-riyaziyyat təmayüllü), Şəki rayonu 18 saylı şəhər tam orta məktəbi, Quba rayonu, Bağbanlı kənd tam orta məktəbi, Abşeron rayonu Xırdalan şəhər 2 saylı tam orta məktəbi, Şirvan şəhəri 1 saylı şəhər tam orta məktəbi, Qazax rayonu 1 saylı şəhər tam orta məktəbinin məzunları göstəriblər. Bu imtahanda IV ixtisas qrupu üzrə ən yüksək nəticəni isə 400 bal toplayan 2 nəfər – Cəbrayıl rayonu Sirik kənd tam orta məktəbi və Quba rayonu Rustov kənd tam orta məktəbinin məzunları göstəriblər.

♦ 11 avqustda ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə əvvəlki illərin məzunları üçün orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanı, müsabiqədə buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyənlər üçün əlavə xarici dil imtahanı, qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyənlər üçün əlavə imtahan, iyun ayında keçirilən buraxılış imtahanlarında üzrlü səbəbdən iştirak edə bilməyən şagirdlər üçün buraxılış imtahanı, eksternat qaydasında imtahan verənlər üçün buraxılış imtahanları keçirilib. İmtahanlar Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Sumqayıt, Abşeron, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Sabirabad, Lənkəran, Cəlilabad və Xaçmaz rayonlarında təşkil olunub. İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 53 imtahan binası, 892 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 53 ümumi imtahan rəhbəri, 147 imtahan rəhbəri, 1098 nəzarətçi-müəllim, 106 buraxılış rejimi əməkdaşı (mühafizə), 53 bina nümayəndəsi ayrılıb. İmtahanlarda ümumilikdə 11552 abituriyentin (şagirdin) iştirakı nəzərdə tutulub.

♦ 11 avqustda inzibati vəzifələrin B növünə aid olan vəzifə qrupları üzrə dövlət qulluğuna qəbul olmaq üçün bu gün keçirilən test imtahanının nəticələri elan olunub. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş 1442 namizəddən 59 nəfər imtahana gəlməyib. 1 nəfərdə mobil telefon aşkar edildiyi üçün imtahandan xaric edilib və nəticələri ləğv olunub. 355 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ 12 avqustda hər hansı səbəbdən buraxılış imtahanı çərçivəsində ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə mayın 20-də keçirilən Azərbaycan dili (dövlət dili kimi) imtahanında iştirak etməyən cari ilin məzunları, həmin imtahanda iştirak edib qeyri-məqbul qiymət alan və ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün sənəd verən cari ilin abituriyentləri, daha əvvəl keçirilən Azərbaycan dili imtahanlarında iştirak edib qeyri-məqbul qiymət alan və ali təhsil müəssisələrinə və ya tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün sənəd verən cari və əvvəlki illərin abituriyentləri üçün imtahan keçirilib. İmtahan ümumilikdə 8 şəhər və rayonda (Bakı, Gəncə, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran, Xaçmaz), 11 binada təşkil olunub. İmtahanda 1137 nəfərin iştirakı nəzərdə tutulub.

♦ 12 avqustda ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarının boş qalan plan yerlərinə müsabiqənin nəticələri elan olunub. Magistraturanın boş qalan plan yerlərinin müsabiqəsində iştirak etmək üçün 3248 bakalavr müraciət edib. Müsabiqə nəticəsində onlardan 888 nəfər (o cümlədən 52 nəfər dövlət sifarişi əsasında) magistraturaya qəbul olub.

♦ 12 avqustda hər hansı səbəbdən buraxılış imtahanı çərçivəsində ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə mayın 20-də keçirilən Azərbaycan dili (dövlət dili kimi) imtahanında iştirak etməyən cari ilin məzunları, həmin imtahanda iştirak edib qeyri-məqbul qiymət alan və ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün sənəd verən cari ilin abituriyentləri, daha əvvəl keçirilən Azərbaycan dili imtahanlarında iştirak edib qeyri-məqbul qiymət alan və ali təhsil müəssisələrinə və ya tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün sənəd verən cari və əvvəlki illərin abituriyentləri üçün keçirilən imtahanların nəticələri elan olunub. Bu imtahanlarda iştirakı nəzərdə tutulan 11553 nəfərdən 2769-u imtahana gəlməyib. 3 nəfər isə tələb olunan qaydaları pozduğu üçün imtahandan xaric olunub.

♦ 13-17 avqust tarixlərində orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyən abituriyentlərin qabiliyyət imtahanlarında iştirak etməsi üçün qeydiyyat aparılıb.

♦ 13-20 avqust tarixlərində I ixtisas qrupuna aid memarlıq ixtisasına qəbul olmaq istəyən abituriyentlərin (subbakalavrların) qeydiyyatı aparılıb.

♦ 13 avqustda «Magistr» jurnalının 7-ci nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarının boş qalan yerlərinə qəbulun nəticələri dərc olunub. Jurnalda, həmçinin ixtisaslaşmalar üzrə minimal keçid balları və dövlət sifarişli yerlər üzrə müsabiqə nəticəsində alınmış keçid balları təqdim olunub.

♦ 13 avqustda Azərbaycan dili fənni (dövlət dili kimi) üzrə imtahanın nəticələri elan olunub. İmtahanda iştirakı nəzərdə tutulan 1138 nəfərdən 226 nəfəri imtahana gəlməyib.

♦ 14, 16, 17 və 18 avqust tarixlərində Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə Hərbi feldşer işi ixtisası üzrə əlavə sənəd qəbulu elan edilib.

♦ 14, 16 və 17 avqustda Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə əlavə kursant qəbulu elan edilib.

♦ 17 avqustda «Abituriyent» jurnalının 4-cü nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası, ali təhsil müəssisələrinə qəbul aparılan ixtisaslar, dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu çap edilib. Bu nömrədə həmçinin M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialına tələbə qəbulu elanı və digər zəruri materiallar təqdim olunub.

♦ 17 avqustda II və III ixtisas qrupu abituriyentləri üçün "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı kitabçalar nəşr olunub. "Abituriyent" jurnalının xüsusi buraxılışı olan kitabçalarda II və III ixtisas qrupu üzrə müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan ballarının paylanması, ali təhsil müəssisələrinə ixtisas qrupu üzrə qəbul planı, dövlət sifarişi üzrə yerlərin sayı, müsabiqə şərtləri və digər zəruri məlumatlar təqdim olunub.

♦ 17 avqustda "Abituriyent" jurnalının xüsusi buraxılışı – "Keçid balları – 2020" (ali təhsil müəssisələri üzrə) nəşr olunub. "Abituriyent" jurnalının bu xüsusi buraxılışında 2020-ci ilin tələbə qəbulu müsabiqəsində ali təhsil müəssisələrinin ixtisasları üzrə formalaşmış keçid balları dərc edilib.

♦ 18 avqustda Dövlət İmtahan Mərkəzinin icraçı direktoru Vəfadar Misirov Astana Dövlət Qulluğu üzrə Regional Xabın keçirdiyi onlayn tədbirdə iştirak edib. Dövlət idarəçiliyi sahəsində bilik və təcrübə mübadiləsi məqsədini daşıyan bu tədbirdə Şimali Makedoniya, Gürcüstan, Türkiyə kimi ölkələrdən dövlət qulluğu sahəsi üzrə müətəxəssislər "COVID-19-dan sonrakı dövr", "Rəqəmsallaşma və elektron hökumət", "Gender bərabərliyi" və digər mövzularda çıxış edərək müzakirələr aparıblar.

♦ 18-20 avqustda DİM-in əməkdaşları ETS Global təşkilatı tərəfindən keçirilən "The Propell® Workshop for Teachers" adlı praktiki təlimdə iştirak ediblər. Təlim ərzində TOEFL iBT-nin Oxu, Dinləmə, Danışıq və Yazı bölmələrindən nümunələr istifadə edilib və iştirakçılar TOEFL iBT® imtahanında qiymətləndirilən hər dörd bacarıq üzrə fəaliyyət və materiallar, eyni zamanda qiymətləndirmə rubrikaları barədə məlumatlandırılıblar.

♦ 19 avqustda ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı keçirilib. İmtahan Bakı şəhərində və DİM-in regional bölmələrinin yerləşdiyi Naxçıvan, Gəncə, Lənkəran, Şəki, Bərdə, Göyçay, Şirvan, Xaçmaz şəhərlərində təşkil olunub. İmtahanın keçirilməsinə 10 imtahan binası, 59 zal, 12 imtahan rəhbəri, 78 nəzarətçi-müəllim, 20 buraxılış rejimi əməkdaşı (mühafizə) cəlb olunub. İmtahanda 760 abituriyentin iştirakı nəzərdə tutulub.

♦ 19 avqustdan 17 sentyabradək dövlət qulluğunda inzibati rəhbər (A növü) vəzifələr üzrə müsabiqənin test imtahanına qeydiyyat elan edilib.

♦ 20-30 avqust tarixlərində ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elan edilib.

♦ 20 avqustda I və IV ixtisas qrupu abituriyentləri üçün "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı kitabçalar nəşr olunub. "Abituriyent" jurnalının xüsusi buraxılışı olan kitabçalarda I və IV ixtisas qrupları üzrə müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan ballarının paylanması, ali təhsil müəssisələrinə ixtisas qrupu üzrə qəbul planı, dövlət sifarişi üzrə yerlərin sayı, müsabiqə şərtləri və digər zəruri məlumatlar təqdim olunub.

♦ 21 avqustda ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin "Jurnalistika" ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün avqustun 19-da keçirilən qabiliyyət imtahanının nəticələri elan edilib. İmtahanda iştirak etmək hüququ qazanmış 760 abituriyentdən 166 nəfəri imtahana gəlməyib. İmtahanda iştirak edən abituriyentlərdən 559 nəfər "məqbul" qiymət alıb.

♦ Avqustun 21-də iki növbədə TOEFL iBT imtahanları keçirilib. Günün birinci yarısında keçirilən imtahanda 14, ikinci yarısında keçirilən imtahanda isə 13 nəfər olmaqla, ümumilikdə 27 (o cümlədən 2 əcnəbi) nəfər imtahanlarda iştirak edib.

♦ 23 avqustda Dövlət İmtahan Mərkəzinin "Facebook" səhifəsi vasitəsilə Mərkəzin Direktorlar Şurasının sədri M.Abbaszadə II və III ixtisas qrupu üzrə ixtisas seçimi edəcək abituriyentlərə diqqət yetirməli olduqları məsələlər haqqında məlumat verib və abituriyentlərin suallarını cavablandırıb.

♦ 24 avqustda Dövlət İmtahan Mərkəzinin "Facebook" səhifəsi vasitəsilə Mərkəzin Direktorlar Şurasının sədri M.Abbaszadə I və IV ixtisas qrupu üzrə ixtisas seçimi edəcək abituriyentlərə diqqət yetirməli olduqları məsələlər haqqında məlumat verib və abituriyentlərin suallarını cavablandırıb.

♦ 25 avqustda Dövlət İmtahan Mərkəzinin "Facebook" səhifəsi vasitəsilə Mərkəzin Direktorlar Şurasının sədri M.Abbaszadə V ixtisas qrupu üzrə ixtisas seçimi edəcək abituriyentlərə, eləcə də subbakalavrlara diqqət yetirməli olduqları məsələlər haqqında məlumat verib və onların suallarını cavablandırıb.

♦ 26 avqustda "Abituriyent" jurnalının 3-cü nömrəsi və ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə 2020-ci ilin tələbə qəbulu müsabiqəsində formalaşmış keçid ballarını nəşr edilib. "Abituriyent" 3 jurnalında ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, qəbul aparılan ixtisaslar, onların plan yerləri, elektron ərizə verən abituriyent üçün təlimat, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin nümunəsi və digər zəruri materiallar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ Avqustun 27-dən sentyabrın 7-dək ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi aparılıb.

♦ Avqustun 28-də DİM-in Yasamal rayonu, Mikayıl Müşfiq küçəsi, 1M ünvanında yerləşən inzibati binasında müvafiq sanitar-gigiyenik qaydalara uyğun SAT imtahanı təşkil olunub.

♦ Avqustun 28-də iki növbədə TOEFL iBT imtahanları keçirilib. Günün birinci yarısında keçirilən imtahanda 10, ikinci yarısında keçirilən imtahanda isə 14 nəfər olmaqla, ümumilikdə 24 (o cümlədən 1 əcnəbi) nəfər imtahanlarda iştirak edib.

♦ 27 avqustda DİM Cambridge Assessment English təşkilatının rəsmi test mərkəzi olaraq Azərbaycan Dillər Universiteti ilə birlikdə TKT imtahanına dair onlayn məlumat sessiyası təşkil edib.

♦ 30 avqustda DİM əməkdaşları Şərq Tərəfdaşlığı proqramının dövlət qulluğu üzrə regional layihəsi çərçivəsində keçirilən onlayn tədbirində iştirak ediblər. Görüşdə Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova və Ukraynadan olan nümayəndələr arasında regional layihələrin təşkili üçün müvafiq təkliflərin hazırlanması haqqında fikir mübadiləsi aparılıb.

♦ 31 avqustda doktorantura imtahanlarının nəticələri haqqında elektron arayış və şəhadətnamələrin verilməsinə başlanılıb.

♦ 1 sentyabrda "Dövlət qulluğunda gender bərabərliyi üzrə Kurikulum" təqdim olunub. Vəsait dövlət qulluğu sistemində gender bərabərliyi prinsipinin təmin edilməsi və dövlət qulluqçularının peşəkarlığının artırılması məqsədilə tərtib edilib.

♦ 1 sentyabrda "Abituriyent" jurnalının 5-ci nömrəsi və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə 2020-ci ilin tələbə qəbulu müsabiqəsində formalaşmış keçid balları nəşr edilib. "Abituriyent" 5 jurnalında 2021/2022-ci tədris ili üçün orta ixtisas təhsili müəssisələrinə tam orta (11 illik) təhsil bazasında tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası, qəbul aparılan ixtisaslar və s. məlumatlar əksini tapıb.

♦ 1 sentyabrda DİM və ACCA (İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası) arasında Anlaşma Memorandumu imzalanıb.

♦ 3 sentyabr tarixindən 19 dövlət orqanında inzibati vəzifələrin 2-7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə daxili müsahibə elan edilib. Mərkəzi icra hakimiyyəti orqanı və məhkəmə hakimiyyəti orqanlarında olmaqla elana çıxarılan vəzifələrin 55-i dövlət qulluğu vəzifələrinin A növünə (inzibati rəhbər) və 34-ü B növü vəzifələrə (inzibati icraçı) aid olub.

♦ 2 sentyabrda DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə “British Council” təşkilatının Azərbaycan üzrə rəhbəri Samr Şahı qəbul edib. Görüşdə tərəflər gələcək əməkdaşlıq perspektivlərini, həmçinin Azərbaycan Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 4-cü iclasında əhatə olunan məsələləri də müzakirə ediblər.

♦ 4 sentyabrda Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələri elan edilib. Ali təhsil müəssisələrinin müsabiqəsində 66464 nəfər iştirak edib. Onlardan 44861 nəfəri (o cümlədən 6810 subbakalavr) ali təhsil müəssisələrinə qəbul olunub. 21856 (o cümlədən 920 subbakalavr) nəfər dövlət sifarişi əsasında, 23005 (o cümlədən 5890 subbakalavr) nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib.

♦ Sentyabrın 4-də iki növbədə TOEFL iBT imtahanları keçirilib. İmtahanlarda ümumilikdə 32 (o cümlədən 1 əcnəbi) nəfər iştirak edib.

♦ 5 sentyabrda “Abituriyent” jurnalının 6-cı nömrəsi nəşr edilib. Burada ali təhsil müəssisələrinə qəbul olmuş abituriyentlərin siyahısı qruplar üzrə (Azərbaycan bölməsi – I, II, III qruplar hər biri ayrıca jurnalda, IV və V qruplar isə birlikdə bir jurnalda, rus bölməsinin bütün qrupları isə bir jurnalda) çap olunub.

♦ 5 sentyabrda “Abituriyent” jurnalının 7-ci nömrəsi nəşr edilib. Bu nömrədə ali təhsil müəssisələrinin boş qalan yerlərinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, “Abituriyentin elektron ixtisas seçimi ərizəsi”nin doldurulma qaydası, ali təhsil müəssisələrinin boş qalan yerləri olan ixtisaslar, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu və digər zəruri məlumatlar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ Sentyabrın 7-dən 20-dək abituriyentlərin qəbul olunduqları təhsil müəssisələri üzrə qeydiyyatı onlayn qaydada portal.edu.az platforması vasitəsilə aparılıb.

♦ Sentyabrın 6-da “Abituriyent” jurnalının 5-ci və 7-ci nömrələrinin elektron versiyaları (pdf formatında) DİM saytının "Elektron xidmətlər" bölməsinə yerləşdirilib. “Abituriyent” jurnalının 5-ci nömrəsində orta ixtisas təhsili müəssisələrinə tam orta (11 illik) təhsil bazasında tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, ”Abituriyentin elektron ixtisas seçimi ərizəsi”nin doldurulması qaydası, qəbul aparılan ixtisaslar və s. məlumatlar əksini tapıb. “Abituriyent” jurnalının 7-ci nömrəsində isə ali təhsil müəssisələrinin boş qalan yerlərinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, “Abituriyentin elektron ixtisas seçimi ərizəsi”nin doldurulma qaydası, ali təhsil müəssisələrinin boş qalan yerləri olan ixtisaslar, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu və digər zəruri məlumatlar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ Sentyabrın 6-dan 10-dək ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə və tam (11 illik) orta təhsil bazasında kolleclərə qəbul olmaq istəyən abituriyentlərin ixtisas seçimi aparılıb.

♦ 6 sentyabrda “Rezidentura” xüsusi buraxılışının 3-cü nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində rezidenturaya qəbul imtahanının ikinci mərhələsi (ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı) və ixtisas seçimi haqqında elan, “Namizədin elektron ərizəsi”ndə ixtisasların seçimi və təsdiqi üçün təlimat, “Namizədin elektron ərizəsi”ndə ixtisas seçimi formasının nümunəsi, rezidenturaya qəbul aparılan ixtisaslar və onların plan yerləri dərc edilib.

♦ 8 sentyabrda ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün keçirilmiş müsabiqənin nəticələri DİM-in internet səhifəsində yerləşdirib.

♦ 8 sentyabrda “Abituriyent” jurnalının 8-ci nömrəsi nəşr edilib. Jurnalının bu nömrəsində ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin siyahısı, qəbul olduqları ixtisasların kodları, ixtisaslar üzrə formalaşmış keçid balları və digər zəruri məlumatlar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ 9 sentyabrda DİM tərəfindən təşkil olunan imtahanların keyfiyyəti Niderlandın RCEC təşkilatının auditindən uğurla keçdiyi üçün Mərkəzə müvafiq keyfiyyət nişanını əks etdirən sertifikat təqdim olunub. Audit ISO 9001, ISO 17024, ISO 17065 və təhsilin qiymətləndirilməsinə dair beynəlxalq keyfiyyət standartları əsasında təşkil edilib.

♦ Sentyabrın 9-dan 16-dək rezidenturaya qəbul olmaq üçün baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında (I mərhələ) “məqbul” almış (40 və daha çox bal toplamış) və rezidenturaya qəbul olmaq hüququ olan namizədlər ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında (II mərhələ) iştirak etmək üçün qeydiyyatı aparılıb.

♦ Sentyabrın 9-da 2021-ci ildə keçirilmiş buraxılış imtahanlarında üzrlü səbəbdən iştirak edə bilməyən 9-cu və 11-ci sinif şagirdləri, o cümlədən eksternat qaydasında imtahan verənlər üçün əlavə imtahan keçirilib.

♦ 10 sentyabrda sentyabrın 9-da keçirilən ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə əlavə buraxılış imtahanı və Azərbaycan dili (dövlət dili kimi) imtahanının nəticələri elan olunub.

♦ 11 sentyabrda ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələri elan olunub. Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinin və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin müsabiqəsində iştirak etmək üçün 22218 şəxs ixtisas seçimi edib. Müsabiqə nəticəsində ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə 981 nəfər (o cümlədən 824 nəfər subbakalavr), tam orta orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə isə 11691 nəfər qəbul olub.

♦ 12 sentyabrda "Abituriyent" jurnalının 9-cu və 10-cu nömrələrini nəşr edilib. 9-cu nömrədə ali təhsil müəssisələrinin boş qalan yerlərinə qəbul olmuş abituriyentlərin siyahısı, müsabiqə nəticəsində ixtisasların həm ödənişli əsaslarla olan yerləri, həm də dövlət sifarişli yerləri üzrə formalaşmış keçid balları Azərbaycan və rus dillərində təqdim olunub. 10-cu nömrədə isə tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmuş abituriyentlərin siyahısı, ixtisaslar üzrə müsabiqə nəticəsində alınmış minimal keçid balları Azərbaycan və rus dillərində dərc olunub.

♦ 12 sentyabrda GRE: General Test imtahanı keçirilib. İmtahanda 7 nəfər iştirak edib.

♦ 13 sentyabrda 16 dövlət orqanında inzibati vəzifələrin 4-7-ci təsnifatına uyğun olan vakant vəzifələrin tutulması üzrə ümumi müsahibə elanı verilib. Qeydiyyat 12 oktyabradək aparılıb.

♦ 13 sentyabrda mərkəzi icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanları olmaqla inzibati dövlət qulluğu vəzifələrinin 4-7-ci təsnifatı üzrə A və B növünə aid olan ümumilikdə 34 dövlət orqanında 208 vakant inzibati vəzifənin tutulması üçün müsabiqənin müsahibə mərhələsi elan edilib. Müsahibələrdə iştirak üçün namizədlərin qeydiyyat oktyabrın 12-dək aparılıb.

♦ 13 sentyabrdan 20 sentyabradək ali təhsil müəssisələrinin boş qalmış plan yerlərinə qəbul olunmuş şəxslərin, 24 sentyabradək isə tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olunanların qeydiyyatı onlayn qaydada portal.edu.az platforması vasitəsilə aparılıb.

♦ 14 sentyabrda DİM və "Astana Xab"ın birgə təşkilatçılığı ilə "Dövlət qulluğunda mövcud islahatlar: çağırışlar və perspektivlər" mövzusunda onlayn konfrans keçirilib. 14 sentyabr 2021-ci il tarixində Dövlət İmtahan Mərkəzi və Astanada yerləşən "Dövlət Qulluğu üzrə Regional Xab"ın birgə təşkil etdiyi tədbirdə 20 ölkədən 200-dən artıq nümayəndə iştirak edib.

♦ 16 sentyabrda rezidenturaya hazırlaşanlara kömək məqsədi ilə "İxtisas fənləri üzrə test toplusu" adlı vəsait nəşr edilib. Vəsaitdə müalicə işi, pediatriya istiqaməti üzrə rezidenturaya qəbul proqramına müvafiq olaraq, daxili xəstəliklər bloku (kardiologiya, pulmonologiya, qastroenterologiya, endokrinologiya, nefrologiya, hematologiya, nevrologiya, yoluxucu xəstəliklər, psixiatriya), cərrahlıq (ümumi cərrahlıq, cərrahi xəstəliklər, uşaq cərrahlığı), mamalıq və ginekologiya və uşaq xəstəlikləri (uşaq xəstəliklərinin propedevtikası, neonatalogiya) fənləri üzrə test tapşırıqları verilib.

♦ Sentyabrın 19-da dövlət qulluğunda inzibati rəhbər (A növü) vəzifələrə aid olan vəzifə qrupları (AB, AC) üzrə test imtahanları keçirilib. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçən 38 nəfərdən 37 nəfər imtahana gəlib. Ümumilikdə 11 namizəd uğur qazanıb.

♦ Sentyabrın 19-dan oktyabrın 1-dək inzibati rəhbər vəzifələrə aid olan vəzifə qrupları (AB, AC) üzrə dövlət qulluğuna qəbul üçün keçirilən test imtahanından müvəffəqiyyətlə keçən namizədlərin sertifikat əldə etmək üçün qeydiyyatı aparılıb.

♦ 20 sentyabrdan 24 oktyabradək dövlət qulluğunda inzibati icraçı (B növü) vəzifələr üzrə müsabiqənin test imtahanında iştirak etmək istəyənlər üçün qeydiyyatı aparılıb.

♦ 23 sentyabrdan beynəlxalq imtahanlara yazılmaq üçün Vahid Qeydiyyat Platforması istifadəyə verilib. Platforma DİM-də keçirilən 8 müxtəlif beynəlxalq imtahana vahid məkandan qeydiyyatdan keçmək və ya məlumat əldə etmək imkanını yaradıb.

♦ Sentyabrın 26-da baza ali tibb təhsili əsasında həkim-mütəxəssislərin hazırlanması məqsədilə rezidenturaya qəbul imtahanının 2-ci mərhələsi (ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi) keçirilib. İmtahanların idarə olunması üçün 5 ümumi imtahan rəhbəri, 9 imtahan rəhbəri, 75 zal nəzarətçisi, 10 buraxılış rejimi (mühafizə) əməkdaşı ayrılıb.

♦ 27 sentyabr – 1 oktyabr tarixlərində DİM-in əməkdaşı Şərq Tərəfdaşlığı Dövlət İdarəçilik Akademiyası proqramı çərçivəsində həyata keçirilən "Korrupsiyaya qarşı mübarizə" adlı onlayn təlimdə iştirak edib. Təlimdə Azərbaycan, Gürcüstan, Ukrayna, Moldova, Belarus və Ermənistandan olan nümayəndələr iştirak ediblər

♦ Sentyabrın 28-də 9 və 11 illik orta təhsil bazasında kolleclərin boş qalan plan yerlərinə ixtisas seçimi ilə bağlı "Abituriyent" jurnalının 11-ci nömrəsi və jurnalın xüsusi buraxılışı nəşr edilib. 11-ci nömrədə tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası, qəbul aparılan ixtisasların siyahısı, plan yerləri haqqında məlumatlar Azərbaycan və rus dillərində dərc olunub. Jurnalın xüsusi buraxılışında isə ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə tələbə qəbulu elanı, həmçinin "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulması və təsdiqi üçün təlimat və "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin nümunəsi, qəbul aparılan ixtisasların siyahısı, boş yerlərin sayı və s. məlumatlar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ 28 sentyabrda sentyabrın 26-da keçirilmiş rezidenturaya qəbul imtahanının II mərhələsinin nəticələri elan olunub. İmtahanda iştirakı gözlənilən 814 namizəddən 4 nəfər imtahana gəlməyib. Namizədlərdən 543 nəfər müsabiqə şərtini (ixtisas fənləri üzrə topladığı test balı 50 və daha yuxarı) ödəyərək ixtisaslaşma seçiminə buraxılıb.

♦ Sentyabrın 29-dan oktyabrın 3-dək ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə qəbul elan edilib.

♦ 29 sentyabrda Dövlət İmtahan Mərkəzi və Türkiyənin Ölçmə, Seçmə və Yerləşdirmə Mərkəzinin rəhbər şəxsləri arasında görüş keçirilib. Görüşdə qurumlar arasında qarşılıqlı əməkdaşlıq imkanları müzakirə edilib.

♦ Sentyabrın 29-da 2021/2022-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Sərəncam imzalayıb. Sərəncama əsasən 102 nəfər Prezident təqaüdünə layiq görülüb.

♦ Sentyabrın 30-dan oktyabrın 19-dək 12 dövlət orqanında inzibati vəzifələrin 3-7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə daxili müsahibə elanı verilib.

♦ Sentyabrın 30-da daxili müsahibələrin yeni qaydalara əsasən təşkili mövzusunda Dövlət İmtahan Mərkəzi tərəfindən onlayn təlim keçirilib. Görüşdə 3 sentyabr 2021-ci il tarixli daxili müsahibə elanına vakansiyalarını təqdim etmiş 14 dövlət orqanı tərəfindən 25 nümayəndə iştirak edib.

♦ 30 sentyabr – 2 oktyabr tarixlərində DİM əməkdaşlarının da iştirak etdiyi Avtomatika və İnformatika üzrə onlayn beynəlxalq konfrans keçirilib. Konfransın əsas məqsədi beynəlxalq tədqiqatçıları və təcrübəçiləri bir araya gətirmək olub.

♦ Oktyabrın 1-də 3 sentyabr 2021-ci il tarixində elan edilmiş daxili müsahibə mərhələsinin keçirilmə qrafiki müəyyən edilib. Elana çıxarılan vəzifələr üzrə qeydiyyatdan keçmiş 166 namizədlə 169 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ Oktyabrın 2-də SAT imtahanı təşkil olunub. İmtahanda 70 nəfər iştirak edib.

♦ Oktyabrın 2-də Vəkillər Kollegiyasına üzv olmaq istəyən namizədlər üçün test imtahanı keçirilib. İmtahanda iştirak etmək üçün 280 namizəd qeydiyyatdan keçib. 7 namizəd imtahana gəlməyib. İmtahanda iştirak edən 273 namizəddən 130 nəfər 60 və daha yüksək bal toplayaraq ikinci mərhələyə – müsahibəyə buraxılıb.

♦ 4 oktyabrda ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə qəbul olmaq üçün keçirilmiş müsabiqənin nəticələri elan edilib. Müsabiqədə iştirak etmək üçün 6429 abituriyent ərizə təqdim edib. Onlardan 1327 abituriyent orta ixtisas təhsili müəssisələrinə qəbul olunub.

♦ 4 oktyabrda tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə qəbulun nəticələri elan olunub. Tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinin müsabiqəsində iştirak etmək üçün 3609 abituriyent ixtisas seçimi edib. Müsabiqə nəticəsində 1411 nəfər orta ixtisas təhsili müəssisələrinə qəbul olub.

♦ 5 oktyabrda ümumi (9 illik) və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə tələbə qəbulunun nəticələri ilə əlaqədar "Abituriyent" jurnalının xüsusi buraxılışları nəşr olunub. "Abituriyent" jurnalının bu xüsusi buraxılışlarında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə qəbul olmuş abituriyentlərin siyahısı, ixtisaslar üzrə minimal keçid balları və s. məlumatlar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ Oktyabrın 5-dən etibarən zal nəzarətçisi fəaliyyətinin sertifikatlaşdırılması məqsədilə namizədlərin elektron qeydiyyatı başlanıb.

♦ Oktyabrın 5-də əsas (baza ali) tibb təhsili əsasında rezidenturaya qəbul olmaq üçün keçirilmiş müsabiqənin nəticələri elan olunub. Nəticələrə əsasən 419 nəfər təhsilini rezidenturada davam etdirmək hüququ qazanıb.

♦ Oktyabrın 6-da "Rezidentura" xüsusi buraxılışının 4-cü nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində rezidenturaya qəbul olanların siyahısı, müsabiqə nəticələrinə görə alınmış keçid balları və digər zəruri məlumatlar təqdim olunub.

♦ 7-12 oktyabr tarixlərində orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə qəbul olunan abituriyentlərin qəbul olunduqları təhsil müəssisələri üzrə onlayn qaydada qeydiyyatı aparılıb.

♦ 8 oktyabrda "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda onlayn təlim təşkil edilib. Təlimdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi və Şəki Apellyasiya Məhkəməsinin əməkdaşları iştirak ediblər.

♦ 8 oktyabrda prokurorluq orqanlarında işləmək istəyən namizədlər üçün test imtahanı keçirilib. İşə qəbul olmaq üçün ərizə təqdim etmiş 406 namizəddən 24 nəfər imtahana gəlməyib. İmtahanda iştirak etmiş 382 namizəddən 181 nəfər müsabiqə şərtini (70 və daha çox bal) ödəyərək növbəti mərhələyə buraxılıb.

♦ 9 oktyabrda TOEFL iBT imtahanı keçirilib. İmtahanda 18 nəfər iştirak edib.

♦ 9 oktyabr "Cambridge Assessment English" qurumunun rəsmi test mərkəzi kimi ilk TKT imtahanı keçirilib. İmtahanda 6 nəfər iştirak edib.

♦ 10 oktyabrda növbəti GRE: General Test imtahanı keçirilib. İmtahanda 14 nəfər iştirak edib.

♦ 11 oktyabr – 7 noyabr tarixlərində peşəkar mühasib sertifikatı (PMS) almaq istəyən namizədlər üçün keçiriləcək imtahanın I mərhələsinə qeydiyyat aparılıb.

♦ 11 oktyabr – 14 noyabr tarixlərində peşəkar mühasib sertifikatı (PMS) almaq istəyən namizədlər üçün keçiriləcək imtahanın II mərhələsinə qeydiyyat aparılıb.

♦ 11 oktyabrdan etibarən "Dövlət qulluğunda gender bərabərliyi: mövcud vəziyyət və çağırışlar" mövzusunda təlimlərin keçirilməsinə başlanılıb.

♦ 13 oktyabrda "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda onlayn təlim təşkil edilib. Təlimdə Azərbaycan Respublikasının Baş Prokurorluğunun əməkdaşları iştirak ediblər.

♦ 13 oktyabrda SIGMA ekspertləri tərəfindən Dövlət İmtahan Mərkəzinin dövlət qulluğunda vakant vəzifələrin tutulması məqsədilə müsahibə komissiyasında mütəmadi olaraq iştirak edən əməkdaşları üçün onlayn təlim keçirilib. Beynəlxalq ekspertlər DİM-in əməkdaşları üçün səriştələrə əsaslanan müsahibələrin keçirilməsinə dair təqdimat edib, praktik şəkildə nümunə göstəriblər.

♦ 15-17 oktyabr tarixlərində DİM-in nümayəndələri "Mühasiblərin və Auditorların VII Avrasiya Forumu"nda iştirak ediblər.

♦ 16-17 oktyabr tarixlərində Dövlət İmtahan Mərkəzində buraxılış və qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması, ekspertizası və açıq tipli tapşırıqların yoxlanılmasına dair hazırlıq kurslarında kimya, biologiya, fizika, tarix, coğrafiya, ingilis dili və rus dili fənlərinin məşğələləri keçirilib.

♦ 18-19 oktyabr tarixlərində rezidenturaya boş qalan plan yerlərinə ərizə qəbulu elan edilib.

♦ 19 oktyabrda rezidenturaya boş qalan plan yerlərinə qəbul olmaq üçün keçirilmiş müsabiqənin nəticələri elan olunub. Boş qalan 16 plan yeri üzrə 47 namizəd müsabiqədə iştirak edib. Onlardan 16 nəfəri rezidenturaya qəbul olub.

♦ 20 oktyabrdan 1 dekabradək buraxılış və qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə vasitələrinin hazırlanması və onların meyarlar əsasında yoxlanılmasına dair hazırlıq kurslarında iştirak etmək istəyənlərin qeydiyyatı aparılıb.

♦ 18-19 oktyabr tarixlərində Dövlət İmtahan Mərkəzi tərəfindən Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə birgə SIGMA proqramı çərçivəsində dövlət qulluğunda "Səriştə modelinin təsdiqlənməsi" üzrə pilot layihənin növbəti onlayn təlimi keçirilib.

♦ 21 oktyabrdan 19 noyabradək inzibati dövlət qulluğu vəzifələrinin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AB və AC qruplarına uyğun olan vəzifələr üzrə müsabiqənin test imtahanına qeydiyyat elan edilib.

♦ 22 oktyabrda 13 sentyabr tarixində elan edilmiş ümumi müsahibələrin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 16 dövlət orqanında mövcud olan 36 vakant vəzifə ümumi müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə qeydiyyatdan keçmiş 188 namizədlə 188 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ 22 oktyabrda 13 sentyabr tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsinin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 34 dövlət orqanında mövcud olan inzibati dövlət qulluğu vəzifələrinə aid 209 vakant vəzifə müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə qeydiyyatdan keçmiş 1751 namizədlə 2419 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ 22-23 oktyabr tarixlərində Təhsildə Keyfiyyətin Qiymətləndirilməsi üzrə Avrasiya Assosiasiyasının (EAOKO) onlayn formatda 10-cu illik beynəlxalq konfransı keçirilib. Konfransda Assosiasiyaya üzv ölkələr, MDB ölkələri üzrə mütəxəssislər, təhsildə keyfiyyətin qiymətləndirilməsi ilə məşğul olan müxtəlif beynəlxalq təşkilat və agentliklərin nümayəndələri iştirak ediblər.

♦ 24 oktyabrda inzibati vəzifələrin B növünə aid olan vəzifə qrupları üzrə dövlət qulluğuna qəbul olmaq üçün həmin gün keçirilən test imtahanının nəticələri elan olunub. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş 1595 namizəddən 47 nəfər imtahana gəlməyib. 617 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ 25 oktyabrda "Dövlət idarəçiliyində gender bərabərliyi: mövcud vəziyyət və çağırışlar" mövzusunda təlim keçirilib.

♦ 25 oktyabrda Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının iclasları keçirilib. İclasların gündəlik məsələsi hər iki fənn üzrə ümumi (9 illik) orta təhsil bazasında buraxılış imtahanları üçün proqramların müzakirəsi olub.

♦ 26 oktyabrda 7 dövlət orqanında inzibati vəzifələrin 4-7-ci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulması üzrə ümumi müsahibə elanı verilib. Mərkəzi icra hakimiyyəti orqanı və məhkəmə hakimiyyəti orqanlarında olmaqla elana çıxarılan vəzifələrin 38-i dövlət qulluğu vəzifələrinin A növünə (inzibati rəhbər) və 20-si B növü vəzifələrə (inzibati icraçı) aid olub.

♦ 26 oktyabrda kimya fənni üzrə işçi qrupunun iclası keçirilib. İclasın gündəlik məsələsi kimya fənnindən I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanları üçün proqramların müzakirəsi olub.

♦ 26 oktyabrda dövlət qulluğunda daxili müsahibələrin yeni qaydalara əsasən təşkili mövzusunda onlayn təlim keçirilib. Görüşdə 30 sentyabr tarixli daxili müsahibə elanına vakansiyalarını təqdim etmiş Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən nümayəndələr iştirak edib.

♦ 26 oktyabrda 30 sentyabr tarixində elan edilmiş daxili müsahibələrin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 12 dövlət orqanında mövcud olan 30 vakant vəzifə daxili müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə qeydiyyatdan keçmiş 66 namizəddən 60 namizədin müsahibədə iştirakına razılıq verilib.

♦ 26 oktyabrdan 1 dekabradək müxtəlif növ imtahanların məzmunu ilə bağlı materialların hazırlanması, ekspertizası və dərsliklərin monitorinqində ekspert kimi iştirak etmək istəyənlərin qeydiyyatı aparılıb.

♦ 27 oktyabrda Dövlət İmtahan Mərkəzi və ADA Universitetinin birgə təşkilatçılığı ilə "Dövlət Qulluğuna Qəbul üzrə Hazırlıq Proqramı" çərçivəsində "Dövlət qulluğuna dair qanunvericilik" mövzusunda təlim kursu təşkil edilib.

♦ 27 oktyabrda dövlət qulluğunda ehtiyat kadrlarla işin səmərəliliyinin və effektivliyinin artırılması məqsədilə Mərkəz tərəfindən xüsusi proqram təminatı "Ehtiyat Kadrların Elektron Sorğu Sistemi" təqdim olunub.

♦ 27 oktyabrda fizika və rus dili fənləri üzrə işçi qruplarının iclası keçirilib. Gündəlik məsələ biologiya fənnindən IV, tarix fənnindən isə II və III ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanları üçün proqramların müzakirəsi olub.

♦ 28 oktyabr Dövlət İmtahan Mərkəzində biologiya və tarix fənləri üzrə işçi qruplarının iclası keçirilib. Gündəlik məsələ biologiya fənnindən IV, tarix fənnindən isə II və III ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanları üçün proqramların müzakirəsi olub.

♦ 29 oktyabrda "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda təlim təşkil edilib. Təlimdə Təhsil Nazirliyi, Energetika Nazirliyi, Gəncə Kommersiya Məhkəməsi və Dövlət İmtahan Mərkəzinin əməkdaşları iştirak edib.

♦ 29 oktyabrda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının iclası keçirilib. Gündəlik məsələ coğrafiya fənnindən ali təhsil müəssisələrinə qəbul imtahanı üçün, riyaziyyat fənnindən isə buraxılış imtahanları üçün proqramların müzakirəsi olub.

♦ 27-29 oktyabr tarixlərində DİM-in Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov və aparat rəhbəri Vəfadar Misirov Astana Dövlət Qulluğu üzrə Regional Xabın Qazaxıstanın Nur-Sultan şəhərində keçirilən illik konfransında iştirak ediblər. Tədbir çərçivəsində Regional Xabın bu günə qədər əldə etdiyi nailiyyətləri, eləcə də gələcəkdə üzləşə biləcəyi problemləri müzakirə etmək məqsədilə Rəhbər Komitənin, Məsləhət Şurasının və Jurnalın Redaksiya Şurasının birgə iclası keçirilib.

♦ 1 noyabrda Azərbaycan dili, ingilis dili və fransız dili fənləri üzrə işçi qruplarının iclasları keçirilib. Gündəlik məsələlər ingilis dili və fransız dili fənləri üzrə buraxılış imtahanları üçün proqramların, Azərbaycan dili fənni üzrə buraxılış imtahanları modelinə uyğun tapşırıq nümunələrinin müzakirəsi olub.

♦ 2 noyabrda kimya fənni üzrə işçi qrupunun iclası keçirilib. İclasın gündəlik məsələsi kimya fənnindən I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə və hərbi liseyə qəbul imtahanları üçün proqramların müzakirəsi olub.

♦ 2 noyabrda DİM imtahanlarda iştirak etmiş zal nəzarətçilərinin fəaliyyətinin təhlili ilə bağlı araşdırmanı yekunlaşdırıb. 2021-ci ildə keçirilən imtahanlara nəzarətçi qismində cəlb edilməsi nəzərdə tutulan müəllimlərin sayı 16346 nəfərdən ibarət olub. İl ərzində keçirilən imtahanlara 13726 nəzarətçi 38983 dəfə, o cümlədən buraxılış imtahanlarına 10903 nəzarətçi 23951 dəfə, ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarının II mərhələsinə 5710 nəzarətçi 6743 dəfə, digər imtahanlara isə 3824 nəzarətçi 8289 dəfə cəlb edilib. Onlardan zal nəzarətçilərinin fəaliyyətinin qiymətləndirilməsinə dair araşdırmanın nəticələrinə əsasən, nümunəvi fəaliyyətinə görə 2170 zal nəzarətçisinə təşəkkür elan edilib. Köçürməyə və digər qayda pozuntularına yol verdiklərinə görə 141 və cəlb edildiyi imtahanlarda dəfələrlə heç bir üzrlü səbəb olmadan iştirak etməyən 133, ümumilikdə 274 nəzarətçi isə bazadan xaric edilib.

♦ 3 noyabrda fizika, rus dili (tədris dili), ərəb və fars dili fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 3 noyabrda 2022/2023-cü tədris ili üçün ali təsil müəssisələrinin bakalavriat səviyyəsi üzrə keçiriləcək xüsusi qabiliyyət imtahanlarına həsr edilmiş işçi qrupunun iclası keçirilib. İclasda təsviri sənət istiqamətinə aid ixtisaslar üzrə kadr hazırlığını həyata keçirən ali təsil müəssisələrinin mütəxəssisləri iştirak ediblər.

♦ 4 noyabrda biologiya və tarix fənləri üzrə işçi qruplarının iclası keçirilib. Gündəlik məsələ biologiya fənnindən IV ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanları üçün proqramın, tarix fənnindən isə II və III ixtisas qrupları üzrə qəbul imtahanı modelinə uyğun tapşırıq nümunələrinin müzakirəsi olub.

♦ 4 noyabrda Zəfər Günü münasibətilə Dövlət İmtahan Mərkəzinin və YAŞAT Fondunun birgə təşkilatçılığı və vətənin bütövlüyü uğrunda aparılmış 44 günlük müharibədə canlarından keçmiş şəhidlərin məktəbli övladlarının iştirakı ilə tədbir keçirilib. Tədbirdə DİM ilə YAŞAT Fondu arasında əməkdaşlığa dair Memorandum imzalanıb. İmzalanan memorandumun əsas məqsədi Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar şəhid olmuş şəxslərin ailələrinin üzvlərinə və qazilərə mənəvi dəstək vermək, onların təhsilinə, gələcək karyerasının planlaşdırılmasına və inkişafına əməli yardım göstərmək olub.

♦ 5 noyabrda hakim vəzifəsinə qəbul olmaq istəyən namizədlərlə test imtahanı keçirilib. İmtahanda iştirak üçün namizədliyi qeydə alınmış 170 nəfərdən 1 nəfər imtahana gəlməyib. İmtahanda iştirak edən 169 namizəddən 93 nəfər 60 və daha yüksək bal toplamaqla müsabiqə şərtini ödəyərək növbəti mərhələyə buraxılıb.

♦ 5 noyabrda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının iclası keçirilib. Gündəlik məsələlər coğrafiya fənnindən ali təhsil müəssisələrinə qəbul imtahanı, riyaziyyat fənnindən isə buraxılış imtahanları üçün proqramların müzakirəsi olub.

♦ Noyabrın 6-da TOEFL iBT imtahanı keçirilib. İmtahanda 19 nəfər iştirak edib.

♦ 7 noyabrda növbəti GRE: General Test imtahanı keçirilib. İmtahanda 18 nəfər iştirak edib.

♦ 10 noyabrda fizika, rus dili (tədris dili) və rus dili (xarici dil kimi) fənləri üzrə işçi qruplarının iclasları keçirilib. İclasların gündəlik məsələləri fizika fənni üzrə hərbi liseylərə qəbul imtahanı, rus dili (tədris dili) və rus dili (xarici dil kimi) fənlərindən isə buraxılış imtahanları modelinə uyğun tapşırıq nümunələrinin müzakirəsi olub.

♦ 10, 17 və 24 noyabr tarixlərində Cambridge Assessment Network (CAN) tərəfindən müasir test nəzəriyyəsinə (IRT) həsr olunmuş onlayn təlim təşkil edilib. Təlim testlərin keyfiyyətinin qiymətləndirilməsinin empirik üsullarına maraq göstərən qiymətləndirmə mütəxəssisləri, eləcə də test tərtibatı ilə maraqlananlar üçün nəzərdə tutulub.

♦ 11 noyabrda biologiya, tarix və fransız dili fənləri üzrə işçi qruplarının iclası keçirilib. Gündəlik məsələlər: biologiya fənnindən IV, tarix fənnindən II və III ixtisas qrupları üzrə qəbul, fransız dili fənnindən isə buraxılış imtahanları modelinə uyğun tapşırıq nümunələrinin müzakirəsi olub.

♦ 12 noyabrda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının iclası keçirilib. Gündəlik məsələlər hər iki fənn üzrə ali təhsil müəssisələrinə qəbul imtahanları, həmçinin riyaziyyat fənnindən hərbi liseylərə qəbul imtahanı üçün proqramların müzakirəsi olub.

♦ 12 noyabrda 2022/2023-cü tədris ili üçün ali təhsil müəssisələrinin bakalavriat, magistratura və orta ixtisas təhsili səviyyələri üzrə keçiriləcək xüsusi qabiliyyət imtahanlarına həsr edilmiş işçi qrupunun iclası keçirilib. İclasda teatr, kino və xoreoqrafiya sənəti istiqamətinə aid ixtisaslar üzrə kadr hazırlığını həyata keçirən Bakı Xoreoqrafiya Akademiyasının mütəxəssisləri iştirak edib.

♦ Noyabrın 13-də TOEFL iBT imtahanı keçirilib. İmtahanda 15 nəfər iştirak edib.

♦ 13 və 14 noyabrda buraxılış və qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə tapşırıqlarının hazırlanması və onların yoxlanılmasına dair hazırlıq kurslarının kimya, biologiya, fizika, tarix, coğrafiya, rus dili və ingilis dili fənlərindən növbəti məşğələləri keçirilib. Məşğələlərdə Bakı, Gəncə, Göyçay, Xaçmaz və Bərdə şəhərləri üzrə DİM-də elektron qeydiyyatdan keçmiş müəllimlər, metodistlər, ali təhsil müəssisələrinin pedaqoji profilli fakültələrinin sonuncu kurs tələbələri və magistrlər iştirak ediblər.

♦ 15-19 noyabr tarixlərində Şərq Tərəfdaşlığı Dövlət İdarəçilik Akademiyası Proqramı çərçivəsində "Şərq Tərəfdaşlığı ölkələrinin dövlət qulluğu sistemində insan resurslarının idarə edilməsinin gücləndirilməsi" adlı onlayn təlim həyata keçirilib. Təlimdə Azərbaycan, Gürcüstan, Ukrayna, Moldova, Belarus və Ermənistandan olan nümayəndələr iştirak ediblər. Təlimin əsas məqsədi dövlət qulluğunda insan resursları siyasəti üzrə Polşanın təcrübəsini paylaşmaq və iştirakçıları COVID-19 pandemiyası dövründə dövlət qulluğuna aid tapşırıqların icra üsulları ilə tanış etmək olub.

♦ 16 noyabrda kimya fənni üzrə işçi qrupunun iclası keçirilib. Gündəlik məsələ IV ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı modelinə uyğun tapşırıq nümunələrinin müzakirəsi olub.

♦ Noyabrın 16-dan 6 dekabradək 12 dövlət orqanında inzibati vəzifələrin 3-7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə daxili müsahibə elanı verilib.

♦ 16 noyabrda "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydası" mövzusunda onlayn təlim təşkil edilib. Təlimdə 67 dövlət qulluqçusu iştirak edib.

♦ 17 noyabrdan 19 dekabradək dövlət qulluğunda inzibati icraçı (B növü) vəzifələr üzrə müsabiqənin dekabrda keçiriləcək test imtahanında iştirak etmək üçün qeydiyyat elan edilib.

♦ 17 noyabrda fizika və rus dili fənləri üzrə işçi qruplarının iclası keçirilib. Gündəlik məsələ fizika fənni üzrə I və IV ixtisas qrupları üzrə, rus dili fənni üzrə isə III ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı modelinə uyğun tapşırıq nümunələrinin müzakirəsi olub.

♦ 18 noyabr biologiya və tarix fənləri üzrə işçi qruplarının iclası keçirilib. Gündəlik məsələ biologiya fənni üzrə IV ixtisas qrupu üzrə, tarix fənni üzrə isə II və III ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı modelinə uyğun tapşırıq nümunələrinin müzakirəsi olub.

♦ Noyabrın 19-dan dekabrın 10-dək "Nəzarətçilərin elektron qeydiyyatı" sistemi ilə işləyəcək əlaqələndiricilər üçün treninq keçirilib.

♦ 19 noyabrda 2022/2023-cü tədris ili üçün ali təsil müəssisələrinin bakalavriat və orta ixtisas təhsili səviyyələri üzrə keçiriləcək bədən tərbiyəsi və idman istiqamətinə aid xüsusi qabiliyyət imtahanlarına həsr edilmiş işçi qrupunun iclası keçirilib.

♦ 21 noyabrdan 9 dekabradək peşəkar mühasib sertifikatı imtahanının I mərhələsi üzrə imtahana qeydiyyat elan edilib.

♦ 21 noyabrda aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı almaq istəyən namizədlər üçün test imtahanının I mərhələsi keçirilib. İmtahanda 10 nəfər iştirak edib. Onlardan 4 nəfər 72 və daha yüksək bal toplayaraq imtahandan müvəffəqiyyət əldə edib.

♦ 21 noyabrda dövlət qulluğunda inzibati vəzifələrin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AB və AC qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahanda 50 namizəd iştirak edib. Ümumilikdə 25 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ 22 noyabrda Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının iclası keçirilib. Gündəlik məsələ Azərbaycan dili fənni üzrə qəbul imtahanları modelinə, ingilis dili fənni üzrə isə buraxılış imtahanları modelinə uyğun tapşırıq nümunələrinin müzakirəsi olub.

♦ 23 noyabrda "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda onlayn təlim təşkil edilib. Təlimdə Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları iştirak ediblər.

♦ 23 noyabrda Dövlət İmtahan Mərkəzi və Özbəkistan Respublikası Nazirlər Kabineti yanında Dövlət Test Mərkəzi arasında Anlaşma Memorandumu imzalanıb.

♦ 24 noyabrdan zal nəzarətçisi sertifikatı əldə etmək istəyən namizədlərlə müsahibə mərhələsinə başlanılıb. Müsahibələr DİM-in inzibati binasında və regional bölmə mərkəzlərində Mərkəzin məsul əməkdaşları tərəfindən aparılıb. Müsahibə zamanı namizədin psixoloji hazırlığı, ümumi dünyagörüşü, nitqi, və s. zəruri keyfiyyətləri yoxlanılıb.

♦ 24 noyabrda Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə "Yüksəliş" müsabiqəsinin qalibi ilə görüşüb. M.Abbaszadə intellektual və idarəçilik bacarıqları yüksək olan şəxslərin müəyyən edilməsində, eləcə də ölkəmizdə kadr ehtiyatı bankının formalaşmasında "Yüksəliş" müsabiqəsinin yaratdığı imkanları qeyd edib.

♦ 25 noyabrdan 16 dekabradək peşəkar mühasib sertifikatı imtahanının II mərhələsi üzrə qeydiyyat aparılıb.

♦ 26 noyabrdan "Dövlət qulluğunda gender bərabərliyi üzrə Kurikulum" adlı vəsait ictimaiyyətə təqdim edilib. Vəsait Dövlət İmtahan Mərkəzi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Bakı Dövlət Universitetinin əməkdaşlarından ibarət işçi qrup tərəfindən hazırlanıb.

♦ Noyabrın 26-da DİM Ədliyyə Nazirliyi ilə birlikdə ədliyyə orqanlarında işləmək istəyən namizədlər üçün test imtahanı keçirib. İmtahanda iştirak üçün namizədliyi qeydə alınmış 98 nəfərdən 3 nəfər imtahana gəlməyib. 55 və daha çox bal toplamış 46 namizəd müsabiqənin ikinci mərhələsinə – müsahibəyə buraxılıb.

♦ Noyabrın 26-da 2022/2023-cü tədris ili üçün ali təhsil müəssisələrinin bakalavriat səviyyəsi üzrə keçiriləcək xüsusi qabiliyyət imtahanlarına həsr edilmiş işçi qrupunun növbəti iclası keçirilib. İclasda təsviri sənət istiqamətinə aid ixtisaslar üzrə kadr hazırlığını həyata keçirən ali təsil müəssisələrinin mütəxəssisləri iştirak edib.

♦ 26 noyabrda coğrafiya və riyaziyyat fənləri üzrə işçi qruplarının iclası keçirilib. Gündəlik məsələlər hər iki fənn üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı modelinə uyğun tapşırıq nümunələrinin müzakirəsi olub.

♦ Noyabrın 27-də TOEFL iBT imtahanı keçirilib. İmtahanda 5 nəfər iştirak edib.

♦ 28 noyabrda MIT MicroMaster proqramında iştirak etmək istəyən namizədlər üçün test imtahanı keçirilib. İmtahanda iştirak etmək üçün 106 namizəd qeydiyyatdan keçib. Onlardan 42 nəfəri imtahana gəlməyib.

♦ 27 noyabrda Dövlət İmtahan Mərkəzində Rusiya Federasiyasının Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

♦ 28 noyabrda peşəkar mühasib sertifikatı almaq istəyən namizədlər üçün test imtahanının II mərhələsi keçirilib. İmtahan kağız daşıyıcılar vasitəsilə Bakıda 2 binada təşkil olunub. İmtahanın keçirilməsi üçün 2 ümumi imtahan rəhbəri, 4 imtahan rəhbəri, 31 nəzarətçi-müəllim, 4 buraxılış rejimi (mühafizə) əməkdaşı cəlb olunub.

♦ 28 noyabrda Dövlət Vergi Xidməti ilə birgə vergi orqanlarına işə qəbul olmaq istəyən namizədlər üçün test imtahanı keçirilib. İmtahanda iştirak etmək üçün 322 namizəd qeydiyyatdan keçib. Onlardan 4 namizəd imtahana gəlməyib. 9 namizəd 70 və daha yüksək bal toplamaqla müsabiqə şərtini ödəyərək ikinci mərhələyə - müsahibəyə buraxılıb.

♦ Noyabrın 29-dan dekabrın 9-dək ali təhsil müəssisələrinə qəbul imtahanlarının II mərhələsi üzrə sınaq imtahanına qeydiyyat aparılıb.

♦ 29 noyabrda Azərbaycan dili, ingilis dili, fransız dili və alman dili fənləri üzrə işçi qruplarının iclası keçirilib. Gündəlik məsələ buraxılış imtahanlarının məzmunu ilə bağlı materialların müzakirəsi olub.

♦ Noyabrın 29-dan dekabrın 13-dək DİM iddiaçıların xarici dil üzrə, həmçinin, əcnəbi və vətəndaşlığı olmayan iddiaçıların Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanında iştirak etmələri üçün qeydiyyatı aparılıb.

♦ 30 noyabrdan 16 dekabradək ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul olmaq istəyən bakalavrlar üçün sınaq imtahanına qeydiyyatı aparılıb.

♦ 30 noyabr kimya fənni üzrə işçi qrupunun iclası keçirilib. Gündəlik məsələ hərbi liseylərə qəbul imtahanı modelinə uyğun tapşırıq nümunələrinin müzakirəsi olub.

♦ 30 dekabrdan 16 dekabradək Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə yeni imtahan modelinə uyğun sınaq imtahanına qeydiyyat aparılıb.

♦ 1 dekabrda hakimliyə namizədlərlə yazılı imtahan keçirilib. Yazılı imtahanda test mərhələsindən 60 və daha artıq bal toplamış 93 namizəd iştirak edib.

♦ 2 dekabrda Peşəkar Mühasib Sertifikatı almaq istəyən namizədlər üçün 2021-ci il noyabrın 21-də keçirilən imtahanın I mərhələsinin nəticələri elan olunub. İmtahan Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə PMS, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə PMS, İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə – I, II səviyyə PMS-i almaq istəyən namizədlər üçün keçirilib. İmtahanda 380 nəfər iştirak edib.

♦ 3 dekabr DİM-in Nəsimi rayonu, Abdulvahab Salamzadə küçəsi, 28 ünvanında yerləşən inzibati binasında müvafiq sanitar-gigiyenik qaydalara uyğun GRE: General Test imtahanı təşkil olunub. İmtahanda 15 nəfər iştirak edib.

♦ 1-2 dekabrda, həmçinin 3-4 noyabrda DİM-in əməkdaşları imtahanların təhlükəsizliyinə həsr olunmuş beynəlxalq konfransda iştirak ediblər. Konfransda 80-dən artıq təşkilatın müvafiq sahə üzrə mütəxəssisləri iştirak ediblər. Builki tədbir konfransın Rəhbər komitəsi və ETS-in birgə təşkilatçılığı ilə keçirilib. Tədbirin tərəfdaşları siyahısında həmçinin Pearson VUE və Prometric kimi təşkilatlar da yer alıblar.

♦ 2 dekabrda Dövlət İmtahan Mərkəzi tərəfindən Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT/OECD) ilə birgə SIGMA (Rəhbərlik və idarəetmədə təkmilləşdirməyə dəstək) proqramı çərçivəsində hazırlanan "Daxili nəzarət sisteminin həyata keçirilməsi" üzrə pilot layihənin növbəti onlayn təlimi təşkil edilib.

♦ 2 və 3 dekabrda fənlər üzrə işçi qruplarının iclasları keçirilib. Gündəlik məsələ fənlər üzrə ali təhsil müəssisələrinə qəbul imtahanları modelinə uyğun tapşırıq nümunələrinin müzakirəsi olub.

♦ Dekabrın 4-də DİM-in Nəsimi rayonu, Həsən Əliyev küçəsi 299 ünvanında yerləşən inzibati binasında müvafiq sanitar-gigiyenik qaydalara uyğun SAT imtahanı təşkil olunub. İmtahanda ümumilikdə 55 nəfər iştirak edib.

♦ 6 dekabrda Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının iclası keçirilib. Gündəlik məsələ Azərbaycan dili fənni üzrə hərbi liseylərə qəbul imtahanları modelinə, ingilis dili fənni üzrə isə buraxılış imtahanlarının məzmununa uyğun materialların müzakirəsi olub.

♦ 7 dekabr da Azərbaycan Respublikasının bir sıra ali təhsil müəssisələrinin rektorlarının iştirakı ilə DİM və ali təhsil müəssisələri arasında qarşılıqlı əməkdaşlığa həsr olunmuş görüş keçirilib. Tədbirdə tərəflər arasında səmərəli əməkdaşlıq perspektivləri, qiymətləndirmə və qəbul sahəsində yeni mexanizm və alətlərin yaradılması kimi məsələlər də müzakirə edilib. Həmçinin DİM tərəfindən universitetlərlə birgə əməkdaşlıq sahələri üzrə hazırlanan təkliflər ali təhsil müəsissələrinin rəhbər şəxslərinə təqdim edilib.

♦ 7 dekabrda Qətərin paytaxtı Doha şəhərində Yaxın Şərq Dövlət Siyasəti və İdarəetmə Assosiasiyasının 10-cu konfransı çərçivəsində (AMEPPA) Dövlət Qulluğu üzrə Astana Regional Xabın (Xab) "Postsovet ölkələrdə idarəetmə: inkişaf və çağırışlar" mövzusunda onlayn panel sessiyası təşkil edilib. Panel sessiyanın əsas məqsədi postsovet ölkələrinin idarəetmə sistemində əldə etdiyi nailiyyətlərin təhlil edilməsi, üzləşdiyi çətinliklərin müəyyən edilməsi, həmçinin gələcək inkişaf üçün perspektivlərin dəyərləndirilməsi olub.

♦ 8 dekabrda 26 oktyabr 2021-ci il tarixində elan edilmiş ümumi müsahibələrin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 7 dövlət orqanında mövcud olan 58 vakant vəzifə ümumi müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə qeydiyyatdan keçmiş 159 namizəddən 135-nin müsahibədə iştirakına razılıq verilib.

♦ 8-19 dekabr tarixlərində Xarici İşlər Nazirliyində diplomatik xidmətə qəbul olmaq istəyən namizədlər üçün sınaq imtahanına qeydiyyat aparılıb.

♦ 7-8 dekabrda fənlər üzrə işçi qruplarının iclasları keçirilib. Müzakirələrdə tapşırıqların hər birinin fənn kurikulumuna görə hansı alt standartların tələblərinə uyğun bilik və bacarıqları yoxlamağa və qiymətləndirməyə imkan verməsi dəqiqləşdirilib. Kimya və fizika fənləri üzrə tapşırıqların rus dilinə tərcümə olunmuş variantları yoxlanılıb.

♦ 8 dekabrda noyabrın 28-də keçirilən imtahanın II mərhələsinin nəticələri elan olunub. İmtahanda 313 nəfər iştirak edib.

♦ 9 dekabrda biologiya və tarix fənləri üzrə işçi qruplarının iclası keçirilib. Müzakirələrdə tapşırıqların hər birinin fənn kurikulumuna görə hansı alt standartların tələblərinə uyğun bilik və bacarıqları yoxlamağa və qiymətləndirməyə imkan verməsi dəqiqləşdirilib, həmçinin tapşırıqların rus dilinə tərcümə olunmuş variantları yoxlanılıb.

♦ 10 dekabrda coğrafiya və riyaziyyat fənlərindən işçi qruplarının iclasları keçirilib. Gündəlik məsələ hər iki fənn üzrə ali təhsil müəssisələrinə qəbul imtahanlarının məzmunu ilə bağlı materialların müzakirəsi olub.

♦ Noyabrın 22-dən dekabrın 17-dək TYS (Türkcə Yetərlik İmtahanı) imtahanına qeydiyyat aparılıb.

♦ Dekabrın 10-da DİM-də ulu öndər, Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin vəfatının 18-ci ildönümü ilə bağlı anım tədbiri keçirilib. Anım mərasimində çıxış edən DİM-in Direktorlar Şurasının sədri M.Abbaszadə iştirakçılara ümummilli liderimizin çoxcəhətli fəaliyyətindən, Azərbaycan xalqına göstərdiyi xidmətlər içərisində onun təhsil və mütəxəssis hazırlığına göstərdiyi xüsusi diqqət və qayğıdan danışıb.

♦ 9-10 dekabr tarixlərində Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Bağça-Məktəb-Lisey Kompleksinin IV-XI sinif şagirdlərinin qiymətləndirilməsi üçün buraxılış və qəbul imtahanlarının əhatə etdiyi fənlər üzrə imtahanlar keçirilib. İmtahanlar Biləsuvar şəhərində kompleksin inzibati binasında təşkil olunub. İmtahanlarda ümumilikdə 445 şagird iştirak edib. İmtahan prosesinin idarə olunmasına DİM və Kompleksin əməkdaşları cəlb olunub. İmtahanlar 4-cü və 5-ci sinif şagirdləri üçün 1 mərhələdə, digər siniflər üzrə isə 2 mərhələdə keçirilib. Hər bir mərhələdə sualları cavablandırmaq üçün şagirdlərə 3 saat vaxt verilib.

♦ Dekabrın 11-də TOEFL iBT imtahanı keçirilib. İmtahan DİM-in Abdulvahab Salamzadə küçəsi, 28 ünvanında yerləşən inzibati binasında müvafiq sanitar-gigiyenik qaydalara uyğun təşkil olunub. İmtahanda 5 nəfər iştirak edib.

♦ 13 dekabrda 16 noyabr tarixində elan edilmiş daxili müsahibələrin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 12 dövlət orqanında mövcud olan 54 vakant vəzifə daxili müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə qeydiyyatdan keçmiş 131 namizəddən 130-nun müsahibədə iştirakına razılıq verilib.

♦ 14 dekabrdan 24 oktyabr və 21 noyabr tarixlərində dövlət qulluğuna qəbul üzrə keçirilən test imtahanlarından (B və A növü) müvəffəqiyyətlə keçən namizədlərin sertifikatlarının verilməsinə başlanılıb.

♦ 13-14 dekabr tarixlərində fənlər üzrə işçi qruplarının iclasları keçirilib. Azərbaycan dili, ingilis dili və kimya fənləri üzrə işçi qruplarının iclaslarında gündəlik məsələ onlayn sınaq imtahanı üçün tapşırıqların müzakirəsi olub.

♦ 14 dekabrdan DİM imtahan binalarında buraxılış rejimini aparan xanım əməkdaşların işə cəlb olunması məqsədilə namizədlərin elektron qeydiyyatına başlayıb.

♦ 15 dekabrda orta ixtisas təhsili səviyyəsi üzrə keçiriləcək bədən tərbiyəsi və idman istiqamətinə aid xüsusi qabiliyyət imtahanlarına həsr edilmiş işçi qrupun növbəti iclası keçirilib. İşçi qrupun üzvləri 2022-ci ildə bədən tərbiyəsi və idman istiqaməti üzrə keçiriləcək imtahanların daha təkmil formada təşkil olunması ilə bağlı təkliflərini irəli sürüb, mövcud stadionların vəziyyəti ilə bağlı müzakirələr aparıblar.

♦ 15 dekabrda DİM-də Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin Bakı nümayəndəliyinin rəhbər şəxsləri ilə görüş keçirilib.

♦ 15 dekabrda DİM tərəfindən keçirilən Biləsuvar Bağça-Məktəb-Lisey Kompleksinin IV-XI sinif şagirdlərinin monitorinq imtahanlarının nəticələri məlum olub. İmtahanlarda ümumilikdə 445 şagird iştirak edib.

♦ 15 dekabrda Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri M.Abbaszadə ABŞ-ın ölkəmizdəki səfirliyinin nümayəndələrini qəbul edib. Görüşdə həyata keçirilən ortaq layihələr və əməkdaşlıq perspektivləri müzakirə edilib. Görüşdə tərəflər arasında ABŞ səfirliyinin "English Language Specialist" proqramı çərçivəsində həyata keçirilən "Xarici dil (ingilis dili) üzrə fənn kurikulumu, dərslikləri və qiymətləndirmə alətlərinin təkmilləşdirilməsinə dəstək" layihəsinin hazırkı icrasına dair əldə olunmuş nəticələr, yeni tədqiqat yönümlü birgə layihələr, DİM-də keçirilən beynəlxalq imtahanlar və digər əməkdaşlıq perspektivləri müzakirə edilib.

♦ 15 dekabrda fizika və rus dili (tədris dili) fənləri üzrə işçi qruplarının iclası keçirilib. Rus dili (tədris dili) fənni üzrə işçi qrupun iclasında gündəlik məsələ onlayn sınaq imtahanı üçün tapşırıqların müzakirəsi olub. İclaslarda iştirakçılar tərəfindən müzakirə edilən məsələlərlə bağlı fikir bildirilib və təkliflər verilib.

♦ 16 dekabrda biologiya və tarix fənləri üzrə işçi qruplarının iclası keçirilib. Biologiya fənni üzrə işçi qrupun iclasında gündəlik məsələ 2021-ci ildə keçirilən IV ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanında istifadə edilmiş tapşırıqların təhlili olub. Tarix fənni üzrə işçi qrupun iclasında isə gündəlik məsələ "Qarabağ uğrunda Vətən müharibəsi (İkinci Qarabağ müharibəsi)" adlı elmi-metodik məqalənin müzakirəsi olub. Məqalənin ilk çapından sonrakı dövrdə baş vermiş mühüm məlumatlar yeni redaktədə nəzərə alınıb. İclasda iştirakçılar tərəfindən məqalə ilə bağlı bildirilən qeyd və təkliflər nəzərə alınıb.

♦ Dekabrın 18-də TOEFL iBT imtahanı keçirilib. İmtahanda 20 nəfər iştirak edib.

♦ 18 dekabrda Dövlət İmtahan Mərkəzi və "YAŞAT" Fondunun birgə təşkilatçılığı ilə vətənimizin ərazi bütövlüyü uğrunda aparılan müharibədə canlarından keçmiş şəhidlərimizin məktəbli övladlarının iştirakı ilə Bərdə və Naxçıvan şəhərlərində görüşlər keçirilib.

♦ 19 dekabrda Bakı və Naxçıvan şəhərlərində Dövlət İmtahan Mərkəzi tərəfindən doktorantura, dissertantura və adyunkturada təhsil alan və ya təhsilini bitirmiş iddiaçıların xarici dillər üzrə fəlsəfə doktoru imtahanları keçirilib. İmtahanların keçirilməsi üçün ümumilikdə 3 imtahan binası, 5 imtahan rəhbəri, 3 ümumi imtahan rəhbəri, 31 nəzarətçi-müəllim, 6 buraxılış rejimi əməkdaşı (mühafizə) ayrılıb.

♦ 19 dekabrda peşəkar mühasib sertifikatı imtahanının I mərhələsi (mühasibat uçotu üzrə) keçirilib. İmtahan kağız daşıyıcılar vasitəsilə Bakıda 1 binada təşkil olunub. İmtahanının keçirilməsi üçün 1 ümumi imtahan rəhbəri, 2 imtahan rəhbəri, 20 nəzarətçi-müəllim, 2 buraxılış rejimi (mühafizə) əməkdaşı cəlb olunub.

♦ Dekabrın 19-da respublikanın 15 şəhər və rayonunda ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsi üzrə sınaq imtahanları keçirilib.

♦ 19 dekabrda inzibati vəzifələrin B növünə aid olan vəzifə qrupları üzrə dövlət qulluğuna qəbul olmaq üçün həmin gün keçirilən test imtahanının nəticələri elan olunub. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş 1903 namizəddən 32 nəfər imtahana gəlməyib. 1 nəfər mobil telefon, 1 nəfər isə köməkçi vəsaitdən (konspekt) istifadəyə cəhd etdiyinə görə imtahandan xaric edilib və nəticələri ləğv olunub. İmtahanda 870 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ 16, 18 və 19 dekabr tarixlərində TOEFL iBT® Propell® praktik təlimi keçirilib və hər 3 sessiyada iştirak edən 110 iştirakçı sertifikatla təltif olunublar.

♦ Dekabrın 20-dən yanvarın 5-dək inzibati icraçı vəzifələrə aid olan vəzifə qrupları üzrə dövlət qulluğuna qəbul üçün dekabrın 19-da keçirilən test imtahanından müvəffəqiyyətlə keçən namizədlər sertifikat əldə etmək üçün qeydiyyatı aparılıb.

♦ 20 dekabrda Dövlət İmtahan Mərkəzi otk.az portalına şagird və abituriyentlər üçün əvvəllər istifadə olunmayan tapşırıqlardan ibarət yeni sınaq imtahanları yerləşdirib.

♦ 21 dekabrda ədəbiyyat, ingilis dili və kimya fənləri üzrə işçi qruplarının iclasları keçirilib. Hər üç fənn üzrə işçi qruplarının iclaslarında gündəlik məsələ onlayn sınaq imtahanı üçün tapşırıqların müzakirəsi olub.

♦ 22 dekabrda Azərbaycan Respublikasının bir sıra ali təhsil müəssisələrinin rektorlarının iştirakı ilə DİM və ali təhsil müəssisələri arasında əməkdaşlığa həsr olunmuş növbəti görüş keçirilib. DİM-də hazırlanıb quraşdırılmış və qəbul imtahanları ilə bağlı ölkə üzrə statistik məlumatları əks etdirən Azərbaycan Respublikasının elektron xəritəsi nümayiş etdirilib. Tədbirdə tərəflər arasında qarşılıqlı əməkdaşlıq imkanları, qiymətləndirmə sahəsində yeni mexanizm və alətlərin yaradılması kimi məsələlər də müzakirə edilib. Həmçinin, DİM tərəfindən ali təhsil müəssisələri ilə əməkdaşlıq sahələri üzrə hazırlanan təkliflər rektorlara təqdim edilib.

♦ 22 dekabrda fizika və rus dili (tədris dili) fənləri üzrə işçi qruplarının iclasları keçirilib.

♦ 22 dekabrda DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə 2021-ci ildə keçirilən imtahanlarda fərqlənmiş zal nəzarətçiləri və imtahan rəhbərləri ilə görüş keçirib. İmtahanlarda fərqlənmiş zal nəzarətçiləri və imtahan rəhbərləri fəxri fərman və hədiyyələrlə mükafatlandırılıb. Nümunəvi fəaliyyətinə görə 2170 nəzarətçi-müəllimə təşəkkür elan edilib, o cümlədən 28 zal nəzarətçisi, 6 imtahan rəhbəri fəxri fərmanla təltif edilib.

♦ 23 dekabrdan 12 yanvaradək Xarici İşlər Nazirliyində diplomatik xidmətə qəbul olunmaq istəyən namizədlər üçün keçiriləcək imtahana qeydiyyat aparılıb.

♦ 23 dekabrda "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda onlayn təlim təşkil edilib. Təlimdə Şirvan Apellyasiya Məhkəməsinin əməkdaşları iştirak ediblər.

♦ 25 dekabrda Dövlət İmtahan Mərkəzi və "YAŞAT" Fondunun birgə təşkilatçılığı ilə ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan müharibədə şəhid olmuş qəhrəmanlarımızın məktəbli övladlarının iştirakı ilə Gəncə, Tovuz və Şirvan şəhərlərində görüşlər keçirilib. Tədbir iştirakçılarına Dövlət İmtahan Mərkəzi tərəfindən nəşr olunan müxtəlif dərs vəsaitləri (ümumilikdə 689 ədəd) hədiyyə olunub. Həmçinin otk.az saytı vasitəsilə keçirilən sınaq imtahanlarına ödənişsiz kuponlar təqdim edilib.

♦ 25-26 dekabr tarixlərində Bakı və Naxçıvan şəhərlərində Dövlət İmtahan Mərkəzi tərəfindən dil bilikləri üzrə Ümumavropa çərçivə sənədinin (CEFR) tələblərinə uyğun olaraq ilk dəfə doktorantura, dissertantura və adyunkturada təhsil alan və ya təhsilini bitirmiş iddiaçıların xarici dillər, habelə əcnəbi vətandaşların Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanının danışıq bloku üzrə imtahanı keçirilib. Danışıq bloku üzrə imtahana buraxılmış 294 iddiaçıdan 284-ü imtahanda iştirak edib.

♦ 26 dekabrda Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə, III ixtisas qrupu üzrə həm DT, həm də TC altqrupları üzrə imtahan vermək istəyən abituriyentlər üçün coğrafiya fənni üzrə, həmçinin ali təhsil müəssisələrinin magistraturalarına qəbul imtahanına hazırlaşanlar bakalavrlar və XİN-də diplomatik xidmətə qəbul olmaq istəyən namizədlər üçün sınaq imtahanları keçirilib.

